## Özündəki Mütləqlə Səhər Görüşü

Məndə Məndən Yüksək olan Mütləq Məna!
Məndəki Qorxunu Məndən al!
Məndəki Həsədi Məndən al!
Məndəki Köləni Məndən al!
Məndəki Xəbisi Məndən al!
Məndəki Cahili Məndən al!
Məndəki Vəhşini Məndən al!
Məndəki Hərisi Məndən al!
Məndəki Zalımı Məndən al!
Məni Özümə çatdır!

Nisbi Cəsarəti Məndən al!
Nisbi Heyrəti Məndən al!
Nisbi Vüqarı Məndən al!
Nisbi Saflığı Məndən al!
Nisbi Doğruluğu Məndən al!
Nisbi İnsaniliyi Məndən al!
Nisbi Ləyaqəti Məndən al!
Nisbi Mərhəməti Məndən al!
Məni Özümə çatdır!

Nisbi İnamı Məndən al!
Nisbi İdrakı Məndən al!
Nisbi Mənəviyyatı Məndən al!
Nisbi İradəni Məndən al!
Məni Özümə çatdır!
Mütləqə tapınım – Nisbiyə tapınmayım!
Həqiqətə tapınım – Yalana tapınmayım!
Vicdana tapınım – Zora tapınmayım!
İnsana tapınım – Zamana tapınmayım!
Özümə çatım!

# Soylu Atalı



# Sözün Doğrusu

**Çapa hazırlayan: Nurtəkin Atalı**

**Bilgisayar işi: Göytəkin, Nurtəkin Atalılar**

**Soylu Atalı.**
**Sözün Doğrusu (Ruhsal fəlsəfə açısından araşdırmalar, ələşdirmələr, çağırışlar). Atakənd-44. (Bakı, Elm və təhsil-2022, 358 səh.).**

**Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağının Yükümlüsü, ruhaniyyat yönündən araşdırmaçı filosof, ünlü publisist Soylu Atalı "Sözün Doğrusu" adlı 9-cu kitabını oxucuların baxışına sunur. Onun özünəxas dəyişməz üslubu bu kitabda da qorunub saxlanmışdır. Kitab dörd bölümdən, iki əkləmədən (əlavədən) oluşubdur. Asif Atanı öyrənmək, milli kimliyi tanımaq, həyata aydın baxmaq açısından bu bölümlər olduqca önəmlidir.**

## Ön söz

Ürəyində Günəş olsun, sayğılı oxucu!

Dünyanın əyildiyi, insani münasibətlərin pozulduğu bir çağda hər kəs Allahdan ümid gözləyir. Ancaq bizim ümidimiz insanadır. Çünkü Allah insanda var olur. İnsanın Allahı var etməsi – mənəviyyata yüksəlməsidir. Başqa sözlə, Allah anlamı insanda mənəviyyat ölçüsüdür. İnsan bu ölçünü itirəndə heyvana enir, həyatı heyvani gedişlərlə doldurur. Ona görə hər şeyin qarışıq-dolaşıq düşdüyü bir çağda İnsanlığın Bayrağını başımız üzərinə qaldırıb onun harayını çəkirik. Çünkü ümid insanadır. Hər şey insanla bağlıdır: əyən də odur, düzəldən də; dağıdan da odur, quran da; yıxan da odur, qaldıran da...

Gərəksiz informasiya bolluğunda, kitabların oxunmadığı bir çağda biz kitab yazırıq. Çünkü çağdaş texnologiyaların gəlişməsindən doğan informasiya bolluğu İnsanlığın həqiqətlərini əvəz edə bilməz. İnsan texnologiyaların doğurduğu bilgilərlə zənginliyə yetər, üstünlüyə yetməz. Üstünlüyü İnsanlığın, ruhaniyyatın kitabları öyrədir. Bizim də bütün çabalarımız bu kitabları işləməyə, ortaya gətirməyə yönəlib. Biz İnsanlığa inandığımız üçün, İnsanlığın kitablarının oxunacağına, yararlanılacağına da inanırıq.

Sayğılı oxucu, oxu, bizə yardımçı ol. Ürəyin qüvvətli, gözlərin işıqlı olsun.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

# Birinci Bölüm

**(Asif Atanın fəlsəfəsinə, ruhaniyyatına, ömür yoluna yönəlik baxışlar)**

## Mütləqə İnam gərəkliyi

Ürəyinizdə Ata Günəşi olsun!

Atanın Günəşi İnsanlıqdan doğur, İnsanı doğurur, doğruldur. Ata Günəşinin İşığı bütün qaranlıqları yarmaq, bütün məchulları aydınlatmaq üçündür. Bəşəriyyətin min illərdir azadlıq, qurtuluş axtarışları Asif Atanın – İnam Atanın gəlişi ilə həqiqətə yetdi. Bu həqiqəti öyrənmək bəşər övladının İnsanlaşma görəvidir, boynunun borcudur.

İnsan niyə doğulur – Dünyaya göz açıb kor baxmaq üçünmü?! Dünyanın sonsuzluq hikmətini dərk eləmədən həşərata çevrilmək üçünmü?! Atalı, analı, qardaşlı, bacılı, dostlu, sevdalı dünyasını İnsaniləşən dünyaya çevirməyib, onlara qarşı həyat uğrunda mübarizə aparmaq üçünmü?!

Bu çağa kimi hər bir dini, fəlsəfi, siyasi "izm"lər sözünü dedi, zəhmət çəkdi, insanı çağırdı, yönləndirdi. Asif Ata bunların hər birinin əməyini qiymətləndirdi, təqdir elədi. Ancaq həm də qınadı, danladı, dışladı. Çünkü insan nisbi azadlığa qovuşdu, nisbi qurtuluş əldə elədi. Özünün kimliyini bütöv şəkildə aşkara çıxara bilmədi, xəlqi yönünü, tarixi aqibətini bəlirləyə bilmədi.

İndi söz Asif Atanındır, yönləndirmək haqqı onun yanındadır. O, İnsanlığın sorunlarını, qurtuluşun sirlərini daha aydın anladır. İnsanı sabaha götürən İşıqlı yol yaradır. Bu Yolda yürümək yeni sivilizasiya, yeni tarix, yeni Gələcək başlamaqdır. İnam Atanın İnam Yolu – əzab Yoludur – Gerçəklikdən artıq yaşamaq, özümləşmək – özünü kamilləşdirmək, Dünyanı əzəli, əbədi saymaq, Dünyanın Mənasına qovuşmaq, İmtinaçılıq tələbindən usanmamaq. Bir sözlə, sözün mütləqilik ölçüsündə İnsanlaşmaq Yolu!

Din baxışlarından fərqli olaraq, İnam İnsana vədlər vermir, olmağa, qurulmağa, yaratmağa çağırır. Bu çağırışın arxasında İnsana İnam ləyaqəti durur. Asif Ata İnsana belə bir öygü sərgiləyir: İnsan özündə Mütləq gəzdirən, gerçəklikdən, ortamdan, gedişlərdən üstün olan, Mütləqiliyə meyil eləyən, Mütləqləşməyə qadir olan ruhsal varlıqdır. İnsanı "yaradıcısı"nın qulu sayan, toplumsal (ictimai) münasibətlərin məcmuyu adlandıran, insanın heyvandan törəmə olduğunu bildirən doktrinlər Asif Atanın insana verdiyi qiymətin

qarşısında çox sönükdürlər. İnsana mahiyyətindən aşağı dəyər verməklə, söz yox, mütləq azadlıq yetirilə bilməzdi. Bu doktrinlər insanı öz yaratdıqlarının içində itirdilər. Fəlsəfə axtarışlarında insanı, bəlirsiz bir varlıq olaraq, ikinci planda gördü. İnsanın əməlinin fəlsəfəsi yazıldı, İnsanlığın fəlsəfəsi yazılmadı. İnsan ən çox qınanıldı, döyüldü, söyüldü, sevilmədi, öyülmədi. Ayrı-ayrı fərdlərin əməyi, əməli alqışlanmaqla insan aldadıldı. Fəlsəfi idrakın işi sanki insanın ziddiyyətli, düzəlməsi mümkün olmayan bir varlıq olduğunu sübut eləmək oldu. İdeallar insan varlığından uzaqda axtarıldı. Fəlsəfənin iki qolundan biri sayılan Materializm insanı işlək heyvan kimi xatakterizə elədi. Ona əməyi qarşılığında, xoşbəxtlik əldə edəcəyini vəd elədi. İnsanı, ən yaxşı halda, maddi nemətlər istehsalçısı kimi dəyərləndirdi.

Fəlsəfənin başqa bir qolu sayılan idealizm isə insanın şüuruna hökm edən, onun yaşamını yönətən "ideyalar Allahı" yaratdı. Bununla da, insanın azadlıq meylini təfəkkürün məhsulundan asılı duruma salaraq qəlib yaratdı.

Bir sözlə, insanın yaratdığı bütün "izm"ləri öyrəndilər, bu "izm"lərin fəlsəfəsini yaratdılar, ancaq insanın kimliyi bilinmədi. Heç bir fəlsəfi axtarışlarda insan dərk olunmadı. Özünüdərk, dünyanıdərk sorunu ortadan qalxmadı. İnsan yaratdığı "izm"lərin qaranlıqlarında qərq oldu. Özündən qıraqda yenilməz qüvvələr yaratdı. Yaratdığı qüvvələrin qarşısında özünü kiçiltdi, acizləşdirdi. Cılızlığından hürkdü, qorxdu, yaratdığı qüvvələrin onu, cılızlığına görə cəzalandıracağını özünə təlqin elədi. Xəyali qüvvələr hər şey olduğu dərəcədə insan özü heç şey oldu. Qüdrəti içində dərk etməyən insan həyatın gedişindən gileyli yaşadı. Özünün yaratdığı gedişin əyriliklərinin səbəbini də özündən qıraqda axtardı. Özüm-Qıraq qarşılaşdırılmasında özümlüyünü itirdi. Özgələşmə gedişinə yenildikcə sarsıldı. Yanlış axtarışların sonucunda varlığına faciəvilik yeridi. Bu onun yaşamında ruhsal varlıq olması anlamının sanki üstündən xətt çəkdi.

Bu gün də insanlarımız xalqı dirçəltmək üçün onun baxışını tarixə, keçmişə, özündən uzaqdakı, qıraqdakı faktlara, proseslərə yönəltməyə çalışırlar. Tarixdəki cahanşümul imperatorlarla öyünməyə çağırış – insanı tanımamağın, dərk etməməyin göstəricisidir. Tarixdə

xalqın böyük səltənətlər yaratmış olduğunu tez-tez dilə gətirməklə həyatın düzələcəyini düşünmək – özgələşmə faciəsinin nədənlərini dərk eləməməkdən doğur...

İnsan təbəqələşir, varlıya, yoxsula bölünür. Nədənini insanın özünəyadlaşmasında görə bilmirlər. İnsan maddi nemətlər uğrunda mübarizə aparır, öz növündən olanlarla döyüşür. Bunun qurtuluş olmadığını, əsarət olduğuu anlamırlar, özünü dərk etməyən insanın bu mübarizələri yerdəyişmələr hazırlamaqdan uzağa getmir. Varlını devirib özü varlanmaq, kapitalisti devirib özü kapitalistləşmək uğrunda savaşır. Eybəcərlik ortadan qalxmır, yenilənir, ya da başqa bir biçimdə təkrarlanır.

İnsan öz içi ilə uğraşmadığına görə aldana-aldana gedir. İçindəki yalanı döyməyən qıraqdakı yalanı ötə bilməz. Yalanı yalanla tutuşduranda qıraqdakı yalan içindəkindən inandırıcı görünür, güclü bilinir, doğruya oxşayar. Qıraqdakı yalanı içindəki doğru ilə tutuşduranda yalan sönük görünür. İçindəki işığın qarşısında qıraqdan gələn yalanın qaranlığı çəkiciliyini itirər, rədd edilər.

Yuxarıda vurğuladıq, Asif Atanın fəlsəfəsinə görə İnsan özündə Mütləq gəzdirir. O, üzünü Mütləqə tutmalı, onun tələbiylə böyüməliydi. Özünün mənasına layiq dünyasını yaratmalıydı. Atalı, analı, dostlu, sevdalı dünyasını yenidən qurmalı, atalığın, analığın, dostluğun, sevginin məzmununu özünə qaytarmalı, zənginləşdirməli, əsilləşdirməliydi. Yaratdığı yeni insani dünyada insanlığın bütün sirlərini kəşf etməli, gözəllikləri ömrünə gətirib insana inam məbədi ucaltmalıydı. Asif Ata dünyanı müqəddəsləşdirmək gərəkdiyini söyləyir. Çünkü dünyada analıq ülviyyəti var. İnsan dünyaya gəldiyində ananın qucağına sığınır, ana onun üçün dünyanın əvəzi olduğunu deyir. Böyüdükcə bütün gözəllikləri dünyada kəşf edir. Ancaq dünyada gözəlliklərlə yanaşı naqislikləri də görür. Bu qarışıqlıqlardan çaşır. Yaşamını ruhaniləşdirmək yolunu tapa bilmir.

İnsanı sonsuzluğun sirləri ilə görüşdürmək üçün din ortaya çıxdı. Dünya ilə insanın bağlılıqlarını, münasibətlərini bəlirləmək gərək idi. Ancaq din insanı dünyadan ayırıb dünyaüstü qüvvələrə yönləndirdi. Dünyanı fani elən elədi. Bununla da insanın içində özgələşmə uçurumu ortadan qalxmadı, daha da dərinləşdi. İnsan özünü yadlıqlardan

qorumaq üçün yalana, oyuna, saxtakarlıqlara baş vurdu. Dünyanın gedişinin, nizamının insanın içindəki uçurumdan pozulduğunu unutdular. Axı insan anada dünyanın gözəlliklərini görmüş, ana ilə dünyanın vəhdətini anlamağa başlamışdı. Dünyanı anadan ayırmaq, analığı Allahın ağalığına tabe eləmək olmazdı. İnsan üçün dünya bütün gözəllikləri, məzmunu ilə anada təcəlla etmişdi. Onu bu vəhdətdən məhrum eləmək xəyanət idi. İnsan ana vasitəsilə əsil dünyanı anlamağa, onu yenidən yaratmağa qadir idi. Onu bu qadirliyindən uzaqlaşdırmaq olmazdı. İnsana inanılmadı, ona görə insanüstü qüvvə icad olundu. Bu qüvvəyə inamı böyütdükcə insan kiçildi, dünya ilə insanın əlaqəsi pozuldu. İnsanın özünə inamı ortadan qalxdığı kimi, dünyaya inamı da ortadan qalxdı. "Kamil insan" ideyası şüurlardan silindi, kamilləşmək – mütiləşməyə bərabər tutuldu. "Günahkar insan" ideyası düşüncələrə hakim olduğundan insanın mənəvi, idraki qüdrətinin aşkarlanmasına şübhə düşüncələrdə özünə yer elədi. İnsanın Mütləqə bərabər yaşaması, yaşaya biləcəyi ağıla sığmadı. İnsanın ən böyük özünü təsdiqi özündən üstün qüvvənin qarşısında günahını yumaq gərəkdiyi elan olundu. Özü də bu günahı təmizləmək – özünün ruhani qüdrətini ortaya qoyması üçün deyil, "üstün qüvvə"dən ödül alması üçündür. İnsan günahını təmizləsə belə, yazıqlıqdan çıxmır. Onun azadlığı, divin canı şüşədə olduğu kimi, başqa qüvvənin əlində olur.

İnsana belə yanaşmaq kamilləşmənin yolunu kəsmək, onun mənəvi gözəlliklərə yetməsinə inamı şübhə altına almaqdır. İnsanın kamilləşmə istəyi özündən asılı olmur, "üstün qüvvə"dən asılı olur. "Üstün Qüvvə" istəməsə, insanın ömrü kamillik ucalığında qərar tapa bilməz.

İnsan kamilləşməyəndə təbiəti təkrar edir – parçalamaq, dağıtmaq, məhv etmək təbiətdəki başqa canlıların xassəsidir. İnsana inamsızlıq – onu bu xassələri yaşatmaq durumuna endirir. İnsanı "üstün qüvvə" ilə qorxutmaq deyil, özü ilə üz-üzə qoymaq gərək idi. İnsan öz mahiyyətini dərk eləmədən yırtıcı xassələrdən ayrıla bilməz. Təbiətlə yarışmaq – qəddarlaşmaq, azğınlaşmaq yerinə özüylə barışmamaq, özüylə döyüşmək – mənəvi kamilliyə qovuşmaq tələbi qoyulmalıdır İnsanın qarşısında. Din insanı vəhşilikdən ayrılmağa

çağırır, ancaq bunu "üstün qüvvə"nin qarşısında mütiləşməsi tələbi ilə oluşdurur. Mütiləşən insan vəhşilikdən tam ayrıla bilmir, içində qoruyur, yaşadır. Gərəkəndə vəhşilik yenidən baş qaldırır.

Allahın insan üzərində hakimiyyəti – insan duyğularında yaşayan hakimiyyətsevərlik, mənəmlik, qorxutmaq kimi meyillərdən yarandı. Öz növündən olanın öz üzərindəki hakimiyyəti ilə barışmayan insan özündən qıraqda yaşayan hakimiyyət gərəksizliyini yaşatmalı oldu. İnsanın Allahda gördükləri, görmək istədikləri nə varsa, zaman-zaman özünə qayıdır, gerçək həyatda onu davam edir.

Kamil insan istər gerçəklikdə, istər xəyali varlıqlarda hakimiyyətçilik ehtirasının yaşayıb ona hökm etməsini rədd edir.

Mənəviyyata yeriyən, ona hakim olmağa çalışan hər cür eybəcərliyi qovmaq üçün ruhun imkanlarına inanmaq, bu qüdrətin gerçəkləşə biləcəyini dərk etmək gərəkdir. Əsil dünya – bu inamda, bu dərketmədə yaranır. Dərisi soyulanlar, yandırılanlar, edam olunanlar əsil dünyanı tanıtmaq üçün canlarından keçdilər, gerçəkliyin Mənadan aşağı olduğunu, Mənanı ömrə, əmələ gətirməyin mümkünlüyünü sübut elədilər. Əsil dünyanı tanıtmaqla – dünyanı insaniləşdirmək səbəbi verdilər. Qəhrəmanlığı, özündənkeçməni, həqiqəti yaşatdılar – əsil dünyanı tanımaq, anlamaq yolunun tükənmədiyini sübut elədilər. Asif Ata İnsanı dananları, onun mənəvi qüdrətinə inanmayanları rədd edir. Dünyaya qovuşmağa can atanların, özündənkeçənlərin ləyaqətini tanıdır, bunu insana inam ölçüsünün xəmirinə qatır, müqəddəs nemət kimi yaşama qaytarır. Ata deyir, ən gözəl nemət İnsanlaşma gərəyidir. Şərin vəd elədiyi şirin nemətləri öləri saymaq, ondan imtina etmək gərəkdir.

İnsanın içində hökm edən, qalib görkəmi yaradan şər duyğulardan eybəcər olaylar, əməllər törəyib dünyanın əyilməsinə nədən olur. İnsan bundan imtina etməlidir.

Heyvani güc gerçəklikdə yıxır, məhv edir, ancaq insanın mahiyyətinə hökm edə bilmir. İnsanın içində – dərinlikdə yaşayan Xeyirə sonsuz ehtiyacları aradan qaldıra bilmir. Bu ehtiyaclar insanı əbədi gözəlliklər uğrunda döyüşə səsləyir.

İnsan təbiətin ona verdiyi ilə yetərlənmir, barışmır, içindəki Mütləqin səsini eşidir, ona bənzəməyə can atır. İnsanın Mütləqə

canatma meylini, Hürufilərin diliylə desək, Allahlığını dilə gətirməsini küfr saymaq, buna əngəl olmaq günahdır. İnsan Allahı içində görməsə, nədən bilərdi Allah var?! Ya da belə deyək, Allah gözə görünmür, bəs peyğəmbərlər nədən bildilər Allah var?! – Çünkü onlar Allahı öz ürəklərində, idraklarında gördülər, duydular. Deməli, insanın varlığı – özündə Allah (əslində Mütləq) gəzdirməklə dəyərlidir. Deməli, insan heyvandan özündə gəzdirdiyi Mütləqi görməsi, dərk etməsi ilə ayrılır. Bunu təsdiq eləmirsə, heç bir dinin, fəlsəfənin, ideyanın, qalaq-qalaq kitabların önəmi, gərəyi yoxdur. Allahı (əslində Mütləqi) insandan ayırıb uzaqlaşdırmaq – İnsanı da, Dünyanı da Mənasızlaşdırmaq deməkdir. İnsan Mütləqi ürəyində görməyəndə gücsüzləşir, içinə şər hökm edir. Bəs insan şərlə necə döyüşməlidir, günahlardan, naqisliklərdən necə arınmalıdır?! Özüylədöyüş o vaxt başlayır ki, insan özünü Allahla (əslində Mütləqlə) tutuşdurur, özüylə barışmır, Mütləqdən aşağı olduğunu dərk edir. Necə varsa az sayır, Mütləqə bənzəməyə çalışır. İnsanın özündən yüksəyə can atmaq meylini Allaha qarşı təkəbbür adlandırmaq küfrdür, kafirlikdir. Allah (əslində Mütləq) Dünyanın içində, özündədir. Mütləq – Dünyanın yaradıcısı deyil, Mənasıdır. Məna yaratmır, törəmir, təzahür edir, görsənişə gəlir.

İnsan Mütləqə can atmırsa, ya da Dünyada Mütləq yoxdursa, onda dünyada ədalət, həqiqət heç zaman bərqərar olmayacaq. Onda ədalət uğrunda mübarizə aparmaq avantüradan başqa bir şey deyil. Əgər mübarizənin mütləq sonucu olmayacaqsa, nisbi gedişlərlə yetərləniləcəksə, onda qəhrəmanlıq anlamsız, gərəksiz bir şeydir. Nisbiliklərdən fanilik, heçlik törəyir, doluluq, doğruluq törəmir.

Din Dünyanı Mütləqdən ayırdı, nisbiləşdirdi. Dünyanı oyuncaq kimi qurulan ötəri bir şey olaraq qələmə verdi.

İnam Dünyanın içsəl qüdrətini aşkarladı, onu Mütləqlə vəhdətdə götürdü. Dünyanı əzəli, əbədi saydı. Dünyanı dünyadakıların cəminə bərabər tutmadı.

Din insanda olanları azaltdı, onu idealdan uzaqlaşdırdı, ölümlü gedişlərə, suça, günaha bərabər tutdu.

İnam insanda ölməz keyfiyyətlər aşkarladı, ona inandı.

Din insanı Mütləqdən ayırdığı üçün onun dünyanı dəyişəcəyini mümkünsüz saydı. Dünyanı dəyişməyi Allahın (əslində Mütləqin) işinə qarışmaq kimi dəyərləndirib günah saydı.

İnam insandakı Mütləqi gördü, insanın yaşamı üçün onu ölçüyə çevirdi.

Din həyatdakı şəri gördü, ancaq insanı Xeyirin qələbəsinə inandıra bilmədi. Ona görə də "O dünya" adlanan şərsiz həyat vəd elədi. Şərsiz həyat ideal axtarışı olsa da, gerçəkləşməsi olumsuz yalan etkisi doğurdu. Din ideal axtarışında əxlaqa ziyan verdi. Çünkü hüri-pəri nəşəsində mənəvi qüdrət təsdiq olunmur.

İnam – yüksək (ali) həyatın (şərsiz yaşamın) insanın içində yarandığına inandırır. Yüksək həyat – mənəvi kamilliyin təsdiqi kimi özünü göstərir.

Z.Freyddə mənəviyyat libidonun hesabına yaranır. Mənəviyyatın yaranması insanın azadlığını sıxışdırır. Freyd üçün azadlıq – heyvani istəklərin maneəsiz ödənilməsi deməkdir.

Asif Ataya görə mənəviyyat – libido ehtirasının, içsəl zəifliklərin üzərində qələbə çalanda yaranır.

F.Nitşenin "üstün insan"ı (fövqəl insanı) özündə heyvani gücü aşkarlayan, fiziki zəiflikləri aşan insandır. Nitşe üçün mənəviyyat, əxlaq, mədəniyyət güclü insanın yoluna çəkilmiş səddir, buxovdur.

Asif Atada insanüstü güc, qüvvə, varlıq rədd edilir. İnsandan daha üstün nəyinsə varlığına inam sərgiləmək heyvanlığın təntənəsi kimi qiymətləndirilir.

Asif Atanın Mütləqə İnamı insandan qıraqda yaranan hər cür baxışın, inamın şübhə olduğunu, yalan olduğunu sübut edir.

Yuxarıda vurğuladıq ki, din həyatda günahın qaçılmazlığını görür, ancaq vəd elədiyi ideal həyat yeni günahlarla şüura yeriyir: zəhmətsizlikdən günahsızlıq yaradır; kefdən, əyləncədən günahsızlıq yaradır; şəhvani sərbəstlikdən günahsızlıq yaradır; doğuluşu ortadan qaldırıb günahsızlıq yaradır; ətalətdən, birrənglilikdən əbədilik icad edib günahsızlıq yaradır; həyatı mənasızlaşdırıb günahsızlıq yaradır. Söz yox, həyat ikilidir, davamlı dualizmdir. Bəşər övladı yaşamda bu dualizmdən çıxa bilmir.

Zərdüştlükdə insan dualizmdən qurtara bilmir, çünkü insan özüylə döyüşmür. Onun yerinə Hörmüz döyüşür.

İslamda insan o dünyada diriləndən, cənnətə düşəndən sonra dualizmdən çıxa bilir.

Buddada həyat ləğv olunandan sonra dualizm başa çatır.

Mütləqə İnamda insan özüylə döyüşür, həyatı böyüdüb (əslində öz üzərində qələbə çalıb) Mənasına – ali həyata yüksəldir. Bundan sonra dualizm başa çatır...

Dində insan Allahı (əslində Mütləqi) dərk eləmir. Allahın keçici, ötəri əlamətlərini Onun (Allahın) əməli kimi dəyərləndirir. Din Allaha ötəri keyfiyyətlər verdiyinə görə, insan Allahı özünün ola bilmədiyi güclülük simgəsi kimi qavrayır. Bu güclülükdən həyata müqəddəslik yerimir. İnsanı özümlüyündən ayırmaq antimüqəddəslikdir.

İnsanda əzəli günah görmək, bu günahdan onun çıxa bilməsinə inanmamaq – dünyanı danmağa, fiziki anlamda başqa bir dünyanın olduğunu uydurmağa gətirib çıxartdı. İnsanı düzəltmək üçün onu aldatdılar. İnsan yalanın içinə girəndə daha böyük eybəcərliklər törəyir. Dinin uydurduğu "firavan dünya" ideyası həyatdakı heç bir eybəcərliyi ortadan qaldıra bilmədi. Çünkü eybəcərliyin üstünə, insandakı Mütləqi əvəz eləyən, insandan qıraqdakı xəyali qüvvələrlə getdi.

Mütləqin insandan qıraqda tutulması insanın içində boşluqlar yaratdı. İnsan içindəki, idrakındakı bu boşluqlarda həqiqət tapa bilmədi...

Həyatda heç nə mütləq deyil deyilir. Ona görə heç kim ürəyini sabaha kökləmir, bugünlə uğraşır. Bu isə ömrü ölümə kökləməkdir. Ürəkdə ali, gözəl nə olmalıdırsa, hamısını ölümün ayaqları altına sərməkdir.

Sabaha köklənən ömürdə bir-birindən zəngin gözəlliklər aşkarlanar.

İnsan yol ayrıcında qalanda onun ikinci yolu seçməsinə (yəni ömrünü sabaha kökləməsinə) yardımçı olmaq gərəkdir. Bunun üçün onun özü haqqında yanlış təsəvvürləri dəyişilməlidir. O, ömrünü ötəriylə, keçiciylə, öləriylə deyil, əzəli, əbədi ilə, ölməzliklə tutuşdurmalıdır. Dünyabaxışın insanın qarşısında başlıca görəvi bu olmalıdır.

İnsanın içsəl olanaqları Mütləqilik tələbiylə aşkarlananda dünya onun üçün mənalı olur. İnsanı əşyaya çevirib ona ən geniş zənginliklər verəndə belə, xoşbəxt olmur. Evi çölündən işıqlandırmaqla içindəki qaranlığı ortadan qaldırmaq olmaz. İnsanın yaşaması, azadlığı, xoşbəxtliyi içsəl olanaqlarını aşkarlamaqda, kamil mənəviyyat yaradıb həyata müqəddəslik gətirməsindədir.

Mütləqə İnam Dünyabaxışının yaratdığı, yaratmaq istədiyi həqiqət budur!

Sayğılı oxucu!

Biz sənin düşüncələrini, baxışını insanla bağlı ən dərin məsələlərə yönəltməyə çalışdıq. Yeni Dünyabaxışın baş kitabının söz açdığı məsələlərə.

İnsanın azadlığı, qurtuluşu, dünya ilə, həyatla, dövlətlə, mədəniyyətlə bağlı məsələlərin açılımı, yolları, həqiqətləri ən kamil şəkildə Mütləqə İnam Dünyabaxışının baş kitabında öyrədilir, sunulur. Bu kitabı biz əski türkcəmizdə "Qutsal Onluq"un Birinci Bitiyi adlandırırıq. Bitiq insandan danışır, insanı tanıdır, öyrədir, təmizləyir, yetkinləşdirir. Onu dünyanın gedişini dəyişəcək Qüdrətə yüksəldir. Onun üzərində hakim olan bütün əngəlləri taxtdan salır. İnsanı Göy ülviyyəti ilə birləşdirir. Oxu, düşün, öyrən, gözlərinə, ürəyinə sağlıq!

Ata Ruhu Sənə Yar olsun!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

## Var olmağın Mütləqilik ölçüsü

Ürəyində Günəş olsun, sayğılı oxucu. Asif Atanın sənə sunduğumuz bu Bitiyi onun özül prinsiplərinə aydınlıq gətirməklə yanaşı, düşüncələrdə yaranan anarxiyaları ortadan qaldırmağa yardımçı olur. Min illərdir insanın axtardığı Bütövlük, əslində Mütləq olan – Asif Atada yeni bir aşamaya keçir – hər cür fantaziyalardan arınır, dəyişikliklərə uğradılmaqdan (təhrif edilməkdən) qurtulur. Bəllidir ki, insanın öz yaşamında ən böyük problemi Dünyaya, Doğaya yanlış yanaşmalarından qaynaqlanır. Ona görə də Qurtuluş – Dünyanı tanımaqdan, dərk eləməkdən başlaya bilər. Bunun üçün Dünyaya

doğru qiymət vermək gərəkir. Ölçü (meyar) də Dünyaya doğru qiymət veriləndə sağlam olar. Sağlam ölçü həyatda insani sorunların ortadan qalxmasına yardımçı ola bilər. Bütün dini, fəlsəfi dünya-görüşlərin axtarışları bu sorunları çözmək yönündə olubdur. Ancaq heç bir sonuclarla insan yetərlənməyib. Belə də deyə bilərik, gərəkən sonuclar (nəticələr) doğrulanmayıb. Dünyanı dərk məsələsi problem olaraq qalıb, indi də qalmaqdadır. Bunun da başlıca nədəni "olum-qalım", başqa sözlə, "həyat-ölüm" məsələsinin insanın ağlın-da, düşüncəsində həllini tapmamasıdır. İnsan ölümlə barışmaq istəmir, o, öz varlığını harada, necə davam eləyəcəyinin yollarını axtarır, buna əsaslı aydınlıq gətirilməsini istəyir. Bunun ağılasığan bir məntiqini, cavabını tapa bilməyəndə isə fantastik umacaqlarla özünü ovundurmağa çalışır. Bunun başlıca nədəni, yuxarıda vurğuladığımız kimi, dünyanı dərk edə bilməməklə bağlıdır. Dini dünyagörüşlərə görə Dünyanın anlamı insanın fiziki mövcudluğunun intervalı ilə bağlıdır. Yəni hər bir insan üçün dünya onun mövcudluğunun başa çatması ilə bitir. Bir halda ki, insan bu dünyada əbədi deyil, demək dünya özü də əbədi deyil, fanidir, ölümlüdür. Bu dünya insanı əbədi yaşatmağa qadir deyilsə, başqa bir əbədiyyət dünyası mövcuddur – insan da ora can atmalıdır. İnsan – bu əbədiyyət nədir, necədir, hardadır sualına cavab axtarır, ya da cavab istəyir. Söz yox, dünyaya doğru yanaşmadığı üçün yanlış sonuca varır. Deməli, Həqiqət, Doğruluq bulunmursa, onu uydurmaq gərəkdir – hər halda, dinin ortaya qoyduğu baxış budur. Dünyada əbədiliyi görə bilmədiyi üçün, başqa bir əbədi dünya uydurur. Semit baxışlarına görə bu dünyanın adı Axirətdir. Söz yox, uydurulan Axirət dünyası yaşadığımız bu dünyadan fərqli, həm də üstün olmalıdır. Bəs bu fərq, üstünlük nədə özünü göstərir?! – İnsanın rahat yaşamasında. Bu rahatlıq – əməksiz, zəhmətsiz, istisiz, soyuqsuz, hər şeyin hazır əldə olunması ilə xarakterizə olunur. Bir sözlə, dində insan özümlüyünü axtarmır, özünə rahatlıq axtarır. Asif Atanın düşüncəsinə görə bu rahatlıq insana vəd olunanda insan özümlüyünü itirir. İnsan rahatlıqları özü yaradarsa, özümlüyünə yetər. Başqa sözlə, İnsan özünün insani mahiyyətinə yüksələrsə, haqsızlıq, ədalətsizlik, dava-dalaş, yaşamaq uğrunda heyvani mübarizə ortadan qalxar, insan rahat yaşayar.

Rahatlıq – insanın özümlüyünə yetməsi ilə yaranan bir ortam olmalıdır. Cənnət – insana vəd olunan "rahatlıq"dır. Əslində Özgəlikdir. Cənnət vədiylə insan özünə yadlaşdırılır, özgəliyə çağırılır – əslində baş tutmayacaq, doğrulmayacaq bir gələcək vəd edilir. İnsanın mənliyindən qıraqda uydurulan, insanın mənliyinə yeridilən bir Yalan aşılanır. İnsanın mənliyini aşağılayan, alçaldan bir Özgəlik gətirilir Ölçüyə.

Fəlsəfənin başlıca uğraşdığı məsələlərdən biri – "səbəb-nəticə" anlayışıdır (kateqoriyasıdır), Səbəb-nəticə ilişkilərinə aydınlıq gətirməkdir. Axtarışlara yönəlik Baxışlarda fərqlərin olması, qarşıdurmaların yaranması da elə səbəb-nəticə ilişkilərinə fərqli yanaşmalardan qaynaqlanır. Səbəb doğru bəlirlənmirsə, nəticə qaçılmaz olaraq yanlışa uğrayacaqdır. Dünya nədir, necədir, necə yaranıb, kim yaradıb?! Bu sualların cavabı ilə insanın dünyaya münasibəti formalaşır – əyri, ya doğru. Məsələn, dünya nədir sualına cavab tapandan sonra, bu "nə olan" dünayda "yaşamaq necə olmalıdır" nizamı oluşdurulur. Varlığın bütün çalarlarına yön verilir: sosial-siyasi quruluşun dayağı olan dövlət, birgə yaşayışın mənəvi qanunları, Doğaya, öz növündən olan başqa toplumlara münasibətin prinsipləri konseptuallaşır (həmin sualların əyri, ya doğru cavabından asılı olaraq). Bu açıdan deyirik, səbəb doğru dəyərləndirilməsə ("cavablar əyri olursa" – belə də deyə bilərik), insani münasibətlər uyumu zədə götürür, ortaya sağlam ölçü gətirmək olumsuz olur. İnsanın ölümsüzlük axtarışı fiziki varlığını qorumaqla məhdudlaşır. Bununla da mənəvi-ruhani varlıq olan insan bioloji-fiziki varlıq kimi dərk olunur. Bu dərk prosesində ruhani quruluş deyil, siyasi quruluşlar yaranıb bir-birini əvəz edir.

Dini baxışlara görə Dünya fanidir. O zaman fani dünyanın ədaləti də fanidir, həqiqəti də, qanunları da, insani münasibətləri də. Deməli, birgə yaşayışın ölçüləri də nisbi xarakter daşıyır. Ona görə din nə Quldarlıq quruluşu ilə döyüşə bildi, nə də o biri Quruluşlarla. Çünkü insanı kamilləşdirə bilmədi. Ancaq kamilləşdirə bilmədiyi insana ölümsüzlük vəd elədi. Bəzən bizdən soruşurlar: din insana ölümsüzlük vəd edir. Bu ölümsüzlüyün adı cənnətdir. Bəs siz (yəni Asif Atanın öyrətisi (təlimi)) insana nə vəd edirsiniz?! Deyirik, biz vəd

etmirik, ölümsüzlüyə çağırırıq. Bu ölümsüzlüyün adı İnsanlaşmadır. Dinin vəd elədiyi əslində ölümsüzlük deyil, "əbədi həyat"dır. Ölümsüzlük – mənəvi, ruhani anlayışdır, fiziki-cismani anlam kəsb eləmir. Dində "Əbədi həyat" – cismani mövcudluğun əbədi davam etməsidir. Bu da yalandır – Allah anlamını danan (inkar edən) yalandır. Dinə görə yalnız Allah əbədi olandır. Ancaq cənnət vədinə görə cismanilik özü əbədiləşir. Asif Ataya görə əbədi cismanilik yoxdur, əbədi mənəvilik, ruhanilik var. Bir sözlə, Asif Atanın Baxışına görə, dində ölməzlik yoxdur, onun ölməzliyi yalandır.

Əslində Allah özü də, obrazlaşdırılımış xarakterinə görə ölümsüz deyil. O, əmr vermə, göstəriş vermə xassəsi ilə, buyruqlar vermək, qorxutmaq, yönətmək keyfiyyətləri ilə Adama bənzəyir. Bu bənzəyiş Allahı nisbiləşdirir. Nisbiləşən Var olmur. Asif Ataya görə yalnız Mütləq olan var olandır. Cismanilik Mütləq deyil, nisbidir. Din insanın cismanilyini əbədiləşdirir. Bu isə yalandır. İnsan – Yalanda var olmur.

Yuxarıda vurğuladıq, var olmağın əsas ölçüsü Dünyanı dərk eləməkdir. İnsan dünyanı dərk eləmirsə, qurucu deyil, dağıdıcı olur. Yəni heyvana enir. Bu özünü Doğaya münasibətdə daha qabarıq şəkildə göstərir. Doğaya münasibətdə insani davranmamaq İnsanın başlıca sorunudur. Dünyanı dərk etməmək – Doğa ilə insan ilişkilərinin faydaçılıq üstə qurulmasına gətirib çıxarır. Ona görə insanın öz növündən olanlara münasibəti də heyvanat səviyyəsinə enir. Doğanın olanaqlarını qamarlamaq uğrunda çəkişmələr – qırğınlara, savaşlara gətirib çıxarır. Doğanın dağıdılması, onun olanaqlarından doğru qullanılmaması hər cür yaşam üçün hər cür fəlakətlərə yol açır. Necə deyərlər, Doğa da İnsanın üzünə qayıdır – dağıntılar, xəstəliklər tükənmədən yaşamın sağlamlığını sıradan çıxarır. Bəlkə buna görədir, Türk Tanrıçılığı Doğa ilə bağlı olub – Doğaya sevgi bəsləmək, onu ilahiləşdirmək bəşəriyyəti qorumaq demək olub. Ancaq bilim Doğanı ilahi saymır, ona görə də Doğanın mənimsənilməsinin yeni yollarını üzə çıxarır.

Asif Ata isə Doğanın qorunmasını – onu ilahiləşdirməklə deyil, Adamın İnsanlaşması ilə yoluna qoymağın ölçüsünü önərir. Ruhaniləşməyən münasibətlər sırf bioloji tələbatlara çevrilir. Doğaya bioloji yanaşmanı ruhani yanaşma ilə əvəz eləmək Adamın İnsanlaşmasın-

dan keçir. Bəs nə deməkdir – bioloji yanaşmanın ruhani yanaşma ilə əvəz olunması, yoxsa Adam İnsanlaşandan sonra heç vaxt Doğanı mənimsəməyəcəkmi?! – Söz yox, İnsan Doğanı mənimsəmədən mövcudluğunu sürdürə bilməz. Ancaq bu mənimsəmə minimal həddə olmalıdır. Belə götürəndə Doğa öz olanaqlarını insanın üzünə bağlamayıb da. Obrazlı desək, insan Doğadan – körpə anasından yararlandığı kimi yararlanmalıdır. Doğanı qullanmaq onu dağıtmaq səviyyəsinə qədər genişlənməməlidir. (Burada insanı öz doğal durumuna qarşı çağırış yoxdur, öz mahiyyətinə yüksəlməyə çağırış var). Çünkü insan ruhani varlıqdır. O, var olmağın nizamına tapınmalıdır. İnsan içindəki heyvandan qurtarmasa, Doğaya ağalığına son qoymaz. Ona görə Asif Atanın öyrətisi deyir, İnsanlaşmadan heç nəyə insani münasibət bəslənilməz.

Tanrıçılıqda insandan Doğaya, yəni İlahiyə münasibət bəsləmək tələb olunurdu. Mütləqə İnamda isə Doğaya insani münasibət sərgiləmək tələb olunur. Baxmayaraq, Doğa insanda bioloji etki kimi var. Yəni bioloji xassələr elə doğadır, Doğadan gəlir. Belə də deyə bilərik, Doğa insanda bioloji xassələr də yaradır, duyğular da. Ancaq ruh yaratmır. Ruhu insan Məna tələbində özü yaradır. İnsanın içində duyğular ruhaniləşəndə Doğa ilə insan arasında doğmalıq yaranır. İnsanın içi doğa olanda, yəni ruhaniləşməyəndə Doğa ilə insan arasında doğmalıq aradan qalxır. Deməli, İnsan Doğaya doğmalaşmaq üçün doğa səviyyəsində qalmalı deyil. Doğa insanı var etmir. İnsanı var edən özündə özündən, əslində Doğadan yüksək olan İnsanilikdir. Belə də demək olar, İnsanı Doğaya doğmalaşdıran – İnsanda Doğadan yüksək olandır. İnsanda yüksək olan Mütləqdir, yüksələn isə Mütləqilik ölçüsü ilə Doğaya bəslənilən münasibət.

Tanrıçılıqda Doğa İlahidir, Mütləqçilikdə Mütləqin təzahürüdür. Tanrıçılıqda İnsan Doğanı ilahiləşdirdiyi üçün var sayılır. Mütləqçilikdə insan Doğanı insaniləşdiridiyi üçün var olur. Tanrıçılıqda insan ilahiliyi özündən qıraqda yaradır. Buna görə onu var saymaq çətindir. Mütləqçilikdə insan insaniliyi öz içində yaradır. Bu onun var olmasıdır. Tanrıçılıqda insan Doğanın hissəsi kimi qəbul olunur. Bizə görə idrak burada məhdudlaşmamalıdır, yəni İnsanı Doğanın əlavəsi kimi dərk eləməyə çalışılmamalıdır. Çalışılarsa, insanı dərk eləmək

alınmaz. Çünkü insan Doğanın hisəssi kimi bioloji varlıqdır. Bioloji varlıq kimi onun yalnız ötəri xassələri öyrənilir. İnsanı dərk eləmək üçün onun doğadan üstün ruhani keyfiyyətlərini öyrənmək gərəkdir, mahiyyəti bilinməlidir. İnsanın mahiyyəti bilinmədiyi üçün o, daim özündən qırağa tapşırılır. İnsan özü özünü deyil, başqası onu var eləməyə çalışır. Ancaq bu, özünü heç vaxt doğrultmayıb.

Bütün Dünyagörüşlərdə biz insanın öz mahiyyətindən uzaqlaşdığını görürük. Zərdüşt insanı sevirdi, ancaq onu var etməyin ixtiyarını Hörmüzdə vermişdi. İnsanın yerinə Əhrimənlə, deyək şərlə, Hörmüzd döyüşürdü. Hörmüzd insanın əlində, üzündə, əməlində görünən Əhrimənlə döyüşürdü, ancaq insanın içindəki yenilgənliyi ortadan qaldıra bilmirdi. Çünkü heç kim insanın yerinə onun içində döyüşə bilməz.

Musa insanı mahiyyətinə qovuşdurmurdu, əriməkdə olan yəhudi toplumuna güclülük öyrədirdi.

İsa insanı – öz üzərində yüksələ biləcəyinə inandıra bilmirdi, ona ürəyiyumşaqlıq öyrədirdi.

Məhəmməd insanı kamilliyə çağırmırdı, axirət rahatlığına, kefliliyinə səsləyirdi.

Materialist şüur daşıyıcıları insana maddi qanunların daşıyıcısı kimi baxırdılar. Birgə yaşayışın nizamını da burda görürdülər. İnsanın istəkləri maddi cəhətdən ödənilərsə, bütün toplumsal qarşıdurmaların da ortadan qalxacağına inandırmağa çalışırdılar. İstehsalatı Allaha çevirməklə insanın iç dünyasını göz altında (nəzarətdə) tutmağın boş bir xülya olduğunu görmürdülər.

İnsanı maddi qanunlarla öyrənmək onu heyvanatla eyniləşdirməkdir. Belə götürəndə Doğanı bütün canlılar mənimsəyir. Ancaq ona mənəvi-ruhani münasibəti yalnız İnsaniliyə can atan insan bəsləyə bilir.

Deməli, varlığın özülündə İnsanilik durur. İnsaniləşməyən Dünya Dünya deyil, anlamını itirmiş zaman axarıdır.

İnsaniləşməyən Doğa Doğa deyil, həyata qarşı çevrilən xəstəlik qaynağıdır.

İnsaniləşməyən Toplum toplum deyil, insana qənim kəsilmiş ölüm ortamıdır.

İnsanilәşmәyәn İnsan insan deyil, özümlüyünü itirәn – tamahlaşan, qәddarlaşan, hakimiyyәtlәşәn, vәhşilәşәn, әşyalaşan, mexanizmlәşәn, texnologiyalaşan – buna görә dә Dünyasızlaşan, Doğasızlaşan, xalqsızlaşan qorxu faktorudur.

Yalnız İnsanilәşәn var olur. İnsanilәşmәk – Mütlәqlәşmәk demәkdir. Var olmağın ölçüsü – Mütlәqlәşmәkdir.

Sayğılı oxucu, biz, gücümüz içindә genel mәnzәrә yaratmağa çalışdıq. Bu Bitiqdә Asif Atanın Dövlәtlә, Toplumla, Vәtәnlә, Xalqla bağlı Mütlәqilik ölçüsündә açıqlamaları, tәyinlәri var. Oxumaq, öyrәnmәk, düşünmәk gәrәk olduğunu bildirәrәk sәninlә sağollaşırıq. Yolun açıq olsun!

## İnsanlığın ölçüsü ilә qurulan yaşam

İnamın Bitiqlәrinә "Ön Söz" gәrәkdirmi, deyilmi – bilmirәm. Ancaq yazırıq, sunuruq. Qutsal Onluğun bu altıncı Bitiyi "Qutsal Quruculuq" adlanır. "Yol. Ata Sözü", "Sәdaqәt", "Ruhani Hökmlәr" әsәrlәrini, elәcә dә "Yeddi Müqәddәs Kәlam"ı özündә birlәşdirir. Bu Bitiqlәrdә hәm genel ruhaniyyatın fәlsәfәsi açılır, hәm dә Asif Atanın özünün yaratdığı, başladığı Mütlәqә İnamın fәlsәfәsi. Asif Atanın fәlsәfәsi yeni, hәm dә fәrqli fәlsәfәdir. Gәlәnәksәl fәlsәfәlәrlә ortaq nöqtәlәri çox deyil. Bütün başqa fәlsәfi yönlәrdәn daha çox Hürufilәrin İnsançılıq öyrәtilәrinә (tәlimlәrinә) yaxındır. Yeri gәlmişkәn, bir sıra yazarlar, düşünәrlәr Asif Atanın öyrәtisini Hürufilәrin öyrәtisi ilә eynilәşdirirlәr, bәzәn dә onun davamı kimi götürürlәr. Deyil! Yaxınlıq var, ancaq nә Hürufiliyin eyni deyil, nә dә davamı. Genel anlamda Mütlәqә İnamı Tanrıçılığın da, Xürrәmiliyin dә, Hürufiliyin dә davamı saymaq olar. Yәni Milli Ruhun yaşadılması açısından. Ancaq Milli Ruhun yaşadılması Asif Ata öyrәtisindә yeni ideyalarla yenilәnәrәk baş verir. Yenilәnmә – ideyaların, tәlәblәrin yenilәnmәsi demәkdir. Yenilәnmә olmayan yerdә intibah yoxdur. Yәni yüzillәr öncә mövcud olmuş әn qabaqcıl baxışı belә, olduğu kimi tәkrarlamaq özünü doğrultmaz. Hәr çağda ruhun daha gәlişmiş tәlәblәri olur. Bu baxımdan yanaşanda Qәdimliyi tәkrar elәmәk yox, Qәdimlikdәn güc

almaq gərəkdir. Asif Ata da Qədimlikdən güc alaraq yeni İntibah Yolu başlayıb. Bir sözlə, onun 6 ideyasını ("Mütləqə İnam", "Kamil İnsan", "Ruhani Cəmiyyət", "Müstəqil Vətən", "Özümlü Şərq", "Ləyaqətli Bəşər") öyrənməklə də bu fəlsəfənin fərqini bütün dolğunluğu ilə anlamaq mümkündür. Belə götürəndə bu yazıda biz Asif Atanın başqa baxışlardan fərqini deyil, kitabın anlatmaq istədiklərinə üz tutmaq istəyirik. Ona görə sadəcə fərqli olan ideyaların adını çəkməklə yetərlənəcəyik. Məsələn, "Mütləqə İnam", "Ruhani Cəmiyyət", "Müstəqil Vətən", "Özümlü Şərq" başqa dünyagörüşlərdə, o sıradan Hürufilikdə yoxdur.

İndi isə kitabın anlatdıqlarını öyrənməyə çalışaq. Başqa dünyagörüşlərdə olduğu kimi, Asif Atada da ideyalar sistemindən başqa, bu ideyaları öyrədən, gerçəkləşdirən öyrəti (təlim) vardır. Öyrəti – ideyaların məktəbə çevrilməsidir. İdeya verən onun gerçəkləşdirilmə, yaşadılma yolunu, üsulunu da öyrədir. Ruhsal yaşamaq, ruhsal mübarizə aparmaq – gələnəksəl fiziki-bioloji, sosial qaydalarla alınmaz. Burada ideyanın yaradıcısına münasibət də ideyaya münasibət qədər önəmlidir. İdeyanın yaradıcısına adi baxmaq, adi yanaşmaq, yəni ona hamının biri kimi münasibət sərgiləmək ideyanın etkisini ortadan qaldıra bilər. Ona görə Asif Ata bu kitabında davamçıları üçün Yola, Amala, özünə münasibət qaydaları bəlirləmişdir. Dinlərdə insan Allahla, ya da Allahın cəzası sayılan cəhənnəmlə qorxudularaq peyğəmbərə, onun yoluna sayğılı münasibət tələb olunur. Asif Atada isə Atalığın ləyaqəti, böyüklüyü öyrədilərək münasibət formalaşdırılır. Kamil insana münasibət – böyüklüyə, ləyaqətə, mənəviyyata sayğı, sevgi, səcdə deməkdir. Bu davranışları həyata keçirmək, içəridən dəyişilmək tələb edir. Böyüklük qarşısında lovğalıq, təkəbbür, paxıllıq, qısqanclıq sındırılmalı, onun yerinə böyüklüyü anlayan, doğruldan mənəvi güc yaradılmalıdır. İnsana münasibətin dəyişilməsi – böyüklüyə münasibətin ucalığından başlayır. İnsanın özünü başqasında tapması özünüdərk prosesinə gətirib çıxarır. Başqasındakı gözəllikləri kəşf etmək, başqasını sevmək – özündəki balacalıqları tanıyıb ortadan qaldırmaqla olar. Bu cür qurulma Asif Atanın "Ruhani Cəmiyyət" ideyasının özül süreçlərindəndir.

Bu Bitiyin birinci kitabı “Yol. Ata Sözü”dür. Bu kitabda insana iç şərlə, eləcə də toplumsal şərlə döyüş yolu, üsulu öyrədilir. Burada belə bir deyim var: “Vətənçilik Ocaqçının ən böyük düşmənidir”. Çünkü Vətənsizlik – şəxsiyyətin yaranmamasıdır. Şəxsiyyət yetişməyəndə dəyər də yaranmır. Dəyəri olmayan Vətəni qorumaq, sevdirmək çox çətindir. İnsan vətəni o vaxt sevməyə başlayır ki, orada ana laylasının, ana dilinin, ana mehrinin şəxsiyyətlər böyütməsini anlamağa başlayır. Bunun üçün ölçü gərəkdir. Dəyər ölçüsü ana nəfəsini övlad qüdsiyyətinə çevirir. Belə bir hal vətəni dəyərə çevirə bilir. Vətən dəyərə çevriləndə onun torpağında yatan ölünün də urvatı olur. İnsanın qurtuluşunu Batıda, Doğuda, başqa yerlərdə axtarmaq vətənsizlikdir. Siyasətçilər sözdə xalq deyirlər, ancaq işdə qıraqdakı güclərdən yardım umurlar, onlara küsənirlər. Çünkü vətən övladının ruhunu böyütmək əzabına qatlaşmırlar. Siyasətçinin məqsədi özüdür, ancaq xalq üçün çalışan görünür. Bu elə vətənsizlikdir.

İdraka heç nə verməyəni alim adlandırırlar. Həqiqətə heç nə verməyəni mömün sayırlar. Vətənə heç nə verməyəni başa çəkirlər. Şüur pozulub, əxlaq geriləyib – yalan başa çıxıb. Dolanışıq xatirinə ömürlərdə yalan Allahdan (Mütləq olandan) üstün tutulur. Yalan vədlər, yalan adlar, yalan andlar, yalan dostluq – toplumsal ortamın ölçüsünə çevrilib. Məğrur yaltaqlar, qoçaq yalançılar, cəsur oğrular dünyasında sanki hamı bir-birini qoruyur, birləşirlər – milli adlar düzəldirlər, yeni milli qeyrət uydururlar. Ödüllər, rütbələr qazanırlar, şöhrətlənirlər. Yaxşı dolanırlar, milli görünürlər. Doğru yoxa çıxır, oğru başa. Həqiqət yoxa çıxır, yalan başa. Ədalət yoxa çıxır, eybəcərlik həyatı bürüyür. Vətənsizlik fəlakəti yaşanır toplumda.

Kitab insan şəxsiyyətinin daha bir düşməninin “Yalan” olduğunu vurğulayır. “Yalan”– ömürdə boşluq yaradır, uçuruma çevrilir. İçində yalan gəzdirənlərə bel bağlamaq uçuruma düşməkdir. Yalanla nəfəs alanın dilində doğru belə bütöv deyil, yarımçıqdır, ziddiyyətlidir. Yarımçıq doğru ilə həqiqəti dərk eləmək olumsuzdur. Şəxsiyyəti bütövləşməyənin yarımdoğrusunda qısqanclıq, paxıllıq, məkr, xəyanət, mənəmlik gizlənir. Bu cür antiinsani keyfiyyətlər yarımdoğrunun arxasında gizlənərək Xeyiri ləkələməyə, həqiqəti kölgələməyə çalışır. Özünü var göstərir, toplumsal həyata pozuntular

gətirir. Yarımdoğrular şəxsiyyətin qarşısında əngələ çevrilirlər. Şəxsiyyəti görməli, anlamalı olan sadə insanlar yarımdoğruları çox vaxt aşa bilmirlər, onların yarımdoğru, yarımoyun sözlərində ilişib qala bilirlər. Buna görədir ki, toplumsal (ictimai) həyatda tərəqqi, intibah gecikə bilir. Bir sözlə, yalan həmişə xeyir libasında göründüyü üçün çaşdıra bilir. Asif Ata bu durumu ortadan qaldırmaq üçün hər bir münasibətin Mütləqilik səviyyəsinə üz tutur. İnsanlığı da buna çağırır.

Yalan bireysəl münasibətlərdə inkişaf elədikcə toplumsal həyatda daha geniş fəlakətlərə çevrilir. Yalanın qaynağını insanda axtarmırlar, quruluşda, gedişdə, zamanda axtarırlar. Ona görə yalan ortadan qalxmır, bir yalan başqa yalanla əvəz olunur, yaşayır, davam edir...

Bugünün yalanı dünənin yalanından fərqli görünür. İndi yeni texnologiyalar var, həyat guya durmadan qabağa gedir. Çağdaş yalan insana münasibəti gizləməyə çalışır. Guya bu gün insana münasibət dünənki münasibətdən üstündür. Bu gün insanın dərisini soymurlar, tonqalda yandırmırlar, ölüm hökmü də ortadan qaldırılıb. Üzdəki dəyişikliklər çağdaş yalanlarla pərdələnir, yeni qəbahətlər dalğası yeriyir həyatın üzərinə. Toplumsal eybəcərliklərin genişlənməsində uluslararası siyasal qurumların rolu daha böyükdür. Pulçuluğu yaşam ölçüsünə çevirənlərin yaratdığı tərəqqi yalanı İnsanlığa zərbələr vurmaqla qabağa gedir. Bütün dünyada bu yalançı tərəqqiyə qoşulmaq istəyənlərin yarışı gedir. Mənəviyyat dünyasına arxa çevirib maddiyyat dünyasızlığına doğru sürünənlər üçün yarımhəqiqətdən, yarımədalətdən, yarımazadlıqdan yüksəkdə duran ölçü mövcud deyildir. Beləəri Vətənin taleyini asanlıqla yadlığa tapşırırlar.

Deyirlər Avropada hər şey yaxşıdır, Azərbaycanda pisdir. Ancaq heç kim özündən soruşmur: bəs yaxşılar pisin onlarla qonşu olmasına, genel olaraq, həyatda eybəcərliyin yaşamasına necə dözürlər?! Necə yaxşıdırlar ki, pisliyin arxasında dururlar, insanların əzabla yaşamasına göz yumurlar. Deyirik, əgər bir ölkədə insana qiymət yoxdursa, dünya pisdir. Qonşunda meyit qoxusundan xəstəliklər törəyirsə, sənin evində necə sağlam həyat ola bilər?! Bir ölkədəki

gerilik bütün dünyanın geriliyi deməkdir. Mənəvi xəsarətin bəşər övladına dəxli yoxdursa, onda onun dünyada yaşamağının anlamı yoxdur...

"Yol" kitabında toplumsal şərlə döyüşməyin başqa bir çaları kimi Asif Ata "İnamsızlıq" anlayışının adını çəkir. Dində Allaha inanan dünyaya inanmır. Dünya onun gözündə mənasızlaşır. Əslində Dünya Allahın (yəni Mütləq olanın) görsənişidir. Dünya özündə Mütləq olanı gəzdirir. Dində Dünya Allahı özündə gəzdirmir, Allahın oyuncağı kimi bilinir. Allahın axirət dünyası var, bu dünyanı özünə oyuncaq kimi yaradıb. Buradan bir sual ortaya çıxır: Əgər bu dünya oyuncaqdırsa, onda dünyada yaşayan insan kimdir, oyuncağın sakini nə deməkdir?! Belə bir oyuncaq dünyada kamil olmaq nə deməkdir?! Bu məntiqsizlikdən yerə-göyə sığmayan inamsızlıq törəyir. Asif Ata bu inamsızlıqla döyüşməyi Ocaqçının İnsani borcu sayır. Asif Ataya görə Dünya, İnsan mənaca əzəlidir, əbədidir. Bunları oyuncaq saymaq, fani elan eləmək günahdır.

Asif Ata Allah anlamına, yəni Mütləqə əsillik keyfiyyəti verdi. Bu keyfiyyətlərə üz tutanda insan da özümləşir, millət də. İnsanlararası, millətlərarası münasibətlərdə doğruluq, doğmalıq bərqərar olur. Dindəki kimi Allah insanı istismar eləmir, müqəddəsliyə yüksəlir. Dövlət insanı istismar eləmir, çünkü Allah anlamı ilə (yəni Mütləqlə) insan arasında birlik yaranır. Dövlət bu birliyin gücünü əyə bilmir, zor yenilir, müqəddəslik bərpa olunur.

İnsanı qurmaq bəşəri qurmaqdır. İnsan qurulanda birgəyaşayış nizam tapır. Birgəyaşayışın nizamından xalq yaranır, sürüçülük aradan qalxır.

İnsanilik sonsuz olaraq yenilənir. Doğuluş, yaranış nizamı ilə başa gəlir yenilənmə. Yenilənmədə hər bir insan özünəxaslıq qazanır – atalığında, analığında, qardaşlığında, bacılığında, dostluğunda heç kimi təkrar eləmir. Bu yenilənmə heç vaxt başa çatmır, dayanmır, yəni əbədidir. Əslində bu, yeni nikbinlik ölçüsüdür, İnamsızlığın aradan qalxmasıdır.

Kitabda Ocaqçının qarşısında qoyulan tələblərdən biri də "Ataya münasibət" başlığı altında vurğulanıbdır. Üzdən baxanda bu tələb Asif Atanın özünə qarşı məcburi münasibət yaratması kimi görünə

bilər. Əslində isə məsələ çox fərqlidir. İnsanlarda adi münasibətlərə, başqa sözlə, münasibətləri adiləşdirməyə alışqanlıq yaranıb. Bəzən yanımızda bizim kimi yeyən, bizim kimi gəzən, bizim kimi yatan bir dahinin, bir şəxsiyyətin böyük dəyişikliklər yaradacaq qüdrətini görmürük, dərk eləmirik. Onunla adi davranırıq, adi danışırıq. Ona görə də o bizi böyüdə, həqiqətləri anlada bilmir, adilik mane olur. Ancaq böyük şəxsiyyət bizi öz qüdrətinə, insani quruculuğuna ortaq eləmək üçün özünə qarşı münasibət bənzərsizliyi yaratmalı olur. Bu tələbi anlayan kəs içindən böyüyür, özünü dəyişir, milli-insani quruculuq yoluna düşür. Anlamayan isə şəxsiyyəti özünəvurğunluqda, mənəmlikdə suçlayır. Asif Ataya münasibət də bu açıdan düşünülməli, dərk olunmalıdır. Dünyanı dəyişmək qüdrətinə yetən bir insanla davranmağın ölçüsü, söz yox, hamıya yanaşma kimi başa düşülməməlidir. Ona görə deyirik: Asif Atanın, adını eşitmək, bilmək, hədəflərinin əlamətləri ilə tanış olmaq azdır, Onun ruhunu tanımaq gərəkdir. Bizə görə bugünün gedişini dəyişməyin anlamı Asif Atanın ruhsal varlığında yaşayır. Onu topluma öyrətməsək, dəyişiklik baş tutmaz. Biz dəyişikliyə varmağın anlamını aydınlatmaq üçün Asif Atanı tutuşdurmalarla sunuruq. Bu da yeniliyin tələblərindən doğan bir üsuldur. Mövcud olanla Yeniliyin fərqini başqa cür göstərmək də mümkün deyil. Dini, fəlsəfi öyrətilərdə insan əsil mahiyyətindən uzaqlaşdırılır. Bu nədə özünü göstərirsə, biz dəfələrlə aydınlıq gətirmişik. Asif Atanın öyrətisi isə insana əsil mahiyyətini göstərməklə, öyrətməklə yeni həyat ölçüsü bəlirləyir. Bu zaman O, öz ardıcıllarının qarşısında mübarizə tələbi qoyur: insanın özünüdərk sürəsinə başlaması üçün dini, fəlsəfi yalanları danmalı, rədd etməli. İnsan mənəviyyatının gözəlliklərini göstərməyən öyrətilərin yaşaması fəlakətdir. Fəlakəti qoruyanlara sayğı göstərmək mənəvi zəlilliyi urvatlı göstərməkdir. Ocaq mənəviyyata axıb dolan qəbahətlərin qarşısına keçərək həyata ülviyyət gətirməyi müqəddəs borcu sayır.

Kitabda “Xalq” başlığı altında belə bir deyim var: “Xalq – İnsanların sadəcə cəmi deyil, Birliyidir”. Xalqın Birliyi – etiqad, əxlaq, idrak, dil birliyi deməkdir. Bu açıdan yanaşanda Asif Atanın fəlsəfəsi demokratiyanı antixalq bir ideoloji sayır. Çünkü demokratiya bir xalqın içində min dənə yanaşı (paralel) etiqad tanıyır. Min dənə idrak

tanıyır – bir-birindən yer-göy qədər fərqli, bir-birini danan. Xalq Birliyi Vətən birliyidir. Vətəni onun şəxsiyyətləri, dəyərləri urvatlandırır. Məsələn, Azərbaycan üçün Xalq Birliyi nə müsəlmanlıqda, nə demokratiyada özünü doğrultmur. Müsəlmanın xalqı yoxdur, ümməti var, şəxsiyyətləri də qıraqdan gəlir. Demokratiya şəxsiyyət tanımır – böyüklə balacanı (böyüklüklə balacalığı da demək olar) eyni ölçüdə görür, göstərir. Bu açıdan Asif Atanın "Ruhani Cəmiyyət", başqa adla "Xəlqi Birlik" ideyası mövcud baxışları qəbul etmir, onlardan yüksəkdə durur...

Bitiyin ikinci əsəri "Sədaqət" adlanır. Burada Ocağın biçim qaydaları, Ocaqçının mübarizə üsulu, Ocaqçının andına, mübarizə istəyinə uyğun böyüməsi, hərəkətə keçməsi bəlirlənir. Ocaqçının Özüylə-döyüş yolu, Ataya, Amala, ideallara inanmaq, bağlanmaq kəlam-kəlam öyrədilir. Bir sözlə, Mütləqə İnam Ocağını yaşatmağın, onun ideyalarını gerçəkləşdirməyin gərəkliyi idraki prinsiplərlə təsdiq olunur.

Bitiyin "Ruhani Hökmlər" əsərini də Ocaq quruculuğunun başlıca üsulu, əməli adlandırmaq olar. Ocağa gələn çox şeylərdən imtina edir. İmtinasız Kamilləşməyə yetmək olumsuzdur. Kef adamı, maddiyyat adamı, özünü düşünən Ocaqda var ola bilməz. Ruhani Hərəkatın başlıca şərti imtinadır. Asif Ata öz Ocaqçılarını öyrədir, böyüdür, quruculuğa yönəldir. Hər kəs cəmiyyətdə onun qaydaları ilə yaşayır. Ancaq cəmiyyəti dəyişmək istəyən onun qaydaları ilə yaşaya bilməz. Ocağa gələn köhnə vərdişlərdən daşınmalı, ömrünün yönü dəyişməlidir. Bunun üçün qarşıda özünə inam, özünü dəyişmə, kamilləşmə tələbi durur. Bu tələblərə yüksələ bilməyən, yaşaya bilməyən Ocaqdan uzaqlaşdırılır. Ocağın insanlaşdırma qüdrəti – onu eşidənlərdə yaşayıb gerçəkləşir. Ocağın bu cür içsəl nizamı Asif Atanın Ruhani Hökmləri ilə qorunur.

Bitiqdə yer almış "Yeddi Kəlam"da Mütləqə İnam Ocağının yaşam nizamını, Hərəkatın gerçəkləşmə biçimini öyrədir.

Beləliklə, Asif Atanın 6-cı Bitiyinin – Qutsal Quruculuğun məzmunu ilə bağlı qısaca bir tanışlıq bilgisi sərgilədik. Bütövlükdə isə Bitiyi oxucunun ixtiyarına veririk. Hər birimiz bu Bitiyi öyrənsək, öyrəndiklərimizi öyrətsək, İnsanlığa qulluq göstərmiş olarıq.

## Görəni görmək gərəkliyi

Ürəyinizdə Ata Günəşi olsun!

Həqiqəti İnsanlığa yetən görər. İnsanlıqdan aşağıda durmaqla yarımhəqiqəti görmək olar, ya da heç görmək olmaz. İnsanlığın ölçüsündə duyğu da, İdrak da bütövdür. Bütövlük Həqiqətdən gəlir, Həqiqəti göstərir. Həqiqəti kiminsə ağzından eşidərək deməklə Həqiqət dərk olunmaz. Yalnız Həqiqət üstə yaşayanda söz kəsərli, işıqlı olur. Yalnız kəsərli, işıqlı söz ağıllara çatır, ürəklərin gücünə çevrilib yenidən yaşanır, – yaşama qayıdır. Həqiqəti yaşamayanın Həqiqət haqqında sözü anlaşılmaz olur. Həqiqət yanğıdır. Yanğı haqqında mülahizə edənlərlə Yanğı üstə yaşayanların etibarı, gərəkliyi bir olmur.

Bu çağa kimi bəşəriyyət ən çox boşluqda söz xərcləyənlərin etkisində olub. İndi Həqiqəti bütöv görənlərin, Həqiqət üstə yaşayanların, Həqiqət uğrunda savaşanların Yoluna düşməli, Qurtuluş qapısını açmalıdır.

Bəs Həqiqət nədir, Həqiqətə yetmək, onu dərk etmək nə deməkdir? Həqiqətə yetmənin ölçüsü necə olur? – Asif Ata bildirir, bəşəriyyət hələ həqiqəti bütöv dərk etməyib. Bu düşüncə ilə üzləşən istənilən adam, ilk baxışdan, Asif Ataya etiraz edər. Atanı gərəksiz inkarçılıqda suçlayar. Bəs bəşəriyyətin, neçə minillərdir, axtarışlar ilsırasının (tarixinin) üstündən cızmı çəkək? Doğrudan da, böyük suçlamadır (ittihamdır). Ancaq boşuna (əsassız) deyil. Asif Ata bəşəriyyətin fəlsəfi-düşüncə yönünü, Tanrısal sistemini araşdırıb öyrəndikdən sonra bu düşüncəyə gəlibdir. O deyir: “Fəlsəfə tarixi İdealizmlə Materializmin döyüşündən oluşubdur”. Fəlsəfənin başqa yönləri bu iki düşüncə sisteminin içindən doğmuşdur. Varlığa yanaşma bu iki sistemin ölçüsündən uzaqlaşmayıb. Ona görə də varlığa yanaşma İdealizmlə Materializmin sınırında, çevrəsindədir.

Ata yazır: “Fəlsəfənin əsas məqsədi – Maddiyyatın (materiyanın) Yapıya (Şüura) yanaşması (münasibəti) deyil, Görsənişin (Təzahürün) Mahiyyətə yanaşmasıdır”.

Materializm varlığı görsənişə (təzahürə) tən götürür. Ona görə də bu fəlsəfə ilə mahiyyəti dərk etmək olmaz, Görsənişi dərk etmək

olar. Görsəniş isə nisbidir, ölümlüdür. İdrak görsənişdə boşluğa çıxır. Həqiqət görsənişdə deyil, onun mahiyyətindədir. Deməli, əslində Materializmdə dərk sürəci (prosesi) başa çatmır, yarımçıq qalır. Ona görə də İdrakın varlığa yanaşması özünü doğrultmur. Ataya görə Fəlsəfə – Varlığın mahiyyəti haqqında düşüncədir, Görsəniş haqqında düşüncə deyil.

İdealizm araçılığı ilə də Mahiyyət dərk olunmur. Bu fəlsəfəyə görə Mahiyyət ideya ilə eyniləşir. Görsəniş ideyalar aləminin kölgəsi kimi sunulur. Gözə alınsa, ağıldan qıraqda ideya yoxdur, başqa sözlə, ideya ağılın məhsuludur, onda İdealizmdə mahiyyəti dərk etmək yolu daralır, həqiqətə yetmək olanağı aradan gedir. Buradan belə bir düşüncəyə gəlmək olar: Fəlsəfənin Varlığa yanaşması onun bütün sonrakı addımlarını bəlli edir.

Ata yazır: **“Var olmaq – Mahiyyətə tən olmaqdır.**
**Mahiyyət gerçəklikdə tam Olmur.**
**O, gerçəkliyin olanaqlarından artıqdır.**
**Bu səbəbdən də olan (gerçəklik) əslində Olmayandır.**
**Olmayan – yəni Mahiyyət – əslində olandır.**
**Yəni gerçəklik olur, ancaq Olmur.**
**Mahiyyət olmur, ancaq Olur”.**

*(Asif Ata. “Olan və Olmayan” əsəri.)*

Məsələn, insan cism (bədən) – mahiyyət (İnsanlıq) birliyidir. Cism (gerçəklik) görünəndir, İnsanlıq görünməyəndir (fiziksəl deyil). Bədən olur, ölür. Deməli, olmur, yəni əbədi deyil, bir yerə qədərdir. İnsanlıq olmur, yəni gerçəkliyə tən deyil. Ancaq əbədidir, yəni Olandır.

Bu yanaşma Mütləqilik Fəlsəfəsinin ölçüsüdür. Bu, Asif Atanın baxışıdır. Bu baxış Mahiyyətin ideya ilə eyniləşdirilməsindən, ya Görsənişə tən götürülməsindən yüksəkdə durur. Mahiyyət Mütləqə təndir. Mütləq (Əbədi, Əzəli, Kamil, Sonsuz olan Mahiyyət) idrakla dərk olunur, ancaq idrakdan asılı deyil. İdrak mahiyyətə yoldur – fəlsəfə yoludur.

Asif Ata “Olan, Olmayan” əsərində fəlsəfi, ideoloji doktrinaları aydınlaşdırır, rədd edir. Çünkü bu doktrinalarla insan özünə çatmır,

dünyanın mahiyyətinə yetmir. Fəlsəfi baxışlar Quruluşa yarayır, bundan siyasət yararlanır, maddiyyatçılıq ruhaniyyatçılığı üstələyir. Bununla da idealla gerçəklik arasında uçurum görünür. Özgürlük, ədalət idealda qalır, gerçəklikdə kanıtlanmır (təsdiq olunmur). Fəlsəfi doktrinalar insanı yanıldır, insan mahiyyətə yetmir, idealda olanı – Ədaləti, Özgürlüyü gerçəkliyə gətirə bilmir. Ya da yarımədalət gətirir, yarımözgürlük gətirir. Quruluş – insanı maddiyyatıçılıq tələsinə salır. Sosial gəlişmənin yollarını öyrədir, varlanmanın, güclənmənin yollarını öyrədir, mənəviyyat yaratmaq öyrətmir. Çünkü mənəviyyat yaratmağın yolunu tanımır.

Kapitalizm sənayeləşmək kultu yaratdı. İnsan sənayeləşmənin köləsinə çevrildi. Gödənçilik ən böyük mədəniyyət sayıldı. Köləlikdən ağgünlülük (xoşbəxtlik) düzəltmək istədilər, alınmadı.

Sosializm – istehsalat kultu yaratdı, dövlət ağalığı ilə ağgünlü gələcək qurmaq istədi, insan dövlətin köləsinə çevrildi. Kollektiv təsərrüfatçılıq bireysəl mülkiyyəti yoxa çıxartdı. İnsan sürüləşmə aqibətinə sürüldü, ulusal kimliyini itirdi, özgürlüyünü itirdi, dinc heyvana çevrildi. İnsana gödəni ödənilmiş (təmin olunmuş) heyvan kimi baxdılar. Elə bildilər insan təkcə gödəndən oluşubdur, onun qarnı doysa, dövlətdən heç nə tələb eləməyəcək. Ancaq bu niyyətin ömrü uzun sürmədi...

Deyirlər sosializmi qıraqdan kapitalizm yıxdı. Deyirik sosializmi – onun öz içindəki mənəviyyatsızlıq yıxdı. İçində möhkəm olanı dışarıdan heç nə yıxa bilməz.

Din insanı mənəviyyata çağırdı. Ancaq bu mənəviyyatın özülü insanın içində deyil, dışarıdadır. Yəni din insanı Allahın mənəviyyatına çağırdı. Öz içində mənəviyyatı olmayanı Allahın mənəviyyatını qorumağa çağırmaq cəfəngiyyatdır. İçində həqiqətə yetməyəni dışarıda həqiqəti tanımağa çağırmaq özünü doğrultmaz. İnsanın mahiyyəti Allaha təndir. Ona bunu dərk etməyin yolunu demədi din. Bu səbəbdən də, dində insan Allaha əl açır, ondan maddiyyat dilənir, ruzi, bərəkət istəyir, mənəviyyat istəmir.

İnsanın Allahdan mənəviyyat istəməsi – içinə üz tutması demək olmalıdır. İçində ədaləti üzə çıxarmalı, ona yetməlidir. Onda həyat göründüyündən artıq olacaq, insanca davranışlar, yanaşmalar

göründüyündən artıq olacaq. Maddiyyat uğrunda savaşa ehtiyac qalmayacaq, hər kəs başqasının haqqını dərk edəcək, sosial bərabərsizlik aradan qalxacaq.

Qoymurlar insan böyüsün, qoymurlar insan ədalətə, özgürlüyə yetsin. Nə Quruluş buna olanaq verir, nə dövlət, nə də din. Hamısı insanı özündən qıraqdakı qüvvəyə bağlayır, qıraqdakı qüvvədən asılı edir. Quruluş insanı doktrinalar əsarətinə salır, dövlət insanı hakimiyyət əsarətinə salır, din insanı Allah əsarətinə salır. Ona görə də həyat qaranlığa çevrilir.

Bəzən Asif Atanı bəlli fəlsəfi anlayışlarla anlamağa çalışırlar. Bunu da ən çox sovet oxulu keçmiş adamlar edirlər. Deməliyik, materialist, ya da idealist anlayışlarla Asif Atanı öyrənmək istəyi doğru sonuc verməz. Ata fəlsəfəsində anlayışlar yeni ölçü kəsb edir. Bu isə ideala yanaşmada yeni keyfiyyətlər ortaya çıxarır. Ancaq eyni halda, anlayışlar ifadə elədiyi anlamlara görə çelişkili (ziddiyyətli) də görünə bilir. Məsələn, bir yerdə “Həyat” anlayışı insanın öz üzərində qələbəsini ödəyən ortam kimi qiymətləndirilir, başqa bir yerdə insanın özümlüyünü itirdiyi ortam kimi. Sözsüz, insanın anlayışa yanaşmasının necəliyi çox önəmlidir. Bir var anlayışı yaşayanın onu necə ifadə eləməsi, bir də var oxucunun anlayışa yanaşması. Həyatı yaşayan ona necə yanaşır – bioloji ödəncin (təminatın) ödənildiyi ortam kimimi, özünün insani mahiyyətini üzə çıxarıb özümlüyünü təsdiq elədiyi araç kimimi?! Deməli, insan – biolojiliyindən yüksəyə qalxmırsa, həyat adi bir gedişə bərabərdir. İnsan kamilləşirsə, həyatı adilikdən qurtarır. Bu zaman Yüksək (ali) Həyat təsdiq olunur. Ata bunun adına Amal deyir.

Buradan çıxan sonuca baxaq: Ata “Həyat” anlayışını qonularda işlədəndə hər yol “burada “adi həyat”, ya da “yüksək həyat” gözdə tutulur” deyə hər addımda açıqlamalar verə bilməz. Bu sorun, əslində bütün fəlsəfi dünyagörüşlərdə də özünü göstərir. Hər yol təkrar açıqlamalar edilərsə, sınırsız təkrarçılıq əsərin gücünü azaldar, oxunulmaz edər. Buna görə, öyrənmək istəyən oxucu yaradıcının anlayışlara gətirdiyi ölçünü özü üçün (araşdırma, ümumiləşdirmə yolu ilə) bəlli etməlidir.

Ata “Varlıq – Yoxluq” əsərində yazır: “Dünya, Həyat, İnsan – Mahiyyətlə Gerçəkliyin Birliyidir, – yəni Var olanla Var olmayanın birliyidir”. Ataya görə Var olan – gerçəkliyə gələn, yəni mövcud olan deyil, Özündə qalandır. Nə deməkdir bu? Məsələn, torpaqda ağac bitir, bəlli bir çağa kimi boy atır, bar verir. Ancaq bu biçimin boyatma, barvermə olanağı sonsuz deyil, tükənir, quruyur, yox olur. Ancaq yaranışın olanağı başa çatmır. Yenə ağac bitəcək, quruyacaq. Yaranış nizamı, uyumu heç vaxt başa çatmır, əbədidir. Dünya həmin Yaranış nizamı, uyumu ilə gerçəkliyə, görünüşə gələnin birliyidir. Ancaq bu Birlik əbədi deyil, daim yenilənir. Yaranışın nizamı, uyumu sabitdir, gerçəkləşməsi isə dəyişir, yenilənir. Bir anda yaranış bir biçimlə bir olur, başqa anda başqa bir biçimlə. Yaranışın görünüşə gəlmə nizamı əbədidir, pozulmazdır. Ancaq dediyimiz kimi, bir görünüşdə dayanıb qalmır, yeni görünüşlərlə (təzahürlərlə) daim yenilənir. Burada Var olan Yaranışdır, Var olmayan Yaranışın görsənişi, gerçəkliyi.

İnsan özündə İnsanlıq mənası daşıyır. İnsan ölür, İnsanlıq ölmür. Yəni İnsanlıq bədənə yerləşməyib, Dünyanın Yaranış, Doğuluş nizamındadır. Yəni İnsanlıqla bədən birliyi bədənin ölümünə qədərdir. İnsanlığın bədənlə birliyi – bədənə yerləşib qalması anlamında deyil. Bir bədən öləndə İnsanlığın yeni bədənlərlə birliyi başlayır. İnsanlıq Doğuluş nizamındadır. Daim doğulanlarla birləşir, ancaq onlara sığmır, onlara yerləşib qalmır. İnsanlıq bədənə qıraqdan, sonradan gəlmir, Doğuluşdan gəlir. Yəni əslində bədən İnsanlığın (ifadə olunmaq üçün) görünüşə gəlməsidir. İnsanlıq Var olandır, İnsan (fiziki olaraq) Var olmayandır.

Burada əslində iki yoxdur, bir var. Məna var, gerçəkliyi var. Bu iki demək deyil. Ona görə bəzən Ata deyir – Dünyalıq Əbədidir. Bəzən də deyir, Dünya Əbədidir. Yəni Dünya əslində bir olan Mahiyyətdir, bir də Mahiyyətin Gerçəkliyidir. Gerçəklik – mahiyyətin görünməsidir, ikinci bir şey deyil. Yəni Mahiyyət ikiləşmir, gerçəkləşir. Gerçəkliyi ölür, özü ölmür, yeni gerçəklikləri ilə görsənişə gəlir. Özü var olandır, gerçəkliyi var olmayandır.

Hürufilərin “Ən-əl Həqq” ideyasında da bu anlamı görmək olur. Nəsimi deyir:

***İnkar əhlin söylədirsən birə yüz der, yüzə min,***
***Əhli-iqrarın qatında varı birdir, var bir.***

İslam dünyagörüşündə isə durum tamam başqadır. Allah ayrıdır, Dünya ayrı. Allahla Dünya arasında birlik yoxdur, asılılıq var. Allah Dünyanın ağasıdır. Dünya Allah qatında heçdir, oyun-oyuncaqdır. Dünya Allahın yaratdığıdır, özü də kamil olmayan yaratdığıdır. Bir zamanlar dünya olmayacaq. Bu, dünyaya yanaşmanın antimahiyyət ölçüsüdür. İnkarçılıqdır. Burada Varlıq davamlı şəkildə danılır. Allahın özü belə, varlıq kimi dərk olunmur. Çünkü dünyadan ayrılır, yəni gerçəkliklə bağlılığı olmur. Gerçəkliklə bağlılığı olmayanın Varlığı cəfəngləşir. Cəfəngiyyat cəhalət yaradır. 7-ci yüzildə ərəb toplumu Bütsevərlik cəhalətindən Allahçılıq cəhalətinə sürüldü. Türk toplumu isə Tanrıçılıqdan Allahçılıq cəhalətinə sürüldü. Tanrıçılıq, ideal olmasa da, ideala doğma idi. Allahçılıq ideala qarşıdır. Çünkü, dediyimiz kimi, Allahçılıqda dünya mənasından, nəinki ayrılır, mənasızlaşır.

Qabaqcıl baxışlı insanların düşüncələrində, ideyalarında Allah anlamı dirilirdi, dünya mənalanırdı, Allahçılar isə onları öldürürdülər. Əslində Allahçılıqdakı cəfəngiyyatı qoruyur, Həqiqətin gerçəkləşməsinin yolunu kəsirdilər. Məsələn, H.M.Həllac Allahla İnsanı bir olmaqda görürdü, yəni mahiyyətlə gerçəklik birliyini dərk edirdi. Bu həqiqətə qarşı çıxanlar onun dərisini soydular. Eləcə də Nəsiminin, həqiqəti cəfəngiyyatdan ayırmaq istədiyinə görə, dərisini soydular. Neçə belə qabaqcıl düşüncəli insanları öldürməklə Allah anlamını dərk etməyin yolunu bağlayıblar.

Bu gün də cəhalət davam edir, cəfəngiyyat qorunur, insan dünyanın mənasına doğmalaşa bilmir. İnsan idrakı keçicidə ilişib qalır, keçiciyə heyrətlənir, keçicidə möcüzə axtarır. Hər kəsin Allahın möcüzəsi adlandırıb heyrət elədiyi bir misala aydınlıq gətirək. İnsanlar arıların yaşam nizamında ilahi keyfiyyətlər axtarırlar: Arılar şirəni belə daşıyır, keşikçi filan işi görür, şirə gətirməyəni qovurlar b.k. İnsanların belə şeylərə heyrətlənməsi qəribədir. Nədən? Çünkü belə məsələlərdə sonsuzluq axtarmaq yersizdir. Bu, nəyisə dərk eləmək deyil, sadəcə bir növdən olan həşəratların yaşam sürəcini

bilməkdir. İzləyib öyrənərsən, bilib başa çatarsan. Arı bütün hallarda sənin öyrəndiyin, bildiyin bir nizamla davranacaq, başqa bir gözlənilməzlik eləyəsi deyil. Bu sürəc min il bundan öncə də belə olub, min il bundan sonra da belə olacaq. Arının yaşam sürəci daim təkrar olunur. Arxasında gözlənilməzlik olmayan standart bir sürəcə heyrət eləməzlər. Arıda ağıl, şüur axtarırlar. Ağılda, şüurda gözlənilməzlik olur, axı bu, arıda yoxdur. Arıda, instinktiv olaraq, standart nizam var. Ancaq insan yüksək varlıqdır. Onda şüur, təfəkkür var, bunun arxasında gözlənilməzliklər olur. Başqa sözlə, mahiyyətə yetmək olanaqları var. İnsanda mahiyyət yeni çalarlarla tükənməz görsənişlərə gəlir. Əsil heyrət doğuracaq məsələ də budur. İnsanı dərk eləmək – İnsanlıq adlı mahiyyətə varmaqdır. Arını dərk eləmək isə arının özünə bağlı deyil, Dünyalığa bağlıdır. Arının yaşamı Dünyalığın sıradan bir çalarıdır. Bu çaları dərk eləmək istəsən, dediyimiz kimi, Dünyalığa gedib çıxacaqsan, arıda dayanmayacaqsan. Arıda dayananda standart bir nizamın olduğunu bilməkdən uzağa getməyəcəksən.

Dünyada heç nə var olmur, ancaq insan var olur. Çünkü insandan başqa heç nə mahiyyətə tən olmur. Tutaq, bir çağlar gedilib-gəlinən yolun qırağında ağac vardı. İndi yoxdur, ya quruyub, ya da kəsilib. Bu onu görənlərin xatırında, ya şəkildə, yazıda qalır. İnsan da bir çağlar yaşayırdı, indi ölüb, yoxdur. O da onu tanıyanların xatırında qalıb, şəkildə, yazıda var. Ancaq ağacla insanın bir çağlar olub, indi olmaması eyni anlam daşımır. İnsan ağacdan fərqli olaraq, xatirə faktı olmaqla sınırlanmır (məhdudlaşmır). İnsan şüurlu, ruhlu varlıq olduğu üçün özündən sonra Mənanı tanımaq, dərk etmək nədəni saxlayır. Biz onun ömründən, düşüncəsindən Mənaya doğru yol keçib gedirik.

Ağac kamilliyə can atmır, Doğanın verdiyi səviyyədə nədirsə, elə o olur. İnsan isə Doğanın verdiyi ilə, yəni cismaniliklə yetərlənmir, kamilliyə can atır. Ağac gerçəklikdə dayanır, insan gerçəkliyi ötür. Var olmaq budur!

Bəs insan gerçəkliyi necə ötür, varlığını necə təsdiq edir, necə təsdiq etməlidir? Burada çox böyük çətinlik var, "olmalıdır", "eləməlidir", "eləyə bilər" deməklə məsələ çözümünü tapmır. Deməli,

sözün gücü "necə olmalıdır"ı deməkdə deyil, "necə olunmalıdır"ı deməkdədir. Başqa sözlə, ideya-düşüncə sistemi doğru olmalı, insanın düşünə bilməsi, zəkasını, mənəviyyatını böyütməsi üçün ortam yaranmalıdır. Ancaq bu ortam qıraqdan deyil, insanın içsəl tələblərindən yarana bilər. Necə? – Bu çağa kimi insana doğal varlıq kimi yanaşılıb, yəni Doğanın ünsürü kimi. Onun ruhsal varlıq olduğu gözardı edilib. Sonucda insan Doğadan ayrıla bilməyib, Doğaya qaytarılıb, Doğaya bağlanılıb. Burada insanın Doğadan ayrılmaması heyvandan ayrılmaması anlamındadır. İnsan Doğaya heyvan kimi deyil, İnsan kimi qayıtmalıydı. Onda Doğanı insaniləşdirəcəkdi. Doğadan yalnız maddi yararlanmaq, onu talamaq – insanı doğanın mənasından ayırdı. Doğadan yararlanmaq – Doğanı öldürmək səviyyəsində gerçəkləşdi. Bir sözlə, varlanmaq, zorlanmaq, başqalarının üzərində ağalıq eləmək istəyi Doğa ilə insan arasında uçurum yaratdı. Bilim də bu işdə Doğaya zərbə vurdu. İnsan bilimlə Doğanı maddi kəşf elədi, sənətlə, poeziya ilə mənəvi kəşf elədi. Ancaq sonra maddi kəşflə əldə elədiyi qazanca üstünlük verdi.

Din də Doğa ilə insanın doğmalığını yarada bilmədi. İnsana Doğanın fani olduğunu yeritdi. Bir çağlar panteizm insana Doğada Allahın olduğunu deyirdi. Onda insan Doğaya daha doğma idi. Ancaq monoteist dinlər Doğanın boş, anlamsız olduğunu yeritdilər. İnsan Doğaya yağı kəsildi.

Deməli, insanın doğru yanaşması üçün idrakda gəlişən ideya-düşüncə sistemi doğru özüllər üzərində qurulmalıdır. İdeya-düşüncə sistemi insana doğal varlıq kimi deyil, ruhsal varlıq kimi yanaşmalıdır. İnsanda ruhsal keyfiyyətlər, yaxşılıqlar (fəzilətlər) – olanaqlar şəklində olur. Doğa heç vaxt bu olanaqları üzə çıxarmır, bioloji olanaqları üzə çıxarır. Bir misala aydınlıq gətirək: Doğa münbit torpaqda gül də bitirir, alaq da. İnsan münbit torpağa qulluq göstərməklə barlı-bəhrəli məhsullar yetişdirir. Bunu insan ömrü ilə tutuşdursaq, eyni mənzərəni görürük. İnsan özünü doğal varlıq kimi aparırsa, Doğa onun içini səhraya çevirir. Ancaq özünü ruhsal varlıq kimi qavrayarsa, yəni içinin yiyəsi olarsa, doğa onda gözəl duyğular yaradar. İnsan-Doğa birliyi mənəviyyatla cismanilik birliyi kimidir. Mənəviyyat cismaniliyə tabe olanda heyvanilik qələbə çalır. Mənəviyyat

cismaniliyə hakimlik edəndə onu urvatda saxlayır. Burada hakimlik ağalıq anlamına gəlmir, yiyəlik anlamına gəlir.

Bu çağa kimi bəşəriyyətin ən böyük sorunu mənəviyyatla cismaniliyin, Doğa ilə İnsaniliyin münasibətini doğru qura bilməməsindədir. İdealist baxışda Doğa ideyanın kölgəsi kimi dərk olunur. Materialist baxışda Doğa zəbt olunur. Dini baxışda Doğa rədd olunur. Mütləqilik baxışında Doğa insaniləşdirilir. Biz də Mütləqilik ölçüsündə yanaşılmanın doğru olduğunu önə çəkir, İnsanlığı buna çağırırıq.

Beləliklə, biz ayrı-ayrı ideya-düşüncə yönlərini tutuşduraraq, yığcam bir sonuc ortaya qoymağa çalışdıq. Nədən tutuşdurmalar yolu ilə?! Çünkü bir çox hallarda oxucu yeniliyi araşdırmaq, öyrənmək zəhmətinə qatlaşmaq istəmir. Rastlaşdığı ideyaların köhnələrdə də olduğunu düşünür. Ancaq Asif Atanın düşüncəsini əsaslı öyrəndikdə yeni ölçünün olduğunu görmək çətin olmur.

Biz oxuculara quruculuq zəhməti diləyirirk. O zaman Görəni görmək, Qurucunu qurmaq ərdəmliyi öz təsdiqini tapacaqdır.

## Dünya Doğrularla var olur

Ürəyində Günəş olsun, saygılı oxucu!

Asif Atanın “On Qutsal Bitiq” sistemindən çap elədiyimiz daha bir Bitiqlə görüşünə gəlirik. Bu Bitiq “Onluğun” Üçüncü Yan Bitiyi olan “Həqiqətlər”dir. Bütünlüklə deyimlərdən oluşubdur. Birinci parçası başlıca olaraq, dünya nədir, insan kimdir, həyat necədir sorularına cavab verir. Söz yox, başqa ölçülərlə bu məsələlərə yanaşanlar Asif Atanın baxışlarında hansısa çalarlarla razılaşmaya bilər. Bütün məsələlərə Asif Ata özünün fəlsəfi-ruhani ölçüləri ilə dəyər verir. Biz də bu ölçülərlə yanaşılmanın doğruluğuna güvənirik, onun arxasında dururuq. Başqa yanaşmalarla Asif Atanın yanaşmalarını tutuşduraraq, üstünlüyün Asif Atada olduğunu da dönə-dönə sübut eləmişik. Məsələn, dinlərin dünyaya, insana yanaşması necədir, Asif Atanın yanaşması necə. Eləcə də, başqa fəlsəfi baxışların, siyasi

doktrinaların yanaşmasını tutuşduraraq üstünlüyün hansı düşüncədə olduğunu göstərməyə çalışmışıq. Kimlərsə Asif Atanın Mütləqilik ölçüsünü çətin, gerçəkləşməsi zor olan ölçü saya bilər, ancaq yanlış saya bilməz. Yanılmaq nisbi yanaşmalarda ortaya çıxa bilər, Bütövlük açısında yox.

İstəkli oxucu, bizim istəyimiz, Asif Atanı öyərək, savunaraq, gözlərdə, könüllərdə qəhrəman elan eləmək deyil, İnsanlaşmağın, Millətləşməyin yolunu, üsulunu anlatmaq, bəlirləməkdir. Yüzillərdir biz hər şeyi qıraqdan öyrənməyə alışdırılmışıq. Yanlış şeylər öyrənmişik, yanlış yaşamışıq. İndi qarşımızda özümüzü öyrənmək, özümüzdən öyrənmək olanağı açılıbdır. Bu olanağı doğru dəyərləndirə bilsək, keçmişdən başlayaraq çağımıza kimi hər bir mənəvi, ruhani, siyasi zədələnmələrimizin nədənini dərk eləyib ortadan qaldıra bilərik. Asif Ata bizim ixtiyarımızı öz əlimizə alıb özgürlüyümüzü yetirmək olanağımızdır. Bu Bitiyi oxuyub düşündükcə, düşüncəli insanlar dediklərimizə tanıqlıq edə bilər.

Bitiyin ikinci parçası "Gerçəklik Ata görümündə" adlanır. Dünyada, ölkədə baş verən siyasi gedişlər qısa deyimlərdə aydınlaşdırılır, baxışlar məsələlərin mahiyyətinə yönləndirilir. Dünyada gedən qlobal oyunlar, sovetlərin dağılması, xalqların bir asılılıqdan çıxıb başqa asılılıqlara yuvarlanması; "söz azadlığı", "insan haqları" anlayışlarını parıltılı göstərməklə azadlığın daha da susdurulması, yalançı bərabərlik oyunları ilə insanın eybəcər şəklə salınması, dinin yaratdığı geriliyin (cəhalətin) yenidən ayaq açması, satqınların, dəllalların, ikiüzlülərin, əxlaqsızların yönətimin başında möhkəmlənməsi Asif Atanın görümündə dərindən qiymətləndirilərək baxışlarımıza sunulur.

Ədəbiyyatın, sənətin gah sovetləşməsi, gah kapitalistləşməsi, Quruluşun tərbiyəsinə (tərbiyəsizliyinə) uyğunlaşdırılan obrazların ədəbiyyata, sənətə üz tutanlara sırınması – getdikcə həyatın gözdən düşməsinə qulluq göstərmişdir. Ailənin qurulmasında münasibətlərin alverə çevrilməsi, yaşamağı qorxuya çevirən aktyorların ödüllənərək qəhrəman elan olunması, bu ya buna bənzər gedişlərə aldanaraq insanların müqəddəslik ölçüsündən uzaqlaşması, genel

olaraq toplumsal sorunların başlıca nədənləri Bitiqdə bütün aydınlığı ilə öz əksini tapmışdır.

Bu gün Dünyanı maddiyyat qaynağına çevirən Avropa Sovetlərə yenidən rəğbət oyatmaqdadır. Millətlərin qənimi olan bir Quruluş indiki eybəcərliklərin fonunda Qurtuluş ümidi kimi görünməyə başlayıb. Çünkü Avropa bəşəriyyəti pulçuluq bataqlığına soxub. Bu bataqlıqda maddiyyatsızlıq uğrunda döyüşən insana dünyanın əbədiliyini, yaşamağın gözəlliyini anlatmaq olumsuz görünür. İnsan Məna üstə yaşamayanda maddiyyat onun ömrünü yeyir. Bu həqiqəti insana anlatmaq olduqca zor məsələdir. Bu zorluluq getdikcə dərinləşməkdədir.

Maşınlaşan, sənayeləşən, texnologiyalaşan Avropa dünyaya örnək göstərilir. Heç kim mənəviyyata can atmır, çünkü "örnəklik" yarışında mənəviyyat gərəksiz görünür. Avropada kilsə var, mənəviyyatı oyuna çevirən Vatikan adlı qərargah var. Bunlar Avropa maddiyyatçılığının pərdəsidir. Bir sıra Avropa fəlsəfəçiləri də maddiyyatçılığın dərinləşməsinə qulluq edirlər. Çağdaş gənclik ən çox onları öyrənməyə can atır. Ləyaqət dolanışığa, güzərana qurban verilir.

Bir sözlə, İnsanlığın qarşısında uçurum yolları görünür. Baxmayaraq, çağımızda Batı ideolojisi üstün, daha doğrusu, yenmiş (qalib) bilinir, yuxarıda vurğuladığımız kimi, sovet ideolojisi də getdikcə çəkiciliyini artırır. Bir yanda şüurlara hakim kəsilən din geriliyi, bir yanda ateizm geriliyi, bir yanda qəlibə salınmış, anlamından uzaqlaşdırılmış Millətçilik – düşüncələrdə anarxiya yaradır. Xalqları əzmək, imperializmi, əslində dünyaya ağalığı qorumaq üçün irtica xarakterli nəzəri bazalar yaradılır. Sağlam həyat yerinə xəstə bəşəriyyət, dolanmaq uğrunda yırtıcı mübarizə, savaşlar, qırğınlar, mənəvi-fiziki terrorlar, xalqlararası yağılıq, dövlətlərarası işğalçılıq görünməmiş dərəcədə genişlənməkdədir. Elm, texnologiya, militarizm – hər şey insana qarşı gəlişir. Asif Ata deyir, səbəb birdir: Adamın İnsan ola bilməməsi. Biz də qurtuluşu Asif Atanın öyrətisində (təlimində) görürük. Ona görə də onu öyrətməyə, genişləndirməyə çalışırıq. İnsanlaşmaya, Millətləşməyə əngəl olan nə varsa, onlardan uzaqlaşmağa çağırırıq toplumumuzu, onun timsalında

insanlığı. Atanın ideya-prinsiplərini özündə daşıyan Bitiqlərini çap edib bağışlamaqda, yaymaqda başqa umacağımız yoxdur.

Sayğılı oxucu, Asif Atanı öyrənməyin – bizə yardımçı olmağın deməkdir. Biz İnsanlığın ərdəmliyini qoruyuruq.

Ürəyin Qaranlıqları yarsın!
Atamız Var olsun!

## İnamın Uğur Günü
### (Asif Ata-85)

Ürəyinizdə Günəş olsun sayğılı insansevərlər!

İnsanlığın ən qədim beşiyi olan Azərbaycan zaman-zaman anti-insanlığın ən ağır basqılarına uğradı. Bu gün olduqca çətin, mürək-kəb bir tale yaşamaqdadır. Dini, siyasi poliqona çevrilibdir. Hər şeyimiz – şüurumuz, mənəviyyatımız, Vətənimiz, mədəniyyətimiz işğal altındadır. Bu işğalın sonu varmı, olacaqmı?! – Bu suala emosional həvəslə, əsaslı izahı olmayan ümidlə, quruca Azərbaycan sevgisiylə cavab vermək olumsuzdur. Asif Ata bu suala cavab vermək üçün 22 il düşündü, işlədi, mübarizə apardı. Mübarizəsinə göstərilən təpkilər, özünə qarşı yönələn təqiblər bu sualın cavabının nə qədər dərinliklərdə olduğunu aydınlaşdırırdı. Getdikcə ona çatırdı ki, bu sualın nisbi cavabı yoxdur. Bütöv cavabı isə bulmaq üçün nağıl qəhrəmanlarımız kimi oddan keçməli, imtinalar yaşamalı, qurbanlar verməlidir. Özü üçün belə bir yolu seçməkdən dala durmadı, həyatın qaranlıqlarının üzərinə yeridi. Ancaq bu qaranlıqlardakı gizlinləri üzə çıxarmağa təkcə alimliyinin gücü çatmırdı. Filosofluq, peyğəmbərlik gərək idi. Filosofluqla Mənaya yetmək, Dünyanı kəşf eləmək olur, peyğəmbərliklə Mənaya, Dünyaya İnam yaratmaq, İnsanlığın sorunlarını çözüb ortadan qaldırmaq. Ona görə də yazdı:

***Zəmanə inamını inamsızlıq saydım.***
***İnam yaratdım.***
***Zəmanə idrakını idraksızlıq saydım.***
***İdrak yaratdım.***
***Zəmanə mənəviyyatını mənəviyyatsızlıq saydım.***

***Mənəviyyat yaratdım.***
***Zəmanə iradəsini iradəsizlik saydım.***
***İradə yaratdım.***
***Zəmanə Amalını Amalsızlıq saydım.***
***Amal yaratdım.***
***Zəmanə əməlini əməlsizlik saydım.***
***Ocaq qaladım.***
***Təqiblərə yüksəldim. Ata çağrıldım.***
***Bəşərin nicatı – İnsanlaşmaqdadır.***
***İnsanlaşın – İnsanlaşdırın...***

Bu istəyi ortaya qoymaq hər zamanın, ya da belə deyək, hər zamandakıların işi deyil, zamandan üstün olanın işidir. Böyük hünər, böyük cəsarət tələb olunurdu. Özünü zamana qarşı, gedişə qarşı qoymaq – əzabın son həddini yaşamaq demək idi. Hər yanda səs-küylər başladı, həşirlər çoxaldı, dedi-qoduları aləmi bürüdü, qısqanclıqlar, paxıllıqlar qaynadı, şər-böhtan yerə-göyə sığmadı. Hökumətaltı ədəbi qurumlarla, rəsmi strukturların (özəllikcə sovet DTK-sının) basqısı hədd tanımadı. Asif Atanı özünü uydurmaqda, yekəxanalıqda, heç kimi saymamaqda suçlayırdılar. Burada bir haşiyə çıxmaq yerinə düşər: bu yaxınlarda ədəbi ortamın nümayəndələrindən biri – Firuz Mustafa Asif Ata ilə bağlı bir yazısını paylaşmışdı. Sağ olsun, bu yazıda onun sayğısı da görünürdü. Ancaq köhnə təbliğata xas olan bir sözü də deməyi unutmayıb: “acıdilli, özündən müştəbeh idi”. Qınamıram. Yolu böyük həqiqətlərdən başlayanı anında anlamaq, dəyərləndirmək çətindir. Asif Ata dünyanın dediyini demədi, toplumun dediyini demədi, özündən razı adlandırıldı. Vətənsizliyə, həqiqətsizliyə qarşı döyüşdü, sözlə oynayanlarla barışmadı, onlara qarşı hiddətini yazdı, acıdilli sayıldı.

Ağla-qaradan başqa rəng tanımadı deyirlər. Biz isə deyirik: yarımhəqiqəti həqiqət saymadı, yarımqeyrəti qeyrət saymadı, yarımziyalılığı ziyanlılıq saydı, Nisbini Mütləq saymadı. İnsanlığı pərdəyə çevirmədi, ləyaqəti pərdəyə çevirib arxasında gizlənənləri ifşa elədi. Yeni ölçü yaratdı: “ya hər şey, ya heç nə!”. Dünyanın dediyini demədi, dünyanın dediyindən yeni ölçü yaratmaq alınmazdı. Öz dediyini dedi, öz dediyi olmasaydı, ya da dünyanın dediyini desəydi,

Ocağa gərək qalmazdı. Asif Ata özünü dağın başına qoymamışdı, dağın başına qalxmışdı. Buna görə çağdaşları onu qınayırdı, niyə aramızda deyilsən, səni aramızda görmürüksə, necə sevə bilərik deyirdilər... Bunların hamısı fərqli yaşantıların ortaya çıxardığı görsənişlər idi. Bütün bunlara qohumların üz döndərməsi, təhlükəsizlik qurumlarının amansız təqib eləmələri də əlavə olunurdu. Bu gedişlərə sinə gərmək, dözüb ayaqda durmaq nə qədər böyük güc tələb edirdi. Hardan idi bu güc?! Asif Ata deyirdi: Moskvada oxuyarkən dünyanı öyrənməyə başladım. Filosofları oxudum, tarixi oxudum, ədəbiyyatı oxudum, dinləri araşdırdım, mifologiya ilə uğraşdım, incəsənəti öyrəndim. İnsanın dəyərini aradım, görmədim. Yurdumun ləyaqətini aradım, bulmadım. İnsanın öz qiymətini tapması üçün yeni ölçü gərək idi. Yurdumun ləyaqətini bərpa eləmək üçün ilkin dəyərlərini öyrənməli, zənginləşdirməli, – bunun üçün zamandan üstün olan Amal yaratmaq tələbi dururdu qarşıda...

Platonu oxuduqca Nəsimiləşdim, Nəsimiliyin yüksəkdə olduğunu anladım. Hegeli oxuduqca Fizuliləşdim, Fizuliliyin yüksəkdə durduğunu bəlirlədim. Bəşəriyyətə böyük dəyərlər verən Azərbaycan yenilənməlidir. Yeni insan gərəkdir – yeni şüur, yeni düşüncə, yeni nəfəs gərəkdir – Yeni Azərbaycan yaratmalıyıq – Özümləşən, Dünyalaşan.

Buna görə sıxışdırılırdı, buna görə işdən qovulur, buna görə ailəsi dağılırdı. Ancaq bütün bunlar üzdə baş verirdi, içəridə başqa əhvallar böyüyürdü. Xəyalları zənginləşir, düşüncələri dərinləşirdi. İnsan sevgisi, Azərbaycan sevgisi içinin gücünə çevrilirdi. Bu gücü qıraqdan heç nə əyə bilmirdi. Qohumların üz döndərməsindən, ailənin dağılmasından yaranan fəlakətlər belə, içinin gücündən üstün deyildi.

Asif Ataya görə insanı qurtarmaq dünyanı qurtarmaq deməkdir. Dünya insandan başlayır – gedişi, nizamı, gözəlliyi, əyriliyi, düzgünlüyü, fəlakəti, səadəti insanın böyüklüyü, kiçikliyi ilə şəkillənir. İnsanın naqisliyi dünyanı eybəcərləşdirir, xalisliyi gözəlləşdirir. Ona görə də “İnsanlaşın – İnsanlaşdırın” çağırışı elədi, Mütləqilik ölçüsü yaratdı. Dinlərin, siyasi doktrinaların ölçüsü ilə barışmadı. Dinlər, siyasi doktrinalar insanı aldatdı, alçaltdı. İnsanı hər şeyə inandırdılar,

özündən başqa. İnsanın özünə inamı gərəkdi. Bunun üçün özünü tanımalı, dərk etməlidir. Asif Ata İnsanın özünüdərki yolundan bütün əngəlləri qaldırır, İnsanlığı bayraq edib İnam səviyyəsinə yüksəldir. Bizə görə Asif Atanın 85 illik ömür yolu bu kontekstdə araşdırılmalı, öyrənilməlidir. Onu öyrətmən kimi, alim kimi, filosof kimi dəyərləndirmək yetərsizdir. Bu açıdan onun şəxsiyyətini dərk eləmək də olumsuzdur. Asif Atanı ədəbiyyat, sənət faktına çevirmək onun ləyaqətini bəlirləyə bilməz. Sənət zamanı dəyişmir, zamanın çatışmazlıqlarını izah edir. Asif Ata isə zamanın çatışmazlıqlarını izah eləmir, zamanın çatışmazlıqlarını ortadan qaldıran, başqa sözlə, zamanı dəyişən ideya sistemi ortaya gətirir. Əslində bu, yeni era başlamaqdır. Biz də onun Evladları, davamçıları olaraq, Yeni Eranın – İnam Erasının, İnsanilik erasının sorağını çatdırırıq. Onu öyrətmən sevgisi ilə xatırlamaq, onun çalışmalarını yubileyləşdirmək yerinə, ruhani ömrünü davam edirik. Gedişi dəyişməyin, insanı dəyişməyin yollarını öyrənirik, öyrədirik. Səfərlərimiz, görüşlərimiz, mərasimlərimiz, kitab çaplarımız bu Amala, bu əmələ qulluq göstərir. Asif Atanın dediyi kimi: addım-addım, ağac-ağac, hal-hal, fərd-fərd.

## Asif Ata – 85

Ürəyinizdə Günəş olsun, saygılı yurddaşlarımız!

Bu il biz Ata Ayının (sentyabrın) 25-i Asif Atanın 85 illiyi qarşısındayıq. Düz 23 ildir Asif Ata aramızda yoxdur. Bu 23 il bizim üçün nə demək oldu, ya da bütövlükdə Asif Ata ömrü bizim üçün nə deməkdir?! Qısaca vurğu edək. Öncə onu deyək ki, Asif Ata bizi Ocağına çağıranda heç nə vəd eləməmişdi, qarşımızda insanlaşma, vətənləşmə, xalqlaşma tələbi qoymuşdu. Sağlığında biz onun bu tələblərini nə qədər dərk eləmişdik – demək çətindir. Bu tələblər mücərrəd səslənirdi. Biz elə bilirdik, Ocağında olduğumuz üçün, artıq onun tələblərinə yetmişik. Halbuki bu, üzdən elə görünürdü, bizə elə gəlirdi. O, bizə nə deyirdisə, biz də başqalarına deyirdik. İdeyalarının hikmətini ömrə çevirmək isə sadə bir məsələ deyildi. Cəsarətli olanlarımız da vardı, fədakar olanlarımız da. Sevirdik Asif Atanı,

sadiq idik. Ancaq sədaqətimiz yüksək idrak quruculuğu ilə, dönməz dərk yoluna düşməyimizlə möhkəmlənməmişdi. Ona görə də aramızdan getdiyi gündən çaşqınlıq içinə düşdük. Düşüncə ayrılıqları yarandı. Asif Ataya olan sevgimiz birliyimizə, bir-birimizə bağlanmağımıza yardımçı olmadı. Asif Atanın bənzərsiz ideyalarını gerçəkləşdirmək üçün ruhani hünərlər yetişməli idi. Hələliksə bu hünərlər kövrək olduğu üçün çətin günlər qarşıladı bizi. Toplumda da Ocağa inam sarsılmışdı. Bu sarsılmış inamlılar içərisində Ataya – Ocağa rəğbət bəsləyənlər də vardı, Ocağı istəməyənlər də. Bir sıra istəməyənlər, ən yaxın illərdə, Ocağın ayaqda durmağa gücünün tükənəcəyini, tarixin arxivinə qovuşacağını proqnozlaşdırırdılar. İstəməyənlər özləri bilər, bizim qarşımızda Ocaqsevərlərin inamını bərpa eləmək sorumluluğu dururdu. Özümüzdə güc tapdıq, Asif Atanın dediklərini dərk eləməyə başladıq...

Vətənin özgürlüyü, bağımsızlığı, bütövlüyü İnsanlaşmadan başlayır. Millətin özümləşməsi – yaşaması, var olması, dünyada öz yerini bəlirləməsi insanlaşmadan başlayır. Xalqlararası münasibətlər, bəşərin yüksək, ülvi mənasına qovuşması insanlaşmadan başlayır. İnsanlaşma özüylədöyüş tələbi əsasında gerçəkləşir. Tanrısal məsələlərin dərk olunması, ruhaniliyin cismanilik üzərində qələbəsi – Xəlqi Birliyin başlıca şərtidir. Bu həqiqətlərlə doğmalaşdıqca Ocağı yaşatmağa başladıq. Dönənlər döndü, qopanlar qopdu. Onsuz da dönənlər heç vaxt Ocağın yükünü ifadə eləməmişdilər. Yeni insanlar çağırdıq, Ocağın ruhani yükünün altına girdilər. Səfərlər elədik, görüşlər keçirdik, çoxsaylı Ocaq ədəbiyyatları hazırladıq, hər səfərdə, hər görüşdə yurddaşlarımıza bağışladıq. Soraqlarımız yayıldı, Asif Atanın işini bəlli bir düzeydə bərpa eləyib yaşada bildik.

Ocaq təkcə az sayda davamçılarının məsələsi deyil, ümumxalq, ümumbəşər məsələsidir. Ona görə Asif Atanın 85 illiyinin anlamından danışarkən hansı yolun yolçusu olduğumuzun fərqinə varırıq. Bizim düşüncəmizə görə bu Yol İnsanlığın qurtuluş yolu – Mənəvi İntibah Yoludur. Bu açıdan yanaşanda Asif Atanın ömrü dünyaya qarışan deyil, dünyaya söz deyən ömürdür – əbədi sabaha üz tutan, əbədi sabaha söz deyən ömür!

## Asif Atanın ölümündən sonra Ocağın yaşamasına yönəlik bir neçə söz

**Ürəyinizdə Ata Günəşi olsun, sayğılı yurddaşlarım!**

23 il bundan öncə, Ocaq günsırası ilə 19-cu il, Şölə Ayının 5-də (miladla iyun 1997-ci il) Asif Ata aramızdan getdi. Olduqca çətin dönəmlərimiz başladı. Nə bir təcrübə vardı, nə də yetkin idrak adamları idik. Ancaq yenə də toparlanıb Onun Ocağını yaşatmağa, davam etməyə and içdik, söz verdik. Ayrı-ayrı hallarda aramızda düşüncə ayrılıqları yarandı, yerli-yersiz iddialarımız ortaya çıxdı, düşüncə ayrılıqlarına varanlarımızın hər biri özünü haqlı saydı. Ancaq hər kəs Asif Atanın sözünə dayandı, hər kəs Asif Atanın dediklərini o birilərə anlatmağa çalışdı. Dil tapılmadı, ancaq Yol gedildi. Ocağın həqiqətini taleyinə çevirə bilməyənlər qırağa durdular. Bir kəsim adamlar öz ömürlərini yaşadılar, ancaq Ataya olan sevgilərini itirmədilər, onun adını, xatirəsini andılar, ayrı-ayrı hallarda yazılarını, müsahibələrini yaydılar. Bir kəsim adamlar da Ocağı özlərinin yaşam yolu elədilər. Ocağın bütün qurallarını Atanın buyurduğu kimi yaşatdılar. Asif Ata dünyabaxışının bütün irsini toplayıb arxivini yaratdılar, üzünü köçürüb yaydılar, kitablarını çap elədilər, çoxsaylı tədbirlər, görüşlər keçirdilər, bölgələrə səfərlər edib xalqın arasında onun hədəflərini təbliğ etdilər. Bu gün də bu işlər davam etdirilir, işin miqyası azalsa da.

Ocaqçılıq işini bacarmayanlar oldu, Ocaqdan getdilər, ancaq Ocağa yeni insanlar da qatıldılar. İndiki çağda bölgələrdən yeni qatılanlarımız da var.

Beləcə, Ocaqçılıq da bir prosesdir – insanlarının yanlışlarıyla, doğrularıyla, geri duranlarıyla, sadiqləri ilə, gücsüzləri, hünərliləri ilə yaşayır, qurulur, gedir. Dönə-dönə hüquq mühafizə orqanlarının idarələrində olduq, dindirildik, araşdırıldıq; Dönə-dönə haqqımızda dezinformasiyalar yayıldı; dönə-dönə aşağılamağa, küçümsəməyə çalışdılar; dönə-dönə Asif Atanı savunanlar, işini alqışlayanlar oldu. Bu gün də bu var, yarın da olacaq. Ancaq Asif Ata bütün bunlardan yüksəkdə durur, bütün bunlardan yüksəkdə qurdu Ocağını. Biz bunu yaşayırıq, sübut edirik.

Xatırladırıq ki, Ocaqçılar hər il bu günsırada (təqvimdə), yəni 5 Şölə (iyun) ayında, Ağstafaya səfər edərək, Asif Atanın sonevini ziyarət edirlər. Bu il bəlli olaylara (koronavirus məsələsi ilə bağlı yaranan karantin rejiminə) görə Bakıdan çıxış yoxdur. Bu üzdən Ağstafaya səfər edə bilmədik. Ancaq Bakıda toplaşdıq, ziyarət sözümüzü dedik, qurallarımızı yerinə yetirdik.

Yeri gəlmişkən, Asif Atanın ölümünün ildönümü ilə bağlı kulis.az saytında bilgi verilib. Bu açıdan kulis.az-ın əməkdaşlarına, diqqət ayırdıqları üçün, təşəkkürümüzü bildiririk. Eyni halda, bilgidə gedən bəzi yanlışlara düzəliş vermək istəyirik: Deyilir ki, Asif Atanın ilk dəfə torpağa qoyulduğu Beyləqanda, sonev üzərində, 6 sütun ucaldılıb, onlar kəmərlə bir-birinə bağlanılıb, üzərində ideyanın adı yazılıb. Bildiririk ki, bu tikili Beyləqanda yox, Ağstafada qurulub. Asif Ata Beyləqanda cəmi bir gün qaldı, İran əlaltılarının həşiri ilə sonev (qəbir) açılıb Ağstafaya köçürüldü. Beyləqanda isə həmin yerin qarşısında İnam Evi (Məbəd) ucaldılıb.

Sonra, bilgidə vurğulanır ki, Asif Ata Ağstafada İslam qaydası ilə torpağa qoyulub. Belə bir şey olmayıb! Asif Ata torpağa qoyulandan sonra söz deyildi, hamı oradan uzaqlaşan zaman, Asif Atanın uzaq qohumlarından biri, yenicə mollalığa başlamaq istəyən cavan bir adam axıra qalıb, ərəb dilində bildiyi şeyləri oxuyub.

Başqa bir yerdə deyilir ki, Asif Atanın ardıcılları onu peyğəmbər saymırlar. Bu, doğru deyil. İnanmıram, bu deyilişdə qərəz olsun, görünür onlar bizi yaxşı izləmirlər. Yutubda çıxışlarımız var, orada biz dönə-dönə vurğu edirik: bizim istəyimiz Azərbaycanda Peyğəmbərlik hadisəsi yaratmaqdır. Bu məsələ, bu istək artıq yetərincə hər yerə yayılıb. Yayılmaqda davam edir.

Hər halda, verilən bilgiyə görə bir daha sağ olun deyirik!

## Ölməzliyin Ocaq anlamı

***"Görməyən göz sənin deyil." (Asif Ata).***

Görmək gözün işidir, ancaq tanımaq, dərk eləmək gözün işi deyil. Tanımaq, dərk eləmək idrakın işidir. Gözün biliyi yoxdur. Göz gördüyünü idraka təqdim edir. Göz tanınmalı, dərk olunmalı olanı göstərən vasitədir. Göz ölür, idrak ölmür. Yəni görən ölür, tanıyan, dərk eləyən ölmür. Başqa sözlə, gözün gördüyü insanlaşmır, idrakın dərk elədiyi insanlaşır. İdrak – dərk olunanla (Məna ilə, həqiqətlə) xalqda yaşayır, xalqınkına çevrilir.

***"Duymayan ürək sənin deyil".***

Ürəkdə duyğu yaşayır. Duyğunu daşıyan, yaşadan ölür, duyğu ölmür. Duyduran, yəni vasitə (ürək) ölür, duyan (duyğu), duyulan (həqiqət, Məna) ölmür. Duyğu ruhun qanadıdır. Ruh – həqiqətə duyğularla yetir.

***"Ölümdən əvvəl bədəndən ayrılırsan.***
***Bədən ölür – sən qalırsan.***
***Bəşər yaşayanacan yaşayırsan.***
***Həyata bütöv gəlirsən, sonra parçalanır, paralanırsan, həyata qarışırsan, təzə bütövlərə yarayırsan."***

Asif Ataya görə ruh – İnam, İdrak, Mənəviyyat, İradə birliyidir. İnsanın İnamı, İdrakı, mənəviyyatı, İradəsi ölmür. Başqalarının varlığında davam eləyir. Yəni xalqda. Söz yox, bir insanın varlığında bütöv yaşamır, xalqın (insanların) varlığında yaşayır. Yalnız bir insanda yaşaması mümkün deyil. Bir insanın özünəxaslığı da var. Ruhu – İnamı, İdrakı, Mənəviyyatı, İradəni sənəd kimi flaş karta köçürmək olmaz. Ruhu bir yerə yığmaq, bütöv kitab kimi kiməsə bağışlamaq mümkün deyil. Ayrı-ayrı insanların varlığında yaşayır. Nə qədər ki, bədən sağdır, ruh bədəndə yaşayır, ancaq bədənlə sınırlanmır, onda qalmır, ondan qırağa çıxır. İnsanın özünü başqasında görməsi, başqalaşması da bu deməkdir. İnsan inandığı həqiqəti başqasına öyrədir, dərk elədiyini başqasına anladır, ömründə yaratdığı gözəllikləri başqası ilə bölüşür. Həqiqəti anlamaq, ona inanmaq, onu yaşatmaq öyrədir. Başqaları ilə ruh araçılığı ilə doğmalaşır insan.

Demək, ruh İnsanda yaşasa da bədənə sığmır, başqalaşmağa çalışır. Sadə dildə desək, insanın öyrəndiyini, bildiyini, sevdiyini başqalarıyla bölüşməməsi olumsuzdur (mümkün deyil). İnsan öz ruhunun gözəlliklərini ünsiyyət, davranış yoluyla, sevgi ilə başqalarına verir. Ancaq, dediyimiz kimi, o bir insanla deyil, çoxlarıyla bəhrələnir, bəhrələndirir. Ancaq ruhunu bütöv olaraq hansısa bir insana köçürmür. Bədən öləndə ruhun hikmətləri, yəni ayrı-ayrı insanlara ötürüləni yaşayır, ayrı-ayrı insanlarda bütövlüyə yarayır. Yəni ölən insanın inandığı həqiqət başqalarının inandığı həqiqət olur. Ona görə Ata deyir:

***“Bəşər yaşayanacan yaşayırsan. Həyata bütöv gəlir, sonra parçalanır, paralanırsan, həyata qarışırsan və təzə bütövlərə yarayırsan... Təzə bütövlər yaranır – parçalanmaq, paralanmaq, həyata qarışmaq üçün”.***

Burada Xürrəmilərin baxışına doğmalıq var. Xürrəmilərə görə ruh bir bədəndən başqa bədənə köçür. Atada isə bir bədəndən başqalarına.

Bədənlərin heç biri ruha yaramır. Çünkü maddi bədənin olanaqları sonludur. Ruhun isə olanaqları sonsuzdur. Sonsuz sonluda bir yerə qədər yaşaya bilir, sona çatanla sona çatmır, başqa sonlularda yaşamalı olur.

***“Torpaqdan yaranmır ruh.***
***Oddan yaranır.***
***Şimşəkdən yaranır.***
***Günəşdən yaranır.***
***Buluddan yaranır.***
***Torpaqdan yaranan bədəndir. Torpağa yarayır”.***

Yəni ruh göydən yaranır. Göydən torpağa işıq gəlir, istilik gəlir, yağış gəlir, qidalandırır torpağı. Torpaqda yaranan qida bədəni yaşadır, bədəndə isə göy halından yaranan ruhu oluşdurur. Ruh günəşə bənzəyir, şimşəyə bənzəyir. Bulud kimi dolur-boşalır. Ancaq Günəş də, Şimşək də, bulud da göyə sığır, ruh bədənə sığmır. Günəş də, Şimşək də, bulud da Mənanın təzahürüdür. Ancaq ruh Mənanın

ifadəsidir, özü də kamil ifadəsidir. Mənanın təzahürü məkana sığır, Mənanın ifadəsi məkana sığmır (məkanda baş versə də). Ona görə türklər İşıqdan yarandığını iddia edirlər.

Bizə görə isə işıqdan (fotosintez prosesi ilə) təkcə bədən deyil, ruh da yaranır. İşıq araçılığıyla ağıl, düşüncə, inam, mənəviyyat aydınlanır, işıqlanır. Bir sözlə, göyün xassələri ruhun xislətinə çevrilir. "Köç dastanı"nda deyilir: "...işıq ağacın gövdəsinə dolur, 9 ay, 10 gün sonra gövdə yarılır, oradan beş uşaq çıxır." Bu mifologiyanın elmlə, ruhaniyyatla, ruhla bağlılığı var. Yaranışda işığın rolu isə təkcə türklərə deyil, bütövlükdə insana özgündür (aiddir).

Elm araçılığıyla bu həqiqətlərə tam yetmək olmur, ruh gərəkdir. Ona görə insan özündə kamil ruh yaratmalıdır. İnsandan kamil ruh qalır. Kamil ruh yoxdursa, insan əsasən genetik olaraq, irsi olaraq ölmür, qismən də xatirələrdə yaşayır. Bu da nisbi ruhun, zəif ruhun yaşantısıdır.

Ata deyir: "***Heç kəs ruha bərabər deyil. Buna görə də hamı ölümlüdür.***

***Heç kəs bədənə bərabər deyil, buna görə də hamı ölümsüzdür."***

Yəni, bədəni ilə ölümlüdür, ruhu ilə ölümsüzdür. İnsanda ölən bədəndir, ölməyən ruhdur. Asif Ataya qədər də "ruhun ölməzliyi" deyimi var. Ancaq o deyimlərdə insan tam özü olmur, ruh da fantazi-yalaşır. Məsələn, semit baxışına görə insan öləndə ruh ağızdan çıxır, hara gedir bəlli deyil. Sonra nə vaxtsa torpağın altında çürüyən bədən diriləcək, sorğu-sual ediləcək, özünü doğrultsa yaşamını cən-nətdə davam etdirəcək, doğrultmasa cəhənnəmdə. Burada insana doğru qiymət verilmir. Ruh da doğru qiymətləndirilmir. Nəinki doğru qiymətləndirilmir, ruhun aqibəti bəlli olmur.

Göydən gələn işığın enerji olduğunu deyən baxışlar da var. Yəni işığı Mütləqlə eyniləşdirirlər. İlahi enerji deyilişi var. Enerji yerə gəlib nələrəsə çevrilir deyilir. Onda belə çıxır ki, İlahi enerji, yəni Mütləq olan təzahür eləmir, çevrilir. Çevrilməni qəbul etsək, Mütləq olan çoxdan tükənməli idi. Ya da Mütləq olan daim başqa şeyə çevrilirsə, yeni Mütləq yaranmalıdır. Ya da belə desək, çoxlu Mütləqlər olmalıdır. (Çoxallahlıq, yəni politeizm bu bənzətmələrdən yaranıb). Bu doğru deyil. Bizə görə Mütləq birdir, o çevrilmir, təzahür edir.

Enerji cismin ifadə imkanıdır, Mütləqin deyil. Mütləq – təzahürlərində yenilənir, bu isə Yeni Mütləqin yaranması demək deyil. Mütləqin təzahür nizamı, uyumu Yaranış, Doğuluşdur. Mütləq – Yaranış, Doğuluş nizamını yaşadan Qüdrətdir. Bu Qüdrəti dərk eləmək üçün Ruh gərəkdir.

## Ölüm Mütləq Yoxluq deyil

Bəşəriyyətin ruhaniyyat açısından keçdiyi yol olduqca mürəkkəb, keşməkeşli tarixlərlə gəlişmişdir. Gələnəksəl olaraq, ruhani dünyabaxış yaradıcıları öz yaratdıqlarının sorğulanmasını istəməmişlər. Çünkü mücərrəd (genel) məsələlərin aydınlaşdırılması bir çox yönlərdə çətin, bəzən isə olumsuz olmuşdur. Bu üzdən əgər tanrısal məsələlər ən incə ayrıntılarına qədər sorğulanmağa açıq olarsa, bəri başdan qəbul olunması sual altına düşər. Çünkü çoxsaylı subyektiv baxışlar, düşüncələr ortaya gələr, bu da çaşdırıcılığa, inamın, inanmağın sarsılmasına nədən ola bilər. Bununla belə, dünyabaxış yayılandan sonra onun irəli sürdüyü ideya-prinsipləri ayrı-ayrı düşüncə adamları, qaçılmaz olaraq (labüd şəkildə), öyrənməyə, araşdırmağa başlayırlar. Ələşdirmələr artdıqca şübhələr çoxalır, dartışmalar çelişkilər doğurur. Sonucda fərqli yanaşmalar yeni təriqətləri ortaya çıxarır. Bundan sonra da yeni təriqətlərin ələşdirənləri meydana çıxır. Beləcə axtarışlar davam edir.

Dediyimiz kimi, bir sıra mücərrəd ideyalar aksioma kimi deyilir, təfəkkür yoluyla onların isbat olunması çətinlik yaradır. Ancaq biz düşünürük ki, belə ideyaların təcrübi olanaqlarla isbatlanması çətin olsa da, nələrisə uydurmaq yolverilәsi deyil. Çünkü uydurmalar, sonradan, insanın yaşamında səmimiyyətsizliyə, yalanlara yol açır. Birgəyaşayışın nizamı xatirinə bəzən uydurmalar zorən (məcburən) ortaya atılır. Ünlü alman filosofu Kant deyib, əgər Allah olmasaydı belə, (nizam xatirinə – S.A.) toplum onu uyduracaqdı. Bizə görə uydurulan nəsnə – nizam saxlaya bilər, ancaq gözəlliklərin kəşfinə, özünüdərk prosesinə yol açmaz. Allah ideyasının anlamı doğru bəlirlənsə, onu uydurmağa gərək qalmır. Allahı (əslində Mütləqi)

uydurmaqla yaşamın özünü xurafata çevirmək olar ki, bununla da, bütün münasibətlər zədə götürmüş olar. Deməli, yanaşmalarda başlıca qorxu – biliyin azmasında (azdırılmasında), doğal yaşamın (təbii həyatın) xurafatla çuğlaşmasındadır. Mücərrəd anlamlar, anlayışlar üçün bu qorxu həmişə yaranıbdır. Bəs bu qorxunun tam olaraq ortadan qalxması olumludurmu?! Demək çətindir. Elmin girə bilmədiyi, başqa sözlə, sınaqla (təcrübə yolu ilə) bəlirlənməsi alınmayan məsələlər heç vaxt qapadılmır, əbədi açıq qalır. Bəşər övladı hər dönəmdə, hər soyda bu məsələlərə yenidən baş vurur, yeni baxışlar sərgiləməli olur. Ancaq yeni bir baxış sərgilənənə qədər, öncəki baxışın yaşamda hakim etkisi qalır. Sonralar da, yeni baxışın gəlişi ilə, biliyin genel qaynağı olaraq, öncəki baxışlar, tarix açısından, tam sıradan çıxmır. Yeni baxışın oturuşması da asan baş vermir. Üstünlük əldə eləməsi üçün, yeni baxış ciddi məsələlərə, sirlərə inanılacaq düzeydə açıqlamalar verməlidir. Bu sirlər Tanrının, Asif Atanın anlayışı ilə desək, Mütləqin sirləridir. Yuxarıda dediyimiz kimi, bu sirləri sınaq yolu ilə tam açıb aydınlaşdırmaq, bir sözlə, bağlayıb nöqtə qoymaq olumsuzdur. Sadəcə olaraq, elə aydınlaşdırmağa çalışılmalıdır, (hər şeyi elmi sınaqla öyrənmək alınmasa da) sirlər dərk olunsun, uydurmalar baş alıb getməsin. Bu dərk sürəcinin başlıca yönü özünüdərk, Dünyanıdərk anlamındadır. Özünüdərk məsələsinin yetişməsi, başqa sözlə, kamil insanın formalaşması sərgilənən baxışlarla (əyri, ya doğru) sıx bağlıdır. Ona görə də tanrısal məsələlərin yanlış qoyulmasında, aydınlaşdırılmasında ortaya çıxan araşdırmalar özünüdərk sürəcini (prosesini) nəinki gecikdirir, çox hallarda bu sürəcə əngəl olur. Genel olaraq götürəndə tanrısal məsələlərə girişmək olduqca çətindir, belə də deyə bilərik, azların işidir. Bu azlara peyğəmbər deyilir. Peyğəmbərin işini davam edən, bu işə aydınlıq gətirməyə çalışan insanlar da az olubdur. Gözəl zəhmətlər, sevgilər, gözəl düşüncələr bizə gözəl örnəklər də göstərə biliblər. Bunlar qum topalarının içində inci dənələri kimi olubdur. Ancaq dediyimiz kimi, yaşamda xurafatın geniş, aktiv olması bu inciləri ayırıb gəlişdirmək, yararlanmaq gedişində böyük çətinliklər doğurub.

Onu da deyək, öncəki biliklər dərin, gerçək anlamdan daha çox, alleqorik şəkildə, obrazlaşdırılmış biçimdə sərgiləndiyindən, sonrakı

aşamalarda da bu şəkillərini qoruyub saxlamışdır. Sonucda idrak yenidən sirlər burulğanında yeni axtarışlara baş vurmalı olmuşdur. Mifologiya libasında görünən biliklər, yetərsizliyi ucbatından, bütün sirlərin qapısını açmağa yardımçı ola bilməmişdir.

Biz dedik, tanrısal məsələlərə girişmək olduqca ağır sürəcdir. İnsanın, Dünyanın, hətta Tanrının özünün belə, nə olduğuna açıqlama vermək gərəkir. Birgəyaşayışa nizam vermək, onu qorumaq olduqca çətindir. Bu məsələləri yoluna qoymaq üçün, çox hallarda, bu məsələlərdən qıraqda çalışmalar sərgilənibdir. Buna sosial-ekonomik nəzəriyyələri örnək göstərmək olar. Sosial-ekonomik nəzəriyyələr varlığın cövhərinə girmir, biçim yaratmaqla uğraşır. Bu uğraşmalara sıcaq baxmaq da olar. Ancaq bu nəzəriyyələr mənəvi-ruhani ölçüləri əvəz eləməyə girişdikləri üçün yaşam eybəcərliklərlə dolur. Toplum təbəqələşir, iyerarxiya oluşur, mədəni gəlişmələr üzdə gedir (zahiriləşir). Bir sözlə, varlığıdərk sürəci mövcudolma şərtlərinin ölçüyə çevrilməsinə qurban verilir.

Əslində bəşəriyyətin bugünkü yaşamı kor bir gəlişmə sürəcindən başqa bir şey deyildir. Mövcudluğu sürdürmək üçün (yaşamaq üçün) tükənməyən mübarizə aparılır. Bu, insanın bioloji doğadan (heyvanatdan) ayrıla bilməməsinin göstəricisidir. Mənanı tanımayan insan dünyanı dərk edə bilmir. Dünyanı dərk edə bilməyən insan (yaşadığı) heyvanata bənzər ömrünü elə heyvanat biçimində də başa vurur. Ömür özü anlamsız sürdürülür, olanaqlar üzə çıxarılmır, sonevə aparılır. Ömürdəki tanrısal sirlər heyvanatla örtülüb qapadılır. Bu örtüyü qaldırmaqla ömürdə ölümsüzlüyün sirləri aydınlaşmağa başlayar. Biz də dedik, tanrısal nəzəriyyələr bu işdə insana yardımçı olmağa can atıblar. Ancaq bütöv bir nizam yarada bilməyiblər. Çünkü açarı doğru bəlirləməyiblər. Əslində bu sorunların bir açarı var – özünüdərk, dünyanıdərk. Dərk məsələsi isə "Öz nədir", "Dünya nədir" sorularına doğru cavab bulmaqdan keçir. Dediyimiz kimi, bu işdə bəşəriyyətin keçdiyi yol keşməkeşlidir. Min illərdir, "Öz"-ün nə olduğuna bağlı açıqlamalar verilir. Bu açıqlamalarda öyrənilәsi məsələlər də, çelişkilər də yetərincədir. Bu çelişkilər, insanın ölümsüzlüyünün gah bioloji varlığı ilə, gah da ruh dünyası ilə bağlı yanaşmalarda ortaya çıxıb. Düşünürük ki, bu məsələlərin yönündə

idraka tərs düşən çalarlar çox olsa da, xurafat deyib üstündən keçmək doğru deyil. Olduqca ciddi araşdırılması gərəkən bir qonudur.

Bilirik, tarixdə ayrı-ayrı toplumların yaşam sistemində bir-birinə oxşar gələnəklər olubdur. Deyək ki, Mesopotomiya, qədim Misir toplumları öləni torpağa gömərdə yanında yemək-içmək, geyim, daş-qaş (zinət) əşyaları basdırırdılar. Yəni ölənin başqa bir dünyada yaşamını davam edəcəyinə inanırdılar. Məsələnin əməli görsənişi gerilikdir, geridüşüncəlilikdir. Ancaq bu cür olayları geridüşüncəliliyin qalığı kimi qiymətləndirsək də, üstündən sükutla keçməyi doğru saymırıq. Burada ölümün hər şeyi biryolluq yox etməsinə kuşku var. Altyapıda (Şüuraltıda) insana elə şeylər çatır ki, onunla barışmamaq olmur. Bəşər övladı "Mütləq Yoxluğa” inanmır. Yəni ölüm biçimi belə, sonadək yox edə bilmir. Deməli, yoxolmanın nisbiliyi haqqında insan yapısında (şüurunda) bilgi var. Sadəcə bu bilgi yönünü, səmtini dəyişir, yalana, xurafata gedib çıxır. Dediyimiz kimi, bu onunla bağlıdır, insan ölümlə barışmır, tam yox olacağına inanmaq istəmir. Deməli, burada nə mütləq yalan var, nə də mütləq doğru. Doğru ilə yalan bir-birinə qarışıb. Asif Atanın fəlsəfəsi açısından baxsaq, yanaşma o qədər nisbiləşib ki, xurafata gedib çıxıb...

Panteizmə görə maddi olan əbədidir. Bunu biz Nəsiminin yaradıcılığında da izləyə bilirik. Nəsimiyə görə torpağa gömülən adam gübrə kimi, enerji kimi torpağa qarışıb bitkilərin yaranmasına qatqı göstərir. Yəni yenidən yaşama qayıdır. Bunu doğrulayan bilgilərə Veda dinlərində də rast gəlmək olar.

Yuxarıda dediyimiz kimi, bu bilgilərin rüşeym səviyyəsini qədim Mesopotomiya xalqlarının, eləcə də Misir xalqlarının baxışlarında da izləyə bilirik.

Asif Atanın "Ölümlə görüş" adlı yazısı var. Orada deyilir: "Məni aparmağamı gəlmisən, ölüm?! – Gedək, səndən qorxum yoxdur. Çünkü sən məni öldürə bilməyəcəksən. Cismimdən heç nə itməyəcək, təbiətlə birgə oyanacaq. Mənə oxşayan saysız-hesabsız körpələr gələcək dünyaya. Əlim birinə qismət olacaq, gözüm, üzüm, dodaqlarım bir başqasına...!" Asif Ata da canın, cismin tam yox olmayacağı bilgisindən yan keçməyib. Tərsinə, bir az da ürəklə demək olar ki,

Nəsimi də, ondan yarım min il sonra Asif Ata da bəşəriyyətin axtarışlarındakı qarışıq, tam bəlirlənməmiş bilginin yönünü, səmtini doğrultmuşlar.

Bu bilgi İslam dininə də yansıyıb. Ancaq yanaşma yenə gedib xurafata dayanmışdır. İslam dünyagörüşünə görə, "Qiyamət Günü" baş verəndən sonra, Allah bütün ölüləri dirildəcək, sonra məhkəmədə Hinkir, Minkir adlı mələklərin sorğuları başlayacaq. Bu baxışı bir az da geniş götürək. Deyilir: "Allah Adəmi palçıqdan (torpaqdan) yaratdı, sonra ona özündən nəfəs (əslində ruh) verdi". Yenə də biliyin xurafata gedib çıxmasını izləyirik. Əslində bədən (cisim) torpaqdan əmələ gəlir. Yəni torpağın bitirdiyi qidalarla, bitkilərlə şəklə düşüb yaşayır. Söz yox, burada Allahın (əslində Dünyanın Dünyadan böyük Mənasının) nizamı, tələbi var. Yəni Materializmin dediyi kimi, hər şey materiyanın özünün törəməsi deyil. Məna nizamı var. Başqa sözlə, Mənanın Yaranış, Doğuluş nizamı var. Bu nizam Dünyanın özündə olan Qüdrətlə oluşur. Bu Qüdrət yaradıcı deyil, yəni Dünyada usta rolunu oynamır. Bu Qüdrət görsənişə gəlir (təzahür edir). İslam Dünyabaxışı bu Qüdrəti yaradıcı qüvvə səviyyəsinə endirir. Əslində Mütləqi Nisbiləşdirir. Mütləqin Görsəniş (təzahür) xassələrini Onun (Mütləqin) yaradıcılıq bacarığı kimi dəyərləndirib dediklərini hərfi anlamda qəbul etdirməyə çalışır. İdrakın aydınlaşdırmalı olduğu mürəkkəb məsələləri adi ağılla açıqlamaq yolu tutur. Demək, ruhun görməli olduğu məsələləri lamisə duyğularının qəlibinə salır, buna görə də dəyərləndirmələri xurafatla sonuclanır. Yəni bilik azır, azdırılır. Əslində Xristianlıq dünyagörüşündə də yanaşma İslamda olduğu kimidir.

İndi qayıdaq Allahın “ölüləri dirildəcəyi” deyilişinə. Nəsiminin də, Asif Atanın da dedikləri bir-birinə çox yaxındır. Yəni ölən yoxa çevrilməyəcək, Doğa ilə (təbiətlə) birgə oyanacaq. Bunu İslam, ya Xristianlıq dünyagörüşləri belə deyirlər: "Allah ölüləri dirildəcək, sonra da sorğulayacaq". Ölü dirilməz, öncəki biçim, olduğu kimi, geri qayıtmaz. Nə də onlar yaşantılarının əyriliklərinə, düzlüklərinə görə, öləndən sonra sorğulanmaz. Dini dünyagörüşlər buna ilahi ədalətin bərpası kimi anlam verirlər. (Bu qonuya sonrakı bölümdə geniş toxunacağıq). Allahın ölüləri dirildəcəyi məsələsi, bir az öncə vurğula-

dığımız biliyin (torpağa gömülən bədənin Doğa ilə birgə oyanacağı bilgisinin) hərfi anlamda ölənin dirilməsi kimi qəbul olunmasıdır. Əslində biliyin dəyişdirilməsi (təhrif olunması), xurafatlaşdırılmasıdır.

Hürufilik baxışında "maddi olan – əbədidir" deyilişi var. Bu baxış da bütöv şəkildə özünü doğrultmur. Belə ki, heç bir cisim olduğu biçimdə əbədi qala bilməz. Hər bir cisim paralanır, parçalanır, dağılır. Sonra Doğa ilə birgə oyanır, hissələri ilə yenidən həyata qayıdır. Ancaq dinin dediyi kimi, Hinkir-Minkirin məhkəməsinə getmir, həyatın öz mühakiməsinə, sınağına qayıdır. Hürufilərdə biçimin əbədiliyə tən tutulması – Doğanın ilahiləşdirilməsindən qaynaqlanır. Bu baxışa görə, ilahi olan Doğa, ötəri, keçici ola bilməz. Əslində genel anlamda götürəndə Doğa əbədidir, ancaq Doğadakılar əbədi deyil, parçalanır, dağılırlar. Sadəcə yoxa çevrilmirlər. Bilimin də dediyi kimi, bir şəkildən başqa şəklə düşürlər. Yəni şəklini dəyişən biçimə əbədi demək olmaz. Asif Atanın fəlsəfəsinin açısından açıqlasaq, biçimin Mənası əbədidir, özü yox. Məna yeni biçimlərdə görsənişə gəlir – biçimləri ilə əbədi yenilənir. Doğanı genel anlamda əbədi götürmək də Doğanın Mənasının əbədi olması deməkdir.

Bəs bədənin (cismin) parçalanandan, dağılandan sonra Doğa ilə birgə oyanması insana hansı nikbinliyi verir?! Axı cisim öncəki biçiminə qayıtmır. Dini dünyagörüşlərdə yalançı vədlərlə ümid yaradılır. Deyilir, Allah ölüləri yenidən dirildəcək. Əslində heç kim buna sonacan sevinmir. Çünkü dinə tapınanlardan heç kim bilmir ki, yeni ömrünü cənnətdəmi davam edəcək, cəhənnəmdəmi. Ondan nələr soruşulacaq, o, özünün öncəki ömrünü cənnət tələblərinə uyğunmu yaşayıb, tərsmi yaşayıb?! Yaxşı davranışları ilə yanaşı, nə vaxtsa uyğun olmayan davranışları, yaşantıları da olubmu?! Tərəzinin hansı gözü ağır gələcək?! Allah mərhəmət göstərəcəkmi?! Bu kimi dolaşıq sualların içində insan gələcəyə ümidlə baxmır. Ancaq həm də, gerçək yaşamında üzləşdiyi haqsızlıqlara, ədalətsizliklərə görə Axirət dünyasında onun heyfinin alınacağını düşünüb yalançı təsəlli tapır.

Biz dedik, tanrısal məsələlərə aydınlıq gətirmək olduqca çətin gedişlərdir. Bilimdən fərqli olaraq, bu məsələdə hər şeyi hazır bilgiyə çevirib ortaya qoymaq olumsuzdur. Bütün verilən mücərrəd bilgilər

də, dərk sürəcinə yardım etmək üçündür. Tanrısal bilgilərin axıra kimi gerçək təsvirlərlə göstərilməsi zor olduğundan dolğun təsəvvürlər də birdən-birə yaranmır. Ancaq təsəvvürlər nə qədər dolğunlaşsa da, Mütləqi sözə sığışdırmaq olmur. Mütləqi sözlə deyil, Ruhla bütöv ifadə eləmək olur. Çünkü Ruh Mütləqə qovuşa bilir. İnandıran Söz də, – Ruhun qovuşmasından sonra başlayır. Qovuşma – Dərk eləmə deməkdir. Dinlərdə Ruhun Allaha qovuşması yoxdur, ən yaxşı halda, Allahın cənnətinə düşməsi var. Ona görə dinlərdə Allahı dərk eləməkdən söhbət getmir. Hətta bu, olumsuz sayılır. "Allahın işinə qarışma" demək də dərk sürəcini çıxdanc edir. Asif Atanın fəlsəfəsinə görə Mütləq (Allah anlamı) dərk olunandır. Dərk olunmasa, Ruhun kamilləşməsi baş tutmaz. Ataya görə Ruh – İnam, İdrak, Mənəviyyat, İradə Birliyidir. Bu Birliyin Mütləq səviyyəsi yarananda kamillikdən danışmaq olar. Bu Birlik Mütləqləşməsə Mütləqin varlığına inam sual altına düşə bilər. Bizə görə kamillik elə Mütləqi dərk eləməkdir. İnsan Mütləqi dərk eləsə, yaşamında eybəcərliklərə yol açmaz. Dünyanın gedişi, həyatın biçimi İnsaniləşər, gözəlliklər əməllərə qonar.

Dindarın Allaha inamı naşı inamdır, kamilləşməyən ömrün inamıdır. Doğrudur, insanda İnam birinci koşuldur (ilkdir), bu danılmazdlr. Yəni insan müqəddəsliyə, ucalığa yetmədən də, başqa sözlə, dərk eləmədən də inana bilər. Öncə inam başlayır. Ancaq ilkin düzeydə (ibtidai səviyyədə) dayanıb qalarsa, dərk etmək ucalığına yetməzsə inam tükənər, inamsızlığa çevrilər. İnandığın həqiqət ömrə gəlməzsə, davranışlarda, əməllərdə yaşamazsa etki gücünü azaldar. Bir sözlə, naşı inam naşı şübhələrə yol açar. Ancaq həqiqət ömürlərdə yaşayarsa, daha dərindən dərk olunar, dərk olunduqca yaşamda daha dolğun ifadə oluna bilər. Bütün bunlar yoxdursa, dindarın Allaha yanaşmasında sevgi deyil, qorxu yer tutar. Yəni onun Allaha inamını qorxu yaşadar, sevgi yox. Qorxunun yaratdığı inam həyatda xeyirə yol açmaz. Başqa sözlə, qorxaq inam Xeyiri var edə bilməz. Sevdalı İnam – dərk edən inamdır – Xeyirlə doğmalaşan, Xeyiri yaşadan inamdır. Buna isə dindar yetmir, çünkü Allahı dərk eləmək sürəcindən uzaq tutulur.

Yuxarıda dedik, Söz Ruhun Mütləqə qovuşmasından sonra başlayır. Yəni Mütləqi dərk eləməsən, onun haqqında uca söz söyləyə bilməzsən, onu uydurarsan, təhrif edərsən, xurafata çevirərsən. Ona görə dindar Allah haqqında danışanda onu ən çox qorxunc, cəzaçı, ya da mərhəmətli bir obraz kimi canlandırıb adama bənzədir. Yəni uydurur, təhrif edir. Mütləq insanda var, insan Ruh araçılığı ilə (vasitəsilə) kamilləşə – Mütləqləşə bilər. Bu zaman insani kamilliklərdən danışmaq Mütləqdən danışmaq anlamına gələr. Mütləq insanda yaşayır, var olur, ancaq insanda başa çatmır, nə də təkcə insan varlığı ilə məhdudlaşmır. Dindar isə Allahı insanda görmür, insandan qıraqda, ancaq davranışları ilə insana bənzəyən bir qüvvə kimi təsəvvür edir, o cür də təsvir edir. Dindarın təsəvvüründə Allah insan kimi danışır, görür, qəzəblənir, ancaq transsendentaldır, insanüstüdür, dünyaüstüdür. Bu təsəvvürlə yanaşanda Allah tez-tez dəyişilir, gah qəzəbli olur, gah mərhəmətli olur, gah nəzarət edir, gah əlçatmaz, ünyetməz bir uzaqlıqda mövcud olur. Bizə görə dəyişmək nisbiləşmək deməkdir. Nisbi nə varsa ölümlüdür. Dindarın təsəvvüründə Allah əzəliliyini, əbədiliyini itirir. Mütləqin insanda yaşaması, ancaq insanla məhdudlaşmaması isə onun dəyişkənliyi deyil, sonsuzluğudur. Dünyada olan Mütləq, elə insanda olan Mütləqdır. Dünyalığın İnsanda yaşayan İnsanlıq çalarıdır, keyfiyyətidir. Dünyalıq isə yalnız İnsanlıq çaları deyil, dərin, geniş çalarlarla zəngindir, Bütövdür.

Mütləqidərk özünüdərklə bağlıdır. Özünüdərk, əslində özündəki Mütləqi dərkdir. İnsan ruhani varlıqdır, o özündə Mütləq gəzdirir. Özünüdərk – özündə özündən yüksək olanı dərk eləməkdir.

İnsanın xarakterini, xassələrini öyrənirlər. Öyrəndiklərini də insanın özünə öyrədirlər. Bu yanaşmanın adına psixologiya deyirlər. Bu, özünüdərk prosesi üçün bəsit bir yanaşmadır. İnsanın xarakteri, xassələri mahiyyətindən çox aşağıdır. Bu açıdan yanaşanda psixologiya İnsana çatmır. Psixologiya insanı temperament qəlibinə salır, bu qəlibdə qiymətləndirir. Temperamentlərlə bioloji olanaqlarını aşmayan insanı öyrənmək olar, kamil insanı öyrənmək olmaz. Kamillik özündəki ideala yetməkdir. İdeal olanaqda (imkanda) olan bütövlükdür. İnsanı temperament qəlibində öyrənmək, onu idealdan

ayırmaqdır. İnsanda reallığı görürlər, idealı görmürlər. Reallıq, ən yaxşı halda, nisbi gerçəkləşmiş idealdır. Öz ömründə idealı reallığa çevirmək insanın başlıca işi olmalıdır. Ancaq idealın reallığa çevrilməsində insanın özünüdərk prosesi durmasa ideal gerçəkləşməz, ya da nisbi gerçəkləşər. Reallıq məzmununu itirər. Əxlaqi, mənəvi pozuntularla başa gələn pis reallıq oluşar. Deməli, idealın gerçəkləşməsi üçün, həyatda yaşaması üçün dərk olunmalıdır...

Yuxarıda vurğu elədik, bir çox qədim xalqlarda (Mesopotomiya – Şumer, Babil, Assur, qədim Misir) ölüm-həyat məsələsi ilə bağlı bilgilər doğrulmadığına görə xurafata meyillənmişdir. Öləni torpağa gömərəndə onunla birgə nələrisə gömmək ölümsüzlük axtarışının yanlış sonuca varması idi. Həyatın başqa bir dünyada davam etməsinə inam, dediyimiz kimi, insanın ölümlə barışmaq istəməməsinin göstəricisidir. Mahiyyətcə bədənin hissələri ilə yenidən yaşama qayıtması ilə bağlı bilgidir. Yəni biz məsələyə inamın xurafata varması kimi baxsaq da, olayın etkisindən hansısa doğru bilgi də bula bilirik. Bilqamıs dastanında Bilqamısın “Dirilik Çiçəyi” axtarması, Xızırın “Dirilik Suyu” tapıb ölümsüzlük qazanması kimi söyləmlər (rəvayətlər) də, ölümə etirazdan doğan yanaşmalardır.

Göy cisimlərinə pərəstiş eləmək gələnəyi də olub qədim xalqlarda. Burada da biz, məsələnin gerçək çalarlarına qapılıb qalmağı doğru saymırıq. Ancaq bu məsələdə də bizə ötürülən bilik yox deyil. Biz biliyin yanlış yönləndirilməsini bütün hallarda zərərli sayırıq. Ancaq eyni halda, anlamağa çalışırıq, – nə üçün insan göy cisimlərinə pərəstiş etməliydi?! Elmi baxışlar bu məsələni aydınlaşdırmağa çalışır, bu zaman birxətli (birtərəfli) yanaşmaqla yenə də sualın cavabını açıq saxlayırlar. Məsələn, elm dinlərin yaranmasını, ilahi qüvvələrə, eləcə də göy cisimlərinə pərəstişin nədənini, insanın Doğada baş verən olayların (təbiət hadisələrinin) qarşısında aciz qalması ilə bağlayır. Bu yanaşma yanlış deyil, ancaq məhduddur. Biz dedik, insanın torpağa gömülməsindən çox sonralar təbiətlə birgə oyanması faktı ilkin (ibtidai) bilik səviyyəsində mövcud olmuşdur. Doğa insanın mövcud olmasında, ağıl işlətməsində önəmli rol oynayır. Mövcudolma birbaşa Doğa ilə bağlıdır. Ancaq təkcə Doğa ilə bağlılıqda məhdudlaşmır. Göy cisimlərinin də, özəllikcə Günəşin

hәlledici qatqısı vardır. Doğada әmәlәgәlmә prosesi fotosintez sonucunda gedir. Burada bilimin aydın hәqiqәtlәrini tәkrar etmәyi gәrәkli saymırıq. Sadәcә demәk istәyirik, göy cisimlәrinә sәcdә dә boş yerdәn yaranmayıb. Yәni mәsәlәnin kökündә sırf qorxu dayanmır. İnsanın mövcudolmasında da, ruhsal varlıq kimi formalaşmasında da Göyün özәl etkisi var. Nә yazıqlar ki, dini içsәl gәrәklik açısından deyil, әn çox üzdәki gәrәklik (zahiri ehtiyac) açısından, toplumu basqı altında saxlamaqla, birgәyaşayışın nizamını qorumaq açısından açıqlamağa çalışıblar. Batının bilim düşünәrlәri (elm adamları) dinә daha çox rasional yanaşıblar. Ona görә içsәl ehtiyaclara әqli geriliyin görsәnişlәri (tәzahürlәri) kimi baxıblar. Әslindә bilim adamları bu mәsәlәyә zәka predmeti kimi yanaşmalı deyildilәr. Yanlışların içindә ilkin (ibtidai) biliyin olduğunu ortaya çıxarmalı idilәr.

Din sinifli Quruluşların mәhsulu sayılır. Sinfi çelişkilәrin (ziddiyyәtlәrin) dinlәrin birgәyaşayışı yönәltmәk istәklәrinә yansımasını danmırıq. Ancaq dinlәr başlıca olaraq, Asif Atanın dediyi kimi, Mütlәq axtarışlarından yaranıb. Mütlәq isә, elәcә dә ona inam, heç bir sinfә, Quruluşa özgün ola bilmәz...

İndi "Doğa ilә oyanış" mәsәlәsinin Mütlәqlә bağlılığına yönәlik bir neçә söz deyәk. Bu mәsәlәdә panteizm materializmdәn üstündür, Mütlәqә İnam baxışı hәr ikisindәn. ... Ağac tumları, bitki toxumları torpağa düşür, çürüntülәri torpağa qarışır. Sonralar orada yenidәn rişәlәr vermәyә başlayır. Yerin özündә yaranır, özündәn yaranır, göyün etkisi, qatqısı ilә yaranır. İnsan ölüb torpağa gömülәndәn sonra bәdәnin bütün hissәlәri dә, deyәk ki, göz dә torpağa düşür. Qida kimi, enerji kimi yenidәn hәyata qayıdır. Söz yox, elә göz kimi qayıdır, deyәk ki, barmaq kimi qayıtmır. Asif Ata ona görә deyir, "cismimdәn heç nә itmәyәcәk, tәbiәtlә birgә oyanacaq..". Dünyalığın yaranış tәlәbi var, yenidәn qayıdır, yeni biçimlәrdә yaşayır. Ancaq olduğu kimi tәkrar olmur. Detallar qayıdır, bütöv biçim tәkrar olmur. "Özündәn yaranır" bu demәkdir. Dünya özündәn yaranır, ancaq Mәna ilә yaranır, Mәnalı yaranır. Yaranış – Gerçәklik-Mәna münasibәtidir. Asif Atanın baxışına görә Gerçәklik Mәnadan yaranır, Mәna Gerçәkliyi yaratmır. Görsәniş (Tәzahür) törәmә deyil. Gerçәklik Mәnanın görsәnişidir. Söz yox, Mәna gerçәklәşәndә әksilir, azalır.

Onların arasında bir əkslik baş verir. İdrak bu məsələnin aydınlaşdırılmasını yoluna qoymaq üçün çoxsaylı axtarışlar etmişdir. Ancaq daha çox çelişkilər ortaya çıxmışdır. Gah Gerçəklik Mənanın törəməsi kimi (fəlsəfi baxışlarda), gah Mənanın yaratdığı nəsnə kimi (dini baxışlarda) düşünülmüşdür. Tanrının varlığı-yoxluğu üzərində çəkişmələr də bu cür çelişkili münasibətlərdən doğmuşdur. Tanrını (deyək ki, Mütləqi) dərk eləmək məsələsi də açıq sual kimi qalmışdır. Asif Atada bu sual belə cavablandırılır: – Var olmağın bir yolu var – Mütləqləşmək!

Bilimin dediyi “Doğa olayları (Təbiət hadisələri) qarşısında acizlik” məsələsi gözlə görünən məsələdir. Gözlə görünənə dayanıb tanrısal sistemə baxış sərgiləməyin yetərsiz olduğu Asif Atada aydınlığa çıxdı. Gözün görmədiyi də var, – bu, içsəl (daxili) ehtiyacdır. Buna ikinci dərəcəli baxılıb. Əslində isə əsas bu məsələdir.

İçsəl ehtiyac ölməzlik ideyasından qaynaqlanır. Ölməzlik də Mənaya özgündür. Biçim dağılır, paralanır, parçalanır. Bəs necə olmalıdır, axı insan Məna daşıyıcısı olsa da, həm də cisimdir, biçimdir. O isə varlığını biçimcə sürdürməyi arzulayır, buna inanmağa çalışır. İnsanın bu arzularına görə ona fərqli anlamda, fərqli biçimlərdə ölümsüzlük vəd olunubdur. Bu da ən çox din dünyagörüşlərində – “ölümdən sonrakı həyat” ideyasında ifadə olunub. Bu isə, söz yox, yeni yanlışlara yol açıb. Həyat – canlı var olmaq anlamı daşıyır. Ölümdən sonra, bütöv biçim olaraq, canlı var olmaq olumsuzdur. Bu açıdan dinlərin cənnət vədi uydurmadan başqa bir şey deyil. Cənnət fiziki yaşamı təsvir edən yalandır.

Biz dedik, bəşər övladı ölümlə barışmır, o, təkcə ruhani-mənəvi ölümsüzlük deyil, fiziki ölümsüzlük də diləyir. Yuxarıda vurğuladığımız "bədənin hissələri Doğa ilə birgə oyanacaq" düşüncəsi bədənin öncəki biçiminin bərpa olunması anlamına gəlmir. Ancaq cənnət vədində guya bədən öncəki biçimi ilə bərpa olunub fiziki yaşamını (mücərrəd dünyada) sürdürür. Əslində burada ruhun maddiləşdirilməsi kimi yanlış təsəvvürlərin şəkli var. Yəni ruhun maddi olaraq yaşaması məntiqi yaradılıb ağıla yeridilir. Ayrı-ayrı dini, fəlsəfi baxışlarda bu məsələlərə dolğun, doğru açıqlamalar gətirilmədiyindən yeni-yeni suallara yol açılır. Bəs bu cür yanılmalar nədən

ortaya çıxa bilər?! – Axı ruh nədir, necə yaşayır?! Yoxsa insan ölümdən sonra yalnız xatırlanmalı, xatirələrdəmi yaşamalıdır?! Ruhun yaşamasını aydınlaşdıra bilməyəndə, insanın yalnız xatirələrdə qalacağı düşüncəsi ortaya çıxır. Bu isə insana az gəlir, ona görə bununla barışmır. Bu barışmazlıqdan da ruhun maddi təsəvvür olunması, fiziki yaşaması kimi uydurmalar baş alıb gedir. Belə düşünülür, bir halda ki, ölümün mütləq olmadığı haqqında, insanın fiziki olaraq tam başa çatmaması haqqında ilkin bilik də var, bəs niyə ölümsüzlük insanın təsəvvürünə tam sığışmamalı, təsvirə bütöv gəlməməlidir?! – Nə yazıqlar ki, bu sorunu asan həll etməyə dartınmalar yanlışlarla sonuclanır ki, bunu da gözardı edirlər. Doğrudur, insanın xatirələrdə qalması var, ancaq ruh xatirə demək deyil axı, maddi də deyil. Bu məsələ tam çözülmədiyindən (yəni bu suallar açıq qaldığına görə) Animizm (ruhların hər yerdə olmasına inam) hələ də yaşayır. Bəşər min illəri ötə bilməyib, çünkü həqiqətə yetə bilməyib. Yəni ibtidai baxışların etkisindən çıxa bilmədiyi üçün onları çağımıza daşıyıb gətirib. Adamlar çağdaş dönəmdə də ölənlərinin ruhlarının onların çevrəsində, otaqlarında dolaşdıqlarını düşünürlər. Ruhların onları (canlı yaşayanları) gördüklərinə, ancaq özlərinin canlı yaşayanlara görünmədiklərinə inanırlar. Bu qarışıq-dolaşıq yanaşmalar aydınlığa çıxmır. Axı görən həm də görünməlidir, yəni görmək gözə xasdır. Göz varsa görünməlidir. Burada məsələ dolaşdırılır. Ruh eyni vaxtda həm maddi, həm də qeyri-maddi kimi düşünülür. Buradan çıxan sonuc odur, nə qədər ki, ruhun mahiyyəti doğru bəlirlənmir, animizm də yaşayacaq, başqa ibtidai baxışların başqa çalarları da.

Asif Ata deyir, Ruh – İnam, İdrak, Mənəviyyat, İradə Birliyidir. İnam, İdrak, Mənəviyyat, İradə maddi deyil. Bəs genel olaraq götürəndə, bu keyfiyyətlərdə maddi nəsə varmı?! Məsələn, inanılan, sevilən, öyülən, deyək ki, bir insan maddi, cismanidir. Deyək ki, ana inanılır, sevilir, öyülür. Ana cismanidir, ancaq sevilən, inanılan, öyülən anadakı analıqdır. Yəni cismanidə ruhani sevilir. Sevilən, anadakı Mütləqdir. Belə deyək, anadakı özündənkeçmə, umacaqsız özünü əzaba vermək – cismanilik deyil, ruhanilikdir. Demək, Mütləq öz nişanəsində sevilir.

Bəs Tanrını sevmək necə?! Axı Tanrı (deyək ki, Mütləq olan) ana kimi maddi, cismani deyil. Özü özünün nişanəsi deyil. Tanrını xəyalda (yəni xəyal etməklə) sevmək olarmı?! – Bunun üçün gərək Tanrı xəyalda canlandırılsın, təsəvvür edilsin. Deməli, sevmək üçün ya gerçəklikdə görməlisən, ya da xəyalda canlandırmalısan. Analıq ana araçılığı ilə (vasitəsilə) ifadə olunur, görünür, canlanır. İnsan hər şeyi canlandırmağa çalışır. Bunun üçün o, hər şeyi lamisə duyğularının tələblərinə uyğunlaşdırır. Bu zaman o, sevdiyini, inandığını uydura bilir. Çünkü lamisə duyğularının qavramı məhduddur. Onlar yalnız gerçək olanı qavrayır. Yəni Mütləqin özünü deyil, əlamətlərini qavrayır. Bu qavrama isə Mütləqə çatmır. Deməli, insanın sevdiyini, inandığını uydurmaması üçün, sevgisi, inamı kamil olmalıdır. Onda Mütləqi dərk edəcək. İnam, sevgi naşı olarsa, canlandırmaları da naşı olacaq, yaratdığı təsəvvür də. Naşı təsəvvürdən naşı təsvir doğacaq. Naşı təsvir həqiqəti anlada bilməz. Bununla da uydurma, xurafat yaranacaq. Deməli, xurafatdan qurtulmağın bir yolu var – İnsanın ruhu kamilləşməlidir.

İndi dönək, ruhun gah maddi, gah maddi olmayan biçimdə təsəvvür olunması məsələsinə. Dedik, inam maddi deyil, ancaq maddidə aşkara çıxır. Yəni inamın obyektə münasibəti maddi araçılığı ilə (vasitəsilə) yaranır. İnanan, özündə ruhu daşıyandır, cismanidir. Ruh cismani araçılığı ilə başqa cismanidəki ruhaniliyə inanır. Ruhun inanması, görməsi, dəyərləndirməsi üçün o, cismanidə olmalıdır. Cismanidən qıraqda ruh Mənanı ifadə eləmir. İfadə eləmirsə yaşamır. Deməli, ruhun yaşaması üçün cisim gərəkdir. Cisim ölür, ruh başqa cismanilərdə yaşamını davam edir.

Qədim baxışlarda ruhun bir bədəndən başqa bədənə köçməsi ideyası olub. Burada məhdudluq var. Bir bədəndən başqa bədənə enerji keçə bilər, "gör-götürlə" tərbiyə keçə bilər. Ancaq ruh enerji deyil. Ruh bir bədəndə yaşayan canlı, maddi nəsnə deyil ki, elə bircə bədənə də köçüb yaşaya. Ruh – genel insanlıqda yaşayır. Asif Ata deyir, "ölən gerçəklikdən gedir, Mənada qalır". "Ölümsüzlük" yazısında isə deyir, "qalaq-qalaq meyid yığılır sonevliyə". Deməli, torpağa gömülən bədənlər qalaq-qalaq meyiddir. Ancaq nə vaxtsa Doğa ilə birgə oyanan bədən hissələri artıq qalaq-qalaq meyid deyil.

Meyiddə ruh yoxdur. Ancaq “Doğa ilə birgə oyanan” yenidən ruh daşıyıcısına çevrilir.

Doğada, eləcə də, Doğa ilə birgə oyanan cismanilikdə Məna var. Yaranış – Mənanın görsənişə gəlmək olanağıdır. Bu açıdan yanaşanda ruh yaranışla gəlir, qıraqdan gəlib bədənə dolmur. Bədən öləndə onun daşıdığı ruh başqa bədənlərlə ifadə olunur. Deməli, ruh bireysəl (fərdi) deyil, geneldir (ümumidir). Bireydə yaşadığı sürəcə (müddətcə) Bireyə xas sayılır. Yəni Birey araçılığı ilə yaşaması Bireyə özgün (aid) sayılır. Asif Ata deyir, "Ruhum Buddada, Zərdüştdə, Platonda cəmlənib, onları öldürə bilməmisən, məni də öldürə bilməyəcəksən". Deməli, İnam, İdrak, Mənəviyyat, İradə geneldir. Bireydə yaşadığı sürəcə Bireyin olur. Ancaq Bəşər ruhu deyilən bir anlayış var, ayrı-ayrı bireylərdə yaşayıb Mənanı ifadə edir. Bununla belə, burada bireyin rolu kiçilmir, tərsinə, daha da güclənir. Məna bir fərddə bir cür ifadə olunur, başqa fərddə başqa cür. Yəni ruh hansı fərddə hansı düzeydədirsə, bu onun özümlüyüdür. Ruhu kamilləşdirmək fərdin özündən asılıdır.

Dinlər də deyir, Tanrı hər yerdədir. Ancaq dinlər Tanrının hər yerdə olmasının nəliyini, necəliyini dərk eləmir. Tanrı hər yerdədir, o sıradan həm də insandadır. Asif Atanın anlayışınca Məna (Mütləq) hamıda var, ancaq heç kimin deyil. Mənanı ifadə eləyən ruh da hamıda var, ancaq heç kimin deyil. Başqa sözlə, heç bir cismani ilə məhdudlaşmır. Necə ki, İnsanlıq adlı Məna heç kimin deyil, ancaq İnsanlar bu Mənanı kamil, ya da qeyri-kamil ifadə eləməklə fərqlənirlər. Deməli, “mənim ruhum kamildir” demək, Məna məndə bütöv, özünə bərabər ifadə olunur deməkdir. Dünyalığın kamil ifadəsi insanda doğrulur. İnsan doğulanda ruh onunla doğulur, onunla böyüyür. Yəni İnsanilik Mənası insanda doğuluşdan olduğu kimi, bu Mənanın ifadəsi olan ruh da doğuluşdan olur. (Eləcə də insan doğmaq olanağı ilə birgə gəlir dünyaya). Ancaq ruhun artmaması, necə var elə qalması (ilkin (ibtidai) düzeydən yüksəyə qalxmaması) insanın özündən asılıdır.

İndi qayıdaq Asif Atanın "ölən gerçəklikdən gedir, Mənada qalır" deyiminə. İnsan, ruhunu Məna ilə kamilləşdirir. Yəni Mənanı kamil ifadə eləməklə ruhunu kamilləşdirmiş olur. Mənanı kamil ifadə

eləmək – İnamı, İdrakı, Mənəviyyatı, İradəni Mənaya bağlamaq, Məna ilə dolmaq deməkdir. Mənaya bağlı olan ruh, bədən öləndən sonra, bədənlə birgə torpağa gömülmür, Mənada qalır. Məna isə insanlarda onların ruhu araçılığı ilə ifadə olunur. Bu, məsələnin bir yanı. Başqa bir yandan, ruh canlı ünsiyyətlərdə də başqalarını etkiləyə bilir. Lap elə bioenerji ilə mənəvi keyfiyyətlər ötürülə bilər. Sevgi də cismani araçlarla, deyək ki, lamisə duyğularımızla (görmək, eşitmək, toxunmaq yolu ilə) yarana bilər. Ancaq ötürülən sevgi cismani deyil, cismani araçdan qat-qat yüksək olan haldır. Əgər sevginin, inamın ötürülməsi lamisə duyğularımızla məhdudlaşarsa, davranışlardakı hansısa qırağaçıxmalarla, pozuntularla aradan gedə də bilər. Deməli, lamisə duyğularımızla ötürülən sevginin, inamın yox olmaması üçün sevgimiz də, inamımız da kamilliyin doğurduğu münasibət olmalıdır. Vurğunluq – məna ilə hal kimi yaranır. Deməli, araç olanın kamilləşməsi deyil, ötürülənin kamil olması önəmlidir.

Ruh ideya araçılığı ilə də ötürülə bilər. İdeyada ruhun məzmunu, saflığı, kamilliyi, gözəlliyi, qüdrəti yaşayır. İdeyanı İnamına, İdrakına, Mənəviyyatına, İradəsinə yaxın buraxan insanın ruhu ideyavericinin ruhu ilə birləşir, bütövləşir. Deməli, ideyada, yaradıcılıqda düşüncədə ruhani enerji xassəsi var. Ata deyir, insan şeirdə ruhu oxuyur, deyək ki, musiqidə ruhu dinləyir, sənət əsərlərində, rəssamlıqda ruhu görür. Deməli, yaradıcı insan öz ruhunu yazır, öz ruhunu çalır, ruhunu çəkir, belə də deyə bilərik, ruhunun tələblərini ödəyir. Bunlar ruhun yaşaması biçimləridir: gör-götür, düşüncələri, diləkləri paylaşmalar (yəni ünsiyyətlər), yaradıcılığın oxunması, əməllər, cəsarət, döyüşkənlik... bütün bunlarla yaddaşlara köçmək. Yaşantıların hamısı ruhani xassələrdir – İnam, İdrak, Mənəviyyat, İradə əməlləridir. Bu da bədən araçılığı ilə olur.

Məncə, insanın ruhu yalnız öləndən sonra deyil, yaşayanda da başqalarında yaşayır. İnsanın başqalaşması, özündən qırağa çıxması, özünü başqasında, başqasını özündə görməsi bu deməkdir. Biz Asif Ata ilə görüşüb ayrılanda deyirdik: "Ata Ruhunu Ürəyimdə aparıram". Bu yalnız bir məcaz deyil, gerçək yaşama bağlıdır. Yəni Ruh bədənlə ifadə olunduğu dərəcədə başqalarında öz mənəvi, əxlaqi etkilərilə yaşayır. Əməl yaradır, yaddaş yaradır, xatirə yaradır (ömür-

lərdən ömürlərə ötürülür, yaddaşlardan yaddaşlara köçür). Xalqın mənəvi yaşam ölçülərində keyfiyyət kimi var olur. Xalq Mənadır, fərdi ruh mənada qalır, doğuluşlarla, yaranışlarla yenilənir, həmin keyfiyyətlər yeni fərdlərdə üzə çıxır. Xalqın yaradıcıları, daşıyıcıları ruhani əməllərlə davam edir. Bu gün xalqdan gələn üstün keyfiyyətləri aşkarlayıb, özündə yeniləyib inkişaf etdirənlər özlərindən sonrakı soylarda davam edirlər. Asif Ata deyəndə "ölən xalqda qalır, Mənada qalır" bunları gözə alır. Gərək ruhani keyfiyyətləri yaradıb yaşayasan ki, Xalqda – Mənada qalasan (xalq fərdin Mənasıdır), "Qalmaq Olanaqları"nı özünlə sonevə aparmayasan. İnsan bioloji tələblərlə yaşayanda təbiətdən (yəni heyvandan) ayrıla bilmir. Adamda ağalıq, yırtıcılıq, tamah instinkt səviyyəsində olur. Ruhsal yaşamaq üçün instinktləri ötmək gərəkdir. İnsanın dünyaya gəlişinin anlamı da budur – instinkti ötmək, mahiyyətinə, yəni İnsanlığa yetmək. Bütün gözəlliklər Mənadadır. İnstinktlərlə barışan adam Mənaya – gözəlliklərə can atmır. Həyatı instinktlərə bərabər tutur. Yüksək (ali) həyat – Ruhsal Var Olmağın anlamıdır. Ruhsal Var Olmaq – həm halal əməyə alışmaq yoludur, həm də yaşama (həyata) gözəllik gətirən Mənanı dərk etməkdir.

Bir sözlə, Yaşamaq – fiziki əməkdə, düşüncədə, Məna ilə dolmaqda arasıkəsilməzlik deməkdir. Fiziki əməyin arası kəsilərsə tənbəllik, ətalət, yorğunluq gələr ömrə. Bu isə xəstəlik deməkdir. Düşüncədə, mənəvi davranışlarda arasıkəsilmək baş verərsə, qeybətə, pisliyə, paxıllığa, dedi-qoduya yol açılar. Bu da xəstəlikdir. Mənfi enerjilər çoxalanda hər kəs özünə də, özgəyə də zərər verir. Bir də var, nisbi yaşamaq, yəni Adamlıq səviyyəsi – ilin bir bu başında mərhəmətli, ədalətli olur, bir də o biri başında. Bu isə Var Olmaq deyil.

Asif Atanın fəlsəfəsinə görə yuxarıda vurğuladığımız səviyyələrin biri Məxluqluğu, biri də İnsanlığı ifadə edir. Orta səviyyə "Adamlıq"dır.

Ata deyir, təbiət insanda çaşıb. Bəlkə də heyvana xas mənfi çalarların insana keçməsi anlamında deyir. Gərək insan təbiətin verdiyi ilə yetərlənməyə, ruhunu kamilləşdirə. Ruhu kamilləşməyəndə vara, dövlətə, şöhrətə, şəhvətə... təşnə olacaq. İnsanın təbiətlə məhdudlaşmamaq olanağı var. Ömrün nizamı təbiətdən yüksək olan Məna

tələbi ilə yaranır. İnsan nisbi yaşayanda ruhunu kamilləşdirməyin qayğısını daşımır. Əslində insan musiqini, poeziyanı, sənəti, rəssamlığı, rəqsi... ruhunun tələbi ilə yaradıb. Ancaq daim ruhunun tələbi ilə yaşamır, ruhuna, necə deyərlər, bir az qida verən kimi bədənin istəklərinin yanına qaçır. Bəs nədən gah heyvana enir, gah ruhaniliyə can atır?! Mövcudolmanın tələblərinə boy vermək bəlkə şüuraltıda toplanmış, cismaniliyin yenidən yaşama qayıdacağı biliyi ilə bağlıdır?! – Ata deyir, "qalaq-qalaq biçim yığılır sonevliyə (qəbirstanlığa), ancaq ruh ölmür. Sonra da deyir, öləndən sonra təbiətlə birgə oyanacam, əlim birinə qismət olacaq, gözlərim bir başqasına. Mənə oxşayan saysız-hesabsız körpələr gələcək dünyaya...”. Axı ruhu özüylə apara bilməyən, heç nəyə yaramayan, torpağa çevrilən bədən necə yenidən (hissələri ilə) həyata qayıdır, onun gözü dünyaya yenidən baxır?! – Yuxarıda vurğuladıq, təbiətdə, eləcə də, təbiətlə birgə oyanan cismanilikdə Məna var. Məna torpağa çevrilmir, torpaq araçılığı ilə yaranışı aşkarlayır, yeni biçimlərlə görsənişə gəlir. “Ruh yaddaşı”, “göz yaddaşı” anlayışları var. Ruh yaddaşında çox şeylər aydın bilinir. Bəlkə ona görə qaynağı bəlli olmayan kədər gəlir musiqi dinləyəndə, rəssamlıq əsərləri izləyəndə. Ruhun tələbi ilə poeziya yaranır, musiqi yaranır. Göz, qulaq araçılığı ilə bunlar Mənaya köçür. Bizə görə poeziya ruhun izharıdır. Bütün obrazlaşdırmalar ruhun tələbidir, – insan sanki buludlara qonur, onlarla birgə haralara isə axıb gedir. Təxəyyül ulduzları dərir. Dəniz insanı boğduğu halda, onlar arasında doğmalıq yaranır. Ruh daim bədənin istəklərindən artıq bir şeylər tapır, ona bənzəyir, daha doğrusu, onların mənası ilə birləşir. Bunların heç biri təcrübədə yoxlanılmır. Təcrübədə yoxlanılan biliyi mütləq bilik saymaq olmaz. Əşya haqqında, olay haqqında istənilən bilik nisbi bilikdir. Deyə bilərlər, nisbi haqqında mütləq bilik əldə etmək olar. Olsun. Bununla belə nisbini tam, bütöv bilmək – Mütləqi bilmək deyil. Çünkü sınırlı (məhdud) olandan, görünəndən artıq olan Dəyişməzliyi bilmədən biliyi mütləqləşdirmək olmaz. Genel olaraq götürsək, fərdi anlamda bilik mütləq ola bilməz. Dərk mütləq ola bilər, bilik yox. Məsələn, mən insanın hüceyrə quruluşunu mütləq bilmərəm, onun ruhani mahiyyətini isə dərk edə bilərəm. Ancaq bir çox doktrinalar “bireysəl dərk” sorunu yaradırlar.

Kosmik insan, dünya ruhu, kosmik idrak, üst insan i.a. anlayışlar da bu sorunlardan qaynaqlanır. Üst insan anlayışı, öz növündən olan insandan kəskin fərqlənən, kosmik insan düşüncələri oluşdurur. Bu isə, Allahın fövqəl, transsendent olması qədər cəfəngiyyatdır. Göyel-Yerel insan anlayışı uydurmaq – yeni bir iyerarxik (təbəqələşmiş) ruhaniyyat yaratmaqdır. İnsanın düşüncəsini çıxılmazlığa soxub özünüdərk sürəcinin yolunu bağlamaqdır. Ən başlıcası "yerel" sayılan insanı dərk eləmək – onun məhdud olduğuna gətirib çıxarar ki, bu da toplumsal gəlişməyə (ictimai tərəqqiyə) zərbədir. Nə yazıqlar, insan nələrisə bacarmadığını düşündüyündə, özündən qıraqda, ya ilahi güc uydurur, ya da özündən bacarıqlı "üst insan" (fövqəl insan) təsəvvürü formalaşdırmağa çalışır. Sən demə, "bacarıqsız yerel insan"ın "bacarıqlı göyel insan"a dönüşməsi gərəkirmiş. Bu, insana inamsızlığın görsənişidir.

Veda dinlərinin məntiqinə üz tutsaq, insanın kamilləşməsi üçün o, həyat adlanan sansaradan qurtulmalıdır. Bunun üçün hər yeni doğuluşunda buna can atmalı, davranışlarını, əməllərini buna hesablamalıdır. Hətta insan ruhunun başqa canlılara keçməsinə də inam yaratmağa çalışır (bəlli reinkarnasiya ideyası). Bu ideya da bəşəriyyətin ölümsüzlük axtarışlarının bir uzantısıdır. Ancaq ölümsüzlüyün bu çalarla düşünülməsi insanda elə də nikbinlik oyatmır. Çünkü burada ölümsüzlük ideyası ruhani məzmununu itirir. Əslində ölümsüzlüyün ruhani mahiyyəti, fəlsəfi anlamda, yenidəndoğulma ideyasıdır. Reinkarnasiyada yenidəndoğulma yoxdur, təkrar doğulma var. Üstəlik təkrar doğulmada insanın ruhu başqa canlılarda da ortaya çıxır. Bu da onunla bağlıdır ki, ruh maddi qəbul olunur. Qitaupanişadlarda ruh insanın saçının ucunun dörd milyardda bir hissəciyi kimi düşünülür. İnsan bir yaşam periodunda necə davranmışsa, ruhu o cür şəkillənir, təkrar doğuluşda uyğun davranışlı yaşam sürən canlıda ortaya çıxır. Deyək ki, insan çox ət yeyibsə, onun ruhu təkrar doğuluşda hansısa vəhşi heyvanın canında yaşam tapır. Ya da torpağa qarışan insan bədəninin çürüntülərindən (enerjidən) əmələ gələn hansısa otu, bitkini hansısa heyvan otlayırsa onun canına keçir. Beləliklə, insanın ruhu həmin canlıda yaşamalı olur. Söz yox, biz bu cür yanaşmanı doğru saymırıq. Birinci, ruh maddi deyil,

bunu yuxarıda vurğu elədik, cismanidə yaşasa da, cismani deyil. İkinci, ruh bədənlə torpağa gömülmür, bədən təbiətə qarışır, ancaq heçliyə çevrilmir. Məna təbiətin özündədir, təbiətdə yenilənir. Təbiət Mənanın görsənişi kimi yeni şəklə düşür, yenidən şəkillənir. Məna həm də özündə özünün ifadəsini gəzdirir, yəni ruh olanaqda (imkanda) var. Yəni cismanidə olanaq kimi var. Cismani doğulandan sonra, gəlişmiş cismanidə, canda, bədəndə Mənanı ifadə eləyir. Ancaq ruh istənilən canlıda olmur, insanda olur. Heyvanın ruhu yoxdur. Yəni İnamı, İdrakı, Mənəviyyatı, İradəsi yoxdur. İnam, İdrak, Mənəviyyat, İradə Mənanı heyvan bədənində ifadə eləmir. İnam, İdrak, Mənəviyyat, İradə İnsanlıq adlı Mənanı ifadə eləyir. İnsanlıq adlı Məna da heyvan cismində deyil, insan cismində yaşayır, insan cismi araçılığı ilə yenilənir. Ona görə ruhun istənilən canlıya keçməsi deyilişi yanlışdır. Genel olaraq ruhun bir bədəndən başqa bədənə keçməsi deyilişi də yanlışdır. Yenə də biliyin yönü dəyişir, enir, inam xurafatlaşır. Bir bədəndən başqa bədənə köçmə deyilişində də ruhun maddiləşdirilməsi tendensiyası var. Maddi isə ölümlüdür, bu tendensiyada ruhun əbədiliyi, genel olaraq, ölməzlik ideyası dərk olunmaz.

Yuxarıda Asif Atadan bir alıntı göstərdik: "qalaq-qalaq meyid yığılır qəbirstanlığa". Bu deyim çelişkili görünə bilər. Necə olur, həm qalaq-qalaq meyid, həm təbiətlə birgə oyanan cisim. Həm "gördüyünü qəbrə aparmırsan, duyduğunu qəbrə aparmırsan, getmirsən, qalırsan... Həm də ruh torpaqdan yaranmır, torpaqdan yaranan bədəndir, torpağa yarayır..". Torpaq təbiətdir, təbiət özündə Məna daşıyır. Məna özündə özünün ifadə olanağını (imkanını) oluşdurur. Deməli, meyid nə qədər ki, təbiətə qarışmayıb heç nəyə yaramır. Təbiətə qarışandan sonra Mənalanır. Əgər belə olmasaydı, yəni bədən öləndən sonra Məna ilə bağlılığı olmasaydı, onda onun təbiətlə birgə oyanmasının heç bir anlamı qalmazdı. Bununla belə, cismin hissələrinin təkrar yaşama dönməsi yenidən doğulma anlamına gəlməz. Yenidən doğulma ruhla bağlıdır. Yəni yenidən doğulma fəlsəfi anlam daşıyır. Cismin hissələrinin təkrar yaşama dönməsinin fəlsəfəsi ilə yenidəndoğulmanın fəlsəfəsini eyniləşdirmək doğru da deyil. İnsan yaşadığı ömürdə yenilənməklə,

ruhunun bütövləşməsi ilə yeni ömür başlayır. Yenidən doğulur da deyə bilərik. Yalnız bundan sonra insan olmağın nə demək olduğu aydınlaşır. **Bu çox önəmlidir, hər şey buradan başlayır. İnsani münasibət bu bəlirtidən oluşur: İnsan toplumsal (ictimai) heyvandırmı, quldurmu, bəndədirmi, biologiyadırmı, sadəcə təbiətin bir parçasıdırmı?! Yoxsa özündə Mütləq daşıyan ruhsal varlıqdırmı?!** Bilik dəqiq verilməyəndə mübahisələr, çəkişmələr baş alıb gedir. Hər kəs öz bildiyinin dəqiq olduğuna güvənib onu əsaslandırmağa çalışır. Bizə görə biliyin nisbi xarakter daşıması – onun Mütləq ölçü tapa bilməməsi ilə bağlıdır. Deməli, istənilən nəzəri, ya empirik biliyi dəyişməz bir ölçü ilə tutuşdurmaq gərəkdir. Bunun üçün idealı tanımaq gərək. Ancaq ideal haqqında düşünərkən onu gerçəkliyin məntiqi ilə analiz etmək, əsaslandırmağa çalışmaq özünü doğrulda bilməz.

Bir biliyə alışmaq (vərdiş eləmək) – alışan üçün doğru, əsaslı sayıla bilər, ancaq başqa biliklərlə üzləşəndə çaşa, yanıla bilər. Deməli, yenə ölçü məsələsini necə bəlirləmək gərəkdiyinə gəlib çıxırıq. Yenə də bilikdən üstün bir məqama gəlib dayanırıq – dərk məsələsi.

Empiriklərə görə idrak, bütün hallarda, təcrübədən başlayır. Asif Atada İdrak İnamdan başlayır, yəni Ruhani İdrak. İstənilən olayı anlamaq üçün zaman, məkan, səbəb olmalıdır deyirlər. Ancaq Mənanı bu anlayışlarla anlamaq, izah eləmək olumsuzdur. Mənanı Ruhani idrakla anlamaq olur. Söz yox, Məna olaydan qıraqda deyil. Ona görə olayı dərk eləmək, əslində onun Mənasını dərk eləməkdir. Yəni olayın hesablanması, bəlirlənməsi ilə onun mənasının dərk olunması eyni deyil. Səbəb, zaman, məkan – olayı bilmək üçündür, dərk eləmək üçün yox.

Allahı dərkolunmaz sayırlar. Çünkü idrakla heç bir bağlılığı yoxdur, transsendentaldır. İdrakla bağlı olan hər şey təcrübədə yoxlanılmaya bilər, ancaq dərkolunmaz deyildir. Dərketmənin birinci koşulu İnamdır, ikinci koşulu Bilik. Yəni Biliyi heç saymırıq, mütləq də saymırıq. Ən mükəmməl nəzəri bilik inamdan aşağıdır. Yuxarıda dedik, nəzəriyyələr qoyulan suallara bütöv cavab tapa bilmir. Ona görə

yeni subyektiv baxışlar ortaya çıxır. Bu subyektiv baxışlar da bütöv ölçüyə çevrilə bilmir, getdikcə xurafata yol açır.

Asif Ataya qədərki dünyabaxışların hamısında “Axirət dünyası”na çağırış var. İnsanın xoşbəxtliyinin Axirət dünyasında olduğu vurğulanır. Sokrat kimi düşüncə adamı da xoşbəxtliyin Aidin dünyasında (yeraltı dünyada) olduğunu düşünür. Min il dünyaya səs salmış Sokrat hindlilərin təkrar doğulma ideyasını güclü izah edir. Ancaq bu təkrar doğulma sırf fiziki anlam daşıyır. Yəni hərfi anlamda götürülür – ruh yeni bir bədəndə doğulur. Qitaupanişadlarda deyilir: Allah milyon illərdən bir yeni bədəndə (insan bədənində) dünyaya gəlir. Vurğuladığımız kimi, Asif Atada yenidən doğulma isə ruhun kamilləşməsi ilə xarakterizə olunan prosesdir.

Həqiqət ruhda aydınlığa çıxır, tanınır. Sonra həyata prinsipial nizamda etki göstərir. Həqiqəti tanıtmaq onun izah olunması gücünə bağlıdır. Həqiqətə inandırmaq üçün həqiqətlə yaşamaq gərəkdir. Başqa cür inam yaratmaq olumsuzdur. Həqiqət haqqında sadəcə bilgi vermək yola çevrilməz.

Bir sözlə, hardasa, nədəsə bilikdən yararlanıb onun yönünü dəyişmək, xurafata çevirmək – yaşam üçün yol nizamı ola bilmədi.

Bu arada bəzi ayrıntılara varmaq yerinə düşər.

Din deyir: Sonev (qəbir) itməlidir, ancaq niyə itməlidir, onu demir. Məncə, ona görə itməlidir, ölən təbiətlə birgə oyana bilsin. İndikilər sonevin üstündə mərmərdən ofis tikirlər. Bununla da ölənə yaxşılıq deyil, yamanlıq edirlər. Onun təbiətlə birgə oyanmasına əngəl olurlar, ya da gecikdirirlər. Burada qədimdən gələn hansısa biliyin etkisi yoxdur. Deyək ki, qədimdə ölünü torpağa göməndə yanına nəsnələr qoyurdular. Bu isə, təhrif olunmuş biçimdə, “ölümdən sonra həyat” ideyasından qaynaqlanırdı. Bugünkülərin addımı isə başlıca olaraq, özlərinin şöhrətinə hesablanır, varidat bolluğu, başqasından geri qalmamaq , ya da kimlərdənsə üstünlük göstərilir. Bunlar anlamsız gedişlərdir. İnsan gerçək ruhani kamilliyə yetməlidir ki, onun ölümsüzlüyə qovuşması da baş versin...

Cisim özündə ruhani olanaqlar aşkarlamışdı. O, torpağa qarışanda da aşkarlaya bilmək gələnəyini itirmir. Təbiətin özündəki yaranış imkanına qovuşur, təbiətlə birgə oyanır. Başqa şəklə düşür, olanaq

həmin başqa şəkildə aşkarlanır. Yəni yenilənir. Öncəki bütöv biçim təkrar olunmur, yeni şəklə düşməklə olanaqları da yeni şəkildə üzə çıxarır. Ancaq torpaqda yenilənmə Göylərin – Günəşin, şüaların, yağışın, havanın qatqısı ilə baş verir. Bütün bunlar Mütləq nizamdır – Mütləqin nizamıdır. Məna (Dünyalıq) aşkarlanır, görsənişə gəlir. Ancaq dinlərin dediyindən fərqli olaraq, Məna olayları, yəni görsənişlərini sonradan yönətmir. Tale – alın yazısı deyil, yaranmaq, olmaq olanağıdır, yönüdür. Din bu bilginin də yönünü dəyişir, yaranmağın nizamını "alın yazısı" adlandırır, insanın ömrünü (ölənədək) necə yaşayacağını proqramlaşdırır, xurafatlaşdırır. Bizə görə İnsanın yaranması, Olması Məna tələbində baş verir, necə yaşaması isə özündən asılıdır.

Asif Ata deyir, "...Mütləq – dünyaya, həyata, insana ali daxili qüvvə, istiqamət və meyar olan bir Qüdrətdir". Bu tərifi belə izah edə bilərik: Daxili qüvvə, – yəni içindən onu dəyişən, inkişaf etdirən; istiqamət, – yəni dinamik, hərəkətdə olan, mövcudluğa yönləndirən, oluşan; meyar olan, – yəni həqiqətin dəyişməzliyini sağlayan. Burada proqramlaşdırmadan, yönətməkdən (idarə eləməkdən) söz gedə bilməz.

Bu izahlarımızla biz, Asif Atanın ideya-baxışlarını, özünəqədərki biliklərin, eləcə də özünün ortaya gətirdiyi yeniliklərin yüksək, düzgün doğrulanmış yerişi sayırıq. Çünkü bütün hallarda, oxuyub öyrəndikcə görürük, bilik qaynağında da azır, yönü də dəyişir, gerçəkliklə bağlılığı da doğrulanmır, varlığı təsdiq açısından yararsız olur. Əslində Bilik dərk prosesini əngəlləməli deyil, yardım etməlidir. Ancaq görürük, Biliyin yönü dəyişdikcə, xurafata yol açdıqca dərk məsələsi ortadan qalxır.

Örnəklərdən birinə – Veda dinlərindəki "ölümdən sonrakı həyat" məsələsinə toxunduq. Qarşımıza ayrı-ayrı suallar çıxdı. Ona görə bir neçə əkləmə (əlavə) etmək yerinə düşər. Əslində cavablar o sualların öz içində görünür. O sualları burada vurğu eləyək. Ölənin təbiətlə birgə oyanması məsələsi Veda dinlərində təkrar doğulma kimi xarakterizə edilir. Ruhun başqa bir bədəndə, ya da başqa bir canlıda həyata qayıtmasının həyatdan qurtarmaq (xilas olmaq) üçün olduğunu isbatlamağa çalışırlar. Buna bir neçə sualla aydınlıq gətirməyə

çalışaq. Məsələn, niyə hansısa bir musiqini dinləyəndə bəzən adamda ciddi kədər oyadır?! Sanki adama nə vaxtsa yaşadıqlarını, gördüklərini xatırladır. Ya da adam ötən günlərdə hansısa yaşantılarını xatırlayır. Bəs nədən ötən günlər xatırlananda bəzən göz yaşları ilə sonuclanır?! Ötən günlərdəki cazibə nədir axı?! Ya deyək ki hindlilərin, eləcə də Sokratın dediyi, insanın təkrar doğulmaları baş verir. Axı onlar deyirlər, insanın təkrar doğulması həyat adlanan sansaradan qurtarması üçündür. Bəs onda nə üçün qurtulmaq istədiyin həyat üçün qəribsəməli, kədərlənməli, göz yaşı tökməlisən?! Ya da qurtulmaq istədiyin həyatı yenidən yaşamaq istəyəsən?! Genel götürəndə, həyatdan qurtulmaq istəyi nə deməkdir?! Qurtulmaq gərəkdirmi?! Ruhun yaşaması necə, o da ayrı bir həyatdırmı?! Hindlilərdə bədən önəmsiz bir yaratıq olaraq həyata qayıdır. Bu yanaşmada bir anlaşılmazlıq var. Deyək ki, bədən özündə daşıdığı ruhun kamilləşməsinə qədər təkrar-təkrar doğulur. Bəs ruh kamilləşəndən sonra bədən necə olacaq?! Başqa sözlə, təkrar doğulma dayanacaqmı?! Asif Ata deyir, ruhum Buddada, Zərdüştdə, Platonda, Nəsimidə cəmlənib, onları öldürə bilməmisən, məni də öldürə bilməyəcəksən. "Ölümlə görüş" yazısında ölümə bu cür üz tutur. Yəni ruh – əzəlilik, əbədilik daşıyır özündə. Ancaq ruhun kamilləşməsi bədənə gərəkliyi ortadan qaldırmır. Eyni halda, bədən olduğu kimi təkrar qayıtmır. Hissələri ilə birgə qayıtması isə öncəki ruhun onda, olduğu kimi, yaşaması anlamına gəlmir. Yuxarıda da vurğuladığımız kimi, ruh Mənada qalır. Məna cismin yaranışında, doğuluşunda aşkara çıxır. Ruh – canda, cisimdə Mənanı ifadə eləmək üçün yaşayır. Gerçəkliksiz Məna olmur, Mənanı ifadə eləyən ruhsuz canın, cismin anlamı qalmır, o can, cisim ölü sayılır. Deməli, ruhun doğru bəlirlənməsi, onun ölməzliyinin dərk olunması yaşam üçün əsaslı bir ölçü olur. Bu zaman qalaq-qalaq yığılmış suallar cavab bulur.

Ruhun kamilləşməsi yaşam ölçüsünə çevrilmədiyi sürədə bütün biliklərin xurafata gedib dayanacağı qaçılmaz olacaq.

Bu məsələlərdən biri də ədalətin (anlaşılması üçün ilahi ədalət də deyə bilərik) bərpasının necə baş verəcəyi sualıdır. Biz yuxarıda Sokratın adını çəkdik. Sokrat "ilahi ədalət"in bərpasını Aid dünyasın-

da (yeraltı dünyada) görür. Ya deyək ki, göyel dinlərdə "ilahi ədalət" Axirət dünyasında bərpa olunur (cənnət, cəhənnəm ideyası). Nədən bu cür baxışlar ortaya çıxdı?! İlahi ədalət nədir, niyə pozula bilir?! Yenə ruhun kamilləşməsi məsələsinin üzərinə gəlirik. Heç bir baxış, doktrina insanı axıra kimi tanımadı. İnsan haqqında ən yüksək söz deyiləndə belə, ona inam bütövləşmədi. İnsana hər şeyi öyrətdilər, özünü öyrətmədilər. İnsanın gücü, enerjisi özündən qıraqdakı nəsnələri öyrənməyə xərcləndi. Qıraqdakı böyüklüyü, balacalığı gördü, öyrəndi, dedi, özündəki balacalığı görmədi, döymədi. Özündəki böyüklüyü aşkarlamadı. Elmi bilən, tarixi yazan, ixtisaslanan, ödüllənən, rütbələşən, görəvləşən adam böyük sayıldı, ona sayğı bəslənildi, başa keçirildi. Bütün bunlar insani gözəlliklərin əvəzi kimi qarşılandı. Sonucda toplumsal təbəqə yarandı. İnsanda məncillik (eqoizm) danışdı, özündən keçmə (fədakarlıq) susdu; şöhrətsevərlik danışdı, ləyaqət susdu; hakimiyyət ehtirası danışdı, qayğıkeşlik susdu; qəddarlıq danışdı, mərhəmət susdu; hərcayilik danışdı, həya susdu... İnsanda heyvan danışdı, İnsan susdu. İnsanı öz mahiyyətinə yüksəltməli olan, özüylədöyüş yollarını öyrətməli olan, özünüdərk sürəcini yetirməli olan, özünəinam, özünəgüvən ləyaqətini bəsləməli olan ruhaniyyat (dinlərdə) insanı aldatdı, ona vədlər verdi, onu qorxutmağa çalışdı, hədələməyə başladı. "Qaş qayırdığı yerdə, göz çıxartdı". Öləndən sonra diriləcəyini, əməlləri qarşılığında ya ödül (cənnət) qazanacağını, ya da cəza (cəhənnəm) qazanacağını vəd elədi. İnsana, Allaha boyun əyməklə ödül qazanacağını öyrətdi. İnsan nə elədisə, Allah üçün elədi, insan üçün eləmədi. İnsana çatmayan ibadətlər, rituallar havada qaldı, boşuna getdi. Çünkü ibadətlər insana qorxaqlıq öyrədir, cəsarət öyrətmir; Allaha yalvarmaq öyrədir, Mütləqə sevgi öyrətmir; Allahın hər şey, insanın heç şey olduğunu aşılayır, özündəki Mütləqi tanımaq, ona qovuşmaq aşılamır. Bununla da dünya əyilir, mənasızlaşır, fanişləşir. İnsanın gözündə heçə çevrilən dünyaya inam, sevgi ortadan qalxdığına görə həyat gözəlliklərdən, ülviyyətdən, ədalətdən, mərhəmətdən uzaqlaşır.

Cəhənnəmə haqq verirlər, deyirlər, ömrü boyu ədalətsiz yaşayan, əyri davranan, əzazillik edən birisi bu dünyada cəzasını almadan ölürsə, o biri dünyada Allah cəzasını kəsib ədaləti bərpa edəcək.

Deməli, insan diriliyində necə istəyir, elə də yaşayır, öləndən sonra isə onunla haqq-hesab çəkilir. Öncələr də yazmışdım, belə çıxır, dirilərin dünyası İblisin ixtiyarındadır, ölülərin "dünyası" Allahın. Deməli, Allah diriliyə, canlılığa qatqı göstərmir.

Bəzən bir insanın başına pis bir iş gələndə, onu pis əməllərinə görə Allahın cəzalandırdığını deyirlər. Necə olur, iblisin düz yoldan çıxardığını Allah düz yola qaytarmır, vurub sıradan çıxarır?! Belə çıxır ki, Allah İblisdən daha pis iş görür.

Bütün bunlar yalançı ümidlərdir, insanın özünü aldatmasıdır. Asif Atanın fəlsəfəsinə görə insanın ən böyük cəzası özündəki balacalığı döyməkdir, ən böyük ödülü (mükafatı) kamilləşməsidir. Əgər insan ömrü boyu ədalətsizlik edir, ədalət bərpa olunmadan ölürsə, bu onun üçün ən böyük cəzadır. Yəni insanın kamilləşmədən, heyvana tay olaraq ölməsi onun faciəsidir. Sevgi, inam, qayğı, mərifət qazanmadı, özündən sonra onu yaşadacaq heç nə saxlamadı. Xalqın varlığına girmədi, Mənada qalmadı – bundan böyük cəza olmaz ki, özü-özünə verdi. Gərək öləndən sonra meyidinə "qan, irin içirdəsən"?!

İlahi ədalət (əslində Mütləq ədalət) həyatın özündə bərpa olunmalıdır – insanın kamilləşməsi ilə...

Beləcə, biz ayrı-ayrı bilgilərin necə, hansı anlamda ortaya çıxmasına aydınlıq gətirməyə çalışdıq. Bu bilgilərin, bir çox hallarda, dəyişdiyini, xurafata çevrildiyini də dilə gətirdik. İnsanın doğruçu biliklərdən uzaqlaşması, bunun da sonucunda özünüdərk gedişindən ayrılması Asif Atanın başlıca qonusuna çevrilmişdir. O, öz fəlsəfəsində, təlimində bu bilgilərin yalanlardan açılmasına çalışmışdır. İnsanı alleqorik dildə yalana alışdırmağın mənəvi dirçəlişə əngəl olduğunu öyrətmək istəyində bulunmuşdur. Buna, yuxarıda bir çox örnəklərlə aydınlıq gətirməyə çalışdıq. İstər Veda dinlərindəki, istər Mesopotomiya dinlərindəki, istərsə də çağdaş Göyel dinlərindəki yanlışlara qısaca toxunmaqla açımızı sərgilədik.

Bu yazıda biz bir neçə məsələyə yığcam aydınlıq gətirməyə çalışdıq. İndi onları aşağıdakı kimi ümumiləşdirə bilərik:

**1) Mütləq (Allah anlamı) dərk olunandırmı?!**

Başqa baxışlara görə dərkolunmazdır, çünkü Allahla insanın birbaşa bağlılığı yoxdur. Allah transsendentdir, fövqəldir, yaradıcıdır. Yaratdıqları ilə sirlərini paylaşmır, onları sadəcə yönətir (idarə edir).

Asif Ataya görə Mütləq dərkolunandır. Çünkü O, Dünyanın, Həyatın, İnsanın özündədir. Mütləqi dərk, əslində İnsanlığı dərkdir. İnsan özündə özündən yüksək olanı – mahiyyətini dərk eləməsə ucalmaz, kamilləşməz. Mütləqi dərk – gözəllikləri, fəzilətləri tanımaqdır, onları ömrə gətirməkdir.

**2) “Ölümdən sonrakı həyat” ideyası.**

Başqa baxışlarda ölümdən həyat yaranır. Deyək ki, Veda dinlərində, Sokratda. Göyel dinlərdə ölülər sonradan dirildilir, mühakimə olunur, cəza, ödül təyin olunur.

Asif Atanın fəlsəfəsinə görə, ölüm həyatın yenilənməsinə qatqı göstərsə də, həyatın yaranması ölümdən başlamır. Başqa sözlə, həyatla ölüm bir-birinə keçmir. Ölümün mahiyyəti həyatdır. Həyat ölüm araçılığı ilə yenilənir.

**3) Ruhun ölməzliyi ideyası.**

Başqa baxışlarda, deyək ki, Veda dinlərində də, göyel dinlərdə də, ruh maddi, cismani götürülür. Veda dinlərinə görə ruh kiçik (mikro) candır, başqa bədənlərdə yenidən doğulur, həyat adlı qəlibdən (sansaradan) qurtulmalıdır. Kamilləşməlidir ki, bədəndən, həyatdan qurtulsun.

Göyel dinlərdə ruh, bədən öləndə ağızdan çıxır. Bu zaman onun taleyi bəlli olmur. Daim fəzada, yaxınlarının çevrəsində dolaşır (bu, animistik baxışın qalığıdır). Görünür, Allah insanları dirildəndən sonra həmin ruhları öz bədənlərinə qaytaracaq. Sonra ya ödül (cənnət), ya cəza (cəhənnəm) verib orada yaşadacaqdır. Burada ruhun ölməzliyi ən pis ölümdür.

Asif Ataya görə, ruh – İnam, İdrak, Mənəviyyat, İradə birliyidir. Bədən öləndə ruh Mənada qalır. Xalqda kamil əməllərə, kamil düşüncələrə, kamil mənəviyyata qovuşur. Başqalarında Mənanı ifadə eləməyə davam edir. İnsan özündə Məna daşıyır. Bu Mənanın adı İnsanlıqdır. İnsanlıq bir biçimdə deyil, saysız-hesabsız biçimlərdə yaşayır. Ancaq biçimlərə paylanmır. Bədən

öləndə bədənlə birgə ölmür. İnsanlıq Dünyalıq deməkdir – Dünyalığın İnsanda ifadəsidir, başqa sözlə, yaşamasıdır. Təbiət də Dünyalığın ifadəsidir. Bədən öləndə torpağa (təbiətə) qarışır. Sonradan təbiətlə birgə oyanır, hissələri ilə yaşama qayıdır. Yenə ruhun məskəni rolunu oynayır. Yenə Ruh bədəndə Mənanı ifadə eləyir. Ruh bədəndə, cismanidə yaşayır, ifadə eləyir, ancaq özü cismani, maddi deyil. Məna maddidə, cismanidə olduğu kimi, onun ifadəsi olan ruh da maddidə, cismanidə yaşayır.

**4) “İlahi ədalətin (əslində Mütləq ədalətin) bərpası” ideyası.**

Başqa baxışlarda “ilahi ədalət” insan öləndən sonra yeraltı dünyada, ya da o biri dünyada bərpa olunur. İnsan yaşadığı ömrə, davranışlarına görə ya cənnət (ödül) qazanır, ya da cəhənnəm (cəza).

Asif Ataya görə, Mütləq ədalət İnsanın kamilləşməsi ilə bərpa oluna bilər. İnsanın ədalətli davranmasının ödülü onun kamilliyidir, cəzası isə insani gözəlliklərdən məhrum olması, heyvana bərabər ömür sürüb həyatdan getməsidir.

**5) Tərbiyə ilə kamilliyin fərqi.**

Başqa baxışlarda ən böyük kamillik elə tərbiyəyə bərabərdir. Göyel dinlərə görə, insan ibadətlə uğraşarsa, yəni özündən qıraqdakı Qüvvəni razı salmağa çalışarsa, bunun ödülünü alar, yəni ölümdən sonra cənnəti qazanar.

Asif Ataya görə tərbiyə fitrətdə olan fəzilətlərdir. Ancaq tərbiyə, özünütanıma, özünüdərk üçün yetərsiz keyfiyyətdir. İnsan yaşam sürəsində ruhunu kamilləşdirməlidir. Bunun fəlsəfi anlamı yenidəndoğulmadır. Özündə özündən yüksək olan Mütləqi aşkarlamalı, dərk etməli, ona qovuşmalıdır. Ömrünü birgəyaşayış nizamının ölçüsünə çevirməlidir. Bunun üçün özüylədöyüş yolu keçməlidir.

**6) Özüylə döyüşün praktik yönü.**

Başqa baxışlarda, deyək ki, Göyel dinlərdə özüylədöyüş anlayışı yoxdur. İbadət, elə özünütərbiyə yolu sayılır. İbadət – başqasından istəməkdir, başqasının mərhəmətinə küsənməkdir.

Asif Ataya görə özüylə döyüş kamilləşmə yoludur. Bu anlayış Asif Atanın özünün yaratdığı anlayışdır. Asif Ata özüylə döyüşü üç

aşamada öyrədir: 1) özünütanıma, – yəni özündəki heyvani, bioloji xassələri, eləcə də insani keyfiyyətləri görmə, tanıma; 2)özündəki balacalıqlardan, keçiciliklərdən, heyvanilikdən imtina. Bu xassələri əməlsiz qoymaq – düşüncələrinə, davranışlarına yaxın buraxmamaq, özündəki sağlam duyğuları, arı düşüncələri böyütmək, davranışlarda, əməllərdə ifadə eləmək; 3) özünə inam, özünə güvən. Özünün düşüncələrini, davranışlarını Mütləqlə (deyək ki, Allah anlamı ilə) tutuşdurmaq. Çünkü Mütləq arıdır, durudur, qüsursuzdur. Kamillik – özünü qüsursuz olanla tutuşdurmaqdır. Özünü yaxşı adamlarla tutuşdurmaq azdır, nisbi ilə tutuşdurmaqdır. Çünkü ən yaxşı adamda belə, qüsur tapmaq mümkündür. Nə yazıqlar, Göyel dinlərdə insanın özünü Allahla tutuşdurması (müqayisə eləməsi) lovğalıq, dikbaşlıq kimi qiymətləndirilir, küfr sayılır. Asif Atanın fəlsəfəsinə görə Mütləqi dərk etmək gərək, onun sirlərinə yetmək gərəkdir. Mütləqin sirləri gözəlliklərdir. İnsan bu gözəllikləri tanımasa, həyata əyriliklər gətirəcək. Bununla da, insana inam ortadan qalxacaq. İnsan öz növündən olana güvənməsə Azadlıqdan, Ədalətdən danışmaq olumsuzdur.

**7) Gerçəkliklə idealın münasibətləri.**

Başqa baxışlarda ideal gerçəklikdən ayrılır, həyatdan uzaqda – Allahın istəklərində yaşayır. Allahın istəkləri isə dünyada idealın gerçəkliyini oluşdurmur. Çünkü dünya fanidir, hər cür böyük arzular o biri dünyada – Allahın dünyasında gerçəkləşə bilir.

Asif Ataya görə İdeal – Mənadakı xeyir, gözəllik, həqiqət olanağıdır. Bu olanaq İnsanlığın kəşf olunması, aşkarlanması ilə bəlirlənir, oluşur – həyatda yaşam tapır. Bu yaşam yüksək (ali) həyat deməkdir. İnsanın öz növündən olanlara, dünyaya, təbiətə, dövlətə... münasibəti insanilәşir. Təbəqəçilik, sinfilik, ağalıq, bərabərsizlik ortadan qalxır.

**8) Ölüm Mütləq Yoxluq deyil.**

Başqa baxışlarda, nisbi baxışlarda dünya bütövləşmir, fanilәşir, adiləşir, gec-tez yox olur. Ancaq o biri dünya var olur. Bu dünyada ölənlər o biri dünyada dirilirlər, başqa bir biçimdə yaşamını davam edirlər. Bu baxış ölümü ötmür, ən pis ölüm yaradır.

Dünyaya, həyata, insana inanmamaq ölümdür. Dünyanı fani saymaq – ölümü Mütləqləşdirir, əsaslandırır.

Nisbiliyi əsas götürmək, ölümü əsas götürməkdir. Ölümlə həyatın sınırı ortadan qalxır. Nə zamansa bu dünya yox olacaqsa, deməli, bu dünya üçün ölüm Mütləqdir.

Asif Ataya görə bu dünya əzəlidir, əbədidir, sonsuzdur, Mənaca kamildir. Dünyanın olmayan vaxtı olmayıb.

Başqa baxışlara görə Dünya yoxdan yaranıb, bir gün də yox olacaq. Yox olmaq – ölümün Mütləqləşməsidir.

Asif Ata Mütləqi (Allah anlamını) dünyanın özündə görür. Məna dünya ilə, əslində gerçəklik ilə birdir. Yəni Gerçəkliyin özündədir. Gerçəkliyin ölməsi, nə vaxtsa yox olması Mütləqin (Allah anlamının) ölməsi deməkdir. Asif Ata bunu doğru saymır, qəbul eləmir. Dünya özündən, özündəki Mütləq Mənadan yaranır. Məna ayrı-ayrı təzahürlərinin ölümü ilə yenilənir. Ayrı-ayrı təzahürlərin ölümü bütöv Gerçəkliyin, başqa sözlə, Dünyanın ölümü anlamına gəlməz. Bir yerdə təzahür öləndə başqa bir yerdə yeni təzahürlər ortaya çıxır. Bir ağac quruyanda başqa bir yerdə ağac əmələ gəlir. Bir bulaq quruyanda başqa bir yerdə bulaq əmələ gəlir. Yaranış – Mənanın gerçəkləşmək, görsənişə gəlmək olanağıdır.

**9) Bioloji tükənməzliyin idealla ilişkisi.**

Biz dedik, insanı torpağa basdırırlar, nə zamansa onun bədəni təbiətlə birgə oyanır, hissələri ilə yaşama qayıdır. Bu isə Məna tələbində, Mənalı baş verir. Elm də deyir, heç nə yoxdan yaranmır, yox olmur, bir şəkildən başqa şəklə düşür. Torpaq təbiətdir. Torpaq – Dünyalığın yaşadığı, gerçəkləşdiyidir. İnsana qida, enerji verəndir. İnsanın bədəni təbiətdən, torpağın yaratdığı qidalardan yaranır. Bu qidaların yaratdığı enerji bədəndə toplanır, erkək-dişi ilişkilərində döl əmələ gəlir. Ancaq bu döl quru materiya deyil, Özündə Özündən yüksək Məna daşıyır. Məna, eləcə də, onun ifadəsi olan ruh insan bədəninə sonradan girmir. Məna təbiətdə, cismanidə olduğu kimi təbiətin, cismaninin özündən yarananlarda da başlanğıcdan olur.

Dedik ki, Məna qıraqda durmur, gerçəklikdə olur, yeni gerçəkliklər kimi təzahür edir. Bu açıdan bioloji varlıq belə, tükənmir, yox olub başa çatmır. "İnsan özündən yaranır" bu deməkdir. Torpaqda təbiətə qarışıb birgə oyanan bədənin hissələri, Veda dinlərinin dediyi kimi, heyvana keçmir. Başqa sözlə, İnsanlıq adlı Məna (qida ilə) heyvana keçən bədən hissəsi ilə yaşamır. Ancaq insan biologiyasında yaşayır. İnsanlığın mühiti insanın bioloji quruluşudur, heyvanın deyil. İnsanlıq Mənası heyvan bədəni ilə görsənişə gələ bilməz, onun ifadəsi olan ruh heyvan cismində yaşaya bilməz.

Ona görə də, ölüm Mütləq yoxluq deyil. Cisim belə, tükənmir, yəni yox olmur.

10) Bütün bunları deyəndən, fərqləri göstərəndən sonra **Ruhani ölçünün yenilənməsinin gərəkliyi** ortaya çıxır. İnsanın ruhani həqiqətləri bilməsi, Ruhunu kamilləşdirməsi, dünyaya münasibətinin dəyişməsi üçün köhnə ölçülər özünü doğrultmur. Yeni ölçü qaçılmazdır. Bu ölçü yaranıb. Bunun adı “Mütləqilik ölçüsü”dür. Bunu Asif Ata yaradıb, bu ölçü ilə oluşan sivilizasiya İnsanilik sivilizasiyası, ya da Asif Ata sivilizasiyası adlanır...

İndi bir neçə sözlə, Göyel dinlərlə Asif Atanın baxışının fərqini konkretləşdirək:

**1-ci fərq:** Dinlərə görə Mütləq (dində Allah) Dünyanı yoxdan yaradır. Asif Ataya görə Dünya özündəki Mütləqdən yaranır. Yəni yoxdan yox, özündən yaranır. Dünya yox olmur, Yoxluq olmayıb. Bir sözlə, dinlərdə dünya qıraqdan yaradılır, Asif Atada özündən yaranır.

**2-ci fərq:** Dinlərdə ədalətin bərpası 2-ci dünyada, yəni ilahi dünyada baş verir (ilahi ədalət). Asif Ataya görə Mütləq ədalət İnsanın kamilləşməsi ilə, dünyanın, həyatın özündə bərpa olunur. Dinlərdə “ilahi ədalət”i ilahi qüvvə (cəza, ya da ödülləndirmə (mükafat) ilə) bərpa edir. Asif Atada insan öz balaca mənini yenməklə. Bu zaman onun özünə cəzası – özündəki balacalığı ötmək, ödülü isə kamilləşməsidir. Fiziki cəza, fiziki ödül yoxdur, cəfəngiyyatdır.

**3-cü fərq:** Dində xoşbəxtlik ölümdən sonra qazanılır. Asif Atada həyatın özündə.

**4-cü fərq:** Dində Mütləq (əslində Allah) dünyaüstüdür, fövqəldir. Asif Atada Mütləq Dünyadan üstündür, ancaq Dünyanın özündədir.

**5-ci fərq:** Dində ruh, adam öləndən sonra, ağızdan çıxan, gözəgörünməyən candır. Asif Atada ruhani keyfiyyətlər – İnam, İdrak, Mənəviyyat, İradə Birliyi. İnsan öləndən sonra bu keyfiyyətlər xalqda yaşayıb var olur.

**6-cı fərq:** Dində insanın taleyi öncədən bəlirlənir, proqramlaşdırılır. Asif Ataya görə insanın taleyi yaşam boyu özündən asılıdır.

**7-ci fərq:** Dində insanın kamilləşməsi Allahdan qorxuya bağlıdır. Asif Atada qorxunu ötməyə...

Bu fərqlər Asif Atanın üstünlüyünü göstərir. Asif Atanın İnsanlaşmaq çağırışının önəmini anladır.

***Yükümüzdən Böyük Fərəhimiz yoxdur!***
***Atamız Var olsun!***

*İşıq-Şölə Ayları, 44-cü il.*

## Həyat Din ilə alınmır

İnsan kimdir, həyat nədir, ölüm niyə var, əbədilik nə deməkdir, ölümsüzlük xəyallardırmı?! – Bəşər övladı bu sonsuz, əbədi sorulara daim cavab axtarır. Bununla bağlı, çoxsaylı nəzəriyyələr, ideyalar işlənib ortaya qoyulur. Ancaq axtarışlar başa çatmır, sorular qapanmır, yenə də davam edir. Düşünürük ki, qapanmayacaq da. Əbədi davam edəcək.

Bu sorulara daha çox dini dünyagörüşlər, fəlsəfi araşdırmalar cavab verməyə çalışmışdır. Ancaq dini dünyagörüşlər bu soruların cavablarını daha çox mücərrədliyə aparmış, mifoloji, əfsanəvi çalarlarla yükləmişdir. Bir sözlə, dindən umulan, istənilən konkret çalarlar açıqlığa, aydınlığa çıxmamışdır. Fəlsəfə də bu umacağın öhdəsindən, istənilən düzeydə, gələ bilməmişdir. Bu soruları cavablandırmaq üçün çoxsaylı anlayışlar yaranmış, bu anlayışların köməyilə ağlı heyrətə gətirən açıqlamalar (izahlar) ortaya qoyulmuşdur. “Dünya ruhu", “dünya idrakı", "dünya iradəsi", "mütləq ruh", "fövqəlqüvvə", "fövqəliradə", “fövqəlinsan", "obyektiv aləm",

"aqnostsizm", “allah", "ateizm", "ilahi ədalət", "vicdan", "dao", “idealizm", "materializm", “vəhdəti-vücud"... saymaqla bitməyən dini, fəlsəfi anlayışlar, nəzəriyyələr, ideyalar fərqli açılardan əbədi sorulara cavablar verməyə çalışmışdır. Hər biri o birinə etki göstərmiş, bir-birindən yararlanmalar, bir-birini danmalar baş vermişdir. Bir sözlə, hər biri soruların cavablarına yaxınlaşmaqda, az, ya çox anlamda qatqı göstərmişdir. Ancaq hələ də bu sorulara bütöv cavab bulunmamış, axtarışlar mütləq sonuca varmamışdır. Dedik, bizə görə bu axtarışlar əbədi prosesdir. Çünkü kainat anlamca sonsuzdur, heç sınırları da bəlli deyil.

Elmin gəlişməsi bu axtarışlara yardım etmişdir. Ancaq bu da, cavabların bulunması üçün yetərli deyil. Elm kainatdakıları durmadan kəşf edir. Bu prosesin özü də əbədidir. Çünkü kainatın mənası, dediyimiz kimi, sonsuzdur. Sonsuzluğun gizlinlərinin (sirlərinin) kəşflərini başa çatdırmaq da olumsuzdur. Bəs necə olsun, cavabının verilməsi olumsuz olan sorular həqiqətə, məntiqə uyğundurmu?! Ya da, cavabı verilməyən sorular necə yaranır?! Bizə görə, bu soruların cavablarını bulmaq fərdi xarakter daşıyır. Yəni elə sorular var, onların cavabını “söz”lə vermək doğrulmur, ömürlə – yaşamaqla yetmək olur.

Elə bil, böyük bir qalanın (qəsrin) çevrəsinə toplanan insanlar içəridə olan adamdan qalanın içini soruşurlar. Qalanın içini çölündəki üçün mütləq təsvir etmək belə olumsuzdur.

Bizim yuxarıda vurğu elədiyimiz sorular Məna ilə bağlı olduğuna görə, gerçək faktlarla, təzahürlərlə onu (Mənanı) bütöv anlada bilməyimiz də olumsuzdur. Demək, Mənanı dərk eləmək üçün Məna tələbi ilə yaşamaq gərəkdir. Onu qıraqdan təsvir eləmək dərk prosesinin açarı deyil, dərk prosesinə yardım edən bir çalardır, bir araçılıqdır. Dini dünyagörüşlər də insanla Məna (deyək ki, Allah) arasında araçıdır, yardımçıdır. Söz yox, bütün insanlar, bağımsız olaraq, Məna ilə (Allahla) ünsiyyətdə ola bilmirlər. Bu açıdan onların araçıya – mürşüdə, öyrətmənə, yol göstərənə (bələdçiyə) ehtiyacları var, həmişə də olacaqdır. Ancaq araçılıq (vasitəçilik) mexanizmi necədir, insana necə öyrətmənlik (müəllimlik) edilir, – bu başlıca koşuldur (şərtdir). Din Mənanı (əslində Allahı) insana tanıtmaq üçün

necə davranır, necə ölçü yaradır?! - Allahı insana tanıtmaq istəyən öyrətmən (deyək ki, peyğəmbər) birinci növbədə Allahı özü üçün düzgün obrazlaşdırmalıdır. Bu, nə üçün önəmlidir?! Allah (əslində Mütləq) ruhaniyyatın nizamlı biçim yaratması üçün inam qaynağıdır. Ona görə, Allahla insanı aldatmaq olmaz. Başqa sözlə, Allah anlamı ilə oyun oynamaq olmaz. İnsan üçün Allah – bütün mənəvi keyfiyyətləri imkan kimi özündə daşıyan idealdır. İnsan bu ideala can atmasa, onu dərk eləməsə özündə heç bir mənəvi ucalığı qoruyub yaşada bilməz. Əslində dünyanın gedişi - insanın idealı tanımamasına, ona can atmamasına görə əyilib. İdealı ömrə gətirmək gərəkdir. Yəni ədaləti, insafı, xeyirxahlığı, insansevərliyi nəzəriyyə kimi oxumaqla yaşamın uyumuna gözəllik qatmaq olumlu deyil. İdeal əlin toxuna biləcəyi, gözün baxa biləcəyi bir qatda (mərtəbədə) olmasa da, əlçatmaz da deyil. Əlçatmaz olsaydı, ruhaniyyatın heç bir anlamı qalmazdı. Ruhaniyyat – insanın idealı anlaması, ona qovuşması, onunla yaşaması deməkdir. İnsanı bu həqiqətə yönəltməyən, belə deyək, insanı bu həqiqətin qarşısına gətirməyən ruhaniyyat etkisizdir, gərəksizdir. Yəni əslində ruhaniyyat deyil. Məbədlərdə insana ibadət öyrətmək, onlara fantastik söyləmlər dinlətmək ruhaniyyat deyil. Doğruçu ibadət insanı Allaha qovuşdurmalıdır, Allaha yalvarış miskinliyinə endirməməlidir. İbadət – Allah anlamındakı insani keyfiyyətləri anlamaq, bu keyfiyyətləri ömrə gətirmək üçün olmalıdır, Allahdan cənnət adlı ödül ummaq üçün deyil. Allahdan mənəviyyat istəyərlər, ruzi-bərəkət istəməzlər. Allah mənəvi qüdrət qaynağıdır, kef qaynağı deyil. Yəni Allah Mənadır, gerçəklik deyil. Mənəviyyat Mənadır, ruzi-bərəkət gerçəklikdir. Allaha qovuşmaqda varlı, dövlətli olmaq yoxdur, insani varlığın təsdiqi var.

Ona görə deyirik, insanın öyrətməni Allahı düzgün obrazlaşdırmalıdır. Allahın yanlış obrazlaşdırılması insanın zərərinə işləyir. Məsələn, müsəlman namaz qılır. Namaz, yuxarıda dediyimiz kimi, Allahı unutmamaq anlamı daşımalı idi. Ancaq müsəlmanın şüurunda Allah cəhənnəmi, cənnəti, mərhəməti, amansızlığı olan bir varlıq kimi oturub. Ona görə, müsəlmanın namaz adlı ibadəti onun şüuruna mütilik aşılayır. O, ibadət edərkən qorxur, umur, yaltaqlanır, yalançı ümidə qapılır.

Bəs obrazlaşdırma necədir, yanlış nədədir?! Hər bir dünyabaxışın yarandığı dövr var, toplumsal, sosial, siyasal ortam var. Bu ortam insanların şüur baxımından formalaşmasında (əyri ya doğru) böyük rol oynayır. Dünyabaxış yaradıcısı bu rolu gözə, hesaba alır, ancaq dövrün, ortamın tələblərinə qarşı həqiqi ölçü yarada bilmir. Əməldə, yaşamda, davranışlarda, münasibətlərdə ədalətin, fəzilətlərin olmamasının nədənini insana yanlış anladır. İnsani münasibətlərdə nizamın bərpası üçün insandan qıraqdakı qüvvəyə minnətçi düşməyin gərəkdiyini deyir. Yəni, insan özündən qıraqdakı, ucalıqdakı qüvvəni narazı saldığı üçün cəzalandırılırmış. Bu ilk yanlış təyinatla Allahı obrazlaşdırma pozuntuya uğrayır. Bizə görə, bu görsəniş insana inamsızlıqdan doğan bir haldır. Yanlış obrazlaşdırmalara görədir ki, yaranan dünyagörüş özündən öncəkilərdən tam arına, ayrıla bilmir. Düşünülə bilər ki, öncəki baxışlardan pozitiv, uğurlu bir şeylərin qalması, qarışması pis deyil. Biz də elə düşünürük ki, öncəki uğurlu gələnəklərin qalması, davam eləməsi yaxşı haldır. Ancaq qarışıb qalan təkcə yaxşı məsələlər deyil, gərəksiz qalıqlar da qarışıb davam edir. İkinci bir yandan, bəzən uğurlu gələnəklər, özündən zəif gələnəklərin yaşaması üçün araç (vasitə) olur. Yəni, yeni dünyabaxış bütöv olmayanda, köhnəliyin gərəkli, gərəksiz qalıqları da qalır. Məsələn, bizim toplumumuz İslam dinini qəbul elədi. Ancaq bir sıra gələnəkləri də onun içində yaşatdı. Deyək ki, animizmin qalıqları olan ruhların sərbəst, insanlara görünmədən, insanlarla bir yerdə yaşaması kimi arxaik bir baxış çağımıza kimi gəlib çıxıb. Eləcə də, şamanizmin qalığı olan ələm bəzəmə (şiə təriqətinin daşıyıcıları bunu Əli ilə bağlayırlar). İnsan boyundan bir az artıq olan ağacın başına qara köynəkdə əl maketi, ya da, at nalı bağlayırlar. Bildiyimizə görə, bu əli Əlinin əli, nalı da atının nalı kimi qəbul edirlər...

Eləcə də, toplumumuzda ocağa tapınmaq, Günəşə and içmək, inək sağanda ona oxşamalar söyləmək (Zərdüştçülükdə maldarlığın önəmli sayılması ilə bağlı yaranıb) kimi gələnəklər davam edir. Əslində bu sonuncular Göytanrıçılıqdan, “Od işığı” ideyasından qaynaqlanan gələnəklərdir. Toplumumuzun gen yaddaşına oturub.

Başqa toplumlarda da buna bənzər görsənişlər yox deyil. Bu da onu göstərir ki, yeni ortaya çıxan dünyagörüşlərin necə olmasından

asılı olmayaraq, insanı doğadan, keçmişdən tam qoparmaq olumsuzdur. Bəlkə ona görədir ki, insanın ruhani yaşam ölçüsü bitkin, bütöv olmur, bu üzdən də paralelliklər, kombinasiyalar da qaçılmaz olur. Genel olaraq götürəndə, ruhu bir ideyaya bağlaya bildinsə (ideyanın bütöv, ya da, nisbi olmasından asılı olmayaraq), o, min il gedə bilir. Dəyişilməsi olduqca çətindir. İndiki toplumun mövcud ideyaya bağlılığı da min il öncəki soylarından gələn bir gələnəkdir. Mövcud ideya nisbidir, bizim istəklərimizi ödəmir, başqa sözlə, ruhun istəkləri tam ödənilmir, ancaq davam edir. Çünkü ruh hansı dünyagörüşün yaratdığı gələnəklərə, ölçüyə köklənirsə, onun tələbatları da (nisbi olsa da), həmin gələnəklərlə, ölçülərlə ödənilir. Məsələn, ədəbiyyat, poeziya, musiqi ruhun tələbatlarıdır. Bu gün bizim toplumumuzda yaşam ölçüsünü İslam dini yaratdığına görə nəsr də, şeiriyyət də, başlıca olaraq, İslam dininin prinsipləri yönündə yazılır. Ancaq bəzən elə ruh insanları olur ki, onlar qəlibdən, mövcud ölçüdən qırağa çıxırlar, yenilik deyirlər. Məsələn, Yunus Əmrə, Nəsimi, Cəlil, Sabir... Bu şəxsiyyətlərin yaradıcılıqları olanla yetərlənmir, qabağa gedir, insanı yanlışların içindən çıxmağa çağırır. Əslində olanla yetərlənən, olanı deyən, öyən yaradıcılıqlar heç sabaha getmir də.

Biz dedik, yaşamın ölçüsünü ruhaniyyat yaradır, genel anlamda. Ruhun bütün tələbatlarını da, ruhaniyyatın yaratdığı nizam ödəyir. Ancaq eyni halda, ruhaniyyat qəlibindən qırağa çıxmaları da önəmli sayırıq. Deməli, biz, ruhaniyyatı istədiyimiz çəkidə, ölçüdə görmürük. Çünkü mövcud ruhaniyyatı din yaradıb. Dinin yaratdığı ruhaniyyat kamil ruhun tələblərini ödəmir, başqa sözlə, kamil ruh yaratmır. Dinin yaratdığı nisbi ruhaniyyat da yaşamın bütün yönlərində oturuşub. Yaşam isə kamil nizam tapmır. Bəs dindən nə istənilir, ona hansı açıdan yanaşmaq umulur?! Bu suala cavab vermək çox önəmlidir. Çünkü burada olduqca incə məsələlər var. Din elm deyil. Elm öyrəndiklərini bütün çılpaqlığı ilə ortaya qoyur. Yəni elm gerçəkliyi, bilinəni, görünəni, toxunulanı öyrənir. Üçölçülü sistemdən dördölçülü sistemə keçildi. Zaman, məkan, mühit anlayışları ilə, eləcə də, bu anlayışların nisbi xarakterlərinin dəyişilməsi ilə yaranan, baş verən olaylar qiymətləndiriləriək sübuta yetirilir. Ancaq heç bir olayın, gedişin, prosesin, anlamı bu sistemlərin içərisinə girmir.

Başqa sözlə, bu sistemlərlə Dəyişməz Anlamı aydınlaşdırmaq alınmır. Dəyişilməz Anlama aydınlıq gətirmək isə ruhaniyyatın qarşısında duran məsələdir. Ona görə elmdən istənilən açıqlamalar, sübutlar dindən (ruhaniyyatdan) istənilə bilmir. Çünkü Dəyişməz Anlam toxunula bilən, gözlə görünən deyil. Bu üzdən ruhaniyyat daha çox nəzəri açıqlamalar ortaya qoyur. Bu açıqlamaların çoxu da subyektiv xarakter daşıyır. Konkret dəlillər olmadığına görə araşdırmalara, polemikalara ortam yaranmır. Dəyişməz həqiqətə, sadəcə, inanmaq gərəkdiyi ilə bağlı hökm verilir. Haqlı olaraq, inama ağılla deyil, ruhla yanaşmaq tələb olunur. Çünkü bu məsələdə ağlın sorularına cavab vermək olumsuzdur. Ağıl gerçəkliyi ötə bilmir. Gerçəklik həddində isə Mənanı tanımaq olmur. Deməli, Mənanı ağılın soruları ilə çözmək alınmaz. Ruhun soruları isə cavabı özündə daşıyır. Bizə görə ruhun kamilləşməsi bütün gizlinlərin (sirlərin), mücərrəd soruların cavabı deməkdir. Nə qədər ki, insan ruhani kamilliyə yetmir, onu ağıl yönətir (idarə edir). Ağıl mövcudolma şərtlərini bəlirləməyə çalışır, yəni bioloji varolmanı qorumaqla uğraşır. Bu zaman ağlın sualları ortaya çıxır: mən necə yaşayım, mövcudolmaya gərək olanları necə əldə edim, necə yerləşim, necə qorunum?! Çünkü sıradan yaşayan, yəni ağlın tələbi ilə yaşayan adam ömürdə məzmun tapa bilmir. Kamil ruh isə məzmunla dolur. Necə deyərlər, məzmunun özü olur. Bu zaman ruhun "mən niyə varam" sorusu ortadan qalxır. Çünkü kamil ruh ağıl həddindən yüksəyə qalxır. Dünya nədir, insani münasibətlər necə qurulmalıdır, ölümsüzlüyə necə yetməli – Ruh kamilləşməklə, yaşamaqla bu soruları çözməyə çalışır. Kamil ruh ağlın mövcudolma şərtlərini rədd eləmir, ancaq insanı ağıl həddində saxlamır, ömrü ağlın ixtiyarından yüksəyə qaldırır.

Söz yox, ağlın soruları heç vaxt ortadan qalxmayacaq. Çünkü bəşər övladı sonuncu fərdinə qədər kamil yaşamır. Başqa sözlə, insan anadan kamil doğulmur. Ancaq kamil örnəklər əbədi soruların cavabını bulmaq üçün qutsal yola çevrilir. Deməli, ruhaniyyat riyazi hesablamalarla, analizlərlə, təcrübələrlə öyrənilməli bir məsələ deyil. Ömrə çevrilməli, yaşanmalı, dərk olunmalı bir nizamdır. Gələnəksəl ruhaniyyat (din ruhaniyyatı) insana Məna tələbləri üstə yaşamağa yol açmadı. İnsanı Mənadan (Allah anlamından) ayırdı.

İnsanı Allahdan uzaqlaşdırmaq həyatı gözəlliklərdən uzaqlaşdırmaq demək oldu. Bu dünyanı fani saymaq, o dünyanı öymək bütün fəzilətləri mücərrədləşdirdi, bu dünyada əlçatmaz elədi. Bəs bunları niyə elədi, etməyə bilərdimi, qəsdi nə idi?! Gerçək mövcud həyat insan arzularına cavab vermir. Yüksək ideallarin gerçək həyatda baş tutması, tətbiq olunması olumsuz görünür. Bir sözlə, gerçəkliklə ideal arasındakı ziddiyyətləri çözmək, ortadan qaldırmaq istəməklə baş tutmur. Din Allahla nizam yaratmaq istədi. Hər şeyin Allaha bağlı olduğunu, qurtuluşun Allahın istəyində olduğunu dedi. Bir sözlə, hər şey Allahdan asılıdır, insanı da o yönətir deyə hökm verdi. Dinə görə İnsanı Allah özünə qul yaradıb, insan onun əmrindən çıxmamalıdır. Ancaq bu əmr necə verilir, necə yerinə yetirilir, yetirilməlidir, bu, sonacan bəlirlənmədi. Allah peyğəmbər araçılığı ilə bu əmri verir, peyğəmbərin də istəyi odur, insanlar onun dediklərinə gözüyumulu boyun əyməlidirlər. İnsanın özü Allahla ünsiyyətdə ola bilmir, onu sorğulaya bilmir, onu tanıya, dərk eləyə bilmir. Bunu eləyərsə, dinə görə, dikbaşlıq (təkəbbürlülük) etmiş olar. Belədə insan yerlə göyün arasında dolaşan soruların qarşısında itib-batır.

Din insanın kamilliyini Allaha yetməkdə deyil, Allaha itaətdə görür. İtaətdə birlik yaranmır, üstdən aşağı asılılıq yaranır. Allahla insan arasında birlik, bağlılıq olmasa, yaşamın fəzilətlərlə zənginləşməsi, insanın ağ günə çıxması baş tutmaz. Dində insanın ağ günə çıxması yolu – Allahı razı salmaqla, onda insana qarşı mərhəmət oyatmaqla oluşdurulur. Yəni insanın ibadəti ilə Allahın mərhəməti mübadilə prosesinə dönüşür – "ver, verim". Gərəksiz bir umacaqlıq, borcun ödənişi ilə yaranan anlamsız rahatlıq... Buna görə yuxarıda vurğuladıq ki, Allah obrazı doğru bəlirlənməlidir. Allahla insan arasında uçurum yarandı. İnsanın taleyi uçuruma düşdü. Bu uçurum dünyanın faniliyi ideyası ilə başladı. Bu dünyadan üstün, başqa bir yerdə "o biri dünya"nın olmasını uydurmaq böyük xəta idi. Söz yox, dünyada nə varsa ötəridir, keçicidir. Ancaq anlamsız, fani deyil. Ötəri cismani ömür belə, fani deyil. Allah (yəni Mütləq) dünyanın özündədir, dünyanın Mənasıdır, ayrı bir dünyanın yiyəsi, ağası deyil. Dünyada yaranış, doğuluş, yenilənmə olanaqları var. Dünyanı yaşadan budur, dünyanın əbədiliyi buna bağlıdır. Bu qonunu bir çox

yazılarımızda geniş yazdığımıza görə burada davam etmirik. Bu qonunu ona görə vurğuladıq ki, din miflərlə, əfsanələrlə, rəvayətlərlə çuğlaşıb. Bunun nədəni yuxarıda dediyimiz məsələlərə bağlıdır. İnsanı dərk prosesindən uzaq tutanda onun sorularına cavab vermək olmur. Qaçılmaz cavab vermələr isə hər şeyi mifləşdirməklə, əfsanələşdirməklə baş verir. Ona görə, yaşamın ölçüsü, gerçəkləşməsi çətin olan, fantastik bir şəklə düşür.

Din ağlın sorularına cavab verməyə çalışdı. Ona görə mifik bəzəmələrdən yararlandı. Ruhun sorularına cavab vermək gərək idi. Bunun üçün, yuxarıda vurğuladığımız kimi, ruhu kamilləşdirmək ölçüsü yaratmaq gərək idi.

Burada gərəkən bir ökləmə yerinə düşər. Bəlkə mifləşdirmələr, əfsanələşdirmələr qaçılmaz olub. Axı o dövr üçün topluma inam vermək o qədər də sadə proses deyildi. Ağlı, düşüncəsi Allaha inamın tələbləri üçün yetərli olmayan toplumun arasında nizam yaratmaq sıradan bir olay deyildi. Üstəlik din gerçəkliyi, görünəni öyrənən elmin işini görmürdü. Görünməyəni tanıtmaq, ona inam yaratmaq missiyası yerinə yetirirdi. Adam bu çətinliyin qarşısında dayanıb qiymətləndirərkən dinə haqq vermək zorunda qalmazmı?! Axı yuxarıda da vurğuladıq ki, elmdən fərqli olaraq ruhaniyyat məsələsini təcrübi yolla, dəlillərlə, sübutlara dayanan bir söz deməklə aydınlaşdırmaq, öyrətmək olumsuzdur. Üstəlik də idealları xəyal etmək onu yaşamaqdan asandır. Bəlkə düşüncəsi dərinə getməyən sadə toplumu Allaha inandırmaq üçün xəyallar dünyası yaratmaq gərək idi. Olsun. Onda isə qarşıya başqa bir sual çıxır: Bəs günlərin bir günü bu xəyallar dünyasının, gerçəklikdə, idealların yaşaması ilə əvəz olunması gərək deyildirmi?! Axı gerçəkləşməyən xəyallar dünyası getdikcə miflərin, əfsanələrin müsbət etkisindən uzaqlaşıb böyük yalanlarla, cəfəngiyyatlarla dolur. Allah da, ruhaniyyat da oyuna gətirilir. Bəs xəyalların gerçəkləşməsi necə mümkün ola bilərdi?! Bu suala isə cavab vermək olduqca çətindir. Çünkü bu zaman özül prinsiplərə üz tutmalı olursan. Dində isə özül prinsiplər həqiqətlərə cavab vermir. (Biz bunu "Özül prinsiplərdə yalan olmamalıdır" yazımızda geniş açmışıq). Bəs nə etməli, dinsiz, yəni inamsız olmaz. Yalanla da olmaz, olmur da. – Bu suala sufilər

hardasa cavab verməyə çalışıblar. Onlar dində Allahın ilkin tərifinə dayanıblar. “Yəni Allah doğmayıb, doğulmayıb, ortağı yox, yeri (məkanı) yox” deyimini əsas götürüb, “o hər yerdədir” məntiqini inkişaf etdiriblər. Allaha qovuşmağı qarşılarına məqsəd qoyublar. Bunu sufizmin dörd əsas prinsipi ilə gerçəkləşdirməyin olumlu olduğunu qəbul ediblər. Bu dörd prinsip – şəriətləşmə, təriqətləşmə, mərifətləşmə, həqiqətləşmə sufinin kamillik yolu adlanır. Allaha qovuşmağın yolu Allah obrazını doğru bəlirləməkdən keçir. Bunu biləndən sonra içdə təmizlənmə yolu keçilir. Ömür arındıqca həqiqətə ehtiyac böyüyür. Bu ehtiyacın adı eşqdir. Aşiqlik qatına qalxan sufi üçün Allahla aradakı uçurum, sınır ortadan qalxır. Bizə görə dinin uzunömürlü olması sufizmin bu ölçüsünə borcludur.

İndi sufi yetişmir. Hər adam Allahı yanlış obrazlardan ayırmağı bacarmır. Bunun öyrətməni, mürşüdü yoxdur. Dindar Allahla alver edir. Ruhaniyyatı üzdəki (zahiri) gələnəklərlə eyniləşdirir. Yuxarıda dediyimiz kimi, bu prosesə din özü yön verib. Dinin baş kitabının "Ən-ənfal" (Qənimət) surəsindən də görünür ki, peyğəmbər özü öz dediklərinə əməl etməyib. Yəni dünya malına tamah salıb, nəfsini arındırmaq yolu keçməyib. "Ən-nəbə" (Böyük xəbər) surəsində insanları maddi zənginliyə, həzzə, kefə, qadın şəhvətinə tamahlandırıb. Əslində dinini fantaziyalarla, yalanlarla qəbul etdirmək yolu tutub. O dünya həzzi, ya da o dünya qorxusu ən böyük fantaziyadır.

Dünya ilə, həyatla heç bir bağlılığı olmayan fantaziyalar insanları bir neçə yerə ayırır: 1) Bu fantaziyalara səmimi inanan naşı bir kəsim; 2) Bu fantaziyalara özünü inanan kimi göstərən spekulyativ bir kəsim; 3) Dindən gerçəkləşməli həqiqətlər uman kəsim. Söz yox, dinə baxışda bu kəsimlərin heç biri bir-birini anlamayacaq. Hərəsi dinə öz açısından yanaşıb Allahı öz şüuruna uyğun obrazlaşdıracaqdır. Əslində obrazlaşdırır da. Deməli, din sanki topluma deyir: Allahın əmrlərinə boyun əy, Allahın alleqorik, mifik dediklərinin alt qatındakı anlamı da özün öyrən. Biz bu tələbi anlayışla qarşılaya bilərik. Axı biz dedik, bir çox soruların cavabı “söz”də deyil, onu ömrə çevirməkdədir. İnsan həqiqət tələbləri ilə yaşayanda onun özü üçün bir çox sirlər açılır. Yəni soruların çözümü insanın doğru yaşamasına bağlıdır. İnsan Allah anlamına (əslində Mütləq olana)

yetdikcə bütün fəzilətləri, xeyri, ədaləti tanımağa başlayır. Mütləqin tələblərindən uzaqlaşdıqca, Mütləqlə bağlı sirlərin doğurduğu sorular cavabsız qalır. Buna görə deyirik, dinin alleqorik, mifik dili həqiqətləri ziddiyətli deyir. Ziddiyətlər genişləndikcə (hər kəs özünün bəsit baxışı ilə yanaşdıqca, ziddiyətlər daha da çoxalır) toplum cəhalətin içində qalır. Yaşamda sağlam ölçü tapmırlar. Uydurmalarla özlərini aldadırlar. Beləcə elmin çağdaş axtarışları ilə ruh dünyası arasında da uçurum yaranır.

Öncə də dedik, insanın doğal ruh ehtiyaclarını ödəmək elmin işi deyil. Din də cəfəngiyyatdan qurtara bilmədiyinə görə, doğal ruh ehtiyacını ödəyə bilmir. Elmlə dini birləşdirmək də olumsuzdur.

Alleqorik, mifik şəkildə deyilənlərin alt qatındakı anlamı hər kəsin özünün görməsi məsələsinə gəlincə, məsələn, ölülər diriləcək, sorğulanacaq, sınaqdan uğurla çıxanlar cənnətdə əbədi kef edəcək. Ya da mələklər ordusunun Allaha yardım etməsi, dərəcələrə bölünməsi (baş mələk, köməkçi mələk) i.a. kimi deyimlərin alt qatındakı anlamı necə bəlirləməli?! Axı yalanın alt qatı olmur. Yalan elə üzdəkidir (zahiridir). Bu cür hibrid deyimlər dində çoxdur. Hər kəsdən bu yalanları anlamağı istəyərsən, hərə öz yalanları ilə daha da uçurum yaradar. Yaradır da.

Dində ibadətin anlamı da belədir. Yuxarıda biz vurğuladıq. Məsələn, namaz qılmaq əslində Allahı insana daim xatırlatmaq üçün olmalı olsa da, müti şüur yaradır, qul psixologiyasını saxlayır. İnsanın özünə inanması, özündən istəməsi, Allahdan istəməsi ilə əvəz olunur. Burada Allahla insanın Birliyi (vəhdəti) olmadığı üçün Allahdan istəmək özgədən istəmək anlamındadır. İnsan kamilləşmək əvəzinə özgədən rahatlıq, kef istəyir.

Yenə yazının bu yerində bir sözardı (haşiyə) çıxmaq yerinə düşər.

Bütün dünyagörüşlərdə doğru olan yönlər var. Ona görə, ayrı-ayrı çağlarda hansısa düşünür insanlar bəzi baxışları sintez etməyə çalışıblar. Bəzi baxış yaradıcıları isə, özünün ortaya qoyduğu nəzəriyyəni, ideyanı bitkin, yetkin sayıb insanlara sunub. Ancaq yaşamın elə tələbləri olur, onları bütöv ödəmək baş tutmur. Sonucda yeni axtarışlar ortaya gəlir. Yuxarıda da dediyimiz kimi, bəşər övladı əbədi sorulara cavab axtarır. İrəli sürülən ideyalar reallığı, gerçəkliyi

qapsaya bilməyəndə, çatışmayan nizam parametrlərinə kimlərsə qıraqdan əkləmələr, artırmalar edib. Sonradan əkləmələr ilkin ideyaya girə bilirmi, yoxsa yamaqmı olur?! Baxışın özül prinsiplərinə tərsmi olur?! Bu, çox önəmlidir. Məsələn, xristianlıqda kilsə hökmranlığı İsanın özündə yox idi. Sonradan yönətimə gətirildi. Bu əkləmə getdikcə eybəcərliyə çevriləndə protestantizm ortaya çıxdı... İslamda da bənzəri şeylər baş verdi. Məsələn, sadə müsəlman Allaha boyun əyməyə çağırıldı – “özünü dikbaş aparıb Allaha qarşı çıxma”. Bu deyimin isə işlək mexanizmi bəlli olmadı. “Padşaha qarşı çıxma, o nə əmr etsə gözüyumulu boyun əy”. Belə bir çağırış realdır. Canlı varlıqlar arasında canlı münasibətdir. Ancaq gerçəklikdə gözlə görünməyən, duyulmayan bir varlığa qarşı davranmaq xülyəvidir. Ona görə, bu cür tələblərin qarşısında çaş-baş qalanlara qarşı zor işlədilib, fiziki cəza verilib. Yəni Allah anlamına özü bildiyi, anladığı kimi yanaşan ayrı-ayrı insanların əməlləri küfr sayılıb, cəzalara uğrayıblar... Ona görə deyirik, Allaha baxışı dəyişmək gərəkdir. Allah ideyası çelişkili düşüncələrin içinə atılıb. Bu çelişkilərin içərisindən aydın həqiqətə yetmək olumsuzlaşıb. Məsələn, Allahı bizim üçün obrazlaşdıran İslam dini bir çox “izm”lərin qarışmış etkisi ilə çıxış edir. Deyək ki, monoteizm (Tövhid), politeizm (mələklərə inam), dualizm (Allahla iblisin bağımsız başlanğıc kimi çıxış etmələri) etkiləri. Biz bu məsələlərlə bağlı geniş yazdığımız üçün təkrar davam etmirik (bax. “İnsanlığın İnam Yolu", "Elm və təhsil" nəşriyyatı. 2013).

İnsana baxışı dəyişmək gərəkdir. İnsanı qul saymaq, alın yazısı ilə yönətilən mexanizmə çevirmək bəşəriyyətin heyvana yenilməsinə yön verir. İnsanın Allah anlamı ilə iç-içə olmasına qarşı çıxmaq dünyanı əyri saxlayır. Bundan sonra da bu cür yanaşmalarla düzəlməsi alınmaz.

Burada yenə bir əkləmə edək.

İnsana münasibəti aydınlaşdırmaq üçün Firon Allahlığı ilə Nəsimi Allahlığını bir-birindən ayırmaq gərəkdir. Ağanın, zalımın, despotun özünü Allah adlandırması ilə, özünü dərk etmiş, mənəvi kamilliyə yüksəlmiş, özünü Allah anlamı ilə dolmuş, birikmiş sayan insanı eyniləşdirmək olmaz.

İnsan həqiqi qiymətini tapmalıdır. Tapmasa, əbədi soruların kölgəsində itib-batacaq. Ona görə biz, Asif Atanın Mütləqə İnam Ocağı, İnsanlığın Bayrağını başımızın üzərinə qaldırmışıq. Bu Bayrağın "İnsanlaşın - İnsanlaşdırın! Bəşərin qurtuluşu İnsanlaşmaqdadır!" carı insanı özünə İnam qüdrəti yaratmağa çağırır...

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

## Asif Ata Ocağının yeni Xalqlaşma-Səfər örnəyi

Asif Atanın Mütləqə İnam Ocağının özünəxas qurallarından biri də Ruhani Səfər əməlidir. Bu əməl Asif Atanın öz Ocaqçıları qarşısında qoyduğu xalqlaşma tələbidir. Amalın xalqda yayılması, öyrədilməsi anlamı daşıyır. Dünyada nə baş verir versin, Ocaq öz işini görməlidir. Çünkü bütün sorunların kökündə insanlaşmanın, millətləşmənin zədə götürməsi durur. Hələ sovet dönəmində xalqın özünəyadlaşma nədənlərinə aydınlıq gətirərkən Asif Ata demişdi: Quruluş pisdir, çünkü insan pisdir, həyat pisdir, gediş pisdir, münasibətlər pisdir, çünkü insan pisdir. Bütün bəlaları yaradan da insandır, qurtuluşu yaradan da. Ona görə düşündük, daşındıq, Ocaqlaşma yolu tutduq... Ocaqlaşma – İnsanlığın ölçüyə çevrilməsi, Ruhaniyyat sisteminin düzgün qurulması, birgəyaşayış nizamının ruhaniyyat tələblərinə uyğun gerçəkləşməsi deməkdir. Ocaq hər yerdə topluma bu həqiqətləri çatdırır. Ocaqda bu əməlin adına Xalqlaşma əməli deyilir. Ocaqçılar bu əməlləri gerçəkləşdirmək üçün ardıcıl səylər göstərir, bölgələrə səfərlər edərək fərdi, kütləvi görüşlər keçirir, Ocaq həqiqətlərini xalqa çatdırmağa çalışırlar. Bu gün dünya pandemiya sorunları ilə üzləşdiyinə görə bir sıra məhdudlaşdırmalar, yasaqlar var. Bu nədənlə Ocağın da işləri məhdudlaşıb. Ona görə də görüşlər əsasən fərdi xarakter daşıyır, kütləvi görüşlər alınmır.

Elə fərdi görüşləri gerçəkləşdirmək üçün bu günlərdə Ocağın Yükümlüsü Soylu Atalı bölgələrə səfər eləmiş, soydaşlarımızla ünsiyyətlər qurmuşdur. Görüşlərdə milli-mənəvi məsələlər, Ocağın ideya-prinsipləri yönündən çıxışlar olmuşdur. Söhbətlər sonucunda 15-ə qədər soydaşlarımıza Ocaq ədəbiyyatları bağışlanmışdır...

# İkinci Bölüm

## (Ruhaniyyat açısından olayları anlatmalar)

## Nəsimi-650

***(Ocaq Günsırası ilə 20 Çiçək Ayı, 41-ci ildə (aprel, 2019) Mütləqə İnam Ocağı Nəsimisevərlərin qatqısı ilə Nəsimi-650 Törəni keçirdik).***

Mən çox istəyərdim, Doğruçu Nəsimişünaslar yetişsin, bu işdə ciddi söz desinlər. Söz yox, məsələ Nəsimini elm müstəvisinə daşımaqda deyil. Məsələ Nəsimi kimi Azərbaycan dəyərini tanımaq, tanıtmaqdır. Toplumumuz onu nə dərəcədə tanıyır?! Biz buna çalışırıq, buna çalışmalıyıq. Toplumda Nəsimi ilə bağlı yanaşmalar, baxışlar çox fərqlidir. Bunu da yaradan Azərbaycan televiziyalarıdır, Azərbaycanın təhsil sistemidir. Sovet dönəmindən sonra çoxları belə düşünürdülər, Nəsimini sovet dönəmi formalaşdırıbdır. Özü də yanlış formalaşdırıb, demə biz Nəsimini doğru bilmirik. Bu gün elə söhbətlər gedir toplumda. Özü də yüksək tribunalarda gedir bu söhbət. Əslində biz bu cür toplantıları həyata keçirməklə istəyimiz bunu toplumsallaşdırmaqdır. Qoy fərqli düşünənlərin olduğunu da bilsinlər, düşünsünlər.

Nəsimiliyə yönəlik başqa cür baxışlarla bağlı mən dönə-dönə mətbuatda yazmışam. Nəsimi faktını sovet imperiyası yaratmayıb. Məsələyə bir az düşüncəli yanaşmaq gərəkdir, məgər Nəsiminin şeirlərini, qəzəllərini Sovet yazıb?! Nəsimi özü yazıb. Biz Nəsimini Nəsiminin yaradıcılığından öyrənirik. Biz Hürufiliyi də ən çox Nəsiminin yaradıcılığından öyrənirik. Bilirsiniz, bu gün "Cavidannamə"nin orijinalı Azərbaycanda yoxdur. Hürufiliyin canı "Cavidannamə"dir, o da Azərbaycanda yoxdur. Azərbaycanda olması ilə bağlı çalışan bir qüvvə də yoxdur, elm mərkəzi də yoxdur, dövlət də yoxdur. Heç kim bunun Azərbaycanda olmasına çalışmayıb. Mən onu oxumuşam Türkiyə türkcəsində, tamam dağınıq durumda. Orda hürufilik yoxdur, orda molla şüuru var. Orda Nəsimi yoxdur, orda Azərbaycan yoxdur. Ona görə Nəsimini öyrənəndə onun Azərbaycan faktı kimi bilinməsinə çalışmaq gərəkdir. Nəsimi bu gün üçün, toplum üçün nə demək olmalıdır, onun etkisi nə olmalıdır, hər şeyi tarixin arxivinə qoyuruq, heç birini üzə çıxarmırıq, heç birini doğru öyrənmirik,

doğru öyrətmirik. Bizim, millət olaraq, başlıca sorunlarımızdan biri də budur. Biz sorunlarımızı arxivə gömürük, dəyərlərimizi də arxivə gömürük. Nə sorunlarımızı arxivdən çıxarıb onu dərk eləməyə çalışırıq, dərs götürməyə çalışırıq, nə də dəyərlərimizi üzə çıxararaq, doğru qiymətini verib, doğru dəyərləndirib toplumumuza çatdırırıq. Nəsimini biz öyrənərkən söz yox, hürufilik faktına üz tutmalı oluruq, hürufilikdən qıraqda Nəsimini bilmək, öyrənmək çətindir. Hürufiliyə də, dediyimiz kimi, bu gün baxışlar olduqca çelişkilidir. Hürufiliyi masson faktı kimi də qiymətləndirənlər var. İudaizmə qohum bir kabbalizm var, bilirsiniz. Onunla bağlayırlar, ona bənzədirlər. Ancaq nəyə görə ona bənzədirlər, bunun ciddi əsası yoxdur. Hürufilər hürufi sözünü, anlamını bir taktika üçün seçmişdilər, hərflər məsələsi. Deyirlər, Məna, Allah insanın üzündə təcəlla edir, İnsanın da üzü anadangəlmə 7 xətdir. 2 qaş, 4 kiprik, saç. Bunlardan başqa, özəllikcə kişi cinsində, həddi-buluğu keçəndən sonra yeni 7 xətt yaranır, yanaqda tük əmələ gəlir, çənədə, buxaqda tük əmələ gəlir. 7 üstəgəl 7, 14 edir, 14-ün də iki misli 28 edir, ərəb abesi 28 hərfdən oluşub. Hərflər araçılığıyla Allahı dərk eləmək olur. Çünkü səs var, səs sözə çevrilir, söz hərfə çevrilir. Hərflərlə Allahın atributları bilinir, dərk olunur. Bunlar tamam taktiki bir məsələ idi. Orta çağlarda, 14-15-ci yüzildə çətin idi hürufiliyin mahiyyətini açıq ortaya qoymaq. Feodal düşüncə ortamında bunu demək çətin idi. Üstəgəl dinin qılıncının arxası-qabağı kəsdiyi bir dönəmdə. Ancaq biz Nəsiminin yaradıcılığına üz tuturuq, görürük, məna tamam dəyişir. Söz yox, Nəsiminin özündə də çelişkilər axtarırlar. Nəyə görə axtarırlar? Nəsimi Nəimini tapıncaya qədər fərqli baxışları olub, daha çox sufi idi. Ancaq Nəsimi Nəimini tapandan sonra daha kamil bir yönə çatıb. Yəni bizimkilərin sorunlarının başlıca yönü odur, işin mahiyyətini, mənanı işin hərfində axtarırlar. Nəsiminin adı Seyid Əli imiş, Babəkin adı Həsən imiş. Bu adamlar anadan olanda özləri özlərinə ad qoyurlar?! Dədəsi qoyur adını. Dədəsi də müsəlmandır da. Ərəb adı qoyur, fars adı qoyur. Yaşadığı mühit budur. Yaşadığı mühitdə hansı ad yayılıbsa, onu qoyur. Türk adı qoymur, milli kimliyini öz adıyla onun beyninə yeritmir. 21-ci yüzildə də Nəsimiyə, Hürufiliyə, Babəkə, Xürrəmiliyə bu açıdan yanaşma – bu milləti iflic durumda saxlamaqdır. Bu

millətin şüurunun gəlişməsinin qarşısını almaqdır. Millətin şüurunu gəlişdirən faktlarımız var. Bu gün də toplumumuzda insanlar bir-biri ilə qovğa edirlər. Heç nə eləmirlər millət üçün, ancaq öz açılarından yanaşıb deyirlər, bu millətdən heç nə çıxmaz. Sənin babaların xanlıqlar yaradıb, bir-birini didib-dağıdıb. Belə yanaşırlar. Babəki, Nəsimini tanımır, bunlara üz tutmurlar, Dədə Qorquda üz tutmurlar. Tarixdəki böyük dəyərlərə üz tutmurlar, sənin babaların budur demirlər. Dünən, srağagün milli, mənəvi şüurunu itirmiş insanların dədə, baba seçilməsi, onların yanlışlarının ölçüyə çevrilməsi doğru deyil axı. Niyə sən onlara ata deyirsən?! Onlar sapmış, yolunu azmış atalardır. Yolunu sapmayan, azmayan atalar gərəkdir. Bu gün də həmin ataları yetirmək gərəkdir. Bu gün də həmin atalar yetişməlidir toplumun içində. Sabahkı soy ayağını dirəməyə zəmin tapmalıdır. Bizə baxanda ayağını dirəməyə zəmin tapsın, desin dəyərlərim filan şeydir, babalarım onu yaşadıb, xalqına çatdırıb. Ən azından bu şüuru formalaşdırmaq gərəkdir. Buna çalışmaq gərəkdir. Kimi dindirirsən deyir, bir adam bunu eləməklə nə olacaq. Nəsimi bir adam idi, 8 adam deyildi ki. "Bir"dən başlayır hər şey. Kəlam da "bir"dən başlayır, məna da "bir"dən başlayır. Qüdrət də "bir"dən başlayır, hünər də "bir"dən başlayır, əməl də "bir"dən başlayır, millət də "bir"dən başlayır. Nəsimi "bir"dən başlayıb. Bir adam bəzən görürsən böyük bir məqsədə çevrilir. Ona görə "bir"i küçümsəmək olmaz. O "bir"in bu gün tədbirinə yığışmışıq. O bir Nəsimidir.

Nəsimi deyir, "Üzün qiblədir, ey sənəm, üzünədir sücudumuz". Səcdəmiz üzünədir. Min il bundan öncədən başlayaraq, bizim qibləmiz qıraqda yaradılıb. Yurdumuzdan qıraqda bizə qiblə yaratdılar. Getdik o qiblələrə, dizin-dizin süründük, ziyarət elədik, bizə rütbə verdilər. O rütbə ilə qayıtdıq toplumumuzun içinə, ona üstdən aşağı baxdıq. Küçümsədik onu. Komprodorlaşdıq, əxlaqımızı itirdik, mənəviyyatımızı itirdik. Nəsimini eşitmədik. Babəki eşitmədik. Arxa çevirdik...

Bir neçə fakta baxış çəkmək istəyirəm. Mən istəyərdim fərqli baxışlı insanlar burda olsun, polemikaya gedək. Fərqli baxışlı insanlara üz-üzə demək istəyirəm sözümü, gəlin polemikaya, mətbuat

polemikasına. Deyirlər, Nəsimi dindar idi. Nəyi dindar idi?! Din insanı bəndə sayır, Nəsimi Allah sayır, Həq sayır:

***“Məndə sığar iki cahan, mən bu cahana sığmazam.***
***Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam”.***

Dində kövnü məkana sığmayan Allahdı, Nəsimidə İnsan. Din deyir, sən cılızsan, balacasan, Adəmlə Həvvanın törəməsisən. Adəmlə Həvva günahkardır, Allahın sözündən çıxıb, İblisin felinə uyub, yasaq olunmuş buğdadan dadıb. Sən də min illərdir onların günahını yuya bilmirsən, Adəmlə Həvvanın daşıdığı günaha ortaqsan. Suçlusan. Allaha boyun əyməsən cəhənnəm odunda yandırılacaqsan. Bu şüuru yeritdilər... İnsanı küçümsəyərsən, cılız saxlayarsan, toplum önəmini itirər. Xalq kiçilər. Xalq insanlardan əmələ gəlib. Xalq kiçilər, cılızlaşar, özgürlüyünü itirər, varlığını itirər, dövlətini itirər, tarix səhnəsindən çıxar. İnsana güclü olduğunu, böyük olduğunu, böyük məna daşıdığını öyrətmək gərəkdir. Sən İçində Mütləq daşıyırsan. İçində Allah gəzdirirsən. Bütün kainatın içsəl qüdrəti olan bir Mənanın İnsanlıq adlı çalarını daşıyırsan, o açıdan deyirdi Nəsimi: “Həq mənəm, Həq məndədir”. İnsanlıq özü Həqdir. İnsanlıq mənası daşıyırıq biz. Bizim dünyaya gəlişimizin məqsədi odur, öz mənamıza bərabər yaşayaq. İnsanlaşaq. Əgər biz İnsani mahiyyətimizə bərabər yaşayarıqsa, toplumda ədalət, həqiqət bərqərar olar. Vicdan söz deyər, mərifət, qanacaq yerini tutar. Cılız insan cılız mühit yaradır. Kamilliyə çağırırdı bizim böyüklərmiz, əcdadlarımız, Nəimimiz, Nəsimimiz. İnsanı öz mənasına qovuşmağa çağırırdı. Böyük olun, onda millət olacaqsınız, bəşər olacaqsınız deyirdi.

Mən heç kimin atdığı addımlara qarşı deyiləm, bu gün kim hansı sahədə nə yöndə çalışır, çalışsın, gərəkli çalışmalarını alqışlayıram, uğurlar diləyirəm. Ancaq heç kim insanla uğraşmır. Heç bir toplum, heç bir partiya, qurum insanla uğraşmır. Bütün proseslər insandan qıraqda gedir. İnsan şüurundan qıraqda gedir. Ancaq insan şüuru gəlişməsə, insanın kimliyi dərk olunmasa (özü özünü anlamasa), onda biz xalq olmaq yönündə addım ata bilməyəcəyik. Dəyərlərimizi kiçiltməklə, məhv etməklə bizi addım-addım millət olmaqdan uzaq-

laşdırırlar. Coğrafiyamızı böldülər. Dünyada Azərbaycan qədər parçalanmış, bölünmüş xalq yoxdur. Öncə şüurumuz işğal olundu, sonra vətənimiz işğal olundu. Şüurumuz işğal olunduğu üçün bizi bir dəyərə bağlayan nəsnələr olmadı. Ona görə xanlıqlar yaratdıq. Ona görə mənəmliklər ortaya çıxdı. Hər kəs bu xalqın sərvətinə, mənliyinə, dövlətinə özünün mülkü kimi, malı kimi baxdı. Niyə? Çünkü insan yıxıldı. İnsanı yıxıldığı nöqtədən qaldırmaq gərəkdir. İnsan işıqdır...

Deyirlər, Nəsiminin dərisini soymayıblar. Bunu da insanlara yeritməyə çalşırlar. Hər yöndən addımlar atılır dəyərlərimizin üzərinə... Bunu yüksək tribunalardan edirlər, bunu elmi rütbələr almış insanlar edir. Elmi rütbələri o kəslərə verib ortaya çıxarırlar, onlar xalqın dəyərlərini məhv edirlər.

***Zahidin bir barmağını kəssən dönər həqdən qaçar,***
***Gəl bu biçarə aşiqi sərpa soyarlar ağrımaz.***

***Soyun, ey murdar sallaxlar Nəsiminin tənin,***
***Bunca namərdi görün bir ər qıyarlar ağrımaz.***

Bunları edam səhnəsindən deyib, dərisinin soyulmasını xəyalına gətirərək özünü uydurmayıb. Nəsimi, bu gün onu mollalaşdıranların tayı deyil, gerçək yaşantıları vardı. Onun haqqını danmaq eybəcərlikdir. O, qocalıq yaşı ilə ölməyib, amansızcasına öldürülüb. İndikilər barmaqlarına bir tikanın batmasına dözmürlər deyə, Nəsiminin o cür işgəncənin gözünün içinə qürurla baxmasına inanmırlar. Bilmək gərək, yarım min ildən çoxdur Nəsimini yaşadan təkcə qəzəlləri deyil, ən ağır işgəncə ilə öldürülməsi, bununla belə, yenilməməsidir. Nəsiminin cismini öldürən balacalar Nəsimiliyi öldürə bilmədilər. Cılızlar Ölümsüzlüyün yoluna qalaq-qalaq yığıldılar, üst-üstə qalandılar, ancaq Böyüklərə əngəl ola bilmədilər. Əbədiyyət Yolçularını özlərinin öləri zamanlarında tutub özlərinə tay edə bilmədilər...

Bizim istəyimiz odur, insanlarımız milli kimliyimizi düzgün dərk eləsin, düzgün öyrənsinlər. Böyükləriylə qürur duysunlar. Onda millət içəridən böyüyəcək.

Hürufiləri qırırdılar, diri-diri divara hörürdülər, Əmir Teymurun göstərişi ilə. Balaca sayırdılar onları, nə kərasən qılıncımın qabağında deyirdilər. Bu gün Teymuru savunanlar, elə bilirsiniz, Teymura sevgidən edirlər?! İçimizdəki ərəb dünyabaxışını savunurlar. Teymura gərək deyildi ərəb dünyabaxışı. Teymura gərək deyildi İslam. Teymura gərək idi öz şöhrəti. Mən heç bir vaxt hərb tarixi ilə öyünməmişəm, öyünməyi doğru saymamışam. Teymur böyük sərkərdə idi. Böyük səltənət yaratdı, ancaq heç nə qalmadı o səltənətdən. Ancaq Hürufilərdən örnək qalıb, zəmin qalıb. Xalq zəmin kimi onlara dayana bilər.

Əgər o vaxt hürufilər məhv olmasaydı, Azərbaycan bu Azərbaycan olmayacaqdı, kamillər məmləkətinə çevriləcəkdi. Belə tikə-tikə parçalanmayacaqdıq, bölünməyəcəkdik. Azərbaycanın içində qiblə yaranacaqdı. Qibləmiz Bakı olacaqdı, Təbriz olacaqdı. Gedib oranı ziyarət edəcəkdik. Qibləmiz öz içimizdə olanda özümləşəcəkdik. Qibləmiz öz içimizdə olanda millətə bənzəyəcəkdik...

## *Babək Özgürlük simgəmizdir*
### *(Babək Günü ilə bağlı toplantıda çıxışdan)*

Tarix boyu Azərbaycanın dəyərlərinə çoxsaylı hücumlar olub, bu gün də var. Bizi, bir millət olaraq, sıradançıxarma gedişləri var. Bunu dövlət siyasəti səviyyəsində həyata keçirirlər. Buna direniş göstərməyin ilk addımı, özümüzün ayaqda qalmağımız üçün, tutacağımız dəyərlərimizi tanımaqdan başlayır. Bizi millət eləyən nə varsa, onları öyrənməliyik, bilməliyik. Onları təkcə öyrənməli, bilməli deyilik, milli gələnəklərimizdə yaşadılmasına çalışmalıyıq.

Babək haqqında tarixi faktları burda vurğulamayacağam. Bilirsiniz, Babək haqqında çoxsaylı yanlışlar var. Bu yanlışlar təkcə onun tarixi faktlarına yanaşmada deyil, bütövlükdə Babəkin sunulması, öyrədilməsi, bir dəyər olaraq, bir mənəviyyat faktı olaraq pozuntuya uğradılır (təhrif olunur). Ən yaxşı halda isə Babəki ərəb işğalçılarına qarşı döyüşən bir qəhrəman sayırlar. Bilmək gərək, Babək ərəb

işğalına qarşı elə-belə döyüşmürdü. Ərəb bizim üzərimizə elə-belə gəlməmişdi, ideologiya ilə gəlmişdi. Başının üstünə İslam bayrağını qaldırmışdı. Dilində "la ilahə illallah" bağırtısı vardı. Yurdumuzun içərisinə "la ilahə illallah" bağırtısı ilə girirdi. Babək "la ilahə illallah"a qarşı döyüşürdü, onun xalqının içinə gələn, gətirilən ideologiyaya qarşı döyüşürdü.

Hamınız bilirsiniz, Azərbaycanı işğal eləyən Abbasilər sülaləsi olub, o çağda xilafətin başında onlar dururdu. Onu da bilirsiniz, Azərbaycanın özünün inamı vardı – Tanrıçılıq. Xilafət Azərbaycanın qarşısında şərt qoymuşdu, İslam dinini qəbul eləməsəniz xərac verməlisiniz, cizyə (can vergisi) ödəməlisiniz, bir gün, bir gecə olmaqla, ərəb əsgərlərini ailələrinizdə saxlamalısınız. Hədəf bu idi, ərəb əsgərlərindən dünyaya övladlar gətirmək, yaxın gələcəkdə Azərbaycan kimi verimli torpaqları ərəb feodallarının ələ keçirməsini sağlamaq. Bu artıq əxlaq məsələsi, namus məsələsi idi. Bizim millət belə qəbul edibdir İslamı. Namusunu qorumaq üçün fiziki dirənə bilməyib, qəbul edib. Baxmayaraq qəbul edib, xalqın qız-gəlinlərindən dünyaya ərəb övladları gətirmək planı ortadan qaldırılmayıb. Harda gəldi, qız-gəlinləri zorlama murdarlıqları həyata keçirilib. Azərbaycanlılar namussuzluğa dözməyib ərəb əsgərini öldürəndə, hər öldürülən ərəb əsgərinə qarşılıq beş can istəyirdilər. Əgər bir evdə, bir ailədə beş can yoxdursa, qohumlarından o sayı düzəldirdilər. Bir ərəb əsgərinə qarşı beş can. Xalqda bir deyim var, yaşlı adamlar bunu bilir, "ərəb öldü, qan düşdü". Bu sözü ordan qalıb.

Cizyə nə idi? – Can vergisi, yəni öz yurdunda torpağın üstündə gəzdiyin üçün, yurdun havasını udduğun, suyunu içdiyin üçün vergi verməlisən. Bu millətdən öz yurdunda cizyə alırdılar. Mən bunu niyə vurğu edirəm?! – Millətin qeyrətini oyatmaq üçün. Babək buna qarşı ayağa durdu. Ancaq təkcə işğal məsələsi deyildi, Babəkin özünün Xürrəmilik adında inancı vardı. Bu gün ərəbqafalı tarixçilər ortaya düşüb sübut eləməyə çalışırlar, Babək ərəbin işğalına qarşı döyüşürdü, İslamla döyüşmürdü. Necə yəni İslamla döyüşmürdü, nə deməkdir bu? Axı onun öz inancı vardı, özünün bayrağı vardı, Dövlət quruluşu vardı, yasaları vardı. Xilafətin dövləti İslam dövləti, yasaları İslam yasaları idi...

Babək ordu başçısı idi, üsyançı deyildi. Üsyançı damğası vurublar Babəkə. Babək üsyan eləmirdi, İslam xilafətinə qarşı savaş aparırdı. Böyük bir xalqla, millətlə ayağa durmuşdu, beş-on adamla deyil. Bir yanı Zəncan, bir yanı Şəmkir, bir yanı Naxçıvan, bütöv Azərbaycanı qapsamışdı. Babək bütöv yerimişdi ərəblərin üstünə.

Babəkin inancıyla bağlı da çelişkili baxışlar var. Guya Xürrəmilər ayin yerinə yetirərkən içki içib şənlənərdilər, sonra pozğunluq edərdilər. Xürrəm sözü də bu davranışdan gəlib. Yalandır, Böhtandır! Baxın, bu məsələləri ciddi öyrənən Asif Ata deyir, xürrəm sözü kefcillik anlamına gəlmir Babəkdə, Fərəh anlamına gəlir. O, Fərəh üstə yaşayırdı. Onun inancının adı fərəhçilik idi. Babək özgürlük uğrunda döyüşürdü. Babək deyirdi, özgürlük elə-belə yaşam faktı deyil. İnsan içindən özgür olduqca onun içi Fərəhə qərq olur. Bu fərəh onun ömrünün yönünü bəlli edir. Onun kimliyini bəlli edir. Babəkdə inam, İslamdakı kimi, insanı bədbinliyə qapamır. İslam, bədbinlik yaratmaqla, insanı mənəvi fəlakətə sürüyür: Dünya oyun-oyuncaqdır, heçdir, fanidir. Gec-tez Qiyamət qopacaq, bu dünya dağılacaq, filan olacaq. Dünya niyə dağılacaq? Çünkü insan əzəli günahkardır. Onun ulu babası Adəmlə, ulu nənəsi Həvva günah işlədib, İblisin felinə uyub, Allahın buyuruğundan çıxıb, ona görə Allah onları lənətləyib, cəzalandırıb, Cənnətindən qovub, yer üzünə göndərib. Bundan sonra Allaha daha çox ibadət eləyən, öləndən sonra, yenidən Allahın dərgahına qayıda bilər. Düzəlməyən isə, bu dünyayla birlikdə, məhv ediləcək...

Budur Xilafətin Azərbaycana gətirdiyi inam. Din Axirət dünyası uydurur. Axirət Dünyaya qarşıdır. Din bütövlükdə dünyanın anlamına qarşıdır. Dünyanın gözəlliyinə qarşıdır. Fani dünya ideyası yaşadığımız dünyanı insanın gözündən salır. İnsanın gözündən dünya düşürsə, o, vətən haqqında düşünmür, axirət haqqında düşünür. Çünkü dünya fanidirsə, vətən də fanidir. Vətən dünyanın bir parçasıdır. Deməli, onda vətən də fanidir. Vətən sevgisi yapılardan (şüurlardan) silinib gedir. İnsanın varlığına bütünlüklə qorxu sarınır. Babək buna qarşı döyüşürdü. Onun Özgürlük ideyası özündə insan faktının yüksəldilməsini daşıyırdı. Babək deyirdi, mən içimdə Şirvin gəzdirirəm. Onun yandaşları, yörəsində olan azərbaycanlılar inanır-

dılar, Şirvinin ruhu Babəkdədir. Şirvinin ruhu Babəkdədirsə, deməli, O, peyğəmbərdir. Xürrəmdinliyin peyğəmbəridir. Çünkü peyğəmbər o ruhu özündə daşıya bilir. “Peyğəmbər” sözünü işlətmirdilər, bu söz fars sözüdür. Ancaq Şirvinin ruhunu gəzdirən insan peyğəmbər statusu daşıyan insandır, bunun anlamı belədir. Bunu bizim şüurumuzdan siliblər, əlimizdən alıblar.

İçimdə Şirvin var demək, əslində, Babəkdən 500-600 il sonra ortaya çıxan hürufilərimizin dediyi ənəlhəqq ideyası idi. 10-cu yüzildə Hüseyn Mənsur Həllacdan öncə “ənəlhəqq”i Babək demişdi. Şirvin qüdrət allahının adı idi. Yenilməzlik onunla bağlı idi. Babək ona görə yenilmirdi. Döyüşkənlik, sığmazlıq onunla bağlı idi. Mən içimdə Şirvin gəzdirirəm, yəni məndədir Allah. Hürufilər deyirdilər, İnsan kainatın zərrəsidir, ancaq cövhərində olan zərrəsidir. Asif Ata da bunu deyir, İnsan özündə bütün kainatın anlamını, mənasını daşıyır. Dünyalıq adlı mənasını özündə daşıyır. Dünyalığın İnsanlıq adlı çalarını özündə daşıyır. Bu, elə insanın allahlığı deməkdir. İnsanlıq Allahlıq anlamının çalarıdır, onu insan özündə daşıyır. Hürufilərimiz onu vurğu eləyir, Babək onu vurğu eləyirdi. İnsan özündə belə bir olanaq daşıyır. İnsana elə-belə baxmaq olmaz. İnsana, içində o qüdrəti daşıyan kimi baxarsansa, insan o qüdrətə çatmaq haqqında düşünər. Böyük olar, şəxsiyyətə çevrilər. Ancaq insanı bəndə, qul, kölə sayarsansa, o, qul şüuru ilə yaşayar. İndiki kimi sürü halında. Xalqını tanımır, onun qədrini bilmir, gələcəyini düşünmür.

Biz Babəkə yanaşanda bu açıdan yanaşırıq.

Ancaq bir şeyi də mən deməliyəm. Mən burda heç kimə heç nəyi təbliğ eləmirəm. Öz düşüncəmi deyirəm. Hər kəsin düşüncəsini dinləməyə də hazırıq. İslam şüurlu toplumumuz Babəkin də adından qorxur, Asif Atanın da. Ancaq nə qədər Babəkin adından, Nəsiminin adından, Asif Atanın adından qorxacaqsan, millət ola bilməyəcəksən. Qorxaqdan türk olmaz. Qorxaqdan ərəb olar. Qorxaqdan başqa şey olar.

Bəzən Babəkə qarşı yeniliyi bəhanə gətirənlər də olur. Yəni Babək keçmişdə qaldı. Bunu yanlış sayırıq. Yenilik nədir? Yenilik gələnəyin (ənənənin) gəlişməsidir, inkişaf etdirilməsidir. Qədim gələnəklər daim həyatımızda inkişaf eləyir, çağdaşlaşır. Ancaq heç bir qədim

gələnəyi, olduğu kimi, bu gündə saxlaya bilmirsən, ya da onda dayanıb qalmırsan, bu ayrı məsələ. Konservatizm gəlişmənin ölümüdür. Yerində saymaqla millətin gələcəyi olmaz. Gələcək inkişaf deməkdir. İnkişaf isə, dediyimiz kimi, keçmişi, qədimliyi danmaq üzərində qurulmur, onun davamı üzərində qurulur. Tanrıçılıq sistemimiz, inancımız olub. Tanrıçılığın uzantısında Xürrəmdinlik yarandı. Bu, bütöv Tanrıçılıq deyil, yenilikdir, ancaq onun cövhərində Tanrıçılıq var. Babəkdən sonra Hürufilər gəldi ortaya. Hürufilər yenilik idi, ancaq gələnəyin davamı idi. Bu gün Asif Ata gəldi, Hürufilərdən beş yüz il sonra, bu da yenilikdir, gələnəklərin yenilənməsidir, çağdaşlaşmasıdır. İnsan haqqında, millət haqqında, dövlət haqqında, vətən haqqında, bəşər haqqında yetkin, kamil ideya qoyub ortaya. Bu ideya səni, bir millət olaraq, gələcəyə çağırır. Bir millət olaraq səni var eləyir. Baxın, millətin gəlişməsi budur. Gələnəyin gəlişməsi belə olur – çağdaşlıq. Bu olur yenilik. Başqa cür yenilik olmur. Ancaq bu gün insanlarımız yenilik adına bütün dəyərlərimizdən, gələnəklərimizdən əl çəkirlər. Bizə sırınan, bizi əritməyə yönələn (Assimilyasiyaya uğradan) gələnəklərdən tuturlar.

Bir var gələnək (ənənə), bir də var vərdiş. Bunlar ayrı-ayrı şeylərdir. Bu gün biz, millət olaraq, özümüzün qədim gələnəklərimizin üzərində gəlişib çağdaşlaşmırıq, yenilik adında bizə sırınanlara vərdiş olunuruq. Bununla da, öz üzümüzü, öz kimliyimizi itiririk, özgənin ətəyində namaz qılırıq, kişiliyimizi itiririk, qadınlığımızı itiririk, Mənəviyyatımızı itiririk. Bu gün bizim gəlişməyimiz, yenilənməyimiz budur. Ona görə papağı qabağımıza qoyub ciddi düşünmək çağımızdır. Qədim gələnəklərimizin bizim həyatımızda, bizim gələcəyimizdə, bizim millət olaraq, qurulmağımızda yeri, rolu nədir, bəlli etməliyik. Tapınmalıyıq ona. Babək o dəyərlərdəndir, insan böyüklüyünü öyrədir, insandakı yenilməzliyi, sığmazlığı, allahlığı öyrədir. Ənəlhəqqi öyrədir. Şirvinliyi öyrədir. Bu gələnəklərin üzərində, millət kimi, ciddi addım götürə bilərik. Dünya, mənəvi gəlişmə baxımından, bizdən çox şey öyrənə bilər. Dünyanın tör-töküntülərinə vərdiş eləməyimizin yerinə dünyaya dəyərlər verə bilərik.

Babək haqqında bu cür düşünürəm, onu bu cür tanıyıram, bu cür qarşılayıram. Bu cür də sevirəm. Bu cür də o ləyaqəti öz sevgimdə, öz daşıdığım dünyabaxışda yaşadıram, yaşatmağa çalışıram.

## Göz yaşının nəğmələşən anlamı

Bir gənc Amaldaşımın evində oldum. Bir yaşında körpəcə qızı var. Uşaq həm şəndir, həm də çox həssasdır. Enerjili, aktiv hərəkətlidir. Bir istəyi də yerinə yetirilməyəndə zənguləli, cingiltili, həm də gur səslə ağlayır. Bir dəfə ağlayanda qəribə hal yaratdı məndə. O anda ağlıma gəldi ki, ağlamaq səsinin musiqi ilə birbaşa bağlılığı var. Bu uşağın, böyüyəndə yaxşı muğam oxumaq bacarığı aşkarlana bilər... Genel olaraq, insanın gülüşündə də, ağlamasında da musiqi var. Bu məzmun insanla birgə doğulur, böyüyür. Ya üzə çıxıb ifadə olunur, ya da sonevə aparılır. Ancaq istənilən halda, bu keyfiyyət insanın duyğularına, ruhani xislətinə bağlı olub körpəliyində də, yetkinliyində də, qocalığında da özünü göstərir.

***xxx***

Bu uşaq ağladıqca səsində muğamla, sazla, ana laylasının həsrətiylə bağlılıq tonu yeriyirdi düşüncələrimə. Bəlkə də bütün bunlar mənim duyğularımın fantaziyaları idi. Ancaq məncə bayatılar, ağılar bu səsin sözə çevrilmiş ifadəsidir. Ana laylası uşaqdakı həmin səsi sözə çevirən musiqi tonudur. Uşağın sirli, gizlin halı musiqiyə, bayatılı sözə çevrilib ifadə olunmuş arzu kimi özünə qaytarılır. Bu zaman onun azadlıq, xoşbəxtlik duyğuları təmin olunaraq rahatlıq, arxayınlıq, hüzur gətirir uşağa. Ana laylasının sirli, müqəddəs oxşamaları ilə uşağın məsumluğu birləşir, uyuma çevrilir, uyğu gətirir.

***xxx***

Uşağın istəkləri ödənməyəndə özünü tək hiss edir, yalqızlığı onda həyəcan doğurur, ürək nisgilə bürünür. Ağlamaqla nisgil ürəkdən silinir. Bəlkə də ağlamaq – arılamaq, ağartmaq anlamında işlənən sözdür. Göz yaşı kədəri, nisgili ürəkdən silib ağardır. Bəlkə də kədər ürəyin ağarmasının, ağlanmasının yenilənməsi üçün var. İnsan

böyüyür, dünyada, həyatda istəklərini, arzularını tam ödəyə bilmir. Gerçəklik Mənadan uzaq düşür. Mənaya olan həsrət kədər yaradır. Bu kədər göz yaşı ilə deyil, musiqi ritmiylə, poeziya diliylə ifadə olunur. Körpəliyindən yetkinliyinə, qocalığına doğru yol gedən ağlama səsi həsrət yanğısı kimi nəğmələşir, şeirləşir, musiqiləşir. Muğama çevrilir, saza çevrilir. Söz yox, ürəyi – sevincin də öz böyütməsi var. Sevinclə kədər insan halının tarazlığıdır. İnsanda yalnız davamlı, tükənməz kədərlər olarsa mərhəm duyğular qırılar, ömürdə amansız, sərt əhvallar oluşar. Qayğılarsız ömür də çaşar. Mövcudluq toxunulmaz deyil, onun sürdürülməsində uğurlar da, uğursuzluqlar da qaçılmazdır…

***xxx***

Körpənin arzusu da körpə olur, kövrək olur. Ona görə arzularına əlinin çatmamasını ağlamaqla çatdırır. Yetkinin arzuları da yetkin olur. Onun içində həsrət yarananda ağlamır, musiqi diliylə, şeiriyyət diliylə danışır. Bununla belə, yetkinliyin də göz yaşları var. Kədərdən doğan əzabın son həddi görünəndə onu ifadə eləməyə sözün, musiqinin, poetik duyğuların belə gücü çatmır. Bu zaman ürəkdəki nisgili ancaq göz yaşı yuya bilir.

***xxx***

Bu məna dərk olunanda, ürək ülviyyətlə işıqlananda kin-küdurət bəsləmir, şər ürəyə yol tapa bilmir. İşıqlı ürəklərdə şər qaranlığı var ola bilmir. Bu hallar insanla dünyanın əbədi bağlılığının görsənişidir. RUHUN yaratdığıdır.

## Adamda ağalıq duyğusunun qaynağı

Tibb elminin bilgisinə görə insan orqanizmi havadan çoxsaylı mikroblar götürür. Sosioloji ifadələrlə desək, orqanizm bu mikrobları izolyasiya edib qulluğunda saxlayır. Başqa sözlə, orqanizm özünün mövcudluğunu sürdürmək üçün qullanır. Orqanizmdə zəiflik yaranada həmin mikroblar zərərli mühitə çevrilməyə çalışırlar, yəni xəstəlik yaradıcısına çevrilirlər. Sanki plantasiyalarda işlədilən qullar ilk fürsət düşəndə üsyan qaldırırlar. Bu açıdan yanaşanda ruhanilik-

cismanilik təzadını daha yaxşı aydınlaşdırmaq olar. Cismanilik – orqanizmin mövcud olmasına, mövcudluğunu sürdürməsinə bağlı anlayışdır. Orqanizm mikroorqanizmlərə ağalıq eləməsə mövcud olmaz. İnsanda idrak, mənəviyyat böyüyüb aktiv etki göstərməsə isə ruh cismaniliyə tabe olar. Yəni orqanizmin mikroorqanizmlərə ağalıq etməsi ruha da yansıyar. Bununla da, insan öz növündən olanlara ağalıq eləmək yolunu tutar. Sonucda cismanilik hakim olar, ruhanilik sıradan çıxar. (Toplum ruhaniyyat ölçüləri ilə yaşamadığına görə aydınlıq verdiyimiz durum daha çox özünü doğruldur). Ancaq ruh bütövləşərsə, orqanizmin mövcudolma tələblərini, əslində ağalıq tələblərini bioloji müstəvidən sosioloji (deyək, toplumsal) müstəviyə daşımaz. Yəni ağalığı toplumsallaşdırmaq (ictimailəşdirmək) yerinə onu biolojilikdən yüksəyə qalxmağa qoymaz. Başqa sözlə, toplumsal ortam ruhsal ortamla əvəz olunar.

Bir sözlə, orqanizmin mövcudluğu mikroorqanizmlərə ağalıq eləməkdən keçir, ruhun varlığı isə toplumsal ortamda ağalığın öldürülməsindən. Ağalıq cismaniliyi var etsə də, ruhaniliyi yox edir. Deməli, ruh cismaniliyə tabe olmalı yox, cismaniliyə hakim olmalıdır ki, yaşasın.

(Asif Atanın "Ruhani Cəmiyyət" ideyasını bu açıdan da öyrənmək olar).

**Sözardı (Haşiyə)**: Bu yazını işdə yazdım. İşlədiyim texnoloji qurğuda təmir gedirdi. Burada bir çox fiziki işləri mən özüm görürəm. Eyni halda, bəzi işləri yoxlamaq gərək olur. Neft emal olunan kalonun hündürlüyü 50 m-dən yuxarıdır. Mən onun ən yuxarı qatına qalxmışdım, baxış keçirmək gərək idi. Bir az dincəlmək üçün məhəccərə söykənib dənizə baxdım. Aşağıda fərqli geyimli insanlar qaynaşırdı. Onların bir kəsimi yönəticilər idi, bir kəsimi isə neft məhsullarına bulaşmış, çirkli geyimlərdə çalışan əməkçilər idi. Təmiz geyimdə gəzişənlər əlləri, üz-gözləri bulaşmış əməkçilərdən daha çox aylıq alırlar. Buradaca aydın olur ki, elm təbəqə yaradır. Yəni diplom alan diplom almayandan çox yeməlidir. İnsanlıq, Ruhaniyyat bunu demir, belə ədalət olmur. Axı hər kəsin zəruri tələbatları var, hər kəs də diplom ala bilməz. Alsaydı, bəs “qara inəyi kim sağardı”?! Düşündüm, belə bir ideya ağlıma gəldi. Öncələr özümə sual verirdim,

insanda ağalıq duyğusu hardan, nədən qaynaqlanır? Bu an ağlıma gəldi ki, ağalıq duyğusu cismaniliyin mövcudolma instinktindən qaynaqlanan bir şeydir. Elə oradan üzü aşağı baxanda gördüyüm mənzərələr ağlımda bu məsələni bir az da aydınlaşdırdı. Deməli, əmək dünyasındakı təbəqələr əslində həmin orqanizm-mikroorqanizm məsələsidir, topluma yansıyıb. İnsan orqanizminin quruluşunda olan münasibət, İnsanlığın ölçüsünə dayanılmadığı üçün, toplumsal yaşayışa etki göstərə bilir. Dövləti yönətənlər, ayrı-ayrı strukturların rəhbərləri bir orqanizmdir, fiziki əməklə uğraşanlar da sanki mikroorqanizmlərdir. Əməkçiyə münasibət ədaləti doğrultmur, onun əməyini özündən daha çox başqaları mənimsəyir.

Asif Atanın "Ruhani Cəmiyyət" ideyası nə qədər doğru qoyulmuşdur. Onun ideya sistemi, dünyabaxışı əslində kəşflər üçün böyük bir xəzinədir. Yetər ki, biz onları yaşayaq, dərk eləyək.

Dedik ki, orqanizm havadan qəbul elədiyi mikroorqanizmləri özünə tabe etdirir, belə demək olarsa, onları özü üçün işlədir. Əgər bunu eləməsə orqanizm yaşamaz. Deməli, orqanizm bu mikroorqanizmlər üzərində ağalıq etməklə var olur. Bunu isə topluma yansıtmaq olmaz. İnsan ruhaniyyat dünyasını düşünməsə, cismanilik səviyyəsində düşünərsə, onda onun toplumsal davranışı elə başqalarını qamarlamaq, soymaq, talamaq olacaq. Təki mən yaşayım, təki mənim ailəm yaşasın, başqaları nə olur olsun. Belə düşünəcək. Bunların olmaması üçün, yəni ağalığın insanın ruhuna yansımaması üçün, ruhuna hakim olmaması üçün mənəviyyatı düşünmək, yaratmaq gərəkdir. Ruhaniyyat dünyasını, insanlıq dünyasını dərk eləmək gərəkdir. Dünyalıq anlamını dərk eləmək gərəkdir. Dərk eləyərsənsə cismanilik səviyyəsində qalmazsan, ruhanilik səviyyəsinə qalxarsan. Orqanizmdə nə proses gedir-getsin, özü bilər. Bu, təbiətin qanunauyğunluğudur, ancaq biz təbiətin qanunauyğunluğuna ruhumuzu tabe eləmirik. Çünkü bizim İnsanlıq mahiyyətimiz təbiətin qanunauyğunluqlarından, mövcudolma şərtlərindən daha yüksəkdə durur. Ona görə də biz mənəviyyat dünyamızı cismanilikdən yuxarıda tuturuq. Asif Atanın "İnsanlaşın – İnsanlaşdırın" çağırışı da buradan qaynaqlanır. "Ruhani Cəmiyyət" Quruluşu bununla oluşa bilər.

Beləliklə, adamda ağalıq duyğusu orqanizmin özündəki mikro-orqanizmlərə ağalıq halıdır, mövcudolma instinktlərindən başlayır ki, bu da insanın bütövlükdə düşüncəsinə, ömrünə, ruhuna yansıyır. Bunun qarşısını almaq üçün özüylə döyüş gərəkdir. Özünü öyrənmək, tanımaq, özündəki heyvanilikdən imtina etmək – Özümləşmək gərəkdir. Yəni bioloji istəklərə deyil, mahiyyətinə bərabər yaşamaq gərəkdir.

## Asif Atanın ölümündən sonra ilk qarşıya çıxan durum

**Ürəyinizdə Günəş olsun, sayğılı yurddaşlarımız!**

Yüz illərdir Azərbaycan cəmiyyəti özünəyadlaşma aqibəti yaşayır. Həyatımıza özgəçilik fəlakəti gətirən başqa mədəniyyətlərin, qıraq basqıların etkisi altında bir xalq olaraq, daxili münaqişə səviyyəsində yaşamağa sanki məhkum olunmuşuq. Yadlığa qarşı döyüşə bilməyəndə həmişə özümüz özümüzlə döyüşmüşük, yəni bir-birimizlə. Hətta bir-birimizlə döyüşümüz başqa təsirləri, mədəniyyətləri müdafiə mövqeyində dayanmağımızla həyata keçib. Bu hal cəmiyyətimizin həyatında bu gün də davam edir. İctimai-siyasi təşkilatların, partiyaların münasibətlərində biz bunu təəssüf ki, hər an görürük. Bu da ona görədir ki, biz xalq olaraq, içəridən inkişaf eləmirik, özümlü dəyərlər yaratmırıq. Asif Ata belə bir dəyəri yaradıb ortaya qoydu və dedi ki, xalq olmağımızın yolu içəridən qurulmağımızdan keçir. Biz, Asif Ataya tapınanlar bu prinsipi rəhbər tutduq. Buna baxmayaraq, cəmiyyətin halında yaşayan qüsurlar Asif Atanın Ocağında da özünü göstərdi. Ocağa üz tutanlar cəmiyyətin qüsurlarını özləri ilə Ocağa daşıdılar. Bu cəhətdən cəmiyyətlə Ocaq mühiti arasındakı fərq elə də böyük deyildi. Bu da doğaldır. Heç nə bir gündə baş tutmur. Bunun üçün daxili yol keçmək gərək, Asif Atanın İnsanlaşma ideyasının əsas mexanizmi olan "Özüylədöyüş" əməlini işə salmaq gərəkdir. Yadlığı hər kəs içində daşıyır. Başqasında yadlıq axtarıb döyüşmək tarixin heç bir dönəmində özünü doğrultmayıb. Tərsinə, ziyan verib. Siyasət də, əslində başqası ilə döyüşmək səviyyəsindən doğub. Adamda özünüqoruma instinkti çox güclüdür.

Onun üstünə getdikcə, həmin instinktlər aktivləşir, pis mənada yenilməz olur. Bununla da, düşmənçilik başlayır. Bir-birinə qarşı fəndlər düşünülür, məkrlər işə salınır, qərəzli təbliğatlar aparılır. Bu cür münasibət hətta cinayətə qədər inkişaf edir…

Asif Atanın ölümündən sonra mühitinə toplaşan adamların münasibətlərində mənəmlik, birincilik, paxıllıq, qısqanclıq duyğuları fəlakətli bir səviyyədə özünü göstərdi. Mən də Soylu Atalı olaraq, bu duyğulardan xali deyildim. Bu barədə ətraflı şəkildə "İnam Sorağında" kitabımda yazmışam (kitab 400 tirajla "Adiloğlu" nəşriyyatında çap olundu və yayıldı, hələ də qalan nüsxələri yayılır). Orada mən balaca hisslərimi, qüsurlarımı, naşılığımı, kallığımı incəliklərinə qədər vurğulamışam. Bu, mənim ciddi şəkildə özüylə döyüşə başlamağımın sonucu idi. Çox ilgincdir (qəribədir), mən də özümlə döyüşürdüm, başqaları da mənimlə döyüşürdü. Çünkü mən Ocağın Yükümlüsü sorumluluğunu üzərimə götürmüşdüm, bu sorumluluğu doğrultmağa çalışırdım. O birilər isə nə yükün altına girirdilər, nə də mənim yükü götürməyimi istəyirdilər. Bununla belə, mən öz üzərimdə üstünlüyə (qələbəyə) yetdim. Bu gün də mən öz üzərimdə işləyirəm. İctimai şərlə – ehkamla, quruluşla, ədalətsizliklə, həqiqətsizliklə döyüşmək üçün öz üzərində qələbə çalmaq gərək, içsəl özgürlüyə yetmək gərəkdir. Asif Atanın tələbi də budur. Mənim ilk, başlıca öyrətmənim Asif Atadır, ikinci öyrətmənim Tolstoydur. Onların özüylə döyüşləri, özlərini yaratmaları, düşünürəm, bütün insanlıq üçün örnəkdir. Hər kəsin öz ömründə bu örnəkdən yararlanmasını diləyərdim. Onda çox gözəl insanlıq ortamı yaranar. Toplumsal şər bireysəl yetkinliyin qarşısında yenilər…

Bu gün mənə qarşı davam eləyən bayağı yanaşmaları da toplumun durumu açısından yozmaq doğrudur. Axı adamlar nəyə yetmək istəyirlər?! Ocaq hay-həşirə, görüntülərə eşit (bərabər) deyil ki. Görüntü yaratmaq, bunun üçün düşmənçilik (rəqabət) aparmaq, ora-bura qaçıb çığır-bağır salmaq insanlıq çatışmazlıqlarıdır. Şər danışmaq, məkr işlətmək, böhtanlarla şantaj yapmaq normal insan işi deyil. Ayıbdır Atadan, toplumdan. Asif Atanın ideyalarını öyrətdiyimiz insanlara saygı duymaq gərəkdir. Mən harda nə demişəmsə, nə yazmışamsa, nöqtə, vergülünə qədər arxasında dururam.

Doğrudur, boynuma almışam, bir vaxtlar içki içirdim, papiros çəkirdim, kart oynayırdım, qızlara qarşı içimdə duyğular əmələ gəlmişdi. İnsanın içində yaranan duyğularını pis əməl kimi qələmə vermək nə üçündür?! Genel olaraq, mənim bu etiraflarımın çevrəsində eybəcər şübhələr yaratmaq nəyə xidmət edir?! Deyilən sözləri montaj edib şantajçılıqla məşğul olmaq ayıb deyilmi?! İndi durub belə məsələləri məhkəmədəmi çözək?

Ən böyük ləyaqət Asif Atanın işini davam eləməkdir. Onun adı ətrafında xoşagəlməz oyunlar yaratmaq nəyə lazımdır?! Tutaq ki, mən də həmin adamların haqqında, onların işlədikləri suçlardan, naqisliklərdən danışmağa, əks təbliğat aparmağa başladım. Axı bu nəyi həll edir?! Məgər mənim məqsədim ülvi xəlqi yön yaratmaq deyilmi?! Ona görə də heç bir oyuna çəkilməyəcəm, heç bir cılız hisslərə qoşulmaycam…

Mən üzümü Mübarizə eşqimin, İnamımın göstərdiyi tərəfə tutmuşam!

## Dairələr

Asif Atanın "Dairələr" başlığı altında deyimi var: “Bəşər dairəyə düşüb, çıxa bilmir – Kapitalizm-Sosializm dairəsinə; Din-Ateizm dairəsinə; Totalitarizm-Demokratiya dairəsinə”.

Məncə bu dairələr bəşəriyyətin ruhaniyyatsızlıq sorunundan əmələ gəlir. Ya da nisbi ruhaniyyatçılıq sorunundan oluşur. Asif Atanın İnsanlıq ölçüsünə görə nisbi ruhaniyyatçılıq da elə ruhaniyyatsızlıq deməkdir. İnsanlığın ölçüsünə görə nisbilik anlayışı, yəni dəyişkən, yarımçıqlıq elə yoxluğa bərabərdir. Nisbi həqiqət – yarımdoğru deməkdir. İstənilən bir məsələnin yarısı doğrudursa, deməli, yarısı da yalandır. Yalanla doğrunun qarışığı istənilən adamda ikrah doğurur. Ömrü yalanla doğrunun qarışığından oluşan adama heç kim sevgi bəsləməz, nə də güvənməz. Yarımçıq xarakter bilmirsən hansı məqamda səni aldadacaq, güvəninə dönük çıxacaq. Adamların xarakteri nisbi olduğu üçün, düşüncəsində nisbiliyə bərabər yaşayır. "Nöqsansız adam yoxdur" deyib yalanın, eybəcərliyin, dönüklüyün, fəlsəfi anlayışla desək, nisbiliyin genişlənməsinə, çoxalmasına ortam

yaradırlar. Adamların düşüncəsində hər bir eybəcərliyə güzəşt olduğu üçün insani münasibətlər qurulmur. Çünkü doğmalıq yaranmır. Doğmalıq – insanlardakı üstün keyfiyyətlərə sevgidən yaranır. Üstün keyfiyyətlər yoxdursa, münasibətlərdə yaşadılmırsa, doğmalıq da yoxdur. Din deyir, adam günahkar quldur, Allah isə bağışlayandır. Allah günahı bağışlayandırsa, deməli, günahın yaşayıb toplumda genişlənməsinə haqq tanıyır. Hərçəndi günahların bağışlanmaması ilə bağlı "cəhənnəm" ideyası da var.  Elə bu özü nisbilikdir. Həm bağışlayandır, həm də cəhənnəm əzabı.

(Dindar deyər: Allah şans verir düzəlmək üçün, düzəlmirsə cəhənnəm gözləyir adamı. Bizə görə adamın İnsanlaşmadan yaşaması elə ən böyük əzabdır)...

Ziddiyyətlərlə dolu olan bir baxış doğru ola bilməz.  Ona görə yuxarıda vurğuladıq ki, "dairələr ruhaniyyatsızlıq sorunundan əmələ gəlir". Baxmayaraq dinlər var, ancaq ruhaniyyat nisbidir. Nisbidirsə, əslində yoxdur.

Yuxarıda vurğuladıq ki, günah bağışlananda artır, çoxalır, toplumun varlığına hakim olur. Bununla belə, biz günahkarın döyülməsinin, öldürülməsinin gərək olduğunu demək istəmirik. Günahkarla deyil, günahla döyüşmək gərəkdir.  Bunun üçün ruhaniyyatı yalanlardan təmizləmək gərəkdir; İnsanlığa İnamı ölçüyə çevirmək gərəkdir; başqalarıyla deyil, özüylə döyüşmək gərəkdir; içindəki eybəcərlikləri tanımaq, keçici meyilləri rədd etmək, xarakteri ruhanilәşdirmək, ədaləti, xeyiri ömürə gətirmək, əməllərdə yaşatmaq gərəkdir. Bütün bu əməllər özündə ruh yaratmaq anlamı daşıyır. İnsanın ruhu xeyirlə, ədalətlə, həqiqətlə doğmalaşanda başqaları ilə münasibətlərində gözəlliklər bərpa olunur.

Ölümlə həyatın birliyi xəstəlik deməkdir. Bütün xəstəliklərin qaynağı toplumdakı ruhsuzluqda, yanlış düşüncələrdədir. Toplum ruhun nisbiliyini, bu nisbilikdən yaşamında ortaya çıxan sorunları dərk eləmir. Yalnız ruhun ağır duruma düşməsindən sonra, normal davranışları belə itirəndən sonra adamın ruhi, psixi xəstə olduğunu bilir. İnsani münasibətlərdə, davranışlarda  doğmalığın olmaması, başqasının haqqının danılması, ədalətsizliyin geniş yayılması ruhani keyfiyyətlərin itirilməsinə görədir. Ruhun nisbi olması – yarımxəstə

olması deməkdir. Ədalətsizlik toplumda anormallıq sayılmır, ya da mütləq ədalətin olmasına inanılmır ("Nöqsansız insan yoxdur" məsələsi). Ancaq birisi şüurunu itirmək üzündən öz-özünə danışırsa, bunu anormallıq kimi qiymətləndirirlər. Əslində isə ədalətsizlik eləyənlə öz-özünə sayıqlayan arasında bircə addım yol var. Fəlsəfi dillə desək, nisbi ruhla xəstə ruh arasında çox az fərq var. Toplum bu az fərqi görüb dərk eləsə, nisbi ölçülərlə barışmaz, mütləq ölçüyə can atar. Nisbi ruhaniyyat kimi mövcud olan dinlərlə, insanı alçaldan quruluşlarla barışmaz. Kapitalizm nisbilikdən yaranıb, dövlət düzeyində mövcud olan xaos, anarxiya nisbilikdən yaranıb. Nisbiliyi qaçılmaz saymaq – ədalətsizliyə, şərə haqq tanımaqdır. Ona görə dünyada gedən mübarizələr uğurlu dəyişikliklər yarada bilmir. Mübarizə aparan adam ağlındakı, düşüncələrindəki nisbiliklərlə meydana girir. Ədalət istəyib yarımədalətlə barışmaq mübarizədə özünü aldatmaqdır. Dinə toxunmayıb mübarizə aparmaqla ruhaniyyat qurmaq olmaz. Eləcə də ədalətsiz quruluşun içində, tələbində mübarizə aparıb ədaləti bərpa eləmək özünü doğrultmaz. Nisbi istəklər, ideyalar toplumun düşüncəsini köhnəlikdə saxlayır, əslində geriyə aparır.

İllər öncə, hələ sovet dönəmində Dağ Borçalının Daşlı (sonrakı Kalinino) rayonunda "Hacıxalıl ocağı" deyilən bir ziyarətgah vardı. Uzaq bölgələrdən insanlar oraya ziyarətə gedərdilər. Bir yol atam da öz "vilis" maşını ilə qohumları oraya apardı. Aralarında mən də vardım. Məktəb yaşlarında idim. Qaraxaç yaylağında binə düşmüşdük. Daşlı rayonuna da oradan getmişdik. Qaraxaç yaylağından oraya bir neçə saatlıq yol idi. Hacıxalıl kişinin də basdırıldığı bir sonevlik (qəbirstanlıq) vardı. Onun yaxınlığında uçuq, köhnə anbara oxşar bir yerdə (samanlıqda) yaşlı bir kişi gələnləri qarşılayır, meyxana oxuyub nələrdənsə danışardı. Bəlkə də yaşımın az olduğuna görə o məclis mənim üçün bir anlam daşımırdı. Ona görə içəridə oturmaq darıxdırıcı oldu. Bayıra çıxanda gənclərin bir yerə toplaşaraq deyib-güldüklərini gördüm. Onların şən əhvalları məni oraya çəkib apardı. Gedəndə gördüm, köhnə paltarda (yay günü olmasına baxmayaraq, üstündən palto da geymişdi) bir kişi ortalıqda fırlanır. Şalvarın balağını corablarının içinə yığmış, ayaqlarında qaloş, başında papaq,

çiynində torba (içində nələrsə vardı) əlində çəlik, üzü tüklü. Gənclər onu çevrələmişdilər, özləri də gülürdülər. Soruşdum ki, nə baş verib, bu kişi kimdir? – Dedilər adı Əlləzdir, çevrəsinə çubuqla cız çəkmişik, onun içindən çıxa bilmir. Öncə inanmadım. Yaxınlaşıb cızı ayağımla pozdum. Bu anda kişi üzüaşağı qaçmağa başladı. Dedilər, xəstədir. O çağlarda ruhi (psixi) xəstə olmağın nə demək olduğunu dərk eləmirdim. Hər halda, insanın belə bir duruma düşməsinin nədənlərini bilməsəm də, acıdım. Ancaq bu kədər gözün gördüyünə, ağlın kəsə biləcəyinə qədər idi. Sonralar insanı dərk elədikcə toplumun bütövlükdə ruhi sorunlar içərisində yaşadığını düşündüm. Hər yerdə insanlar qarabasmalar etkisi altında yaşayır. İş yerimdə biri var, deyir, "mən bir iş dalınca gedərkən, yanımda kimsə “tək səbir” gətirirsə dala qayıdıram, bilirəm ki, işim alınmayacaq". Bu cür adamlar toplumda çoxdur. Sanki onların işi, taleyi kimlərinsə burnuna düşüb qıcıqlandıran toz hissəciyindən asılıdır. Kənddə olduğum çağlarda biri mənə kağız parçası göstərib nə olduğunu soruşmuşdu. Kağız parçasında ərəb abesinə oxşadılmış cızma-qaralar vardı. Dedi, “dua” yazıblar. Dedim, sizin taleyinizi ərəb abesi, ya da ona bənzər cızma-qaralarmı bəlirləyir?! (Kimsə, ərəb abesini heç bilməyən biri, cızmalarıyla adamı aldadır, o da, ağlının korluğu üzündən bunun fərqinə vara bilmir). Bütün bu hallar qarabasmalardır, ruhi xəstəliklərdir. Din nisbi ruhaniyyat yaratdı, nisbiliklərdən oyunlar, yalanlar törədi, artdı, genişləndi – toplumsal gəlişmələrin qarşısını aldı. Ona görə Asif Ata yazır, bəşər dairələrə düşüb. Dairələrdə insanın ləyaqəti aşağılanır, dəyəri azalır. 21-ci yüzil öncəki yüzillərə bənzəyir. Asif Ata insanı dairələrdən qurtarmaq üçün yeni ölçü verir – Mütləqilik ölçüsü. Bu ölçü İnsanlaşmağın yaşamda bərqərar olması deməkdir.

## Quruculuq Yönü

Ürəyinizdə Ata Günəşi olsun, sevimli Amaldaşlarım.

Düşündüyüm önəmli bir məsələni sizinlə paylaşmaq istəyirəm. Bizim qəhrəmanlıq dastanlarımız var. Deyək, Koroğlu, Dədə Qorqud boyları filan. Dastanlarımızda qəhrəmanların sözü, buyruğu çək-çevir (mühakimə) olunmur. Mən bunu təkcə elə keçmişdəki qəhrəmanların buyruğu, davranışı ilə bağlamaq da istəmirəm. Bu bir örnək məsələdir. Elə çağımıza da özgün edirəm. Üç məsələ var, daha doğrusu, üç qurulma yönü var, bunların başında duranların sözləri çək-çevir (mühakimə) olunmazdır – Dövlət, ordu, ailə. Niyə çək-çevir olunmazdır, olunarsa nə baş verər?! Əgər dövlətin başında duranın sözü, buyruğu çək-çevir olunarsa, onda dövlət anarxiyaya çevrilər. Dövlətin başında demokratiya-filan kimi oyunlar yerimir, keçmir, keçməməlidir. Eləcə də, ordu. Orduda, hamınız bilirsiniz, indi də var, komutanın buyruğu, göstərişi çək-çevir olunmur. Mən bu yaxınlarda bir rus filminə baxdım. Daha doğrusu, sovet filmidir, "Böyük Vətən Savaşı"ndan danışır. Orda bir polkovnik bir baş leytenanta buyruq verir. Baş leytenant sadalayır, sizin buyruğunuzu filan səbəblərdən yerinə yetirə bilmirik. Bir əməliyyatı yerinə yetirmək üçün baş leytenantdan qüvvə istənilir. O qüvvə də yoxdur. Döyüş tapşırığı yerinə yetirirlər, bir neçəsini də kəşfiyyata göndərib. Onları kəşfiyyatdan geri çağırmaq mümkün deyil. Mümkün olarsa, onların geri qayıtdığı zonada daha böyük fəsadlar olar. Polkovnik səsini qaldırır: "yerinə yetir". Baş leytenant əsas duruşa keçir, "oldu" deyir.

Nə demək istəyirəm, əgər komutanın buyruqları çək-çevir olunarsa, onda orduda, ordunun başında anarxiya yaranar, vətən işğal olunar. Sınırlar pozular, yağı düşmən içəri yeriyə bilər. Atatürk nə deyirdi, mən sizə ölmək göstərişi vermişəm, arxada vətəndir. Qayıdıb vətəninizdə vətəninizlə birgə ölməyin, düşmənlə döyüşdə ölün. Buna görə Türkiyə Respublikası yarana bildi.

Bir də ailə məsələsində ailə başçısının buyruğu, sözü, göstərişi, önərisi çək-çevir olunarsa ailədə başıpozuqluq yaranar, tərbiyəsizlik baş alıb gedər. Ailə pozuntulara uğrayar. Ailənin pozulması xalqın pozulması deməkdir, ailənin pozulması dövlətin pozulması demək-

dir, ailənin pozulması ulusal dəyərlərin pozulması, sıradan çıxması deməkdir. Söz yox, gərək dövlətin də, ordunun də, ailənin də başında duran böyük Böyük olsun, balaca olmasın, hərcayi olmasın, gəda olmasın. Dövlətin başında, ordunun başında gəda olanda onun buyruğu çək-çevir olunur, yerinə yetirilmir. Özbaşınalıq, anarxiya hər yeri bürüyür, eləcə də, ailəni. Ailənin başında duran gəda olarsa, o ailənin ailə olması sual altına düşər.

Sonra təklikdən qaçmaq olmaz. Azərbaycanda, ya da başqa ölkədə, insanların hamısı dövlərin başında durmur, ya da komutan olmur. Ancaq hər kəs ailə başçısıdır. Hər kəs təkliyə çəkilməyi bacarmalıdır, hər kəs özü ilə üz-üzə qalmağı bacarmalıdır. Ailənin dünənini, bu gününü, gələcəyini özü ilə götür-qoy etməlidir, uzağa baxmalıdır. Nə doğrudur, nə əyridir, davranışlarda nə olmalı, necə nizamlamalı, necə ailəyə yiyə çıxmalı kimi məsələlər təklikdə çözülür. Buna görə təklikdən qorxmaq olmaz. Tənhalıq ayrı şeydir, təklik ayrı şeydir. Təkliyə çəkilərsən, dediyim kimi, irəlini-gerini düşünə bilərsən, uzağa baxa bilərsən. İnsanlar təklikdən qaçırlar, özləri ilə üz-üzə qalmırlar, heç nəyi düşünmürlər, heç nəyin sorumluluğunu duymurlar, yaşamırlar. Bu məsələ, Ocaq olaraq, önərdiyimiz ciddi bir məsələdir. Bu məsələni yaxşı düşünmək gərəkdir. İnsan ailə olmağı bacarmalıdır.

Mənə bir sual verdilər, siz xalqın dəyişməsinə inanırsınızmı? Dedim, inanıram. Soruşurlar, niyə inanırsınız? Deyirəm, söz yox, inanmaq üçün ortada ciddi faktlar, arqumentlər olmalıdır, ortada ciddi ömürlər olmalıdır. Biz, Ocaq olaraq, ortaya ciddi ömürlər qoyub xalqda dəyişikliyin yarana bilməsinə inam yaratmalıyıq. İnsanlar xarakterini dəyişmir, çünkü xarakterilə uğraşmır. Qıraqdan baxan da deyir, belə gəlib, belə də gedəcək, heç kimi dəyişmək olası deyil, kimin zatında, qabında nə var, odur. Biz Ocaq olaraq ortaya ömürlər qoymalıyıq, inandırmalıyıq. Ancaq bu da beş günün, beş ilin söhbəti deyil. Buna zaman gərəkdir, soylar gərəkdir. Doğrudan da, istədiklərimizi yarada bilək, inandıra bilək. Buna görə Ocağın üzərinə çox böyük sorumluluq düşür, güclü insanlar olmalıdır. Bununla belə, mən o suala belə bir cavab verdim: xalqın dəyişəcəyinə inanıram. Bu gün mənim oğlum Ulunur işsizdir, heç bir işi yoxdur. Mən də bir ata

kimi onun sabahını düşünürəm. Dünyaya gətirmisənsə, sorumluluğunu daşımalısan. Ancaq təzada baxın, mən oğlumun gələcəyini düşündüyüm halda, Asif Atanın Evladı Bilən mənim qayğılarımı düşünür, mənim qayğılarımı yoluna qoymağa çalışır. Əslində Ulunurun gələcəyini düşünmək zorunda qalmamalıyam, Ocağın gələcəyini bundan da artıq düşünməliyəm. Oğlumu bu yaşa qədər çatdırmışam, böyütmüşəm, bundan sonra özü öz gələcəyini düşünsün.

Bir sözlə, bu gün xalqın içindən çıxan Bilən belə bir ərdəmlik ortaya qoyursa, mənim nə haqqım var, xalqın dəyişəcəyinə, sabahına inanmayım?! Xalqın içindən belə oğullar çıxa bilir, bu gün də çıxır, sabah da çıxacaq. Belə özündənkeçənlər göydən düşməyib axı, xalqın içindən çıxıb. Bax, bunu mən verilən suala örnək görürəm. Ocağın işinə, gələcəyinə inanmamaq doğru deyil. Ocağın gələcəyinə inanmamaq gerçəkdən insana inanmamaq deməkdir, yenə deyirəm, bu doğru deyil. İnsanın dəyişəcəyinə inam nə qədər çətindirsə, Ocağın gələcəyinə inam o qədər çətindir. Ancaq olumsuz deyil, çətindir. Bu çətinliyi yaşamaq, inadla, səbrlə, fədakarlıqla ortadan qaldırmaq gərəkdir.

## Sevgi Yaşamın İşığıdır

Ölüm Varlığı öldürə bilmir, biçimi dəyişir. Varlıq əbədidir. İnsanın həm mənəvi keyfiyyətləri gələcəyə gedir, həm də fiziki varlığı. Dünyaya ümidsiz baxıb ölümün ötəsində başqa dünya axtarmaq əbədiliyə tərsdir. Var olmaq üçün Dünyanın əbədiliyinə inanmaq gərəkdir. Var olmaq üçün sevmək, sevdalı ömür yaratmaq gərəkdir. Ölən Gerçəklikdən gedir, Mənada qalır. Mənanın Doğuluş, Yaranış özəllikləri var. Fiziki ölən Doğuluşla daim yenilənir. Budur, atamla anamın sevgisindən böyük bir soy yaranıbdır. Tam 68 illik bir ailə həyatı 68 insan əmələ gətirib. Atamın ölümündən 15 il keçdi, bu gün ölümünün ildönümüdür. Arxasında buraxdığı soyunu – övladlarını, nəvə-nəticələrini, kötücələrini sayıram – 68 insan! Budur fiziki ömrün davamı.

Atamın xatirəsi hər bir övladının qəlbində ən uca ünvana – Sevgi ünvanına çevrilibdir. Bu ata-ana sevgimizi ötürürük övladlarımızın qəlbinə. Bizi sevib yaşadan övladlarımız atamıza, anamıza olan sevgilərimizlə bir yerdə sevib yaşadırlar. Yüzillər sonra da yaşayacaq soylarımızın könlündə atamıza, anamıza olan sevgimiz var olacaq. Yeni sevdalı ürəklər əmələ gətirəcək. Beləcə, insan doğulduğu andan əbədi sabaha yol gedir. Bu yol könül yoludur, sevgi yoludur – Sevdalı könüllərin yoludur.

Atamın soyu, Ulusu, Vətəni var olsun!

## Varlığa doğma
**(Filosof Şamil Salehin ölümünə)**

Ölümü son sayırlar. İnsanlar həyatda ən çox dağınıq əhvalda yaşadıqları üçün bu sonu, sonluğu dərk eləmirlər. Bəlkə "son"u qaçılmaz olaraq, yoxluğa çevrilmə sayıb fərqinə varmırlar. Bəlkə buna görə, dünyanı fani sayaraq, gözəl dünya qurmağı ağıllarına gətirmirlər.

Əslində isə ölüm mütləq sonluq deyil. Ölüm gəlir, bir ay, bir il göynədir, sonra qırağa durur. Ölüm bütün etkiləri ilə gəlir, bütün etkiləri ilə də gedir. O, ardıcıl, uzunömürlü olmur. Çünkü ölüm biçimə son verir, Mənaya son vermir. Bu səbəbdən ölümün yaratdığı son mütləq yoxluq yaratmır. Belə olmasaydı kədər də yaranmazdı, hər şey son olardı. Ölümün yaratdığı kədər həyatı dərk etdirir.

Ölüm biçimi pozur. Biçimin mövcudluğunu təmin edən ahəngi, nizamı poza bilmir. Buna görə biz deyirik, insan xəlqi olaydır. Onun cismanilikdən artıq nəyi varsa xalqda qalır.

Ölüm mütləq sonluq deyil. Əgər yaşam varsa, deməli, insan varlığa bu, ya başqa şəkildə öz qatqısını verib. Yaşamaq varsa çalışmalar var, əməl var, yol var, qayğı var. Həyat yollar sistemidir. Ölüm yerişi dayandırır, onu tam ortadan qaldırmır. Çünkü yerişin iz qoyduğu yollar var. O izdə, o yollarda yeni yerişlər də var. Bu həmişəlikdir.

Bu söylədiklərimiz insana həyatın anlamından soraq verir. Bu, yüksək (ali) həyatdır. Bu həyatı əsillər yaşayır. Hər kəsin həyatda qoyduğu izi də əsillər dərk edir. İnsanın xəlqi olay olmasını əsillər təsdiq edir. Çünkü insanın xəlqiliyi onun fərdləşməsindən – Özümləşməsindən başlayır. Fərdləşə bilən ölümü ötür, yüksək həyata yetir. Yüksək Həyat – xalqa göstərilən insan əməlidir, xalqa deyilən İnsan sözüdür, insani dəyər yaratmaq düzeyidir. Hər kəs həyata qatqı verə bilir. Ancaq hər kəs yüksək həyat qura bilmir. Bu səbəbdən də hər kəsin ölümündən sonra qoyduğu nə varsa, mənalı yaşamağının boyu qədərdir. Fərd həyatdan gedəndə onu tanımaq istəyirlər. Kimdir həyatdan gedən?! Bunun üçün onun yaşadığı həyata, ömür yoluna dönüb baxırlar. Sıradan yaşayanlar xatirələr yaradırlar, onları tanımaq istəyənlər bu xatirələri sunurlar. Üstün yaşayanlar əsilliyə qulluq göstərirlər, onları vaxtında tanıyanlar, ya da sonradan tanımaq istəyənlər onların əsilliyə bağlanan ömürlərini sunurlar.

Bu "giriş"lə biz də, bu günlərdə aramızdan getmiş Şamil Salehi tanıtmaq, sunmaq istədik. Onun enişli-yoxuşlu ömür yollarını bildirməyi gərəkli saydıq. Ulusumuzdan, hər bir fərqli ömürə, onu düşünən kəslərə qarşı da saygı umuruq.

Əliyev Şamil Saleh oğlu 1937-ci ildə Bərdə rayonunda doğulub. Orta məktəbin ilk illərini Bərdədə oxuyub. Atasının iş yeri ilə bağlı Jdanova – indiki Beyləqan rayonuna köçüblər. Orta məktəbi burada bitirib. 1954-cü ildə Neft-kimya İnstitutunun Avtomatika fakültəsinə girib.

1965-ci ildə namizədlik, 1983-cü ildə isə Moskvada doktorluq işi müdafiə edib. Filosof-kibernetik ixtisasına yiyələnib. Müdafiə qonusu "İdarəetmə probleminin metodoloji aspektləri" adlanır. İnstitutu bitirəndən sonra Elektrotexnika texnikumunda, sonra Politexnik İnstitutunda işləyib. Müdafiə edəndən sonra Bakı Ali Partiya məktəbində, Xalq Təsərrüfatı İnstitutunda fəlsəfə öyrətməni kimi işləyib. Daha sonra Fəlsəfə institutunda, doktorluq müdafiəsindən sonra isə Kibernetika İnstitutunda çalışıb.

Bu bir tərcümeyi haldır. Şamil Salehi tanımaq baxımından isə, onu elmi çalışmaları ilə deyil, mübarizə yönü ilə sunmaq daha doğru

olar. Çünkü elmi fəaliyyətdə onun fərqli keyfiyyətlərini görmək nisbətən çətinlik yaradır. Həm də elmdə ən çevik fəaliyyət belə, şəxsin xəlqi, insani mahiyyətini axıra qədər açıb göstərə bilmir. Ən yaxşı halda, elmin gəlişməsindəki qatqısını göstərir. Şamil Salehin də əsas işi mübarizədən oluşub. 60-70-ci illərdə Azərbaycanda 13 dissidentdən biri Şamil Saleh olub.

Bu mübarizədə o, əsasən üç keyfiyyəti ilə simalaşır. Məğrurluq, qorxmazlıq, barışmazlıq. Bu keyfiyyətlərin hər biri şəxsiyyəti yaxın-uzaq çevrədən ayıran, tənhalaşdıran keyfiyyətlərdir. Belə adamlar gələnəksəl olaraq, maksimalist olurlar, başqatmalara aldanmırlar, aza qane olmurlar. Bu da Şamil Salehin ayrı-ayrı əsərlərində öz əksini tapıbdır. Onun əsərləri ən çox məktublar şəklində yazılıb ki, bunlar da əsasən etirazlardan, dirənişlərdən oluşubdur. Ekoloji problemlərin yaranmasında Azərbaycan xalqını qeyrətsiz adlandıraraq suçlayan Həsən Əliyevə açıq məktubu da bu qəbildəndir. Bu məktubda o, xalqın qeyrətsiz adlandırılmasını haqsızlıq, hətta kobudluq kimi qiymətləndirərək, əsas baxışı problemlərin yaradıcısı olan rus imperiyasına, onun yerli nökərlərinə yönəldir. Rus xalqına məktubunda bildirir ki, bu xalq (rus xalqı) öz imperiyasının girovuna çevrilib. O bu girovluqda Azərbaycan xalqına qarşı soyğunçuluq, dağıdıcılıq əməlləri həyata keçirməklə öz zəlalətini, məhvini hazırlayır. "Qanlı nümayişlərin təşkili", "Mixail Serqeyeviç Qorbaçova açıq məktub", "20 Yanvar qırğını", "Qanlı Qarabağ oyunları" … bu kimi onlarla əsərləri, məktubları onun, Azərbaycanın savunulmasına (müdafiəsinə) ardıcıl, barışmaz mövqeyini göstərir. Uzun illər Bakının səmasında radiasiya dumanının fəlakətlərindən söz açaraq, hamının baxışını Azərbaycan xalqını ölümə məhkum etmiş rus imperiyasının vəhşiliklərinə yönəltməyə çalışmışdır. Xalqın əsarətini dərk eləməklə öz mənliyini bu əsarətə qarşı səngərə çevirir. Bu səngərdə mübarizə aparmaq istəyənlər isə, demək olar, tapılmır. Çünkü əsaslı imtinanı xalqın indiki səviyyəsindən gözləmək çətin məsələdir. Gərək xalqın içində ardıcıl, uzunömürlü iş getsin. Bu işi aparmağın çətinliyi də ondadır ki, istənilən çağırışla xalqı ayağa qaldırmaq asan olmur. Şamil Salehin mübarizə aparmağının çətinliyi də elə burada üzə çıxır…

"Bu xalq boğazında üçqat köləlik xaltası gəzdirir: Ərəb, fars, rus". Bu deyim onun mübarizə ruhlu yazılarının hamısında qırmızı xətt kimi keçir. Doğrudur, o bu köləliyi yaradanlardan yalnız birinə – rus imperiyasına qarşı dirəniş göstərirdi. Söz yox, bu köləliyi yaradanların hamısına qarşı həryönlü mübarizə aparmaq, ortalığa fundamental prinsiplər qoymadan, dünyabaxışa qarşı dünyabaxış çıxarmadan olumsuzdur. Hələ bunlara birini də – Avropa əsarətini də ekləsək (əlavə etsək), durum daha da mürəkkəbləşir.

Xalq dirənişə qoşulmur. Çünkü dirəniş göstərilən özgəçilik, həm də, mədəni etkilərlə qorunur. Bu mədəni etkilərin ulusal qarşılığı (əvəzi) yaranmayanda xalq dayanıqlığını itirir. Onun həyatında bu, ya başqa cəhətlərdə boşluqlar yaranır. Bununla da, xalq bir yöndə dirəniş göstərəndə, başqa yöndə başqalarına qapı açmış olur. Necə ki, Rusiyaya dirəniş göstərən kimi, Avropa əsarəti içərimizə doluşdu. (Əslində hələ Rusiyaya əsaslı dirəniş göstərilməyib də). Ona görə də Şamil Saleh kimi mübarizə aparanların əməyi xalqda dəyər yaratmaqla qoruna bilər, qiymətli olar. Əks halda, mübarizə yönündə çəkilən zəhmətlər havadan asılı qala bilər.

Biz Şamil Salehlə eyni mübarizə yolunun adamları deyilik. Ancaq yuxarıda adını çəkdiyimiz ziyalı keyfiyyətləri onu bizə doğmalaşdırıb, bizdə onun mübarizəsinin ləyaqətinə, yiyəlik duyğusu yaradıb. Yurda, ulusa yönəlik çəkilən hər bir zəhmət bizə doğmadır. Bizim mübarizəmizin bir işi də o yöndədir ki, ayrı-ayrı fərdlərin xəlqi keyfiyyətləri itməsin.

Şamil Salehin yurduna, ulusuna çəkdiyi zəhmət onun öz mənliyinin dəyəridir. Bu dəyər onu yaşadacaq. Üzümüzü onun ailəsinə, doğmalarına tutub deyirik: Şamil Salehin Ulusu var olsun.

## Xatirələrin İşığında

Amaldaşım Nurtəkinin tikinti sorunu ilə bağlı bu işə sorumlu olan rayon yönətisinə getmişdim. Bir orta oxul yoldaşım zəng elədi, 1983-cü il "Buraxılışı"nın 35 illiyi ilə bağlı toplantıya çağırırdı. Həyəcanlı bir sevinc bürüdü içimi – 35 il ayrılıqdan sonra oxul yoldaşları ilə bir

araya gəlmək hansı duyğuları yaşadacaq mənə?! Doğrusu, onların bəziləri ilə nə vaxtsa, haralardasa qarşılaşmışam, ancaq heç biri ilə üz-üzə oturub duyğularımızı bölüşməmiş, bir-birinin ürək dünyasına qonaq olmamışıq. Onların çoxu çağaşırı bir-biri ilə görüşür, bəlkə də bir-birilərinin yaşam işlərinə yarayırlar da. Mənim taleyim fərqli oldu, özüm üçün yaşamadım, Vətən övladı olmağa çalışdım. Ağlım, düşüncəm – milli kimliyin qorunması, milli dəyərlərin yaşadılması yükü ilə doldu. Özümlə oldum, içimi öyrənməyə, arındırmağa, qurmağa ayırdım ömrümü. Azərbaycanı qarış-qarış gəzdim, ağrılarını ürəyimə yığdım, “Ağrı Yolu”na düşdüm. Bu yolda ədaləti tanıdım, xeyirxahlığı öyrəndim, özündənkeçmənin qutsallığını dərk elədim. Dostum, yaxınım, qohumum Azərbaycan oldu. Hər kəs Azərbaycanı mənə qısqandı, ancaq heç kəsi mən Azərbaycana qısqanmadım. İnsanlar da, ailə də, qohum-qardaş da, mənim üçün, Vətənə, millətə bağlı olduğu dərəcədə var. Mən Yurduma, onun insanlarına bir bütöv kimi baxıram. Bütövlükdən qopanla, qopa bilənlə ilgilənməyə inamımda, sevincimdə, sevgimdə tələb yox...

Axşam saat 7-yə işləmiş “Xan qızı” restoranının həyətinə girdim. Yoldaşların harada toplaşdığını, yaxınlaşıb birindən soruşdum. Öncə bu adamın özüylə tanış oldum. Çox dəyişilib, bizdən bir il qabaq qurtarıb oxulu. Tanışlıq verdi – Usuflu Hamlet bəy. Yanıma düşüb bizimkilərin oturduğu yeri göstərdi. Yaxınlaşdım. Bir-bir öpüşüb görüşdük. Bəzilərini güclə tanıdım, heç tanıya bilmədiyim də oldu. Hələ az idilər – 7-8 adam gəlmişdi. Baxışımı ilk çəkən Bayramov Şakirin şən davranışı oldu. Eynən oxul illərində gördüyüm kimi. Gülərüz, deyə-gülə zarafatlaşan. Asəf Ayvazov duzlu, məzəli zarafatlarıyla dil-boğaza qoymurdu. Yaqubov Hümbət – necə sakit, gülümsəyən baxışları vardısa, eləcə də qalıb. Güləhmədov Kamandar sakitcə oturub izləyir, aradabir söz (replika) atır, o da dəyişməyib. Göyüşov Ramiz sakit baxır, sakit danışır, qıraqdan sözünə qarışmalar olanda, susub yüngülcə gülümsəyirdi. Oturduğumuz yer onun yeri idi. Çox böyük xərc çəkmişdi. O, bunu umacaqsız eləmişdi. Onu da mən oxul illərində elə görmüşdüm – geniş ürəkli. Sonayev Teymur – gah ciddiləşir, gah susub eyhamla baxır, gah zarafatlaşırdı. Bədəlov Eldar dinmir, danışmır, sadəcə danışanları dinləyir, olanları izləyirdi.

Çox az danışır, nəsə soruşanda qısa söz deyirdi. Çobanov Elxan – üzündə sevinc gülüşü, oturub olanları izləyir, arada söz deyirdi. Heç yerə tələsməyən etkisi bağışlayır, sanki elə oturduğu yerdə boya-başa çatıb. Məmmədov Fərman – gülümsəyir, danışır, öz aləmində, aradabir danışana qulaq asmaq üçün yanındakını sakitləşdirirdi. Acalov Vaqif – çox zarafatlar edir, aşırı ərkləri var. Deyəsən bu toplantını da o təşkil edib...

Bu yoldaşların, demək olar, xarakterləri dəyişməyib. Bu yaxşıdırmı, pisdirmi?! – Bunu açmaq istəmirəm. Ancaq görünən odur, sırf həyatla uğraşıblar, hər kəs sadəcə öz həyatını yaşayıb. İndi bir araya gəlmişik, süfrə başına toplaşmışıq. Bir-birinin ünvanına xoş sözlər, sağlıqlar deməkdən uzağa gedilmədi. 35 illik yaşam nə demək olub, hansı duyğular gəlişib, düşüncələr necə, nə yöndə dəyişib, dünyagörüşlər necə formalaşıb – bu, açılmadı, bilinmədi. Bəlkə yemək-içmək məclisinə deyil, söz məclisinə toplaşsaydıq, daha mənalı olardı. Hər halda, bu mənim diləklərimdir. Bu insanların həyata, dünyaya, Vətənə baxışları mənim üçün çox önəmlidir. Biz, illər sonra, bir-birimizi iç dünyamızla tanıya bilərik. Yaxınlığımız, uzaqlığımız da iç dünyamızın yönünə görə bəlli olar.

7 xanım-qızımız da bizimlə bir arada idilər. Doğrusu, onları güclə xatırlayırdım. Sakit, mərifətli oturuşları, baxışları vardı. Onlardan Acalova Kifayət adlı xanım məni heyrətləndirdi. "Buraxılış" ilində xatirə sözləri yazdırdığı önlüyü bu çağa kimi saxlayırmış. Çıxarıb bizə verdi, plamasterlə ürək sözlərimizi onun üstünə yazdırdı. Çox az bilinən xarakterdi.

Beləcə, 5 saatdan artıq bir arada olduq, 35 il öncə yaşantılarımızı sevincimizə, xatirələrimizə qaytardıq. Bu xatirələri mənə yaşatdıqları üçün hər birinə saygılarımı sunuram.

# Üçüncü Bölüm

**(Ədəbiyyat, sənət, fəlsəfə araçılığı ilə həyatı anlamaq yönü)**

## Həyatın Anlamı görünəndən artıqdır

Bu günlərdə Lev Tolstoyun "Bugünümüzdəki köləlik" kitabını oxuyub qurtardım. Çox bəhrələndim, çox düşündüm. Öncələr də yazdığım kimi, Tolstoy İnsanlığa sevgini anladan məktəbdir. Ancaq bu məktəb yetərincə öyrənilib dərk olunmayıb. Bizə görə Tolstoyu bədii yaradıcılıq açısından dərk eləmək alınmaz. Çünkü onun həyata baxışı daha çox ruhaniyyatçılıq yönündədir. Ruhaniyyatçılıqda da özünəxas yanaşma ölçüsü var. Bu özünəxaslıq nədən doğur?! – O, içində yaşadığı xristianlığın başında duranları rədd edir, kilsədə yaşadılan anlamsız gələnəkləri, duaları insanlığa tərs sayır. İnamın oyuna çevrilməsinin yolverilməz olduğunu qabardır... İllər öncə Azərbaycanın basın yayınlarında bir yazıya rast gəlmişdim, nə yazıqlar, nə qəzetin, nə də yazarın adı yadımda qalmayıb. Yazıda belə vurğu vardı: "Ədəbiyyatda dahilik zirvəsinə qalxan Tolstoy İslam dinini sevmiş, onu qəbul etmişdir". Ola bilər, o yazar Tolstoyun xristian ruhanilərinə, kilsə yaramazlıqlarına qarşı söz deməsinə əsaslanırdı. Bu yazıda Tolstoyun düşüncəsi, dinə baxışı yazar üçün özəl bir önəm daşımırdı. Sadəcə İslamın bütün dinlərdən üstün olmasını əsaslandırmağa tanıqlar (şahidlər) axtarırdı. Halbuki Tolstoyun İslam dininə sayğı göstərməsinə, onu qəbul eləməsilə bağlı hər hansı fakt ortada yoxdur. Tərsinə, Tolstoy elə bu kitabında özünün xristian olması ilə qürur duyduğunu bildirir. Kitabda öz diliylə söylədiyi bir alıntıya baxsaq, buna yenidən tanıqlıq eləmiş olarıq: "Mən öz inancımın indiyədək olmuş inanclardan ən yaxşısı və ən doğrusu olduğunu demirəm, ancaq bundan başqasını da görmürəm – bundan sadə və aydın, ağılın və ürəyin bütün tələblərinə yetərincə cavab verən başqa bir inanc tanımıram; bundan yaxşı bir inanc olduğunu bilsəm, o andaca onu qəbul eləməyə hazıram. Axı mən Tanrıya doğruluqdan başqa heç nə gərək olmadığını bilirəm".

***("Bugünümüzdəki köləlik", Alatoran çapı, səh.24).***

Bu deyilişlərdə Tolstoyun Tanrı anlamına üstün bir biçimdə bağlı olduğu açıq görünür. Yuxarıda dediyimiz kimi, Tolstoyçuluq məktəbi düzgün öyrənilmədiyinə görə ondan bəhrələnmələr də tamam

başqa yöndə özünü göstərir. "İnsan Tanrıya necə yanaşmalıdır, ya da Tanrı insana nə üçün gərəkdir?!" Tolstoyçuluq məktəbi ən çox bunu öyrətdiyi halda, həyatı oyuna çevirən din ruhaniləri Tolstoyu söyür, kimlərsə ondan öz daşıdıqları inanca süni üstünlüklər vermək üçün yararlanır, kimlərsə onu özünün bədii təxəyyülünün olanaqlarını artırmaq üçün öyrənir. İstənilən halda, bu yanaşmalar Tolstoyçuluğun həqiqi anlamına girmir. Tolstoyun yaradıcılığı insanlara bədii ədəbiyyatı deyil, insanlığı sevmək öyrədir. Xristianlığın elan elədiyi insana sevgi ideyasını uğurla öyrədir. "Özünə qarşı görmək istəmədiyin bir yanaşmanı sən də bir başqasına qarşı eləmə" çağırışının üzərində, az qala, peyğəmbərcəsinə vurğu eləyir. Mən Soylu olaraq, Tolstoydan insana sevgi öyrənmişəm. Xristian deyiləm (xristianlığın yanlışlarını da öyrənib araşdırmışam), ancaq xristianlığın Tolstoyun həyatında yaşayan tələblərini onun ilkinliyindən üstün saymışam, Tolstoyun üstün yanaşmalarından bəhrələnmişəm. Tolstoy xristianlıqda yaxşı nə görürsə, onları öz açısından cilalayır, bəhrələnir. Bəlkə də xristianlığın bəşərilik motivlərinin anlamı da bu cür məsələlərdə – bəhrələnmələrdədir. Düşünürəm, mənim daşıdığım dünyabaxışın (Mütləqə İnamın) tələbləri də mənim ömrümdə yaşayıb var olarsa, başqaları da mənim ömrümdən beləcə bəhrələnib varlığı təsdiq eləmiş olar...

Mənim soyumun yaşadığı yer Doğanın gözəl yerlərindən biridir. Dağları, meşələri, bulaqları, havası, sağlam həyat yaşamaq üçün, uğurlu bir ortamdır (zəmindir). Doğanın bu gözəlliyini insanlarımızın gözü görür, ürəkləri isə dərindən duymur. Güneylərə, düzlərə mal-qarasının örüş yeri kimi, meşələrdəki ağaclara soyuq aylarda odun kimi, ocaq qalamaq qaynağı kimi baxır. Yəni məişət orbitində yaşayır. Kəndə getdiyim çağlarda insanlarımıza deyirəm, doğaya bir az fərqli baxmağa, gözünüzlə gördüklərinizi fərqli görməyə çalışın. Ola bilməz ki, doğanın bu gözəllikləri ilə təmasda olan, onun sağlam suyundan içib, sağlam havasını udanlar arasında, özündə fərqli olanaqlar daşıyan olmasın. Aranızda elə adamlar olar, onların içində şair ola bilər, filosofluq, alimlik olanaqları (imkanları) daşıyarlar, özlərindən xəbərsiz. Onları üzə çıxarmaq gərəkdir. Soyumuz məişət düşüncələrini bir az ötə bilsələr, toplum üçün gərəkli olarlar. Baxış

dəyişər, qonu dəyişər, yaxşılıqlar artar. Dedi-qodu azalar, ziyankarlıqlar aradan gedə bilər... Bütün bunlar mənim insan sevgimin görsənişləridir. İnsanlıqdan öyrəndiyim, öyrətmək istədiyim çalarlardır. İnsanların bir-birinə etkisini dərk eləməyənlər həyatı dəyişməyin olumsuz olduğunu söyləyirlər, axı sən kimsən ki, həyatı dəyişəsən deyirlər. Əslində isə insanlığı öyrənmək, yaşamaq, öyrətmək elə həyatı dəyişməkdir. Tolstoy da, insana sevgi yoluyla həyatı dəyişməyin yollarını öyrətməyə çalışır. Bütün bunları araşdırıb öyrəndikcə Tolstoy məni Asif Ataya daha da yaxınlaşdırır. Ancaq Tolstoyun qəbul elədiyi dünyabaxışla Asif Atanın dünyabaxışı bir-birindən çox uzaqdır. Asif Atanın belə bir deyimi var: "Sufilərlə Hürufilərin arasında bir addım yol vardı. Ancaq bu bir addım min ilə bərabər oldu". İndi mən deyirəm: Tolstoyla Asif Atanın da arasında bir addım yol var. Ancaq bu bir addım da min ilə bərabər oldu. Bu yazıda Sufilərlə Hürufilərin arasında bir addımın min ilə bərabər olmasına aydınlıq gətirməyəcəm. Ancaq Tolstoyla Asif Atanın arasındakı bir addımın min il anlamı daşımasına qısaca bir aydınlıq gətirmək istəyirəm: Tolstoy xristian sevgisini öz ömründə kamil bir qata qaldırdı. Ancaq Asif Atanı dinlər qane etmədi. O dinlərdən yüksəyə qalxan İnam yaratdı. Xristianlıq haqqında Tosltoy yazır: "bundan yaxşı bir inanc olduğunu bilsəm, o andaca onu qəbul edərdim". Asif Ata da bəşəriyyətin inanc sistemi içərisində daha yaxşısını tanımırdı. Bununla belə, indiyədək olanların içərisində daha yaxşı birinə bağlanıb qalmadı, özü yeni Yol yaratdı. Xristianlığın insan sevgisi də ona az gəldi. Çünkü Xristianlıq insanı niyə sevmək üçün səbəb vermir. Sevilməli olan insanı balaca sayır, balaca görür, Tanrı qarşısında suçlu bilir. Bu ona bənzəyir ki, deyəsən alma çürükdür, ancaq onu yemək gərəkdir. Tolstoya qədər də "dünyanı sevgi qurtaracaq" deyənlər olub. Yəqin ki, bu deyiliş, genel olaraq, xristianlığın anlamından yaranıb. Ancaq bu söz bir şüardır. İnsanı kiçik bilib, suçlu sayıb onu sevməkdə yalan var. Suçlunu, kiçiyi sevmək, ən yaxşı halda, onu yazıqlayıb mərhəmət göstərmək anlamına gələ bilər. Bununla kiçiklik, suçluluq aradan qalxmaz, başqa sözlə, dünyanı qurtarmaq olmaz. Münasibətlərdə, davranışlarda balacalıq, suçluluq mərhəmət ölçüsüylə yoluna qoyulanda həyatın gözəlliyi dərk

olunmaz, insan ömrünün kamilliyə yetməsinə inam yaranmaz. Elə-belə deyil, hər kəs insanla bağlı güzəşti ölçü kimi görür. Ona görə deyirlər: suçsuz insan olmaz. Bu, insana inamsızlıqdan irəli gəlir. Bu inamsızlığı dinlər yaradıblar. Biz demirik, insan suç işlədəndə ona güzəşt eləmək olmaz, onu çıxdanc eləmək gərəkdir. Biz deyirik, suça haqq qazandırmaqla kamilləşməyə inamın yolunu bağlamaq olmaz. Tərsinə olarsa, suç böyüyüb günaha, dönüklüyə çevrilə bilər. Nitşenin fəlsəfəsi əslində xristianlığın yersiz mərhəmətçiliyinə qarşı yarandı. Ancaq mərhəmətçiliyə tərs olan "üstün insan" ("fövqəl mən") ideyası daha pis xarakter yaradır. Yazıq insandan güclü insan yaratmaq insanlığı təsdiq eləmir, qəddarlığı, amansızlığı savunur. Yenə deyirəm, genel olaraq mərhəmət duyğusuna qarşı deyilik, onun doğru zamanda işlədilməməsinə qarşıyıq. Mərhəmət duyğusunu aradan qaldıranda insanla heyvan arasında fərq aradan gedir. Mərhəmət insani duyğudur. Bu duyğunu suçun qorunmasına zəmin eləmək doğru deyil. Başqa anlamda bu duyğu insanı yanlış addımlardan qoruya bilən duyğudur. Məsələn, yanlış olaraq, ləyaqətli bir insan mühakimə oluna bilər, ancaq ona mərhəmət göstərməklə yanlışı bəlirləyib doğrunu ortaya çıxarmaq baş verə bilər. Biz bu nöqtədən başlayaraq, nədən "dünyanı sevgi qurtaracaq" deyilişinə güvənmədiyimizi, onu sadəcə şüar saydığımızı əsaslandıra bilərik. Eyni halda, bizim bunu əsaslandırmağımız daha böyük bir sorunun da cavabı ola bilər. Bu soru belədir: Mən niyə Mütləqçiyəm, ya da "Asif Ata nədən Yeni İnam yaratdı?". Bu sorunun cavabı oxucunu hara götürər, nələrə yönəldə bilər? – Bu, bizim cavabımızın doğruluğundan, səmimiliyindən asılıdır.

Asif Ata bizi Ocağına götürəndə (qəbul eləyəndə) bir Rica (adına dilək deyək. Bir var diləkcə – ərizə, bir də var Rica – dilək) yazdırardı. Nədən Ocağı seçirəm, Ocaqdan gözləntilərim nədir, Ocağa vermək istədiklərim nə?! Bu diləklər çox vaxt boğazdan yuxarı yazılır, hara üz tutulduğu, Ocağın nə demək olduğu dərk olunmur. Bununla belə, Ata bu "Rica"nı yazdırırdı. Söz yox, Ata bilirdi, Ocağa gəlmək üçün "Rica" yazan adam, az da olsa, sorumluluq daşıyır, oturub düşünür. Bəlkə kimlərsə öz yazdıqlarını unutmaz, onları doğrultmağa çalışar. Ancaq Ocağa üz tutanların içərisində özü, sözü qarşısında

sorumluluq daşıyan adam çox az olub. Ona görə bu gün Ocaqda olanların sayı da çox azdır. Həyatda hər şey asandır, çünkü sorumluluq yoxdur. Həyatın anlamına yetmək isə çox çətindir, – burada İnsanlaşma yükü, sorumluluğu çıxır qarşıya. Ocağa gəlib-getmə də çox asan olub, ancaq qalmaq çətindir. Asan gəlib, asan gedənin özü qarşısında, vətənin, millətin, böyük anlamda insanlığın qarşısında sorumluluğu olmur. Gündəlik həyat normalarına, əslində nizamsızlığına uyğun yaşadığına görə əqidə onun üçün anlam kəsb eləmir. Hamının biri olmaqdan yüksəyə qalxmır, mənəvi çatışmazlıqları – zülmü, əsarəti, alçalmağı ömründən qovmaq istəmir. Ona görə ədalətsizliyə boyun əyir, kölə taleyi yaşamaqla barışır. Bu, insanın özündən ayrılması, özünəyadlaşması, bioloji varlığa çevrilməsi gedişidir... Biz istəsək də, istəməsək də, insanın taleyi mürəkkəb qurulub. Belə də deyə bilərik: insan Doğanın ikili şəklidir. Yəni o, mövcud olmaq üçün bioloji proseslərə qatılır – yemək, içmək, geyinmək, çalışmaq (yəni əməklə uğraşmaq). Eyni halda, mövcudluğu ötə bilən davranışlarda bulunaraq ölməzlik qazanmaq. Bu ikinci hal, artıq onun ruhani xislətinin işə keçməsidir. Başqa cür desək, mənəvi varlıq olduğunu sübuta yetirməsidir. İnsan ruhani tələblərlə yaşayanda özünəyadlaşma aradan qalxır. Özünəyadlaşmadan çıxmaq insan ömründə yeni anlam daşıyır, – şüur dəyişir, düşüncə dəyişir, vətən, millət, insanlıq öz anlamında gəlir ömrə. Bura qədər hər şey öz adında dilə gətirilsə də, ömürlə birlik yaratmırdı. Ancaq ömrün yönü dəyişəndə həyatda hər şey öz anlamı ilə dərk olunmağa başlayır. Asif Ata ömrün arınması, durulması gedişinə "Özüylədöyüş" adı qoyub. Özüylədöyüş – yamanlıq yerinə yaxşılıq gətirir ömrə, dönüklük yerinə sadiqlik, alçaqlıq yerinə vüqar, qorxaqlıq yerinə cəsarət, tənbəllik yerinə hünər, maddiyyatsevərlik yerinə ruhaniyyatsevərlik, özünəyararlıq (mənfəətçilik) yerinə xeyirxahlıq. Bu, İnsanlığın nizamıdır, bu, həyatın gözəlliyidir. Bəs bir ömürdə buna yetmək mümkündürmü?! Söz yox, mümkündür. Ancaq bunu asanlıqla demək olmur. Bunun üçün insanın xarakterində üç keyfiyyət bir araya gəlməlidir: 1. Doğrudan da özünün ruhani mahiyyətinə uyğun yaşamağı istəmək; 2. Bu, istəyin doğrula biləcəyinə inanmaq; 3. İnamını doğrultmaq üçün ortaya iradə qoymaq. Bizim dediyimiz

bu məsələ ilə ilgili tarixdən örnək soruşsalar, elə buradaca Tolstoyun adını çəkə bilərik. (Çağımızda isə tarixləri belə, ötə bilən örnək Asif Atadır). Öyrənənlər bilirlər, Tolstoyçuluq əslində onun 50 yaşından sonra başlayıb. O bunu özünün “Etiraflar” əsəri ilə aydın bir şəkildə söyləmişdir. Yetənəkli, oxunaqlı əsərlərinin olmasına baxmayaraq, günlərin birində özünə, yaşamını alt-üst edəcək sorular verir: “Mən kiməm, həyat nədir, mən niyə yaşayıram?”. Üzdən adi görünən bu sorular onu böyük axtarışlara yönəldib. Sorularına doğru cavab bulmayınca çətinliklər qarşısında sarsılıb, intihara cəhdlər edib. Ancaq içindəki həqiqət tələbi – həyatla, onu (həyatı) anlamadan üzülüşməyin yanlış olduğunu öyrədib. Tolstoy öz ömrünə yenidən başlayıb, əsil ruhaniyyat möminliyi qatlarına yüksəlib. Bu kitabında da həqiqətlə bir olduğunu, yazdıqları boyunca, uğurla anlada bilir. Kitabdan ilginc bir alıntını baxışınıza sunuram: ***“Beləliklə də, özümün pravoslav inancımı öz rahatlığımdan artıq sevdim, sonra xristianlığı kilsədən artıq sevdim, indi isə həqiqəti dünyada olan bütün şeylərdən artıq sevirəm. Bu yola başladığım gündən indiyədək, həqiqət həmişə mənim üçün öz anladığım xristianlıqla üst-üstə düşmüşdür”.*** Bu cümlələrdən görünən odur, Tolstoy çox dərin, uzun axtarışlar yolu keçmişdir. Özünün anladığı xristianlığı da yalanlardan, miflərdən ayıraraq, insanlığa nəyin uyğun olduğunu aydınladaraq vurğu edir. Söz yox, xristianlığa bütöv yanaşmaq gərəkdiyini biz bilirik. Ancaq öncələr də yazdığımız kimi, biz Tolstoydan peyğəmbərlik uma bilmərik. O, yeni dünyabaxış yaratmayıb, yarada bilməyib. Ona görə də əski inanc – insana hansı səviyyədə gərək ola bilərsə, onun üzərində dayanır. Bizim üçün başlıca doğru olan məsələ Tolstoyun insana, varlığa yanaşmasında ideal bir səmimiyyətlə yaşamasıdır. Tolstoy öz inancında insana gərək olan yönü savunsa da, dinin toplum üzərində tabuya çevrilməsini, kilsələşməsini rədd edir. Belə olmasa idi, biz Tolstoyda yanıla bilərdik. Yəni bütövlükdə həyatı qapsaya bilməyən, bitkin bir ölçü verə bilməyən bir inancı (xristianlığı) bütöv şəkildə bizə sunmaq çaşdırıcılıq yaradardı. Yalnız “insana sevgi”, “özünə qarşı pis şeylərin olmasını istəmirsənsə, sən də eləmə” deyilişini Tolstoy birgə yaşayışın düsturu saymaqla, insanları dinin yanlışa çəkməsindən qorumağa çalışır. Ancaq bununla

o, elmi inanc yerində görənlərin yanında da dayanmır. Tolstoy elmin, hər yöndə, birgəyaşayışı doğruldacaq həqiqətlər ortaya çıxardığına inanmır. O deyir: ***"əslində belə bir elm yoxdur, elm adlandırılan dəyər təsadüfi, bir-birindən asılılığı olmayan bilikləri bir yerə toplayır. Bu biliklər çox vaxt heç kimə gərək olmur. Bundan başqa bu biliklər nəinki danılmaz doğruluqlar olur, tərsinə, elmin bilik dediyi bu şeylər çox hallarda yanılmalarla sonuclanır. Bu gün doğru sayılanların sabah yanlış olduğu ortaya çıxır, elm də arasıkəsilmədən öz doğru bildiklərini danmalı olur... Belə elmin peşində olanların baxışları eyni ilə kilsənin heç vaxt yanılmadığını deyən ruhanilərin düşüncələrinə bənzəyir".*** *("Bugünümüzdəki köləlik", səh.29).*

Belə yanaşmalar, bizim çağımızda da var. Dinə bağlı olanlarla elmi baxışları ölçü götürənlər arasında açıq, gizli çəkişmələr gedir. Əslində ruhaniyyat, dinin başladığı çağlarda, sadə insanlar arasında daha tez yayılır. Hər zaman haqsızlıqla, ədalətsizliklə üzləşdiklərinə görə, ruhaniyyatın çağırışlarını öz xeyirlərinə sayırlar, belə bir çağırışın yörəsində birləşə bilirlər. Ancaq siyasət yönəticiləri ruhaniyyatın başına keçəndə oyunbazlıqlar başlayır. Sadə insanların öz haqlarının ödənməməsini, ədalətin bərqərar olunmamasını görməmələri üçün ruhaniyyatı fantastikləşdirirlər. İnsanların başı dinin uydurulmuş gedişlərinə alışmağa qarışır. Din başçılarından, yönəticilərindən əfsanəvi qəhrəmanlar quraşdırırlar, onların sadə, gerçək bir insan olduqları toplumun ağlına, düşüncəsinə yaxın buraxılmır. Ona görə toplum gözə görünməyən, qeybdə olan ilahiləşdirilmiş qüvvələrin nə vaxtsa ədaləti bərqərar edəcəklərinə ümid bəsləyir. Bu hal, çağımızda islam dininə tapınanlar içərisində daha çox işlənilir. Dindar kütlə hələ də "Sahib-əz Zaman"ın – Mehdinin olmasına, nə vaxtsa gələcəyinə inanır. İkinci cəbhədə olan insanlar belə yanaşmaları əsas gətirib dini baxışları ələşdirmələrə girişirlər. Beləliklə, insanlığa özgün olmayan, insana yaramayan bir düzəydə çəkişmələr, döyüşmələr baş alıb gedir. Dini savunanlar hər zaman fantastik dəyərləndirmələrə dayanırlar, gerçək həqiqətlərə söykənmirlər. Belə götürəndə onların ağlı bundan uzağa da getmir. Onlar dini dəyərləri fantastikləşdirməsələr savuna bilməzlər. Çünkü Cəfəngiyyatın imkanı uydurmağa yetir,

böyük həqiqətlərdən bəhs etməyə çatmır. Bu səbəbdən, qarşı cəbhə dinin fantastik dəyərlərini danarkən, düşüncələrində ruhaniyyatın gərəksizliyi canlanır... Din öz fantastik dəyərləri ilə mədəniyyətin gəlişməsinə, Vətənçiliyin dərk olunmasına əngəl yaradırsa, bunu dananlarda isə kosmopolit düşüncə vətənçiliyin, millətçiliyin dərk olunmasının qarşısını alır. İstənilən halda, dini dananlar məsələlərə ateistcəsinə yanaşırlar. Bu isə bütünlükdə ruhaniyyatın danılmasına gətirib çıxarır. Ruhaniyyat da danılırsa, birgəyaşayışın nizamı yarana bilməz. Ruhaniyyatın danılması yolverilməz olduğu kimi, uydurulması da yolverilməzdir.

Dinlərdə Tanrı-insan münasibətləri bütünlüklə uydurmalar üzərində qurulur. Birgəyaşayışın nizamı da ən çox bu nöqtədən pozulmağa başlayır. Çünkü İnsan hər şeylə uğraşdı, özüylə yox. Özünü deyil, özündən qıraqda nələrsə yaratdı. Ona görə yaratdıqlarına yenilməyə başladı. Tanrını da içində deyil, uzaqlığında yaratdı. Tanrıya boyun əydi, ona qurbanlar verdi. Ancaq pozuntulardan qoruna bilmədi. Bir yandan elm yaratdı, Doğa ilə öcəşdi, bir yandan da uydurduğu varlıqlarla ayaqda durmağa çalışdı. Alınmadı. Daim öz taleyi ilə oynadı. Taleyini oyuna salıb məhv edəcək şeylərə xərclədi ömrünü. Toplumun içindən biri çıxıb uydurmalara, uydurmalardan doğan pozuntulara “dur” deyəndə isə onu yamanladı, döydü, söydü, çıxdanc elədi. Qarışıq, dolaşıq məsələdir. Toplum xeyiri, şəri düzgün tanımır, ona görə həyatı dərk eləyə bilmir. Hər kəs həyatı əyən gedişlərə qatılır, ancaq heç kim özünü suçlamır. Hamı başqasını suçlayır, ancaq hamı başqasına baxır, özünə baxmır. Bircə an dayanıb özünə baxanlar isə toplumdan ayrılır. Özünə baxmağı bacaran özündəki yanlışlarla barışmır, mənəvi kamilliyə yetir. İnsanlığın qurtuluşunun insanın özündən asılı olduğuna inanır. İnsanın mənəvi kamilliyi isə təkcə birgəyaşayışın nizamını yaratmaq üçün deyil, geniş qapsamda əbədi məsələlərə bağlıdır. Deyək, insan öz varlığını əbədi, sonsuz olana bağlı dərk eləmirsə, sadəcə pisliklərdən çəkinərək, insanlara münasibətinin arılığını qoruyursa, onun mənəvi kamilliyindən danışmaq axıra kimi özünü doğrultmaz. Bu halı Tolstoy dinlə bağlayır. Tolstoya görə din – insanın sonsuzluqla özü arasında bağlılıq yaratmasına yardımçı olan dünyagörüşdür. Bir zaman o, hakim

dinlərin bu məsələdə özlərini doğrultmadığını da vurğu edir. O deyir: insanla sonsuzluq arasında bağlılıq yaratmayan dini din saymaq olmaz. İnsanla insanlıq arasında münasibət yaradan Kontun pozitivizm fəlsəfəsini də yetərsiz sayır. Tolstoy deyir: ***"Doğruçu din, insanın şüuru, bliyi ilə ziddiyyət yaratmadan, insan ilə onun içində yaşadığı sonsuz dünya arasında münasibət yaratmaqdır".*** Biz Tolstoyun bu təyinini doğru sayırıq, ancaq gerçəklikdə belə bir din mövcud deyildir. Tolstoyun əsil xristianlıq dediyi dünyabaxışda da, bu düşüncəni biz görə bilmirik. Odur ki, biz bunu Tolstoyun öz diləyi, düşüncə yönü sayırıq. Kilsənin yaratdığı xristianlıqla "başlanğıc xristianlığın" (İsaçılığın) arasında kəskin təzadlar ola bilər, ancaq bu təzadlar "başlanğıc xristianlığın" sonsuzluğu tam, doğru bəlirləməsi (təyin eləməsi) anlamına gəlməz. Söz yox, Tolstoy kilsələrdə sonsuzluğa münasibətin saxtalaşdırılmasını doğru aydınlaşdırır. Biz buna başqa dinlərin yanaşmasını da əlavə edirik, yəni saxtalıq təkcə kilsələrdə deyil, başqa dinlərin də məbədlərində həyata keçirilir. Genel olaraq, sonsuzluğa münasibətin doğruluğu, bireysəl münasibətlərin (daha doğrusu, özbaşınalığın) ibadət evlərinə hakim kəsilməsindən sonra daha da korlanır. Ona görə çox vaxt məbədlərlə məbədlərin tabe olduğu Dünyabaxış arasında çelişkilər (ziddiyyətlər) əmələ gəlir. Bunu qıraqdan izləyənlər sonsuzluğa münasibəti məbədlərdən qıraqda qurmağı doğru sayırlar. Ancaq bu, tək-tək adamlarda yaranan düşüncədir. Çoxluq dinə şüurdan, bilikdən qıraqda dayanıb baxırlar. Bunların Tolstoyu Allahsızlıqda suçlaması doğal görünür. Tolstoy kilsənin insanla Tanrı arasına girməsini insanın dərk prosesinə əngəl sayır. Kütlə isə araçı (vasitəçi) olmadan insanın Tanrını dərk etməsini mümkünsüz sayır. Ancaq bu o zaman özünü doğruldar ki, kilsəni yönətənlər Tanrını dərk eləmiş mömin öyrətmənlər olsunlar. Xristianlıq tarixinin heç bir aşamasında belə bir faktın olmasına rast gəlinməyib. "Başlanğıc xristianlığın" özündə Həvariləri xristianlığın öyrətmənləri saymaq olar, ancaq həqiqətin öyrətmənləri saymaq çətindir. Bu açıdan düşünürük, Tolstoyun vurğu elədiyi əsil xristianlıq da "başlanğıc xristianlıq" deyil. Tolstoy "başlanğıc xristianlıq"da olduğu kimi insanları bir-birinə bərabər sayır, ancaq Tolstoyun belə sayması, özünəxas, fərqli anlam daşıyır.

Çünkü "başlanğıc xristianlıq"da insanların bərabərliyi onların heç sayılması ilə eyniləşdirilir. İnsanlar suçlu törəmə sayılırsa, onların başqa məsələlərdə haqlarının bərabər olmasını demək, hamısına ədalətin gözüylə baxmaq belə, qurtuluş yolu deyildir. Özünü suçlu törəmənin davamı saymaqla, insanların başqalarına qarşı axıracan ədalətli olacağına heç kim heç kimi inandıra bilməz.

İndi isə bu yanaşmalarımızdakı bəzi çalarlara aydınlıq gətirməyə çalışaq. Mən, Soylu Atalı olaraq, fəlsəfənin olanaqlarından yararlanıb bəzi məsələlərdə daşıdığım Dünyabaxışın, eləcə də milli-etnik kimliyimin xeyrinə yorumlar irəli sürmüşəm, başqa sözlə, yorumlarımı öz dünyabaxışımın, milli-etnik kimliyimin üstünlüyünü sübut etməyə yönəltmişəm. Ruhaniyyatçılıq isə ümumbəşəri açıdan yanaşmağı, yansız (tərəfsiz) davranmağı tələb edir. Ancaq yaşadığım, yaşatdığım ideyalara bağlı düşüncələrimi doğru saymaqda, doğru aşılamaqda haqsız deyiləm. Axı ortada danılmaz görsənişlər, gerçəkliklər var. Milli-etnik kimliyim Türklüyümdür. Türklük bəşər sivilizasiyalarının gəlişməsində, xalqlara münasibətdə tarixə dəyərli örnəklər vermişdir. Bunu dünyanın bir çox qabaqcıl düşüncə adamları da dilə gətirmişlər (etiraf etmişlər). İkinci bir yandan, bu gün dünyanı yönətən güclər əslində dünyanın nizamını pozmuşlar. Bu da ona görə olmuşdur ki, türkü dağınıq duruma gətirmiş, türklüyün bəşərdə yerini əksildərək etkisiz hala salmışlar. Daşıdığım dünyabaxışın üstünlüyünü vurğulamağa gəlincə, o da bu dediyim məsələ ilə sıx bağlıdır. Bizə görə türklüyün bəşərdə mənəvi-ruhani etkisi artmalıdır. Bu etkinin artması İnsanlığın yaşama qayıtmasında başlıca rol oynaya bilər. Türk dəyəryaratma, dəyəryaşatma açısından ən böyük bəşər xalqlarından biridir. Mənim daşıdığım Mütləqə İnam Dünyabaxışı da min illərdir bəşər mənəviyyatında çəkisi olan Türk dəyərlərinin sintezi, gəlişməsi kimi şəkillənmiş bir dəyərdir. Türk Doğasevərdir, Türkün Tanrısı Doğanın uyumundadır. Asif Atanın İnsanlaşma öyrətisinin gəlişməsində (təliminin inkişafında) Türk-Doğa Birliyinin böyük etkisi olmuşdur.

Bütün bunları deyəndən sonra qarşımıza bir soru çıxır: Bəs necə olub, Tolstoy kimi humanist doğruçu bir düşünər bu dediyim keyfiyyətlərə heç yerdə toxunmayıb, dilə gətirməyib?! İnsanlığı

düşünən, insanla bağlı hər bir sorunu incələməyə çalışan bir düşüncə insanının gözündən yayına bilərdimi bu cür məsələlər?! O da ola, mən Tolstoyu, Asif Atadan sonra, özümün öyrətmənim sayıram. Çox ola bilər, çağdaş toplumsal bir yaşam sistemi olmadığına görə, başqa sözlə, türk panteizmi sayılan Tanrıçılığın yaşam gələnəkləri mövcud olmadığı üçün bu Dünyabaxışı hallandırmaqdan vaz keçib. Tarixdə dayanmış, bugünümüzə gəlib çatmamış bir dünyagörüşə Asif Ata da üz tutmayıb. Asif Ata özününkünü yarada bildi, Tolstoy isə özününkünü yaratmadığı üçün daha üstün saydığı birində (xristianlıqda) dayandı. Burada Asif Ata ilə Tolstoyun baxışları arasında yeni bir fərqin də ortaya çıxdığını görürük. Tolstoy çağımıza kimi gələn dünyabaxışdan birində ən üstün cəhətləri görüb vurğulayır. Asif Ata isə bu dünyagörüşdə, eləcə də çağımızda yaşayan başqa dünyagörüşlərdə doğru olmayan çalarları daha çox vurğulayır. Söz yox, Asif Ata hansısa üstün cəhətləri də gözardı eləmir. Dediyimiz kimi, Asif Ata özünün Dünyabaxışını yaratdığı üçün əsaslandırmalıdır, – olanlar varkən nədən yenisini yaratdı?! Tolstoy isə qurtuluşa çağırmağını, mövcud dünyabaxışlardan ən yaxşı saydığının üstünlüklərinə dayanıb əsaslandırmalıdır. Bu məsələnin bir yanı. Məsələnin başqa bir cəhətini də vurğulayaq. Sual yarana bilər, nədən Asif Atadan, Tolstoydan başqa kimsənin adını hallandırmırıq?! Yuxarıda da vurğuladığımız kimi, bizim üçün Tolstoy ədiblikdən, filosof-yazıçılıqdan daha çox ruhaniyyatçıdır. O, peyğəmbər işini yüksək qiymətləndirir, həyata, insana peyğəmbərcəsinə yanaşır, hətta insana əski peyğəmbərlərdən doğru yanaşır. Peyğəmbərlər toplumsal nizam xatirinə bəzi məsələlərdə insanı aldadırlar, Tolstoy insanı aldatmır, baxmayaraq, dünyabaxışlardan birini üstün sayıb onda dayanır. Asif Ata isə Dünyabaxışlardan birini seçib onda, insanı aldatdıqlarına görə, dayanmadı... bununla belə, nə Tolstoyun, nə də Asif Atanın çağırışları toplumda sürəkli yerimir. Tolstoyun çağırışı xristianlıq üzərində qurulub. Xristianlıq isə iki min ildir var. Bəlkə (Tolstoyda) yeni tələblər – etkisi köhnəlmiş bir baxışın üzərində vurğulandığı üçün özünü doğrulda bilmir. Asif Atanın yeni tələbləri isə yaşamın səmtini dəyişməyə çalışan Yeniliyə dayandığından etkiləri çətin formalaşır.

Çoxluq konservativ düşüncələrə bağlı olduğundan Yeniliyin yerimәsinə əngəl yaradır.

Genel olaraq, Yeniliyə yanaşma açısından Asif Ataya baxışları üç qrupa bölmək olar: Birincisi, Asif Atanın işini bilməyən, dərk etməyən, qəbul eləməyən qrup. Buna dini düşüncənin etkisində olanları özgün eləmək olar. İkincisi, Asif Atanı bilmək istəməyən, qəbul etmək istəməyən qrupdur. Buna üzdə olan oxumuşlar, siyasiləşmişlər özgündür. Bunların baxışına əngəl olan məsələ Asif Atanın peyğəmbər adlandırılmasıdır. Onlara görə indi peyğəmbərlik çağı deyil, peyğəmbərə artıq gərək yoxdur. Biz dönə-dönə yazmışıq, demişik belə düşünənlər yanılırlar. Toplumsal yaşamda nə dəyişdi ki?! Elm ən yüksək düzəyə qalxdı, ancaq barbarlıq, gerilik, soyğunçuluq, talançılıq, savaş-qırğın aradan qalxmadı. İnsan öz növündən olana qənim kəsilib, həyat uğrunda heyvani döyüş görünməmiş düzəyə qalxıb. Bu günkü yaşamda Ruhaniyyat anlayışı, Peyğəmbərlik institutu (hamının gördüyü kimi var da), bunlar yenilənməlidir. Siyasət nizam yaratmır, yaratmayacaq. Siyasət – nizamın pozulmasından yaranan gedişdir. Siyasət milləti, vətəni alver predmetinə çevirir. “Vətənə münasibət dəyişməlidir” yazmışdım: Vətəndə dəyər yaradıb, onu yaşatmaq – İnsanlığın ünvanına çevirmək gərəkdir. Onda torpaq müqəddəslik səviyyəsinə qalxar, niyə qorunduğunun dəyəri dərk olunar. Ancaq vətən – bir qrup hakim təbəqənin gəlir-qazanc ünvanı kimi qorunursa, bunun üçün başqa torpaqlara göz dikilir, ələ keçirmək üçün dinc insanları qırırlarsa, çoxluğun səfaləti, azlığın güzəran firavanlığı ödənirsə, sözsüz, torpaq müqəddəslik anlamını itirir. Yalançı patriotizm dəyərlər üçün deyil, ağalıq üçün ayaqda saxlanılır. Hər kəsə, dövlətin başında duranların ağzı ilə belə patriotizm aşılanır. Dövlət, – başında duranların əməlləri vətən anlamına qarşı formalaşır, ona görə də sadə insanlar çaşır. Onların müqəddəs saydıqları vətəndə, hər şeyləri əllərindən alınır, əzilir, basqı altında saxlanılırlar. Ona görə Vətəni – zor aparatı kimi çalışan dövlətə bərabər tuturlar, sevmirlər. Dövləti talançılar işğal edib başına keçirlər. Bir sözlə, işğal olunan dövlət ağalığa imtiyazlar yaradıb onu qoruyur. Hamını da bu imtiyazların gərəkliyini qəbul eləməyə zorlayırlar. Beləcə, vətəni sadə toplumun gözündən salırlar. Sadə top-

lum səfalət içinə düşdükcə dövlətə, başqa sözlə, hakimiyyətə etiraz eləməyə başlayır (çünkü onun üçün dövlətlə hakimiyyət eyni anlam daşıyır). Bu etirazlar kritik həddə çatanda hakimiyyət qonşu xalqların dövləti ilə qovğa yaradır, öz toplumunun baxışlarını hədəfdən yayındırır, qonşunu hər kəsə ümumi düşmən göstərməklə öz eybəcərliklərini, talançılıqlarını ört-basdır edib ömrünü uzatmağa çalışır. Toplum bu tələblərə inanmayanda, hakimiyyətə boyun əymək istəməyəndə onu vətənə qarşı olmaqda suçlayır. Hətta etirazçıların yönəticilərini bu ad altında tutuqlayıb sıradan çıxarır. Sonra bu topluma yenidən patriotizm təbliğatı aparır. Belə bir eybəcər durumu siyasətlə yoluna qoymaq olumsuzdur. Bu ədalətsizliyi, toplumsal nizamsızlığı yalnız ruhaniyyatla yoluna qoymaq olar. Tolstoy da bu kitabında ("Bugünümüzdəki köləlik") siyasi patriotizmi rədd edir. Yəni bəşəri duyğularla patriotizmə qarşı çıxan Tolstoy, məncə, bu cür gedişləri gözə alır. Biz də belə düşünürük, insan dəyərdir, onu vətən üçün yaşadarlar, öldürməzlər. Vətən insanileşərsə, insan özü vətən üçün könüllü fədakarlıqlar eləyə bilər. Vətəni qorumaq – ağalığı qorumaq yox, insanlığı qorumaq anlamı daşıyar. Ona görə də dövlətin başında duranların vətən obrazı toplumda sevgi yarada bilmir, daha da vətəni gözdən salır. Heç kim içində patriot olmaq istəmir. Zorla vətən sevilməz, zorla ruhaniyyat yaranmaz, zorla insanlaşmaq olmaz. Zor ölməlidir ki, hər şey əsilləşsin. Bütün bu deyilənlərdən sonra bir daha vurğu edirik: siyasətçilər, ya da siyasətə meyil edənlər Asif Atanı anlamaq, qəbul eləmək istəməz.

Asif Ataya yanaşmada üçüncü qrupa – onu bəlli bir yerə qədər bilən, ya da bilməyən, ancaq qəbul edən insanları özgün saymaq olar. Bunlar bizik – Asif Atanın davamında çalışan, bir də ona sayğı bəsləyənlər, yəni rəğbətçilər. Asif Atanı bilən çox azdır. Onları da ideal bilik yiyəsi saymaq çox tezdir. Genel olaraq, bu gün Asif Atanı qəbul edənləri də iki qrupa ayırmaq olar. Öncə onu deyək, Asif Atanın ideyalarından doğan tələblərə görə, gerçək olaraq Ocaqçıları qruplara bölmək olmaz, heç kimə ayrıca üstünlük verilmir. Üstünlüyü fərd özü qazanır – ömrü, çalışmaları ilə. Sözsüz, ideyanı yaşadan Qurumun yiyələri də onlar sayılırlar. Ancaq biz Ataya, Ocağa, Onun ideyalarına münasibətin fəlsəfəsini aydınlaşdırmaq üçün, Atanı

qəbul edənləri, şərti olaraq, iki qrupa ayıra bilərik: Asif Atanın davamında olanlar; Asif Atanın davamında görünənlər. İdeyanı anlayan, ona bağlanan aşiqlər, heyrətlilər davam sayılır. Onlarla bir yerdə görünən, ancaq öz məişəti, qayğıları ilə yaşayanlar isə davam kimi görünməyə çalışanlardır. Obrazlı desək, içəri girə bilmirlər, qırağa da dura bilmirlər. İçəri girəndə boğulur, dışarı duranda heç olurlar. Ona görə böyük ideyaların yükü sabaha ağır daşınır. Biz aşiqlik olmadan, heyrət duyğusu yaranmadan Yola düşməyi mümkünsüz sayırıq. Bəs duyğular necə yaranır, nə ilə ünsiyyətdə yetkin şəkilə düşür?! Genel olaraq, bəşər övladının duyğuları ən çox Doğa ilə ünsiyyətdə yaranır. Ruhani anlamda insanın duyğuları Tanrı ilə ünsiyyətdə biçimə düşür, həyata, dünyaya baxışı formalaşır. Tanrını da insana tanıdan, yəni insan-tanrı ünsiyyətini yaradan dinlər olub. Dinlərin Tanrı obrazında yalanlar olduğuna görə insan-tanrı münasibətlərində də doğruluq başa varmayıb. İnsanın Tanrıya münasibətindən nisbi duyğular yaranır. Bu isə yaşamdakı bütün münasibətlərin əyilməsinə nədən olur. Tostoy da bu kitabında insanın Sonsuzluğa münasibətinin doğru bəlirlənməsini gərəkli vurğulayır. Yəni belə də demək olar: Sonsuzluğa baxış, yanaşma dəyişilməlidir. Bunun üçün Sonsuzluğun özü də insan üçün tam aydın olmalıdır. Tolstoy Sonsuzluğu, qəbul elədiyi dünyabaxışın üstünlükləri araçılığı ilə öyrətməyə çalışır. Asif Ata isə, vurğuladığımız kimi, daha çox qabağa gedərək parlaq, danılması mümkün olmayan düşüncələr ortaya qoyur. Bəs nədən onu qəbul edənlər bilməkdə, anlamaqda gecikir, nəzəri olsa da, fərqli yaşam cəbhələrinə ayrıla bilirlər?! Bizə görə bu, artıq bireysəl olanaqlar açısından dəyərləndirilə bilər. Yaşam ortamının çətinliklərinə yıxılmamaq, dünya nemətlərinin şirinliyinə uymamaq, ömrü bayağılaşdıran gedişlərə direniş göstərmək – içdən güclü olmaq tələb edir. Bunun asan olmadığı da bəlli. Eyni halda, Asif Atanı qəbul edənlər, dini qəbul etməsələr belə, dinin Tanrı obrazı ilə ünsiyyətdən tam ayrıla biliblərmi? Belə də soruşa bilərik: Asif Atanın dəyərləndirdiyi, obrazlaşdırdığı Mütləq olanla ünsiyyətə girə biliblərmi?! Onlarda duyğular nədən qaynaqlanır?! Bu sorğulara da biz, nəzəri olaraq, cavab verə bilərik. Yaşantılar göstərir ki, Mütləq olanla ünsiyyət çox yetərsizdir. Bu yetərsizliyə görədir,

qıraqdan Ocağa münasibət tam bəlirliyini (müəyyənliyini) tapmır. Yəni Asif Atanın ideya-prinsiplərini başqalarının araşdırıb öyrənmək istəyi aktiv düzəyə qalxmır. Söz yox, burda başqalarının yanlışlıqları da açıq görünür. Belə ki, ideyaya qiymət, onu daşıyanların ömrünə, davranışına görə verilir. Bu isə bütün hallar üçün doğru sayıla bilməz. İdeya bir çağın insanlarının işində bütöv üzə çıxıb ifadə olunursa, tarixə çevrilməsi, arxivə qoyulması ədalətli sayıla bilməz. Bu gün Ocaq haqqında üzdən baxıb, ələşdirmə açısından çox şeylər demək olar. Bu zaman deyilənlərin çoxu doğru da ola bilər. Yəni Ocaq insanının yanlış davranışlarına, zəifliklərinə qıraqdan verilən qiymət doğru ola bilər. Ancaq 41 ildir ortada olan yeni bir olayın yaşadılması bu deyilənlərdən qat-qat dərində olan zəhmətlərlə, fədakarlıqlarla başa gəlmişdir. Nə yazıqlar, belə zəhmətləri çağın özü qiymətləndirə bilmir, gələcək qiymətləndirir. Mən yazmışdım: dini qəbul eləməyənlərin çoxu dinin ideyalarındakı yanlışlardan daha çox dindarların davranışlarındakı yanlışlara əsaslanırlar. Bu yanaşmada hədəf yanlışın özü olmur, yanlışı eləyənlər olur. Bu isə pozitiv dəyişikliklərə gətirib çıxara bilməz. Gəlişmə doğruçu dəyişikliklərə bağlıdır... Ancaq başqalarının yanlış dəyərləndirmələri ideya daşıyıcılarının arxayınlaşması üçün tutalqa da sayıla bilməz. Özəllikcə Ocaqçılar üçün belə bir bəhanə yoxdur, ola bilməz. Onlar Mütləqilik ölçüsüylə, tələbiylə yaşamağa borcludurlar. Bu borcun ödənməsi isə təkcə qıraqdan baxanlara hesablanmır, həm də onların (ideya daşıyıcılarının) insani kimliyinin gələcəyi bəlirlənmiş olur. Ancaq dediyimiz kimi, bütün bunlar yuxarıda qoyduğumuz soruların (Ocaqçılar Mütləq olanla ünsiyyətdə ola bilirlərmi; onlarda yaşam duyğuları nədən qaynaqlanır?!) nəzəri cavabıdır. Gerçək cavabları Ocaqçıların özüylədöyüş əməlləri verə bilər. O da hələlik ya yoxdur, ya da olduqca zəifdir. Bu, ortadan qalxmasa Ocaqçılıq kimi bir dəyər uzun illər arxivə gömülə bilər. Ona görə Ocağın onu dərindən anlaya bilən insanlara böyük ehtiyacı var. Bu gün Ocağa yaxın olan adamların da, Ocaqçıların da Ocaqla bağlı davranışları, dediyimiz kimi, bu ehtiyacdan uzaqda görünür. Çünkü Ocağa gerçəkliyin (reallığın) tələblərində sınırlanan ağılla yanaşırlar. Biz ağıla qarşı deyilik. Ancaq ağıl yaşamaq nizamı yaradan gücdür, yaşamaq anlamına girə biləcək güc deyil.

Hamıda ağıl olur, Doğa bəşər övladından bunu əsirgəməyib, ancaq yaşamın anlamını anlayacaq hünər yoxdur. Bu isə təkcələrdə olan keyfiyyətdir. Elə Ocaqçılıq da təkcələrin işidir. Ağıl yetkinliyi – alovlu, emosional ürəklə bütövləşəndə Ocaqçılıq aşamalarla sabaha gedə biləcək. Bunu yaratmaq, obrazlı desək, adamdan Allah olmaq istəyir. Öncələr yazmışdım: Ruhaniyyat – ağıllı adamların deyil, heyrətli adamların işidir. Heyrətdən uzaq ağıllı adamlar Asif Ataya yaxınlaşdıqca Ocaq arxivə çevrilə bilər. Ocağı ilk olaraq, onlardan qorumaq gərək olacaq. Gerilikçi düşüncələrdən Ocağı qorumaq asandır, heyrətsiz ağıllılardan qorumaq çətin. Bu həqiqəti bilmək, anlamaq gərəkdir...

Belə götürəndə, Tolstoyun yaşamla bağlı dedikləri Asif Atanın dedikləridir. Ancaq Asif Atadakı kimi bitkin, sistemli, bəlirli deyil. Ona görə də Tolstoy peyğəmbər deyil, Asif Ata peyğəmbərdir. Əgər Asif Atadan peyğəmbər sözünü alsan, o da Tolstoy kimi sevilən düha olacaq, ancaq Yol olmayacaq...

Asif Atanı "düzəltməyə" çalışanlar, daha doğrusu, olduğu kimi bütöv qəbul eləməyənlər Ocağın yaşamasına, yeriməsinə əngəl olacaqlar. Əngəl düşüncələri Ocağa yaxın buraxmaq olmaz…

Beləliklə, mən yenə Tolstoydan Asif Ataya gəlib çıxdım. Yol məni buraya gətirib çıxartdı. İçim belə köklənib, işim belə qurulub!

## Türkçülük dəyərdir – siyasi proses deyil

***(Yusif Akçuranın "Türkçülüyün tarixi" kitabına yönəlik axtarışlar, düşüncələr)***

XIX yüzilin axırlarından başlayaraq "Türkçülük Axımı"nın yaranması Türk ulusunun yaşamında olduqca dərin bir aşama sayıla bilər. Bu axımın (hərəkatın) yaranması ağır durumda, çətin ortamda bənzərsiz işlər görməsi nə qədər önəmlidirsə, onu yazıb sabaha çatdırmaq da bir o qədər önəmlidir. Keçmişimiz zəngin zəhmətlərlə dolu olduğu halda, biz o faktları ya bilməmişik, ya da çox az bilgilərlə yetərlənmişik. Çünkü tarix yaratmağımızla onu yazmağımız arasında həmişə bir boşluq olmuşdur. Bununla da insanlar öz keçmişindən

uzaq düşmüş, özünə, öz xalqına inamı, güvənci ortadan qalxmışdır. Bizi işğal edənlər, tarix səhnəsindən sıxışdırmağa çalışanlar həmişə bu boşluqdan yararlanmışlar. Sonucda biz bizi sıradan çıxaranlara qurtuluşumuzun yiyəsi kimi baxmışıq. Buna tarixdən ərəblərin işğalını da misal göstərə bilərik, Rusiyanın da (istər çar dönəmi olsun, istər Bolşevik dönəmi). Bu gün Avropanın “demokratik oyunları”na da beləcə qurtuluşumuzun qaynağı kimi baxmaqda davam edirik. Söz yox, biz ayrı-ayrı dönəmlərdə geriliyə qarşı qabaqcıl əməllərin necə yaranmasını, maarifçi düşüncələrin haradan qaynaqlandığını gözardı eləməyə çalışmırıq da. Məsələn, 19-cu yüzildə mədrəsə şüurunun yaratdığı geriliyə qarşı Rusiyanın elmi məktəblərinin, gimnaziyalarının maarifçi etkilərini danmırıq. Eləcə də o çağlarda Avropanın ayrı-ayrı bölgələrində genişlənməkdə olan millətçilik proseslərinin insanlarımıza göstərdiyi etkiləri heçə saymırıq. Ancaq nə yazıqlar ki, bu cür etkilər heç vaxt insani xarakter daşımayıb, siyasi xarakter daşıyıb. Deməli, yaxşı işlər, ən çox onu gerçəkləşdirənlərin işğalçılıq siyasətinə gərək olmuşdur. Rusiya bizi onun məktəblərində eyitim alıb qabağa çıxanlarımızın əliylə boyunduruğa salmışdır. Yəni xeyir şərə qulluq göstərməyə zorlanmışdır. Bu ona bənzəyir ki, öküzü yaxşı bəsləyib sonra da kəsəsən. Çünkü siyasi xeyirxahlıq – mənəviyyat tələbindən gəlmir, çıxarları (mənafeləri) güdür. O üzdən də biz xalqları oyunlara çəkən, tamahlandırıb aldadan siyasi xeyirxahlığı rədd edirik. Deyilə bilər, axı onsuz da bütün proseslər siyasidir. Türkçülük axımını başlayanların özləri belə, bunu siyasi qurtuluşu gerçəkləşdirmək üçün eləmişlər. Söz yox, millətləşmə prosesində çalışmaların siyasi, mənəvi çalarlarını düşünmək, onlara sınır bəlirləməyə çalışmaq yersiz görünərdi. Özəllikcə Osmanlıda hakim bir millətin, istər mənəvi, istərsə siyasi açıdan, sıradan çıxdığı, ya da çıxarıldığı deyək, bir dönəmdə davranışları, çalışmaları çeşidləmək heç bir məntiqə sığmayan məsələdir. Ancaq bizim də araşdırmalarımızın yönü, tələbi bu deyil. Bizim anlatmağa çalışdığımız gerçəklik odur ki, siyasi Qurtuluşun açarı siyasətin özünə deyil. Bu açıdan hər şeyə qaçılmaz siyasət adı qoyub yanlışları ard-arda düzəndə “Böyük Qurtuluş” sıfır nöqtəsindən qabağa tərpənmir.

İndi kitabın anlatdıqlarına dayanıb demək istədiklərimizə açıqlama verək. Öncə vurğulamaq yerinə düşər, Yusif bəy Akçuranın bu kitabı ("Türkçülüyün tarixi") o çağın qarışıq-dolaşıq durumu içində Türkçülük kimi qutsal bir olayı, bu olayı başlamağın çətinliklərini anlamaq baxımından olduqca önəmlidir. Milli hünər, milli qeyrət əməlidir. Özündən sonrakı çağlarda da millətin varlığını qorumaq yolunda çalışmalar üçün örnək bir addımdır. Görünən odur ki, bu axımın başlamasına qədər "Türk" deyə bir varlıq, bir ad artıq ortadan qalxmışdır. Tarixdə böyük dövlətlər qurmasına baxmayaraq, 19-cu yüzilin axırlarına doğru bu millətin istər adı, istər dili, istərsə də dəyərləri özünün yaşam olanaqlarını, demək olar ki, itirməyə başlamışdır. Əgər 20-ci yüzili də o cür davam eləsəydi, bu millətin fiziki varlığından başqa heç nəyi qalmayacaqdı. Tarixdə bir sıra millətlərin  silinib sıradan çıxması bilimə (elmə) bəllidir. Latın xalqı ayrı-ayrı xalqların genetik varlığında mövcud olsa da, özü bir varlıq olaraq tarix səhnəsindən silinib getmişdir. Millət o vaxt tarixdən gedir ki, dilini, mənəviyyatını, dəyər yaradıcılığını, bir sözlə, özünəxaslıqlarını qoruyub saxlaya bilmir. Dediyimiz kimi, 19-cu yüzilin ikinci yarısına doğru, Türk milləti də dilini, mədəniyyətini, dəyərlərini qoruyub yaşada bilməmiş, üzü enişə – yox olmağa doğru sürüklənmişdi. Osmanlı kimi güclü bir imperiyanın içində, demək olar, Türkə xas heç nə qalmamışdı. Ayrıca uydurulmuş Osmanlı mədəniyyəti İslam demək idi. Osmanlı dili deyə cəfəng bir şey uydurulmuşdu – bu da ərəb, əcəm (fars) sözləri ilə doldurulmuş hibrid bir dil idi. Məişət səviyyəli Türk dilində qonuşan sadə türk toplumu daim alçaldılıb aşağı tutulurdu. Eybəcər bir Osmanlı siyasəti yürüdülürdü: guya Türk kimliyini, Türk dilini qoruyub öz adıyla çağıranda Osmanlıda yaşayan başqa etnik toplumlar (ərəblər, arnavudlar, daha kimlər) bundan qıcıqlanacaq, bölücü (seperat) əməllər ortaya gətirəcəklər. Qıraq güclərin, başqa etnik topluluqların azadlıq istəklərindən yararlanaraq, Osmanlını içəridən parçalamaq meyilləri baş qaldırmasın deyə, bəhanə edib, belə bir siyasət yürütmək böyük fəlakət idi. Bu fəlakət, sonralar – Birinci Dünya Savaşında, bütün çılpaqlığı ilə üzə çıxdı. Əminliklə demək olar, əgər 19-cu yüzilin ortalarından başlayaraq, Türkçülük Axımı yaranmasaydı, Türkiyə Cümhuriyyəti baş tut-

mayacaqdı, Osmanlının dağılmasıyla dövlət deyə bir şey qalmayacaqdı. Bununla da, indiki çağımıza qədər, Türk millətinin tarixdən silinməsi, böyük ehtimalla, gerçək bir fakta çevriləcəkdi. Məncə, o çağı da, yaşadığımız indiki çağı da doğru araşdırıb doğru dəyərləndirən hər kəs bu dediklərimizi təsdiq edə bilər. Türkiyə Cümhuriyyətinin yaranması – bütövlükdə Türklüyün qurtuluşu idi.

XIX yüzilin başlanğıcından başlayaraq, Rusiyanın hazırlıqlar görməsi, Azərbaycanı ikiyə bölüb bir parçasını işğal eləməsi, başqa yerlərdən erməniləri Azərbaycanın Quzeyinə köçürüb saylarını artırması, 20-ci yüzilin birinci yarısında Azərbaycanda ermənilərin əliylə soyqırım törətməsi, torpaqlarımızın bir parçasında erməni dövləti yaratması, bu günə qədər işğalçılıq, Azərbaycan dövlətçiliyinə sonqoyma siyasəti yürütməsi, Batının, Avropanın bu gedişlərə seyrçi qalması, erməninin çıxarlarına yönəlik davranışları (ayrı-ayrı faktları sadalamaq da olardı, yazının profilinə uyğun görmürük) yuxarıda dediklərimizdə yanılmadığımız düşüncəsini daha da gücləndirir.

Yuxarıda vurğuladıq, Türklüyün danılması yönündə Osmanlının yürütdüyü siyasət böyük fəlakətlər doğurdu. Dövlətin, torpağın yiyəsini danmaqla, onun şüurunu, dəyərini, mədəniyyətini sıradan çıxarmaqla dövləti, torpağı qorumağı düşünmək, yumşaq desək, ağılsızlıqdır. Kiçik etnik toplumları böyük xalqın çevrəsində birləşdirib milli-mənəvi gücə çevirmək gərək idi. Bununla da dövlətin quruculuq, qoruyuculuq gücü birə beş artardı, nəinki mücərrəd Osmanlı milləti uyduraraq yalanı dövlət siyasətinə çevirəndə. Yalan bir yerə qədər yeriyər, ancaq dövləti, milləti qorumağa gücü çatmaz. Yalan – hakimiyyəti qorumaq üçün gərək olur, ancaq bu işi də axıra qədər ayaqda tuta bilmir. Bu həqiqəti anlamaq üçün hakimiyyətçiliyə deyil, dövlətçiliyə qulluq göstərmək gərəkdir. Bilindiyi kimi, belə bir oyun, bizim çağımızda Azərbaycanın da başına gətirildi. 90-cı illərdə Azərbaycanda hakimiyyəti yenidən ələ keçirən H.Əliyev millətimizin adından, dilindən "Türk" sözünü çıxarmaqla yeni fəlakətlərin başlanğıcını qoymuş oldu. Mücərrəd "Azərbaycançılıq" oyunu ilə, əslində həm Türk millətinin etnik kimliyi ortadan qaldırılır, həm də başqa etnik topluluqların (qardaşlarımızın) varlığı danılır.

Türk millәti ilә başqa etnik topluluqların Birliyini yaratmaqla, bunu vahid milli gücә çevirmәk daha böyük әrdәmlik olardı, nәinki hәr birinin etnik kimliyini danmaq (inkar etmәk) siyasәti yürütmәyә “qurtuluş” adı qoymaqla. Nә yazıqlar ki, H.Әliyevin bu gәrәksiz siyasәtinә qarşı axıra qәdәr direniş göstәrәn “Birlik” olmadı. Başqa etnik toplumların Türklüyә qarşı çıxan ayrı-ayrı bölücü nümayәndәlәrinin davranışları da bu mәsәlәdә tәbliğat faktı kimi qullanıldı. Bәlkә dә bu davranışlar mәqsәdli şәkildә ortaya çıxarılmışdı. Nәyin necә olmasından asılı olmayaraq, bir millәtin varlığını danmaq yolu, bizә görә, tәkcә hakimiyyәti qorumaq gedişi deyil, hәm dә mәkrli planlara qulluq göstәrmәkdir – bu davranış istәr yüz il öncә Osmanlıda olsun, istәr yüz il sonra Azәrbaycanda. Osmanlının son çağlarında, dövlәt strukturlarında Batıya, Avropaya çalışan kadrlar az deyildi. Elә Azәrbaycanda da, qıraq güclәrә, özәllikcә Rusiyanın çıxarlarına çalışan satqınlar yetәrincәydi (indi dә yetәrincәdir). Bütün bu faktları göz önündә tutaraq, demәk olar ki, 19-ci yüzilin ortalarından başlayaraq, Türkçülük axımı yaradan insanlarımızın zәhmәtlәri, fadakarlıqları gerçәkdәn alqışlanası olaylardır. Ancaq bu insanların çalışmalarını izlәdikcә adam hәm dә o çağda yaşayan satqın soydaşlara görә xәcalәt duyğusu yaşayır. Baxın, bu millәt necә bir duruma gәtirilib ki, әn ilkin insan haqqını dilә gәtirmәk bunca qarşıya fәdakarlıqlar tәlәbi çıxarmışdır. Kitabdan bir alıntını burada vermәk yerinә düşәr: “... dil vә tarixdә türkçülük hәrәkatı, dәrhal Әbdülhәmid idarәsinin diqqәtini cәlb etmiş, sadә türkcә, yәni әrәbcә vә әcәmcәsi az bir üslubda yazılan mәqalәlәrin nәşri qadağan olunmuşdur; eyni zamanda türk tarixinin tәdqiqinә yol açar düşüncәsi ilә çapda olan kitabların da yayımlanması qadağan olunmuşdur!”

*(Yusif Akçura. “Türkçülüyn Tarixi” Qanun nәşriyyatı. 2020. sәh.130)*

Buna bәnzәr yasaqların olduğu kitabın ayrı-ayrı bölmәlәrindә tez-tez vurğu edilir. Eyni tәqiblәr, eyni yasaqlar Çar Rusiyasının boyunduruğunda olan Türk yurdlarında da baş vermişdir. Rusiyanın bu davranışlarını anlamaq olar. Çünkü Rusiyanın içi, çölü türkdür, torpaqları türkündür. Onun içindә Türkçülük axımının başlaması Böyük Türk Birliyinin yaranmasına gәtirib çıxarardı, bununla da

Rusiya dövlətinin varlığı sonuna vara bilərdi. Ancaq Osmanlı dövləti Türkün ola-ola, onun Türklüyə qarşı siyasət yürütməsi olduqca düşündürücüdür. Bu məsələyə “anlaşılan deyil” demək bəlkə də doğru olmaz. Axı bu yasaqları, əngəlləri doğuran səbəblər var. Bu səbəblərin kökləri, düşüncəmizə görə, daha dərinlərə işləyir. Ona görə də məsələyə üzdən yanaşmaq, ötüb keçmək yolverilməzdir. İmperiyanı qorumaq xatirinə Türklüyü ortadan qaldırmaq eybəcərlikdir – milli-bəşəri cinayətdir. Bu gedişə dövləti, dövlətçiliyi qorumaq adı vermək ağ yalandır. İnsana milli kimlyinin gəlişməsi, gözəlləşməsi gərəkdir, antiinsani bir imperiyanın, ya da dövlətin qorunması yox. Dövlət – milli varlığı, dili, mədəniyyəti qoruyub gəlişdirmək üçün olmalıdır. Yadellilərin mədəni, mənəvi assimilyasiyasının qarşısını almayan, tərsinə, bu prosesi özü həyata keçirən bir dövlətlə qürur duymaq, ona güvənmək necə mümkün ola bilər. Çağımızda da Osmanlı sevdası ilə gümüldəyənlər az deyil. Bizə görə elə bir imperiyanı, elə bir dönəmi arzulamaq xəstə şüur daşıyıcılarında olar yalnız. Özünə, millətinə sayğı duyan insan Osmançılıq şüurunu savunmaz. Tarixi fəlakətlərdən, tarixdə yenilmələrdən (məğlubiyyətlərdən) dərs götürmək çağıdır. Baxın, 7-ci yüzildə ərəb imperiya qurdu, türkü boyunduruğuna aldı. Onun dilinə, mədəniyyətinə, bir sözlə, etnik kimliyinə böyük zərbə vurdu. Türkün adı, soyadı belə, ərəbləşdirildi. Ərəbin heç nəyi zədə götürmədi, hər şeyə hakim oldu. Çinin, Farsın, Rusun imperiyaları quruldu, bunun kimi, onların hər şeyi hakim oldu, türkün hər şeyi zədə götürdü. Osmanlı adında (guya) Türkün imperiyası quruldu, yenə türklük bütünlüklə zədə götürdü. Türklüyün sıradan çıxarılması dövlət siyasətinə çevrildi. Bilim, eyitim (elm, təhsil) görmüş bir sıra adamlar belə, dövlətin türklüyə qarşı bu yöntəmsiz siyasətini dəstəklədi. Kitabdan bir alıntıya (sitata) baxaq: “Ancaq o zamanlar, yalnız padşah və hökumət deyil, aydın geçinən Batı türklərinin əksəriyyəti belə, milliyyət fikrinin siyasi deyil, hətta dil, tarix, qısası elmi və nəzəri sahələrdə dəstəklənməsi və nəşrinə qarşı idi...”

*(“Türklüyün tarixi”. səh.132)*

Türkçülüyə qarşı olan bu kəslər özümləşmə prosesini gülüş obyektinə çevirirdilər: "Dünya inkişaf edərkən bu zavallılar *(Türkçülük axımı yaradanlar – S.A.)* bu gözəl Osmanlı ədəbiyyat dilini buraxacaqlar da Asiya çöllərindəki özbəklərlə bizə eyni dili danışdıracaqlar. Füzulini, Nədimi buraxıb Xoca Əhməd Yəsəvini, Sofi Allahyarı təqib etdirmək istəyirlər – deyə daha bir sıra cazibəli sözlərlə gəncləri bizdən nifrət etdirməyə qalxırdılar...

Bizim zəif işığımızı söndürməyə çalışırdılar".

*(elə orada)*

Çox ilginc məsələdir. Üstündən yüz əlli ildən çox vaxt keçib, bizim çağımızda da türklüyə, onun dilinin arınmasına qarşı bənzər davranışlar sərgilənməkdədir. Axı nədən bu millətin özümləşməsi, dilinin arınması kimlərdəsə bu qədər yersiz qıcıq oyandırır?! Hansı təbliğatın, siyasətin, ya ideologiyanın etkisindəndir görəsən?! Nə yazıqlar ki, bu suala Türkçülük axımı yaradan ünlü aydınlarımız belə doğru, düzgün cavab verməyiblər. Kitab bu məsələ ilə bağlı bir neçə dəfə eyham etsə də, dərinə getmədən üstündən adlayıb keçmişdir. Yenə bir alıntıya baxaq: ***"Türkçülər əleyhinə hücumda ən irəli gedən adam, əvvəldən bəri islamçı, yalnız islamçı deyil, hətta ərəbçi tanınan Əbüzziya Tofiq bəydi ki, ərəbliyə məhəbbətinə görə oğullarına Talha və Vəlid kimi ərəb olmayan müsəlmanlar arasında az eşidilən qatı ərəbcə adlar qoymuş və özü də ərəb qaydası ilə "Əbüzziya" künyəsini almışdır. Namiq Kamallar dövründən geridə qalan bu az qabiliyyətli, ancaq çox mərifətli qəzetçi və mətbəəçinin türkçülük əleyhinə açdığı cihad, məşrutiyyət dövründə, irəlidə görəcəyimiz kimi, özü, oğulları və Süleyman, Nazif bəy kimi dostları tərəfindən davam etdirilir".***

*("Türklüyün tarixi". səh.132, 133)*

Burada öncə (bu yazı ilə bağlı) bir məsələyə baxış sərgiləyib sonra düşüncələrimizi davam edək. Sayğılı oxucular, bağışlayın ki, sizin baxışlarınızı belə yöndəmsiz cümlələrlə yormaq zorunda qalırıq. Yuxarıda da vurğuladıq, bu kitabın milli özünütanıma açısından önəmi nə qədər böyük olsa da, Azərbaycan türkcəmizə uyğunlaşdırılması çox yaman gündədir. Kitab Türkiyə türkcəsində çap olun-

saydı, bəlkə daha oxunaqlı olardı. Bu kitabın Azərbaycan türkcəsinə uyğunlaşdırılması dilimizin gözəlliyini eybəcər şəklə salıbdır. Ancaq düşüncələrimizə açıqlama vermək üçün alıntılara üz tutmaq qaçılmazdır...

Bu gün də Türkiyə Cümhuriyyətində Əbüzziyaların soyu durmadan artır. Ərdoğan Türkiyəni Türklüyün faciəsinə qaytarır. Milli şüurun müsəlmançılıq şüuru ilə əvəz olunması – milli dəyərlərin aşılanması, özünüqoruma olanaqlarının ortadan qalxması deməkdir. Bu üzdən biz Türkçülük axımı yaradanların "Türkləşmə, İslamlaşma, Avropalaşma" çağırışlarını da doğru saymırıq. Nəinki doğru saymırıq, zərərli olduğunu dönə-dönə vurğu edirik. Söz yox, o çağın tələbləri qarşısında bu üç fərqli ideyaları bir arada dilə gətirməyin qaçınılmazlığını anlayırıq, ancaq dediyimiz kimi, qəbul etmirik. Qaçınılmaz olaraq yol verilsə də, yanlışın adı yanlışdır. Ona görə sanırıq, sağlam düşüncəli insanlarımız indi də, gələcəkdə də bizim ərklə söylədiyimiz qınaqları anlayışla qarşılayacaqlar. Bu çağırışın yanlış olduğu kitabda yazılan faktlardan da aydın görünür. Yusif bəyin vurğuladıqlarından belə çıxır ki, türk dili ərəb, əcəm sözləriylə o qədər yüklənmişdir, türklükdən heç nə qalmamışdır. Ortaya çıxan yeni bir dili – türk dili saymaq olumsuzdur. Osmanlı dili sayılan bu danışıq aracını (vasitəsini) ən yaxşı halda, ərəb dilinin bir şivəsi saymaq olar. Dil də yoxdursa, mədəniyyət yoxdur. Mədəniyyət də yoxdursa, "millət" anlayışı getdikcə ortadan qalxır. Mədəniyyət milli şüur kodudur. Dil – bu kodu qoruyan açardır. Bu açarı itirənin etnik kimlik bəlirtisi (müəyyənliyi) sıradan çıxır, millət tarix səhnəsindən gedir. Dil – milli mədəniyyəti gəlişdirən, ifadə eləyən qüdrət, milli mədəniyyət – dilin gözəlliyini, özünəxaslığını qoruyan bazadır. Bu aksiomadır, bu düsturdur, bu ölçüdür. Bu məsələdə yersiz güzəştlər bağımsızlığın (müstəqilliyin) nisbiləşməsinə, əsarətin möhkəmlənməsinə gətirib çıxarır. Bu məsələni dərindən incələyəndə, bir daha vurğu edirik, ünlü türkçülərimizin "üç tərzi siyasət" baxışını irəli sürmələrinin qüsurlu, hətta qorxulu olduğu ortaya çıxır. Deyək ki, bu baxışı irəli sürmək o çağ üçün qaçılmaz idi. Elə isə, onların bu baxışı irəli sürmələri keçid aşaması kimi bilinməli, yazılmalı idi. Hər bir siyasi-ideoloji düşüncə konseptual olaraq işlənməli, onun günsəl (taktik)

biçimi ilə gələcəkli (strateji) biçimi bəlirlənməlidir. Gələcəkli biçimi sandıq ədəbiyyatı şəklində gələcəyə ötürülməlidir ki, sonrakı soylar yüzil öncəki qaçılmaz yanlışları təkrarlamaq zorunda qalmasınlar. Hər kəs dərin milli sorunlara öz baxışı açısından yanaşmağı toxunulmaz ölçü kimi ötürməməlidir. Yüzillərlə dərinləşməkdə olan belə sorunlar günsəl (taktik) addımlarla çözümünü tapıb başa çatmır. Ona görə deyirik, bu yöndə türkçülərimizin strateji hədəfləri də, daha doğrusu, strateji hədəflərə yürümə yolları da bəlirlənməli idi. Ya da onların Türkçülüyə yanaşmalarının doqmat olmadığı bəlirlənib sabaha ötürülməli idi. Bu dediklərimizin gerçəkləşməməsi üzündən çağımızda da Türkçülüyə konservativ baxışlarla yanaşılır, milli-etnik sorunlarımız çözümünü tapmır, özümləşmə yerinə özgələşmə əməlləri həyata keçirilir. Bunun da adına millətləşmə deyirlər. Dediklərimizlə bağlı çağımızdakı mühafizəkar addımları örnək göstərə bilərik. Yüzil öncə Azərbaycanda Respublika quran aydınlarımızın zor qarşısında atdıqları yanlış addımlar yetmiş il sonra olduğu kimi təkrar olundu. Başlıca olaraq, dövlət ideologiyasının əsas atributu olan bayrağın daşıdığı anlam üzərində islahat aparmaq heç yada da düşmədi, buna yönəlik düşüncə ortaya gəlmədi. Ona görə milli kimlik şüuru (üstündən 30 il keçsə də) hələ də oturuşmayıb. Bayrağımızda əks olunan "Türkləşmə"anlamı (göy boya) məhəlli xarakter daşıyır. Ancaq "İslamlaşma, Avropalaşma" anlamları (yaşıl, qırmızı boya) həyatımızda daha geniş etki göstərməkdədir. Bunun sonucudur ki, Azərbaycan türklərinin böyük çoxluğu hələ də özlərinə türk demirlər. Türk deyəndə gözlərinin qarşısında yalnız Türkiyəlilər canlanır. İslamlaşma anlamının isə yaşamımızda genişlənməsi ilə Bakının bəzi kəndləri, Arazboyu bölgələrimiz İranın dini poliqonuna çevrildi. Mindən çox dini qurumlar, sektalar, təriqətlər dövlət qeydiyyatından keçdilər. Milli Birliyimiz qurulmadı, qırıldı. Azərbaycanda məktəblərin sayından çox məscid tikildi. Heç bir məsciddə isə milli şüurla bağlı bircə vergül belə dilə gətirilmir. Ərəb böyüklərinə öygü söyləmələr tükənmir, günü-gündən onların ünvanına yeni fantastik, uydurulmuş öygülər icad eləmək yarışları keçirilir. Eyni ilə buna bənzər düşüncələri çağdaş Türkiyə haqqında da söyləmək olar. Yuxarıda da vurğuladıq, Ərdoğan hakimiyyəti Türkiyəni getdikcə Osmanlı gerili-

yinə qaytarır. Belə getsə, Azərbaycanla Türkiyə arasında yenidən şiə-sünnü uçurumu yaranacaqdır. Bu üzdən biz türkçülük yönündə, hansı səbəbdən olursa olsun, ortaya çıxan yanlışları strateji yanlışlar sayırıq. Yəni keçmişdə yanlış atılan addımların keçid aşaması olduğu vurğulanmırsa, gələcək soylar da bu addımları olduğu kimi təkrar edirsə, bu yanlışları strateji yanlışlar adlandırmaq olar. Hər şeyi "indi vaxtı deyil, düşmən oyaqdı" deyib gələcəyə ötürmək yolverilməzdir. Məsələ ondadır ki, düşmən həmişə oyaq olur, ancaq düşmənin qarşısına sağlam ideya, cəsarət, dönməz iradə qoyan yetişmir, yetişdirilmir. Bu dediklərimiz dərindən öyrənilsə, yuxarıda vurğuladığımız məsələ – dilin ərəbcə, əcəmcə yüklənib milli gücünü itirməsinin nədənləri də aydınlaşdırıla bilər. Dil başqa xalqların sözləri ilə ona görə yüklənir ki, başqa xalqların sırıdığı mədəniyyət var. Mədəniyyət öz anlayışları ilə gəlir. Ərəblərin gətirdiyi mədəniyyət İslam mədəniyyəti idi. Bu mədəniyyət özüylə dil gətirir, söz gətirir, anlayış gətirir. Bir var başqa xalqların qabaqcıl düşüncələrindən, mədəniyyətlərindən qarşılıqlı bəhrələnmələr, bir də var, bir xalqın mədəniyyəti olduğu kimi başqa xalqa sırınır. Bu zaman həmin xalqın öz mədəniyyəti yaşamından dışlanır. Bu artıq assimilyasiya deməkdir. Türk ruhu, türk kimliyi, türk dili, ərəb-islam mədəniyyətinin gəlişiylə assimilyasiyaya uğradı. Türk xalqı ilə ərəb xalqı oxşar xalqlar deyil, onların hər birinin özəllikləri var. Bəs necə ola bilər, bir xalqın xarakterik nəyi varsa, o biri xalqa sırıyasan?! Bəs bilmirsən belə olanda dilin də sıradan çıxacaq, şüurun da?!

Hər bir xalqın mədəniyyəti özünün ruhani keyfiyyətlərindən yaranır. Xalqın ruhani keyfiyyətləri özünün mədəniyyəti ilə yaşadılıb qorunur. Mədəniyyətin bütün çalarları, deyək ki, ədəbiyyatı, sənəti, poeziyası, təhsili ruhani keyfiyyətlərin yaşadılmasında başlıca rol oynayır. Ədəbiyyat, sənət milli obrazları araçılığıyla (vasitəsilə) həm milli şüurun oyanışını ayaqda tutur, həm də keçmişlə gələcəyin bağlılığını, bu bağlılığın gərəkliyini ifadə edir. Yeri gəlmişkən, bir məsələni burada vurğulamağı gərəkli sayırıq. 90-cı illərdə "Çaşıoğlu" nəşriyyatı ilkoxul (ibtidai sinif) dərsliklərini latın qrafikalı Azərbaycan abesiylə (əlifbasıyla) yenidən işlədi. Sovet dönəmindən üzü bu yana kitabların redaktoru Yəhya Kərimov idi. Sovetlərin dağılmasına, ölkə-

nin bağımsızlıq qazanmasına baxmayaraq, Yəhya Kərimov dərsliklərdə hələ də rus uşaqlarının şəklini verirdi. Azərbaycan uşaqları o dərsliklərdə özlərini deyil, rus uşaqlarını görürdü. Beləliklə də, onların ağlında özlərinin deyil, rus uşaqlarının üstün olduğu şüuru yaranırdı. Üzdən baxanda adi görünən bu məsələ olduqca dərin fəlakətlərə yol açan bir sorun idi. Bu dediklərimizi gücləndirmək üçün kitabdan bir alıntıya göz yetirək: ***"Türk dili, bağımsızlıq və hakimiyyətini, İstanbulun əsil türk millətindən ayrı, qarışıq, xudbin, qayəsiz, gündəlik şəxsi faydalarından maddi və qaba zövqlərindən başqa bir şey düşünməyən, özlərini bir növ aristokrat sayan tüfeyli sosial bir zümrəyə dayanaraq qura bilməzdi. Milli şair, peyğəmbəranə bir instinktlə türk dilinin bağımsızlıq və hakimiyyətini təmin etmənin türk xalqına dayanmaqla mümkün ola biləcəyini anladı".***

*("Türklüyün tarixi". səh.170)*

Doğru yanaşmadır. Xalqdan qıraqda nə dil gəlişə bilər, nə də mədəniyyət yaşaya bilər. Elə isə dili sıradan çıxaran bir mədəniyyəti (ərəbçiliyi) döşünə çəkmək anlamsızlıq deyilmi?! Sevimli aydınlar, biz isə deyirik: Mübarizə, qurulma, gəlişmə bütün aşamalarında çelişkisiz (ziddiyyətsiz) olmalıdır ki, müsbət sonuclar verə bilsin.

Bütün bunları ümumiləşdirmək üçün biz bu məsələdə də Asif Atanın dediyinin üzərinə gəlib çıxırıq. Asif Ata Türkçülüyün üç çalarının olduğunu vurğulayır: Ruhani Türkçülük, Tarixi Türkçülük, İdeoloji Türkçülük. Ata deyir: "Ruhani Türkçülüyün mahiyyəti ən çox Azərbaycançılıqda, Tarixi Türkçülüyün mahiyyəti ən çox Türkiyəlikdə (Osmançılıqda), İdeoloji Türkçülüyün mahiyyəti ən çox Ziya Göyalp, Əlibəy Hüsynzadə, Məmməd Əmin Rəsulzadə ideyalarında üzə çıxır".

Düşünürük ki, bu çalarların hər biri ciddi faktlar olmaqla yanaşı, öz işlərini görmüş, ömürlərini başa vurmuşdur. İndi bunların hər birinin müsbət yönlərini özündə yaşadan, həm də bu çalarların ən yüksək aşaması olan Ocaq Türkçülüyü vardır. Ocaq Türkçülüyü Ruhani Türkçülükdür. Mütləqə İnam Yoluyla İnsanlaşma – Millətləşmə (bizdə Türkləşmə) – Doğulaşma – Bəşərləşmə ölçüsü. İnsanlaşma olmadan Millətləşmənin baş tutması inandırıcı deyil. Başqa sözlə, Millətləşməni siyasi məqsədə çevirib ayaqda qalmaq çabaları başqa

çıxarlar ortaya çıxarır. Xalqların bir-birini danmaq yoluyla özlərini təsdiq eləməyə çalışması İmperializm tələblərini ortaya çıxarır. Siyasiləşən Millətçilik ağalaşan millətçilikdir – biz bunu rədd edirik. Bizim üçün Millətçilik Ruhani olaydır. Yalnız İnsanlaşan toplum Millətləşə bilər. Millətləşməni ona görə siyasiləşən olay sayırlar ki, Milləti kapitalizm Quruluşunun yaratdığını düşünürlər. Halbuki Milləti Quruluş yarada bilməz. Millət özündə ruhani mahiyyət daşıyır. Onu qurama, törəmə olay adlandırıb siyasiləşdirmək yanlışdır. "Millət" anlayışının sonradan yaranması ilə Millətin sonradan yaranması eyni anlam daşımır. İnsan, toplum – etnos kimliyini Quruluşdan Quruluşa dəyişmir. Dili, insani aqibət Birliyini Quruluş ortaya çıxarmır. Bu üzdən də biz Millətçiliyi – ruhani anlamına görə əbədi proses sayırıq. Türkçülük Dəyərdir – dilin, mənəviyyatın, mədəniyyətin özülü olan Ruhani Dəyər!

## Bir Ömürdə iki tale

***(Ş.İ.Xətainin ömür yoluna yönəlik bir neçə söz)***

### I. Xadimlik

Bu gün bir sıra üzdə olanlar milli olaylara qarşı danmaq (inkar eləmək) yolu tutub. Bu yanaşma Ş.İ.Xətaiyə qarşı da yönəlib. Bir var yanlışları görmək, göstərmək – bundan dərs götürmək, bir də var, yağılığın xeyrinə şəxsiyyətin, dəyərin üstündən biryolluq cız çəkmək. İçimizdə başqalarının buyruğuna çalışanlar, nəyimiz varsa, hamısının üstündən biryolluq cız çəkirlər. Ölkə insanları da ən çox onların təbliğatını görürlər, onların yazdıqlarını oxuyurlar. Milli özünə inam o qədər zədələnib, hər şeyimizin pis olduğu, uğursuz olduğu görsənişi yaranıb ağıllara yeriyir. Doğrunu yazanlara isə elə də ciddi inanmırlar. Halbuki doğrunu yazanların sayı çox da deyil. Eyni halda, tərs yazanların yayılması, etki göstərməsi üçün ortam daha genişdir. Televiziyalar, basın yayınları onlara daha çox meydan verirlər. Ya da onların özləri basın yayınları işlətmək üçün maddi cəhətdən təmin

edilirlər. Əlində telefon, bilgisayar olanlar da milli-mənəvi uğurlarımızın olacağına, yaranacağına inanmaq istəmirlər. Yüksək texnologiyalar yaradanlara daha çox inanırlar. Deməli, yüksək texnologiya yaradanın ağlı bizdən üstündür. Deməli, ağlı üstün sayılanların mənəviyyatı da üstündür. Deməli, onlar hər şeyə qadirdir, biz yox. Şüur belə formalaşır – düşüncə yanılır, aldanır. Ancaq bu yanılmaları sadə toplumumuza özgün eləmək olar, bilə-bilə yağının buyruğunda duranlara yox. Buyruqda duranlar dönükdürlər, milli şüura tərs yaşayanlardır. Onlar şöhrət üçün, sərvət üçün, yüksək görəvlərdə yer tutmaq üçün özgələşməni özümləşmədən üstün tutanlardır. Onların bir kəsiminə "5-ci kolon" adı qoyublar. 5-ci kolon Rusiyanın çıxarlarına çalışanlardır. Bəs Batının çıxarlarına çalışanlara, ərəbçiliyə, farsçılığa çalışanlara hansı adı qoyaq?! 5-ci kolona qarşı söz deyənlər də ən çox Batıçılığa qulluq göstərənlərdir. Guya Rusçuluq bizə yaddır, Batıçılıq doğma.

İçimizdə olan özgəçilər bir neçə cəbhədə çalışırlar. Hər biri o birinə qarşı söz deyir, özünü millətə gərəkli kimi sırıyır. Bununla da özünün ziyankarlığını pərdələməyə çalışır. Özümləşməyə – millətləşməyə qulluq edənlərə isə "şovinist", "radikal" "antidemokrat" i.a. damğalar vurmağa çalışırlar...

İndi qayıdaq sözümüzün başına. Dedik, bir çox olaylarımıza özgəçilər danıcı yanaşırlar. Burada önəmli bir məsələni vurğulamaq yerinə düşər. Bir var şəxsiyyət özüylə, ideyasıyla, düşüncəsiylə bağlı tərs danışanlara səbəb versin. Bir də var, tarix – qarışıq-dolaşıq yazılaraq, çaşdırıcılıq yaratsın. Məsələn, Babək haqqında yazanlar, danışanlar ən çox Babəkə qarşı obyektiv olmayan xilafət qaynaqlarına üz tuturlar. Bu zaman heç bir məntiqə, olayların mahiyyətinə, milli qeyrətə, fəhmə söykənmirlər. Ona görə də Babəki özgələşdirirlər, savaşının yönünü başqa cür dəyərləndirib kölgələyirlər. Daşıdığı ideyanı çirkli düşüncələrə bağlamağa çalışırlar. Eləcə də Nəiminin, Nəsiminin daşıdığı ideyanın mahiyyətini dəyişdirib (təhrif edib) ərəbçiliyə bağlı yozurlar.

Bu yazıda bizim üz tutduğumuz əsas qonu Şah İsmayil Xətai ilə bağlı olduğuna görə başqa qonuları genişləndirməyəcəyik.

Yuxarıda vurğu elədik, şəxsiyyət özü, ideyası, düşüncəsi haqqında çelişkili (ziddiyyətli) baxışların ortaya çıxmasına özü də səbəb verə bilər, ona qarşı qərəzli də yanaşa bilərlər. Acıyaraq (təəssüf hissiylə) deməliyik, Xətaimiz belə bir səbəbi vermişdir. Bu da onun ömründə ikiləşən taleyi ilə bağlıdır. Xətai həm özünü sufi kimi təsdiq eləməyə çalışırdı, həm də hökmdarlığını dərinləşdirirdi. Nə yazıqlar, bu şəxsiyyətimizin taleyindən doğru sonuclar çıxarmaq yerinə, yenə də özgəçi çoxluq qərəzli təbliğatlar qururlar. Bizə görə qərəz Azərbaycanın dövlətçilik tarixinə qarşı yönəlib. Eləcə də, sağlam Türk Birliyinin yaranmasını əngəlləmək məqsədi güdür. Tarixdən bəllidir, Şah İsmayıl Xətai Azərbaycanı birləşdirmiş, böyük gücə çevirmişdir. Zaman-zaman Batı fəndgirliyinin yardımı ilə Rusiya Azərbaycanı parça-parça eləmiş, bir parçamızda erməni dövləti yaratmışlar. Bu gün Şah İsmayıla qarşı düşüncə – Bütövlük şüuruna qarşı yönəlibdir. Eləcə də Osmanlı-Səfəvi döyüşünün fəsadlarını bu günə daşımaqla Türkiyə-Azərbaycan yaxınlaşmasını əngəlləməyə çalışırlar. Yuxarıda vurğuladıq, Ş.İsmayıl dövlətçilik baxımından Bütövlük şüuru yaratdı. Millətin türk dilinə "dövlət dili" statusu vermiş, mədəniyyətin gəlişməsinə yol açmış, elm, sənət adamlarına dövlət qayğısı göstərmiş, aşıq-saz sənətini milli strategiyanın önəmli faktlarından biri kimi qoruyub gəlişməsinə ortam yaratmışdır. İzlənilən (təqib olunan), qovulan Hürufilərə yiyə duraraq onları qorumuşdur. Yaradıcılığında Hürufilik baxışlarından ciddi bəhrələnmişdir. (Bununla bağlı aşağıda özəl vurğular edəcəyik).

Ordunun milliləşməsi, orduda qullanılan bütün anlayışların milli sözlərlə ifadə olunması, Dış siyasətdə yazışmaların, məktubların türk dilində gerçəkləşməsi Şah İsmayılın danılmaz uğurlarıdır.

Söz yox, onun ideoloji, siyasi yanlışları da yox deyil. Ən böyük siyasi yanlışı Osmanlı dövləti ilə döyüşüdür. Venesiya böyük elçiliyinin fitnəkarlığına aldanaraq, iki qardaşın bir-birinə qılınc çalması – "Çaldıran Faciəsi" Azərbaycanın, bütövlükdə türklüyün taleyində yanlışlara yol açmışdır.

İdeoloji baxımdan şiəliyi qabartma, Ağ atın üstündə özünü zamanın yiyəsi imam Mehdi elan eləməsi zərərli addım idi. Osmanlıdan tez-tez Azərbaycana gələn emisarların sünnülük təbliğatına

qarşı şiəlik ideolijisi ilə dirənməyi yersiz sayırıq. Ancaq bu ideolojiyə görə Səfəvilərlə Osmanlı arasında gedən savaşı Türklüyə qarşı addım kimi dəyərləndirənlərin baxışlarını da rədd edirik. Sultan Səlimlə Şah İsmayıl iki imperiyanın başında dururdular. Hər ikisinin öz imperiya çıxarları vardı. Onlar birgə dış siyasət yürüdə bilməzdilər. Eyni zamanda, onların qarşısında türklüyü ortadan qaldırmağa çalışan başqa güclər yox idi. Dönəm Türkçülük-Millətçilik dönəmi deyildi. Bu iki Türk gücünün dünyanın siyasi yönətilməsində (idarə olunmasında) xas etkiləri vardı. Onlar yönətdiklərindən daha çox bir-birindən çəkinirdilər. Türk dövlətləri olsalar da, gündəmdə onları bir-birinə bağlayan Türkçülük tələbi də yox idi. Özəllikcə, Osmanlıda fars mədəniyyəti, dili dövlət qurumlarında aparıcılıq təşkil edirdi.

Bir sözlə, bu iki dövlətin savaşı, Türklüyə ziyan versə də, məqsədli deyildi. Ortada xəyanət deyə bir şey yox idi. Özünü milli adlandıran yalançı təbliğatçılara görə guya Ş.İ.Xətai heç türk də deyildi, türkə qənim kəsilmiş qatil idi. Onun poetik yaradıcılığı da yox imiş, başqa İsmayılın imiş i.a. Şah İsmayılın siyasi çalışmalarına rəng qataraq başqa cür yozub yaza bilərlər. Ancaq onun yaradıcılığı adına heç kim özünü sırıya bilməz. Sovet tarixçiliyini bizə qarşı "mərhəmətli" sırıyanlar yalanları həqiqət kimi uydurmaqdan daşınsalar yaxşı olar. Necə ola bilər, sovet tarixçiliyi bizə Türk dövlətçiliyi uydursun?! Tərsinə, sovet tarixçiliyi bizim dövlətçiliyimizi danar, milli Türk kimliyimizi dandığı kimi. Sovet ideolojisi bizi əsarətdə saxlayıb yönətmək üçün bütövlük şüurumuza daim balta çalıb. 37-ci il repressiyalarının üzünə necə pərdə çəkmək olar?! Bir sözlə, Ş.İ.Xətainin yaratdığı türk dövlətçiliyi gerçək bir tarixdir, sovetlərin bizim üçün uydurduğu tarix deyil.

Ş.İ.Xətainin milli kimliyinə gəlincə, onun türklüyü poeziyasında qabarıq şəkildə özünü göstərir – həm dil baxımından, həm də üslub-xarakter baxımından...

Yuxarıda da vurğuladıq, seçdiyi, yaşadığı taleyə görə Ş.İsmayılın həyatını iki cəbhədə öyrənmək olar: bunlardan biri haqqında qısaca söz açdıq. O, dövlət xadimi idi – güclü, tədbirli, bacarıqlı – türk dilinə siyasi status verən, milli mədəniyyətin gəlişməsinə yol açan, dövlətçilik yönündə bütövlük şüuru yaradan dövlət xadimi.

İkinci cəbhə onun yaradıcılığı ilə bağlıdır. Sevən, inanan, mərd, bədii-fəlsəfi düşüncəyə bağlı sufi şair. Onun bu cəhətində babalarının etkisi danılmazdır. Özəllikcə Şeyx Cüneydin. Ancaq burada da onun şəxsiyyəti haqqında bütövlük təsəvvürü yaranmır, çelişkili düşüncələrə yol açılır. Asif Atanın dediyi kimi: sufiliklə hökmdarlığı birləşdirə bilmədi. Çünkü sufiliklə hökmdarlıq bir-birinə əngəl olan məsələlərdir. Eyni halda, sufi olmaq istəyi, hürufilik baxışlarından bəhrələnmələr şiəlik addımlarına tərs idi. Hürufiliklə Əlinin baxışını birləşdirmək necə özünü doğrulda bilərdi?! Şiəlikdə Allah fövqəl qüvvədir, hürufilikdə Doğanın özü. Hürufilik təriqət kimi yaransa da, özül ideyalarında Türk panteizminə dayanırdı. Bu səbəbdən də onun özünü imam adlandırması, şiəliyi hallandırması bizə görə, siyasi bir gediş idi. Bir yandan Osmanlının sünnülük təbliğatından imperiyasını qoruyurdusa, bir yandan da sufi-hürufi baxışlarına görə içdə qarşıdurmaların, parçalanmaların qarşısını almaq gedişlərini savunurdu. Bizə görə şiəlik Şah İsmayılın siyasi taktikası idi. Bu ayrıca bir araşdırma qonusudur...

İndi isə Ş.İ.Xətainin taleyindəki təzadlı məsələlərlə bağlı bir neçə söz deyək:

## II. Bütövlük həsrəti

İnsan qəlbinin sirlərlə dolu dərinliyi Dünyanın əzəli əsrarlı möcüzəsidir. Göz qabağında yaşayan, məişət quran, şahlaşan, fəhlələşən, qan axıdan, göz yaşı tökən, dünyanı quran, uçuran bir ovuc insan qəlbi nə böyük sirlər dünyasıdır. Bu dünyada gah ikrahedici bəsitliklər, gah möhtəşəm təzadlar, gah da sadə həqiqətlər, müqəddəsliklər görsənir (təzahür edir). Bəsitlik, ziddiyyətlilik insan Qəlbinin əsrarlığına tərsdir, bu səbəbdən də o, daim yüksəkliyə, bütövlüyə, Mütləqiliyə can atır. Bizim axtarışlarımızda Xətai ömrü də daim bütövlüyə can atır, ancaq şahlıq bu bütövlüyü yarımçıqlayan əngəl kimi Ş.İsmayılın ömründən qırağa durmur. Aqibətinin təzadlı olmasına baxmayaraq, onun sevgi nəğmələri insanlığın anlamından danışır. Qəzəllərinin fəryadında ülvilik təranələri dinləyirik.

Genel olaraq, böyük ürəklərin sevgi çağırışlı şeirləri, onların insan xislətini tanıya bilmək qüdrətindən gəlir. Çağdaş şeirlərin "gözəlsən,

göyçəksən" öygülərindən yüksəkdə durur. Ədəbiyyat nəzəriyyəsinin tələblərinə uyan çağdaş yazarların böyük kəsimi məna tələbindən çox uzaq durur. İnamla, sevgi gözəlliyi ilə mömünləşməyən şair dünyəvi bilikləri nə sinirə bilər, nə də söyləyə. Sevgi ürəyi Gülüstana döndərməsə, şeirdə pərvanənin adını çəkməklə, aşiqlik qatında var olmaq olmur. Hicran – qafiyələri deyil, ürəyi atəşə tutmalıdır. İndi kapitalizmin çağdaş şeir örnəkləri klassikanın ortadan qaldırılması üzərində qurulur, bu səbəbdən də gücsüzləşir. Klassik özül üzərində ucalmayan poeziya binası abad ola bilməz. Bu başqa qonudur, davam eləmədən qayıdırıq Xətai poeziyasının ağılarını dinləməyə.

***Çün təcəlla nurini görmək təmənna eylərəm,***
***İmdi Mənsurəm, məni bir dara göndərmək gərək.***

Görəsən, bunu şah deyə bilərdimi?! Şahlıq Xətainin sanki əlində, əməlində olub, qəlbində tam olmayıb. Şahlıq – topluma hökm etsə də, ilk növbədə şahın öz qəlbinə hökm edir axı. Qəlbini şahlığa verən əhaliyə hökmdarlıq edir. Şah – insandan ayrılıb, şahlıqla birləşəndə hökmdar olur. Bunları göz önünə alanda Xətainin faciəsi üzə çıxır. Xətainin qəlbində iki hökmdar fərman verir – şahlıqla sufilik. (Sufilik də mənəviyyatın "hökmdarlığı"dır).

***Çün qul oldun, ey Xətai, bəndəfərman ol yəqin,***
***Bəndə fərman olmayanlar layiqi-şah olmadı.***

Şah olan sufi ola bilməz, sufi olan şah. Xətainin faciəsi də elə bu yarımçıqlıqdadır. Onun qəlbində nə sufi mistisizmi tam qələbə çalıb, nə də şahlıq. Sufi duyğular ehtiraslananda şahlıq geri çəkilib, şahlıq hökm edəndə sufi duyğular susub.

Qılınc çalan, qan axıdan kəs, həqq dediyi, mənaca Allah olan insana aşiq olmaqdan fərəh duya bilərmi?! Ya da bunca özünü Mənsur Həllac kimi görən kəs Həqqə – insana qılınc çala bilərmi?! Nə böyük təzaddır. İsmayılın qəzəllərindən göz yaşı axır. Damla-damla axan göz yaşı şahlığın qəzəb dalğalarına qarışır. Ona görə də bir ömrü müqəddəslik suyunda çimizdirmək mümkün olmayıb. Şah İsmayıl-

dan ən çox dövlətimiz qazanıb (bütövlük baxımından dövlətçilik gələnəyi yaranıb), ruhaniyyatımız qazanmayıb. Heç bir dövrdə şahlıq ruhani dünya yaratmayıb, yarada da bilməz. Ruhaniyyatı xalq yaradır – şahlıqdan qıraqda. Ərəb xəlifəliyinin yaratdığı ruhaniyyat antiruhaniyyat oldu. Bu gün də xəlifəliyin qalıqları dünyaya terror verir. Din bayrağı altında ruhaniyyat yaratmağa deyil, terrorla özünü qorumağa çaba göstərir...

***Yer yox ikən, gög yox ikən, ta əzəldən var idim,***
***Gövhərin yekdanəsindən irəli pərgar idim.***

İnsanın əzəliliyini duyan, dərk eləyən ürəkdə şahlıq necə tab gətirə bilirmiş?! Xətai sufiliyə şahlıqdan yol getməyib, mənadan yol gedib. Şahlıq sufiliyə doğru yol göstərmir, şöhrətə, hökmə, xəzinəyə doğru yol göstərir. Xətai içində şahlığı ötüb sufilik sarayına addım qoyub, ancaq qala bilməyib, yenə şahlığa qayıdıb.

Xətai gah könül dünyasına əsir düşüb, gah da gerçək aləmin sultanı kimi yaşaya bilib.

***Mürid oldur, ola əhli iradət,***
***Hər işdə var ala pirdən icazət.***
***Haram edə uyxusun dost yoluna,***
***Yana pərvanə tək eşqin oduna.***

Eşqə mürid olur Xətai. Mürşid səviyyəsinə isə qalxa bilmir. Qəlb oduna şahlıq sərinlik gətirir. Buna baxmayaraq, mürid olanda belə şahlığı bütöv olmur Xətainin. Ancaq şahlığa qayıtdığı üçün mürşid də ola bilmir.

***Dəmbədəm yol gözlərəm, ol suvlu yarım gəlmədi!***
***Qalmışam qış möhnətində, nobaharım gəlmədi!***

***İxtiyarım getdi əldən, canü dildən əl yudum,***
***Ol mənim canü könüldən ixtiyarım gəlmədi!***

Şahlığa müti olan qəlb "Büt"ü görməz. Xətai şahlıqdan yüksəyə qalxır. Qəlbini bütxanaya çevirib ay üzlü pərini – "Büt"ü oraya səsləyir.

Şahın ən gözəl qıza elçi göndərməsi ilə vüsala yetməsi yolunda hansı əngəl ola bilər, bu qədər hicran odunda yandım desin?! – Bunu şah Xətai demir, sufi Xətai deyir. Üzdə vüsallı görünən şah gizlində həsrətlə yaşayır.

***Sevibdir sim ilə zəri, qoyubdur vəsli-dildari,***
***Əgər doğrusini dersəm olur xəşm ilə nər sufi.***

***Xətai, mürşidi pirlər əlini tutub ar etmə,***
***Əgər arif isən anla, kərəm qıl olma xər sufi.***

Xətai sufiliklə şahlığı birləşdirə bilmir. Ancaq heç birindən də əl çəkmir. Özü öz yarımçıqlığına acıyır. Sufi dərd əhlidir, şah isə eyş-işrət peşində olur. Bir ürəkdə keflə dərd qol-boyun ola bilməz. Bunlardan biri olanda o biri olmur. Bunların əvəzlənməsində bütövlük ortadan qalxır. (Biz Ş.İ.Xətaini bütöv bir kef düşkünü saymasaq da, şahlığının yaratdığı yarımçıqlığı görürük). Bütöv olmayan xoşbəxt ola bilməz, xoşbəxt eləyə bilməz.

Xətaimiz xətamız deyil, dərsimizdir. Öyrənməliyik, Bütövlüyə yetməliyik.

***(Bildiriş: Yazının 2-ci parçası 2003-cü ildə yazılıb.)***

## Faciə konsepsiyası

***(V.Şekspirin "Hamlet" əsəri üstə düşüncələr)***

İnsan faciəsinin tarixi elə insanlığın yaşı qədər qədimdir. Bu tarixi səhifələmək necə də dəhşətlidir. Adamın ürəyi üzülür. Tarixi vərəqləmək, xatırlamaq istəmir. Dünyanı sevmək yerinə dünyadan əl götürmək istəyirsən. Bu cür dünyada yaşamaqdan fərəh ala bilmirsən. İnsanın fəlakətlər tarixinin hansı səhifəsini açırsan orada qladiatorluq dövrünün amansızlığını oxuyursan. Fəlakət fəlakət olaraq

qalmır, o, dərinləşir, hüdudsuzlaşır. Sonsuz qatlarda hər cür faciə çalarlarının tanıqı (şahidi) olursan. İnsan təkcə öldürülmür (qətlə yetirilmir), lağa qoyulur, məzhəkəyə çevrilir. Eyş-işrət məclislərində əyləncə vasitəsi kimi qullanılır. Faciənin dəhşəti, mürəkkəbliyi ondadır ki, ölən də insandır, öldürən də, gülən də insandır, ağlayan da, zalım da insandır, zavallı da. Həmişə də yaradıcı insanların axtarışları bu nöqtədə qəlizləşir. Ümidi bu nöqtədə sarsılır. Həmişə də insan faciəsini araşdıranlar, yol axtaran dahilər, yaradıcılar həqiqəti üzə çıxarmaq üçün bütün yollara bu nöqtədən göz yetiriblər. Şekspir də öz yaradıcılığında baxışlarımızı bura yönəldir. Bizə görə Şekspirin "Hamlet"i, özünün dəyəri baxımından, brunoların, yan qusların fəlakətli ölümlərinin gördüyü işlə bir xətt üzərindədir. Qəhrəman ömürlər bizə yaşamın çətinliyini, mənasını göstərə biliblər. Ülviyyətin varlığını da təsdiq edə biliblər. Həyatda insanlığın bərqərar olmasına, yaşamasına əngəl törədən şərlə döyüş ruhu yaşayır qəhrəman ömürlərdə. Bu cür ömürlər bizim ümidimizə işıq tuta biliblər. "Hamlet"də şəri tanıdan, sarsıdan idrak, ləyaqət qəhrəmancadır. Şekspirin "Hamlet"i dövlətin insan üzərində qurduğu faciə konsepsiyasıdır. Burada dövlətlə insan arasındakı yadlıq, dövlətlə həyat arasındakı müxaliflik üzə çıxır. Dövlətin amansız, qəddar səlahiyyətlər üzərində bərqərar olması dərk olunur. Məsələnin ilginc çaları odur ki, qəddarlıq qaynağı olan bu səlahiyyətləri dərk edən də, səlahiyyətlərin potensial varisi olan Hamlet özü olur. Hərçəndi əsərin başlanğıcından görünür ki, Hamlet bu aşamaya qədər də düşünən, qanan insanlarla insani davranışda bulunan alicənab bir şəxsdir. Hələ Poloninin (müşavir) Hamleti cəzalandırmaq önərisinə – kralın "qara camaat onu sevir" deyə cavab verməsi də bunu bir daha sübut edir. Elə buna görədir, Hamlet həqiqəti üzə çıxartmaq, şərdən intiqam almaq üçün özünün varislik haqqından tərəddüdsüz imtina edir. İnadla xeyirin varisi kürsüsünə qalxır.

Şekspir öz əsərində sübut edir, ən böyük haqq insanilik haqqıdır. O, öz qəhrəmanı araçılığıyla axıra qədər ləyaqətin yoluna işıq tutur. İnsan fəlakətinə hər addımda boy verən dövlət səlahiyyətinin, belə bir vəhşətin varisi olmağın nə demək olduğunu öz qəhrəmanına dərk etdirir. Hamlet yırtıcılığa göz yumub səlahiyyəti ələ keçirməyin

vaxtını gözləmir. Səlahiyyət araçılığıyla qisas almağı arzulamır. Canavarlıqla döyüşməyin asan yolunu ləyaqət üçün doğru saymır. İntiqam almaq üçün, şərlə döyüşmək üçün ən böyük səlahiyyət ürəyin təpəridir. Şərlə döyüşməkdən, intiqam almaqdan ötrü hamı hökmdarlıq səlahiyyətinə can atsa, yeni fəsadlar meydana atılar. Yeni qurbanlar tələb olunar. Sonucda canavarlıq sarsılmaz, təsdiq olunar. Rəsmi səlahiyyətə can atmaq da bir ayrı cür canavarlıq tələb edir.

Əsərin dramatikliyi Hamletin şübhələri ilə daim dərinləşir. Hamletin ölmüş atasının yası çox sürətlə sarayda əyləncələrlə əvəz olunur. Bu əyləncə onun öz anası ilə əmisinin sevgi macəralarında amansız bir səviyyədə qabarır. Hamletin ürəyi qana dönür. O, ata ölümünün kədərini rahat yaşaya bilmir. Ruhu təhqir olunur. Ruhun təhqirinə dözmək heç cür mümkün deyil. Hamletin şübhələri atasının kölgəsi biçimində meydana çıxır. O əmisinin xəyanətini, qəsdini başa düşür, sevinir. Əslində bu sevinc şübhənin inamla əvəz olunmağa başladığı bir aşamanın görsənişi idi. Bunu kralın, Hamletin, kraliçanın aralarında yer dəyişən dialoqlardan izləmək mümkündür.

**Kral:** *Yenəmi üzünü tutmuş buludlar?*

**Hamlet:** *Əksinə, nədənsə o günəşlidir.*

**Kraliça:** *Yetər tutqunlaşdın gecələr kimi!*
*Hamlet! Mehriban ol bizim krala,*
*bir gülər üzlə bax. Nə vaxta qədər*
*Başını sallayıb, mərhum atanı*
*Torpaqlar içində axtaracaqsan?*
*Belə yaranmışdır dünya əzəldən, –*
*Təbiət hökmü ilə bütün canlılar*
*Ölüb keçməlidir əbədiyyətə.*

**Hamlet:** *Belə yaranmışdır dünya əzəldən.*

**Kraliça:** *Eləysə, nə üçün, bir söylə görək,*
*Qəribə görünür matəmin sənə?*

**Hamlet:** *"Görünür"...*
*Yox, xanım, doğrudan bu qəribədir.*
*Mənə tanış deyil bu "görünmələr".*
*Nə bu tutqun plaş, nə bu qara paltar,*
*Nə nəfəs təngliyi, nə göz yaşları,*
*Nə bu üzüntülər... heç şey, heç bir şey*
*İfadə edəmməz mənim qəlbimi.*
*Bunlar görünməyin vasitəsidir,*
*Bunların hamısı bir hərəkətdir...*
*Bunları çox asan oynamaq olar...*
*Mənim riyasızdır bu kədurətim,*
*Nümayişkarlıq da deyil adətim.*

**Kral***: Sənin atan üçün bu qədər matəm*
*Saxlamağını görmək çox xoşdur, Hamlet.*
*Lakin sənin atan öz atasını,*
*O da onun kimi öz atasını*
*İtirmişdir, bəli. Bir neçə müddət*
*Yaxın mərhumlara matəm saxlamaq –*
*Bizim borcumuzdur. Amma hər zaman,*
*Bu yasa bağlanmaq günahdır, oğlum.*
*Kişiyə yaraşmaz belə bir kədər.*
*Bu kədər iradə acizliyinin,*
*Ürək korluğunun, ümidsiz ağlın*
*İnan ki, ən qabar ifadəsidir.*
*........................................................*

Kişiliyə qəsd edən, ən yüksək duyğuları içində qətlə yetirən bir namərd Hamletə mərdlik dərsi deyir. Başında namərdlik tacı gəzdirən səlahiyyətli üçün, ürəyi xəyanətə qarşı hiddətlə döyünən, bir gəncə müdriklik öyrətmək, dözümlüyə çağırmaq necə də asandır. Xeyirin adından danışmaq da xəyanət törətmək qədər asan olanda vicdan elə fəryad qoparır ki, onun harayını heç bir sözlə ifadə eləmək, heç bir fəlsəfi dillə ifadə eləmək belə, mümkün olmur. Bəlkə buna görədir, intiqam hissi kükrəməyə başlayır.

Öz parıltıları ilə göz qamaşdıran bu cür qiymətli tac nə qədər rahatlıqlara qənim kəsilir, səadətləri qeybə çəkir. Nə qədər insani dəyərlərin üstündən adlayıb namərd bir başa qonur. Dünya özü boyda məşəqqətlərə çevrilir Hamlet üçün. Dünən öz ərinə məhəbbət təranələri yazan ana, bu gün sərxoş bir qucaqda, özünü xoşbəxt hiss edərək, oğlunu ata qatilinə qarşı ehtirama çağırır. Dünya gözündə bir heçə çevrilir Hamletin. Hər an həyasızlıq, cilddən-cildə dəyişən cadugərlik, ifritəlik onu təqib edir. Qəlbini ovundura bilən bircə təsəlli belə, tapmır. Yanıb-yaxılır, əzabla qovrulur.

**Hamlet:** *Ah, insan bədəni, ət və sümükdən*
*Yaranmış ağır yük! Kaş əriyəydin!*
*Ah, böyük yaradan, sən intiharı*
*Yasaq etməsəydin! Aman, ilahi!*
*Mənim gözlərimdə bütün bu dünya,*
*Ah, nə qədər rəzil, alçaq görünür.*
*Hər tərəf murdarlıq! Üstünü kol-kos*
*Basmış gülüstan tək, hər tərəf, hər yer*
*Tamam murdarlanmış çirkə batmışdır.*
*...........................................................................................*

Hamletin əhvalı daim tuqun, daim gərgin! – Sanki ömrünün sonunu gözləyir. Həyat onun üçün elə bir iztiraba çevrilib ki, bu əhvalnan ayaq üstə gəzmək, yaşamağı bacarmaq, doğrudan da, möcüzədir. Şübhənin sarsıntıları çox amansız olur. Özəllikcə də şübhə şübhə olaraq qalanda, həqiqəti üzə çıxara bilməyəndə ürək sərsəmlik yükü daşımaqdan üzülür.

Axır ki, Hamlet aktyorlar vasitəsilə özünün şübhələrini səhnələşdirməyə qərar verir. Bu səhnə Hamletin yeganə qurtuluşu olacaq. Ona həqiqəti göstərən, şübhələrinə son qoyan bir işarə verəcəkdir. Kralın özünü aparması ilə onun xəyanəti təsdiq oluna biləcək.

**Hamlet**: *Mən aktyorlara tapşıraram ki,*
*Atamın ölümünə bənzər səhnəni*
*Əmimin önündə canlandırsınlar.*
*Baxıb göz çəkmərəm mən də əmimdən.*

*Ona toxunarsa bu oyun əgər,*
*Onda mən bilərəm neyləyəcəyəm!*
*Bəlkə də o kölgə bir şeytan imiş,*
*Bəlkə də o şeytan atamın əziz*
*Surətinə girib aldatmış məni?*
*Bilib bu üzücü yorğunluğumu,*
*Məni sürükləyir o fəlakətə...*
*Yoxlamaq gərəkdir şübhələrimi.*
*Mənə əsas gərək, möhkəm bir əsas.*
*Bilmək ki, kralın vicdanı nədir,*
*Onu göstərəcək yalnız səhnədir.*

Həqiqəti bilmək arzusu ilə vicdan tələbi birləşir Hamletin içində. Onun mənliyini sarsıdır. Bu sarsıntı Hamletin doğru yol göstərcisinə çevrilir – xəyanəti acığın gücü ilə deyil, həqiqətin gücü ilə ifşa eləmək mümkündür. Müəmmalar açılmalıdır. Açılmasa, yeni fəlakətlər yaranacaq. Müəmmanı elə fəlakət yaradıb. Müəmma ömrü nə qədər üzsə də dözmək gərəkdir. Müəmmanın açılması – fəlakətin tanınması, dərk olunması deməkdir.

Hamletin faciəsini dərinləşdirən başqa bir cəhət onun Ofelyaya münasibətidir. Hamlet həm də sevir. İntiqamla məhəbbət – bunlar bir araya sığmayan anlamlardır. Xəyanətə qarşı intiqam duyğusuyla çırpınan bir ürək məhəbbət yükünü götürə bilməz. Məhəbbət Hamletin səadətidir, intiqam isə fəlakəti. Hamlet səadətdən imtina edir, fəlakəti seçir. Hamletin təhqir olunmuş ruhu məhəbbətin sevinci ilə sakitləşə bilmir. Bu səbəbdən Ofelyanı özünün faciəli aqibətinə yoldaş eləməyə qıymır. Ömrün qapısını faciənin üzünə açan Ofelyaya məhəbbət ümidi verməkdən açınacaqlı durumda imtina edir.

Hamlet öz iradəsi ilə dəli kimi yaşayır. Şəri ağlın təmkini ilə tanımaq çətin olanda onu çaşdırmaqla tanımaq mümkün olur. Hərçəndi Hamletin iradəli qəribəliyi – "dəliliyi", sonradan, Ofelyanı faciəvi taleyin qucağına atır. Ofelya iradəsini itirərək dəli olur. Ardınca isə həyatla vidalaşır. Əslində isə bu faciənin özülündə kral işrətinin qanlılığı dururdu. Kral qanlılığının cazibəsində yaşayan Poloni öz

ölümü ilə zavallı Ofelya üçün böyük dərdə çevrilir. Poloni qızını Hamletə verməkdən səadət tapardı. Ona görə də kral Hamletin "dəliliyi"ndən rahatsız olanda Poloni, Hamletin öz qızının dərdindən bu kökə düşməsini dilə gətirmişdi. Kral, Hamletin bu dərdinə sevinərdi. Böyük məmnuniyyətlə Polonini xoşbəxt edərdi. Poloni üzdə qızının prins Hamletə – kral ailəsinə layiq olmadığını göstərməyə çalışsa da, içində sevinirdi. Kralla qohum olmaq Poloniyə qol-qanad verərdi. Ancaq bütün bunların fonunda kralı rahatsız edən Hamlet "dəli"liyinin görünməyən yanı idi. Onun xəyanətinin izi tapılmışdı. Hamletin bu dəlilik oyunları kralı boğaza yığmışdı. Onun ürəyi üzülürdü. Poloni öncə bütün bunların səbəbini bilməsə də, kralın Hamletdən bezar olduğunun şahidi olduqdan sonra qohumluq düşüncəsindən daşınır. Yaltaqlığın fitnəkar rəqslərinə başlayaraq, kraldan Hamletə cəza istəyir. Xəyanətin qaranlığına qərq olmuş bir ailənin münasibətlərinə fəal şəkildə qoşulan Poloni canfəşanlığının girovuna çevrilir. Ömrü bu "sədaqətinin" güdazına gedir. Belə ki, bir xəyanətkara (krala) sədaqət göstərən Poloni Hamletin iti qılıncının ucunda göynəyir.

**Hamlet *(qılıncını çəkərək):*** *Eləmi? Burada siçanlarmı var?*
*Öldü. Mərc gələrəm, gorbagor oldu...*
*(Qılıncını xalçaya sancır)*
*Poloni (xalça arxasından):*
*Aman, öldürdülər!*
*(yıxılıb, ölür).*

**Kraliça*:*** *Sən neylədin, ah!*

**Hamlet:** *Xalça arxasındakı yoxsa kraldı?*

**Kraliça*:*** *Sən nə amansızsan! Bu nə dəhşətdır!*

**Hamlet*:*** *Bir kral öldürüb, ər qardaşına*
*Arvad olmaqdan da dəhşətlidirmi?*

**Kraliça***: Bir kral öldürüb?*

**Hamlet***: Bəli,miledi!*
*(Xalçanı qaldıraraq Poloninin cənazəsini görür)*
*Sən, axmaq, çərənçi, məni bağışla.*
*Mən səni çox mühüm bir nəfər ilə*
*Qarışıq salmışam. İndi gördün ki,*
*Aralığa girmək xeyir gətirmir.*

Siçan taleyi yaşayır Polonilər. Bu səbəbdən də ziyankar siçanları öldürmək humanizmin qələbəsi haqqında düşünən Hamleti belə, rahatsız etmir. Polonilər qanlı rəzalətlərin könüllü qurbanlarıdır.

Əsəri izlədikcə qanlı rəzalətin yeni qurbanlarının şahidi olursan. Bu qurbanlar eyni zamanda həm quzudurlar, həm də canavar. Çünkü qanlı rəzalətin cazibəsini daim qoruyurlar. Onun ortadan qalxmasına imkan vermirlər. Qurban – rəzalətin özünüqoruma əməlidir. Nadanlıq – rəzalətin özünü təsdiqeləmə vasitəsidir. Qurbanlıq nadanlığın görsənişidir. Həm də nadanlıq qurbanlığın sonucudur. Çünkü qurban getmələr ayıltmır – nadanlıq yaşayır. Nadanlıq yaşadıqca rəzalət böyüyür. Həyatı qana çalxalayır. Belə nadanlar Rozenkrantslar, Qildensternlərdir. Bunlar sarayda bəslənilən qurbanlardır. Rəzaləti qorumaq üçün – rəzalətin qanlı izini öz kölə ömürləri ilə silməyə hazır dayanan quzulardır. Onların quzuluğunu sübut edəndə canavar şəsti nümayiş etdirirlər. Elə buna görə “həqiqi, ağıllı sözlər axmaqlara təsir etmir” deyir Hamlet.

Xəyanət davam edir. O dayanmayıb. Nə qədər ki, cavab almayıb sona yetməyəcək. Çox qurbanlar udacaq, ancaq o dayanana qədər də çox qurbanlar udmalı olur. Həyatı qanla çalxalayır rəzalət. Hamı qan gölünə batır. Hər şey qan rəngində görünür. Dost dosta yağı kəsilir. Düşmənin düşmənliyi bilinmir.

Əsər Layertlə Hamletin faciəvi döyüşü ilə sona çatır. Hər biri öz atasının intiqamı üçün meydana atılır. Ancaq onların heç biri qatilin meydanına deyil, hökmdar hərisliyinin qanlılığından məşəqqət görmüş özlərinin meydanına atılırlar. Əslində hər iki ata intiqam-çısının düşməni birdir – Hamletin əmisi Klavdi. Baxmayaraq, Layertin

atası Polonini Hamlet öldürüb. Əslində bu ölüm səhnəsini yaradan Klavdi xəyanəti idi. Bunu anlayırlar. Ancaq fəlakət müdhiş bir zirvəyə qalxanda başa düşürlər. Çünkü tələsiyirlər, acıqla tələsiyirlər, qisas almaq tələskənliyi ilə davranırlar. Daha doğrusu, Layert tələsiyir, həqiqəti bilməyə səbr etmir. Səbirsizlik şərə qulluq eləmiş olur. Fəlakətləri bir-birinin dalınca qoşur. Layert öz acığının əli ilə kralın toruna düşür. Hamleti öldürmək üçün zəhərlədiyi qılınc ilə özünün də həyatına son verir. Son nəfəsində anlayır ki, qatil kraldır. Kraliça da xəyanətin qurbanı olur. Ancaq bu xəyanət kralın xəyanəti deyildi. Həm də kraliçanın öz xəyanəti idi. Ərinə, oğluna göstərdiyi xəyanəti kralın Hamlet üçün hazırladığı zəhərli şərbəti içməklə yuyur.

Zəhərli qılıncla yaralanmış Hamlet kralı məhv eləməklə intiqamı başa çatdırır. Hadisələrə öz ölümü ilə son qoyur.

İntiqam alındı, alınanda xeyirə ziyan vermədi. Vicdan əzab çəkmədi. Fəqət rəzalət həyat üzündən silinmədi. Xəyanətlər davam edir, fəlakətlər davam edir. Çünkü hərislik qanlı əlini həyatdan çəkməyib. **Çünkü Adam İnsan olmayıb.**

## Sevgi mömünlüyü

***(V. Şekspirin "Romeo və Cülietta"***
***əsərinə yönəlik bir neçə söz)***

İnsan sənəti dəyərləndirməyi, sevməyi bacarır. Ancaq sənətlə həyatın bağlılığını təsəvvür etməkdə, dərk etməkdə çətinlik çəkir. Bu çətinliyi yaradan odur ki, insan ən çox sənəti bədii bilik kimi qavrayır. İnsan ömründə sənətin etkisi ilə mənəvi həyatın gəlişməsi, söz yox, insanın özündən daha çox asılıdır. Bu baş verərsə, sənət bilik prosesində qaçılmaz olaraq qatqı göstərər. Ancaq bu proseslə sınırlanmaz. Daha doğrusu, bu prosesə çevrilərək sınırlanmaz. Şekspirin "Romeo və Cülietta"sında sənətin oxucuya bilik verməsi ilə yanaşı, içsəl həyəcanların arındırma gücünü də yaratdığının tanıqı oluruq. Əsər demək olar, adi, sakit bir yaşamın gedişi ilə başlasa da, iki gəncin sevdalı münasibətlərinə bağlı şəkildə, qeyri-adi bir uyumla genişlənir, zənginləşir. Şekspir adi həyatın içində, həyatdan yüksək olan,

belə bir ülviyyət üzə çıxarıb sunur. O, insan duyğularını müqəddəslik tələbi ilə böyüdə bilir. Toplumun idrak, mənəviyyat üçün buxova çevirdiyi qaydaları iki gənc yüksək duyğularla rədd edir. Bu, azadlığın, vüqar gəlişi ilə, qələbə çalmasıdır. Bu qələbə iki gəncin həyatı bahasına başa gəlsə də, bütövlükdə yaşarı (həyati) münasibətlərin dəyişilməsinə səbəb olur. Əsil sənət də elə budur – həyatın içindən yaranır, həyatın gəlişməsini yaradır. Həyatın mahiyyətindən gəlməyən sənət həyatı dəyişməyə, gözəlləşdirməyə qadir deyil. Mücərrəd obrazçılıq, xülyəvi bədiilik – fantastik sənət yaratmaq cəhdindən başqa bir şey deyil. Gerçək həyatın işinə qarışmayan sənət hansı istedada söykənərsə söykənsin, onun yaradıcılıq olanaqları inandırıcı görünmür. Çağdaş sənət klassikadan çox şey öyrənməlidir. Çünkü klassika bu sorunu çoxdan çözübdür. Bu sorunun çözülməsini Şekspirin "Romeo və Cülietta"sında da aydın görürük. Şekspir bu əsərində "sevgi mömünləri"ni sunur. Söz yox, burada Doğu ruhunun etkisi, Doğu klassiklərinin, özəllikcə Nizami Gəncəvinin "Leyli və Məcnun" siqləti özəl rol oynamışdır. Bununla belə, bəşəri dəyər yaradan Şekspirin özünə xaslığı da qorunub saxlanmışdır. Əsəri oxuduqca sevginin əzəliliyi adamın ağlına daha yaxşı çatır, ömrün düsturuna çevrilir sevgi. Tərif verirsən ona (düstura çevirirsən). Qaydalaşır ömür.

Sevgi – içmədən keflənmək, yatmadan yuxulu olmaq, işləmədən yorğunluq, xəstələnmədən ürəyin ağrıması, səs çıxarmadan nalə, fəryad. Bu keyfiyyətlər idi Romeo varlığının bəlirləndiricisi. Sevgidə mənliyin bir hökmdarı olur. Sevgi elə bir hökmdür, o hökmə qarşı direniş olumsuzdur. Sevgiyə qəsd eləmək, onu aradan qaldırmaq olası deyil. Əlac yalnız hökmə boyun əyməkdir. Sevgi könül adlanan ölkənin padşahıdır. Könül ölkəsinin sakini onun (könlün) əmrindən qıraqda yaşaya bilməz. Ancaq bu hökmdarın işgəncəsi çox amansız olur – ürəyi sanki çarmıxa çəkir, onu daim odsuz, ocaqsız yandırmaqla uğraşır. Bu hökmdar heç bir tələbə, xahişə, minnətə əməl etmir. Öz hökmünə tabe etdirməkdən başqa əməl tanımır.

- ***"Ah , öyrət mənə, bu unutmağı öyrət!"*** *(Romeo)*
- ***"Öz gözlərinə tam sərbəstlik ver, başqa gözəllərə bax, həm də diqqətlə bax."*** *( Benvolio)*

Aşiqdə göz ürəyin tabeliyində olur. O, ürəyin hökmü olmadan baxa bilmir. Ürəksiz baxanda isə başqalaşır – kor baxır. Ona görə də görmür. Göz ürəyi aldada bilməz, göz ürəyə minnət edə bilməz. Göz ürəyin istəmədiyini ona verə bilməz. Gözün öz istəmədiyi yoxdur – onun istədiyi ürəyin dediyidir. Göz ağıl gücü ilə baxanda belə görmür. Çünkü ağıl ürəyin oduna qarşı çıxa bilmir. Benvolio baxmaq öyrədirdi. Çünkü sevmirdi.

- ***"Sən gəl mənə dünyanın birinci gözəlini göstər. Mən ona baxdıqca yalnız onu görəcəyəm ki, sevgilimin gözəlliyi qat-qat artıqdır".*** *(Romeo)*

Romeo ürəyi ilə baxırdı. Ona görə gözünə başqa gözəllər görünmürdü. Bütün dahilərin uğraşdığı məsələ insanın içsəl dünyasında baş verib. Eləcə də Şekspirin. İnsanın içsəl qüdrəti möcüzələr yaratmağa, göstərməyə sonsuz olanaqlıdır. Aşiq arı olur, səmimi olur. Eşq anında ürəkdə eşqdən başqa duyğu olmur. Qorxu ilə üz-üzə qalanda belə aşiqin yadına qorunmaq düşmür. Eşq meydanında ağıl işləmir. Romeo dostu ilə düşmən evində olduğunu unudur. Bu məqamda o anlamır ki, sevgilisi Cüliettanın atası ilə öz atası qanlı düşmənlərdir. Dostu onu şübhə oyatmamağa çağırır, Romeo bacarmır.

***- "Yox, əzizim Romeo, sən necə olsa, rəqs etməlisən."*** *(Merkusiyo)*
***- "Yox, bacarmaram. Axı sizin başmağınız yüngüldür. Amma mənim ürəyimdəki dərd qurğuşun kimi asılmışdır. Bu dərd məni hərəkət etməyə qoymur."*** *(Romeo)*

Sevgi adamın içini "ağırlaşdırır". O elə bir yükdür, o yükün altında adam sərbəst, çevik hərəkət etsə, sanbalsız görünər. Ürəyin yükü xarakterə ciddilik, sanbal gətirir. Bu yükün ehtiraslı, çılğın etkiləri

əllərdə, ayaqlarda deyil, ürəyin özündə əksini tapır. Ürək özü qanad çalır sanki. Ürəyin qanadını aşiq özü görə bilər yalnız. Aşiq olmayanlar ürəyin qanadına inanmırlar.

Sevgi aşiqlərə fəlakət gətirir. Həyata sədaqət, səadət. Nə yazıqlar həyatdakılar bu sədaqəti, səadəti fəlakətin üzərində anlayırlar. Aşiqi eşqinə görə həyatda heç kim alqışlamır. Çox zamanlar keçəndən sonra anlayırlar, aşiqin ömrü uca ömür imiş. Toplumdakı bu anlamsızlıq Romeo taleyində faciə yaratmaq biçimində özünü göstərir. Romeonu sevgidən əl çəkməyə zorlayırlar. Çünkü düşmənçilikdən əl çəkə bilmirlər. Romeonun sevgisini qəbul eləmək düşmənçiliyi aradan qaldırmaq deməkdir. Düşmənçilik etkisində yaşayırlar. Bu səbəbdən də sevgi ilə, sevgililərlə döyüşməli olurlar. Romeo sevgisinin danılmasında amansız düşmənçiliyin təsdiqi yaşayır. Romeo sevgiyə sadiq qalır, düşmənçiliyi yenir. Sevgili ölür, sevgi ölmür – düşmənçiliyi öldürür. Romeo ölməyi bacarır, çünkü sevir. Çünkü sevgi ölməzlik deməkdir. Sevgili olmaq – ölümsüzlüyü sevməkdir.

İnsan dünyaya gəlir ki, mahiyyətindəkini görsün. Kor gəlib kor getmək ölüm kimi bir şeydir. İnsanı mahiyyətindən ayırmaq onu öldürmək deməkdir. Romeonun mənliyini öldürə bilmirlər. Çünkü o, fiziki ölümü seçir. Sevgisizliyə zərbə vurur. Əslində düşmənçilik də sevgisizlikdən yaranır. Romeo ölümü – sevginin düşmənçilik üzərində qələbəsidir. Bu qələbənin mahiyyətində Cülietta mənliyi ilə Romeo mənliyinin birliyi təsdiq olunur...

## Həyatdan üstün yaşamaq axtarışı

**(İ.S.Turgenevin "Atalar və Oğullar" kitabı üstə düşüncələr)**

Turgenevin bu əsəri həyata obyektiv yanaşmanın insani bir durumunu göstərən sənət örnəklərindəndir. Aydın mühakimələr, bədii, assosiativ çalarlar oxucunun qarşısında düşüncə səhifələri açır. Turgenevin obrazları da yaradıcı obrazlardır. O bu obrazları vasitəsiylə dövrün ənənəvi xüsusiyyətlərini, ictimai psixologiyasını görmək, dərk eləmək imkanı yaradır. İnsanların həyatla, mühitlə əlaqələrini dolğun biçimdə izah etməklə adamın gözləri qarşısında canlı səhnələr

açır. Biz obrazların qarşılaşmasında, dialoqlarında onların davranışlarını, jestlərini, hətta üzlərinin cizgilərini, boylarını, geyimlərini aydınca təsəvvür edirik. Bu isə yaradıcıda estetik duyğuların idealla təmasda olduğunu sübut edir. Turgenev həyatı sevir, ancaq gerçəkliklə əsilliyin əlaqəsi onu qane etmir. Ona görə də bu obrazları vasitəsilə əslində sevdiyi həyatı axtarır. Öz oxucusunu da bu axtarışa qoşur. İlk epizodlarda Turgenev həyatın təbii gedişlərinin dialektikasını verməklə yanaşı, ictimai inkişafın təbii gedişlərdə öz rolunu hansı səviyyədə göstərməsini də izah etməyə çalışır.

Söz yox, düşüncələr mühitin tələblərinə uyuşmayanda, daha doğrusu, mövcud mühitin tələbləri yeni düşüncə ilə səsləşməyəndə ictimai yeniliklər baş verir. Ancaq bu yeniliklərin – həyatı hansı yöndə dəyişikliyə uğratması düşüncələrin doğruluğundan, ya da ziddiyyətliliyindən asılıdır. Müəllif dövrün ictimai ortamında ortaya çıxan düşüncələri süni şəkildə doğru göstərməyə meyil eləmir. Çünkü süni cəhdlər, ən yaxşı halda, sxematik, standart baxış yarada bilər. Bununla bədii fantaziyalar güclənsə də, əməli münasibət, məqsəd bəlirliyini itirə bilər. Bu isə, dediyimiz kimi, müəllifin öz axtarışlarına sadiq qalmaması demək olardı.

Əsər başlanğıcından axırına qədər olayların dinamikliyi ilə, obrazların fəal çəkişmələri ilə izlənilir. Burada həm rahatsız, həm də ahəngdar münasibətlər canlı həyat lövhələridir...

Nikolay Petroviçin öz oğlu Arkadini qarşılama səhnəsi əsərin mənalı bir axara başlamasını nişan verir. Öz atalıq duyğusu ilə qürurlanan Nikolay Petroviç oğlunda özünə qarşı arxa, dayaq görür. Bununla belə, o anlayır ki, tələbə oğlu artıq yeni mühitə düşüb, yeni düşüncələrlə, yeni dünyagörüşlərlə təmasda olub. Odur ki, yolboyu oğlunun olmadığı vaxtlarda kənd həyatından danışarkən, birgə yeni işlər görmək arzusunu bildirərkən: “biz indi gərək bir-birimizdən möhkəm yapışaq, bir-birimizi lap yaxşıca tanıyaq” deyir. Bu vaxta qədər onun böyütdüyü, öyrətdiyi Arkadi vardı. İndi müstəqil düşüncəli, yeni təsəvvürlü Arkadi var. Bu Arkadini Nikolay Petroviç tanımır. Çünkü indiyə qədər onlar cismani doğmalıq, birgə yaşayış qaydaları əsasında ömür sürüblər. Bu isə bioloji həyatdır. Bioloji həyatda insanlar bir-birini üzdən tanıyır, ruhani mənada tanımır. Öz doğma-

sının ruhunun nəyə kökləndiyini incələməyib, içində hansı nəğmələrin oxunduğunu dinləməyib. Həyat isə kəşflər seriyasıdır. İnsan dünyanı görsə də onu tanımaya bilir. Hətta insan öz atasını, anasını, öz balasını belə tanımadan yaşayır. Bu, insanın bioloji həyatdan üstün ola bilməməsinə görədir. Ömrü boyu bir evdə yaşaya-yaşaya insanlar bir-birini tanımırlar. Bu gediş yaşanan ömrü dəyərsiz etməkdir.

Arkadi öz kəndinə tək gəlmir. Onun qonağı da var – dostu Bazarov. Əslində əsərdə hadisələrin canlılığı, fəallığı Bazarovun hər şeyi, hamını özünəxas bir inadla inkar etməsindədir. Elə əsərin leytmotivi də bu inkardadır. Bu inkar Bazarovda hədsiz dərəcədə sərbəstliyin, müstəqilliyin olması ilə ifadə olunur. Elə buna görə də ev yiyələrindən biri – Nikolay Petroviçin qardaşı Pavel Petroviç bu qonağı arzuolunmaz adam kimi qəbul edir. Bazarovun xarakteri Pavel Petroviçin əyan xarakterinə, dvoryan mühitinə ziddir. Bütün bunlar öz yerində. Bizi düşündürən başqa bir məsələ də həyatda insanın qonaq anlamına münasibətidir. İnsanlar qonaqsevərliyi bacarır, ancaq çox uzun sürən qonaqlığa dözmürlər. "Qonaq" sözü özlüyündə ağır yükdür. Qonağa qarşı hər an diqqət, qayğı yetirmək gərəkdir. Üstəlik insanlar diqqəti, qayğını rəsmiləşdirəndə, qayğını qonağın özünə anladacaq qədər qabardanda daha ağır, daha çətin olur. Ona görə də tez yorulurlar. Çünkü bütün bu rəsmiyyət ailəni öz mühitini dəyişməyə vadar edir. Hər davranış, giriş-çıxış, danışıq tərzi təntənəli şəkildə yeniləşdirilir. Bu isə ailənin sərbəstliyini məhdudlaşdırmaq deməkdir. Bu cür məhdudlaşdırmalar uzandıqca əhvallara yoruculuq, üzücülük gəlir. Söz yox, bu yorulmanın bir səbəbi də qonaqla doğmalaşa bilməməkdir. Qonaqla ev mühiti arasındakı rəsmiyyət sınırı aradan qalxmırsa, yadlıq yaranır. Yadlıq getdikcə ərki, etibarı azaldır...

Bizim məqsədimiz əsər boyu bütün hadisələri izləmək deyil. Ayrı-ayrı epizodlara münasibət bildirməklə aldığımız təəssüratları bölüşməkdir.

Nikolay Petroviçin özünə qeyri-qanuni arvad elədiyi Feniçkaya Arkadinin səmimi münasibəti də maraq doğuran epizodlardandır. İlk çağlarda atası elə güman edir ki, Arkadi bu addımına görə ondan üz

döndərə bilər, ya da ən azı onu danlaya bilər. Ancaq münasibət onun duyduğunun tərsinə baş verir. Arkadinin: "ata, gərək sən onunla kəbin kəsdirəsən" deməsi, ata-oğul söhbətində möhtəşəm bir həyəcan yaradır, onlar qucaqlaşırlar. Bu məqamda Pavel Petroviçin içəri girməsi, söhbət mövzusunun dəyişməsi həm atanın, həm də oğulun ürəyincə olur. Çünkü insanlar həya məsələlərində bir-birini anlamalarına baxmayaraq, o məsələni mövzuya çevirməyi arzulamırlar. Məsələ mövzuya çevriləndə anlayışla yanaşmağın yaratdığı həyəcan tədricən əriyir. Bəlli pərdələr aradan qalxa bilir. Bundan sonra adilik başlayır, hətta qabalıq da görünə bilər. İnsanlar intuitiv olaraq bunu duyurlar. Ona görə də həya məsələsini geniş sözlə deyil, əməli davranışlarda ifadə edirlər.

Əsərdə bizim düşündüyümüz məsələlərdən biri də dördlüyün (Nikolay, Pavel Petroviçlər, iki dost – Arkadi ilə Bazarov) arasında baş verən söhbətdən qaynaqlanır. Bayaq qeyd elədiyimiz kimi, Bazarovun istənilən sərbəstliyi Pavel Petroviçin qüruruna zərbələr vurur. Bu durumu biz iki dostun otaqdan ayrılmasından sonra Petroviç qardaşların söhbətindən də aydın duya bilirik. Pavel Petroviçin dili danışsa da üzünün tam ifadəsizliyi qorxunc düşüncələrin yetişməsindən soraq verir. Bunu Turgenev elə izah edir, istər-istəməz insanın iç dünyasında gizlənən fəlakətlərin həyatdakı münasibətlərə ziyan gətirəcəyini öncədən aydınca görürük. Adamların içsəl aləminin bu cür anormallığına həyatda çox tez-tez rast gəlmək olur. Adam öz mənliyini uzaq bir xəyalın dalınca göndərib başqası ilə söhbət edəndə həyat son dərəcə cansız, quru, soyuq məzar mühitinə bənzəyir. İstənilən bir fərd kiməsə öz içində acıqlı, kinli münasibət haqqında düşünürsə, başqası ilə edəcəyi söhbətdə yaxşı ovqat, səmimi əhval yarada bilməz. Ruhsuz davranış heyvani xislətin təntənəsinə çevrilir. Ehtiramsız, nəvazişsiz münasibətlərin hamısında həyat öz mənasından ayrılır. Ölülüyün izlənməsində varlığı dərk eləmək olmaz. Ona görə də insan varlığı dərk eləmək istəyəndə gərək həyatı öncə öz içində diriltsin. Onun, həyatın mənası ilə təması öz içində başlayır.

Əsərdə ölümə münasibət də özünəxas xarakterlə verilir. Həm duel məsələsini, həm də Bazarovun xəstəlikdən ölümünü Turgene-

vin təkcə yüksək sənətkarlığı ilə izah etmək azdır. Bizə görə, burada dərin bədii təhlil əsasında uğurlu bir zəkanın dərk elədiyi həqiqət çalarları üzə çıxır. Şübhəsiz, istənilən halda, duel antiinsani bir hadisədir. Məsələ burasındadır ki, bu antiinsani bir hadisənin həyatla əlaqəsini, insanın mənliyinin, duyğularının öz instinktləri ilə bağlılığını Turgenev müdrik bir ustalıqla izah edir. Duele gedənlərin bir-birinə qarşı yüksək mədəniyyət nümayiş etdirməsi, habelə ölümə böyük bir təmkinlə hazırlaşmaları adamda heyrət oyadır. Biz bir-birini öldürməyə hazırlaşan insanların heç bir həşirli, emosional, hikkəli davranışlarının şahidi olmuruq. Çünkü onlar dərk edirlər ki, bu elə-belə hədə-qorxu deyil. Real, labüd ölümdür.

Bazarov Pavel Petroviçi yaraladıqdan sonra silahı atır, özünü onun üstünə salaraq, “mən artıq bir həkiməm” deyir. Bu hal insan dünyasının qəribəliyini, sonsuzluğunu ifadə edir. Turgenev bizə məsələnin təkcə bu cəhətini deyil, başqa cəhətlərini anlamaqda da yardımçı olur. Adamlar bir-birinə qarşı kin duyğusunu öldürə bilməyəndə bir-birini öldürürlər. Kinləri soyuyur, ancaq ortadan qalxmır. Yenə baş qaldıracaq, yenə ölüm törədəcək, yenə qatilə çevirəcək kin duyğusu. Həyatı kin çalxalayır. Bu, heyvaniliyin doğal halıdır, insaniliyə meydan oxuyur. Bəzən idrak adamları, elm, düşüncə adamları belə, bu heyvani xislətin öhdəsindən gələ bilmirlər. Kin duyğusuna şərəfi, qeyrəti, kişiliyi qorumaq donu geydirib qatillik edirlər. İnsanı öldürmək özündəki heyvani duyğunu öldürməkdən asan görünür. Asanlığı seçirlər. Ancaq bu asan görünən əməl daha böyük duyğuların ölümü ilə başa gəlir. Məsələn, vicdan, təmkin, humanizm, ləyaqət duyğularının ölümü hesabına qatil olmaq olur. Nə yazıqlar, adam insani duyğuları heyvani duyğulardan asan öldürə bilir. Çünkü insan mahiyyətindən qıraqda yaşayır. Başqa sözlə, ən çox biolojiliyin üstünlüyünə boyun əyib yaşayır. Əslində kin elə biolojiliyin doğurduğudur. Həyat uğrunda döyüşün, həyatı qamarlamağın bir parçasıdır. Bu məsələdə adama onun ictimai mövqeyi də ziyan verir. Məsələ burasındadır ki, ictimailik də ən çox biolojilik əsasında formalaşır. Yəni hamının bir-birinə fərdi münasibəti, ümumi qayda bioloji ictimailikdir, ruhani nizam deyil. Duel də ümumi qaydaya aid olduğu üçün doğal qarşılanır.

Mən, bir oxucu olaraq, Pavel Petroviçin Bazarova duel təklifini oxuduqca həyəcanlanmağa başladım. Ürəyimin daha bərk, şiddətli döyündüyünü duydum. Düşündüm ki, mənim yaşadığım indiki dövrdə duel yoxdur. Bəlkə ona görə mənə sərt, amansız göründü. Ancaq anladım ki, mən ruhaniyyatla uğraşdığım üçün belə münasibətlər mənə doğal görünmür, pis etki göstərir. Ruhaniyyat üçün insan həyatı dövrə bölünmür, zamana ayrılmır axı.

İlk baxışdan adama elə görünə bilər ki, Pavel Petroviç bu duel təklifi ilə ailənin namusunu qoruyur (Bazarovun Feniçkanı öpməsinə görə). Əslində isə bu namus məsələsi Pavel Petroviçin içində Bazarova qarşı üst-üstə yığılmış acıqlı, kinli münasibətə bir bəhanə idi. Burada duel namus üçün baş vermir, namus duel üçün vasitə olur. (Ona görə də həyatda namusçuluq təsdiq olmur). Namus qorunmaq əvəzinə oynadılır. Belə götürəndə Feniçkanı qeyri-qanuni arvad eləməyin özü namussuzluqdur. Onu dvoryan mühitində, rəsmi qaydalarla, qorxu altında saxlamaq, ona malı kimi baxmaq, onu hər cür müstəqillikdən məhrum eləmək özü namussuzluqdur. Yəni namus Bazarovun Feniçkanı öpməsi ilə deyil, buna qədər zədə götürmüşdür. Namus zədələrinin yaratdığı qapalı mühit Feniçkada öpüşə qarşı müqavimətsizlik halı yaratmışdır. Başqa sözlə, Feniçkanı Bazarovda azadlıq axtarmağa sövq etdirmişdir.

Nəhayət, Pavel Petroviçin içində yığılmış kinə özünün Feniçkaya meyli yekun vururdu. Məsələnin əsil mahiyyəti də burada aydınlaşır. Deməli, üzdə namusu qorumaq görüntüsü içdə namusla oynamaq gedişlərinin üzə çıxmasına sonralar mane ola bilməyəcəkdi. Necə ki, mane ola bilmədi də. Öz qardaşının qeyri-qanuni arvadına qarşı gizlin münasibəti bəlli edir ki, duel heç də namusu qorumaq cəhdi deyildi...

Əsərin ən spesifik cəhəti Bazarov xarakterinin özünə xaslığı ilə dəyərlənir. Bazarov qəti, ardıcıl inkar yolu seçir. Ancaq Bazarovun inkarında həqiqət yoxdur. Çünkü inam yoxdur. Mütləq inamsızlıq var. O öz içində yaranan məhəbbəti də inkar edir – əslində özünü inkar edir. Bazarovun inkarı gerçəkliyin tələbindən doğurdu, İdeal tələbindən gəlmirdi. Həyatda gördükləri mənasızlıq idi. O da buna əsaslanırdı. Həyatda tapa bilmədiyini heç özündə də tapmırdı.

Hamıya qarşı çıxırdı. Ancaq heç nəyi təsdiq eləmirdi. İnkarın bir başında təsdiq durmursa, o yanaşmanın boş, anlamsız olduğunu ifadə edir.

Toplum saxta yaşayırdı. Bazarov bu saxtalığı qəbul eləmirdi. Ancaq əsillik tələbində də yaşamırdı. Hamı gələnəksəl düşünürdü, rəsmi davranırdı. Bazarov bu gələnəksəlliyə, rəsmiliyə qarşı çıxırdı. Ancaq gələnəksəlliyi  dəyişməyə gücü, sözü yox idi. Ən böyük sözü inkar idi. Ən böyük məqsədi inkar idi. Həyatda özünü tapa bilmir, ona görə də içində baş qaldıran məhəbbət duyğusuna qəsd edir.

Heç kim onu anlamırdı, o da heç kimə anlada bilmirdi. Çünkü bilmirdi nəyi anlatsın. İnkarın təsdiqi də olmayanda onu qanmaq olmur. Hərçəndi ayrı-ayrı adamlarda ona qarşı meyil də yaranırdı. Bu meyil Bazarovun fərqli düşündüyü üçün, fərqli davrandığı üçün yaranırdı. Fərqi görəndə ya kortəbii, ya da şüurlu şəkildə adamlarda eyniliyə qarşı, ümumiliyə qarşı ikrah duyğusu yarana bilər. Bununla belə, bu fərq heç bir canlı dəyişikliyi ifadə eləmirdi.

Bazarovun avtoritetlərdən zəhləsi gedirdi. Ancaq onun özü getdikcə avtoritetə çevrilirdi. Əslində Bazarovun inkar elədiyi rəsmi avtoritet idi, yəni imtiyazın, səlahiyyətin yaratdığı süni, uydurulan avtoritet.

Bazarovu avtoritetə çevirən fərqli davranmasıdır. Fərqlilik vahid-lik, tənhalıq demək olur. Avtoritet də tənhalıq deməkdir. Hərçənd Bazarov təkcələri, tənhaları də təqdir eləmir. Bu isə dediyimiz kimi, qəti inkardır. Həyat qəti inkarda tərəqqiyə çatmaz. Həyatdakılar sürüləşər.

Bazarov ölümü saymırdı. Çünkü həyatı sevməmişdi. Bazarov ölümdən qorxmurdu, fəqət ölməzliyi də tanımamışdı. Varlığı təsdiq eləyən də ölümü saymaya bilir, varlığa biganə olan da.

Bazarov ziddiyyətlidir. Həm var, həm də yoxdur. Var, çünkü özünü bütün topluma qarşı qoyurdu. Yoxdur, çünkü ən yüksək duyğuları belə tanımırdı. Bazarov həm güclüdür, həm zəif. Güclüdür, çünkü düşdüyü mühiti silkələyirdi. Zəifdir, çünkü mühitə ruh verə bilmirdi.

İnkar Bazarovun xarakterində idi. Arkadi isə öz təbiətinə qarşı gedərək özünü onun kimi olduğuna inandırmağa çalışırdı. Arkadi –

Bazarov sehrinin cazibəsində yaşayırdı. O özü deyildi. Onun çıxış yolu o idi ki, ya Bazarovluğu xarakterinə çevirməlidir, ya da Bazarovdan imtina eləməlidir. Hərçəndi Arkadinin məsum duyğuları daha güclü idi. Birləşdirə bilmirdi dostu ilə duyğularını.

Bazarovun xarakterinə bəlli tellərlə bağlı olan Anna Sergeyevna xarakteri idi. Ancaq Anna Sergeyevna, Bazarovdan fərqli olaraq, həyatın doğal gedişlərinə qarşı çıxmadan, özünə xas yaşamağa üstünlük verirdi. Bununla belə, həyatın doğal gedişi nə Bazarovu xoşbəxt edirdi, nə də Anna Sergeyevnanı. Elə onların faciəsi də onda idi ki, mövcud həyatı da qəbul etmirdilər, bu həyatdan fərqli həyat da tanımırdılar.

Turgenev ictimai mürəkkəbliyi, gerçək həyatın bəsitliyini, həyatdan artıq olana meyli özünün dərin axtarışları ilə işıqlandıra bilmiş, həqiqət axtarışlarını məhəbbətlə elan edə bilmişdir. Düşüncəmizə görə Turgenev bu əsəri ilə dünya ədəbiyyatının azları arasında özünə ədəbi pillə seçmişdir.

## Zəkanın demədikləri

***(Fridrix Nitşenin "Antixrist" kitabına yönəlik düşüncələr)***

Bu günlərdə Fridrix Nitşenin "Antixrist" kitabını oxudum. Kitabın dilimizdə hazırlanmasında əməyi olanlara saygımı sunuram. Ancaq həm də ərk edib irad bildirmək istəyirəm. Nə çevirən, nə də redaktor yerində olmayıb. Sətri çevirmə olduğundan məzmun o qədər dolaşır, düşüncələri tutmaq çətin olur. Cümlələr uzun, cümlə üzvləri bir-birinin yerinə keçir. Bir sözlə, kitab oxunaqlı durumda deyil. Bununla belə, çətinliklə olsa da, kitabı oxudum. Nitşsenin başqa kitabını, yazılarını da oxuduğum üçün üslubunu, fəlsəfi hədəflərini tanıyıram. Oxudum, bəhrələndim, ancaq həm də rahatsız oldum. Nitşe zəkalı alimdir. Bir sıra zəka yiyələri kimi onun da qabaqcıl düşüncəli insanlara etki göstərmək imkanları vardır. Nə yazıqlar, bir sıra qələm adamları qıraqdan gələn ədəbiyyatların əyrisini, doğrusunu araşdırmadan təbliği ilə uğraşırlar. Öncələr də yazmışıq, dünyada geniş yayılan, iz buraxan ədəbiyyatları dilimizə gətirib oxucuların ixtiyarına

vermək maarifçilik işidir. Ancaq biri var, bədii ədəbiyyat, bir də var, fəlsəfi, ideoloji ədəbiyyat. Bədii ədəbiyyatları hər kəs oxuya bilir, fəlsəfi, ideoloji ədəbiyyatları isə yalnız düşüncə adamları, elm adamları oxuyur. Bu cür ədəbiyyatların üstündən gözüyumulu keçməyi doğru saymırıq. Onlar araşdırılmalı, ciddi öyrənilməli – milli-insani açıdan baxış sərgilənməlidir. Düşüncələrə zərəri nə, xeyri nə – bəlirlənməlidir. Bu cür ədəbiyyatlar milli-mental şüurun gəlişməsində, dəyişilməsində rol oynaya bilirlər. Genel götürəndə toplumsal yaşamın (ictimai həyatın) nizamında iz qoya bilirlər. Doğrudur, Nitşenin bu kitabı xristianlığa baxış açısından yazılıb. Ancaq mənəvi anlayışlara qarşı elə ikrahla, nifrətlə danışır, sanki bu dəyərləri xristianlıq icad edib. Əgər xristianlığın yaratdığı mənəvi ölçülərin doğru olmayan, ya da doğru saymadığı etkilərinə hücum etsəydi, hardasa anlamaq olardı. O, genel olaraq "İnam", "əxlaq" anlayışlarını insanın güclənməsi yolunda əngəl sayır. Burada kitabdan bir alıntıya baxaq: ***"Hər növdən olan inam özündən üzdöndərmənin, özündən yadlaşmanın ifadəsinin özüdür."***

*(F. Nitşe. "Antixrist". Qanun nəşriyyatı-2013. səh. 139).*

Baxın, burada o, xristianlığın inamından deyil, genel olaraq "İnam" anlayışından danışır. İnanmağı insanın zəifliyi sayır. Biz İnamı İnsanlığın ən yüksək keyfiyyəti sayırıq. Söz yox, gözüyumulu inamı, Asif Atanın sözüylə desək, naşı inamı İnam saymırıq. İnam yüksək idrakilik səviyyəsində müdrikləşir, həqiqətin varlığına sağlam münasibəti təsdiq edir. İnam – İdrak yoludur. "İnanmasan dərk etməzsən" deyir Asif Ata. İdrakla doğmalaşan inam insanın zəifliyi kimi deyil, qüdrəti kimi üzə çıxır. Azadlığın özülündə də İnam durur. Azadlığa inam olmasa, Azad olmaq özünü doğrultmaz.

Başqa bir yerdə yazır: ***"Əqidə – türmədir. Bu olanda ətrafı kifayət qədər uzaq görmürsən, özünün altını görmürsən: amma dəyərlər və qeyri-dəyərlər haqqında danışmaq üçün isə gərək öz altında, öz arxanda beş yüz əqidə qoymuş olasan".*** *( həmin kitab. səh. 138.)*

Bu deyilişdə stoisizmlə volyuntarizmin məntiqi sanki bir-birinə qarışıb. Heç bir əqidəyə qoşulmamaq çağırışı ilə fərdi iradənin heç bir mənəvi sınır tanımaması baxışı çulğaşıb qarışır. Bunu da Nitşe

şəxsiyyət üçün doğru yol sayır. İlk baxışdan onun deyimləri çox çəkici görünür. Başqalarının yaratdığı İnam-İdrak sisteminin içinə girmək – bağımsızlığın itirilməsi kimi qavranılır; Ömrün sxemləşməsi kimi anlaşılır; Başqasının yedəyində yaşamaq kimi bilinir. Söz yox, istənilən ideyavericinin çağırışına gözüyumulu "hə" deməyi biz də doğru saymırıq. İstənilən bir düşüncə, çağırış araşdırılmalı, dərk olunmalıdır. Ancaq istənilən halda, ideyanın həqiqətmi, həqiqətsizlikmi olması insanın halına, duyğularına, idrakına etki göstərib aydınlaşa bilir. İnsanda ya inamı oyadır, ya da şübhəni. İnam da bütövləşib təsdiqini tapa bilər, şübhə də. Bu təsdiqdən asılı olaraq (inammı baş tutur, şübhəmi), çağırış ya qəbul olunur, ya da rədd olunur. Ancaq qəbul eləmək – asılılığa düşmək, rədd eləmək isə volyuntarist olmaq anlamına gəlməz. İnsan həqiqətlərə yetəndə, özünü tapanda əqidəli olur, özünü itirəndə, asılılığa düşüb axtarışlardan vaz keçəndə əqidəli olmur. Əqidə yol deməkdir, dala-qabağa vurnuxma deyil. Əqidə insanı vasitəyə çevirmir, özünə doğmalaşdırır, yüksək varlıq olduğunun həqiqətlərini ona öyrədir. Öyrətmirsə, o əqidə deyil, əqidə şəklinə salınmış oyundur. Bizə görə Nitşe bu tip məsələlərə bircəhətli yanaşır, ona görə də baltanı kökündən vurur: ***"İnanan adam özünə məxsus deyil, bu adam gərək istifadə oluna, o özünü istifadə edə biləcək hansısa bir kəsə möhtacdır. Onun instinkti özünüinkar əxlaqını hər şeydən yüksək tutur..."*** *(həmin kitab. səh. 139)*

Nitşe inama zəifliyin tələbatı kimi baxır. İnamlı insanı zəif, şüursuz, yalnız kor instinktlərlə yaşayan varlıq sayır. Necə amansız səslənir! Burada o, insana toplumun doğal (təbii) durumundan baxır. İnsanın mənəvi kamilliyi danılır (inkar olunur). Nitşenin məntiqinə görə hamı bir-birini aldadır, hər kəs öz çıxarı üçün başqasını inandırmağa çalışır. Ona görə kiməsə inanmaq yolverilməzdir. Deməli, istənilən halda, insanın inanması qullanılması (istifadə olunması) anlamı daşıyır. Bu məntiq – siyasət üçün, eləcə də dinlərin yalan üzərində inandırmaq istəmələri üçün deyilərdisə, yenə də anlaşılan olardı. Ancaq Nitşe hər cür insani duyğuların varlığını güclü insan olmaq yolunda əngəl görür. Əslində insanı güclü edən "İnam",

“mənəviyyat”, “əxlaq” anlayışlarıdır. Nitşe bu anlayışları dinin qullandığı yalançı araclar (vasitələr) sayır.

Belə götürəndə Nitşenin xristianlıqla bağlı bir çox danmaları (inkarları) doğrudur. Ancaq nələri təsdiq edir, ya da təsdiq edirmi?! – Edirsə də təsdiqləri ya çox sönükdür, ya da doğru deyil. Bunu biz kitabın ayrı-ayrı faktlarında, eləcə də faktların izahlarında görürük. Biz bu yazıda xristianlığın, genel olaraq dinin doğru olmayan çalarlarına Nitşenin yanaşması ilə səsləşən düşüncələrimizi sərgiləmək istəyirik. (Xristianlığın Tolstoyun görümündə ayrı-ayrı üstün çalarlarını “Həyatın anlamı görünəndən artıqdır” yazımızda vurğulamışıq). Bundan öncə bir məsələni də vurğulamaq yerinə düşər. Nitşe xristianlığın yalanlarına baxış sərgilədikcə İsaya, eləcə də onun apostollarına aşırı dərəcədə alçaldıcı (təhqiredici) yanaşır. Bizə görə bir düşüncə adamının belə yanaşma sərgiləməsi insanca deyildir. Eyni halda, bəlkə də, daha çox, yalanlara bəraət verməkdir. Çünkü bir çox hallarda oxucu söyülən, aşağılanan adamın yalanlarının üstündən keçməli olur. Ağlında, xəyalında söyülənə qarşı mərhəmət duyğuları baş qaldırır. Axı hamı bütün oxuduqlarına yüksək yaradıcılıqla yanaşmır...

İndi keçək Xristianlığın yanlışlarına yanaşmaların bəzi çalarlarının aydınlaşdırılmasına.

Kitabın 64-cü səhifəsindən belə bir alıntıya baxaq: ***“Tanrının iradəsi” ( yəni kahinin hakimiyyətinin qorunub saxlanmasının şərti) bəlli olmalıdır – bu məqsədlə vəhy zəruridir”.***

Nitşe burada kahin dedikdə İsa peyğəmbəri, eləcə də onun davamında olan apostolları gözə almışdır. Bu deyilişə biz İslam peyğəmbərini də özgün edə bilərik. Allaha boyun əymə, əydirmə – əslində öz hakimiyyətinə, iradəsinə boyun əydirmək idi. Tanrıya qul olmaq adı altında özünə qulluq yaradırdı – öz hakimiyyətinə, ərəb hakimiyyətçiliyinə. Belə götürəndə insanı qul adlandırmaq özü eybəcərlikdir – balacalığı, cılızlığı, quldarlığı yaşatmağın şərtidir. Peyğəmbər iyrənməli olduğu sözə (“qul” sözünə) müqəddəslik donu geyindirir. Sonra da insana acıqlanır, onu, mənəvi kamilliyə yüksəlmədiyi üçün suçlayır. Nitşenin göyel (səmavi) dinlərdən birinin yalanları üzərinə getməsi, əslində başqa göyel dinlərin də yalanları üzərinə getməsi

anlamı daşıyır (özü bunu elə qəbul eləsə də, eləməsə də). Çünkü bu dinlərin yalanları bir qaynaqdan başladığı üçün bir-birinə çox bənzəyir. Yalan yalandır, ona ayrıca qaş-göz düzəltməyə gərək yoxdur. Bu məsələlərə görə Nitşenin idraki əzmini alqışlamaq olar. O, burada Moiseyin (Musa peyğəmbərin) də mənəvi özbaşınalığına qarşı qınayıcı baxış sərgiləmişdir: ***"... Pedantizmlə ifadə olunub kahinin nəyə malik olmaq istədiyi, "Tanrının iradəsinin nədə olduğu", ona haqq ödənilməli olan böyük və kiçik nəzirlərə qədər (ətin ən dadlı yerləri də yaddan çıxarılmamışdı, çünkü kahin bifştekslərin təpişdiricisidir)... və həmin vaxtdan bütün həyat belə qurulur ki, heç yerdə kahinsiz ötüşmək mümkün deyil...".*** *(Nitşe. "Antixrist", səh.64. Qanun nəş.2013)*

Tövratda Musa ilə qardaşı Harun tez-tez Allahın adına, ayrı-ayrı heyvan növlərindən qurban kəsdirirdilər, çoxunu özləri mənimsəyirdilər. Nitşenin dedikləri Tövratdakı bu məsələlərə bağlıdır. (Burada Nitşe yalnız tamah məsələsinə toxunur, Rəbbin sərt, qəddar ağalıq ehtiraslarını qınamır. Çünkü Nitşenin fəlsəfəsi elə bu xarakteri təbliğ edir).

Bu cür qurbanlar, başqa biçimdə, İslamda da var. Üstəlik qənimətlər, mənimsəmələr Quranın bəlli "əl-ənfal" (qənimət) surəsində yer almışdır. Göyel peyğəmbərlərin tamahları sonralar öz ardıcıllarında – kahinlərdə, mollalarda davam elədi. Çağımızda da davam edir.

Qurbanlar kəsmək, bayramlar keçirmək nə anlam daşıyır, insan üçün nə deməkdir, bunun dərinliyinə varılmır. Bunu anlamaq istəyəndə isə qorxu mexanizmi işə düşür, "kafirlik" damğası ilə hədələmələr baş alıb gedir. Dində insanın bütün çabaları, ibadətləri, yalvarışları Allahın hökmdarcasına "hakimi-mütləq" olmasına qulluq edir. İnsan Allahın xoşbəxtliyini bayram edir. Başqa sözlə, din insana Allahın xoşbəxtliyini bayram etdirir. Bu bayramlardan insanın mənəviyyatına işıq düşmür, xoşbəxtliyi bircə addım belə qabağa getmir. İnsanın yenilgənliyini (məğlubiyyətini), mütilik şüurunu onun xoşbəxtliyi kimi aşılayır din. Sonralar da insanın yenilgənliyi üzərində çox amansız siyasətlər oluşduruldu. Elə götürək Azərbaycanı. Bolşevizm eybəcərliyi milli dövlətimizi devirdi (28 Aprel). Milli düşünər-

lərimizin soyunu məhv elədi. Özümüzə bunu bayram etdirdi. Özlərini də bizə "xilaskarımız" kimi sırıdılar. Min il öncələr şüurumuzun dəyişdirilməsindən, mənəviyyatmızın çökdürülməsindən doğan faciələrimiz davam edir, davam etdirilir. Dinlərin insana qarşı əzici ideyaları, daha doğrusu, yalanları birgəyaşayışın ruhani nizamına olduqca sarsıdıcı zərbələr vurdu. Hər cür nizam insanın kamilləşməsi (mənəvi böyüməsi) əsasında deyil, mütiləşdirilərək qorxudulması üzərində quruldu. Toplumu (cəmiyyəti), toplumsal (ictimai) nizamı diriltdilər, İnsanı öldürdülər. Ona görə toplum xəstə şüurla, xəstə psixologiya ilə yaşayır.

İsa toplumu xilas elədi, insanı xilas eləmədi. İnsana özünün (İsanın) istədiyi kimi yaşamaq öyrətdi – göylər padşahının qarşısında necə olmaq gərəkdirsə elə. Xəstə şüurla, "ovçı" (qoyun) səviyyəsində.

Eləcə də Məhəmməd, insanı xilas eləmədi, özünün istədiyi kimi yaşamaq öyrətdi insana. Qorxa-qorxa, yalvara-yalvara, əyilə-əyilə, ölə-ölə. Belə bir insan səviyyəsindən toplumsal nizam yaratdı. Məhəmməd yer planetində bəşər övladının yaşadığı yerdə İblisin olduğunu elan elədi, ancaq insanı İblisdən qoruya bilmədi. Çünkü Allah insanın yanında, varlığında olmadı, fövqündə, uzaqlığında oldu. İblis cənnətdən yer üzünə qovulandan sonra yer üzünü İblislik bürüdü. Hər halda, dinin məntiqindən doğan görsəniş budur.

Zərdüştdə döyüşkən Allah ideyası var idi – Hörmüzd adında. O, insan uğrunda döyüşürdü. Məhəmməddə isə döyüşkən Allah yox idi, hədələyən Allah var idi. İblisi insanın içinə buraxıb onu hədələyir. Bu haqda "İnsanlığın İnam Yolu", "Söz İşığı" kitablarımızda geniş yazmışıq. Ona görə qonunu burada davam etmirik.

Bu kitabda Nitşenin, haqlı olaraq, ələşdirdiyi ideyalardan biri də xristianlıqdan gələn "günah" ideyasıdır. Kitabdan alıntıya baxaq: ***"Kahincə təşkil olunmuş hər bir cəmiyyətdə "günahlar" psixoloji cəhətdən qaçılmaz olur: onlar hakimiyyətin faktorlarıdır, kahin günahlarla yaşayır, adamların "günah" etməsinə onun ehtiyacı var".***

*(F.Nitşe "Antixrist". Səh. 65. Qanun nəş. 2013).*

Bayağılaşmış ruhaniyyat sistemində bu məsələ olduqca düşündürücüdür. Din başçılarının, başbilənlərinin heç biri, fəlsəfi dillə desək, "yenidəndoğulma" səviyyəsində kamilləşmədilər. Ona görə insanı suçlu, qüsurlu, günahkar elan elədilər – "qüsursuz insan yoxdur" deyimi. "Qüsurlular", "günahlılar" içərisində din başbilənləri ağıllı, müqəddəs sayıldılar. Din yaradıcıları insanı kamilləşdirdikləri üçün deyil, Allahın onları seçdiyi üçün müqəddəsdirlər. Bu cür yanaşma müqəddəsliyi nisbiləşdirmək, anlamına tərs tutmaqdır. Bizə görə müqəddəslik – insani gəlişmə (inkişaf) yaratmaqdır. Yuxarıda da vurğuladığımız kimi, onlar insani gəlişmə yaratmadılar, toplumsal (ictimai) dəyişilmə yaratdılar. Doğrudan da, "günah" ideyası – insanı boyun əydirmək üçün idi. İsa da, onun davamçıları da bilməli idilər, insana günahkarlıq şüuru yeritmək – hakim təbəqələrə gərək idi. "Günah daşıyanları" yer hökmdarları cəzalandırıb özlərinə boyun əydirirdilər (tabe edirdilər). Hökmdar Allahın yerdəki nümayəndəsi kimi şüurlara otururdu. "Göydə Allah, yerdə hökmdar" deyilişi çağımıza qədər antiinsani etkisini qoruyub saxlamışdır. Bütünlüklə tabeçilik şüuru yaradırlar. Bunu, insanı heç eləməklə gerçəkləşdirirlər. Qanunlar da ona görədir, dinlər də, doktrinalar da. İnsanın mənəvi kamillik yolunu hər yöndən bağlayırlar. İnzibati yönəticilər də deyirlər, insan boyun əyməyəndə anarxiya yaranır, özbaşınalıqlar baş alıb gedir. Ancaq bütün bunlar sadə insan toplumu üçündür, yönəticilərin özbaşınalığı üçün deyil. Qanun hakim təbəqəyə məntiq də uydurur: "Mənə boyun əyin, sizi bir-birinizdən qoruyum. Ancaq məni sorğulamağa qalxmayın. Mən nə edirəmsə, sizi qorumaq üçün edirəm". Çağımızda da biz bunu hakim zümrənin dilindən eşidirik. Dağıdıcılıqları, talançılıqları insanı qorumaq üçün imiş... Bütün bunlar ruhaniyyat adına qurulan yalanların uzantılarıdır.

Xristianlıqda deyilir, Tanrı öz oğlunu başqalarının günahlarının yuyulması üçün qurban verdi. Hansı yöndən baxsan da, bu deyilişin içindən uğurlu məna çıxartmaq çətindir. İsa özünü Allahın oğlu olmasını elan elədi. Sonra bütün bəşəriyyətin Allahın övladı olmasını bildirdi. (Görünür, Allahın Adəmi palçıqdan yaratmasını, sonra özündən ona nəfəs verməsini gözə alır). Bu yazıdan öncə də biz yazmışıq: İsanın Allahın oğlu olmasını elan eləmək, görünür, insanın ilahi baş-

lanğıc olduğuna bir işarədir. Ola bilər, nə vaxtsa, kimsə İsanın Allahın oğlu elan olunmasını onun doğumu ilə bağlı qarışıq-dolaşıq bilgilərlə bağlamağa çalışsın. Yəni İsanın atasının kimliyi ilə bağlı kuşkuların üzərinə örtük çəkildiyini düşünsün. Belə ki, İsanın da bütövlükdə bəşəriyyətin də Allahın övladı elan olunmasını elan eləməklə tarixi sualın qapandığı düşüncəsinə gəlsin. Ancaq biz bu məsələni bunca bəsit, məişət səviyyəli bir qonu ilə qısıtlamağın (məhdudlaşdırmağın) yanlısı deyilik. Məsələyə fəlsəfi açıdan yanaşmaqla doğru olmayanlara daha yaxşı aydınlıq gətirmək gərəkdir. Biz burada Asif Atanın fəlsəfəsinə dayanıb məsələni başqa cür qoymağı önərərdik. Belə ki, bəşər övladını (İsa qarışıq) Allahın, yəni Mütləq olanın törəməsi kimi deyil, görsənişi, olaylaşması kimi düşünmək doğru olar. Törəmə – artım anlamı daşıyır. Allah (əslində Mütləq) artmır, çoxalmır, sabitdir. Mütləqin görsənişləri (təzahürləri) artır, çoxalır, Özü (Məna) sabitdir. Artan, çoxalan keyfiyyətcə dəyişir. Mütləq dəyişmir. Dəyişsəydi, adı "Mütləq" deyil, "Nisbi" olardı, kainat pozulardı. Nisbi olayların çoxalması Mütləqi keyfiyyətcə dəyişmir. Ancaq Allahın törəmə xassəsinin olmasını deməklə, əslində Onun Mütləqiliyi şübhə altına alınır. Bu yanaşmanı politeist yanaşma kimi də dəyərləndirmək olar. Poseydon Zevsin oğludur. Allahın oğlu da Allahdır. Bu məntiqlə yanaşanda Allahın oğlu İsa da Allahdır. Bununla da Allahlar çoxalır, Baxışın monoteist anlam daşıması gücünü itirir. "Tanrının öz oğlunu başqalarının günahı üçün qurban verməsi" deyimi də vurğuladığımız məsələni (burada politeizm qalığının yer almasını) bütünlüklə doğrulayır. Bütün aşamalarda Tanrı Adamabənzər qüvvə kimi çıxış edir. Həm də İsanın Tanrısı – atası adam kimi yanılan idi, uzaqgörən deyildi. Günahların yuyulmayacağını, ya da ortadan qalxmayacağını hesablaya bilməmişdi. Ona görə də qisas vəd elədi. Yəni başqalarına mərhəmət edib İsanı qurban verir. Heç kim bundan dərs götürmür. O da bəşəriyyəti qıracağını, az sayda düzəməllilərdən (əməli salehlərdən) yeni bəşər düzəldəcəyini vəd edir. (Bu deyilişlər adam xarakterinin göstəricisidir, davranışıdır. Belə Mütləq olmaz). Belə bir qorxulu gələcək vəd eləmək – İsanın xatirəsini də diriltmir. Hərçəndi İsanın çarmıxa çəkilməsindən sonra apostollar İsanı Allahın öz yanına apardığını bəyan elədilər. İsa ölməyib, yenidən qayıdacaq

dedilər. Onda belə çıxır, Allah "günahkarlar"a qarşı kələk işlədib – oğlunu qurban verən göstərib, ancaq verməyib, öz yanına aparıb. Bəlkə "günahlar" ona görə yuyulmadı, davam edir. Allahın kələyi baş tutmadı, istədi aldadıb "günahlar"ı ortadan qaldırsın, alınmadı. Allahın kələyi yer üzündə yeni kələklərin törəməsinə nədən oldu...

Ziddiyyətlərdən, yalanlardan din əmələ gətirdilər, yalan dünyanı bürüdü. İsanın özünü, eləcə də bəşəriyyəti Allahın övladı elan eləməsi – Allahla insan arasında birlik yaratmadı. Yalanlar bu Birliyə əngəl oldu. İnsan Allahın həm övladı idi, həm qoyunu. Qoyunla Allahın birliyi yaranıb yaşama nizam-düzən gətirə bilməz. Voskres (dirilmə) oyunu Allahın qüdrətini deyil, yoxluğunu təsdiq elədi. Yalanlardan günahlar artdı, çoxaldı, dünyanı bürüdü. Voskres – ölməzliyin oyuna çevrilməsi idi. Oyun insanı Mütləqə qovuşmağa qoymur.

Xristianlığın baş kitabının adı İncildir. İncil – Yevangeliya sözündən götürülüb "soraq" ("müjdə") deməkdir. Bu sözün qabağına "xoş" sözünü də artırıb "xoş soraq" ("xoş müjdə") adlandırırlar. Xristianlığın özül prinsiplərindən biri "günah" ideyasıdır. İnsanın Allah qarşısında günahkar olması, bu günahdan çıxa bilməməsi. Buna görə də Allah dünyanın sonunu gətirəcək – Apokalipsis ideyası. Baxın, xristianlığın bəşər övladına gətirdiyi "xoş soraq" nələri aşılayır... Dünyabaxış nə üçün yaranır, ya da nə üçün yaranmalıdır – dünyanın məhv ediləcəyinin sorağını vermək üçün, yoxsa dünyanın xilas olacağının sorağını vermək üçün?! Bu məsələlərdən çıxış edəndə qarşıya yeni sual çıxır: xristian – yəni nə?! Ya da, müsəlman – yəni nə?! Bunların adı çəkiləndə nə başa düşülür – nəyə inanan, nəyi yetirən, nəyə yetən?!

Dinlər ağıla qarşı çıxıb ağıllı dindar axtarırlar. Belə bir dünyagörüşə boyun əyən dindarda düşünən, görən ağıl ola bilməz. Din özü bunu olumsuz sayıb. Düşünməyən, gözüyumulu qəbul edən bəşər ağlını cənnətin qapısını döyən ağıl adlandırıblar. Düşünən, həqiqi, qurucu ağıl isə "yüksək şüura", yəni Allaha özgün sayılıb.

Din insana mömün olmaq yox, mömün görsənmək öyrədir. Çünkü yalanlara inanıb mömün olmaq yalandır. Din insana saxtakarlıq öyrədib. Yalana inanan, yalanı qəbul edən insan içdən Azadlığa

yetə bilməz. Yalançının Azadlığı – yalandan azad olmasındadır, yalan danışmaqda azad olmasında deyil.

Tanrı dünyanı, insanları mühakimə edir, hədələyir. Əslində din yaradıcıları Tanrının diliylə dünyanı, insanı hədələyirlər. Dünyaya, onun faniliyini sübut etməyə çalışırlar. Sufilər çox sübut eləmək istədilər, din dünyanı deyil, dünya malını fani sayır. Ancaq bu yanaşma sufilərin öz yanaşması olduğundan qabağa getmir. Əgər dünya malı fani sayılsaydı, onda "Axirət dünyası" uydurmağa gərək qalmazdı. Cənnət malı, sərvəti, kefi uydurulmazdı. Dünyanı gərəkli, malını ötəri saymaq bəs idi. Din yaradıcıları insanı böyütmək yox, qorxutmaq ölçüsü verdilər. Çünkü Mütləqi tanımadılar. Mütləqdən adamabənzər Allah yaratdılar. Bu yaradılışla Günsıranı, ilsıranı (təqvimi, tarixi) dəyişdilər, ancaq heç nə dəyişmədi – nə insan dəyişdi, nə də birgəyaşayışın pozuntuları aradan qalxdı.

Çünkü kilsəyə, məscidə mömün, doğruçu, Mütləqi dərk eləyən adamlar deyil, həşirçi adamlar toplaşırlar. Onların ruhani yalanları həyatın bütün yönlərinə yansıyır. Siyasətdə də dövlətin başına ədalətli, doğruçu, İnsanlığın dəyərini bilən adamı deyil, yalançı, kələkbaz, amansız adamı gətirirlər. Tayfa yaradan, onun çıxarlarını yoluna qoyan adamı hakimiyyətdə saxlayırlar, qoruyurlar. Qıraq güclər də belələrindən faydalanmağa çalışır. Əgər "Qıraq güclər"in istəkləri ödənməsə, başqa dövlətin yalançı başçısının yalanlarını onun yönətdiyi xalqa anlatmağa başlayırlar. Guya "Qıraq güclər" başqa xalqlara qarşı, bu xalqların başçılarının ədalətsizliyinə dözmürlər. Xalqın başında duran kələkbaz isə xalqa deyir: baxın, hansı basqılar, çətinliklər altında mən yenə sizi düşünürəm...

Yalan həyatın hərəkətverici ölçüsünə çevrilir.

Hər kəs partiyaya girir. Bəri başdanca öndərinin yalanları ilə üzləşir. Ancaq qəbul edir, dözür. Siyasət belə olur deyə düşünür. Öndər yalan danışmasa, siyasəti bacarmır düşüncəsi yaranır. Siyasət işləməsə, ayaqda durmaq olumsuzlaşar.

Adam cəmiyyət yalanının içindən partiya, təşkilat yalanının içinə gəlib cəmiyyəti xilas edəcəm deyir. Yalanla yalanı ortadan qaldıracaqmış... Bu, artıq xəstə şüurdur. Partiya özünü aldada-aldada, cəmiyyətə yalan danışa-danışa hakimiyyətə gəlir. Hakimiyyətdə də

cəmiyyətə yalan danışa-danışa onu yönətir. Heç bir bütöv ədalət, həqiqət doğrulmur.

Yuxarıda vurğu elədik, Nitşe "İnam" anlayışını rədd edir, onu xəstəliyə bərabər sayır. Bu qəti inkardır. Bu inkardan insan üçün gözə tutulacaq ən kiçik nikbinlik elementi belə gözə dəymir. Əgər inam zəiflik tələbatıdırsa, ya da Nitşe bunu belə qəbul edirsə, demək o, insana inanmır. İnsanı, zəif insan, güclü (fövqəl) insan olmaqla iki cəbhəyə ayırması da insana inamsızlığının görsənişidir. Kitabdan bir alıntıya baxaq: ***"Burada mən "ah" çəkməyimi saxlaya bilmirəm. Günlər olur ki, məni qara, hamısından qara melanxoliya bürüyür – bu, insana münasibətdə nifrətdir. Nəyə nifrət etdiyim, kimə nifrət etdiyimlə bağlı heç bir şübhə qalmasın deyə – bu, indiki, mənim faciəvi surətdə müasiri olduğum insandır. Indiki insan – mən onun natəmiz nəfəsində boğuluram".***

*(F.Nitşe. "Antixrsit". Səh.90. Qanun nəş.-2013).*

Bu parçanı oxuyandan sonra adamda suallar yaranır. Bəs nə üçün Nitşe xristianlığın insana münasibətindən bunca hiddətlə danışır?! Bəs özü insana nələr vəd eləyir – Güclü olmaqmı?! Axı güclü olmağın şərtləri nədir – xristianlıqdan, ya da xristian olmaqdan imtinamı?! Axı bəşəriyyətin ortalama yarısı xristianlığı, eləcə də xristianlıq tipli dinləri qəbul etmişdir. Bəşəriyyət xristianlıqdan, eləcə də xrisitianlıq tipli inanclardan imtina edib hansı nizama tapınsınlar?! Biz burada "inam" sözü yerinə "nizam" sözü işlədirik. Çünkü Nitşeyə görə inanmaq xəstəlik göstəricisidir. Yenə sual doğur: axı Nitşenin çağırışlarını eşitmək – ona inanmaq demək deyilmi?! İnam xəstəlik göstəricisidirsə, nədən Nitşeyə inanmaq xəstə şüuru sayılmasın?! İnsana xristian olmasına görə, ya zəif olduğuna görə nifrət eləməyin "günahlardan arınmayan" insana nifrət eləməkdən nə fərqi var?! Allah da insana acıqlanır, qisas vəd edir, Nitşe də insana acıqlanıb nifrət edir. Kimsə deyə bilər: Nitşe çağdaşı olan insana nifrət edir. Yuxarıda göstərdiyimiz alıntıda (sitatda) da o cür görünür. Bizə görə bu, sorularımızın cavabı deyil. Əslində din başçıları da Allahın adından, öz çağdaşlarını hədələyirdilər.

Biz kitab boyu Nitşenin İsaya, onun davamçılarına qarşı sərt yanaşmasını anlamağa çalışdıq. Ancaq Nitşenin sərtliyinin arxasında

insanı hədələyən daha qorxulu motivlər görünməyə başlayır. Nitşedə hakimiyyət ehtirası, güclü insan, əslində insanın heyvana enməsindən başqa bir şey deyil. O, Zərdüştdə "döyüşkən Allah" ideyasını da alqışlayır, Tövratda "döyüşdürən Allah" ideyasını da. O, xristianlığa hiddətini aşağıdakı alıntıda çox fərqli biçimdə bildirib: ***"Tanrı haqqında anlayış təhrif olunub; əxlaq haqqında anlayış təhrif olunub: lakin yəhudi kahinliyi bununla dayanmadı. İsrailin bütün tarixi olmadan da ötüşmək olardı: o rədd olsun... Bu kahinlər təhrif etməkdən elə bir möcüzə qurdular ki, bunun sənədli sübutu qarşımızdakı İncilin əhəmiyyətli hissəsidir: öz xalqının keçmişini onlar hər cür rəvayətləri, hər cür tarixi gerçəkliyi büsbütün təhqir-söyüş altında qoyaraq dinə keçirtdilər, başqa sözlə, ieoqovaya qarşı günahı cəza ilə, şərəfi mükafatla birləşdirərək, həmin bu keçmişdən küt xilas mexanizmi düzüb qoşdular.***

*(F.Nitşe. "Antixrist". Səh. 62. Qanun nəş. 2013.)*

Biz də deyirik, Tanrı anlamı (təhrif olunub) dəyişdirilib. Ancaq bu zaman biz Tanrı anlamı deyəndə Mütləq olanı gözdə tuturuq. Nitşe isə yəhudi Tanrısı İeqovanın xaraktercə dəyişdirilməsinə etiraz edir. Tövratda Rəbb hökm edən, döyüşə çağıran, başqalarını məhv edib torpağını, varını-mülkünü ələ keçirməyə yönəldən qüvvə kimi çıxış edib. Burada Nitşe Mütləqi düşünmür, yenilməyən, başqasını yenib üzərində hökm edən gücü önəmsəyir. Rəbb öz qövmünü güclü olmağa, başqalarını özünə boyun əydirməyə cağırır. Bəşər övladı arasında ayrı-seçkilik salır. Söz yox, yəhudi toplumunun qurtuluşu söz qonusudursa, nələrisə anlamaq olar. Ancaq "ruhaniyyat" anlayışı dəyişdirilir (təhrif olunur), Nitşeyə görə sonucda gücün qalibiyyəti ortaya çıxırsa, bu dəyişdirmə qəbul ediləndir. Bu, Nitşenin nəyi inkar, nəyi təsdiq eləməsindən aydın görünür. Yəni hökm edən, tələb edən, qoçaqlıq simgəsi kimi sunulan Tanrının dəyişdirilib xaraktercə yumşaq, mərhəmətə çağıran, oğlunu qurban verən Tanrının ortaya çıxarılmasına nifrətlə qarşılıq verir. Kitabdan bir alıntı ilə bunu bir daha təsdiq edə bilərik: ***"... Onun İeqovası hakimiyyət şüurunun, sevincin, özünə ümidin ifadəsi idi: ondan qələbə və xilas gözləyirdilər, onunla təbiətə etibar edirdilər, çünkü o xalqın ehtiyacı nəyədirsə onu və hər şeydən də əvvəl yağışı verir. İeoqova***

***– İsrailin tanrısıdır və deməli, Ədalət tanrısıdır: güclü və gücündən təmiz vicdanla istifadə edən hər bir xalqın məntiqi belədir”.***

*(F.Nitşe.”Antixrist”. səh. 59. Qanun nəş. 2013).*

İndi isə Tövratdan İeoqovanın xarakterini, necəliyini bildirən iki alıntını baxışınıza çatdıraq: ***“...Yeşua Amaleq xalqını qılıncdan keçirib qırdı. Rəbb Musaya dedi: Bunu xatirə olaraq kitaba yaz, Yeşuanın qulağına çatdır ki, Mən Amaleqin adını büsbütün yer üzündən siləcəyəm”.***

*(Müqəddəs kitab. Kitab nəşriyyatı-2004. Səh.115).*

***“...Mən sənin Allahın Rəbb, qısqanc Allaham. Mənə nifrət edən ataların cəzasını 3-4 nəslə qədər övladlarına çəkdirərəm. Məni sevib əmrlərimə əməl edənlərin isə minlərlə nəslinə məhəbbət göstərərəm”.*** *(həmin kitab, səh.119)*

Bu, ya buna bənzər deyilişlər Tövratda daha çoxdur. Hərbi komandan kimi danışan, asıb-kəsən, başqalarının torpağına işğalçı meyil yaradan bir xarakteri Nitşe alqışlayır, özünü də Ədalət Tanrısı adlandırır. Göründüyü kimi, Nitşe İnsanlığın deyil, güclülüyün fəlsəfəsini ölçü kimi sunur. Xristianlığın yanlışlarını da güclülüyün prinsipləri ilə tutuşduraraq rədd edir. Yuxarıda vurğuladığımız kimi, dinin yanlışlarına qarşı Nitşenin doğruçu məntiqlərindən yan keçmək olmur, ancaq Nitşenin baxışlarına dayanıb toplumsal-İnsani gəlişməni gözləmək də olmur. Biz, Asif Atanın Mütləqə İnam Ocağı olaraq, hər bir fəlsəfi düşüncəni, baxışı İnsanlığın sağlam tələbləri ilə tutuşdurub dəyərləndirməyin yanlısıyıq. Yaşamda sosial, siyasi davranışların, münasibətlərin həlledici olmasına önəm verənlərlə barışmırıq. Davranışların, münasibətlərin ruhani özüllər üzərində gəlişməli olduğunu vurğulayırıq. Ona görə Nitşenin fəlsəfi düşüncələri ilə axıra kimi barışmamağımıza da doğal yanaşmaq gərəkdir. Dində özünüdərk – özünü danmaq olduğu kimi, Nitşedə də özünüdərk – özünüdanmaqdır. Əslində özünüdərk – özündəki Mütləqi görmək, tanımaq, onunla bir olmaq, onun tələbləri ilə yaşamaq deməkdir. Volyuntarist Nitşe idrakı hakimiyyət aləti sayır. Bu isə heyvani

iradəyə daha çox ümid bəsləməkdir. Düşünürük, Nitşenin zəkalı iradəsi kapitalizm demokratiyasına daha çox yarayır (güc, bacarana baş qurban məntiqi). İnsanlığa isə yaramır. İnsanlığa yaramayan hər şeyi şüurdan dışlamaq, yaşamın ölçüsündə rol almasını rədd eləmək gərəkdir.

## Klassiklərə qarşı doğmalıq gərəkdir

***(Ə.X.Dəhləvinin "Şirin və Xosrov"una yönəlik bir neçə söz)***

Doğu klassiklərində sənət – idealla təmas səviyyəsində ülvi axtarışlardan oluşur. İdeala meyil elə bir içsəl yoldur, o yol insanı həyatın gerçəkliyindən uzaqlaşdırmır, tərsinə, həyatın gerçəkliyi ilə insani bağlılıq qurmağa yönəldir. Klassiklər, həyat faktlarına insanilik məzmunu verməklə, həyatın bəsitliyinə, yeknəsəkliyinə ciddi etiraz etmiş olurlar. Bu etiraz yaradıcılıq boyu cilalanır, daha yüksək ehtiraslarla insanın düşüncələrinə yeriyir. Ayrı-ayrı sənət örnəklərində Olanla Olmalının mübarizəsi, təxəyyülün idrak hikmətləri ilə doğmalaşması yaradıcı mübarizənin siqlətini ortaya çıxarır. Bu səbəbdən də Doğu klassiklərini yalnız romantik saymaq, onlardakı real axtarışların nizamını görməmək doğru deyil. Doğu klassiklərində əxlaq, vəfa, sədaqət, etibar öncə sənət səviyyəsinə qaldırılır, həyat çirkablarından qorunur, idealda təmizlənir, yenidən həyatın məzmununu nişan verən olayların gedişlərinə gətirilir. Belə sənətkarların istəkləri zaman açısından mücərrəd görünsə də, əbədiyyətin zamandan üstün olan aşamalarında, həyatda gerçəkləşməsi mümkün olan həqiqət kimi dərk olunur. Dünyanın pozulmuş ahəngini, həyatın cırlaşmış gedişini Olanla, Olana uyğun səviyyə ilə ülvilik üstə qurmaq mümkün deyil. Yalnız Olandan artıq olan yüksək dəyərlər həyatı əsilliyə çatdırar. Bu yüksək dəyərləri isə idealda axtarmaq olar. Öncə ideal – düşüncədə oturuşur, sonra həyata gətirilir – yön Olandan artığa çevrilir.

Ə.X.Dəhləvi özünün dediyi kimi, Nizami məktəbinin davamçısı kimi çıxış edir. Türk ruhçuluğunun etkisi ilə hind ruhunun doğmalığı vahid bir Doğu xətti ortaya qoyur. Nizaminin "Xosrov və Şirin"i

Dəhləvinin "Şirin və Xosrov"unda təkrar olunmur, fərq təkcə adın yerinin dəyişməsində deyildir. Ə.X.Dəhləvidə də özünəxas ifadə yönü, münasibət xüsusiyyətləri vardır. Eyni halda, Dəhləvidə olaylar bir çox aşamalarda obrazın ömrünə gətirilir, bu olaylar bir-birini əlavə şərhlərlə əvəz edir. Bəzən isə olaylar yığcamlaşdırılır, tezləşdirilir. Nizamidə isə əsasən fərd özü olaylaşır – fərd olay yaradır. Burada olayların dinamikliyi artır, biçimcə də böyüyür. Məsələn, Şəkərin ölümündən sonra Xosrovun Şirinin sarayına gəlməsi, dialoqda qarşılıqlı tərəddüdlər. – Nizamidə olaylar elə axarda gedir ki, hakimiyyət imkanlarının Xosrova sədaqətsizlik gətirməsi, Şirin qətiyyətinin Xosrovu tərbiyə etməsi görünür. Dəhləvidə isə Şirinin aciz qınaqları daha çox qabarır. Qadının (fiziki varlıq kimi) zəifliyindən yararlanmaq – fürsətçillik suçu kimi qabarır. Şiruyənin Xosrovu öldürməsi Nizamidə elə aydınlaşır ki, insanın içində Adamlıq səviyyəsi – ziddiyyətlilik, hərislik, qatillik – həyatdakı fəsadların səbəbi kimi dərk olunur. Fərdlə olayın ilişkisindən yaranan mühitin xüsusiyyətləri aşama-aşama aydınlaşır, bilinir. Ə.X.Dəhləvidə bu epizod Xosrovun qadın, eyş-işrət düşkünü olduğunu, bununla da məmləkətin yönətilməsindəki qüsurları baxışları çəkir i.a.

Burada məqsəd Nizaminin üstünlüyünü göstərmək deyil, üz tutulan eyniadlı əsərdə sənətkarların özünəxaslığını ifadə edən ayrıntıları deməkdir. Çağdaş dönəmdə bir çoxları klassikanı köhnəlmiş sanırlar. Bu çox ciddi yanlışlıqdır. Klassiklər özül yön yaradıblar, ona görə yaşarıdırlar, qalıcıdırlar. İnsanlar klassikləri öyrənsələr yaxşı olar. Onda ən gözəl yenilik ortaya çıxar. Ölçüsüz yenilik ən pis yolsuzluq deməkdir. Yolsuzluqdan nə sənət yaranar, nə də həyat əsilləşər. Biz də baxışları bu məsələyə yönəltmək istədik.

## Doğruluğun Halallığı

***(Əli Vəlioğlunun "Halal Çörək" kitabı üstə düşüncələr)***

İnsanın həyatda ən doğru bildiyi keyfiyyət halallıqdır. Halal zəhmət, halal ailə, halal doğmalıq, halal keçmiş, halal düşüncə – insanı öz anlamına qovuşduran anlayışlardır. Bilindiyi kimi, insan ikili xassəyə bağlıdır. Bu xassələrdən birinin adı biolojilikdir, o birisinin adı mənəvilik. İnsan yaşamını sürdürərkən biolojiliyi daha çox üzə çıxır. Çünkü mövcudluğunu qorumadan varlığını təsdiq edə bilmir. Bəs insanın mövcudluğunu hansı duyğular ayaqda tutur – heyvani duyğularmı, insani duyğularmı?! Tamah, məncillik, özünəyararlıq, zəhmətsiz gəlir götürmək çabaları heyvani, gözütoxluq, vicdanlı olmaq, adil davranmaq, zəhmətlə onurlanmaq insani duyğulardır. Heyvani tələblərlə yaşamını sürdürənlərin ömrü boşluq yaradır, çelişkilər içində heçliyə çevrilir. Mənəvi tələblərlə yaşayanlarda isə ikilik aradan qalxır, fiziki mövcudluqla mənəvi varlığın bağlılığı, birliyi formalaşır. Heyvani davranışlar həyatın nizamını pozur, birgə yaşayışa eybəcərliklər axıb dolur. İnsani yaşayanlar isə həyata daim ölçü verməyə, onun gedişinə nizam gətirməyə çalışır. Belə insanlar ədəbiyyatın obrazlarına çevrilir, örnək göstərilir. Bu zaman doğrunu əyridən ayırmaq, fərqləndirmək üçün gücləndirilmiş anlayışlardan yararlanılır. Belə götürəndə zəhmət, ailə, doğmalıq, keçmiş, düşüncə uğurlu sözlərdir. Ancaq onların qarşısına "halal" sözü artırmaqla xeyirin bütövlüyünü göstərmək, nisbini, yarımçıqlığı az saymaq, əsilliyi tanıtmaq məqsədi güdülür. Doğma insanlar arasına da başqa əhvallar girə bilir axı, umacaqlı doğmalıq adiliyi də yarana bilir. Odur ki, əsil münasibəti ifadə etmək üçün halal doğmalıq anlayışı dilə gətirilir. Bu açıdan yanaşanda haqqında söz açdığımız Əli Vəlioğlunun "Halal çörək" kitabı da vurğuladığımız əsilliyə üz tutur, onu anlatmağa çalışır. Sadə el diliylə halal yaşamağa çağırır. İnsan halal yaşayanda ürəyi duru, düşüncəsi zəngin, sevgisi sonsuz olur. Beləsinin vətən sevgisinə, millət sevgisinə də bel bağlamaq olur. Etibar, vəfa sözləri bu cür ürəklərdə bəslənilir, böyüyür, yaşayır.

Əli Vəlioğlu "Halal çörək" əsərini öz atasının yaşamı üzərində qursa da, yuxarıda vurğuladığımız çalarlarla, İnsanlığın obrazlaşdırılmış

keyfiyyətlərinin tablosunu yaratmaq istəyib. Bu çox uğurlu bir gedişdir. Təxəyyülün mücərrədlikdən obraz axtarışındansa, gözlərimizin qarşısında canlı insan ömrünün halallığını izhar eləmək daha təsirlidir. Yəni ədəbiyyatın başlıca məqsədlərindən biri insanlığın imkanda olan keyfiyyətlərini obrazlaşdırıb tərbiyə ölçüsü kimi verməkdir. Canlı insan davranışlarını – halallığını, doğruluğunu, yurduna, milli gələnəklərinə bağlılığını isə tərbiyə faktı olaraq öyrətmək, dediyimiz kimi, daha çəkici, təsirli hal yaradır. Bu kitabda bioqrafik təqdimatdan daha çox, mənəvi maarifləndirmək əməli özünü göstərir. Ağsaqqallıq anlamının elin-obanın  yaşamında, varlığında rol oynaması, sözünün kəsəri, keçərliliyi bir kəndin milli şüura bağlı yaşamasını həm qurur, həm də qoruyur. Əsər boyu biz bunu izləyə bilirik...

Çörəyi halal olan heç kimdən əsirgəməz. Hətta haramlara da çörəyini halal edər, halallıq verər. Bir atanın öz oğluna öyrətdiyi ən böyük hikmət, miras qoyduğu ən böyük xəzinə belə bir yaşam örnəyi verməkdir. Əli Vəlioğlu atasının halallığını öydükcə köksü qürur duyğuları ilə qabarır. Bu qürur duyğusunu milli nemət kimi qavrayır, ürəyi sevinir. Bizə görə Azərbaycançılıq elə bu deməkdir – Asif Atanın dediyi kimi: "Halallıqdan usanmamaq, yoxsulluqdan utanmamaq!". Bir usta ömrünün tükənməyən halallığı – türk-etnik özünəxaslığını həm öyrədir, həm də sevdirə bilir. Halallığımızı heç bir nankorluğun, dönüklüyün qarşısında unutmadıq, yaşadıq, yaşatdıq. Bu halallıq Dədə Qorquddan gələn varislik gələnəklərimizdən biridir. Ona görə ayrılmadıq, arxa çevirmədik varisliyimizə. Zaman-zaman yağılara aldandıq, uduzduq, ancaq varislik sədaqətimizdən dönmədik. Erməni dönə-dönə çörəyimizi yeyib bizə qarşı haramlıq edibdir. Ancaq biz ona halal çörəyimizi yedirtməkdən usanmadıq. Ona görə biz ermənidən uluyuq, ucayıq. Biz erməninin heç nəyinə göz dikmədik. Ona görə yox ki, erməninin heç nəyi yoxdur, ona görə ki, bizim hər şeyimiz var. Başlıcası halallığımız var. Heç nəyimizə – nə milli varlığımızın ortaya çıxardığı insani dəyərlərə, nə də halalca çörəyimizə haram qarışmadı, qarışdırmadıq. Mayamız halallıqdan yoğrulub. Keçmişimiz halal olduğu üçün çörəyimiz də halaldır, ailəmiz də; zəhmətimiz də halaldır, düşüncəmiz də. Doğmalığımız

saxta deyil, dostluğumuz yalan deyil. Vicdanımız qaranlıq, ləyaqətimiz kölgəli olmadı.

Əli Vəlioğlunun da ata çörəyinin halallığı ilə öyünməsi min illər tarixin o üzündən gələn ulusal halallığımızın görsənişidir. Halallıq milli varlığımızın özülündə durmasaydı, Asif Ata “halallıqdan usanma” deməzdi, bu çağırış aldadıcı, quru görünərdi. Ancaq çəkici, doğma, doğru səs kimi, nəfəs kimi mənəviyyatımızın dərinliklərinə işləyir. Xalq ruhunun varlığımızda yaşanan aydınlığına qovuşub qəlbimizi titrədir. Bu titrəyişdə sevinclə sevginin qoşalaşıb halallıq tərbiyəsi kimi yenidən ömrümüzə qayıdışını görürük. Budur milli varislik. Bu varislik tükənməz bir ölçü kimi nəsildən nəsilə körpülər salıb.

Halal çörək qazananın ümidi də halaldır. Halal hər gün sevinir – mənliyini qoruduğu üçün. Hər gün mənliyini qoruyaraq sevinəcəyinə ümid bəsləyir. Beləcə halal ümidlə yaşayıb min illərdən süzülüb gələn halallığın sirlərini öyrədir.

Haram çörək qazananın ümidi də haramdır. Haram – hər gün aldadacağına, yalanlarla inandırıb haram çörək qazanacağına ümid bəsləyir.

Yaşamaq çətinliyi – insanı vicdanla üz-üzə qoyursa, halallıq mənəviyyatın bütövlüyü kimi yaşanır.

Yaşamaq çətinliyi – hər addımda vicdanı aldadıb susdura bilirsə, haramlıq ömür boşluğunda taxt qurub mənəviyyatın parçalanmasına hökm edir.

***xxx***

Bir kəndin yaşatdığı gələnəkləri qələmə almaq, əslində tarix yazmaq anlamı daşıyır. İstənilən bir dövrdə hər hansı bir kəndin xarakterik yaşantıları az-az fərqlərlə başqa kəndlərə də xas yaşantılar deməkdir. İstənilən bir köy, soy, el millətin bir parçasıdır. Millətə özgün olan böyük gələnəklər soyların, köylərin yaşamında ifadə olunur. Bu açıdan müəllifin öz soykökünün ilkinlərini qələmə alması çox önəmlidir. Dediyimiz kimi, onların dövrü üçün xarakterik olan gələnəklər də qələmə alınmış olur.

Əli Vəlioğlu ulu babalarından biri Məlik Əbilin faciəvi yaşantılarından bilgi verir. Bir yazarın ulu babasının topluma, ya da

çağımızın başqa insanlarına nə dəxli var deyib, məsələdən yan keçmək də olar. Ancaq gözə alsaq ki, millət fərdlərdən, ailələrdən, soylardan oluşur, onda fərdin uğurlarının da, faciələrinin də milli şüura bağlı olduğunu, millətin gələnəklərinə bağlı bir yaşam sürdüyünü anlamış olarıq. Əli Vəlioğlu yazır: Ulu babam Məlik Əbil biri ilə dost olur. Sonralar hansısa səbəbdən dostluqları pozulur. Bu pozuntu kin, nifrət duyğuları bəsləyir. Bir gün dostu düzənlədiyi qonaqlığa Məlik Əbili də çağırır. Qonaqlıqdan dönərkən Məlik Əbil atının quyruğunun, yalmanının kəsildiyini görür. O dövrdə birinin atına sataşmaq ən böyük aşağılama, alçaltma sayılardı. Əgər biz araşdırsaq, hər eldə, hər köydə belə bir gələnəyin olduğunu öyrənmiş olarıq. Bu gələnək Dədə Qorqud dönəmində də beləcə etkili olub, Koroğlu dönəmində də. Biz türkün həyatında atın yerini, rolunu bu yazıda qabartmadan məsələnin başqa bir çalarına aydınlıq gətirək. Əli Vəlioğlu ulu babasının namusuna bulaşan ləkəni qanla yumasını doğru sayır, ancaq bunun babasının qatilliyinə səbəb olmasını alqışlamır. Çox ilginc bir məsələdir. Həm ziddiyyətli, həm gərəkli. Həm insanlığın qanununu qoru, həm insanın qanını tök. Dedik ki, kişinin atına sataşmaq el gələnəklərinə görə alçaltmaqdır. Burada görünəndən artıq bir durumla üz-üzə qalırıq. Necə də qaçılmaz, amansız bir görsənişdir. Elə bir durumla üzləşirsən ki, nə sevinə bilirsən, nə qəmlənə. Bu halın adı nədir görəsən?! Axı istənilən davranış, hərəkət – bu iki üzdən birini doğurur. Bu iki halı eyni vaxtda bir ürəyə yükləmək, bir düşüncədə, xəyalda gəzdirmək olmur. Kənd həyatının gələnəklərinin bu fəlsəfəsi bəlkə də insan varlığının ikili xassəsi kimidir. Yuxarıda vurğuladıq ki, insan həm bioloji varlıqdır, həm də ruhani. Biolojilik onun mövcudluğudur. Mövcudluğunu sürdürmək üçün Doğa ona qorxulu duyğular verib: özünü, öz çıxarını düşünmək, asan yaşamaq meyli, bunun üçün bəzən başqalarını ayaqlayıb keçmək. İnsan Doğanın verdiyi xarakterlə barışanda, yetərlənəndə fəlakətlərə yol açır. Ancaq insanın başlıca xassəsi ruhanilikdir. O bu xassəsi ilə ata olur, ana olur, dost olur, ədalətə, həqiqətə doğma olur, bir sözlə, Tanrıya bənzəyir. Bu bənzərliyə yetmək olduqca çətindir. Bu yolda imtinalar, sınaqlar dayanır. İnsan gözə görünməyən bir qüvvə ilə döyüşməli, biryolluq, parlaq

qələbə qazanmalıdır. Bu qələbə insanın özü üzərində çaldığı qələbədir. Balacalıqlarını tanıyıb döyməli, ortadan qaldırmalıdır. Ən uca insani keyfiyyətləri ömründə bərpa eləməlidir. İnsanın ömründə mənəvi işıq örnəyi kimi bir "öz" yaranmalıdır. Bundan sonra, insan mövcudluğunu sürdürərkən, iki xassənin arasında qalmaz, başqalarını gözə alar. Mövcudluğunu Doğanın sərt qanunları ilə deyil, insanlığın mərhəm, kamil qanunları ilə qoruyar. Ancaq dedik ki, bu asan bir məsələ deyil. Hər kəsin bu düzeydə yaşamasını gözləyə bilmirik. Asif Ata deyir: İctimai həyatda Şər heç vaxt tam aradan qalxmır. Bəs necə olmalı, atın quyruğu həmişəmi kəsiləcək, həmişəmi qan tökülüb adam öldürüləcək?! Belə çıxır ki, insanın ikili xassəsi qan tökülməsini qaçılmaz edir, ona haqq tanıyır.

Biz burada məsələni insanlığın sorunu kimi çözməyə çalışırıq. Yəni Məlik Əbil doğrumu edib, yanlışmı sualına cavab tapmaq istəsək, bütövlükdə İnsanlığın sorununa dayanmış oluruq. Bəşər övladı ikilikdən əziyyət çəkir. İkiliklə həyata gözəl bir şey vermək olmur. Gah bu, gah başqa cür olmaq ikrah doğurur. Gah o, gah bu olmaqdan fəlakətlər doğur, qan tökülür, düşmənçilik aləmi bürüyür, hamı bir-birinə qənim kəsilir. Xeyir ürəklərdən qaçır, şər varlığa hökm edir. Birgəyaşayışın nizamı pozulur. Ancaq heyvani qanunları ölçüyə çevirmək də mümkün deyil axı. Həyat anlamını itirər, varlığın sonu gələr. Bütün bu paradoksallığın içində qəribə bir ümid işığı var. Ən pis ortamda, ən pis zamanda belə insanlığı ayaqlayanlara "dur" deyənlər tapılır. Sadəcə "dur" deməyin üsulu, ölçüsü fərqli olur. Bir var toplumsal yaşamda böyük dəyişikliklər başlayasan, burada artıq böyük ideyalar ortaya gəlməlidir ki, bu da Məlik Əbillərin işi deyil. Bir də var ayrı-ayrı pozuntulara fərdi təpki göstərəsən. Məlik Əbillərin işi bu cür pozuntulara qarşı fərdi təpki göstərməkdir. Bu təpki də o vaxt göstərilir ki, fərdin heysiyyatı söz qonusu olsun. Bununla belə, fərdin heysiyyat məsələsi bütövlükdə elin gələnəklərinə dayanıqlı olur, təkcə fərdin özüylə bağlı olmur. Bəlkə də Məlik Əbilin evi yağmalansaydı, atı oğurlansaydı, cibinə girilsəydi öldürməklə qarşılıq verməzdi. Demək, mənəviyyatı öldürməyə cəhd edənlər elin gələnəklərinə görə bağışlanmır, bağışlanmaması gərəkir. Biz bu gələnəyi çıxış yolu saymasaq da, anlayırıq.

***(Niyə çıxış yolu saymırıq?! Bir var pisi öldürmək, bir də var pisliyi öldürmək. Bizə görə çıxış yolu pisi öldürməkdə deyil, pisliyi öldürməkdədir. Bu, olduqca geniş bir qonudur. Bu qonunun fəlsəfəsi bu yazının miqyasına uyğun olmadığı üçün dayanırıq, Əli Vəlioğlunun ata halallığından qurulan dünyasına qayıdırıq).***

Vətənin qədim-qayım ellərində yaşayan, yaşadılan halallığa xəyanət əli uzandı, namərdlik, müxənnətlik ellərimizi dağınıq duruma gətirdi. Bütövlük parçalandı, hərə bir dərəyə düşdü. Köylərimiz erməni adlanan yağının tapdağında qaldı. Ömürlər kimi gələnəklərimiz də qırıldı, getdikcə əməllərdən ayrıldı. Bir köyün gələnəklərini yaşatması millətin bütövlüyünə bağlıdır. Vətən yadların tapdağında qalanda bir köyün gələnəkləri yaşayıb sabaha getmir. Vətən – İnsanlığın, milli gələnəklərin yaşadıldığı məkandır. Əli Vəlioğlu da atasının halallığını, doğruluğunu Vətənin azadlığına bağlı dərk eləməyə çalşır. Haqlıdır! Bu gün bütöv bir köyə örnək olan halallıq nizamını itirib. Bayağılıq insanların xarakterini həyatın nizamına qarşı oluşdurur. Çünkü yuxarıda vurğuladığımız kimi, Vətən yadların tapdağı altında mərhəmliyini itirdi. İtirdiyi gündən halallıq da xatirələrə sığındı. İndi Əli Vəlioğlu xalqın qədimliyindən gələn ata halallığını xatirələrindən kitaba köçürür. Ürəyini özü ilə çəkib aparan, illərin həsrətinə dönüşən halallıq! Bax beləcə, ata halallığının həsrətiylə sızıldayan bir ürəyin çırpıntıları sabaha halallıq xatirələri söyləyir. Söyləyir ki, halallıq yaşamı, zamanı tərk eləsə də, yaddaşları tərk eləməsin. Yenidən köylərin, soyların yaşam nizamına qayıtsın. Köhnə kişilərə bənzəmək istəyən oğullar ataların halallığı ilə böyüsün!

## Söz ömrün yolu olanda

***(Tahir Talıblının "Qurdu qəmgin, quşu qərib"***
***kitabı üstə duyğulanmalar)***

İnsan həyatda özünü ifadə etmək üçün ömür yolunu bəlirləməlidir. Bunun üçün özünü tanımalı, öyrənməlidir. Ömür qurulanda söz doğar, özünü çağına, gələcəyə təqdim edər. Belə də deyə bilərik: Söz – ömrü tanıdan hikmətdir.

Ömür yaradıcı olmayanda söz boşluğa düşər, hikmət gücünü itirər. Hikmətsiz söz yaşama örnək verə bilməz. Biz sənətə, poeziyaya belə yanaşırıq. Biz ömürdən gəlməyən sənəti, şeiriyyəti quru, cansız, etkisiz sayırıq. Sənət yalnız estetika faktı deyil. Yəni o, zahirən gözəl, cazibəli forma alsa da, bu, yetərli deyil. Sənət – insan qəlbinin ülviyyətini göstərən, böyüdən, insana Tanrısal anlam yükünün çalarlarını tanıdan ömür yoludur. Bu yolu yaradanlar, bu yolu gedənlər müdrik olar, şair olar, ozan olar – qəlbində söz bəsləyər, söz çağırar, söz öyrədər. Belə ömürlərlə üzləşəndə insan duyğular dünyasına düşür, söz bulağı tapır. Könlü bu söz bulağı ilə durulduqca duyğuları zənginləşər, Mənanın gözəlliyinə qovuşar, dünya gözündə yenilənər. Belə dünyanın sakini olmaq, belə dünyanın sakinləriylə olmaq nə qədər gözəldir. Belə dünyanın sakinlərini tanımaq, tanıtmaq da mərifətdəndir. Biz də mərifət göstərib duyğular dünyasının sufi təbli, ozan dilli sakinlərindən biri Tahir Talıblıdan qısaca söz açmaq istədik.

*Bayatı söhbətə, sözə əsirəm,*
*Nağıllar nənəmin ömrüdür, gedir.*
*Mən söz axtarıram, mən söz gəzirəm,*
*O isə həmişə söz üstündədir.*

Söz bayatılar, ağılar dəryasında qaynayar, nənələrin, babaların xatirələr dünyasına dolar, ağ saçların, ağ birçəklərin ömür yollarının hikmətindən soraq verər. Duyğularımızda insanlığın sadə həyat nəğmələri kimi sabaha ümidlər daşıyar. Söz – nənələrin, babaların halal, arı-duru ömründən başlayan bir körpü salar. Dünyaya göz açan körpələrin sevinc dolu, ümid dolu baxışlarını qədimliyə

səsləyər. Keçmişin işıqlı həqiqətlərini İnsanlığın gələcək soylarına ötürər. Bu mərhəm əlaqələr şair qəlbinin bayatı, nəğmə dolu duyğularıyla yenidən canlanır, sevinə-sevinə şeiriyyətə çevrilir. Bütün bunları anladıqca baxışlarımızda doğmalıq ehtirasları qaynaşır, nənəli, babalı dünya ilə təmasda olduğumuzdan fərəh duyuruq.

*Dəli cavanlığı, əyləncələrin*
*Ağardıb saçında, saqqalında o.*
*Yığıb bir ömürlük xatirələri*
*Bir kitab söz kimi öz alnında o.*

Gördüklərini anlamaq, yaşamaq nə qədər təbii qavranılır. Hər sətirdə ömür yolunun səmimiyyəti danışır. Ona görə keçmişdən gələn ən adi həyat axarı belə duyğularımızı etkiləyə bilir.

*Səpərəm alışan, yanan çağıma,*
*Təbəssüm edərəm dərdi-sərini.*
*Sovqat saxlayaram qocalığıma*
*Sənin qız baxışlı şəkillərini.*

Sevgi, həsrət, doğmalıq, vüsal – insan ömrünün həm aşamalarıdır, həm də nizam yoludur. Ömür yola çevriləndə bu duyğular qocalmır, insan varlığının sonsuz ifadələrinə çevrilir. İnsan özündən xəbərsiz yaşayanda isə duyğuları qarıyır, yarı yolda qırılır, ömür yolsuzlaşır. Bu açıdan yanaşanda şeiriyyətin insan yaşamında yeri, rolu daha qabarıq görünür. O üzdən deyirik, şeiriyyət ömürdən başlayıb ömürlərə yol salmalıdır. O üzdən belə ömürləri ozan sayırıq, müdrik adlandırırıq. Tahir Talıblı sadəcə duyğularını şeirə çevirmir, şeiriyyəti duyğularına bənzədir. Ona görə də könlümüzə doğmalaşa bilir.

*Bu yollar səbrimnən gödəkdi indi,*
*Sinəmdə ürəyim kövrəkdi indi,*
*Ümidim tək səni görməkdi indi,*
*Qorxuram mən səni görə bilməyim.*

Sənsizlik qorxusu – dünyanın anlamından başlayan həsrət, ikinin bir olmaq arzusu, mənəmliyin, eqoizmin ölümü, özünü başqasında tapmaq qüdsiyyəti. İnsan ömründəki bakirə sirlərin duyğuların qanadlarında şeiriyyətə çevrilməsi – gözəllik nəğməsi.

*Yollara çıxmışam mən bilə-bilə,*
*Axı, hər yolçuda bir ürək olmur.*
*Sənət də belədi, həyat da belə,*
*Əgər öyrənməsən, öyrətmək olmur.*

Burada ifadə olunan duyğular təkcə sözün yaraşığı kimi görünmür, həm də ilkinlik tələbi kimi çıxış edir. Tərbiyə faktına çevrilir. Ona görə duyğularımızı işıqlandırıb könlümüzə sevinc təpəri verir.

Tahir Talıblının axıcı duyğuları, lirik nəğmələri kitab boyu izlənilə bilir. Biz onlardan az bir parçanı dilə gətirdik, duyğularımızın səsini dinləməyə çalışdıq. Belə tanıyırıq Tahir Talıblını – özü olan, el xislətli, el soraqlı, əsillik örnəyi. Duyğularına, ləyaqətli ömrünə doğmayıq – soyumuzun da, ulusumuzun da arı oğlu Tahir Talıblının.

## Ağşın Ağkəmərlinin "Təbrizdən Təbrizə" kitabı haqqında bir neçə söz

I. Hekayələr avtobioqrafiyadır – çətinlik əzabı ilə əlaqə yaradan yaşam gələnəyidir.

II. Xalqın fəlakətləri insan varlığında, insan aqibətində faciəvi iz buraxır. Ancaq xalqın fəlakəti elə insanın özünə yadlaşması faciəsindən doğulur.

III. Vətənə inam olmayanda insan sədaqəti itirir. Bu itki dostluğu belə yağılığa çevirir.

IV. Vətəni sevmək, ancaq sevdiyinin qucağında boya-başa çata bilməmək vətənsizləşmək faciəsidir. Vətən əsarətdə olanda insan yetim böyüyür.

V. Qorxu da faciələr doğurur, cəsarət də. Ancaq qorxu ölümdən başlayır, cəsarət həyatdan. Qorxu ölümə yol açır, cəsarət həyata ruh verir.

VI. Ən çətin anlarda belə dünya gözəldir. İnsan dünyanın gözəlliklərini duyanda dağlar əzəmətdən danışır, çaylar nəğmə oxuyur. Təbiətin gözəllikləri ilə insanın ülvi birliyindən gələcəyə baxış dəyişilir, ümid doğulur. Ümid böyüdükcə yaşamaq eşqi daha da işıqlanır. Ruh – insanı əsillik yaratmağa qadir olan mübarizəyə çağırır.

Mübarizə – ölümü sarsıdan ömür yoludur!

## Sözü qoruyanları qorumaq gərək

***(Rafiq Tağının ölümünün 10 illiyi ilə bağlı bir neçə söz)***

Tarixin heç bir dönəmində yalançını öldürməklə Doğrunu doğrultmayıblar. Ancaq doğruçunu öldürməklə yalanı yaşatmağa çalışıblar. Doğruçuların yaşaması, doğruların var olması Doğruçuların özündən başqa heç kimə gərək olmayıb sanki. Ancaq hər kəs hər kəsdən doğruçuluq umur. Üzdə hamı doğruya ehtiyacın olduğunu desə də, Doğruçunu hər kəs sevə bilmir, qoruya bilmir. Çünkü hər kəs ömrü ilə, davranışı ilə Doğruçuya qoşula, Doğruçuluğu yaşada bilmir. Ancaq ədalət, bərabərlik, humanizm Doğruçuların əməlində, əməyində ictimai ölçüyə çevrilə bilər. Buna görə Doğruluğun yaşaması, Doğruçuların çoxalması yalan üzərində qurulan ictimai quruluşa, toplumu yalanla yönətən hakimiyyətə qorxu yaradır. Doğruçuluğu düşüncələrdən uzaqlaşdırmaq üçün Doğruların həyatına qıyırlar. Dediyimiz kimi, bu zaman Doğruları qoruyan tapılmır, çünkü hərə bir cür yalana bağlı yaşayır.

Çağımızın cəsarətli, sözü Doğruluqdan başlayan, toplumsal, siyasi yalanların üzünə işıq tutan Rafiq Tağı təklənən, qoruna bilməyən Doğruçulardandır. Bu günlərdə onun ölümünün, daha doğrusu, öldürülməsinin üstündən 10 il keçir. Hər il bir qom – iki əlin barmaqları sayda adamlar bir araya gəlir, qəbrini ziyarət edib xatirəsinə sayğı ifadə eləyən söz deyirlər. Söz yox, bundan başqa onlar heç nə

eləyə də bilməzlər. Çünkü toplum mədəniyyət daşıyıcılarını tanımır, tanımağa macal tapmır. Yönətimdə tüğyan eləyən, anarxiya, qanunsuzluq, özbaşınalıqlar toplumu yaşamaq sorunları ilə üz-üzə qoyub. Genelmilli məsələlərə dayanan düşüncə birliyi yoxdur. Siyasi rejimlə toplumun böyük bir kəsiminin Rafiq Tağıya münasibəti üst-üstə düşür. Çünkü Rafiq Tağıların açıqsözlülüyü siyasi yönətimin bir sıra yalanlarına əngəl olduğu kimi, toplumun İranyönümlü kəsiminin yalanlarına da əngəl olur. Bir az da qabarıq desək, bütövlükdə dini düşüncə daşıyıcılarının Rafiq Tağı kimi düşünər aydınlara münasibətləri nifrətdən qaynaqlanır. Ona görədir, Rafiq Tağını öldürən də, öldürmək buyruğu verən də ortaya çıxarılmır, gizli tutulur. Nə qədər ki, bu cür cinayət məsələlərində həqiqət bilinmir, ədalət yerini tapmır, toplumun yaşamında heç bir məsələ ədalətli çözümünü tapmayacaq. Haqsızlığın, sosial ədalətsizliyin özülü – bu haqsızlığa, ədalətsizliyə qarşı dirənənlərin ölümündən oluşur. Söz adamlarını öldürmək – toplumun həyatında mənəvi, mədəni, sosial uçurumlar yaratmaqdır. Söz adamlarını öldürmək – xalqın faciələrini yeniləməkdir. Ona görə də sosial ədalətsizliyə qarşı mübarizə həqiqət uğrunda mübarizə səviyyəsinə yüksəlməlidir.

Rafiq Tağıya ayıq münasibət sərgiləyənlərə sayğılarımla!

## İşğalın doğurduğu həyat

***(Faiq Balabəylinin "Lənətlənmiş həyat" əsərinə yönəlik bir neçə söz)***

Quruluş, gerilik hər bir xalqın həyatında amansız görsənişlər yaratmışdır. İnsanın insana qarşı davranışlarındakı hər cür dözülməz addımlar, zaman-zaman insan haqqındakı baxışları darmadağın etmişdir. İnsanın insana inamı ortadan qalxmış, birgəyaşayışın tələbləri qarşısında hər kəs, özlüyündə təklənərək, bioloji mövcudluğu uğrunda mübarizə aparmışdır. Bəlkə buna görə insanı özündən qıraqdakı qüvvələrə inandırmaq etkili alınmışdır. Ancaq qıraq qüvvələrə inanmaq da insanınköməyinə çatmamışdır. Nə Quruluş qurtuluşa nədən olmuş, nə də insan öz növündən olanlarla, geniş

anlamda, dil tapıb anlaşa bilmişdir. Bütün bunlar ayrı-ayrı çağlarda ədəbiyyatın, sənətin əsas qonusuna çevrilmiş, hər dövrün özünəxas yaşantıları estetik-ideal açısından işlənərək düşüncələri yönləndirməyə çalışılmışdır. Ədəbiyyat böyük gücdür. Heç bir dövr bu gücün uğurlara yol açmasına ortam yaratmır. Ona görə bəzən ədəbiyyatda geri çəkilənlər olur. Mübarizə cəbhəsi açmayan, ya da açılan mübarizə cəbhəsində yer almayan ədəbiyyat gələcəyə söz deyə bilmir. Bu cür ədəbiyyat adına ortada görünənlər gələnəksəl olaraq şöhrət, qazanc parıltılarına aldanaraq, yamanlığın qaranlıq-bulanlıq dalğalarında əriyib yox olurlar. Bu açıdan yanaşanda bizim üçün istedadlı, ancaq kölgələrdə daldalanan sənət örnəkləri önəmli deyil, öz gücü içində dövrün eybəcərliyinə qarşı direniş göstərən sənət örnəkləri daha dəyərlidir. Biz çağdaş Azərabycan ədəbiyyatının üzdə görünən, görünməyən kəsimlərinə də bu açıdan yanaşırıq. Haqqında söz deyəcəyimiz Faiq Balabəylinin "Lənətlənmiş həyat" əsərinə də vurğuladığımız müstəvidə dəyər verməyə çalışırıq. Biz böyük ədəbiyyatla genel ədəbiyyatın ortaq nöqtələrini gözardı eləmirik. "Döyüşkən ədəbiyyat" anlamına uyğun gələn hər bir sənət örnəyini alqışlayır, onlara uğurlar diləyirik.

İndi bu əsərdə baxışımızı çəkən bəzi məqamlara aydınlıq gətirməyə çalışacağıq. Əsərdə üz tutulmuş mövzu yeni olmasa da, mövzunun ifşa yönü uğurlu alınmışdır. Öncə biz əsərdə Rusiya əsarətinin toplumumuzun yaddaşında, milli-mənəvi varlığında buraxdığı izləri görürük. Əsərin baş obrazı "Mamed" – əsarətlərin bir-birinə dayaq olmasının, necə deyərlər, əsarətin mutasiya olunmasının parlaq göstəricisidir. Ərəb işğalı ilə gələn "Məmməd"in Rusiya işğalından sonra "Mamed"ə çevrilməsi – insanımızın oyunlara salınmasının, həyatının oyunlarda qurban verilməsinin başlıca nədənlərindən biridir. İnsanların daşıdığı ad – onun kimlik məsələsidir. Kimliyini itirmiş, onu qoruya bilməyən toplumun bütün sonrakı taleyi də başqalarının əlində, əsarətində olur. Toplumun milli-mənəvi kimliyinə zor göstərilirsə, onun özgürlüyü biryolluq zədə götürmüş görünür. Ona görə bir işğalın etkisindən qurtarmaq üçün bizim toplumun on illərlə direniş göstərməsi gərəkir. İşğal – basqı altına aldığı topluma mədəniyyəti də özüylə gətirir, yaşam ölçüsünü də.

Toplumun söyüşü, zarafatları belə, işğal dilində oluşur. Toplum özümlüyünü bütöv itirir, kölgəyə, əks-sədaya çevrilir. Öz varlığı bilinməyənin isə yaşamında nə xoşbəxtlik tanınar, nə də gələcək dərk olunar. Əsərdən göründüyü kimi, hətta dustaqxana anlayışları da dilimizə rusca oturub. Həryönlü özünəyadlaşma mənəvi boşluqlarda faciələr yaradır, bu, çox düşündürücü bir məsələdir.

İkinci məsələ, işğalın uzantısı kimi, Rusiya əsarətinə boy verən, xalqı əsarətdən göz açmağa qoymayan bir rejimin həyatımıza qənim kəsilməsidir. İnsanların heç nədən şərlənməsi, böhtanlara uğraması, görəvdə olanların qazanc aləti olaraq faciə faktına çevrilməsi – birbaşa dövlətin iç siyasət prinsipləri ilə oluşur. Qanunsuzluq, özbaşınalıq, səlahiyyətlərdən sui-istifadə halları, heç kimin sorumluluq daşımaması – insanların dəyərini heçə çevirir. Çoxsaylı ailələrin başsız qalması, körpələrin gözüyaşlı böyüməsi, millət, vətən anlayışlarının gözdən düşməsi, insanlarımızın bu anlayışlara yad yaşaması, gəncliyə gözdağı verilməsi, mütilik, yaltaqlıq, simasızlıq kimi xüsusiyyətlərin normaya çevrilməsi – Milli faciələrin özülündə duran məsələlərdir. Mənəvi, ruhani, siyasi işğalların sonucu ölkəni yiyəsiz duruma soxar, dövləti öz xalqına qarşı zor aparatına çevirər.

Əsərin əsas leytmotivi bir ailənin faciəsi üzərində qurulub. Həyatımızda hər an rastlaşdığımız hüquq-qoruma sisteminin xalqa münasibəti qələmə alınmış, qəddarlığın ən ibtidai şəkli gözlərimiz qarşısında canlandırılmışdır. Məmmədin şərlənərək dalbadal dustaq yaşamına məhkum edilməsindən, körpəcə qızının necə böyüməsindən, arvadının körpəcə uşaqla yiyəsiz buraxılmasından yana heç kim sorumluluq daşımır.

Ailənin ac, yalavac qalması faciənin bir cəhətidir. Başqa bir qatda isə biz kişi mənliyinin sındırılmasını, heysiyyatının alçaldılmasını izləyirik. İnsan dünyaya niyə gəlib, niyə gedir?! Söz yox, “gəlmə, getmə” insanın özündən asılı deyil. Ancaq bu “gəlmə”də dünyanı tanıma, özünüdərk prosesi yoxdursa, onda həşəratla insan arasındakı fərqi kim bəlirləyə bilər ki?!

Dustaq həyatını yenicə başa vuran biri, hələ körpəcə uşağının üz cizgilərini belə, baxışlarına, sevgisinə köçürə bilməmiş, qadınının qayğılarını dinləməmiş, ailəsinə bir tikə çörək qazanmağın yolunu

tapmamış özünün başqaları üçün qazanc alətinə çevrilməsinə qərar verilmişdir. Budur, taleyində yeni oyunlar qurmaq, "yuxarılar"ın tamahına qurban eləmək üçün sahə müvəkkili onu axtarmışdır. Bu axtarmaq – onun xəyalını, düşüncəsini alt-üst edir. Körpəsinin gözlərinə baxıb sevinmək duyğusu belə, onun içində ağırlığa çevrilir:

***"Az, Yetər, bə bu köpəyoğlu helə birbaşa bura gəldi, o cürnə dedi, getdi?***

- ***A kişi, mən hardan bilim birbaşa gəlmişdi, yoxsa harasa dönmüşdü, soradan bu qapıya gəlmişdi, cigəri pörtələnmiş, qara bağlamışın balası. – Dedi, bacı, ərinə denən, sabah pasportunu götürsün gəlsin.***
- ***Sənə bacı dedi, aaz?***
- ***Hə də, nə deyəydi?***

Bu adi görünən dialoqda nə qədər qorxunc bir gözlənti gizlənib. Bu məchul, sirli sorğularda qəddarlığın, amansızlığın nəşələri gözlərini qurbanlığının gözlərinə zilləyib dayanmışdır. Doğulmaqda olan bu nəşələr Məmmədin iztirablarından cücərib bəslənilməkdə idi. Amansız, qəddar bir rejim özünün köntöy, yaramaz əkinçiləri ilə Məmmədin içini şumladıb iztirab, işgəncə becərtməklə bədbəxtliklərə yem hazırlayırdı. Əslində bu halət insanlarımızın həyat normaları kimi formalaşmışdır.

***"Nəzarətçilərin, əməliyyat işçilərinin "DPNK"-ların dustaqdan pul almalarının müxtəlif yolları var idi. Məmməd o qədər kasıb idi ki, ondan heç cür pul ala bilmirdilər. Yastığının altından çıxan parnoqrafik şəkilləri, iti uclu, kəsici tiyəsi olan dəmir parçası, kartı, qadağan olunmuş müxtəlif qəzetləri, şpris, "mal" bişirmək üçün şüşə qab – "puzuryok" və daha nələr cəzaçəkmə müəssisəsinin əməkdaşlarının köməyinə yetib müqsədlərinə çatdırmamışdı".***

Bu qorxunc əməllər heç insanlığın ən aşağı qatında belə, yer tuta bilməz. Bu görsənişlər insan varlığındakı heyvanatın təntənəsidir.

Məmməd dönə-dönə yaşadığı bu həyata yenidən dönəcəkdir. O, körpəsinin üzünə gülə bilmir, içində qorxunu qovurub dərdə çevirir. Ailəsi bir tikə çörəyə möhtac qaldığı halda, onu düşünə bilmir, qurbanlıq kəndirindən necə açıla biləcəyini çək-çevir edir...

Budur, insanı qorumalı olan hüquq-qoruma sisteminin insana hazırladığı tale. Dostu dosta, qohumu qohuma düşmən edir. İnsanların bir-birinə inamı, etibarı məhv edilir. Hər kəsin içində başqasına qarşı şübhə, gizli nifrət boy atır. Xalqın min illərdən üzü bu yana gələn idealları ayaqlar altına atılıb heçə çevrilir.

Rejim insanlardan bir-birinə öncə düşmən yaradır, sonra hər birini soyub talayır. Talamağa bir şeyi qalmayanda isə məhv edir...

Ən aşağı səviyyəli söyüşlər – sanki hüquq-qoruma sisteminin yönətim (idarəetmə) ölçüsüdür. Aşağılamaq, alçaltmaq, qorxutmaq, olmayanı boynuna aldırmaq – bununla da plan doldurmaq, cinayətin "üstünü açmaq" sevinci, qazanmaq, ödüllənmək, rütbələnmək tamahı – insanlığın qanunlarını ortadan qaldırmaqla başa gəlir. Əslində dustağın yaşadığı həyatdan daha amansız, iyrənc bir həyat sürür hüquq sistemi. Heyvanca davrananların, bunu həyat norması kimi qəbul edənlərin ailəsi necə insani, milli ola bilər?! İşdə bir cür, evdə ayrı cür olmaq mümkün deyil. Ya da çox az fərq ola bilər.

Ona görə "hüquqla haqq bir şey deyil" deyirik, yazırıq. Hüquq yalançı haqdır, haqsızlıqdır. Zor olan yerdə haqq olmaz. Zorun haqqı olmur – haqsızlaşmaq zora çevrilməkdir. Hüquq zorla birləşdiyi üçün xalq haqsız duruma salınır.

Fəlakətdən yol salır rejim. Bu yolla gedən simasını itirir, getməyən yaşamır, var olmur...

Əsərin sonu yenə xalqın klassik gələnəklərinə üz tutur:

***"Konvoylardan biri yaxınlaşıb əlini Məmmədin çiyninə qoydu: – Bəsdi, Mamed, gedək, – dedi.***

***Məmməd ayağa qalxdı. Yetərin, qızının üzündən öpdü. Əlini konvoya tərəf uzatdı. Konvoy Məmmədin qoluna girdi. Qızının, həyat yoldaşının yanında qandallamaq istəmədi. Yoldaşına tərəf baxdı. Sonra əlini şalvarının cibinə salıb Məmməddən götürdüyü yüz min manatı çıxartdı. Yetərə uzatdı: – Al, bacı, Mamedin cibindən çıxıb. Orda ona bu lazım olmayacaq, – dedi".***

Ən qəddar quruluşda, rejimdə belə İnsanlığın, mərhəmətin kökü kəsilmir. Zəif işartılarla olsa belə, ortaya çıxıb ümid yaradır...

Cinayəti insan yaradır – ya tutulan, ya da tutan, fərq etməz. İstənilən halda hüquq-qoruma sisteminin cəza "tərbiyəsi" insanın taleyində heç bir pozitiv dəyişiklik yaratmır. İnsana heyvan kimi cəza vermək cinayətin qarşısını almır. O da ola, cinayəti tutulan deyil, tutan törədə...

***"Cinayətin ən böyük cəzası – İnsanlaşmaqdadır!" – Asif Ata.***

## Təklərin Doğması

**(Əhməd Fərhadın duyğuları üstə)**

Dövrün, zamanın tikdiyi möhtəşəm saraylar – içində böyütdüyü bəşər övladının səmtini necə bəlirlədi?! Yolunu haralardan saldı?! Biz bunları tarix səhifələrindən oxusaq da, ürəyimizdə işıq, ağlımızda təpər yarada biləcək səbəb tapmırıq. Çünkü bəşər övladının yaşamı gözlərimizin önündə qaralmalardan başqa bir şey canlandırmır. Çünkü İnsanlığın gözəlliyi tarixdə özünə yer tapa bilmir. Təklərin varlığına yazılmaqla zamanlardan yüksəyə qalxır. Tarixsə zamanın gördüklərini, göstərdiklərini bizə ötürür, ondan yüksəyə qalxanları deyil. İnsanlığın ucalığında olanları göstərə bilən tarix yazılmır. Beləliklə, İnsanlığın bütöv ölçü kimi yaşamda üzə çıxması olumsuz bir nağıl etkisi kimi alqılanır. Ancaq təklərin varisləri tükənmirlər. Sonrakı aşamalarda yenidən ortaya çıxır, çağın ötəri tələblərinə boyun əymirlər. Zamandan yüksəyə qalxanların könül dünyasına can atır, bu sonsuz dünyanın mürşüdlərinə müridlik eləmək üçün dövrün qapalı, qaranlıq dünyasından qopmağa çalışırlar. Varislik gələnəyi qırılmır, başa çatmır. İnsanlığın gözəlliklərini, gizlinlərini (sirlərini) yaşamaqla qədimliyi öz çağlarına tanıtmaq ərdəmliyinə yetirlər. Biz bunu daha çox yaradıcı ortamda izləyə bilirik. Çünkü bütün dolğunluğu ilə gerçəkləşməyən xəyallar dünyasını bizə duyğular tanıda bilir. Duyğular – bədii yaradıcılığın sonsuz üfüqlərə qoşan qanadları kimidir. Zamanın çirkinliklərindən arınan duyğular gələcəyin sönməz işığının pərvanələri kimi mövcud olurlar. Bu pərvanələr üçün oda

atılmaq – yaşamaq demək olur. Çətinliklər onların kimliyini bildirən seçimdir. Onların ömür səhifəsinə rahatlıq, kef anlayışları yazılmaz. Varlığın sirlərinə qovuşmağın, ruhani yolçuluğun öz anlayışları olur. Bu anlayışları biz həmin yolçuların yaradıcılığından oxuyur, bununla onların ömür yollarına bələd oluruq.

İndi Təklərin varislərindən birinin – Əhməd Fərhadın "Qurun dar ağacı başımın üstə" kitabı qarşımdadır. Həm gerçəkliyin görsənişləri ilə barışmayan, həm də olduqca təvazökar bir soydaşımızın duyğuları ilə təmasdayam. Onun duyğularını oxuduqca, bəzən insani ağrılarının, acılarının doğurduğu göz yaşları canlanır xəyallarımda, bəzən də çılğın harayları cingildəyir qulaqlarımda. Bunlar onun poetik vərdişləri deyil, içində bəsləyib boya-başa çatdırdığı ağrılı taleyidir.

*Könül istəyinin oldum dustağı,*
*Getdi göz yaşımla gözümün ağı,*
*Məndən öyrənibdi oda yanmağı,*
*Özü ustad sanır pərvanə məni.*

*Oxşamaz könlümü toy-büsat, şənlik,*
*Olsa da dörd yanım yaşıl çəmənlik,*
*Baxıram bu dünya deyilmiş mənlik*
*Hansı günə doğdun, ay ana, məni?!*

İşığı anlayan kəs, onu qaranlığa vərdiş elətdirməyə çalışan dövrə etiraz edər. İçində anladığı dünya ilə özündən ayrılmış gerçək dünyanın təzadları arasında qalmaq istəməz, bundan sıxılar, fəryad qoparar...

*Duymağa qəlbimin hərarətini,*
*Əlini əlimə ver, verə bilsən.*
*Necə sevdiyimi anlamaq üçün,*
*Mənim ürəyimə gir, girə bilsən.*

Dünyanın gedişində gerçəkləşməyən gözəllikləri insan öz içində tapa bilər. Bunun üçün içini dünyaya çevirmək gərəkdir. İçi dünya olan öz dünyasının qapılarını hər kəsin üzünə açar. Dünyadakılara

çağırış edər, Yunus Əmrəyə doğmalaşar. "Gəl, mənim dünyamda dünyanı tanı" söyləyər...

İçində dünyalaşan vətənləşər. Öz içində, sevgisi ilə böyütmək istədiklərindən vətənə yiyə olmalarını umar.

*Əzəldən bu yurdun türk oğluyam mən,*
*Bu yurda, vətənə çox bağlıyam mən,*
*Bütöv Azərbaycan soraqlıyam mən,*
*Məni öz qanıma, düzümə qaytar,*
*Qaytar türklüyümə özümə qaytar.*

*İllərlə başıma döyüb yad əli,*
*Adıma söylənib sərsəm, ya dəli,*
*Demirəm səbr ver, olum silləli,*
*Haqqımı almağa dözümə qaytar,*
*Qaytar türklüyümə özümə qaytar.*

... Təklərə doğmalaşmağı özünün ağ günü saymaq da təkcəlikdir. Ayrılmaqdır hamılaşmaq gedişlərindən. Bu ayrılıq səni bu günün gözündə dəli göstərər. Ancaq gələcəyə boylananların sevgisində vəli olarsan.

Təkləri sevməkdən, təklərə doğmalaşmaqdan çəkinməyənlərə biz də öz alqışlarımızı sunuruq.

# Dördüncü Bölüm

## (Toplumsal, siyasal olayların aydınlaşdırılması, ələşdirilməsi)

## Gerçəkləri görməli, yenilməməli

Ürəyinizdə Ata Günəşi olsun, sevimli amaldaşlarım.

Ölkədəki son durumla bağlı bəzi düşüncələrimi sizinlə bölüşmək istəyirəm. Faktiki olaraq, ölkədə durum, düşüncə baxımından, çox qarışıq bir yönə meyillənir. Anarxiya var. İnsanlar daha çox çaşbaş durumdadırlar. Düşüncə baxımından toplum iki cəbhəyə bölünüb. Özləri də bu cəbhələrdən birini bədbin, birini nikbin adlandırırlar. Optimist, pessimist. Bəziləri deyir ki, mən nə optimistəm, nə pessimistəm, realistəm. Belə söz oyunları var, durum acınacaqlı şəkildədir. Bəzən deyirlər, milli birliyi qorumağa çalışaq. Bu cür çağırış eləyən adamlar ya öz dediklərini özləri dərk eləmirlər, ya da bunlar özlərini ağıllı göstərməyə çalışırlar, özlərini şöhrətə mindirməyə çalışırlar. Niyə? Öncə aydınlaşdırmaq gərəkdir, milli birlik – yəni nə? Kiminlə milli birlik yaradaq, qoruyaq? 27 sentyabr ayından savaş başladı. Ölkədə hər kəs bütün iddialarını qırağa qoyub dövlət başçısının arxasında durdu. Həlledici bir məqamda dövlətin başçısı Azərbaycanın çıxarılarına, insanların ümidlərinə, inamlarına, sevinclərinə, şəhidlərin ruhuna gözlənilmədən bir balta vurdu. Niyə?! Rusiya güclüdür, biz zəifik ona görə?! Bəs Türkiyə, Pakistan ordusuyla, yarağıyla yanımızda idi, bəs dövlət başçısı deyirdi, bundan sonra heç kim məni dayandıra bilməz. Bunu deyəndə Rusiyanın güclü olduğunu bilmirdi?! Əslində məsələnin mahiyyətini deyilənlərdən qıraqda axtarmaq gərəkdir. Bir ara bəzi dövlətlərdə Azərbaycanın iqtidar başçısının varı-mülkü ilə bağlı araşdırma işləri olmuşdu, sosial şəbəkələrdə də paylaşılırdı. Azərbaycanda rüşvətxorluğun, korrupsiyanın sınır tanımadığı danışılırdı. Halbuki bunlar Azərbaycana olan sevgilərdən gəlmirdi. Görünür, kimlərsə Azərbaycandan umduqlarını ala bilmirdilər. İqtidar başçısı özünün varını böyük çapda Rusiya banklarına dövr elədi. İndi heç kimə sirr deyil ki, iqtidarın Rusiyada nə qədər varı, mülkü, yatırımı var.

Azərbaycanı illərlə çalıb-çapan, soyub-talayan iqtidar başçısı savaş başlayandan sonra xalqın gözündə az qala qəhrəmana dönmüşdü. Nə baş verdi, iqtidar başçısı xislətini dəyişdimi?! – Dəyişmədi. Düşüncəsini, mövqeyini dəyişdimi, dəyişmədi. Dəyişə bilməz.

O, şəxsi çıxarılarını düşünən biridir. Bəs qədər açıqları olan biridir. Rusiyanın ona basqı göstərmək olanaqları olduqca genişdir. İndi "milli birliyi qoruyaq" deyənlərə üzümü tuturam: kiminlə qoruyaq, necə qoruyaq?  Bu iqtidar başçısı ilə milli birlik var ki, qoruyaq? Milli birlik idi, arxasında durmuşduq. Təkbaşına qərar verdi, Azərbaycanın mənafeyini satdı. Axı nəyin arxasında duracaqsan – satılmağın, satqınlığınmı? Xəyanətin arxasında durub milli birlikmi qoruyacaqsan?! – Bu mümkün deyil...

İndi məsələnin başqa bir yanına baxaq. Hamı eyforiyaya qapılmışdı. Toy-bayram əhvalları vardı: – Türkiyə Rusiyanın qabağını kəsəcək, məsələ biryolluq sona varacaq, Rusiya erası bitdi, nəinki Qarabağı, Zəngəzuru da alacağıq i.a. Dönə-dönə demişəm, yenə vurğulayıram: Türkiyəni sevirəm. Ancaq Türkiyənin başında duranın doğrudanmı xəbəri yox idi bəyannamənin qollanmasından, o bəyannamənin içində yazılanlardan?! Yaxşı, xəbəri yox idisə, bəyannamə harda, nə vaxt ortaya çıxdı? Ortaya çıxandan sonradamı başa düşmədi orda nə var, nə yox? Hamı bildi, o bilmədi? Bilmədimi ki, orda yazılanlar Azərbaycanın zərərinədir? Əgər bildisə, necə olur, Azərbaycanı  qutladı ki, "zafer kazandınız". Hər şeydən xəbəri vardı. Sadəcə təbliğatlar Ərdoğanı arı-duru çıxartmağa çalışacaq.

Ordumuz ləyaqətini sübut elədi, canı bahasına torpaqlarımızın çox hissəsini işğaldan qurtardı, bu onun qələbəsidir. Ancaq Azərbaycan öz ordusunun qələbəsini sonacan da görə bilərdi. Belə yarımçıq qələbə bundan sonra çox sorunlar ortaya çıxaracaq. Məsələ Rusiyanın güclü, bizim zəif olmağımızda deyil, məsələ siyasi başbilənin Rusiyanın qarşısında dilinin gödək olmasındadır. Bundan başqa, Ərdoğan o dövlət başçılarındandır ki, hər dəfə Azərbaycanda prezident seçkiləri, parlament seçkiləri keçiriləndə dəstəkləyib, Azərbaycanda demokratik, şəffaf seçki keçirildiyini elan edib. İlham Əliyevi savunub, onun pozuntularla, zorakılıqla seçilməsinə həm hüquqi don geyindirib, həm də arxasında durub. Türkiyə dövləti hüquqi dövlətdir, güclü dövlətdir. Onun başında duranın Azərbaycan xalqının iradəsinin zorlanmasına yardım eləməsi bugünkü təslimçi durumumuzun nədənlərindən biridir. Bəs Ərdoğan nədən bu rejimi savunma

xətti tutur? Məntiq onu deməyə əsas verir ki, korrupsioner rejimlə ortaqlıqları var.

Əliyevlərin rejimi gözümüzün qabağında, onillərdir, Azərbaycanın hüquq-məhkəmə sistemini, təhsil sistemini, mədəniyyət-eyitim sistemini, səhiyyə sistemini çökdürür, özbaşınalıqlar qaynadır, dəyənək gücü ilə yönətim formalaşdırır (Azərbaycanın bu günkü məğlubiyyətinə öncədən ortam yaradıb), Ərdoğan da bu rejimin ömrünün uzanmasına yardım edib. İndi necə olur ki, İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan Azərbaycanın qəhrəmanlarına çevrilirlər. Çoxluq alqışlayır, sevir... Bütün bu yalançı görsənişlər Azərbaycan toplumunda iki yönlülük yaradır. Bir yanda mollaqafalılarla rusiyayanlılar, bir yanda isə (azlıq) Azərbaycanın milli düşüncə yönündən çaba göstərənləri. Azərbaycan yenə çox pis duruma gətirildi. Deyirdilər, Türkiyə gəldi, Rusiya Türkiyədən qorxur, çəkinir. Rusiya artıq o Rusiya deyil. Bəs hansı Rusiyadır?! Nə Türkiyəni saydı, nə Azərbaycanı, girib torpağımızı işğal elədi. Postsovet məkanında olan dövlətlərin üzərində Rusiyanın hegemonluğu hələ də qüvvədədir, aparıcı güclər də bununla razılaşırlar. Rusiyanın əlini, ayağını Şərqi Avropa dövlətlərindən yığışdırdılar, ancaq postsovet dövlətlərindən yığışdırmayıblar. Heç kimin arxasında durmadılar. Nə Gürcüstanın, nə Ukraynanın, nə Belorusiyanın, nə Moldovanın, nə də Azərbaycanın. Olduqca çətin bir dönəm yaranıb. Nə yazıqlar ki, Azərbaycan hələ çox çalxalanacaq. Azərbaycanın yanında yer alan yoxdur. Ərdoğanı qəhrəmanlaşdırmaq doğru deyil. Türkiyə ilə Azərbaycan doğma qardaş olsa da, dövlət çıxarları deyilən bir şey də var. Naxçıvanla Azərbaycanı birləşdirən dəhliz Türkiyə ilə Rusiyanın arasında bağlanan yüz milyardlıq iqtisadi layihənin gerçəkləşdirilməsi üçün çox yaxşı bir ortamdır. Türkiyə Rusiya ilə heç vaxt Azərbaycan məsələsində kəskin qarşı-qarşıya gəlməyəcək. Türkiyənin gəlişi, gedişi böyük anlamda heç nəyi dəyişmir. Hələlik Rusiya istədiyini elədi, eləməyə də davam edəcək, özümüzü aldatmayaq. Naxçıvan-Mincivan dəhlizi ilə Rusiya İranla da quru əlaqələrini genişləndirəcək, Ermənistan blokadadan çıxacaq. Yəni bu dəhliz təkcə Azərbaycan üçün deyil...

Azərbaycan üçün doğrudan da çox ağrılı bir dönəmdir. Ancaq fəlakətdən yıxılmalı deyilik, güc almalıyıq, toparlanıb tarixi haqlarımızı bərpa eləməyi düşünməliyik. Milli özül üzərində yeni siyasi hərəkat başlamalıdır. Yalançılara ümid bəslədikcə uçurumdan uçuruma düşürük. Məncə, Türkiyənin sağlam düşüncəli insanları ilə Azərbaycanın sağlam düşüncəli insanları bir araya gəlməli, yeni milli qüvvə formalaşdırmağa başlamalıdırlar. Biz Ocağıq, öz işimizlə uğraşmalıyıq. Ancaq doğruçu milli qüvvə hərəkətə keçərsə, bacardıqlarımızı eləməyə hazırıq. Biz Ocaq olaraq, Asif Atanı daha aktiv şəkildə öyrətməliyik ki, milli düşüncə daha çox gəlişsin. Demokratiya çoxrəyliliyi bu işdə yaramır. Çoxrəylilər bir-biri ilə döyüşürlər, ortaq düşmənə qarşı birləşə bilmirlər. Hərə bir yana dartır Azərbaycanın taleyini. Ona görə Ocaq daha çox işləməli, qabaqkından daha çox xalqa söz deməlidir. Asif Atanın kimliyini, nə istədiyini öyrətməlidir. Mən bu cür düşünürəm, bu cür yaşayıram, bu cür də edirəm. Uğurlar, başarılar diləyirəm.

## Bizi "arxiv xalqı" kimi düşünənlərə dur deyək

Dərdi yazmaqla sağalmaz. Ancaq böyük dərd sözə də sığmır. Yazmaqla bitməz. Böyük dərd Vətənin dərdidir – Vətən dərdidir. Nə qədər ki, Vətənin sorunlarını aradan qaldırmaq uğrunda əsaslı mübarizə getmir, bu dərdi yazıya almaq, tanımayanlara da tanıtmaq istəyirsən. Dərdi tanıtmaq isə qeyrətin oyanışı üçün olmalıdır, arxayınlaşmaq üçün yox. Bizim dərdimiz bir deyil, çoxdur. Hansını daim gündəliyə gətirmək, hansını necə aradan qaldırmağın yollarını düşünmək olduqca çətinləşibdir. Çünkü bütün sorunlara hazırlıqsız yaxalanmışıq, çünkü heç birini çağında yoluna qoya bilməmişik. Zaman-zaman bir sorun beş olub, beşi on olub, üst-üstə qalanıb fəlakətlərə çevrilib. Millətimiz bu fəlakətlərin ağırlığı altında ümidini itirə-itirə yaşayıb. İndi də gələcəyinə bütöv bir ümidi yoxdur. Bu fəlakətlərin qarşısı alınmadıqca çoxdüşüncəlilik yaranıb. Məsələlərin konseptual həllini yetirmək yerinə, şüar biçimində fərqli düşüncələr, baxışlar sərgilənib. Fərqli düşüncələr, baxışlar deyəndə, biz ayrı-ayrı

sorunlarımıza yanaşmaları gözə alırıq. Məsələn, bu gün Vətənçilik açısından hamımızın, genəl olaraq, bir qonumuz var – Qarabağ. Ancaq bu soruna gələcəyimiz açısından yanaşsaq, başqa mənzərələrlə qarşılaşmış olacağıq. Bu günlərdə oxucularla bir yazımızı bölüşdük: "Borçalının haqqını tanımaq gərəkdir". Axı bu haqqı kim tanımalıdır?! Bu haqsızlığa göz yuman siyasi dünyadanmı ummalıyıq, yoxsa bu haqsızlığı gerçəkləşdirən Gürcüstanın siyasi hakimiyyətindənmi?! Bəlkə xalqla aralarında keçilməz uçurum yaranan Azərbaycanın dövlət məmurları üz tutulası ünvandır?! Duruma ciddi yanaşdıqca millətin necə də tənha, yiyəsiz qaldığına sarsılmamaq olmur...

Yuxarıda vurğuladığımız haqsızlıqların nədən oluşduğunu zaman-zaman dilə gətirsək də, diqqətləri bəzi məqamlara yenidən yönəltmək gərəkir. Bu gün hər kəsə bəllidir, İranda da, Gürcüstanda da milli tariximizi dəyişməklə, pozmaqla uğraşırlar. Proses tam olaraq oxşardır. 1924-cü ildə İranda coğrafiya komissiyası yaradıldı, aşama-aşama toponimlərimiz, yer adlarımız dəyişdirilməyə başladı. Milli məktəblər qapadıldı, təhsil fars dilində aparıldı, azərbaycanlı ailələrdə doğulanlara milli adların qoyulması yasaq edildi. Mədəniyyət sıxışdırıldı, tarixi keçmişin öyrədilməsi dayandırıldı. Sovet Azərbaycanının isə bu faciəvi gedişə qarışmağa, quruca etiraz etməyə belə haqqı çatmadı. Onsuz da özü öz başının hayına qalmışdı. Milli düşünərləri amansız rus-sovet imperiyası güllələdiyini güllələyir, güllələmədiklərini də zindanlarda çürüdürdü. Sovet-İran sınırlarını elə qapadılar ki, qardaşın qardaşa əli yetməsin. Bu yanda da torpaqlarımızı parça-parça, (torpaqlarımızdan yaratdıqları) Ermənistan dövlətinin "hesabına" keçirməyə başladılar. Beləcə, bizim bir paramızı orada farslaşdırmağa başladılar, bir paramızı da burada ruslaşdırmağa. (Bu gün oxşar proses Borçalıda həyata keçirilir, tariximizin saxtalaşdırılması, milli məktəblərin sıradan çıxarılması, torpaqların soydaşlarımızın əlindən alınaraq özlərinə icarəyə verilməsi – gözə görünməyən deportasiya hazırlıqları...).

Sovetlər dağıldı, ancaq biz tarixi haqqımızı bərpa edib bütövləşmədik. Tərsinə, Qarabağı da əlimizdən alıb erməniyə verdilər. Bizim başımızı içimizə elə qatdılar ki, qıraqdan soydaşlarımızın taleyi ilə

bağlı nə düşünə bildik, nə də düşünmək istədik. Bu yana İranın iç işidir dedik, o yana Gürcüstanın iç işi. Biz demirik, bu gün İranla, Gürcüstanla silahlı savaş aparaq. Ancaq bir şeyi bilməliyik ki, Güney Qafqazda, az bir torpaqlarımız üzərində bərpa elədiyimiz bu dövlətimizi tikələyə-tikələyə dövlətçiliyimizin varlığına son qoymaq planları gerçəkləşməkdədir. Bizi bütöv şəkildə biryolluq sıradan çıxarmaq olumsuz olduğuna görə, öncə parçalara bölürlər, parçalarımızı məhv edə-edə yaxınlaşırlar. Vəhşi heyvanların öz ovunu parçalamasından fərqli bir şey deyil taleyimiz. Öncə ovun bir əzasını qoparır, yenidən qayıdır, qopara-qopara davam eləyir... Heysiyyatımız elə ayaqlanır ki, bu cür ibtidai analogiyalara varmaq zorunda qalırıq...

Erməni başbilənləri bəyanat verirlər ki, yeni müharibə yeni ərazi demək olacaq. Yəni Azərbaycan öz torpaqları uğrunda döyüşə girişsə, yeni ərazilərini itirəcək – hədələyirlər bizi. Yəni qoy bir qopardığımız əzalarınızı tam həzm eləyib qurtaraq... Biz də erməninin arxasında Rusiya durur deyərək, torpaqlarımızda erməniliyin necə qurulmasını seyr edirik. Belə götürəndə erməninin arxasında təkcə Rusiya durmur, başqaları da durur, ya da biz çəkinib seyrçi qalaq deyə, psixoloji yardım edir. Onların hər birinin çıxarları da bəllidir. Rusiyanın erməninin arxasında niyə durduğu çox deyilib, biz də hər yöndən çox yazmışıq. İran da erməniyə kömək edir ki, Azərbaycan Respublikasının Güney Azərbaycan haqqında düşünməyə vaxtı, imkanı olmasın. Qarabağ sorunu nə qədər çox uzansa, İran da Güney Azərbaycanın azadlıq istəklərini bir o qədər geniş məhv edər. Bizimkilər də çağaşırı İranı suçlayırlar ki, müsəlman ola-ola xristian erməniyə kömək edir. Məsələni din müstəvisinə çəkmək olduqca yanlışdır, başqatmaqdır, məsələnin mahiyyətini gizləməkdir. Məsələ din deyil, Azərbaycandır, türkdür.

Yeri gəlmişkən bu yaxınlarda, yanılmıramsa "pasxa" bayramında ermənilər bütün səfirliklərin nümayəndələrini (Xoy yaxınlığında yerləşən) Çaldıran bölgəsindəki kilsəyə toplamışdılar. Orada özlərinin qədim, tarixi xalq olduqlarını nümayiş etdirirdilər, xristian olduqlarını deyil. Burada müsəlmanlıq faktı, sadəcə kilsənin bizim toplumumuzun daşıdığı dini dünyagörüşə uyğun olmadığını göstərmək üçün gərəkdir. Halbuki tarix boyu Çaldıranda erməninin heç izi-tozu

olmayıb. İran dövlətinin saxta ortamında min beş yüz ildən çox tarixi olan qədim Alban kilsəsini ermənininin öz adına çıxması, tarixi yurdumuza ortaq olduqları görüntüsü yaratması Molla rejiminin çıxarları üçündür i.a. Bu qonunu çox genişləndirmədən yenə Borçalı qonusuna qayıdaq. Vurğuladığımız kimi, Gürcüstanın Borçalıya saxta yanaşması dövlət siyasətidir. Yuxarıda dedik, Rusiya, İran erməniyə yardım edir. Bu yardım həm siyasi, həm hərbi, həm maddi xarakter daşıyır. Məsələ burasındadır ki, Azərbaycan Gürcüstana siyasi müttəfiq dediyi halda, Gürcüstan da ermənilərə yardım göstərir. Düzdür, bu yardım əsasən psixoloji xarakter daşıyır. Bəlli faktların adını da çəkmək olar. Məsələn, Qarabağ savaşında iştirak eləmiş Mixail Avaqyana Samsxe Cavaxetiyada büstün qoyulması, Azərbaycanın neft məhsullarının Ermənistana ötürülməsi, Keşikçidağ əməliyyatı... Bu gün də siyasi müttəfiq saydığımız Gürcüstan, Qarabağ problemindən ayıla bilməyən Azərbaycanın gözləri qarşısında Borçalının milli, tarixi varlığını sıradan çıxarmaqla uğraşır. (Ötən yazılarımızda vurğuladığımız faktları burada təkrarlamağa gərək görmürük). Biz, Azərbaycan olaraq, hər dövrdə baş verən itkilərimizi tarixin arxivinə atdığımız üçün, bu gün Qarabağ sorunumuzu da çözə bilmirik. Belə getsə, bu itkimizi də tarixin arxivinə atacağıq, ya da atdıracaqlar... Bəs nə etməli?! – Doğrusu, bu sualın cavabını vermək olduqca çətindir. Elə mürəkkəb gerçəkliklər var ki, onun qarşısında dayanıb asan danışmaq olmur. Bizim düşüncəmizə görə, Azərbaycanın millətsevər, Vətənsevər ictimai-siyasi düşünərləri, Türkiyənin Vətənsevər ictimai-siyasi düşünərləri ilə bir araya gəlməli, məsələnin doğru yolunu konseptual olaraq işləməlidirlər. Bu məsələ dövlətlər səviyyəsində gündəmə gəlməlidir (bunu tələb eləmək gərəkdir). Niyə Türkiyə ilə? – Çünkü Azərbaycanın sıradan çıxarılması, hər yerdə insanlarımızın sıxışdırılıb basqı altında məhv edilməsi, getdikcə sınırlarımızın daralması Türkiyənin də siyasi taleyinə yeriyəcək faciələrə yol açır, ya da tərsinə. Bu məsələ ayrıca düşüncə tələb edir. O ki, qaldı, Türkiyə ilə Azərbaycan arasında istər mədəni, istər ədəbi bağlantıların qurulması, ya da iqtisadi ilişkilərin genişlənməsi – vurğuladığımız qlobal problemləri qarşılayacaq gücdə, çəkidə deyil. Düşünürük ki, qələm adamları da, düşüncə adamları da bu məsələ-

nin üzərinə tez-tez getməli, gündəmdə saxlamalıdırlar. Belə olarsa, bizim bildiyimiz, bilmədiyimiz daha həssas məsələlər aydınlığa çıxar, insanlarımızı daha çox düşündürər.

## Xocalının Pərdələnən İlləri

Bu gün biz, Xocalı soyqırımının sonrakı ildönümü qarşısındayıq. Gələnəksəl olaraq, yeni seminarlar keçirməyi, köhnə şəkilləri yenidən nümayiş etdirməyi, Xocalı abidəsinin böyür-başını gül-çiçəklə bəzəməyi planlaşdırırıq. Ancaq gələcək soylara deməyə ümid verəcək sözümüz yoxdur. Qarabağ uğrunda savaşdıq, minlərlə şəhid verdik. Bununla belə, Xocalı yenə erməninin əlindədir, erməniliyi qoruyan Rusiya yenə Xocalıdadır. Oradan bizi yeni "Xocalı" olaylarının olacağı ilə hədələməkdədir.

Tarixdən bəllidir, Rusiya imperiya kimi qurulub. Çünkü öz varlığı, torpağı, dövləti olmayıb. Türkləri assimilyasiya yolu ilə onların torpaqlarında varlığını oluşdurubdur. Ruslar, bildiyim qədər, Skandinaviyadan gəlmiş ros tayfalarıdır. Böyük qırğınlar bahasına Türk yurdlarında özlərinə dövlət qura bildilər. Bir var, kiminsə dövləti ola, onu qorumaq, genişləndirmək üçün imperiya yarada. Bir də var, başqalarının dövlətini yıxıb yerində öz dövlətini qura. Rusiya belə yaranıb.

Ancaq nə olur olsun, heç bir imperiya sonsuzluğa qədər humanizm oyunları oynayıb başqalarını əsarətdə saxlaya bilməz. Ona görə onun bir yolu qalır, çağaşırı zor işlətmək, başqalarını zorla özünə boyun əydirmək. Belə bir zorakı dövlətin nə vaxtsa ədalətli olacağı, başqalarının haqqını tanıyacağı heç kimin ağlına gəlməməlidir. Rusiyanın nə vaxtsa adil olması – mövcudluğunu itirməsi deməkdir. Adil olmaq basqı altında tutduğu xalqlara özgürlük, bağımsızlıq vermək deməkdir. Rusiya bunu eləmir, eləməz.

Rusiya açıq qırğınlar törətməkdən çəkinmir. Bu onun xislətidir. Ancaq arada "humanizm" pərdələrindən yararlanmağı da gərəkli bilir. Eləcə də, uzaq nöqtələrdən baş qaldıracaq dirənişləri qarşılamaq üçün qlobal tədbirlər görür. Bu tədbirlərin adı seperatizmdir.

Rusiyanın qurulduğu tarixdən üzü bu yana, ən böyük seperatçılıq faktı ermənilikdir. Ermənilik – Rusiyanın mövcudolma şərtlərindən biridir, birincisidir. Bu cür hibrid bir imperiyanı qorumaq üçün Rusiyaya, özü kimi tarixi keçmişi, mənəvi dəyərləri, bəşəri mədəniyyətə qatqısı olmayan bir yaratığı bəlaya çevirmək gərək idi. Rusiya bunu bacardı...

Başqasının torpağında özünə dövlət qurmaq gələnəyi öncələr də olub. Ancaq başqasının tarixi keçmişini, milli-mənəvi dəyərlərini oğurlamaq üçün davamlı siyasi intriqalar, qırğınlar, qan-qadalar törətmək İnsanlıq adına bütünlüklə tərsdir. Ermənilik bu tərslik üzərində qurulub, İnsanlıq adına ləkədir. Belə bir toplum üçün mənəvi ölçü, vicdan, ədalət anlamını itirmiş durumdadır. Ona görə Xocalı soyqırımı baş verməli idi. Baş verdi.

Tarixin ayrı-ayrı dönəmlərində də, sivil topluma qarşı ayrı-ayrı qruplar vəhşiliklər törədiblər. Ancaq belə bir vandalizmin arxasında bütöv bir toplumun durması, ermənilyə xas bir cəhətdir. Zori Balayan kimi, hərfi anlamda, qan içən, körpəyə edilən işgəncədən həzz duyan bir cəlladı özünün alimi, milli şəxsiyyəti sayan bir toplum haqqında başqa cür düşünmək mümkün deyil. Bütöv bir toplumun içindən, belə bir eybəcərliyin təbliğinə qarşı, ən ilkin İnsanlıq koşulları ilə olsa da, yox deyən, etiraz edən erməniyə rast gəlmədik. Belə vəhşiliklərin gerçəkləşməsinə yardım edən, vəhşi bir toplumu daim vandalizmə həvəsləndirən Rusiyanı necə sivil, qabaqcıl saymaq olar?! Xocalı soyqırımını erməninin əli ilə törətdi, "20 Yanvar"ı isə birbaşa özü gerçəkləşdirdi. Hələ uzaq, yaxın tarixdə elədiklərini demirik.

Kimsə deyə bilər, Rusiya necə süni varlıqdır ki, min ildir var?! Ya da, Rusiya necə erməni ilə tutuşdurula bilər ki, son yüzillərdə dünyaya örnək verən ədibləri, düşüncə adamları yetişdi?! Bu sual həm doğaldır, həm də haqlıdır. Rusiya dövlət kimi oturuşdu. Öz içinə yönəlik, daim yeni gəlişmə strategiyaları üzərində işlədi. Rusiya erməni kimi yönətilən deyil, yönətəndir. (Bununla belə, yaradıcı insanların çoxu assimilyasiya elədiyi toplumların arasından çıxdı). Ancaq bütün bu fərqlər, üstünlüklər Rusiyanın erməni vəhşiliklərinə ortaq olmasını ortadan qaldırmır. Tarix boyu Rusiyanın maarifçiliyi

də, mədəniyyətinin yayılması da, humanizm adına atdığı addımlar da yalnız əsarət yaradıbdır. Ən çox bu əsarətin altında inildəyən toplumlardan biri bizik. Rusiyanın qurduğu seperatizm oyunları ən çox bizi sıradan çıxarır, dağınıqlığa uğradır, parçalanmışlığımızı qoruyub saxlayır. Bu gün də içimizdəki Rusiyaseverlik Azərbaycan üçün ölüm saçan epidemiya kimidir. Bu epidemiyanı yayanları çağaşırı başımızda tutub qoruyanlara dirəniş göstərmək – böyük ideyalarla uğraşmağı, milli ideologiya gəlişdirməyi gərəkdirir. Bu dünən də belə idi, bu gün də. Dünəni ötürmüşük, bu gün isə gecikirik...

## Gərəkən xatırlatma

Hələ Birinci Dünya Savaşı sonrası, yəni Osmanlının çökməsi ilə Türkiyənin qurulması çağlarında Azərbaycanı Bolşevik Rusiyası işğal etdi. Başqa sözlə, Azərbaycanın işğalından 3 il sonra Türkiyə Cümhuriyyəti quruldu. Bu gün bəzi antitürk ünsürlər iddia edirlər ki, Atatürk Azərbaycanı o çağlar Leninə satdı. Kökündən yalandır, Atatürkə də, türklüyə də böhtandır. Ağır, yoxedici savaşdan zorən qurtulan gənc Türkiyə Cümhuriyyəti (söhbət Birinci Dünya Savaşından, eləcə də, Türkiyənin qurulması çağlarında Birinci Dünya savaşının uzantılarından gedir) sovetlər imperiyası ilə savaşa girə bilməzdi. Girsəydi Türkiyənin özü bolşevik imperiyasının işğalına uğrayardı. Bir sözlə, Azərbaycan işğal olundu. Sovet imperiyası antitürk güclərin yardımı ilə Türkiyə Azərbaycan arasında Azərbaycan torpaqları hesabına Ermənistan adlanan ələbaxan, yağı bir dövlət qurdu. Bununla da, sovetlərin dağılmasına qədər, Türkiyə nə Azərbaycanla, nə də başqa Türk Respublikaları ilə hər hansı bir ilişki qura bilmədi. Türkiyə özü başqa güclərə dayanaraq özünü Sovetlər İmperiyasının basqısından qorudu. Mən niyə bir az öncəyə gedib bu cümləələri yazdım, çünkü bu günkü çağımıza əslində o vaxtdan baxmaq gərəkdir. Bu günkü durumumuzda alınan-alınmayan məsələlər o dövrün uzantılarına görədir.

Sovetlər dağılandan sonra Yeni Türk Birliyinin yaranması üçün uğurlu ortam yarandı. Ancaq nə yazıqlar, Türk dövlətlərinin yönə-

timində olan insanlar özgür, bağımsız öndərlər deyildilər. Başqa güclərin çıxarılarına uyğun politikalar yürütmək zorunda idilər. Bu gediş isə yaranmalı olan sağlam *Türk Birliyini bir çox illər dala atdı.*

Sovetlərin dağılmasından 30 il keçdi. Ancaq hələ də arzu olunan Türk Birliyi qurulmayıb. NATO kimi, KTMT kimi dünyəvi birliklərin etkisində olan Türk dövlətlərinin Böyük Birlik yönündə diplomatiya sürdürmələri olumsuzdur. Yaxın illərdə gözlənilmir də. Biz istəsək də, istəməsək də gerçəklik budur.

Bir il öncə Azərbaycanda başlayan vətən savaşı bir çox mətləbləri aydınlatdı. Öncə onu deyək, xalqın özünə güvəncində donmuş buzlar hardasa əridi. İnsanlarımız şəhidlik zirvəsinə ucalıb vətənin böyük bir kəsimini işğaldan qurtardı. Ancaq sonuc ürəkaçan olmadı. Bəlli oldu ki, bu savaş Rusiyanın razılığı ilə, Rusiyanın istədiyi koşullar (şərtlər) altında Rusiyanın istədiyi yerə qədər sürdü. Doğrudur, burada Türkiyə ilə Pakistan da Azərbaycana diplomatik yardımlar göstərdilər. Türkiyənin PUAları düşməni yenməyimizdə bənzərsiz qatqılar göstərdi. Belə də olmalı idi. Türkiyə-Azərbaycan bir varlıq, bir candır. Ancaq bir daha vurğulayıram, Türkiyənin Azərbaycanda varlığı Rusiya ilə eşit düzeydə belə deyil. Başqa bir yandan, Türkiyə Azərbaycanda təmsil olunduğu NATO güclərinin istədiyi qədər var. Yalnız bağımsız Türkiyə ilə bağımsız Azərbaycanın iç-içə olması, Birlik yaratması alına bilər. Bu bağımsızlıqlar nə vaxt yaranacaq?! – Bunun tezliklə olacağını demək çətindir. (Ancaq qaçılmazdır).

Bununla belə, Türkiyədə Azərbaycan sevgisi, Azərbaycanda Türkiyə sevgisi var, ancaq bütövlük hələ yaranmayıb, yaranmalıdır. Bizim, Türkiyə-Azərbaycan olaraq, başqa yolumuz da yoxdur!

## Borçalının haqqını tanımaq gərəkdir

İllər öncə bir yazı yazmışdım: "Borçalı Vətəndir, Vətənlə oynamaq olmaz". Yazı 9 il öncə yazılsa da, bu gün də olduqca aktualdır. Çünkü heç bir problem həllini tapmır. Əslində bu problemlərin köklü həllinə heç çalışılmır da. Ona görə də köhnə problemlər yeni faciələr doğurur, hətta gələcək üçün çıxılmazlıqlar yaradır. Hər yerdə, hər zaman, istər toplantılarda, istərsə yazılarımda vurğu elədiyim bir məsələ var: mən siyasətçi deyiləm, bu millətin sadə bir düşüncə adamıyam, dövlət siyasətini də təmsil eləmirəm. Bu səbəbdən də açıq danışıram, doğruları söyləməyi gələcək soylara saxlamağı da yanlış sayıram. Fəlakətlə üz-üzə dayanıb onunla oyun oynamağı düşüncəsizlik kimi qiymətləndirirəm. Bu gün kimi dindirirsən, siyasət dilində danışır. Hərə bir təşkilat yaradıb deyir, mən açıq danışa bilmərəm, sonra ölkələrarası münasibətlərə ziyan gələr i.a. Bir sözlə, elə düşünürlər ki, fəlakəti qılıqlamaqla, ona yalvarmaqla qabağa getmiş olacaqlar. "Quran oxumaqla donuz darıdan çıxası deyil" məsəli yerində deyilmiş məsəldir. Heç kimi avantüraya çağırmırıq. Heç kimi də küçümsəmirik. Ancaq insanlarımıza, özəllikcə Azərbaycanın indiki sınırlarından qıraqdakı soydaşlarımıza durumlarını, fəlakətlərini anlatmaq üçün doğru üsul bəlirləmək gərəkdir. Nə bədbinlik yaratmaq, nə də yalançı ümidlər vermək özünü doğrultmaz. Həm doğruları bildirmək, həm də özünə, gələcəyinə inam yaratmaq yönündə addımlar atmaq gərəkdir. Yoxsa, fəlakətlərin üzünə pərdə çəkib pıçıltılarla danışmağın adına maarifçilik demək daha böyük zərərlər doğurur. Kimə ziyan gələcək, nəyə ziyan dəyəcək, özü bilər. Soydaşlarımızın taleyi qaranlığa sürüklənirsə, açıq danışmaq, həyəcan təbili çalmaq gərəkdir. Biz həmişə iş-işdən keçəndən sonra dişlərimizi qıcıyırıq. Qorxaqlığın sonucu arsızlıq deməkdir. Qorxunu ötməsək arımızı, qeyrətimizi itirə bilərik.

İndi nə demək istədiklərimi aydınlatmaq üçün baxışlarınızı konkret məsələlərə yönəltmək istəyirəm. Sovetlərin respublikalar arasında yaratdığı süni birlik, bu quruluş dağılandan sonra, amansız düşmənçiliklərə çevrildi. Özəllikcə Güney Qafqaz respublikaları arasında anlaşılması çətin olan sorunlar yaşandı. Bu ona görə baş

verdi ki, sovetlər yalançı qardaşlıq görüntüləri ilə milli problemləri arxa plana atmışdılar. Azərbaycan torpaqlarında yaratdıqları erməni dövləti də milli problemlərin gizlədilməsi üzərində yeni işğalçılıq həvəslərinə düşdü. Baxın, Sovetlərin qurulduğu ilk gündən dağıldığı günə qədər yaratdıqları Ermənistan dövlətindən, 4-5 yol, azərbaycanlıların kütləvi deportasiyası həyata keçirildi. Minlərlə soydaşlarımız dədə-baba yurdlarından işgəncələrlə qovuldu. 80-ci illərin sonlarında isə soydaşlarımızın öz torpaqlarından boşaldılması faciəvi qırğınlarla başa çatdırıldı. Üstəlik Azərbaycanın yeni torpaqlarına – çevrəsi ilə birlikdə Qarabağa göz dikildi, qoparıldı. Sovetlər dönəmində, eləcə də onun dağıldığı çağlarda Borçalıdan da soydaşlarımız bir neçə yol deportasiya edilmişdir. Daha açıq sözlə ifadə eləsək, qovulmuşdular. Ayrı-ayrı çağlarda əli qələm tutan, ağzı söz tanıyan adamlarla birlikdə minlərlə insan qovulduqdan sonra nisbi sakitlik yaranmış, hamını arxayınlaşdıran görüntülər sərgilənmişdir.

İrəvan, Göyçə, Zəngəzur, Zəngibasar, Qaraqoyunlu, Ağbaba mahalları, Dağ Borçalının bir hissəsi tam boşaldıldı, üzdən baxanda oradan qovulan soydaşlarımızın faciəsi başa çatdırıldı. Ancaq Azərbaycanın faciəsi başa çatmır, daha amansız şəkildə davam eləyir. İndi buna bənzər aqibət Borçalılara hazırlanır. Azərbaycanın aydın sayılan kəsimi, siyasətçilər, elm adamları da bəyan edir ki, Gürcüstan bizim strateji müttəfiqimizdir. Olsun, buna qarşı deyilik, tərsinə, biz də belə bir münasibətin olmasını istəyirik. Bəs hanı strateji müttəfiqlik?! Bu müttəfiqlik yalnız neft, neft məhsullarının alverinəmi bağlıdır?! Bəs dil-boğaza qoymadan təriflənən bu əməkdaşlıq soydaşlarımıza, bütövlükdə götürəndə Azərbaycanın siyasi varlığına münasibətdə özünü niyə göstərmir?! Bizə görə, Azərbaycan torpaqlarında Ermənistan dövləti yaratmaq Azərbaycan dövlətçiliyinin tarix səhnəsindən silinməsinə hesablanıbdır. Gürcüstan dövlətinin də bu ideyaya qulluq eləməsini onun siyasi davranışlarından açıq görmək mümkündür. Ayrı-ayrı çağlarda Gürcüstandakı soydaşlarımıza qarşı davranışları ayrı-ayrı araqarışdıran adamların, başlıca olaraq ermənilərin əməlləri kimi qiymətləndirsələr də, məsələlərin mahiyyəti tamam fərqlidir. Biz bunları Gürcüstanın dövlət siyasəti kimi qiymətləndiririk. Məsələn, Borçalı məktəblərində Azərbaycanın tarixini

tədris eləmək yasaqdır. Bu məktəblərdə Gürcüstan tarixinin öyrədilməsinə qarşı deyilik. Ancaq bu tarixin bir sıra faktları saxtalaşdırılıb öyrədilir. İddia olunur ki, Börçalı kökənli Azərbaycan türkləri yaşadıqları bölgələrə 17-18-ci yüzillərdə köçürülmüşlər. Toponimləri, geniş miqyasda yer adlarını dəyişdirməklə Borçalıların gəlmə olduqlarını sübut eləmək üçün, tarix dərsliklərində, ya da genel təbliğatlarında, yalançı zəmin hazırlayırlar. Məgər bu, erməni kökənli araqarışdıranların işidir?!

Borçalının çoxsaylı kəndlərində onlarla qədim tarixi olan Alban kilsələri mövcuddur. Bunların çoxunda tikinti-bərpa işləri aparılaraq, oralara gürcü keşişləri yerləşdirilmişdir. Gürcüstan dövlətinin ruhani qurumu həmin kilsələrin adına hektarlarla torpaq ayrılmasını tələb edir. Bu gediş həmin kəndlərdə  yaşayan soydaşlarımızın təsərrüfat-örüş-otaracaq imkanlarının əllərindən alınması deməkdir. Deməli, soydaşlarımız, mövcudluqlarını sürdürmək, qorumaq üçün, ya ölüm-qalım mübarizəsinə girişməlidirlər, ya da köçməli, köçürülməlidirlər. Mübarizə olumsuzdur, çünkü torpağı kilsəyə dövlət verirsə, verəcəksə arxasında da dövlət duracaq. Gürcüstanın gürcü əsilli əhalisi az olduğuna görə Borçalıda demoqrafik üstünlüklər əldə edə bilmir. Burada kilsələr birbaşa demoqrafik üstünlük əldə eləmək vasitəsinə çevrilir. Buna da araqarışdıranlarınmı əməlidir deyək?!

Dünyanın bir çox ölkələrində olduğu kimi, Gürcüstanda da koronavirus pandemiyası adı altında karantin rejimi yaratmaq prosesi başladıldı. Bu karantin rejimi, bütün bölgələrdən fərqli olaraq, Borçalının çevrəsində daha sərt xarakter aldı. Niyə?!  – Bir neçə başqa xəstəliklərdən əziyyət çəkən adamların koronavirusa tutulması səbəb göstərildi. Bu məsələdə də məntiq bizi başqa niyyətləri izləməyə yönəldir. Bir çox insanlarımız yaşamlarını əkin-səpin yerlərinin hesabına sürdürür. Onların aylarla evlərə qapadılması qış hazırlığından məhrum olmaları demək oldu. Bir-iki lokal yardımlarla heç kim qışı-yaza başa vura bilməz. Kimsə deməsin ki, bu durum başqa ölkələrdə də vardır. Əgər doğru araşdırmalar aparılsa, faktlardan qat-qat artıq bəhanələrin olduğu üzə çıxa bilər. Başqa ölkələrin bəhanələrinin nəyə hesablandığı bu yazımızın qonusu deyil. Ancaq Gürcüstandakı bəhanələrin daha çoxunun bizim soydaşlarımızı

təhdid eləməsi düşüncəsindəyik. Bəlkə bu bəhanələr “sivil deportasiya” üsullarından biridir...

Başqa bir faciə milli məktəblərin bağlanmasına yönəlik çağırışlardır. Onsuz da məktəblərimizdə gürcü dili yetərincə tədris olunur, buna qarşı deyilik də. Bəs bütövlükdə milli məktəblərin qapadılması soydaşlarımıza hansı gələcəyi vəd edir, ya da bütövlükdə Azərbaycana nə vəd edir?! Bunu araşdıran, aydınlaşdıran mövqelər sərgilənmir. “Borçalılar Gürcüstan mədəniyyətinə inteqrasiya eləməlidirlər, onun dilində təhsil almalıdırlar” çağırışının arxasında çox qorxunc bir gələcək hazırlanır. “İnteqrasiya” kəlməsi ağızlarda yaxşı səslənir, humanist, demokratik bir anlayış kimi görünür. Ancaq bütün bu çabalar bir toplumu assimilyasiyaya hazırlamaqdan başqa bir şey deyil. Milli şüurunu, göz yaddaşını, tarix yaddaşını itirən, mənsub olduğu mədəniyyəti öz dilində ifadə eləməyən, daha geniş anlamda milli mədəniyyətini tanımayan, dərk eləməyən bir toplumun ölüdən nə fərqi var ki?! Belə çıxır ki, bizim soydaşlarımız orada mövcudluqlarını  sürdürmək üçün manqurtlaşmalıdırlar. Bizə görə bunu düşünmək (hələ yaşamaq demirik) ölümə bənzəməkdir. Biz Borçalıda xırda bir etnik deyilik, böyük bir millətin bir parçasıyıq. Bəşər mədəniyyətləri içərisində həlledici çəkisi olan bir mədəniyyətin daşıyıcılarıyıq. Bu böyük mədəniyyəti təhsilimizdən, tariximizdən, yaddaşımızdan uzaqlaşdırıb problemləri ortadan qaldırmağı mümkün sayanlar bunu necə əsaslandıra bilərlər?! Milli problemləri dərinləşdirməklə, bir toplumun milliliyini ortadan qaldırmaqla hansı problemlər ortadan qalxacaq?! Bizə görə Gürcüstan dövləti bütün bu deyilənləri hesaba almalıdır, ya da biz nə istədiyimizi doğru, əsaslı bəlirləməliyik. Problemləri gizləməklə həllini tapmaz, onu açıq qoymaq, açıq demək gərəkdir ki, həllinə doğru addımlar bəlirləmək mümkün olsun. Yoxsa biz Gürcüstana dost deyirik, onlar bizə qarşı düşmənçilik sərgiləyirlər. Bu məsələnin də sağlam, doğruçu həllini düşünən soydaşlarımız Gürcüstan dövlətinin qara siyahısına yazılır... Azərbaycan dövləti bu məsələlərdə söz deməli, ortaya siyasi mövqe qoymalıdır. Yoxsa gec olacaq. Əgər biz istəmiriksə Ermənistanla Azərbaycan arasında yaranan düşmənçilik Gürcüstanla Azərbaycan arasında da olsun, onda diplomatik danışıqlar başlamalı, problemləri çözmək

üçün birgə komissiyalar qurulub işə keçməlidirlər. Düşünürük ki, diplomatik danışıqlara Türkiyə də qoşulmalıdır. Çünkü Borçalı problemləri Türkiyənin də milli-siyasi çıxarlarına uyğun deyil. Üstəlik Türkiyə ilə Gürcüstan da müttəfiq sayılırlar. Müttəfiqliyin səmimi olması siyasi davranışlarda aydınlığın olmasını tələb edir.

Borçalıda da "Topxana olayı"nın yarana biləcək ehtimalının qarşısını indidən almaq gərəkdir. Yoxsa biz "lazım gəlsə" sindromunu yeni biçimdə yaşatmalı olacağıq...

## Asif Atanın Mütləqə İnam Ocağının ölçüsü açısından 44 günlük savaşa baxışım, çağırışım

Sentyabrın 27-dən başlayaraq, Vətənimiz Azərbaycanda savaş gedir. Tarix boyu İnsanlığa qarşı yaşayan, heç bir bəşəri dəyər yaratmayan, hər zaman bəşəri dəyərləri ayaqlamağa çalışan bir toplumla qarşı-qarşıya qoyulmuşuq. Erməni adlanan bu topluma arxa duranlar da İnsanlığın düşmənləridir. Dünyanı alçaqlıqla, alçaqları qullanmaqla yönətənlər hər yöndən varlığımıza əngəl törədir, bizi parçalanmış, dağınıq durumda saxlayır, xalq kimi toparlanmağımızın qarşısını kəsirlər. Bunun üçün torpaqlarımızı hissə-hissə əlimizdən alıb erməniləşdirir, torpaqlarımızı qorumağa qalxanda isə bizi "zavallı, yazıq, məzlum" ermənini məhv edən, savaşa meyilli xalq kimi göstərməyə çalışırlar. Bu baxımdan yanaşanda biz bu gün gələcəyi bəlli olmayan ermənilərlə deyil, əslində onun arxasında duran imperialist güclərlə döyüşürük. Ancaq dünya haqsevər toplumlardan xali də deyil. Dost, qardaş Türkiyə başda olmaqla bir sıra qabaqcıl düşünən ölkələr də haqq işimizə dəstək olurlar. Özəlliklə vətənini sevən, düşmənə qarşı barışmaz olan xalqımız milli, insani ləyaqətimizin tapdalanmasına qarşı toparlanıb hər cür birlik, fədakarlıq göstərir. Keçən yüzilin başlanğıcından başlayaraq, ata-baba torpaqlarından qovulan, aşağılanan xalqımız soyqırıma uğramağa, təhqir olunmağa , körpələrimizin, gənclərimizin, ahıl insanlarımızın öz evinin içində amansızcasına məhv edilməsinə son vermək üçün ayağa qalxmışdır. Hesab edirik ki, dövlətimiz bu tarixi şəraiti ciddi

dəyərləndirməli, sonacan xalqımızın tələblərinin arxasında durmalıdır. Biz barışsevər, humanist bir Qurum olsaq da, xalqımızın tələblərinin ödənməsini, addımın dala qoyulmamasını istəyirik. Erməni ilandır, onunla dinc, yanaşı yaşamaq mümkün deyil. İlanın başı əzilməlidir. Yağıya qarşı güzəşt xalqımıza qarşı xəyanət demək olar. Odur ki, döyüşkən, qorxmaz, ləyaqətli ordumuzun gücünə arxalanaraq savaşı başa çatdırmaq, savaş sonucunda erməniyə hər hansı status tanımamaq gərəkdir. Əgər Qarabağda erməniyə hər hansı bir status tanısaq, o, zaman-zaman havadarlarına söykənərək içimizdə genişlənəcək, yenidən körpələrimizin, gənclərimizin, yaşlılarımızın qanını tökəcək, dincliyimizə qənim kəsiləcəkdir. İçimizdə hər hansı bir status alan ermənini qorumaq, "humanizmi" bərpa eləmək adı ilə dünyaya ağalıq edən güclər Azərbaycana hər zamankı kimi əl qoyacaq, ona qarşı sömürgəçi siyasətlərini sürdürəcəklər. Başlıcası, Azərbaycanı federal dövlətə çevirməklə, onun dövlətçilik varlığına son qoymağa çalışacaqlar. Azərbaycanın Güneyə doğru genişlənmək, Bütövləşmək imkanı var. Bu imkanın yolunu kəsmək üçün ermənini federal subyekt kimi bizə qəbul etdirməyə çalışanlar, sabah Azərbaycanın ayrılmaz hissəsi olan qardaş etnikləri də federal subyektlərə çevirməyə cəhdlər edəcəklər. Azərbaycan unikal dövlətdir, onu federallaşdırmaq – parçalayıb yox etmək deməkdir. Ona görə xalqımız, dövlətimiz səfərbər olunmalı, bəşərsevər xalqların dəstəyinə söykənərək, Azərbaycanın başı üzərində dolaşan qara buludları biryolluq dağıtmağa çalışmalıdır.

Bütün bunların nə qədər çətin olduğunu biz dərk edirik. Ancaq tarix səhnəsində qalmağımızın başqa yolu yoxdur. Xalqımıza, dövlətimizə uğurlar diləyirik, xalqımızı, dövlətimizi sevirik!

## İnsanlığı itirən Sivilizasiya dağılmağa məhkumdur

Bəşəriyyətin elmlə, texnologiyaların gəlişməsi ilə öyünməsi özünü doğrultmur. Bu gün yaşanan pandemiya qorxusu bəşəriyyəti öncəki yüzillərin çıxılmazlığına qaytarıb. Öncəki yüzillərdə epidemiyanın, deyək ki, 19-cu yüzildə yayılması daha gerçəkçi idi. İndiki pande-

miyanın yayılması isə daha az gerçəkliyə bənzəyir. Dünyada insanlığa qarşı tərtib olunan axmaq oyunlar insanları o qədər yorur ki, bundan sonra doğru bir şeyə də inanmaq çətin olacaq. Ancaq nə olsa da, "can şirindir" deyərlər, qorxu düşüncələrdə, gözlərdə yaşamaqda davam edir. İnsanların hər şeyə baxışlarında qorxu ilə şübhə birləşib olduqca yorucu, usandırıcı bir sürəc formalaşdırıbdır. Heç olmasa bunlardan biri (ya qorxu, ya şübhə) olsaydı, insanlar ağır durumlarda sarsıntılı yaşamazdılar. Qorxu altında dolanmaq, mövcudluqlarının tükdən asılı olması şüuru ilə üzülmək sivilizasiyanın insana qarşı olmasını görüntüləyən bir gerçəklikdir. Bəlkə də, bədənin milyardda bir parçası da olmayan, gözə görünməyən canlı (varlıqla) ilə həyatını paylaşmaq qorxusu – az qala bütün dəyərləri düşüncələrdə heçə çevirir. İnsan ömrünün heç bir dəyərinin olmaması düşüncəsi yaradır. Burada ağıla qəribə bir paralellik gəlir: Min illərdir Göyel dinlər insana, buna bənzər bir qorxunu aşılayır: "Sən günahdan doğuldun, sən bir heçsən, sən qulsan, köləsən, yalnız Allah hər şeydir...". Siyasətin yaratdığı pandemiya qorxusu, dinlərin yaratdığı Allah qorxusu qədər amansız, qəddar bir şüurdur. Allah da gözə görünmür, virus da. Ancaq bu gözə görünməz balaca "Allah" (virus) daha real qorxu kimi yeriyir (ya da sırınır). Bununla belə, bu "Allah"ın heç yerdə insanları öldürdüyünə rast gəlinmir, ancaq təbliğatlar qorxunc bir inam mənzərəsi yaradır. İnsanı qorxudurlar, cılızlaşdırırlar, öldürürlər. Başlıcası isə, biz mənəviyyatın ölümünü seyr edirik, fiziki ölümləri sadəcə eşidirik. Eşitdiyimiz fiziki ölümlər əyridir, doğrudur, gerçəkdirmi, saxtadırmı, – bilmirik. Ancaq mənəvi ölümlərin gerçək olduğunu gözlə görür, ağılla da dərk edirik. Mənəvi ölümlərin çeşidləri çoxdur. İnsanların özünü tənha sayması, tənha bilməsi, heç kimin heç kimə gərəyinin (faydasının) olmaması şüuru böyüdülür. Bu şüurla yüklənən insan başqasına sevgi, sayğı duyğularında yoxsullaşır, vecsizləşir. Gözündə həyatın dəyəri adiləşən insandan daha nələr gözləmək olar ki?! Uzun çağlardır hər kəsin danışmaq istədiyi qonu, gözə görünməyən mikrovarlıqdır. Ona görə çox vaxt hamı bir-biri üçün darıxdırıcı, usandırıcı olur. Çünkü heç kim bu qonuda duyğulanmır, ümid tapmır. Ona görə "dərdləşmək" anlayışı da ünsiyyətləri tərk edir. Dərdləşmək – dərdi tanımaq, dərk

etmək, onun etkisindən çıxmaq anlamı daşımalıdır. Dərdləşmək – ümidsizlik yaradan anlayışa çevrilməməlidir. Çevrilirsə, öz mənasını itirir...

İllər öncə, mən amaldaşlarımla ünsiyyətimin adını "Ürəklərin ruhani hekayəti" qoymuşdum. Bu ünsiyyətlər, doğrudan da, ürəkləşmə idi. Yəni dərdləşməkdən daha üstün bir ünsiyyət idi. Böyük idealları tanımaq, yaşatmaq meyli, belə bir əmələ vurulmaq, böyük arzuları ömürə gətirmək, böyük həqiqətlər sevdalısı olmaq, bir sözlə, həyatını yüksək istəklərə uyğun qurmaq – doğrudan da, "dərdləşmək" sözü ilə ifadəyə gəlməz. Bu elə ürəkləşməkdir – ürəklərin ruhani hekayətidir!

İndi "koronavirus pandemiyası" anlayışı elə acıqlı, elə amansız təbliğ olunur ki, ürəklər sanki bütün gözəlliklərdən, hər cür nəcib duyğulardan boşalır. Boş ürəklərdə həyat haqqında olduqca qarışıq-dolaşıq duyğular toplaşır, sanki insanın qanı ilə birgə bütün vücudunun ən xırda nöqtələrinə qədər daşınıb ümidsizliyin iniltilərinə çevrilir. Bu hal ölümdən daha betər ölümdür. Bu halı yaradanlar dünyanı, həyatı insanın gözündə mənasızlaşdırmaqda israrlı görünən kabuslara çevrilməkdədir. Bundan qurtulmaq imkansız göstərilir. Həyatın İblisdən qurtula bilməməsi qədər əbədi əzablı bir yola bənzədilir. Din təbliğatı ilə doydurulmuş adamlar həyatın İblisdən heç vaxt qurtula bilməyəcəyini düşünür, buna inanır da. Əslində bu hal Allaha inamsızlıq deməkdir. Bir halda ki, "dünya belə gəlib, belə də gedəcək" – deməli, bu dünyada Allaha inanmaq üçün heç bir səbəb qalmır. "Allah hər şeyə qadirdir" inamı – "Allah pis şeylərə qadirdir" düşüncəsi ilə əvəz olunur. Yəni "dünya ona görə uçub dağılır ki, Allah insanı pis əməllərinə görə cəzalandırır, hər şeyi alt-üst edir" deyə düşünülür.  Yenə də pis şeylər Allahın adına yazılır. Yuxarıda bəhs etdiyimiz dolaşıq şüurlar da belə şeylərdən başlanğıc götürür...

Biz "Allah anlamı"na inanırıq, yəni dünyada dünyadan artıq olan Mütləq var. Ancaq bu Anlamın dağıdıcılıqla uğraşdığı "məntiqinə", dünyanı, insanı cəzalandırması şüuruna inanmırıq. Dünyanın mənasında müqəddəslik var, insan onu yaşam ölçüsünə gətirməlidir.

Asif Atanın dediyi kimi: “İnsanlaşın – İnsanlaşdırın, Bəşərin qurtuluşu İnsanlaşmaqdadır!”.

## İşğala qarşı hiddətimiz böyük gücə çevrilməlidir

21 may – çox qəribə olaylar yaşandı. Ermənistan özünün ikinci dövləti saydığı Qarabağda yeni prezidentinin andiçmə mərasimini keçirdi, özü də Şuşa şəhərində. Güneyli, Quzeyli bir çox Azərbaycan insanları, hətta Türkiyədən ayrı-ayrı insanlar ağır, gərgin hallar yaşadılar. Azərbaycanın dövlət başçısına, Qoruma Baxanına yalvaranların halını da sosial şəbəkələrdən izləyə bildik. Hamı “vur, qoyma belə bir biabırçılığı yaşayaq” deyirdi. Milli tariximizə ləkə salanları vur, yerində oturt, qoyma gələcək soylar milli tariximizdə bizim üz qaralığımızı oxusunlar deyə yanıb-yaxılanların halını ifadə eləmək çox çətindi. Ancaq dövləti sömürüb məhv edənlərə bu halları necə anlatmaq, qandırmaq olar ki?! Ermənilər, Azərbaycan torpaqlarından özlərinə qurduqları ikinci dövlətə rəhbər seçəndə Azərbaycanın dövlət başçısı talançı məmurların yaxın qohumlarını icra başçısı təyin edir, baxışları yalançı, qurama islahatlara yönəldir. Sonra da rejimin əlaltı basın yayınlarında Milli Məclisə təyin olunan yalmançıların, yalançıların iç, dış gedişləri dəyərləndirmə kampaniyasını izləyirik. Genel olaraq, son bir ayda onların sərgilədikləri düşüncəsizlikləri izləsək, görərik ki, toplumumuzu Şuşada keçiriləcək andiçmə mərasiminə hazırlayırlarmış. Bununla bağlı ayrı-ayrı örnəklər göstərib düşüncələrimizi ifadə eləmək olar. Yazırlar ki: “Batı Ermənistanı özününkü saymır, ona güvənmir”; “Rusiya hakimiyyətinin İrəvana qarşı inamsızlığı güclənir”; “ermənilərin gözündə Paşinyanın nüfuzu getdikcə azalır”; “Ermənistanda koronavirusdan ölənlərin sayı Azərbaycandakından daha çoxdur”... burada bu cür avantürist başqatmaların sayını artırmaq da olar. İstəyimiz məsələnin mahiyyətini aydınlaşdırmaqdır. Elə düşünülə bilər ki, bu təbliğatlar düşmənlə informasiya savaşının bir parçasıdır (tərkib hissəsidir). Biz belə düşünmürük. Bizə görə, miskin bir ümid yaratmağa çalışan bu təbliğatın məqsədi hakimiyyətin yarıtmazlığını ört-basdır eləmək üçün-

dür. Ortada fakt var, Paşinyanın öz ölkəsində qalib, ya da məğlub olmasının Azərbaycana istisi, soyuğu nədir axı?! Məgər Paşinyanın yerinə gələcək başqa bir erməni Qarabağı Azərbaycana qaytaracaq?! Heç kimin gözü yumulu deyil ki, gerçəkliyi sizin təbliğatınızın əsasında anlasın. Ermənistanda iqtidar-müxalifət çəkişməsini, öz toplumuna qarşı, başqatma təbliğatına çevirməkdən daha eybəcər əməl ola bilməz.

Azərbaycan Silahlı qüvvələri genişmiqyaslı təlimlər keçirir deyə Paşinyana mesaj verənlər Paşinyanın Şuşada yallı getməsindən xəcalət çəkməliydilər, çəkə bilmədilər. Ermənilərin gerçək addımlarının qarşılığında isə "Rəsmi Bakı ermənilərin bu cür təxribatçı əməllərini həmişə pisləyib" deməklə cavab verdiklərini sanırlar. Bu o deməkdir ki, adamı ilan çalır, o isə durub ilanı danlayır. Bu durum iqtidarımızın səviyyəsinə görə gülməli, xalqımızın düşdüyü duruma görə ağlamalıdır. Bunlar Azərbaycanı tragikomediya səhnəsinin faciəvi obrazına çevirdilər.

İqtidaryanlılar yazırlar ki, Rusiya İrəvanı gözdən salıb. Dünyada hər kəs bilir ki, Qarabağı erməni üçün qoruyan qüvvələrdən birincisi Rusiyadır. Əgər Rusiya İrəvanı gerçəkdən gözdən salıbsa, bəs nə üçün ordumuz Şuşadakı "andiçmə"ni dağıtmadı?! Onda belə çıxmırmı ki, bizim iqtidarımız erməniyə işləyir?!

İllərdir Qarabağda seçkilər keçirilir, ermənilər quruculuq işləri aparırlar, bizimkilər də deyir, ermənilərin bu əməlləri danışıq prosesinə ciddi zərbədir. Ancaq yenə də danışıqlara gedirlər, silahı işə salmırlar. İllərdir ermənilər beynəlxalq hüquqa tüpürür, Azərbaycan hakimiyyəti isə beynəlxalq hüquqa yalvarır. Ancaq beynəlxalq hüquq nə ermənin ona tüpürməsinə baxır, nə də Azərbaycan siyasətinin yalvarmasına. Millət vəkili adı daşıyan cılızlarımız isə deyir, biz duyğularımızla hərəkət edib erməni vura bilmərik, bu böyük risk olar, beynəlxalq hüquq bizi qınayar...

Baxın, Ermənistan hökumətinin başçısı Azərbaycan torpaqlarına öz ölkəsi kimi gəlib-gedir. ATƏT-in Minsk Qrupu da deyir, danışıqlar prosesini heç nəylə əvəz eləmək olmaz. Azərbaycan iqtidarı boş-boş vədlər verməkdənsə, ya ermənin arxasındakı gücləri açıq nişan verib ifşa etməyə özündə güc tapmalıdı, ya da ermənidən güclüyük,

"lazım gələrsə" deyib xalqın qulağını yormamalıdır. Addımbaşı təbliğat aparırlar ki, ABD-də erməni lobbisi Ermənistana kömək göstərir, ona görə Qarabağ uğrunda danışıqlar heç bir sonuc vermir. Bunu boynuna almaq – erməni bizdən güclüdür deməkdir. Belə deyilsə, o zaman erməniyə Azərbaycanın gücünü göstərmək gərəkdir. Ancaq kim göstərəcək bu gücü?! – Bişkekdə "atəşkəs"ə qol çəkildi. O gündən erməni Qarabağda oturuşmağa, özünə dövlət yaratmağa başladı,əldə elədi də. Bu ortamı onlara yaradanlardan hansı gücü ummaq olar ki?!

İndi Şuşada andiçmə hoqqasını qeyrətinə sığışdırmayaraq, yanıb-yaxılanlara üzümü tuturam: bu olay, sizin kimi, mənim də qeyrətimi ayaqladı, sizin qədər mənə də yer elədi. Ancaq ortada fakt var – Şuşa işğal olunub. Nə qədər ki, işğaldan qurtulmayıb, erməni orada seçki də keçirəcək, yallı da gedəcək. Sarsılıb özünü məhv eləmək – belə böyük Milli sorunu yoluna qoymaz. Biz hiddətimizi acizlik girdabında xərcləməli yox, ciddi Mübarizə üçün qorumalıyıq.

## Millətçilik – Dirçəlişimiz, Dirənişimiz

Əsil Millətçilik odur ki, başqa millətlərin əskikliyini istəməyəsən. Doğruçu millətçilik humanizm anlayışının mənası ilə təndir. Başqa millətlərə qarşı yağı düşüncələr sərgiləmək, insanlığa uyğun olmayan çağırışlar eləmək, bunu da guya öz millətinin xeyiri üçün eləyirmiş kimi görüntü yaratmaq – şovinizmdir, faşizmdir, Millətçilik deyil. Yazımıza nədən belə bir qısa giriş verməklə başlayıram?! – Mən Millətçiyəm, Vətənimi, onun dəyərlərini düşünən, yayılmasına, yaşadılmasına çalışan biriyəm. Ancaq belə bir düşüncəm var ki, Rusiya içindən dağılmasa, onun güdümündə olan Türk toplumları bağımsızlıq əldə eləməsə, Azərbaycana uğurlu bir gələcək qurmaq soruna çevriləcək. Bu yanaşma şovinizmdirmi?! – Deyil! Nədən belə düşünürəm?! – Rusiya hər zaman zor yetirir, zorakılığı yaşadır. Azərbaycana, ərəblərdən sonra, ən böyük zərbəni Rusiya vurub. İstər çar Rusiyası olsun, istər Bolşevik Rusiyası, Azərbaycana qarşı hər zaman zor işlədib, bölüb, parçalayıb, indi də bu işin arxasında durur. Tarixi

faktları burada sadalamadan, baxışları indiki durumumuza yönəltmək istəyirəm. Mətbuatımız yazır ki, Paşinyan Şuşanın işğalı günüylə bağlı Dağlıq Qarabağa gəlib. (Baxın, biz itkimizə yas tuturuq, onlar işğalı bayram edirlər). Sonra da yazırlar, gərəkərsə, Qarabağı 40 günə işğaldan qurtara bilərik. Bəs niyə gərəkmir, bəs niyə qurtarmırıq?! Rusiyanın adını açıq hallandırmasalar da, bunun niyəsi hamıya bəllidir. Deməli, Rusiya qoymur biz gələcəyimizi quraq. Ona görə mən Rusiyaya nifrət bəsləyirəm. Bax, bu nifrət məni şovinistləşdirmir. Tərsinə, elə millətçilik də, humanizm də bu deməkdir. Şərə nifrət bəsləməsən, xeyirə qulluq göstərə bilməzsən. Bəs Rusiyaya qarşı yönələn nifrət rus millətinədəmi özgün olur?! – Bu suala da açıq cavab vermək gərəkdir: əgər rus milləti Rusiya imperiyası ilə birdirsə, birlikdədirsə nifrətim də bu bütövlüyə qarşıdır. Ancaq bu məsələni aydınlaşdırmaq üçün öz durumumuza baxmalı olsaq, fərqli bir düşüncə ilə də üzləşə bilirik. Məsələn, bizim düşüncələrimiz, baxışlarımız, çoxluq olaraq, Azərbaycan hakimiyyətinin baxışları ilə üst-üstə düşmür. Söz yox, Rusiya toplumunun da, çoxluq olaraq, baxışları siyasi hakimiyyətin ağalıq istəyi ilə üst-üstə düşmür. Ona görə nifrətimiz millətə qarşı deyil, imperiyaçılıq siyasətinə qarşıdır.

Düşünürəm ki, sayğılı oxucu mənim bu həssaslığımı doğru dəyərləndirəcəkdir. Mən ideya daşıyıcısıyam, millətlərə qarşı yağı düşüncələr sərgiləyən birisi kimi anlaşılmamalıyam. Bəşəri dəyərləri anlayan, sevən, yayan düşüncə adamıyam. Ancaq düşünürəm ki, bizə görə ən böyük bəşəri dəyər Millilikdir, Millətçilikdir. Mücərrəd bəşərilik yoxdur, Bəşərilik – Millətlərin içində yaşayan, yaşadılan insani dəyərlərdir.

İndi Paşinyanın Qarabağa gəlməsi qonusuna qayıdaq. Vurğuladıq ki, Şuşanın işğal gününü ermənilərin bayram keçirməsinin arxasında Rusiya durur. Söz yox, Qarabağ məsələsinə münasibət Ermənistanın siyasi hakimiyyətinin başlıca göstəricisidr. Başqa sözlə, Ermənistanda siyasi hakimiyyətə gəlməyi də, qalmağı da, getməyi də Qarabağ faktına yanaşma bəlirləyir. Hətta bu fakt Ermənistandakı sosial etirazlardan daha çox önəm daşıyır. Çünkü siyasi hakimiyyətə qarşı sosial etirazları yalnız erməni toplumu sərgiləyirsə, Qarabağ məsələsinə görə həm erməni toplumu münasibət sərgiləyir, həm də bu böl-

gədə siyasi çıxarları olan dış güclər. Özəllikcə Rusiya. Ona görə Paşinyanlar Qarabağa yiyəlik iddiası ilə yanaşırlar. Eyni halda, Ermənistan rəhbərliyi Qarabağa rahatca gəlib-gedə bilir. Çünkü bilirlər, Azərbaycan hakimiyyətinin nələrisə tələb eləməyə, nələrəsə etiraz eləməyə heç bir gücü yoxdur, sözü də heç yerdə keçmir, sözünü heç kim eşitmir...

Batı ilə Rusiya arasında "dovşan siyasəti" yürütdüyünə görə Paşinyanı Rusiya sevmir (heç Batı da sevmir). Onsuz da Rusiya erməni toplumunun xislətinə bələddir, onun ipinin üstünə odun yığmaqda arxayın deyil. Ancaq bununla belə, sovetlər qurulub dağılandan üzü bu yana erməni Rusiyadan qırağa dartınmamışdır. Ancaq həşiri ağlından üstün olan Paşinyanın Batı yarıminqilabının başında görünməsi Rusiyaya yeni dərs oldu. Paşinyanların simasında Rusiyanın kadrları əvəzlənə bilər. Onsuz da ermənin özünün heç nəyi yoxdur. Bu marionet dövlətin başına keçmək istəyənlər ya Batının buyruğunda olar, ya da Rusiyanın. Yalnız toplumun gücü ilə, istəyilə Ermənistanda hakimiyyətə gəlib uzun müddət qalmaq olumsuzdur. Çünkü Ermənistan iqtisadi blokadada olduğundan öz imkanları ilə sosial tələbləri ödəmək gücündə deyil. Yardım qıraqdan olmasa nə hakimiyyətin, nə də bütövlükdə dövlətlərinin ayaqda qalması olumsuzdur. Deməli, ya Batıya, ya da Rusiyaya boyun əymək qaçılmazdır. Paşinyanın Batıya üz tutması isə, heç də, onun qabaqcıl düşüncəli, islahatçı, siyasətçilərin anlayışı ilə desək, demokratik quruculuq axtarışında olması anlamına gəlməz. Sadəcə Ermənistan hakimiyyətində oturdulmaq üçün seçim eləməli olub. Çünkü Rusiyanın öz kadrları var. Bu kadrlardan qıraqda kimin könlünə hakimiyyətə gəlmək düşürsə, qaçınılmaz olaraq, Batının ətəyindən tutmalı olacaq. Uzun illərdən bəri bu istəklərdə bulunanlardan birincisi Paşinyan oldu. Bundan sonra Paşinyanın siyasi taleyi özündən sonra Batıyönlülər üçün bir ölçü rolu oynayacaq – yəni Batının öz kadrlarının arxasında durub-durmaması Batıya meyilli olub-olmamağı bəlirləyəcəkdir. Ancaq Rusiyanın da öz kadrlarının arxasında durması çətinləşir. Çünkü erməni toplumunun sosial sorunları çözümünü tapmır, xaos ortadan qalxmır. Bu səbəbdən erməni toplumu Rusiyanın Ermənistan hakimiyyətində olmuş kadrlarını sevmir. Görünür, Rusiya köhnə

kadrlarını, hələlik, qırağa qoymadan bu baza üzərində yeni kadrlarını yetirmək haqqında düşünməli olacaq. Bölgədə Batıya uduzmamaq üçün bu məsələni gözdən keçirmək zorundadır...

Dedik ki, Rusiyanın siyasi başbilənləri içərisində Paşinyan qəbul olunmur. Ancaq beləəri həm də Rusiyanın işinə yarıyır. Belə ki, Paşinyanın gəlişi ilə Ermənistanın iqtisadi-sosial durumu heç də qabağa getmədi, tərsinə, geriləd. Söz yox, bunun nədəni də Rusiyaya bağlıdır. Yəni Rusiya Paşinyanı sıxışdırmaq üçün Ermənistanın iqtisadi geriləməsində maraqlıdır. Ancaq ən azından geriləmə ermənilərə sübut eləyər ki, Rusiya olmasa onlar acından ölərlər, həm də türklərin ayaqları altında qalarlar. Beləcə, Rusiya ermənin üzərində etkisini qorumağa çalışır. Rusiyanın erməni üzərində qəyyumluğunun ən böyük faktı isə, yuxarıda vurğuladığımız kimi, Qarabağ məsələsinə münasibətdir. Rusiya Paşinyanı sevsə də, sevməsə də, onun Qarabağa rahat gəlib getməsi də, Şuşanın işğal gününü bayram eləməsi də Rusiyanın Ermənistanı Azərbaycandan qorumasına görədir.

Bütün bu məsələlər, Azərbaycan olaraq, bizim iradəmizdən qıraqda gedir, həm də bizə qarşı baş verir. Bunları gözə alıb, yenə də baxışları Güney Azərbaycan məsələsinə yönəltmək istəyirik. Nə düşünürük düşünək, hara çəkirik çəkək, bizim qurtuluşumuz Güney Azərbaycana bağlıdır. Bu şüur – O Taylı, Bu Taylı insanlarımızın varlığına hakim olmalıdır. Bunun üçün düşüncələrdəki bir sıra yanlışlıqlara aydınlıq gətirmək gərəkir. Biz deyəndə ki, Qarabağın taleyi bizdən nə qədər asılıdırsa, bizim də (Azərbaycan Respublikasının) taleyimiz Güney Azərbaycandan asılıdır, bir sıra insanlarımız yanlış düşüncə sərgiləyirlər (söhbət Azərbaycan Respublikasındakı insanlarımızdan gedir). Onların düşüncəsinə görə, Güney Azərbaycanlılar özləri özlərini qurtara bilmirlərsə, bizi necə qurtara bilərlər?! Bu, olduqca qorxulu görsənişdir. Hər kəsin öz kəndi-köyü haqqında düşünməli olması – Bütövlük şüurunun parçalanması deməkdir. Bizim taleyimiz Güney Azərbaycandan asılıdır deyəndə, biz Quzey Azərbaycanı sorumluluqdan qıraqda saxlamırıq. Bizim taleyimiz Güney Azərbaycandan asılı olduğu dərəcədə, Güneyin qurtuluşu da bizdən asılıdır. Yəni bizim qurtuluşumuz Bütövləşməyimizdən asılı-

dır... “Biz Qarabağı qurtara bilmirik, Güney Azərbaycanı necə qurtaraq” düşüncəsində olanlar da az deyil. Bilmək gərəkdir, Qarabağ, insanlarımız oradan qovularaq, işğal olunub. Qarabağda bircə cücəmiz belə qalmayıb, ancaq Güney Azərbaycanda 35-40 milyon insanımız var. Bu, böyük qüvvədir, böyük ümiddir. Bizə, düzgün ideya ortaya qoyaraq, düzgün təşkilatlanmaq, düzgün hərəkət eləmək qalır.

Sonra, “Azərbaycanın birləşməsini heç kim istəmir” deyənlər bilməlidirlər: Qarabağı qaytarmağımızı da heç kim istəmir. Bəs nədən Qarabağı qaytarmaq gərəkdir deyirsiniz, Güneylə birləşməliyik çağırışları eləməkdən çəkinirsiniz?! Yoxsa şüurunuzda Güney Azərbaycanı tarixin arxivinəmi gömürsünüz?! Əgər belədirsə, onda Azərbaycanın sorunlarının çözümünü istəməyən qüvvələr, Qarabağı da sizin şüurunuzda arxivə göməcəklər. Söz yox, bu çağırışımız Güney Azərbaycanı düşünən az sayda insanlarımıza deyil. Ancaq onların da içində məsələyə yanlış yanaşanlar var. Məsələn, Güney Azərbaycanın öncə bağımsız dövlət kimi qurulub ayrılmasını düzgün sayanlar var. Yəni, ikinci Azərbaycan dövlətinin yaranması ideyasını dəstəkləyirlər. Bizə görə, bu düşüncə ermənilərin dünyada ikinci erməni dövləti yaratmaq istəklərinə bənzəyir. Ermənilər elə düşünürlər ki, ikinci erməni dövləti yaradıb dünyaya tanıtsalar, sonradan onu Ermənistanın tərkibinə qata bilərlər. O tay, bu Tay Azərbaycanlıların bəzilərində də buna oxşar düşüncənin yaranması həm yanlışdır, həm də zərərlidir. Bilmək gərəkdir, erməni başqasının (yəni bizim) torpağını işğal edib. Bu gün bunu dünyanın gözü qabağında Ermənistana qatması alınmır. Nə olsa da, beynəlxalq qurum sayılan BMT-nin prinsiplərinə uyğun gəlmir. Çünkü erməniliyi qoruyan beynəlxalq qurumlardır, erməni bu qurumların istəklərindən ayrı addım ata bilməz. Ancaq Azərbaycan başqalarının torpağını işğal eləyib özünə dövlət yaratmır. Öz torpağında birləşməsinə, bütövləşməsinə çalışmalıdır, tarixi haqqını bərpa eləməlidir. Deyə bilərlər, bu da BMT-nin prinsiplərinə uyğun deyil. Bu məsələdə biz özümüzü, haqqımızı ermənilərlə tutuşdurmalı deyilik. Biz beynəlxalq qurumların oyunlarında yıpranmalı deyilik. Bu məsələdə biz özümüzü Almaniya ilə tutuşdura bilərik. 1945-də Almaniya zorən bölündü.

1949-da BMT yarandı, öz prinsiplərini bəlirlədi. Ancaq Sovetlər dağılan kimi, Almaniya BMT-nin prinsiplərini qırağa qoyub birləşmək qərarı verdi. Bəlli, Almaniyanın birləşməsini istədilər, bizim Bütövləşməyimizi istəmirlər. Onlara qalsa, bizim yaşamağımızı da istəmirlər. Bəs biz özümüz necə, Var olmaq, yaşamaq istəyirikmi?! – İstəyiriksə, özümüz-özümüzə "Beynəlxalq güclər", "beynəlxalq prinsiplər" adında əngəllər yaratmayaq. Bu əngəlləri öncə şüurumuzda ortadan qaldıraq, sonra haqlı istəklərimizə doğru addımlarımızı ataq. Bunu heç kim bizim yerimizə eləməyəcək. Biz tarix səhnəsindən çıxarılmağımızı durub seyr etməli deyilik. Tariximizi yenidən yaradan, yazan nəsil yetirməliyik.

## Amaldaşlarıma

Ürəyinizdə Ata Günəşi olsun, dəyərli Amaldaşlarım!

Neçə gündür söhbət eləmək istəyirəm ki, sizlərlə düşüncələrimi paylaşım. Ancaq internet olmadığına görə qrupda paylaşa bilmirəm. Elə indi də qrupda bir şeylər deyirəm, göndərirəm, aktivləşmir. Ancaq yenə də mən bu söhbəti aparım, "Ata Yolu" qrupunun yaddaşına düşsün. Nə vaxt internet olar, açılar hər biriniz dinləyərsiniz, mənim mövqeyimi bilərsiniz.

***(Ocaq günsırası (təqvimi) ilə 8 Xəzan Ayı, 42 -ci il. Miladla 8 oktyabr 2020-ci il).***

Savaş başlayandan üzü bu yana, bildiyiniz kimi, sizinlə söhbətlərdə ciddi rahatsızlıqlarımı dilə gətirirəm. Qarabağda gedən savaş Qarabağın tam azadlığı, savaş prosesinin tam sona çatması demək deyil. Ancaq çoxları elə hesab edir ki, bu proses tam başa çatacaq, qələbə mütləqdir. Mən də bununla bağlı əks təbliğat aparmaq istəmirəm. Hər kəsdə bir ruh yüksəkliyi var. O ruh yüksəkliyini endirmək istəmirəm. Ancaq həqiqət həqiqətdir. Həqiqəti də deməliyəm. Bütün Azərbaycan toplumu eyforiyaya qapılıb. Mən görürəm ki, Ocaqçılar da toplumun eyforiyasına qoşulurlar. Söz yox, bu yanlışdır. Ocaq ona görə Ocaqdır ki, həqiqətləri tam görür, uzaq görür. Milli açıdan yaxşılarımızı, uğurlarımızı dilə gətiririk, milli çatışmazlıqları-

mızı da dilə gətirir, onları çəkinmədən deməyi də bacarırıq. Ancaq Ocaq olaraq, öz mübarizə işimizin arxasında oluruq. Dünyada nə baş verirsə versin, biz öz mübarizə əhvalımızdan dönmürük, dönməməliyik.

Mənim anladığım, gördüyüm odur ki, indiki savaş sonucu Qarabağa status verilə bilər. Üzdə ordumuz böyük itkilərlə də olsa, erməni yaraqlılarını vurub Azərbaycan torpaqlarından çıxardacaq. Hamı da buna köklənib. Hamı bunu qələbə sayır, ancaq bu mütləq qələbə deyil. Erməniyə tərs şillə vurulması gərək idi. Nə qədər biz humanist olsaq da, bunu dilə gətirməliyik. Erməni millət deyil, erməni insan deyil, erməni nə elədiyini bilmir. İnsanlığı bacarmır, qonşuluğu bacarmır. Yurdumuzda bir erməninin olması belə artıqdır. Buna görə ordumuzun ona tərs şillə vurması bizim də içimizdən gəlir, bizim də ürəyimizdən tikan çıxır, o mənada ki, erməni bizim dinc insanlarımıza qarşı həmişə soyqırım törədib. Amansız qətliamlar törədib, ağlagəlməz dəhşətlər ortaya gətirib. Ona görə bu ilanın başını əzmək humanizmə qarşı deyil. Azərbaycanın indiki durumda mənə elə gəlir, qarşısına qoyulacaq məsələ "baza prinsipləri" planıdır, hansı ki, 90-cı illərdə bu plan gündəliyə gətirildi. Ancaq ermənilər onunla razılaşmadı. Bu günə qədər proseslər davam elədi. O plana görə Azərbaycanın yeddi rayonu özünə qayıdır, danışıqlar yolu ilə. Sonra Qarabağın statusu ilə bağlı danışıqlar masasına oturulur. Danışıqlar masasında da Qarabağa status verilir. Özü də ən yüksək status. İndi deyəsən ora qayıda bilərlər. Ola bilər yüksək status Muxtar Respublika statusu olsun. Belə olsa gələcəkdə Qarabağı Ermənistana birləşdirə bilərlər.

Muxtar Respublika statusu nə deməkdir, niyə məni rahatsız edir. Məsələ ondadır ki, qorxuram yağışdan çıxıb yağmura düşək. Yağış bir dəfə isladır, yağmur hər dəfə isladır. Muxtar Respublika odur ki, Xarici İşlər Naziri olmur, ordusu olmur. Ancaq hər şeyi olur, Naxçıvan kimi. Daxili İşlər Naziri olur, parlamenti olur, başçısı olur, nazirləri olur. Azərbaycana Naxçıvanın muxtariyyatı çox idi, ikincisi, üçüncüsü Azərbaycanın ölümü deməkdir. Asif Ata deyirdi, Qarabağa status veriləcək, bu çox qorxulu ola bilər. O vaxtı elə planlaşdırırdılar, Atanın sağlığında. Gərək Azərbaycan buna razılaşmasın, hazırlaşsın

döyüşsün. Naxçıvan artıqdır, o ki qala Qarabağa da Muxtar Respublika statusu verilə.

Qarabağa Muxtar Respublika statusu verilməsi o deməkdir ki, Azərbaycan yenə də qıraq qüvvələrin (başlıcası Rusiyanın) nəzarətində olacaq. İmkanları qıraq qüvvələrin əlində olacaq. Qıraq qüvvələr tərəfindən idarə olunacaq, ona istənilən vaxt etki göstərmək imkanları olacaq. Hələ üstəgəl, Azərbaycan "cızığından çıxarsa" (istədiyi müstəqil addımı atarsa), sabah ləzgilərin, talışların, kürdlərin Muxtar Respublika istəməsi gündəliyə gələ bilər. Bu isə Azərbaycanın federallaşması deməkdir. Federallaşan Azərbaycan ölü Azərbaycandır. Balaca bir ölkə federallaşarsa ondan heç nə qalmaz. Param-parça olar. Ona görə mən Asif Atanın vaxtilə dediyi düşüncəyə yenidən qayıdıram, Dağlıq Qarabağ sorunu tam olaraq çözümünü Güney Azərbaycanla, Quzey Azərbaycan birləşəndən sonra tapacaq. Azərbaycan bu məsələyə köklənməli, bu yöndə mübarizə yetirməlidir. Ona qədər məsələlər bu ya başqa şəkildə uzanacaq. Yəni Azərbaycanın uğurları çox lokal, çox qısa ömürlü uğurlar olacaq. Aldadıcı uğurlar olacaq, üzdə hamı buna sevinəcək, bayram edəcək. Mən də erməninin başının əzilməsinə sevinirəm. Ancaq Qarabağa status verildiyi, Rusiyanın etkisi altına düşdüyü halda sevinə bilməyəcəm.

Bu gün Azərbaycanın başında duran iqtidar qəhrəman elan olunur, onun hakimiyyətinin ömrü uzadılır. Tayyib Ərdoğan o yanda nüfuz qazanır. Onların Türkiyə ilə Azərbaycan dövlətlərinin başında durmaları bir yerə qədər uzadılır, qorunur. Yəni görünən, gedən proses budur. Bu isə kimi qane eləsə də, Ocağı qane eləmir. Şəxsən məni qane eləmir. Dediyim kimi, üzdə olan eyforik uğurlar bu durumda topluma gərəkli görünə bilər. Ancaq topluma da, vətənə də həlledici döyüş gərəkdir. Döyüş ona görə gərəkdir ki, bizim qeyrətimizin üstünə yaxılan ləkə hardasa yuyulur, hardasa başımız dikəlir. Uzun illərdir, bu xalqın özünə inamsızlığı hökm sürür. Bu xalq ermənin qarşısında aciz göstərilir, gözükölgəli edilir. Özünə inamsızlıq sonucunda xalqın içində hər cür yalanlar, hər cür oğurluq, əyrilik baş verir. Buna görə də ordunun hücuma keçməsi, döyüş başlaması uğurlu bir haldır. Ancaq döyüşün sonucu, dediyim kimi,

tam qələbə deyil. Nə yazıqlar ki, deyil. Hər kəs bunu mütləq sayır, mən dönə-dönə demişəm, keşkə mən yanılam. Ancaq görünən odur ki, Qarabağı tam azad edə bilməyəcəyik.

Yenə deyirəm, bununla belə, indiyə qədər ordumuzun döyüşünü, ləyaqətini alqışlayıram. Bu gün mən də öz aylığımdan ordumuza yardım fonduna pul köçürdüm.

Ancaq gəlin hissə qapılıb aldanmayaq. Azərbaycana Ocaq gərəkdir. Ocağa da sizin kimi fədakar, ləyaqətli oğul-qızlar gərəkdir ki, Ocaq öz mübarizəsini aparsın, arxasında dursun, dayanmasın, yeni Ocaq uğurları hazırlasın. Ruhdan düşməyək, yeni mübarizə əhvallarına köklənək. Sizə başarılar diləyirəm.

## Tərəqqi İnsana çatmır

Biz necə yaşayırıq, ya da biz hara gəlib çıxmışıq?! Bu suala cavab versək, sanki hər şeyin təbii axarla inkişafda olduğunu, inkişafla bərabər hansısa çatışmazlıqların da qaçılmaz olaraq yaşandığını dilə gətirməliyik. Baxın, öncəki yüzillərin birini özündən sonrakı ilə tutuşduranda, insanların ağlına gələn ilk düşüncə bu ola bilər: bəşəriyyət böyük gəlişmə (tərəqqi) yolu keçib. Hər halda insanlar arasında təbəqələşmə açıq gözə dəymir, varı, pulu çox olanların belə, qanunla başqası üzərində ağalıq, yiyəlik üstünlüyü mövcud deyil. Üzdən baxanda istənilən adam, öz zəhməti ilə başqasının köləsi olmadan yaşaya bilir. Mədəniyyətin bütün sahələrdə öyrədici (maarifləndirici) keyfiyyətləri özünü göstərir. Hər kəs, maddi-sosial imkanlarının üstün, ya da əskik olmasından asılı olmayaraq, təhsil alır, elmə yiyələnə bilir, hər cür bilik qazanaraq, öz bacarıqlarını, həm özünün, həm də başqalarının xeyiri üçün işlədə bilir. Kitab, qəzet, kino, teatr, musiqi, idman, əyləncəli incəsənət növləri insanlığın gəlişməsində, şüurun yeni ideyalara yüksəlməsində özəl bir etkiyə, çəkiyə varıb. Harda, hansı ailədə doğulub böyüməsindən asılı olmayaraq, hər kəs ən yüksək görəvlərdə yer tutur, ən yüksək rütbələr əldə edir. Bir sözlə, həyatını necə qurmaq insanın öz ixtiyarına buraxılıb. Hər şey hər kəs üçün əlçatan olub. Bütün bu deyilənlər

insanın təkcə mədəni siyasi həyatında deyil, ruhi-mənəvi varlığında da özünü göstərib. Söz azadlığı, vicdan azadlığı, seçim azadlığı yaradılıb, tanınıb. İnsan istədiyi dini dünyagörüşü seçə bilər, sevgisini istədiyi şəxsə, ideyaya, quruma, quruluşa yönəldə, bağlaya bilər. İstədiyini təqdir eləməkdə, tənqid eləməkdə sərbəstdir, buna görə heç bir məsuliyyətə cəlb olunmur, heç kimin qarşısında öhdəlik götürüb hesab vermir... Bütün bunlar belədirsə, bəs biz nədən rahatsızıq, nəyi sinirə bilmirik, nəyi doğru saymırıq?! – Gedişdən rahatsız olan insanlar ilk baxışda, bütün bu deyilənlərin yalnız sözdə olduğunu, əməl olaraq gerçəkləşmədiyini bildirirlər. Bir bölüm insanlar isə ayrı şey düşünürlər. Onların düşüncəsinə görə gedişdən razı olmayanlar – tənbəl, bacarıqsız, dedi-qodu yaratmağa meyilli olan, araqarışdıran, asan qazanc götürmək istəyən, həşir yaratmaqla özlərinə üstünlüklər yaratmağa çalışan adamlardır. Bəs görəsən, doğrudanmı məsələ "pişiyin əli ətə çatmır" deyimində olduğu kimidir?! Məncə, Nitşenin "üstün (fövqəl) insan" ideyası da topluma belə yanaşmadan oluşub. Yəni zəif, tənbəl, bacarıqsız insanlar sıradan çıxmalı, yalnız güclü insanlar qalmalıdır. Bir az da açıq deyilsə, zəif, tənbəl, bacarıqsız insanlar yaşamaq haqqını itirmiş insanlardır. Bu gün siyasi dünyanın gedişi, açıq elan etməsə də, bu deyilən məntiqlə irəliləyir. Quruluşun mahiyyəti bu deyilənləri doğruldur. Pulçuluq – zor yaradır, zor tələb edir. İstənilsə də, istənilməsə də, pulçuluq zoru insanları kateqoriyalara bölür. Bu kateqoriyalar arasında gözə görünməyən mübarizə gedir. Bu mübarizə insanların bir-birinə qarşı fiziki mübarizəsi deyil, yəni silahlı qarşıdurma yoxdur. Ancaq "yer" uğrunda mübarizədir. Ölçü "bacarana baş qurban" deyimidir. Pulçuluğun yanaşması ilə desək, zəif, tənbəl, bacarıqsız sayılan ikinci sort, ya da ikinci kateqoriya insanların çabaları elə pulçuluğun məntiqini doğruldur. Çünkü onlar Pulçuluğa qarşı, başqa cür desək, onları əzən Pulçulara qarşı mübarizə aparmırlar, Pulçuluq uğrunda, yəni birinci kateqoriyanın insanı olmaq uğrunda mübarizə aparırlar. Bununla belə, bu mübarizə gedişində çox az adam birinci kateqoriya ortamına girə bilir...

Təsvir elədiyimiz bu mənzərə heyvanat yaşamının tələbidir, nizamıdır. Doğada heyvanların yaşam sürəcinin bu cür olması doğaldır,

belə də olmalıdır. Güclü heyvan zəif heyvanı yeyir, mövcudluğunu bu cür sürdürür. Ancaq insanın belə bir yaşam biçimi seçməsi fəlakətdir. Heyvanın zəif-güclü olması doğadan gəlir. Yəni heyvanın mahiyyətində bu var. Ancaq insanın zəif-güclü olması mahiyyətində deyil, xarakterində oluşdurulur. İnsanların xarakterlərindəki fərq sonradan qazanılır. İşin ən pis cəhəti odur ki, insanlar arasında ayrı-seçkilik fərqi yaradan keyfiyyət kimi elm, bilik, savad rol oynayır. Baxmayaraq ki, elm, bilik, savad üstünlüyü zahiri üstünlükdür, bu keyfiyyətlər insanlığın yaşamasına, təsdiqinə yönəlməliydi, tərsinə olur. Bu üstünlük mərifəti, qanacağı, mərhəməti, fədakarlığı, insansevərliyi qırağa itələyəndə heyvanlığın – insanların yaşamına, münasibətinə yeriməsinə yol açır. Bütün insanlarda elm, bilik, savad olmaya bilər, ancaq bütün insanlarda insanlığın əlamətləri var. Elmə, biliyə yiyələnə bilməyənlər İnsanlığın təbii, ilkin tələblərini yaşada bilirlər. Ancaq elə ki, elm, bilik, savad üstünlüyünə yetənlər yerdə qalan insanların haqqını mənimsəməyə, onların normal yaşam prinsiplərini pozmağa başlayırlar, o zaman qarşılıqlı münasibətlərin normallığına, insaniliyinə də zərər gətirirlər. Yəni heyvani ortam yaratmaqla hər kəsi bu ortamda döyüşməyə zorlayırlar. Nitşe kimi düşüncə adamları da belə bir durumu durumun öz prinsipləri ilə dəyərləndirirlər. Yəni onlara görə indiki durum bu cür davam edir (özü də min illərdir), demək, başqa yol qalmır – zəiflər, tənbəllər, bacarıqsızlar sıradan çıxmalıdırlar. Axı bununla məsələ yoluna qoyulmaz. İnsanı heyvanla qarışdırıb, ya da eyniləşdirib, hər şeyi təbiətin ixtiyarına buraxsan, yəni bioloji gedişi (bir az da sərt desək, vəhşi təbiəti) ölçü götürsən, Təbiət də dağılar, həyat da.

Xristianlıqda belə bir məntiq var: gec-tez qiyamət olacaq, bütün insanlar məhv ediləcək, yalnız əməli salehlər qalacaq. Sonra onlardan yeni bəşər yaranacaq... Unutmaq olmaz ki, heç kim anadan kamil doğulmur. Heç bir qarantiya da yoxdur ki, əməli saleh adamlardan doğub törəyənlərin hamısı əməli saleh olacaq. Əslində Nitşenin "üstün insan" ideyası da bu məntiqə bənzəyir. Yalnız güclülərin yaşamağa haqqı var deməklə yetərlənsən, bilməlisən ki, bütün "güclülər" güclü insanlar doğmayacaq, belə bir məntiq yoxdur ki, güclüdən güclü, zəifdən zəif doğulacaq. Ona görə də, həyatda nizam

yaratmaq üçün xülyalardan həqiqət quraşdırmaq yox, İnsanlığı yaşamın ölçüsünə çevirmək gərəkdir. Yenə də Asif Atanın dediyinə dayanırıq: "Bəşərin qurtuluşu İnsanlaşmaqdadır, İnsanlaşın – İnsanlaşdırın!".

## Azərbaycan çıxarların hədəfi olmamalıdır

Biz Türkiyəni sevirik, Türkiyənin yanındayıq, Türkiyəni də yanımızda bilirik. Ancaq bu yanaşma istər Türkiyə hakimiyyətinin, istər Azərbaycan hakimiyyətinin zərərli addımlarını, yanlışlarını deməməyə səbəb vermir, hansısa gərgin durumun olmasından, yaranmasından asılı olmayaraq. Türkiyə Azərbaycan münasibətləri olduqca həssas, önəmli bir məsələdir. Nə yazıqlar ki, bu gün Türkiyənin də başında, Azərbaycanın da başında türklüyə gərək olmayan, özgür olmayan, bir az da belə deyək, nəinki gərək olmayan, zərərli olan yönəticilər var.

Tovuzda başlayan hərbi toqquşma zamanı Ərdoğan hakimiyyəti özünü elə apardı, guya bütün resursları ilə, varlığı ilə Azərbaycanın yanındadır. Biz Türkiyə Azərbaycan münasibətlərinə kölgə salmağın yanlısı deyilik, bu münasibətlərin ən yüksək düzəydə qurulmasının yanlısıyıq. Öncələr də, indi də bizim bütün çağırışlarımız buna doğrudur. Türk dünyasının birliyi üçün Türkiyənin türkçülüyə qayıtmasının gərəkliyini hər vaxt vurğulamışıq. Ancaq üzdə gedən proseslər bizi aldatmamalıdır. Doğrudanmı indiki Türkiyə hakimiyyəti Azərbaycana sağlam dəyər verir, doğrudanmı bütün resurslarla Azərbaycanın yanındadır, Azərbaycanın yanında olacaqdır?! Açığı mən bunu Ərdoğan hakimiyyətindən gözləmirəm. Ərdoğan hakimiyyəti olduqca dəyişkən, olduqca ziddiyyətli, olduqca zərərli mövqedə olan bir hakimiyyətdir. Hər zaman öz davranışları ilə, öz hərəkətləri ilə Ərdoğan bunu sübut eləmişdir. Necə deyərlər, gah nala vurur, gah mıxa. Onun atdığı addımları sistemli şəkildə araşdırıb bilmək gərəkdir, bu kimdir, nəçidir, nə istəyir. Baxın, Azərbaycanda bir neçə gün savaş getdi. Türkiyə hakimiyyəti elan elədi ki, Azərbaycanın yanındayıq. Hətta belə bir çağırış da elədilər: Azərbaycanın öz tor-

paqlarını işğaldan qurtarmasının vaxtı yetişib, bunun üçün çox önəmli bir ortam da yaranıb. Sual olunur, nədən uzun illər hakimiyyəti dönəmində Ərdoğan bircə yol bu cür çıxış eləməyib? Nədən 2016-cı ildə belə çıxış eləmədi?!

Buna görə də biz bölgədə nə baş verdiyini özümüz üçün geniş çözməyə çalışmalıyıq. İndi hər kəs bilir ki, bu bölgədə gedən proseslərə, başlıca olaraq, enerji məsələsi etki göstərir, hər kəsin burada öz çıxarı var. Baxın, Rusiya erməninin arxasında durdu. Türkiyə də guya Azərbaycanın arxasında durdu. Batı səsini çıxarmadı. Tərsinə, Batıya gərək idi bu olayın baş verməsi. İndi bu üç yanaşmanı qarşılaşdırıb aydınlıq gətirməyə çalışaq. Bilindiyi kimi Azərbaycandan üç aktiv enerji xətti çıxır. Biri Bakı-Tiflis-Ceyhan neft kəməri, biri Bakı-Tiflis-Ərzurum qaz kəməri, biri Bakı-Supsa-Novorosiyski neft kəməri. 1994-cü ildə “əsrin kontraktı” adlı bağlaşma qollandı, ən qısa zamanda “BTC” ilə Azərbaycanın nefti Avropaya daşınmağa başladı. Avropanın Rusiyadan yanacaq asılılığı xeyli dərəcədə azaldıldı. Türkiyə də tranzit ölkə kimi öz payını götürməyə başladı. Ondan sonra Batı Rusiya ilə rəqabətdə daha çox önə keçdi, onunla istədiyi kimi davrandı, hər cür sanksiyalar tətbiq elədi. İş elə bir yönə gəlib çatıb ki, bölgədə artıq aktiv münasibət yaranmağa başlayıb. Yəni çıxarılar bizim bölgədə toqquşmağa başlayıb, belə ki, çıxarların toqquşması Orta Doğudan bir az da Güney Qafqaza keçib.

Bir ilə yaxındır Bakı-Supsa-Novorosiyski kəməri ilə neftin vurulması dayandırılıb. Bu xətt ilə Rusiya Azərbaycandan nefti ucuz alıb Avropaya baha satırdı. Eyni halda, Rusiya Avropanın (özündən) yanacaq asılılığını qorumağa çalışırdı. Artıq addım-addım etki olanaqları azaldığı üçün Güney Qafqazda öz varlığını göstərməyə, buradan etki göstərə bilmək olanaqlarını qorumağa çalışır. Buna görə Rusiya aradabir ermənini Azərbaycanın üstünə qısqırdır. İndi də Ermənistan Azərbaycan sınırlarında bunu elədi. Bunu Qarabağ torpaqlarında eləmək özünü doğrultmur, çünkü Qarabağ Azərbaycanın torpağıdır. Azərbaycanın torpağında döyüş gedərsə, Rusiya da erməniyə açıq yardım edərsə, uluslararası ortamda özünə işğalçı statusu qazanmış olar. Ona görə də Qarabağda deyil, iki dövlətin sınırında toqquşmanı başlatdı. Yuxarıda adını çəkdiyimiz enerji xətləri toqquşmanın baş

verdiyi bölgəyə yaxından keçir. Əgər Tovuzda adı hallanan yüksəkliklər ələ keçirilərdisə, onda Azərbaycandan çıxan neft, qaz kəmərləri birbaşa qorxu altına alınırdı. İstənilən vaxt o xətləri yalançı döyüş bəhanələri gətirib partlatmaq, dağıtmaq mümkün idi. İş o yerə gəlib çatdı ki, Rusiyanın təhdidləri qarşısında Azərbaycan hakimiyyəti Bakı-Supsa-Novorosiysk xətti ilə neft ixracını bərpa elədi. Bununla da toqquşma filan dayandı.

Bəs nə üçün Türkiyə hakimiyyəti, heç vaxt olmadığı kimi, indi özünü Azərbaycanın yanında göstərməyə çalışdı?! Çünkü Türkiyənin iki yöndən çıxarları qorxu altına alınır. Biri dediyim kimi, Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum neft-qaz kəmərləri qorxu altına alınır, Türkiyə böyük gəlir itkisi ilə üz-üzə qala bilər. Eyni halda, Rusiya Ermənistanın arxasında duraraq, Türkiyənin bu bölgədə aktivliyini, gücünü azaltmış olur. Türkiyə hakimiyyəti Azərbaycana Qarabağda əməliyyata başlamaq çağırışları eləməklə siyasi gediş eləmiş oldu. Əgər Azərbaycan Qarabağda antiterror əməliyyatına başlasaydı, istər-istəməz ATƏT-in Minsk Qrupunun hər üç sədri aktiv hərəkətə keçməli idilər. Çünkü onlar birbaşa bu bölgə ilə bağlı sorumluluq daşıyırlar, özləri də belə deyək, bu bölgədə savaşın olmamasının yanlısıdırlar. Azərbaycanın zərərinə durumu olduğu kimi qoruyub saxlamağa üstünlük verirlər. Əgər ATƏT-in Minsk Qrupunun baxışı bura çəkilərdisə, siyasi güclər fakt qarşısında qalardı, çünkü o qrupun sədrinin biri Rusiyadır. Bu qrupun sədrlərindən biri olan Rusiyanın Azərbaycan torpaqlarında işğalçılıq əməliyyatı həyata keçirərək ermənin arxasında durması açıq müstəviyə keçmiş olurdu ki, bununla Rusiya da ifşa olunmuş olurdu. Onun ATƏT-in Minsk Qrupunun sədrlərindən biri kimi çalışmaları (fəaliyyəti) qiymətləndirilib doğru olmadığı ortaya qoyulardı. Deməli, bununla da Batının baxışı Güney Qafqaza yönələrdi. Ona görə Türkiyə hakimiyyəti bunca aktiv çağırışlar elədi. Türkiyənin bir sıra strukturları, söz yox, Azərbaycanı istəyir, Azərbaycanın taleyini çıxarlar faktı kimi götürmürlər. Ancaq Türkiyə hakimiyyətinin yanaşması siyasi yöndən budur.

Bəs niyə Batı Tovuz döyüşündə susqunluq göstərdi? Ona görə ki, Batı istəyir bu bölgədə Rusiya ilə Türkiyə savaşa cəlb olunsun. Biri

Azərbaycanın yanında, biri də Ermənistanın yanında. Lap elə Türkiyə özünün çıxarları yönündən, Rusiya öz çıxarları yönündən. Hər ikisinin savaşda baxışları bağlansın Güney Qafqaza. İqtisadi cəhətdən hər ikisi itirsin, Batıdan daha çox asılı duruma düşsünlər. Başları Güney Qafqazda qarışarsa Türkiyənin də, Rusiyanın da Orta Doğuda mövqeləri zəifləyər. Batı isə Orta Doğuda apardığı prosesləri sürətləndirər. Türkiyə Suriyada bu gün aktivdir. Rusiyanın Suriyada öz maraqları var. Onların gücünün Güney Qafqaza daşınmasıyla Orta Doğu projesinin gerçəkləşməsi sürətlənmiş olardı. Batı o bölgədə öz işini, hardasa, başa çatdırmış olar, sonrakı addımlar üçün də gərəkən ortam yaradardı. Eyni halda, Ermənistan-Azərbaycan sınırlarında gedən savaş artıq bu iki ölkə arasında gedən savaşa çevrilərdi. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (ona Rusiyanın NATO-su deyirlər) üzvüdür. Qazaxıstan da, Qırğızıstan da bu qurumun üzvüdürlər. Hər kəs bilir ki, Ermənistanla Azərbaycan arasında savaş gedərsə, Azərbaycan Ermənistanın içinə  doğru çox irəliləyəcək. Deməli, Ermənistanın dövlət sınırları pozulmuş olur. KTMT-nin üzvlərindən birinin sınırları pozulmuş olduğuna görə, KTMT ona  yardıma gəlir. Azərbaycan KTMT-ni qarşısına almalı olur. Burada Qazaxıstanla Qırğızıstan da bu savaşa cəlb olunmuş olur. Bununla da Türk Dünyasının Birliyi darmadağın olur, yəni Türk Dünyası bir-birinə girmiş olur. Deməli, sonrakı aşamada bunlar Batı güclərinin əliylə yönləndirilə bilər... Belə bir oyunlar apardılar.  Bu oyunları Rusiya da, Türkiyə də yaxşı başa düşürlər, bunlar bu bölgədə bir-biriylə savaşmalı olsalar, onda hər ikisi zəifləyəcək, hər ikisi Orta Doğudan geri çəkiləcək, Batı istədiyi kimi irəliləyəcəkdir. Buna görə onlar üçün burada savaşa getmək həm də arzuolunan deyil. Bu səbəbdən də, qısa ara üçün alovu söndürdülər, hələ ki. Ancaq qorxu ortadan  qalxmayıb. Azərbaycan üçün qorxu hələ də var, özü də bu qorxu getdikcə aktivləşə bilər. Çünkü Güney Qafqaz, dediyim kimi, çox qarışıq-dolaşıq durumdadır. Kimin yiyəsi kimdir, o hələ öz çözümünü tapmayıb. Həlli başa çatmayıb. Erməni konkret olaraq Rusiyanın kontrolundadı, Gürcüstan hakimiyyətinə gah Batının, gah Rusiyanın kadrları gəlir. Azərbaycanda hər kəsə işləyən kadr rejimi var. Ona görə Güney Qafqaz belə bəlirsiz bir durumdadı. Dünya

güclərinin də çıxarlarının yerini tutması, öz yolunu tapması üçün proseslər yavas-yavas irəliləyir. Dünyanın harasında çıxarlar bəlirliyini tapmayıbsa, orda alovlandırılacaq ocaqlar hələ də var. O cümlədən Güney Qafqazda. Ona görə Azərbaycan üçün bu qorxu hələ keçməyib. Qorxu iki yandan var. Biri bu çıxarların toqquşduğu bölgə olduğuna görə, çıxarları toqquşanların Azərbaycandan qat-qat güclü olduğuna görə, ikincisi Azərbaycan dövlətinin başında duranların yararsız, gərəksiz, antimilli olduqlarına görə...

Azərbaycan çıxarların toqquşduğu obyekt olmaqdan qurtulmasa, daha böyük acılar yaşaya bilərik.

## Yalanlarla qidalanan toplumun gələcəyi puçdur

Bəşəriyyət çox mürəkkəb bir dönəm yaşayır. Bu dönəmdə bütün gedişlər İnsanlığı qorxu altına alır. Bir yandan elmin, texnologiyaların gəlişməsi, bir yandan da dinə qayıdış anarxiyanı artırmaqdadır. Ancaq anarxiya elmin, texnologiyanın gəlişməsi ilə dinə qayıdışın təzadından yaranmır. Əslində yaşamımızda yürüyən bu iki gəlişmə (elm, texnologiya, din) heç bir-birinin yanlışlarına qarşı mübarizə aparmırlar da. Bu iki gəlişmə bir-biriylə döyüşməklə deyil, ayrı-ayrılıqda anarxiya yaradırlar. Yəni elm, texnologiya bir yandan anarxiya yaradır, din də bir yandan. Bu anarxiyalar nədə özünü göstərir?! Elm, texnologiya İnsanlıqdan qıraqda gəlişir. Yəni insana qulluq göstərmir, ağalığa yarayır, pulçuluğa gərək olur. İşçi qüvvəyə tələbat azalır. Əməkçinin qazanmalı olduğunu elmi, texnologiyanı mənimsəyənlər qazanır. Təbəqəçilik böyüyür, varlı-yoxsul təzadı genişlənir. Varlı təbəqə maddi sərvətləri əlində toplayır, yoxsul təbəqənin dolanışığı çətin duruma düşür. Bütün bunlar dövlətin qanunları ilə tənzimlənir. Yəni qanunlar sanki varlının varlanmasını qoruyur, yoxsulun yoxsullaşmasını. Bunun adını iqtisadiyyatın tənzimlənməsi qoyurlar, biznesin təşkili, iş adamlarının hüquqları. Bu anlayışlar haqq-ədalət anlayışı ilə çelişki əmələ gətirir. Düzdür, qanun iş adamına deyir, işlətdiyin əməkçiyə əmək haqqı ver. Ancaq bu əmək haqqı işin qarşılığında o qədər azdır ki, bunun adına nə qanun

demək, nə də ədalət demək mümkün deyil. Belə ortamda verilən əmək haqqı yoxsul təbəqənin sadəcə ölməməsinə bəs edir. Onun normal insan kimi yaşamasından isə söz gedə bilməz. Bu isə özbaşınalıq deməkdir. Beləliklə, bəlli bir kəsim qanuna dayanıb öz üstünlüklərini yaradır, əskikliyə uğrayan kəsim isə qanuna dayanıb özünü qoruya bilmir. Anarxiya bu sürəcin adıdır. Anarxiya – İnsanlığın, ədalətin ortadan qalxdığı ortamdır...

Anarxiyanı yaradan başqa bir gedişin din olduğunu söylədik. Bu anarxiya ən çox Doğuda özünü göstərir, başlıcası da türk topluluqları içərisində. Sovetlər dağılandan sonra bir-birinə calaq-culaq edilmiş respublikaların iqtisadiyyatı dağınıq duruma düşdü. Hər kəs dolanışı-ğının hayına qaldı. Millilik şüurunun etkisi ilə bağımsızlıq əldə edən respublikalar iqtisadi çətinliklərə görə Batıdan asılı duruma düşdülər. Elm, texnolgiya Batıda gəlişir, dünyaya da oradan yayılır. Texnolo-giyaların Çində də gəlişməsinə baxmayaraq, baxışlar heç vaxt Çinə dikilmədi. Çünki Çin qapalıdır, qorxuludur. Bütün ilişkilərini Çinlə qurmaq istəyənlər, ən qısa arada, Çindən başlayan miqrantların ayaqları altında məhv olarlar. Ancaq Batı özgürlük, demokratiya vəd edirdi. Bununla belə, bu vədlərin arxasında böyük asılılıqlar yarandı, böyük milli-mənəvi boşluqlar oluşdu. Bəs bu boşluqları nə ilə doldurmalı?! – Bu zaman din dövriyəyə girdi. Dünyanın tərs-dəyir-man gedişini anlamayan insanlar çaşbaş duruma düşmüşdülər. Belə hesab elədilər ki, yaşananların hamısı Allahın yolundan sapmalara görədir. Yavaş-yavaş dinə meyillənmələr artmağa başladı. Bu insan-ların aktiv kəsimini siyasi diletantlar öz yanlarına çəkdilər. Onlara Allah yolunda mübarizə aparmağın gərəkliyini yeritdilər. Özlərinin siyasi məqsədləri üçün təşkilatlanıb bir qüvvə şəklində birləşdilər. Bu təşkilatlar siyasi hakimiyyətə belə iddia elədilər. Dinə meyil edən-lərin bəlli bir kəsimi isə, dünyanın Allahın qəzəbinə gəldiyini, ona görə də dağılmağa getdiyini düşünərək, "Allahın mərhəmətinə" sığınmağı özləri üçün düzgün yol saydılar. Bunlar heç nəyə qarış-madan, Allaha ibadət yoluyla Axirəti qazanacaqlarına inandılar. Onlara görə hər şey Allahın qəzəbinə görə baş verir...

Biz dinlərin bu cür əbədi yalanlarına qarşıyıq. Bizdən qıraqda da dinə qarşı olanlar var. Ancaq onlarla bizim baxışlarımız üst-üstə

düşmür. Onlara görə Batıda din sərbəstdir, Doğuda isə din öz gerilikləri ilə həlledici etkiyə çevrilir. Ona görə Batıda texnologiyalar gəlişir, insanlar özgürlük, demokratiya yoluyla gedirlər, Doğuda isə gerilik özgürlüyün, demokratiyanın yolunu kəsir. Ancaq bizə görə Batının texnologiyası, özgürlük-demokratiya ideolojisi Doğuda (konkret türk toplumlarında) milli, əxlaqi şüuru darmadağın eləyir. Bu da Batının geriliyidir. Geriliklə geriliyin mübarizəsini sağlamaq olumsuzdur. Batı haqqındakı düşüncələrimiz isə dinə meyil göstərən kəsimin düşüncəsi ilə üst-üstə düşmür. Çünkü işi-gücü Allahın Axirətini düşünmək olan insanların da milli-əxlaqi şüurları sıradan çıxır. Cənnətə tamahlanan insan üçün Vətən qutsal anlam daşıya bilməz. Bizə görə nə Batının özgürlük vədləri özünü doğruldur, nə də dinin qutsallıq haqqında mistik şüarları.

Quruluşu kapitalizm olan, yəni bütün çabaları, yönü pulçuluqdan oluşan Batının vəd elədiyi özgürlük oyundan başqa bir şey deyildir. Eləcə də, ərəb xurafatından özünə qutsal hekayələr uyduran, İnsanlığı yalanlarla hədələyən toplumların inamı oyundan başqa bir şey deyildir.

Yuxarıda vurğuladıq ki, siyasi hakimiyyətə iddia edilən dini təşkilatlar formalaşdı. Sovetlərdən açılan respublikalarda olmasa da, Türkiyədə belə bir təşkilat hakimiyyətə gəldi də. R.T.Ərdoğanın siyasi hakimiyyətin rəhbərliyinə qədər keçdiyi yollar göz qabağındadır. O, Türkiyədə siyasi mübarizə ortamına Fətullah Gülənlə birgə çıxdılar, yüksəliş yollarında birgə yürüdülər. Onlardan biri (Ərdoğan) dinin siyasi qanadını təmsil edirdi, o biri (Gülən) ruhani qanadını. Bunların hər ikisi ABD-yə bağlı adamlar idi. Onsuz da ABD-nin dəstəyi olmasa idi, bu təmayülün hakimiyyətə gəlişi alınmazdı... Bu günədək Ərdoğan-ABD münasibətlərinə fərqli yanaşmalar olmuşdur. Ərdoğansevərlər onun ABD ilə döyüşdüyünü vurğulayır, onu Türkiyənin qurtarıcısı kimi qələmə verirlər. Doğrudur, onun populist çıxışları belə bir görüntü (yəni ABD ilə döyüş görüntüsü) yaradır da. Özəllikcə, müsəlman ölkələrlə iş birliyi yaratma çabaları, itirilmiş, ya da sıradan çıxarılmış inancın topluma qaytarılması görüntüləri, guya bu yolda da yaşanan çətinliklər ABD ilə döyüşün bir parçasıdır. Ancaq bizə görə, bunların hamısı planlı şəkildə hazırlanmışdır. Bir az

geriyə dönüb sağlam araşdırmalar aparılsa, hansı faciələrin hazırlandığı açıq şəkildə ortaya çıxar. Dönə-dönə yazdığımız faktların bəzilərini burada xatırlatmaq dediklərimizi anlamaq üçün bəs edər. Lap başından "Balyoz", "Ərgənəkon" əməliyyatları qondararaq, yüzlərlə hərbçini zindanlara doldurdular. Vətəninə, millətinə bağlı generallara terrorçu təşkilat damğası vurub tutdular. İllərlə yalançı istintaq-məhkəmə prosesləri başlatdılar. Nə qədər türk millətçiləri ləkələnib göz altına alındı. Bu illər içində Ərdoğan sərbəst şəkildə Atatürkün qurduğu dövlətçilik prinsiplərini ortadan qaldırdı. Geridüşüncəli, dağıdıcı müsəlmanlardan özünə qoruma ordusu düzəltdi. Humanitar yardım adı altında milyonlarla Suriyalını İstanbula, Türkiyənin başqa bölgələrinə yerləşdirdi. Minlərlə Suriyalı ailələr, heç bir iş görmədən, Türkiyənin büdcəsindən dolandılar. Üstəlik türk insanlarının ləyaqətinə həqarət etdilər. Ayrı-ayrı vaxtlarda onlarla azyaşlı türk uşaqlarına təcavüzlər olundu. Onlarla türk mehmetciklərinin başı bədənindən qoparıldı, meydanlarda alçaldılmış şəkildə məhv edildilər. Atatürkə qarşı söyüşlər, alçaldıcı əməllər, heykəllərinin yandırılması, daha nələr... Türkiyə çox qorxunc anarxiyanın içinə itələndi. Ərdoğan hər dəfə durumdan ustalıqla yararlandı. Hakimiyyətdə oturuşandan sonra tutulan hərbçilərin çoxunu sərbəst buraxdı, özünü ədalətli, humanist kimi duru çıxardıb siyasi divident qazandı. Bütün yanlışlarının, quramalarının altından "bizi qandırdılar" deyib duruya çıxdı. Arada ABD-yə bağırdı, İsrailə bağırdı. ABD səsini çıxarmadı. "ABD Ərdoğandan qorxur" təbliğatı quruldu. Əslində isə, bizə görə, hər şey ABD-nin planları əsasında baş verdi. Türkiyəni qoruyan Atatürk sistemi, demək olar ki, dağıdıldı. Ancaq elə görüntü yaratdılar ki, guya Ərdoğan islam araçılığıyla Türkiyəni Osmanlı gücünə hazırlayır. Məgər Ərdoğan bilmir ki, çağaşırı səfərlər elədiyi ərəb dövlətləri ABD-nin, AB-nin buyruğundadırlar. Hansı ağılnan, hansı vədlərnən onları öz buyruğuna götürə bilər ki?! Ərdoğanın bütün addımları Türklüyün gəlişməsini əngəlləyən addımlar oldu. Sovetlər dağılandan sonra Türklüyə dönüş, Türklüyün gəlişməsi baş tuta bilərdi. Ancaq Türklüyə qayıdışın astanasında Türkiyəni İslam dövlətinə çevirən Ərdoğan özünəqayıdışın yönünü dəyişdi. Yalançı müsəlman birliyini

(olmayan, olması olumsuz olan müsəlman birliyini) özünəqayıdış kimi təbliğ elətdirdi. Türklüyə qarşı tarixi bir dönüklük baş verdi.

İndi söhbətimizin başlanğıcına qayıdaq: "Anarxiya İnsanlığı qorxu altına alır" söyləmişdik. Özgürlük çağırışlarının qarşısında dünyada ədalətli, humanitar quruculuq getməliydi. Bunun yerinə, Türklüyü dağıtmaq, sıradan çıxarmaq sürəci həyata keçirilir. Kapitalizmin yaşaması üçün İnsanlığı sıradan çıxaranlar xalqların özgürləşmək haqlarının yolunu kəsirlər. Bizə görə Türklük dəyəri ilə kapitalizm bir araya sığmaz. Kapitalizmin var olması ilə Türklüyün gəlişməsi arasındakı ziddiyyətin çözülməsi, bizə görə, ədalətin, humanizmin bərpa olunması anlamına gələr. Türklüyün xarakteri, dəyəri bunu deməyə əsas verir. Biz bunu öyrəndik, dərk elədik, inandıq...

## Siyasi oyunlar Quruluşun mayasındadır

Dünyada baş verən olaylar olduqca mürəkkəb durumlar ortaya çıxarır. Bu durumlara baxışlar da olduqca qarışıq-dolaşıq, çoxçeşidli, mürəkkəb xarakterlərlə özünü göstərir. Yəni baxışların xarakterik açıları çox fərqlidir. Bu da onunla bağlıdır ki, bütün yanaşmalar, başlıca olaraq, günsəl xarakter daşıyır. Başqa sözlə, yanaşmalar, sərgilənən baxışlar olayların sınırlarından qırağa çıxmır, dar çərçivədə təhlillər aparılır. Deyək ki, ictimai, iqtisadi, sosial Quruluşun mahiyyətinə toxunulmur. Hər şey mövcud Quruluşun içində axtarılır, araşdırılır, mövcud Quruluşun tələblərinə uyğun davranılır. Ancaq istəklər daha geniş olur. Məsələn, elə böyük azadlıqlar istənilir ki, bunu ödəmək, çox hallarda mümkünsüz olur. Məsələn, bir ölkənin içində vətəndaşlar öz dövlətlərindən hər şey istəyir. Haqqı da var, dövlət vətəndaşının azadlığını hər yöndən təmin etməlidir. Ancaq necə?! Bunu dövlət hansı əsaslarla eləməlidir, ya da eləyə bilər?! Bu zaman vətəndaş ödəyənin, yəni dövlətin hansı ideoloji baza üzərində qurulduğunun fərqinə varmır. Bütövlükdə götürəndə hansı Quruluşun tələbləri ilə formalaşdığını götür-qoy eləmir. Sual oluna bilər: axı Vətəndaş bu deyilənləri bilməli, gözə almalıdırmı?! Bizə görə vətəndaşın düşünməli olduğu məsələlər də var, düşünməyə borclu

olmadığı məsələlər də. Ancaq elə bir dönəmdə, elə bir Quruluşda yaşayırıq ki, insana qarşı normal münasibətlər mövcud deyil. Yəni ədalətli, qanunla nizamlanan yönətim olmadığına görə yaşamaq uğrunda, həqiqət, ədalət uğrunda mübarizə aparmaq qaçılmazlığa çevrilir. Yəni vətəndaş əngəlləri tanımalı, onunla mübarizə aparmalıdır ki, istəkləri ödənsin. Normal sivilizasiyada, normal İnsani bir quruluşda yaşasaydıq, dövlət vətəndaşın haqqını qoruyardı. Vətəndaş da öz ömrünü yaşayardı, ən adi, doğal haqları uğrunda gücünü, enerjisini tükətməzdi. Bütün bunlara görədir ki, toplumumuzda tez-tez hallandırırlar ki, insanlarımız öz hüquqlarını bilmirlər. Hüquq qanunlarla təsbit olunan bir məsələdir. Bir daha vurğu edirik, normal bir dünyada yaşansaydı, hər bir insandan bu qanunları bilməsini ummaq heç də normal görünməzdi. (Bax, yaşadığımız Quruluşun xarakterinə görədir ki, bu yanaşmalara biranlamlı qiymət vermək olmur). Məsələn, biz deyə bilərik: hüquq, qanunvericiliyin yönləri insanlara yüksək oxullarda öyrədilir. Bir ölkənin toplumu da ucdantutma yüksək oxulları qurtarmırlar. Belə olan halda, nədən hər kəsdən hüququ bilmək umulmalıdır?! Axı yüksək oxulları bitirib işə düzəldənlərə yönətim etibar olunur. Onlar toplumun qulluğunda durmalı, onların hüquqla bağlı bütün işlərini ədalətli şəkildə yoluna qoymalıdırlar. Deyək ki, sadə əməkçinin də zəhmətindən tutulan gəlir vergisi ilə hüququ bilməli olanlara aylıq-donluq ödənilir. Ona görə hüququ bilənlər hüququ bilməyənlərin qarşısında borcludurlar. Ya da, əgər sadə insanlardan ən adi, təbii haqlarını bilmək umulursa, onda maarifləndirici bazalar, qurumlar yaradılmalı, bu işi üzərinə götürməlidir. Çünkü dövlət öz işinin öhdəsindən gəlmir, vətəndaşla dövlət arasında yadlıq yaranır. Bununla da yeni qüvvə ortaya çıxıb vətəndaşlardan mübarizə təpəri umur. Bu mübarizəni də aparmaq üçün bəlli bir biçimdə hüquqları bilmək gərəkir. Yuxarıda isə vurğuladıq ki, hüquqları bilmək yüksək oxullarda öyrədilir. Deməli, mübarizə meydanına çağırılanlar toplumun aktiv, üzdə olan kəsimidir. Bəs onları mübarizəyə kim çağırır, necə çağırır? Ya da mübarizənin qlobal hədəfləri nədir?! Axı nə dəyişir, necə dəyişir, ya da nəyin əsasında dəyişikliklər ortaya gələcək?! Üzdən baxanda bütün bu suallar, onların cavabları bir-birini danır (təkzib edir), bir məntiq o

biri məntiqi yalanlayır. Bununla belə, hər hansı bir yanaşma, eyni halda, həm haqlı, həm də haqsız ola bilməz. Bəs nədən yaşamımızı oluşduran məsələlər bir-birinə tərs görünür, sərgilənən mövqe bir yerdə haqlı, başqa yerdə haqsız görünür?! Bu məsələlər bütövlükdə toplumun yaşamına yansıyır. Yəni elə bir məsələ yoxdur ki, bütün toplum ondan ya tam razı olsun, ya da tam narazı olsun. Toplumun bir hissəsinin razı olduğu məsələdən o biri hissəsi narazı olur. Bax, bunun adına demokratiya deyirlər – söz, düşüncə azadlığı. Ancaq toplumun bir kəsiminin sözü, düşüncəsi o biri kəsim üçün doğru deyilsə, onda hansı kəsimi demokrat saymaq, onun baxışını ölçü götürmək gərəkdir?! İkinci bir yandan, axı bir kəsim o biri kəsimin baxışlarını könüllü olaraq qəbul etmir, etməyəcək. Ya da bir kəsimin baxışını haqlı sayıb, o birisinə bunu qəbul etdirmək gərəkirsə, bunun adı nədir – Diktatorluqmu?! Yox! Deyirlər belə olanda məsələni səs çoxluğu yoluna qoyur. Bəs səs çoxluğu nədir, yuxarı qalxan əl çoxluq təşkil eləyər, ancaq çox əl həqiqəti əmələ gətirmir axı. Deməli, 10 dənə oğru əl yuxarı qalxırsa, bir dənə doğru əl yenilməli, yalan sayılmalıdır. Lap elə götürək Azərbaycanın Qarabağ sorununu. Hər kəs bilir ki, bu məsələnin çözümünə güclülər əngəl olurlar. Onların səsi çoxdur. Çox səs deyir, qan tökmək olmaz, məsələ barış yolu ilə çözülməlidir. Bunun üçün qovğa edənlərin hər ikisi, yəni həm Azərbaycan, həm də Ermənistan demokratik prinsiplərlə davranmalıdırlar, öz ölkələrində demokratiyanı tam oturtmalıdırlar. Tutaq ki, onların dediyi kimi, Azərbaycanda da, Ermənistanda da demokratiya tam oturuşdu, nə baş verəcək? Azərbaycanmı Qarabağdan vaz keçəcək, yoxsa Ermənistanmı Qarabağı boşaldacaq?! Yoxsa, demokratiya qurbanlar hesabına əmələ gəlib oturuşmalıdır deyəcəklər?! Yəni ideologiyanın oturuşmasına qurbanlar vermək olar, vətəni azad eləməyə yoxmu?! (Ona görə yuxarıda vurğu elədik ki, üzdən baxanda məsələlərin bir-birinə tərs görsənməsi çox doğal görünür). Bəs demokrat olmaq üçün qurbanlar necə verilməlidir, nədən verilməlidir?! Bununla bağlı bir misala baxaq. Sovetlər dağılandan sonra Batı Güney Qafqazda həryönlü oturuşmaq planlarını işə saldı. Azərbaycanda, Gürcüstanda daha çox qabağa getdi. Ancaq bu istəyi Ermənistanda özünü doğrultmadı. Çünkü Ermənistanda Rusiyanın hərbi

varlığı mövcuddur. Uzun çağlardan sonra guya Batıyönlü bir kadr hazırlayıb Ermənistanda hökumətin başına gətirdilər. Ermənistanın sivil dünyanın yanında görünməsi üçün Nikol Paşinyan kimi bir "demokrat"ın hökumətin başına gətirilməsi gərəkmiş. Rusiya diktatura rejimli olduğuna görə Ermənistanı öz vassalı kimi saxlayır, Ermənistanı inkişafdan geri qoyur, geri qalan Ermənistan blokadadan çıxa bilmir i.a. Ancaq bu "demokrat" Paşinyan Azərbaycanı hədələyir, Qarabağı heç vaxt qaytarmayacağını bəyan edir. İndi Avropadan soruşsan ki, sənin "demokrat" kadrın işğalçılıqdan geri durmur. Ola bilər cavabı bu olar: erməni toplumu demokratiyadan çox uzaq olduğuna görə, Paşinyan hələlik onun dilində danışmaq zorundadır. Ancaq Paşinyanın elə bir gücü yoxdur ki, sonacan Batıyönlü olsun, ya da görünsün. Demək, bu da Batı üçün bir aşamadır. Paşinyanları ortaya atırlar, alınar, lap yaxşı, Güney Qafqazın içinə bir az da irəliləmiş olurlar. Alınmaz, bir qurban da öz işini başa çatdırmış olur. İstənilən halda, "demokratiya qurbanlarla başa gəlir" deyimi özünü doğrultmuş olacaq. Yenə də ziddiyyət – həm barış yolu, həm də qurbanlar... Bəs necə olsun?! – Bizim istəyimiz Millilikdir, Millətləşmədir. Bəs dünya üçün hansı doğru olar, demokratiyamı önəmlidir, Millilikmi?! Ya da demokratiya ilə milliliyin ortaq nöqtəsi varmı?! Biz deyirik, Millilik humanizmdir. Deyirlər demokratiya da humanizmdir, sadəcə kimlərsə onu düzgün anlamayıb başqa istəklər üçün qullanır. Olsun! Axı bu "kimlərsə" özlərini demokratiyanın beşiyi sayırlar, başqa bölgələrə də demokratiya adlı ideologiya onlardan yayılır, ya da onların araçılığı ilə yayılır. Biz demirik, Batıda humanizm yoxdur. Biz deyirik, Batıda humanizm oyunların altında qalır. Bu oyunlar da başqalarının Milliliyini zədələməklə aparılır. Sözümüzün təsdiqi üçün yenə bir misalı gözdən keçirək. Bu gün erməni dünyaya bağırır ki, Türkiyə onlara qarşı soyqırım olayı törədib. Əslində ermənini bağırtdırırlar ki, bunu desin. Kim bağırtdırır?! – Dünyaya demokratiya aşılayan Batı. Türkiyə neçə yol bəyan edib ki, birgə komissiyalar yaradılsın, araşdırmalar aparılsın, birlikdə tarixi həqiqətlər ortaya çıxarılsın. Ancaq Batı bu önəriləri qulaqardına vurur, erməninin bağırtılarını isə qulaq içinə alır.

Orxan Pamuk adlı antimilli bir kosmopolit deyir, Türkiyədə ermənilər soyqırıma uğrayıb. Batı bir dövlətin həqiqətlərini qulaqardına vurur, bir yazarın yanlış dediyini isə həqiqətə çevirib onu ödülləndirir. Yəni Türkiyə bölgə üçün önəmli bir dövlətə çevrildiyi bir çağda, bir vaxtlar onu dağıdıb yeməyə hazırlaşan, indi də bu istəyindən vaz keçməyən Batı onun içindən, hamının tanıdığı, maraqla oxuduğu birinə ödül verib Türkiyənin Milli mənafeyini zədələməyə çalışır. Düşünürlər ki, Pamuku maraqla oxuyanlar onun dediyini doğru saya bilərlər. Görünən odur ki, humanizm görsənişi altında ideoloji silah işlədilir. Üzdən görünən isə odur ki, Pamuk söz, düşüncə azadlığını ifadə elədi. Yəni çoxluq təşkil eləyən öz millətinin deyil, azlıq təşkil eləyən ermənininin haqqını savundu. Yəni bu, demokratiyanın baxışıdır. Millilik açısına görə isə Orxan Pamuk dünyada qurulan oyunların çətiri altında öz millətinə qarşı dönüklük elədi. Demokratik sayılan dünya çoxluq təşkil edir. Çoxluq da Pamukun yanındadır. Səsvermənin qanunlarına görə Pamuk haqlıdır. Deməli, tarixi həqiqətlər əyri də olsa, doğru da, önəmi yoxdur, səs çoxluğu durumu kökündən dəyişə bilir. Bu ölçü hər hansı bir ölkədə hakimiyyətdəkinin dəyişməsini də yoluna qoyur. Sadəcə oyunlarda səmimiyyət quraşdırılır, ədalət görüntüsü yaradılır. Deyək ki, seçki keçirilir. Hakimiyyətə gəlmək istəyən iki aday var. Bunlardan biri səs çoxluğu ilə üstünlük qazanır. Hesab edək ki, o birisi üstünlük qazanmış olaydı. Nə baş verəcəkdi, başqa sözlə, nə dəyişəcəkdi?! Biri gəlib pensiyanı artırdı, o biri gəlmiş olsaydı, əmək haqqını artırmış olacaqdı. Axı hakimiyyətə gələnlərin heç biri bütün istəkləri ödəməyə gəlmir, ödəyə bilmir. Bunların hər ikisi, xırda fərqlərlə, Quruluşun tələblərinə uyğun dəyişiklik edirlər, edəcəklər. (Biz burada Azərbaycan tipli dövlətlərdən bəhs etmirik. Çünkü bu tip dövlətlərdə yönətim büsbütün müstəbid xarakterlidir).

Əslində "demokratik seçki" deyilən bir sürəc kapitalizmin yaşamasını sağlayır. Yəni heç kim Quruluşun dəyişilməsi haqqında düşünmür. Nədənsə xoşun gəlmirsə, səsini başqasına verib hakimiyyəti dəyiş. Beləcə, Quruluş yerində qalır, hakimiyyətdəkilər dəyişir. Üzdən baxanda isə ədalətli bir görsəniş var – toplum kimin işindən xoşu gəlmirsə, ona daha səs vermir, yenisini seçir. Başqa sözlə,

kapitalizmi, toplumun səsverməsi ilə yaşadırlar. Yəni toplumu yarımədalətlə, yarımhumanizmlə, yarımazadlıqla yetərləndirirlər. Ona görə deyirik, demokratiya kapitalizmə qarşı deyil, ancaq Millilik kapitalizmə qarşıdır. Yarımmillilik olmur, Millilik tam, bütöv bir hadisədir. Bu gün Millilik uğrunda mübarizə getmir, demokratiya uğrunda mübarizə gedir. Hər halda, görünən budur. Toplumsal gəlişməni təmin etmək çabalarına demokratik mübarizə deyirlər. Ancaq yuxarıda dediyimiz kimi, demokratik mübarizə, başlıca olaraq, hakimiyyət uğrunda mübarizədir. Bütün toplumsal, sosial sorunların çözümü hakimiyyət dəyişikliyində axtarılır. Ancaq hakimiyyətlər dəyişəndən sonra, yenə də, heç bir köklü məsələ çözümünü, tam olaraq, tapmır. Bizim düşüncəmizə görə heç bir Quruluş, Milli məsələləri, anlamına uyğun, yəni doğru yöndə, yoluna qoymur. Milli sorunların üstünə pərdə tutulur, kosmopolit, beynəlmiləlçilik şüurları ilə əvəz eləməyə çalışırlar, daha da böyük sorunlara yol açmış olurlar. Millətçiliyi toplumsal məncillik (ictimai eqoizm) kimi dəyərləndirib belə bir doğruçu, böyük ideyanı kölgələməyə çalışırlar.

Biz dedik ki, Millilik kapitalizmə qarşıdır. Çünkü Millət – insani prinsiplərlə oluşur, insanlığın qanunlarıyla yaşamağa can atır. Azadlıq – tam ədalət tələb edir, kapitalizm ədalətsizlikdir. Çünkü pulçuluğun ölçü olduğu ortamda mənəvi prinsiplər yaşama etki göstərə bilmir. Kapitalizm ortamında söz, düşüncə azadlığından danışmaq özünü doğrultmur. Çünkü kapitalizmi devirən sözə azadlıq tanımaq absurd görünür. Bizim düşüncəmizə görə Millətçilik – İnsani qanunlar əsasında dəyərlər yaratmaq, bu dəyərləri yaşam ölçüsünə çevirməkdir. İnsanlığın tələbinə yüksələn Millət başqalarına münasibətdə humanist olmaya bilməz. Öz millətini sevən başqasına yağı ola bilməz, "sevgi ilə nifrət qoşadır" deyib sağlam bir ideyanı – Millətçiliyi zədələyənlər "başqası" anlayışı ilə "yağı" anlayışını qarışıq salırlar. "Öz Milləti" anlayışı ilə "başqa millət" antonim anlayışlar deyil. Nifrət şərə qarşı yönələr. Öz millətini sevən üçün başqa millət şər anlamı daşımır. Millətləşmənin özülündə İnsanlaşma durur. Milli mədəniyyət, milli dəyər, milli özgürlük, milli quruculuq – Milli kimliyi bəlirləyən keyfiyyətlərdir. Millətləşən – özümləşər, demokratlaşan Batılaşar. Çünkü özümləşmənin qoruyucusu millətdir, demokratlaş-

manın yiyəsi Batıdır. Heç kim demokratiyaya özündən qatqı vermir, hamı Batının buyurduğu kimi demokrat olur. Özündən demokratiyaya qatqı verəni Batı tanımaz, qəbul etməz.

Biz deyirik, Özümləşən (əslində insanlaşan) Millətləşər. Əsil Bəşərilik elə Millətləşmə deməkdir. Yəni İnsanlaşma Bəşərilik deməkdir. Asif Atanın sözü ilə desək: "Bəşərin qurtuluşu İnsanlaşmaqdadır. İnsanlaşın – İnsanlaşdırın!"

## Erməni dəyirmanında Azərbaycanın çıxarları üyüdülür

"Siyasət" anlayışı – dövlətin, istər içəridən, istərsə də dışarıdan qorunması ilə, eləcə də dövlətin toplumu yönətimi ilə bağlı yozulan, qiymətləndirilən bir anlayışdır. Ancaq olduqca mürəkkəb, qarışıq-dolaşıq çalarlarla özünü göstərir. Bu anlayışın təsiri ilə formalaşan münasibətlər, sərgilənən düşüncələr, verilən vədlər yüzdə doxsan beş yalana dayanır, saxta olur. Bunu hamı bilir, ancaq hamı bununla barışır. "Elə-belə də olmalıdır, başqa cür mümkün deyil" kimi bir inam formalaşıb bu anlayışa yönəlik. Dinlərin uydurduğu "dünya fanidir, gec-tez qiyamət qopacaq, dünya dağılacaq" kimi anlamsız bir ehkamdır siyasətin uydurduğu ehkam. Siyasi güclər şüurda allahlaşdırılır, bütün dünyanın siyasi taleyini bu güclər bəlirləyir, bəlirləyə bilər. Başqa alternativ düşüncələr ortaya gəlmir, sözdə nələrsə deyilsə də, heç bir etkisi olmur. Elə buna görədir ki, siyasət dünyasında heç bir ədalət yoxdur, zor var, güc var. Kütləvi qırğın silahlarına yiyələnmək, dünya iqtisadiyyatının yönətiminin mərkəzləşdirilməsi – vurğuladığımız zoru oluşduran başlıca faktorlardır. Zora boyun əyməyənlərin taleyi çıxılmazlığa düşür. Bu çıxılmazlıq dövlət səviyyəsində qazanılan bir sorundur ki, bu da bütövlükdə insanlığa yansıyır. Zor istədiyi addımları atır, ancaq həqiqət dilində danışır, ədalətin təmsilçisi kimi özünü qələmə verir. Uzaq faktlara getmədən, bunu öz dövlətimizin, öz xalqımızın taleyində izləyə də bilirik, aydınlaşdıra da bilərik. Bu gün bizim torpaqlarımız "siyasi güclər"in yardımı ilə işğal altında saxlanılır. Söz yox, siyasi hakimiyyətimiz qorxaqdır, xalqı deyil, özünü düşünəndir. Xalqla heç vaxt birliyi olmayıb, çünkü xalqın

qayğısı ilə uğraşmayıb. Tərsinə, xalqı əzən, talayan rejim formalaşdırıb. Ona görə torpaqların işğaldan qurtulması ilə bağlı hərbi-siyasi addımlar atmır, atmaz. Atsa, "Beynəlxalq Zor" onu, narazı saldığı xalqının əliylə hakimiyyətdən devirər... Bu məsələdə üç tərəf qarşı-qarşıyadır: Siyasi hakimiyyət, "Beynəlxalq Zor", bir də Əzilən Xalq. Siyasi hakimiyyətlə Xalq görünən tərəflərdir, "Beynəlxalq Zor" isə görünməyən tərəfdir. Xalq – görünməyən düşməni dövlətinin əliylə dışlayar. Dövlət isə, dediyimiz kimi, başında duranların ucbatından, xalqa yağı kəsilib. Bu səbəbdən də, görünməz "Beynəlxalq Zor" adlanan yağı, istədiyi anda Xalqla birləşə bilir. Başqa sözlə, xalqın öz siyasi hakimiyyətinə qarşı onun təşkilatçısına çevrilə bilir...

Bu, məsələnin bir cəhəti. İndi isə bir neçə daha konkret məsələlərə aydınlıq gətirək. Azərbaycan hakimiyyəti Ermənistanda baş verən siyasi olayları daim bizim toplumumuzun gündəliyində saxlayır. Sanki oradakı hakimiyyət çəkişmələri, düşmən ölkədəki siyasi xaos Azərbaycan hakimiyyətinin yürütdüyü "uğurlu siyasət"in sonuclarıdır. Bununla göstərməyə çalışırlar ki, "Qarabağ" sorunu yönündə addımlar atırlar. Ancaq süni şəkildə özlərinin fəal olmalarına inam yaratmağa çalışsalar da, heç kim artıq belə oyunbazlıqlara inanmır. İnanmaq üçün heç bir gerçək səbəb də yoxdur. Xalq hər şeyə özünə münasibətdən baxır. Sosial, siyasi hüquqları ödənməyən xalqı, hakimiyyətin qıraqda hansısa uğurlu addımlar atacağına inandırmaq olası deyil. Hər addımda haqqı danılan xalqı ölkədə həyata keçirilən tikinti-abadlıq işləri belə ovundurmur. Çünkü hər kəs artıq düşünür ki, ölkədə gedən tikinti-abadlıq işləri onların oğurlanan haqqını ört-basdır eləmək, görünməz eləmək üçün göstərilən çabalardır. Bir sözlə, bizdə talançılığın, oğurluğun, aldatmaların, ölkəni viran qoymağın adına daxili siyasət deyirlər. Belə bir "siyasət"i anlamaq üçün isə siyasi məktəb keçməyə gərək yoxdur, hamı adi gözlə də bunu görə bilir. Ölkə içində ən sadə ədalətə belə təminat verməyən hakimiyyət təmsilçiləri "Qarabağ" məsələsi ilə bağlı da erməni dezinformasiyalarından toplumumuz üçün yalançı ümidlər hazırlayırlar. Bu işdə hakimiyyətə yarınan media da özəl canfəşanlıq göstərir. Məsələn, Ermənistan Milli Təhlükəsizlik Qurumunun keçmiş rəhbəri Artur Vanetsyan Rusiyaya güvənib Qərbyönümlü Paşinyana qarşı təbliğat

aparır. Bu təbliğatın bir çaları da odur ki, Paşinyan Ermənistanı Azərbaycanla Türkiyənin iqtisadi blokadasından çıxarmaq qarşılığında işğal olunmuş torpaqları boşaldacaqdır. Bundan öz xalqına qarşı yalançı ümid görsənişi yaratmaq, hakimiyyət üçün gerçəkdən utancvericidir. Üstəlik, öz vətəninin torpaqları ilə bağlı, davranışlarını Rusiyanın istəklərinə hesablamaq daha böyük utancvericilikdir. Daha doğru anlamda dönüklükdür. Qərbyönümlü Paşinyanı Rusiya sevmir, ona görə Azərbayan hakimiyyətinin sərt bəyanatlar səsləndirməsinə yol verir. Rusiya bu davranışları erməni toplumu içərisində Paşinyanın siyasi zədə götürməsinə hesablayır. Halbuki Azərbaycana qarşı Paşinyandan daha aqressiv mövqe sərgiləyən Vanetsyanın çıxarları üstünlük qazanır. Bir sözlə, Azərbaycan hakimiyyətinin, sözdə gah loyal, gah da sərt davranışları, bu ya başqa şəkildə, erməni dəyirmanının fırlanmasını sağlayır. Bu dəyirmanda isə Azərbaycanın siyasi çıxarları "üyüdülür".

Bölgədə bu cür gedişlər dünyanın siyasi güclərini qane edir. Özəllikcə indiki durumda. Yeni siyasi düzənlə bağlı planların çək-çevir edildiyi bir çağda, bölgəsəl siyasi problemlərin diqqət çəkməsi güclərin arzulamadığı bir gedişdir. Ya da dirçəlməsini istəmədikləri tərəfin – Azərbaycanın doğruçu çabalar göstərməməsi gərəkdir. Ermənistanın siyasi ortamında zaman-zaman aqressiv, radikal çıxışlarla ortaya çıxanları, sürəkli şəkildə, "beynəlxalq güc"lər dəstəkləyiblər. Əsasən də Qarabağla bağlı ortaya çıxan radikalları dəstəkləyiblər. Ancaq Azərbaycanda öz torpaqlarını açıq istəyən sivil adamlar belə dəstəklənməyib, nəinki radikallar. Düzdür, Azərbaycanda öz torpaqlarını istəyən radikal qüvvə siyasi ortamda yoxdur da. Azərbaycanda Qarabağı açıq şəkildə istəyə bilən qüvvə nəinki hakimiyyətə gələ bilər, heç aktiv siyasi meydanda yer tuta bilməz. Çünkü hər şeyi "beynəlxalq güc"lər bəlirləyir, xalq bəlirləmir. Çünkü hər kəs "beynəlxalq güc"lərlə işləyir, xalqla işləmir. Xalqla işləməyən qüvvəyə isə xalq güvənməz, onu qorumaz!

## Özünəyadlaşmanın tarixi faciələri

On illərdir, Azərbaycanın qədim məbədlərini, konkret kilsələrini istər ermənilər, istər gürcülər mənimsəməkdədir. Vətənsevər azərbaycanlılar da tarix uçqunlarının altından faktlar axtarıb bu məbədlərin bizim olduğunu sübut eləməyə çalışırlar. Ermənilər soydaşlarımızı tarixi dədə-baba torpaqlarından qovdular, özü də minbir işgəncələrlə. İndi də dünyaya bağırırlar ki, o yerlər əzəli erməni torpaqlarıdır. Yüz illərlə, bəzən də min il yaşı olan məbədlərimizi də öz adlarına çıxırlar. Gürcülər də eyni addımları atırlar. Qədim Alban kilsələrinin böyür-başına öz dillərində yazı yazıb ibadət evlərinə çevirirlər. Səsimizi də çıxaranda deyirlər, siz müsəlmansınız, kilsələrlə nə işiniz var, gedin məscidlərinizdə namazınızı qılın. Azərbaycanlıların isə dilləri girir boğazlarına. Çünkü babalarımız zorlanıb müsəlmana dönüşdürüldükdə Kilsələr yiyəsiz buraxıldı, hər yerdə məscidlər tikildi. Yiyəsiz kilsələrin ora-burası uçub-dağıldı, yörəsini ot-qanqal bürüdü, xarabalıqlara çevrildi. Qədim məbədlərimizdə bayquşlar ulamağa başladı. Yadlar isə məbədlərimizdə özlərinin milli ornamentlərini işləyərək torpaqlarımızla birlikdə mənimsədilər. Biz dönə-dönə yazmışıq, öncə bizim milli şüurumuzu işğal elədilər, sonra da torpaqlarımızı. Şüurlarımız işğal olunduqca dəyərlərimiz yiyəsiz qaldı. Bizi torpağa – Vətənə bağlayan dəyərlərin ortadan qalxması ilə torpaqlarımıza yiyəlik duyğularımız da aradan getdi. İndi heç bir tarixçimiz, aydınımız demir, yazmır ki, torpaqlarımıza, məbədlərimizlə bir yerdə, yiyə çıxa bilməməyimizin başlıca nədəni ərəb-islam işğalıdır. Əldən çıxan, özünü xalqın gözündə şöhrətə mindirmək üçün, alver edib qazandığı pulların bir hissəsi ilə gedib məscid tikdirir. Min illərin o tayından gələn tariximiz də, şüurumuz da yarı yolda qırılır. Dəyər tariximiz də ərəblərin yurdumuzu işğalından sonra hesablanır. Getdikcə yarıdan o yandakı tarixi varlığımız yaşamımızdakı, yaddaşımızdakı mövcudluğunu itirir. Bəzi tarixçilərimiz indi də sübut eləməyə çalışır ki, biz elə əzəldən müsəlman olmuşuq. Bu o deməkdir ki, min illər öncə Od İşığına tapınanlar (Tanrıçılıq ideyasına bağlı olanlar), bəlli bir arada Alban kilsələrində ibadət edənlərimiz bizim əcdadlarımız olmayıblar. Bu yazıqlıq

bütünlüklə millətin varlığına hakim olmaqdadır. Yadlar içimizdə necə yadlaşma, özgələşdirmə sistemi qurublarsa, bunun etkisində bölünüb, parçalanıb, balacalanıb sıradan çıxmaq tarixi aqibətimizə çevrilibdir. Vətənin, Millətin, dövlətin yiyəsi olsaydı, qədim məbədlərimizdə bərpa işləri apararaq (milli ornamentlərlə yenidən işləyərək) onları milli-mədəni irsimizin, əzəli dəyərlərimizin araşdırılıb öyrənilmə mərkəzlərinə çevirərdi. Zaman-zaman onları erməniyə, gürcüyə təhvil verməzdi. Onlar da bizə gəlmə adı qoyub sıxışdırıb qovmazdı. İndi də köhnə yanlışlar, daha amansız biganəliklərlə davam edir.

Nağıllarımızda, əfsanələrimizdə, rəvayətlərimizdə, dastanlarımızda qədim dünyagörüşlərimizin, inanclarımızın bir çox atributları, çalarları ös əksini tapmışdır. Milli təxəyyülümüzün yaratdığı mifik obrazlar qədimliyimizi öyrədən, bugünümüzlə bağlayan ciddi qaynaqlar, faktorlar sayılmalıdır. Getdikcə onlardan uzaqlaşıb itirməkdəyik. Ərəb nağılları, dastanları dilimizin əzbərinə, sevgimizin yönünə çevrildikcə, milli şüurumuzun sıradan çıxmasına nədən olub. Bir sözlə, bu gün də milli kimliyimizdə, mənliyimizdə yaranan boşluqları özgələşmənin yeni dalğaları bürüməkdədir. Bu gün məscidlər bütünlüklə bu işi həyata keçirməkdədir. Bu açıdan, özünü milli sayaraq, məscidlərdə namaz qılıb, erməniləri, gürcüləri məbədlərimizi mənimsəmələrinə görə suçlayanları, Qarabağ deyə bağıranları anlamaq çox çətindir. Toy edən, xeyir işə hazırlaşan soydaşlarımız, çoxluq olaraq, öncə araşdırırlar ki, görsünlər, onların seçdiyi gün hansısa imamın, hansısa tarixdəki bir dindar möminin ölüm günü ilə üst-üstə düşmür ki. Belə insanlarımızın Qarabağ sorununun necə, nədən yarandığını dərk eləməsi necə mümkün ola bilər?! Özünü araşdırmaçı sayanlar da bu cür özgələşmə, özünə yadlaşma şüurunun gəlişməsinə qulluq göstərirlər. Biri gündə beş rükət namaz qılmağın gərəkliyini sübut edən dəlillər axtarır, bir başqası qadınların hicab bağlamasının Allah qarşısında nə qədər böyük savab olduğunu sübutlamağa çalışır. Başqa birisi Allahın mələkləri araçılığı ilə Qiyamət gününü yaxınlaşdırdığını əsaslandırır i.a. Bu şüurla millət olmağı düşünmək, bəşər varlığında öz yerini bəlirləmək, sözsüz ki, özünü doğrulda bilməz... Biz də bu gedişlə barışmayan, milli özümlüyümüzü düşünən ayrı-ayrı insanlarımıza üzümüzü tutub deyirik:

Milliliyi bayraq eləməkdən, özgəliyə dirəniş göstərməkdən usanmayaq. Gələcəyi yetirmək üçün Mübarizəni gələcəyə saxlamaq olmaz.

## Mürəkkəbləşdirilən məntiq

Azərbaycan Ermənistanla Azərbaycan torpaqlarında savaş apardı. Savaşın gedişində Rusiya daim Ermənistana silah göndərdi. Yəni Rusiya Azərbaycana qarşı düşmən mövqedə durdu. Sonra Azərbaycan, ona qarşı düşmənçilik edən, Rusiyanın tələbi ilə, savaşı durdurdu. Ona qarşı düşmənçilik edən Rusiyanın işğalçı hərbi kontingentini Azərbaycan öz torpaqlarına buraxdı (hüquqi sənədlə). Rusiya Azərbaycan torpaqlarının bir parçasında yeni dövlət qurumu yaratdı, erməniləri oraya daşıdı, Azərbaycanı öz torpağına yaxın buraxmadı. İndi də Qarabağda ( bildirildiyinə görə) 25 min erməni hərbiçisi var. Erməni terror birləşmələri işğaldan qurtardığımız torpaqlarda təxribatlar törədir, Azərbaycan insanlarını öldürür. Rusiya "sülhməramlısı" işə qarışmır. Azərbaycan hakimiyyəti buyruğunda olanların diliylə deyir: biz Rusiyanı içimizə buraxmalıydıq, ona qarşı dirənə bilməzdik. Eyni halda, "zəfər paradı" keçirir... Lütfən, indi biriləri bizə aydınlaşdırsın: bu zəfərin adı, soyadı nədir?! Yarımçıq, dağınıq, yenə də ölümlə izlənilən, təxribatlarla qapsanılan zəfər olurmu?! Biriləri durub deyər ki, ordumuzun əməyini azaltmayaq. Elə biz də onu deyirik: ordumuzun bu qədər əməyini yarımçıqladıq, onun canı bahasına geri qaytardığı torpaqlarda yenə də insanlarımız ölür. Bu elə ordumuzun əməyini, zəfərini azaltmaq deyilmi?! Sabah erməni rus yaraqlılarına dayanıb Şuşaya, ya da işğaldan qurtarılan torpaqlarımızın hər hansı bir parçasına girsə, şəhidlərə nə cavab verəcəyik?!

## Yanlışlara aydın baxaq

Kitabımın üzərində işləməyimlə bağlı, sosial şəbəkələrə, demək olar, girmirəm. Girəndə də, qısa arada, sayt yazılarımızı paylaşıb çıxıram. Bu gün feysbuku açanda tarixçi Dilavər Əzimlinin 17 aprel tarixli bir status paylaşımı qarşıma çıxdı. Türkiyə ilə Azərbaycanın konfederasiyada birləşməli olduqlarının gərəkliyini yazır. Geniş səpkidə yorumlar da yazanlar var. Yorumlarda kimin hara qulluq elədiyini qonuya çevirmədən, yazışmalarında içdənlik göstərən adamların düşüncələrinə yönəlik bir neçə söz demək istəyirəm. Doğrusu, yazışmalara qoşulmaqda həmişə çətinlik çəkmişəm. Klaviaturada uzun-uzadı yorumlar yazmaq yorur məni. Ona görə sağlam düşüncəli adamların, ciddi qonularda canlı, üz-üzə görüşmələrini önəmli saymışam, indi də o düşüncədəyəm. Dönə-dönə ayrı-ayrı soydaşlarımızı üz-üzə, mətbuat polemikasına çağırmışam da. Gələn, gəlmək istəyən olmayıb. Belə götürəndə, heç kim bir-biriylə canlı görüşə can atmır. Ancaq bu, olduqca gərəklidir.

İndi keçək statusla bağlı bəzi çalarlara. Mən o düşüncədəyəm, Dilavər bəyin konfederasiya önərisi nə üçündür, nəyə dayanır – aydın deyil. Bu gün istər Azərbaycanın, istər Türkiyənin siyasi ortamı olduqca mürəkkəb, qarışıq-dolaşıq bir durumdadır. Üstəlik, bu dövlətlərdə Türklüyün taleyi ağır bir şəklə salınıb. Bunu da, Azərbaycanda Azərbaycanın hakim rejimi, Türkiyədə Türkiyənin hakim rejimi həyata keçirib. Dövlətlərimizin başında duranlar bütünlüklə qırağa, qıraq ideolojiliklərə bağlı olduqları halda, Türklüyün qurtuluşu necə çözüləcəkdir, – buna aydınlıq gətirilməlidir. Ərdoğan Türkiyə toplumunu ərəbçilik şüuruna kökləyir, bizimkilər (özlərini türkçü sayanlar), çoxluq baxımından, ona sayğı sərgiləyirlər. Azərbaycanda, ən balaca bir məsələnin çözülməsində, rüşvətsiz, qalmaqalsız keçinmək olmur. Vətən, dövlət durmadan insanların gözündən düşür. Belə bir ortamda Türkiyə hakimiyyəti ilə Azərbaycan hakimiyyətinin, Türklüyün qurtuluşuna bağlı, birgə addımlar atacağı necə özünü doğrulda bilər?! Milli şüurun çökdürüldüyü yerdə, dövlətin dünyaya siyasi qırım göstərəcəyini düşünənlər yanılırlar. Milli strategiyası olmayan dövlətlərin milləti qoruması ağlabatan bir məsələ deyil.

Yorumlarda İgid Teymurlu adlı bir soydaşımızın vurğuladığı bir məsələyə də toxunmaq istəyirəm. Bəyin milli yöndən rahatsızlığına sayğı duyuram. Ancaq Asif Ata Ocağına yönəlik səmimi görünmədi mənə. Çünkü öncə də, onun Asif Atanın düşüncələriylə bağlı bilgisiz olduğunu yazmışdım. Özünü də, ərk edib, canlı ünsiyyətə çağırmışdım, yanılmıramsa telefon nömrəmi də yazmışdım. Ən azı, bir soydaş olaraq, üz-üzə oturub düşüncələrimizi bölüşməkdə bir sakınca görmürdüm. Ancaq nədənsə bir cavab çıxmadı. Ondan sonra yenidən: "Asif Ata Ocağının övladları Əmir Teymuru hədəf olaraq götürəndə, ortaya bir tarixçi də çıxmadı. Nə yaxşı ki Yasəmən Qaraqoyunlu var imiş" yazır. Əzizim, Yasəmən Qaraqoyunlunun, ayrı-ayrı çalarlarla, vətən sevgisinə sayğı duyuram. Ancaq bu xanım, bir çox məsələləri dərindən araşdırıb öyrənmədiyi halda, populist çıxışlara qaçır. Buyurun, gəlin onunla bir yerdə, üz-üzə oturub, məsələlərə aydınlıq gətirək. Yasəmən xanım bizimlə bir çağda (az sonra), Ocağa gəlib Atadan ad aldı. Ancaq davam eləmədi, yenə də populizmin dalınca qaçdı. Şöhrətsevərliyi dərin məsələləri üstələdi. Bu gün də üstələyir. Bəlli statusda da, Yasəmən xanım Əmir Teymuru savunacaq ciddi bir arqument ortaya qoymadı, sadəcə Cavanşir Maniçehrin (Güntay Gəncalpın) etkisiylə Asif Atanı fars zehniyyətli olmaqda suçladı. Bu zaman o, özünün nə danışdıqlarını dərindən anlamadı. (Əgər üz-üzə görüşsək, mən bu dediklərimi onun özünə də sübut edərəm). Yeri gəlmişkən, Azərbaycanın Mahiyyətini ifadə edən"Od İşığı" ideyası üzərində işləyirəm. Bu yazı da elə o yanılmışlara sübut olacaq.

Əmir Teymur məsələsinə gəlincə, Düzgün bəy bəlli statusu yerində yazmamışdı. Seçki günü belə bir məsələnin gündəliyə gətirilməsi yanlış idi. Ancaq Əmir Teymurla bağlı düşüncədə, vurğu yanlış görünsə də, başqa bir həqiqət də vardır. Bu həqiqət danılmaz bir həqiqətdir. Onu da Asif Ata görüşlərində dilə gətiribdir. Asif Atanın vurğusu belədir: "Nə yazıqlar, Türkün Əmir Teymur kimi azman bir enerjisi hədər getdi. Onun yaratdığı möhtəşəm səltənətdən bir şey qalmadı. Üstəlik, Türk ortamında insanla bağlı yüksək düşüncə söyləyən hürufiləri məhv elədi". Asif Ata Şah İsmayılın dövlətçilik quruculuğuna yüksək qiymət verir. Bunu bizim yazılarımızda da görə

bilərsiniz. Ancaq onu da bildirir: "Nə yazıqlar, Sultan Səlim orada aldandı, Şah İsmayılımız da burada, Çaldıranda türk türkə qılınc çəkdi. Bu savaş türkün belini qırdı, yağıya gərək oldu...".

Sizcə bu deyilişlərdə yanlış olan nədir?! Lütfən, əlinizi ürəyinizin üstünə qoyub açıqlamalar verin...

Bundan öncə də Yasəmən Qaraqoyunlunu oyatmaq istədim, anlamadı: Yasəmən Qaraqoyunlu, necə asan danışırsan?! Sənə qara bir meydan verilib, nə gəldi danışırsan. (Mən sən deyə üz tuturam, sayğılı oxucu qüsura baxmasın, Yasəmən xanım özü ərklə "sən" üztutması oluşdurub aramızda. Yəni bu ərkdən gələn bir məsələdir, insana qarşı sayğısızlıq deyil). Sonra da deyirsən bunlar başqalarını gözümçıxdıya salırlar. Harda olub belə bir şey?! Biz İçərişəhərdə üz-üzə bir yol oturduq, orda da yetərincə dinlədim səni. Oxumadığın, öyrənmədiyin şeylərdən danışırdın, deyirdin "Cavidannamə"ni orijinaldan Azərbaycan türkcəsində oxumusan, sonra düzəliş elədin, dedin ola bilər haqqında oxumuşam. "Avesta"nı da oxuduğunu dedin. Mən də dedim Cavidannamə Qəsri-Qacarda (Qacar Qalasında) saxlanılır, bizdə onun orijinalı yoxdur. Ancaq mən onu Türkiyəlilərin çevirməsində oxudum, sətri çevirmədir, anlamını tuta bilməyiblər. Nə isə. İndi də bilmədiyin şeyləri danışırsan. Asif Atanı öyrənməmisən, tutuşdurduqlarını ciddi öyrənməmisən, ona görə nə Asif Ataya, nə də özünə yaraşmayan şeylər danışırsan. Lütfən, özünü ağıllı aparmaq gedişinə son ver. Biz harda odu müqəddəs saydıq?! Biz deyirik, sənin düzgün öyrənmədiyin babaların (min illər tarixi olan Dədə Qorquddan üzü bu yana) odun işıq anlamını mənəvi təmizlənmə yolu kimi götürüblər. Onlar Tanrıçılığın uzantısı, eyni halda, gəlişməsi idi. Bu gün Asif Ata da böyük Türk gələnəklərinin gəlişməsi, yeni aşamaya keçməsidir. Heç İsmaililiyi də yaxşı öyrənməmisən, bu təriqət bir az neoplatonizmdən, bir az qnostiklərdən yararlanıb imamət institutu yaratmağa çalışırdılar. Varlığa münasibətdə həm zahirini, həm də batinini qəbul etdikləri üçün "Vacibul-Vücud"a yeni yön vermək istəyirdilər. Bunun Asif Ataya nə dəxli var?! Fəlsəfi, dini anlayışları, kateqoriyaları sadalayanda, bu işlərlə uğraşmayanlara, nələrisə doğru kimi göstərmək olar, ancaq vicdana, ədalətə bunların doğru olduğunu sübut eləmək olanaqsızdır. Fars

zehniyyəti deyib (Asif Atanın verdiyi Güntay adıyla özünü tanıtdıran) Cavanşir Maniçehri yamsılamağın anlamı yoxdur. Asif Atanın "Azərbaycanımız – Azərbaycanlığımız" dəyər sistemində adı keçənlər – Zərdüştçülük, Dədə Qorqudluq, Xürrəmilik (Babəkizm), Hürufilik, Füzulilik, Muğamlılıq, Sazlıq dəyərlərimizdir. Siz bunlarımı fars zehniyyəti sayırsınız?! Bəs onda Türk zehniyyəti nədir – "babam güclü kişi olub, qabağına keçəni qılınclayırdı?!" Unutmaq olmaz, Milli Şüuru, millətin içindən çıxıb insani-bəşəri dəyərlər yaradaraq, onu yaşam gələnəklərinə çevirənlər formalaşdırır, həmin şüurla dövlət quranlar isə bu gələnəklərlə yaşamı sürdürməyi qoruyur.

Asif Ata Sovet ədəbiyyatından başqa bir şey öyrənməyib deyirsən. Bəs necə oldu, Sovet ideolojisinə qarşı kəskin mübarizə apardı, təqib olundu, hər şeyini, o sıradan ailəsini itirdi?! Axı sənin məntiqinlə Sovet dönəmində böyük məsələləri öyrənmək üçün ədəbiyyatlar yox idi. Dünyanın ən nəhəng ədəbiyyatları (bilimin bütün sahələrini qapsayan ədəbiyyatları) Moskvanın, Sankt Peterburqun dövlət kitabxanalarında deyildimi?! Batı ədəbiyyatından 20 il öyrətmənlik edən, onun fəlsəfəsini, tarixini öyrənən bir insan necə ola bilər dünya biliklərindən soraqsız olsun, ən əsası mübarizə meydanına ürəklə girə bilsin?! Özünü, Öz tarixini bilməyən insan nəyin uğrunda savaş apara bilərdi ki?!

Mütləq məsələsinə gəlincə, səndən fərqli olaraq, Asif Ata insanı böyük sayır, o (insan) özündə Mütləq gəzdirir (Mütləq – insanın özündə gəzdirdiyi İNSANLIQ anlamıdır). O bu anlama yetəndə yenilməz olur, yalansız olur, ədalətli olur, vicdan əsasında yaşayır, Vətəninə, millətinə, doğaya, bütövlükdə bəşərə sağlam, insani yanaşır. İnsan bu anlamdan ayrıldığı üçün dünyanın gedişi pozulub, heyvanat qanunları ilə yaşayır. Ona görə Asif Ata İnsanlığın Bayrağını başı üzərinə qaldırıb onun harayını çəkir...

## Bu, xalqın davamlı tələbi olmalıdır

Günaydın sayğılı Vətən övladları!

Hər kəsə bəllidir, bu günlərdə döyüş bölgələrimizin od-alova bürünməsi geopolitik bir avantüradır. Bu, Vətən savaşı deyil. Uzun illərdir bölgədə çıxarları olan güclər Qarabağ uğrunda savaşımızın qarşısını kəsib erməninin torpaqlarımızda oturuşmasına ortam yaradırlar. Milli varlığımıza yad olan hakimiyyətimiz də onların buyruğunda durmaqla bu işə qatqı göstərmiş olur. Düşmən hər il, hər addımda torpaqlarımızı qurtarmağımız üçün bizə səbəb verir – əsgərlərimizi şəhid edir, dinc toplumumuza güllə sıxır. Bundan yararlanmaq istəməyən hakimiyyətimiz isə çağaşırı təbliğat qurur, topluma (Elman Nəsirov kimi) zavallıları ilə ağıl öyrədir. Guya heç kimin anlamadığı, baş açmadığı bir siyasi müdriklik göstərir. Yəni biz torpaqlarımızı qurtarmaq istəsək, Rusiya erməninin yanında durub bizimlə döyüşəcək, yeni torpaqlar itirəcəyik. Beləcə, hakimiyyət illərdir xalqımızı öz qorxaqlığına ortaq eləməyə çalışır, qeyrətimizi susduraraq talançılıqla, sərvət toplamaqla uğraşır.

Biz, geopolitik durumları az-çox anlayaraq, bu düşüncəyə gəlirik ki, dünyada nə baş verməsindən asılı olmayaraq, Vətən torpağı azad edilməlidir.

Belə bir görsəniş də var, Azərbaycanın yaxın dostu qardaş Türkiyənin baxışlarını Orta Doğudan Güney Qafqaza, yəni Azərbaycan-Ermənistan toqquşmalarına çəksinlər, Türkiyənin diqqəti bölünsün, Orta Doğuya təsir imkanları azalsın. Yəni belə bir hiylə də var. Ancaq nə olur olsun, ayağa qalxıb erməniyə yerini göstərmək gərəkdir. Biz böyük oyunlara qurban hazırlanan bir dövlətik. Hansısa prosesləri gözləməklə daha böyük itkilər verməyə sürüklənirik. Eyni halda, xalqımızın mənəvi-psixoloji halı daha kritik duruma yuvarlandırılır.

İllərlə bu xalqı incitdiyinə baxmayaraq, xalq hakimiyyətinin arxasında durmağa söz verir, bunu əməli olaraq sübut etməyə çalışır. Ayrı-ayrı təxribatçı qruplar belə, sağlam xalq axımı qarşısında heç bir əngələ çevrilə bilməz. Ancaq yazıqlar olsun, xalqın bu istəklərini doğrulda biləcək sağlam bir hakimiyyətimiz yoxdur. Ona görə hər şey çətin, mümkünsüz görünür. Dövlət varsa, hər gün təbliğ olun-

duğu kimi, güclü ordu varsa, üstəlik xalq ayağa durub ölüm-qalım savaşı istəyirsə heç nə mümkünsüz deyil. Onsuz da bizi addım-addım parçalayıb tarix səhnəsindən sıxışdırırlar. Gücümüzü getdikcə azaltmağa çalışırlar. Gücümüz tükənəndə isə ayağa durmaq bir yana, düşünməyimizə belə imkan qalmaz. Çıxış yolu budur ki, bir an öncə casuslar gözaltına alınmalı, dövlət sağlamlaşmalı, gücünü ortaya qoymalıdır...

## Xalq haqqını dilənməli deyil

Sovetlərdə bir gələnək yaratmışdılar: çoxuşaqlı analara medal verirdilər. İndi də (Kapitalizmdə) "uşaqpulu" deyilən bir ödülləndirmə var. (Azərbaycanda yoxdur, ancaq olmasını umurlar). Əslində bu cür əməllər eybəcərlikdir – analığı satın almaqdır, ailəni asılı duruma salmaqdır. Ananı, analığı, bütövlükdə İnsanlığı alçatmaqla hakimiyyəti hər şeyin yiyəsi, ağası saymaqdır. İnsanlığın boynuna minnət qoymaqdır.

Azərbaycanda uşaqpulunun verilməməsi – hakimiyyətin özünü bu eybəcərlikdən uzaq tutması anlamına gəlməz. Doğanın maddi nemətlərini mənimsəyib talayanlar ölkənin insanlarına dilənçi payı verməli deyillər. Hər kəs əməyi, zəhməti ilə özünü – ailəsini dolandırmağa qadir olduğu halda, gözü hakimiyyətdəkilərin əlinə baxmalı, onlardan dolanışıq diləməli, dilənməli deyil. (Uşaqpulunu hakimiyyət deyil, dövlət verir deyərək, bu işi dövlətin funksiyası kimi qiymətləndirmək də yanlışdır).

Ölkənin insanları öncə, haqq etdiyi, maddi sərvətlərə həsrət qoyulub sonra talançılara minnətdar olmağa zorlanmamalıdırlar. İnsanların haqqını yeyənlərdən dilənçi payı istəmək deyil, haqqını istəmək gərəkdir. Onda insanların yalançı ödüllərə, minnətli yardımlara ehtiyacı qalmayacaq.

## Gürcüstanda (Borçalıda) baş verən olaylar nədən qaynaqlanır?!

Aldığımız bilgilərə görə Gürcüstanın Dmanisi (keçmiş Başkeçid) rayonunda bir sıra cavan adamlar (onların svanlar olduğu bildirilir) yerli azərbaycanlılara hücum etmiş, onları dəyənəklərlə döymüşlər. Ən çox da aralarında olan yaşlı azərbaycanlı kişiyə zərbələr vurmuşlar. Bu olay azərbaycanlıların işlətdikləri "Ömər Market"in qarşısında baş vermişdir. Hücumun səbəbi kimi satıcı işləyən azərbaycanlı qadının onlara havayı pivə verməməsi göstərilir. Bizə görə bu, sadəcə bəhanədir. Məsələnin mahiyyəti daha dərində görünür. Dmanisi meri Giorgi Tatuaşvili baş verənləri xırda insident kimi dəyərləndirsə də, Dmanisidən olan millət vəkili Qoqi Meşveliani baş verənləri siyasiləşdirməməyə çağırsa da, məsələyə olduqca ciddi yanaşmaq gərəkir. Bu cür olaylar ötən yüzildə də bir neçə yol baş verib. Hər 25-30 ildən bir, sanki planlı şəkildə, bu cür olaylar baş verir, azərbaycanlıların bəlli bir kəsimi öz yurdlarından, evlərindən didərgin salınırlar. İnsanlarımız qaçqın, köçkün salınandan sonra sakitləşdirici tədbirlər görülür. Yalançı "Azərbaycan-Gürcüstan dostluğu" bəyanatları verilib olayın üstünə pərdə çəkilir.

80-ci illərin axırları şovinist Qamsaxurdiyanın törətdiyi cinayətlər ayrı-ayrı biçimdə yenidən davam edir, davam etdirilir. Azərbaycanın indiki durumunda bu olayların törədilməsi, bəlkə də, siyasi təxribat məqsədiylə gerçəkləşdirilir. Bu açıdan məsələyə soyuqqanlı yanaşmalar nə qədər önəmlidirsə, olayları gözardı eləmək bir o qədər qorxuludur. Düşünürük, Azərbaycan rəhbərliyi bu məsələni 30-40 adamın xuliqanlığı kimi dəyərləndirib yan keçməməlidir. Azərbaycanın Milli Məclisi toplantı keçirməli, məsələnin araşdırılması üçün Gürcüstan parlamentinə çağırış etməlidir. Birgə komissiya yaradılıb olayın nədənləri araşdırılmalı, yerində çözümünü tapmalıdır.

Bildirildiyinə görə, bu kimi olaylar artıq tez-tez baş versə də, Gürcüstan Hüquq Mühafizə Orqanları ciddi ölçü götürmürlər. Ona görə məsələyə Gürcüstanın daxili işi kimi baxmaq olmaz.

Bir daha vurğulayırıq, durum qarşısıalınmazlığa doğru inkişaf edə bilər. Bu isə regionda yeni qarşıdurma (münaqişə) ocaqlarına çevrilər ki, bu da nə Azərbaycana, nə də Gürcüstana xeyir gətirməz...

## Borçalıda yaşayan soydaşlarımıza qarşı açıq düşmənçilik davranışı

Gürcüstan dövləti yenə iç üzünü göstərdi. Biz dəfələrlə yazmışıq, Borçalıda yaşayan türk toplumuna qarşı həmişə ayrı-seçkilik siyasəti yürüdülüb. Başqa sözlə, siyasi repressiyalar həyata keçirilib. Bunun psixoloji hazırlıqlarını ən çox sıradan bilinən adamların əliylə gerçəkləşdirib. Guya təsadüfi adamlar xuliqanlıq törədirlər. Əgər dövlətin özünün repressiv davranışları olmasaydı, deyərdik, xuliqan adamlar aranı qatırlar. Axı dövlətin özünün yanaşması – tarixi toponimlərimizi dəyişdirməkdən tutmuş soydaşlarımızın mülkiyyət hüquqlarına, təhsilinə, ruhani ünvanlarına (toplumun qutsal tapınaq kimi qəbul elədikləri yerlərə xaç asmalar) qarşı qanunsuzluqlarda davamlı olaraq özünü göstərmişdir. İndi də göz görəki Başkeçid (sonrakı Dmanisi) rayonunda insanlarımıza qarşı çağaşırı zorakılıqlar baş verir (əslində cinayət törədilir), Gürcüstan dövləti isə "el ağsaqqalı" rolu oynayıb zorakılıq törədənlə zorakılığa uğrayanı barışdırır. (Mollanı öyrədib bu addımı atmaq özü eybəcərlikdir. Nə vaxtdan molla dövlətin inzibati funksiyalarını yerinə yetirməyə başlayıb?!). Heç kim cinayət məsuliyyətinə cəlb olunub sorğulanmır. Açıq şəkildə görünür ki, soydaşlarımıza qarşı davranışlar, öncələrdə olduğu kimi, birbaşa dövlət siyasətinin bir parçasıdır. Şübhə var ki, soydaşlarımıza hücum edənlər arasında dövlət təhlükəsizlik-kəşfiyyat strukturlarının adamları da yox deyil. Məsələ ciddi araşdırılsa, çox şeylər aydın olar. Bu cür oyunlar soydaşlarımıza qarşı yeni deportasiya hazırlıqlarından soraq verir. Heç kim yenə də priyomlar işlətməsin ki, burada Ermənistanın, Rusiyanın əli var. Başqasının "əli" nə deməkdir, sənin hüquq mühafizə orqanlarıyın gözü qarşısında qanunların çeynənir, sən isə heç kimi sorğulaya "bilmirsən". Onda nə dövlətsən?! Axı kor deyilik, olaylar necə başlayır, necə inkişaf edir, hamısını görürük.

Azərbaycanın dövlət qurumları heç nəyə səsini çıxartmır, həmişə olduğu kimi, “qorxu siyasəti”nin tələbində davranmaqla yetərlənir. Sıradan insanlarımız da olaylara baxış sərgiləyəndə ehtiyatlı davranır, Gürcüstan dövlətinin çıxarlarına sayğı ilə yanaşmağa çalışırlar.

Ancaq sayğı ilə göz önündə tutulan Gürcüstan dövləti istədiyi vaxt istədiyi kimi ayrı-seçkilik siyasətini yürüdür...

## Yanlışlıqmı, Xəyanətmi?!

İllər öncə bir yazı yazmışdım: “Yanlışlıqmı, xəyanətmi?” başlığı altında. İndi bu yazımın adını da elə qoyuram. Dövlət başında duranların, onlara bağlı adamların yanlışlıqları ola bilər. Ancaq bilə-bilə dövlətin, millətin çıxarlarını kölgələmək, vətənin varlığını sarsıdacaq addımlar atmaq yanlışlıq sayıla bilməz.

Son günlərin ən aktual qonularından biri, bəlkə də birincisi Azərbaycanın, genel olaraq Qafqazın din yönətim başçısı Paşazadənin İranın din öndərliyinə sayğı sunması (əslində yalmanması) oldu. Haqlı olaraq, bu davranışa qarşı sosial şəbəkələrdə, basın yayınlarında təpkilər sərgiləndi. Ancaq bu təpkiləri kimlərin sərgiləməsinin, necə dilə gətirməsinin daha düşündürücü olması bilincindəyik. Azərbaycandan Paşazadəyə təpki göstərənlər, başlıca olaraq, toplumun Vətən məsələsində həssas yanaşan kəsimi oldu. Türkiyədən isə, yenə haqlı olaraq, dövlət düzeyində təpki sərgiləndi.

Biz, Azərbaycan toplumu olaraq, illərdir bir prosesə tanıqlıq (şahidlik) edirik: Azərbaycanın istənilən bir rəsmi adamının qonşu dövlətlərin, ya da beynəlxalq qurumların (Azərbaycanın dövlət siyasəti ilə bağlı) davranışlarına yönəlik danışması həmişə icazəli baş verir. Paşazadənin də bu yarınma, yalmanma təşəkkürünün icazəsiz olmadığını sanırıq. Belə olmasaydı, Azərbaycanın dövlət başçısı, ya da ən azından onun buyruğu ilə başqa dövlət rəsmiləri Paşazadənin sözünə kəskin təpki göstərərdilər. Hər şey açıq ortadadır. Paşazadə Qafqazda (öz vətəni Azərbaycan başda olmaqla) Rusiyanın, eləcə də İranın din siyasətinə qulluq göstərir. Buna Azərbaycan hakimiyyəti səsini çıxarmır, tərsinə, bunun belə olmasını təmin edir. Bu nədir –

dövləti qoruma siyasətidirmi?! Yəni "İranı yola ver, Rusiyanı yola ver, öz siyasi istəklərini gerçəkləşdir" məntiqidirmi?! – Deyil! Bu məntiqi o vaxt doğru saymaq olardı, Azərbaycanın Rusiyadan da, İrandan da kiçik olmasına baxmayaraq, xalqla dövlət arasında bağlılıq, Birlik olaydı.

Nə Rusiya, nə də İran Azərbaycan hakimiyyətinin cırtdan oyunları qarşısında "çörəyi qulağının ardına yeyəcək" qədər axmaq deyillər. Azərbaycanın dövlət yönətimində Rusiyanın da, İranın da özəl kadrları var. Paşazadəni də bu iki dövlətin ortaq kadrı saymaq olar. Daha doğrusu, belə də var. Azərbaycanın hakimiyyəti nə Rusiyanın, nə də İranın kadrlarına toxuna bilmir. Əgər dindirsən, deyər – bu kadrlara toxunsaq, nə dövləti yaşadarlar, nə də hakimiyyəti. Biz bu deyilişə qarşı deyilik. Onsuz da Güney Qafqazda Azərbaycan Türk dövlətinin olmasını adları çəkilən dövlətlər dünəndən istəmirlər. Ancaq Azərbaycan hakimiyyətinin bizim dövlətimizi sarsıdan istənilən davranışlara (həmlələrə) göz yumması heç bir səbəbə haqq vermir. Heç kim də mövcud duruma görə Azərbaycan hakimiyyətinə haqq verə bilməz. Azərbaycan hakimiyyətinin çağaşırı çıxılmazlıqlara girməsinin nədənləri yetərincə açıqdır, göz qabağındadır. İllərdir öz xalqını talaması, əzməsi, sosial sorunlara, qanunsuzluqlara soxub sarsıtması – bəlli ki, onun (hakimiyyətin) beynəlxalq ortamda gücsüzlüyünü yetirməliydi. Öz xalqına qarşı acımasız davranmaların sonucudur, Rusiya Azərbaycan toplumunun bəlli bir kəsimini sosial-siyasi açıdan işğal edib, İran isə toplumumuzun bəlli bir kəsimini ruhani-psixoloji açıdan.

Qarabağ savaşlarında İranın Ermənistana hər cür yardımlarını, illərdir hər yöndən deyildiyi üçün, burada vurğulamaq istəmirik. Eləcə də Rusiyanın Ermənistan araçılığı ilə vətənimizi parçalaması, torpaqlarımızı işğal eləməsi yetərincə açıqdır, ortadadır. Ancaq Azərbaycan hakimiyyəti tez-tez bəyan edir: hər şey kontrolumuzdadır, hər şey istəyimizcədir. Biz isə hesab edirik, bütöv anlamda, xalqımızın yaşamının pozulub sıradan çıxmasından başqa heç nə bu hakimiyyətin kontrolunda deyil.

İndi ərk edib üzümüzü Türkiyə öndərliyinə tutub soruşuruq: İllərdir bu hakimiyyətin Azərbaycan xalqına qarşı davranışı, kimlərin

yanında durması gözünüzün qabağında ola-ola, nədən onların seçkidən seçkiyə hakimiyyəti mənimsəməsinə, yaşamasına göz yumub dəstək verirdiniz?!...

## Reallıq – Antireallıq

Azərbaycan hakimiyyəti Rusiya Zoru qarşısında yenilgənliyini pərdələmək, eləcə də, sülhyanlısı görünmək üçün çağaşarı absurd ideyalar səsləndirir. Onlardan biri də bu günlərdə dilə gətirdiyi "Qafqaz Evi" ideyasıdır. Biz bu ideyanı niyə absurd sayırıq?! – Azərbaycanla Ermənistanın münasibətləri göz qabağındadır. Axı Azərbaycan torpağına qarşı erməni işğalı başa çatmayıb. "Qarabağ Azərbaycandır" şüarını səsləndirməklə məsələ yoluna girməz. Bunu hər kəs bilir ki, Qarabağ tarixi Azərbaycan torpağıdır. Ancaq bu gün o torpaqlarımız işğal altındadır. Bunu danmaqla işğalı ört-basdır eləmək, gözlərə pərdə tutmaq heç bir anlam daşımaz. Əgər işğal deyilsə, onda Rusiyanın ordu birliyi o torpaqlarımıza niyə gəlib? Ya da niyə buraxılıb?!

Əgər gerçəkliyi, yəni Rusiyanın güclü olmasını, Azərbaycanın onunla hesablaşmaq zorunda qalmağını doğru qiymətləndirməməkdə bizi qınayarlarsa, o zaman nədən səhərdən-axşama dönməz qələbənin olmasından danışırlar. Həm "gerçəklik"lə hesablaş, yəni Rusiyanın əsgəri qüvvəsini içimizə burax, suveren hüquqlarımız pozulsun, həm də qələbə eyforiyaları. Belə olan halda "Qafqaz Evi" nəyə qulluq edəcək?! Bundan öncə Azərbaycanın da qatıldığı GUÖAM yaradılmışdı. Hanı bu qurum, harda özünü göstərir – yalnız iqtisadi əməkdaşlıqdamı?! İqtisadi əməkdaşlıqlar üçün bu cür qurumlara gərək yoxdur.

Yüzildir erməni Rusiyanın əli ilə torpaqlarımızı işğal edir. Ya da Rusiya ermənin in əliylə torpaqlarımızı işğal edir – fərq eləməz. İnsanlarımızı qırır, namusumuzu ləkələyir. Bu cür çirkin əməllərindən bir an da qırağa durmur. Qırağa durmaq niyyəti də yoxdur. Ona görə də düşünürük, ildən-ilə baş verən hər cür faciələrin qarşısının alınması üçün ermənilik adlanan ilanın biryolluq başı əzilməlidir.

Rusiyanın isə dişi sındırılmalıdır ki, hər addımda dövlətçiliyimizə diş batırmasın. Ancaq necə?! Bunun üçün hər addımda Türkiyəni çağırmalı deyilsən ki. Türkiyənin də öz sorunları var, başından aşır. Bundan sonra da sorunları olacaq. Ona görə düşünürük ki, Azərbaycan dövlətinin Güney Azərbaycana yönəlik konsepsiyası olmalıdır, bu konsepsiya əsasında ciddi çabalar göstərilməlidir. (Biz bu düşüncəmizi onillərdir dilə gətiririk, yazırıq. Jirinovski kimi avantürist bir haytalının vurğulamalarına görə demirik. Yeri gəlmişkən, biz dönə-dönə yazmışıq, Batının hədəfi – nə İranı parçalayıb qüdrətli Azərbaycan-Türk dövləti yaratmaqdır, nə də Rusiyanı parçalayıb 15 Türk subyektindən qüdrətli Türk birliyi oluşdurmaqdır. Sadəcə hədəfi onları yönətilən (idarə olunan) duruma gətirməkdir. Bütövləşmək, bağımsızlığımıza, özgürlüyümüzə qovuşmaq isə bizim tarixi, milli-mənəvi haqqımızdır. Bunu biz özümüz yetirməliyik). Azərbaycan siyasi, milli-mənəvi çabalar göstərərək, Bütövləşib özünüqoruma gücünə yiyələnməlidir. Bu uğurda çabalar göstərməsə, Rusiya da daim işğalçı kimi davranacaq, heç vaxt da bu əməlindən dala durmayacaq. Güney Qafqazda, Pyotrun vəsiyyətindən irəli gələn bir niyyətlə, Azərbaycan-türk dövlətçiliyinə son vermək əməllərini gerçəkləşdirməkdə davam edəcək. İran da o yandan ona yardımçı olacaq. Ömürlük qorxu siyasəti yürüdərək Rusiyaya yaltaqlanmaq, onu strateji yandaş saymaq – Azərbaycan sorunlarının, bütövlükdə Güney Qafqaz məsələlərinin çözümü deyil. Rusiya heç kimlə yandaş, müttəfiq olmur, o, özünə kölə istəyir, kölə yaradır. Kölələrinin boynunda oturaraq gələcəyə addım götürür…

Söz yox, biz Azərbaycanla bağlı rahatsızlığımızı dilə gətirərkən, indiki Azərbaycan hakimiyyətinin dediklərimizi gerçəkləşdirəcəyinə inanmırıq, nə də ondan belə bir hünər ummuruq. Sadəcə olmalını dilə gətiririk. Soyğunçu, rüşvətxor, korrupsioner, xalqın umudunu, sağlamlığını məhv edən bir komanda belə bir istəkdə, gücdə ola bilməz. Ona görə Azərbaycanın siyasi özünüqoruma gücünün ortaya gəlməsi – yəni Bütövləşməsi (Azərbaycanın başqa cür siyasi özünüqoruma gücü yoxdur) kimlərəsə absurd görünə bilər. Ancaq bütövlükdə (bu hakimiyyətin dönəmindən qıraqda da) bu ideyanın kimlərəsə absurd görünməsinin, real görünməməsinin özü absurddur.

“Reallıq başqa şeylər tələb edir” deyərək, dövlətçilik taleyimizin sonunu gözləmək necə real sayıla bilər?! Demək, güclənmək çabaları absurddur, zəif qalmaq, balaca qalmaq realdır, doğrudur; axmaqlığın qaçılmaz olmasını düşünmək, daha doğrusu, ölümlə barışmaq nə demək?!.

Bir sözlə, Azərbaycan ayrı-ayrı siyasi birliklər yaratmağa, ya da yaranmışlara yüyürməyə vaxt itirmək yerinə, özü ilə Birləşməyə vaxt ayırmalıdır. Özü ilə birləşməyi bacarmayan, ya da buna çaba göstərməyən bir dövlət, bir xalq başqaları ilə bir araya gəlməkdən nə xeyir götürə bilər?! Söhbət parçalanmış, zəif düşmüş xalqdan gedir…

Azərbaycan onsuz da parçalanmışlığı ilə zəif düşmüşdür. Üstəlik ortada onu (xalqının yaşam durumuna görə) zəif düşürən bir hakimiyyət vardır. Bu hakimiyyətin yarıtmaz əməllərinin sonucudur ki, erməni yenə ATƏT-in Minsk Qrupu, yenə “danışıqlar” məsələsini gündəmə gətirir. Belə getsə, Minsk Qrupunun gerilikçi varlığı bərpa oluna bilər. Çünkü Rusiyanın Güney Qafqazda əsas söz yiyəsi kimi oturuşmasını Batı sinirə bilməz. İkinci, nə Rusiya, nə də Batı Türkiyənin bu regionda aktiv rol almasını sinirə bilməz. Söz yox, biz bununla demək istəmirik ki, hər şey elə Rusiyanın, ya da Batının istəyi ilə olmalıdır. Bu istəkləri pozmaq üçün ortaya dövlət iradəsi qoymaq gərəkdir. Ancaq nə yazıqlar, hələ ki, ortaya sağlam iradə qoyulmur.

Azərbaycanın hakimiyyət yönlü mətbuatı yazır: Qarabağda yerləşdirilən ermənilər geri (Ermənistana) qayıdır. Guya Azərbaycanın qarantiyası olmadan heç kim orda qalmaz. Bunu da Azərbaycan hakimiyyətinin yürütdüyü siyasətlə bağlamağa çalışırlar. Sözsüz ki, bu hakimiyyətin ortada bir uğurlu addımı olanda gözümüzü yummağa çalışmırıq. Ancaq ortada hər hansı uğurlu siyasət görünmür (nisbi xarakterli lokal siyasi uğurlar isə ötəri təsəllidən başqa bir şey deyil). İndiyə kimi erməni öz gücü ilə dövlətləşib erməniləşməyib ki. Nə əldə edibsə, başlıca olaraq, Rusiyanın gücü ilə əldə edib. Ermənini Qarabağa daşıyan Rusiya onun orada qalmasına qarantiya da verir – Ermənistana yaraq-yardım daşımaqla, Azərbaycan hakimiyyətinə bu durumu qəbul etdirməklə. Arada içəriyə hesablanmış bəyanatlar səsləndirmək isə boş təsəllilərdən uzağa getməz.

Rusiya ermənini Qarabağa daşımalı idi, indi də onu orada saxlamalıdır. Yoxsa Rusiyanın əsgəri qüvvəsinin Azərbaycan torpaqlarında nə işi var. Azərbaycan torpaqlarında olmasına ad qoymalıdır axı. Qarabağda erməni olmasa idi, Azərbaycan torpağında hansı sülhüqoruma əməliyyatını keçirirəm deyə bilər?! Bir sözlə, Rusiya özü üçün öz işini yerinə yetirir, biz də öz işimizi yerinə yetirməliydik, yetirməliyik. Mətbuat səviyyəsində Rusiyanı suçlamaqla işimiz yerinə yetirilmir. Ya da Azərbaycan-Türkiyə bağlılıqlarını Ermənistan-Rusiya bağlılıqlarından üstün sayıb təsəlli bulmaqla işimiz yeriməz. Yeri gəlmişkən, Rusiya-Ermənistan bağlılığını Azərbaycan-Türkiyə bağlılığı ilə tutuşdurmaq heç gərək də deyil. Belə götürəndə nə Rusiyanın, nə də Ermənistanın tarixi torpaqları yoxdur, yəni əslində tarixi haqları yoxdur. Ona görə onların (birinin imperiya, o birinin əlaltı olmasına baxmayaraq) bəşəri taleləri də oxşardır. Ancaq istər Azərbaycan, istər Türkiyə öz tarixi torpaqlarında oturmuş dövlətlərdir. Bunların heç biri işğalçı deyil, ən güclü çağlarında belə heç bir toplumu assimilyasiya etməyiblər.

Bu, ayrı bir qonu olduğu üçün davam etmirik. Ancaq yuxarıda dediklərimizə bəzi artırmalar (əlavələr) eləmək yerinə düşər. 44 günlük savaş apardıq. Ordumuz böyük ərdəmlik göstərdi. Heç kim bu ərdəmliyə kölgə salmaq niyyətində deyil. Ancaq boynumuza almalıyıq, bu savaş icazəli savaş idi. Ordumuzu son qələbələrdən daşındırmaq da savaşın icazəli olduğunu sübut edirdi. Ancaq bizim öz gücümüz yaranarsa, vətənimizi qurtarmaq, qorumaq, qurmaq üçün heç kəsdən, yarımçıq qələbə üçün icazə almarıq. Gücümüz isə öncə Güney Azərbaycandır, sonra Türk Birliyidir. Bizim üçün Türk Birliyi imperialist birlik deyil, Özünüqoruma Birliyidir. Düşünərlərimiz qonunu bu yöndə inkişaf etdirsələr, sevinərik.

## Dünyanın Yağıları

Dünya hər yöndən çalxalandırılır. Xalqlararası, dövlətlərarası münasibətlər imperializm qanunları ilə oluşdurulur. İmperializm qanunları işğal qanunlarıdır, irtica yanaşmalarıdır, dağıdıcılıq gedişləridir. Bu qanunlarla dünya güclülərə, gücsüzlərə bölünür. Güclülər işğal edir – qurtarıram deyir, talayır – yedirirəm deyir, öldürür – sağlamlaşdırıram deyir. Bir sözlə, hər işinə humanizm donu geyindirir. Hamı bunu görür, ancaq heç kim əməllərə deyil, dona baxır. Bunun adına siyasət deyirlər, heç kim bu gedişə qarşı direniş göstərmək istəmir, hamı bu gedişin içində özünə yol axtarır. Bu gedişdən qıraqda həqiqət axtarana geri düşüncəli kimi baxırlar, Zamandan geri qalmış sayırlar. Hər kəsi bu qəlibin içində aktiv görməyi doğru bilirlər. “Əgər dünya belə qurulubsa, başqa cür düşünmək, davranmaq vaxt itkisidir” deyirlər. Siyasəti həyatımıza buraxmaq gərəkmədiyi halda, siyasət həyatımızın özüdür deyirlər. Əslində belə bir siyasi düzən heyvanat ortamı yaradır. Adam İnsanlaşmaq yerinə heyvanlaşmaq zoruna boyun əyir. Döyüşlər, yarışlar (rəqabətlər) antiinsani xarakterdədir. “Belə olmalıdır, hamı oldu gözü qıpıq, sən də ol gözü qıpıq. Yoxsa neyləyə bilərsən, sən yaşamında mənəviyyat ölçüsü yaratmağınla böyük güclərin qarşısında necə duruş gətirə bilərsən?!”. Budur dünyanın məntiqi. İnsanlığı, vicdanı, ədaləti gömürlər – bu, heç kimi qorxutmur. Biri o birinin eybəcərliyini ifşa edəndə belə, insanlığın ölçüsü ilə eləmir, siyasətin ölçüsü ilə eləyir. Yəni İnsanlığın dirçəlməsi onu düşündürmür, rəqabətdə qabağa çıxması düşündürür. Heç yerdə arı niyyət, qabaqcıl düşüncə görünmür. Kapitalizmin – İmperializmin eybəcərliklərinə qarşı Birliklər yaratmır, bir-birini qırmaq, xalqları qırğına vermək üçün Birliklər yaranır. “Birlik” sözü xarakterini dəyişir, heyvani anlam daşıyır. Bir sözlə, bəşəriyyət özü öz məhvini hazırlayır.

Guya dünyada tərəqqi var, insana azadlıq verilir, onun haqqı qorunur. Hər halda qabaqcıl sayılan dünyada belə görüntü yaradılır. Ancaq Ağalığın başlıca tələbi – insanı əzmək, onu köləyə çevirməkdir. Bunsuz Ağalıq yaşaya bilməz. Kimə qarşı qullanırsan qullan, hansı ölkədə insanı əzirsən əz, məsələnin mahiyyəti dəyişmir. Yəni

əgər Amerika öz xalqından deyil, başqa xalqlardan terror şəbəkəsi düzəldirsə, öz çirkin niyyəti üçün insanları qurban verə bilirsə, hansı tərəqqidən, insan haqlarından danışmaq olar?! Bu dediklərimiz başqa güclərə də özgündür. Deyirlər, Amerika, deyək ki, Azərbaycanda insan haqlarının pozulmasına görə rahatsızdır. Bu səmimiyyətsizliyi necə doğru yanaşma saymaq olar? Nədən biz ölkəmizdə insanlarımızın alçaldılmasına direniş göstərməyi Amerikadan umuruq?! Dünyanı çalxalayan, hər yerdə insanların qırğınına səbəb verən Amerika hansı insanların haqqını qoruyur, necə qoruyur axı?! Sadəcə hakimiyyətlə xalq arasında qarşıdurma yaradır, özünün guya yardımçı kimi gərəkliyini şüurlara yeridir. Bununla da sömürgəçilik siyasətini qoruyub saxlayır. Biz, xalq olaraq, haqqımızı məkrli güclərin qatqısı olmadan qorumağa böyüməliyik, buna özümüz yetməliyik. Bu qonunu isbatlamaq üçün indi gündəmin başlıca sorunu sayılan Əfqanıstan olaylarına baxış sərgiləməyimiz doğru olar. Əslində bu olay da Orta Doğu olayları, Güney Qafqaz olayları kimi dağıdıcı güclərin saqqıza çevirdiyi bir olaydır. SSRİ-nin Əfqanıstanı işğal eləməsi uzaq keçmişin tarixi deyil. 90-cı illərdə SSRİ dağılmağa başlayanda Taliban hərəkatı yarandı. İlk çağlarda bu birləşmələrə Birləşmiş Ərəb Əmirlikləri maddi, ideoloji yardım edirdi, sonra bu yardıma Səudiyyə Ərəbistanı da qoşuldu. Adı çəkilən dövlətlərin Amerikanın boyunduruğunda olduqlarını gözə alsaq, Əfqanıstanın siyasi-ideoloji cəhətdən qarşı-qarşıya duran iki supergücün savaş poliqonuna çevrilməsini daha yaxşı anlamış olarıq. Dünyada ağalıqlarını qorumaq üçün bu güclər gah bu, gah da başqa bölgələrdə oyunlar qurur, başqa xalqların dincliyinə qənim kəsilirlər. İstənilən bir ölkədə, qıraqdan yardım olmasa, terror şəbəkəsi yaranıb fəlakətlərə nədən ola bilməz. “Taliban” imperializmin doğduğu, doğurduğu bir axındır. Dediyimiz kimi, qıraqdan yaraq-yardım almasaydı, olaylar bu dərəcədə qorxulu bir görsəniş almazdı. SSRİ Əfqanıstandan çıxandan sonra Amerika işğal elədi, bu bölgədən Asiyaya hakim olmağa çalışdı. Ancaq vaxtilə yardım etdiyi qüvvələrlə üz-üzə qaldı. Terroru qidalandıranlar olur, ancaq yiyəsi olmur. Bəzən o, öz yaradıcısına qarşı da aqressiv davranır. Ortaya can qoyduğu halda özü hər şeyə yiyələnmək, sərbəst yaşamaq istəyir. Terror

şəbəkəsinə çevrilən qurbanlar qanan, düşünən, qorxan qüvvələrdən oluşmur. Belə qüvvələrin kökünü kəsmək də çətin olur. Əslində kökünü biryolluq kəsmək istəmirlər də. Çünkü dünyanı yönətən güclər bir-biri ilə öz ordusu, dövlətinin gücü ilə savaş aparmırlar, terror şəbəkələrinin qullanılması ilə bir-birinə zərər yetirirlər. Yaxşı bilirlər ki, açıq savaşa girmək – istər siyasi, istər iqtisadi açıdan çökmələrinə gətirib çıxarar. Ona görə ən murdar gedişlər edir, oyunlar qurub bölgələri çalxalamaqla uğraşırlar.

Hələ aylar öncə Amerika rəsmiləri elan eləmişdilər ki, Amerika ilə NATO öz qoşunlarını Əfqanıstandan geri çəkəcəklər. Çəkdilər də. Elan olunan vaxt bir sıra mətbu orqanlar belə bir xəbəri həyəcanla qaşılamışdılar. Başqa sözlə, bölgə dövlətlərinin həyəcanlarını ifadə etmişdilər. Çünkü hər kəs anlayırdı ki, koalisiya qoşunları çıxarılandan sonra "Taliban"lar Əfqanıstanda mövcud hakimiyyəti devirib yerinə keçəcəklər. Taliban rejiminin bölgə dövlətlərinə nələr vəd edəcəyi sözsüz ki, düşündürücüdür. Birinci, Əfqanıstandan mühacir axınları qonşu dövlətlərin hər biri üçün baş ağrısı deməkdir. Talibanlar özlərini sələfi adlandırırlar. Onlar üçün televiziya, musiqi, incəsənət, əyləncə oyunları küfrdür. Kişilər uzun saqqal saxlamalı, qadınların işləməsi aradan qalxmalı, küçələrdə yanında kişi olmayan qadınların gəzməsi haram bilinməldiir. Onlar 1996-cı ildə hakimiyyəti ələ keçirəndən sonra başqa inanclı insanlara, onların daşıdıqları mədəniyyətə qarşı kəskin, aqressiv davranışlar sərgiləmişdilər. Bu deyilənlərin yenidən bərpa olunması, sözsüz ki, yeni köç dalğalarının yaranmasını qaçılmaz edəcəkdir. Amerika bunları bilə-bilə qoşunlarını çıxarır. Demək ki, Talibanların hakimiyyəti ələ keçirmələrinə razılıq verib. Burada məkrli oyunların qaranlıqları aydınlaşmağa başlayır. Bölgədə, özəllikcə Güney Qafqazda aktivləşməyə başlayan Türkiyənin, eləcə də Rusiyanın yeniləşən bölgəsəl problemlərlə üz-üzə qalması Amerikanın işinə yarayır. Talibanlar hakimiyyətdə möhkəmləndikcə, adı çəkilən dövlətlər onunla anlaşmaq, dil tapmaq zorunda buraxılır. Türkiyə onsuz da Suriyadan, Əfqanıstandan gələn, gətirilən mühacirlərlə yüklənmişdir. Rusiya da KTMT-yə üzv olan Orta Asiya dövlətlərinə görə (əgər İslam Əmirliyi ideoloji cəhətdən özünə yer eləməyə çalışsa) Talibanlarla dil tapmalı, ya da savaşma-

lıdır. Bu gün Rusiyanın, hansı səbəb üzündən olursa olsun, Əfqanıstanla savaş bataqlığına girməsi olumsuz görünür. Ancaq dil tapıb uzlaşmaq çabaları da, istər Türkiyənin, istər Rusiyanın siyasi çəkilərinə zədə vurmuş olur. BMT-nin də, başqa Dünya Birliklərinin də terror şəbəkəsi kimi tanıdığı Talibanla uzlaşmaq – bu dövlətlərin terror şəbəkəsi ilə iş birliyinə getmələri kimi qiymətləndiriləcək. Bu qonu ilə bağlı daha çox arqumentlər göstərmək mümkündür. Bütün bunlarla yanaşı, ayrı-ayrı ölkələrdə, eləcə də Azərbaycanda Vəhabi-Sələfi adlanan qrupların həm sayı arta bilər, həm də daha aktiv düzeyə qalxa bilər. Bununla da qarşıdurmalar çoxalır, əmin-amanlıq daim qorxu altına düşər. Düşünürük, bütün bu görünənlər məkrli niyyətlərin bir hissəsidir. Ancaq qabaqda daha böyük oyunlara da tanıqlıq eləmiş olacağıq. Analitiklər, politoloqlar, siyasətçilər də yeni araşdırmalarla, açıqlamalarla, qiymətləndirmələrlə gündəmi doldurmuş olacaqlar. Çax-çax nə qədər çaqqıldayır çaqqıldasın, dəyirman da öz işini görəcək. Dünya bunca özündən ayrılıb, gözəllikləri itirib, eybəcərliklərlə yüklənib. Biz də bu bədbin dünyanın balaca bir mənzərəsini cızan yazımızı Asif Atanın bir çağırışı ilə bitiririk: "İnsanlaşın – İnsanlaşdırın! Bəşərin qurtuluşu İnsanlaşmaqdadır!".

## Borçalıya yönəlik axtarışlar, düşüncələr

Əslən Borçalıdan olan düşünər adamlar kimi öhdəmizə düşən sorumluluq (məsuliyyət) böyükdür. Doğrudan da, gələcək soylar bizim qarşımızda çox ciddi sorğular qaldıracaq. Biz sağ olduq, ya olmadıq, fərq etməz. Borçalının düşdüyü aqibət bizi mühakiməyə çəkəcək, cavab istəyəcək, hesabat istəyəcək. Nə etdiniz, nə düşündünüz?! Özünüzü düşündünüz, ailənizi düşündünüz, işə getdiniz, gəldiniz, ortada oturub danışdınız, dağıldınız, filan elədiniz. Nə eləyirsən elə, tarix hər şeyi hesaba götürür, Gələcək hər şeyi çox yaxşı görür. Gələcəyin gözü itidir. Ancaq məsələ təkcə Gələcəyin gözünün iti olmağına görə deyil, yəni bizim qayğılarımız Gələcəyi yola vermək, ya da ondan gizlənmək deyil. Ora bizim dədə-baba

torpağımızdır. O torpağın altında bizim keçmişimiz yatır. Orda bizim ruhumuz bərkiyib, orda bizim sazımız çalınıb, beşiyimiz yırğalanıb. Bunlar hamısı faktdır, böyük məsuliyyət qoyur qabağımıza. Dediyim odur, biz məsələyə kökündən yanaşmağı bacarmalıyıq. Kökündən də bəzi suallara cavablar tapmalıyıq. Məsələn, niyə bu günə düşdük?! Qayıdırıq lap başlanğıca – 1736-cı ilə. Azərbaycan tarixinin incəliklərinə getməyə gərək yoxdur. 1736-cı ildə Nadir şah Borçalının inzibati yönətimini (siyasi deyil) Gürcü çarlığına tapşırdı. Nə yazıqlar, düşünmədi Nadir şah, düşünmədi ki, dünyanı tutub durası deyil. Bu davranışın gələcəyi var. Ədalətli şahlar uzaqgörənliyi də sevməlidirlər. Düşünməlidirlər, burda yaşayan insanların aqibəti necə olacaq. Bunu Nadir şah hesablamadı. Ona görə bu gün belə bir duruma düşmüşük. Yad mədəniyyətin basqısı altındayıq, yad millətin torpağı sayılırıq. Ulu keçmişdən üzü bu yana gələn halal yurdumuzda, torpağımızda özümüzü qərib bilirik, yad görürük. Bu bizim o çağdan başlayan sorunumuzdur. İndi bizlər, Borçalı aydınları olaraq, bu tale ilə barışırıqmı, barışmırıqmı?! İlk nöqtə burda qoyulur. Biz Borçalını tarixi, gələcəkli Azərbaycan yurdumu sayırıq, yoxsa Gürcüstan yurdumu sayırıq?!

...Biz Borçalını necə görürük? Gürcüstan torpağı olaraq, gürcü mədəniyyətinin içərisində olan etnik Borçalı toplumu olaraqmı, yoxsa gələcək bütöv Azərbaycanın tərkib hissəsi kimimi? Böyük Azərbaycan-Türk mədəniyyətinin yenidən içərisində olmağı düşünürük, yoxsa gürcü mədəniyyətinin altında qalmasınımı?! Bu bir məsələ. Bundan sonra gəlir bizim düşüncələrimizin yönü, bəlirliyi (müəyyənliyi). Borçalıdan bir çox dəfələr deportasiyalar olub, qovulmalar olub. Bu qovulmaların nədənini biz bilirik. Nədəni odur ki, Gürcüstanın dövlət siyasətinə görə, Borçalıda ağlı söz kəsən, əli qələm tutan insanlar qalmamalıdır. Onlar çağaşırı tarixə üz tuturlar, tarixi öyrənirlər. Borçalının keçmişinə üz tuturlar. Keçmişin qarşısında özlərini sorumlu duyacaqlar. Deyəcəklər, Borçalıya Azərbaycan-türk toplumu olaraq Özərklik (muxtariyyat) verilsin, özgürlüyü (azadlığı) tanınsın i.a. Bunların baş verəcəyini gözə alıb Gürcüstan öz gələcəyini, sabahını düşünür. Bu açıdan addımbaşı elə qarışıqlıq yaradır, qarşıdurmalar yetirir ki, biz oradan qaçaq. Qaçırıq da. Siyasi

dilnən desək, Deportasiya olunuruq. Kim qalır orda, siyasi etkisi olmayan, dərindən düşünməyi bacarmayan sadə işçi toplum. Onlar da Gürcüstanın kənd təsərrüfatı üçün qara qüvvə kimi çalışırlar. Yeni bir həşir gələndə onlar da deyirlər, bizim burada axırımız yoxdur. Gedək görək, Bakıda özümüzə nəsə tapa bilərikmi, torpaq ala bilərikmi, Azərbaycanın hansısa bölgəsində bir evdən-eşikdən qura bilərikmi?! Bu, bizim faciəmizdir. Biz orada Borçalı toplumu olaraq, kökümüz üzərində möhkəmlənmək haqqında düşünmürük. Azərbaycanda özümüzə bir koma tapmaq, yer eləmək haqqında düşünürük. Bəs neyləyək, bunun qarşısını alaq, necə ala bilərik?! (Mən sualları ortaya gətirirəm ki, bilək, bizim sorunumuz hardadır). Gürcüyə yalvarırsan, gürcüyə yaltaqlanırsan, gürcüyə boyun əyirsən, daha da ayağını yuxarı qoyur. Bununla iş alınmır. Hələ mən işin diplomatiya tərəfinə keçmirəm. Sırf aydınlaşdırıcı xarakterli qonulara toxunuram. Gürcü bunu eləmir. İkinci, Azərbaycan hakimiyyəti də heç nə eləmir. Azərbaycan hakimiyyəti deyir, gürcü ilə mənim dostluğum, əməkdaşlığım var. Yaxşı, sənin dostluğun, əməkdaşlığın nəyə dayanır axı?! Çağaşırı Borçalı toplumunu Gürcüstan təpənə çırpır. Bu haçağa kimi davam eləməlidir?! Bir sözlə, Azərbaycan hakimiyyəti bu işlə uğraşmır. Sənin əməkdaşlığın, qonşuluğun nəyin üzərində qurulub, onu mənə aydınlaşdır. Biz Borçalılar olaraq, Azərbaycan hakimiyyəti qarşısında məsələ qaldıra bilərik, sənin əməkdaşlığın nəyə hesablanır deyə. Sənin Gürcüstanın içinə qatılmış Borçalın var. Sən burada yaşayan toplumu görməməzlikdən gəlirsən, onu düşünmürsən, deyirsən, əməkdaşlığım var. Əməkdaşlığı sən Rusiya ilə, italiya ilə, Macarıstan ilə edə bilərsən. Sənin Gürcüstanın içində toplumun var. Sənin onun qarşısında ciddi şərtlərin, tələblərin nədir?! Bu boyda sən Gürcüstana yardım edirsən, onun iqtisadi gəlişməsini (inkişafını) qabağa aparırsan.

Buna görə də Azərbaycan hakimiyyəti Borçalıların qarşısında sorumluluq daşımalıdır. Keçirəm başqa bir məsələyə. Azərbaycan hakimiyyəti Borçalıdan gələnlərin qarşısını alır. Borçalalıların beyinlərinə yeridirlər ki, Azərbaycan hakimiyyəti istəmir Borçalı boşalsın. Ona görə bura gəlməyin, burada qeydiyyata düşməyin. Yəni bura vətəndaşı olmağın qarşısını alır. Üzdən baxanda çox yaxşı görünür,

nə yaxşı bunlar Borçalının boşalmasının qarşısını alırlar. Halbuki Borçalının boşalmasının qarşısını almır. Bu Borçalıların Azərbaycana, özəllikcə Bakıya toplanaraq, bəlli bir klan yaratmasının, hakimiyyətə iddia olmasının qarşısını alır. Mən istəmirəm, klançılıq olsun. Mən Borçalı klanı arzulamıram, ona çalışmağın da yanlısı deyiləm. Ancaq bu hakimiyyət onu düşünür deyə, buraya köçün qarşısına sipər olub. Axı sabah deportasiya məsələsi yenidən gündəliyə gələndə heç silah gücü ilə belə, qarşısını ala bilməyəcəksən. Yaxşı olmazmı, Borçalı toplumunun öz dədə-baba torpağında siyasi açıdan möhkəmlənməsini düşünüb yoluna qoyasan?!...

İndi keçirəm Borçalı sorununun başqa bir açıqlamasına. Biz Borçalılar olaraq 19-cu yüzildə necə idik, 20-ci yüzildə necə idik, 21-ci yüzilə necə girdik?! 19-cu yüzildə biz, gürcü qarışıq, çar Rusiyasının boyunduruğunda idik. O çağlar Borçalıların içərisində düşünülmüş siyasətlə ciddi sorunlar yaradırdılar. Bunlar nə idi?! – Birincisi, Borçalıları, hərbi sirrlərə yetməsinlər deyə, hərbi qulluğa götürmürdülər. İkincisi, Borçalıda maarifçilik yox kimi idi. Özəllikcə, məktəblər tək-tək olsa da, Borçalıları təhsilə yönləndirmirdilər, millətin içindən tək-tək özlərinə gərək bildiklərini cəlb edirdilər. Onun yerində mədrəsələr vardı. Mədrəsəçilik səviyyəsində formalaşan Borçalının sıradan toplumu Novruzəlilikdən ötə deyildi. Din geriliyinə bağlı olan adamların gələcəyini necə düşünmək olar?! Üçüncüsü, Borçalılar bir-biri ilə qarşıdurmalara çəkilirdilər. Ya özləri hər hansı səbəbdən qarşıdurmaya gedirdilər, ya da qarşıdurmaya çəkilirdilər. Biri o birini öldürürdü, öldürəni cinayət sorumluluğuna çəkmirdilər ki, qan düşmənçiliyi böyüsün. Birlik yaranmasın, ortada bütövlük əmələ gəlməsin. Borçalı Azərbaycanın tarixi yurdu kimi iddia olunmasın. Sonucda rus mədəniyyətinin basqısı altında, onun istədiyi kimi yeni bir Borçalı toplumu formalaşdırılsın. Bu da 19-cu yüzildə baş tutdu.

Bəs 20-ci yüzildə nə baş verdi?! 19-cu yüzildə hazırlamanın davamı olaraq, 20-ci yüzildə bizi (Borçalını) Rusiya işğal elədi. Yenidən Rus mədəniyyətinin basqısı altına alındıq. Rus basqısının altına alındıq. Yüzilliyin sonunda Rus imperiyasını dağıtdılar, deyək, Batı dağıtdı. İmperiya dağıldı, gürcülər özləri üçün bağımsızlıq, özgürlük əldə elədilər. Borçalılar heç nə əldə eləmədilər. Beş dəfə ötən

yüzildə, bir dəfə də yeni başlayan bu yüzildə deportasiya əldə elədilər. Mən məsələni belə qoymaq istəyirəm. Borçalıların çoxu elə düşünür ki, indi demokratik dövrdür, indi gürcülər demokratiyaya inteqrasiya edirlər. Yalan söhbətdir. Heç kim deməsin, sabah yeni Qamsaxurdiya ortaya çıxmayacaq. Necə ki biz ümid edirik, sabah Azərbaycanda milli hakimiyyətimiz qurulacaq. Onlar da ümid edirlər, sabah bir şovinist gələcək, erməni ilə bizim aramızı qatacaq, qarışdıracaq. Ermənilərə ortam yaradacaq, bizi qırdıracaq, biz də qoyub qaçacağıq. Sonra yalandan əl-ayağa düşəcək ki, mənim ölkəmdə belə şey olmaz filan. Bunu biz yaşamışıq, görmüşük. Sorunun əsas cəhətlərindən də biri budur. Biz, Borçalı olaraq, SSRİ dağılandan sonra nə əldə elədik, buna cavab gərəkdir. Gürcüstanın yeni yüzildə milli strategiyası formalaşdı. Bu milli strategiyanın içərisində, konkret olaraq Borçalı toplumu gürcü toplumunun tərkib hissəsi kimi onun haqq etdiyi özgürlükləri, haqq etdiyi yönü, yöntəmi bütöv şəkildə, qanunauyğun formada əldə etdimi? Etmədi. Araşdırıb açıqlamasını deyə bilərik. Bəlli toponimlərin ucdantutma dəyişdirilməsi, tarixi məbədlərimizin restavrasiya olunaraq gürcüləşdirilməsi, hər birinə böyük ərazilər ayırıb yaxınına yasaqlar qoyulması, örüşlərin əldən çıxması, insanlarımızın kənd təsərrüfatı olanaqlarının qısıtlanması. Ən başlıcası təhsil sistemimizin sıradan çıxarılması, özəl olaraq vurğulamaq gərəkdir, təhsil üçün milli kadrların yenilənməməsi, buna yalançı bəhanələr gətirirlər. Arada məsələ qaldırdılar, direktorlar hamısı gürcü olacaq. Guya Azərbaycan direktorları gürcü dilini bilmir. Nazirlər kabineti qarşısında məsələ qaldıra bilmir, onlar aydınlaşdıra bilmir. Ona görə təhsil sorunlarını bilmirik. Odur ki, gürcü əsilli insanlardan, öyrətmənlərdən direktorlar təyin olunacaq. Burada hədəf odur, Borçalıda Azərbaycanın milli mədəni varlığı zaman-zaman şüurlardan uzaqlaşdırılsın. Məktəblərdə cavan kadrlar yoxdur, cavan öyrətmənlər yoxdur. Sabah yaşlıların yerini kim dolduracaq, bəlli deyil. Bu sorunu mən yazmışdım. Bizim bir dostumuz deyir, nə üçün gürcüdən umursunuz? Mən açıqlama istədim, gürcüdən ummayıb kimdən umacam?! Açıqlaması belədir, gürcü deyir, biz zəif dövlətik. Sizin Təhsil Naziri bizimlə əməkdaşlıq etsin. Mən başa düşmürəm, sənin təhsilin inkişaf eləyə-eləyə gedir, gürcü milləti

olaraq. Mən də sənin dövlətinin bir parçasıyam. Necə olur, sənin millətinə yoxsulluğun dəxli yoxdur, mənə var?! İkincisi gürcü yaxşı bilir, Azərbaycan hakimiyyəti heç də onlarla əməkdaşlıq edib oraya pul ayırmayacaq. Onu elə-belə ortaya atır. Belə dövlət siyasətimi olar?! Axı sən dövlətsən, mən sənin vətəndaşınam. Nə olsun, başqa millətəm. Sən vətəndaşının qeydinə qalmalısan. Milli-etnik mədəniyyətlərin qeydinə qalmalısan. Onu assimilyasiya eləməli deyilsən. Zəif dövlətsən, onda icazə ver, Azərbaycanla birləşim, Azərbaycan dərdimi çəksin. Sən çəkə bilmirsən, qoy o çəksin. Məsələni ciddi qoymaq gərəkdir. Ancaq ciddi qoyulmur, bu cür gedişlərin içərisində, istər Borçalının özündə, istərsə də Bakıda ayrı-ayrı təşkilatlar yaranır. Çağaşırı hərə bir təşkilat yaradır. Bu təşkilatlar da əslində ümumi dünyanın oynadığı oyunun tərkib hissəsidir. Demokratiya oyununun tərkib hissəsidir. Hərə bir təşkilat yaradır, heç kim heç nə ilə ciddi uğraşmır, baş qatır, özünü şöhrətləndirir. Mənim düşüncəmə görə Borçalı kimi vətən məsələləri ilə bağlı fədakar, özündən keçən, ölümü gözünün altına alan oğullar gərəkdir. Təşkilat yaradıb bütün sorunları kökündən ortaya qoysun, onunla ciddi uğraşsın. Qoy uzun çağlar məsələ sıfır nöqtəsindən tərpənməsin, bir çox məsələlər həllini tapmasın. Ancaq sən məsələni həqiqi qoy. Səndən sonrakı soylar üçün örnək yarat. Bu gün sən yetə bilməsən də sabahkı soy davam edib yetsin. Ancaq ona bir yol çək. Bu gün təşkilatları yaradanlar özlərini yaratmırlar. Ya da bu təşkilatların içinə toplananların heç biri özü ilə uğraşmır, öz şöhrəti, gəliri, çıxarı ilə uğraşır. Nə düşüncəsi ilə, nə mənliyi ilə, nə mənəviyyatı ilə, nə də vətən sevgisi ilə uğraşmayan adamlardan ciddi bir sonuc gözləyə bilməzsən. “Quru-quru qurbanın olum”la iş aşmır. Təşkilata özüylə uğraşan oğulları yığıb birlik şəklində məsələni qoymaq gərəkdir. Görüntü yaradıb toplumumuzu aldatmaq xəyanətdir. Məsələni konseptual işləyib ortaya qoymaq gərəkdir. Mən belə düşünürəm. Üç nəfər, beş nəfər, on nəfər olacaq, deyə bilmərəm, sağlam, həqiqi vətənsevər, qeyrətli, mərd, aydın (ziyalı) oğullar irəli durmalıdır. İçlə uğraşmalı, kadr hazırlanmalı, öndər yetişməlidir. Onun başqa çıxarları olmamalıdır. Həm də plan, proqram, strategiya işlənməlidir. Qoy üç il, beş il iş belə getsin. Təki tam birlik şəklində hazır ortaya çıxsın. Hazır

ortaya çıxmaq gərək, bilməlisən ki, hər yandan sənə basqı gələcək. Heç kim istəmir həqiqi mübarizə gəlsin ortaya. Heç bir qüvvə bunu istəmir – nə hakimiyyət qüvvələri, nə müxalifət qüvvələri, nə dış qüvvələr, nə qonşu dövlətlər i.a. Heç kim istəmir, həqiqi, sağlam, mübariz qüvvə formalaşsın. Bilməlisən, sənə hansı zərbələr gələ bilər, hansı etkilər göstərilər. Bunların hamısını hesablayıb, bütün işini bəlirləməlisən. Əsaslı, ciddi şəkildə hər kəsin qarşısına fakt qoya-qoya, qarışqa yerişi ilə addım atmalısan. Deməlisən, mənim heç kəslə davam yoxdur, aqressiv deyiləm, radikal deyiləm, heç kimin gözünü çıxarmaq hayında deyiləm. Sadəcə olaraq, mənim gördüyüm odur, böyük bir elat, böyük bir coğrafiya, böyük bir türk yurdu assimilyasiyaya uğrayır, sürüləşir, sıradan çıxarılır, heçə çevrilir. Sabah onun aqibəti nə olacaq, bəlli deyil. Sabah onların hamısı Bakıya, Şamaxıya ora-bura dağılıb yaşayacaqlar, Borçalı qalacaq gürcünün ixtiyarında. Heç bunu bəyan eləmə, gürcüyə demə mən səninlə döyüşmək istəyirəm. Ancaq sənin bəlli proqramın olmalıdır, bəlli strategiyan olmalıdır. Gürcüyə zaman-zaman deməlisən, sən mənim milli sorunlarımla bacarmırsansa, onda mən özgürlük, bağımsızlıq uğrunda mübarizə aparacam. İstəyirsən dil tapaq, sənin dövlətinin içində mən özgür olmaq istəyirəm. Nə vaxtsa gələcəkdə Azərbaycanın bütövlüyü baş tutarsa, bağımsızlığı ikinci plana saxla. Əsas gürcünün içində dil tapıb işləmək, onu fakt qarşısında qoymaq gərəkdir. Gürcü bilsin, ya doğrudan da, mən Borçalıların istəklərini bəlli həddə ödəməliyəm, ya da, Borçalı doğrudan da özgürlük istəyib haqqı uğrunda davamlı aparacaq, başqa qüvvələr də, gürcünün zərərinə, bundan yararlanacaq. Hələlik konseptual çıxış yollarını elan eləməzdən öncə bunları düşünürəm.

...Lap gürcünün özünə məsələni açıq qoymaq olar, mən seperatçılıq eləmirəm, sənin dövlətini parçalamıram. Ancaq sən bilməlisən, mən böyük bir türk mədəniyyətinin daşıyıcısıyam. Məni assimilyasiya edə bilməzsən, mənim tariximi Borçalıda dana bilməzsən. Sənin içində mən özgürlüyümlə qalmalıyam. Mən sən ola bilmərəm. Sən qəbul etməlisən, mən sənin içində özüm olaraq qalmalıyam.

**...**Mən bayaq dediyim məsələni qayıdıb bir də vurğu edirəm. Dedim, elə insanlar hazırlanmalıdır, bunların heç kimin qarşısında

öhdəliyi olmasın. Nə Azərbaycan dövlətinin, nə də Gürcüstan dövlətinin. Əgər öhdəçilik olarsa, sən onların qarşısında heç bir məsələni qaldıra bilməzsən. Ona görə deyirəm, bunlar içəridə yetişməli, bərkiməli, möhkəmlənməlidir. Bunları da yönətən konseptual nəzəri əsas olmalıdır. Yoxsa mən-mən deyəcəklər. **Genel**azərbaycan, geneltürk kontekstində yanaşmaq gərəkdir.

...Bayaq dedim, istənilən halda, təşkilatın öndərliyi, yönəticiliyi üç adam, beş adam kimdirsə, tam strukturda işləməli, meydana çıxmalı, doğrudan da, toplumu inandırmalıdır. İnandırandan sonra yerdə qalanını toplumdan ummalıdır. Toplum deməlidir, bu beş-on nəfər var, gəlin onları saxlayaq. Bunlar hakimiyyətdən, ondan-bundan iş yerlərinə görə asılı duruma düşüb satılmasın, əyilməsin, işini yarımçıq qoymasın. Gəlin onlara biz aylıq verək. İmkanlı iş adamları da, inansalar, buna gedərlər. Bu boyda Borçalı əsilli insanlar milyonlarla pul qazanırsa, bir dənə hesab açmalıdır. Heç adın bəlli olmasın, bilinməsin, sənin özünə də etki göstərə bilərlər, o hesaba pul yatırma. Rəsmi hesabda bilirlər, kim, hara nə yatırır. Rəsmi olmayan hesab da yaradılmalıdır. Buna nəzarət gərəkdir, fədakar oğullar gərəkdir, tamahı onu basmasın, özü üçün mənimsəməsin. Dediyim kimi, inandırandan sonra o təyinat düzgün gedəcək. Vicdanlı, ədalətli, qeyrətli, namuslu kişilər olmalıdır. Mən hesabına pul yatırıram, sən asılı duruma düşməyəsən, yoxsa səni əyəcəklər, satın alacaqlar. Demirəm ki, bütün bunlar asan həll olan məsələlərdir, olduqca çətindir. Ancaq qurtuluş da çətin olandadır, asanlıqda deyil.

Mən deyirəm, nə qədər ki, beş-on adamın eyitimləyici (maarifçi) qurumu olmayacaq, bu dediklərimiz də olmayacaq. İlk yol – eyitim qurumu olmalıdır. Bu qurum yetişdirməlidir. İşləmək gərəkdir. Türkiyə əsgərinin üzərində necə işləyirlər, elə işləmək gərəkdir, yetirmək gərəkdir. Yetirəcəksənsə, Borçalı sənindir. Yetirməyəcəksənsə sənin deyil. Boş-boş söhbətlər, çək-çevirlər, cırmaqlaşmalar olacaq. Buna da vaxt itirmək gərək deyil. Ondansa mən elə bölgələrdə oluram həmişə, mən elə eyitimçiliklə uğraşıram... Bu məsələyə barmaqarası baxmaq olmaz. Çoxları ağız büzəcək, bunlar nağıldır deyəcəklər. Onlardan soruşmaq gərək, nağıl olmayan nədir bəs?! Nağıl

olmayan sənin nəfsindir. Sənin tamahının qarşısına mən nə qoyum?! Mən Borçalını sənin nəfsinin qabağına necə qoyum axı?!

...Məsələn, deyək, bir vətənsevər belə bir təşəbbüsdə bulundu. Onun sözünü deyə bilən neçə kişi tapmışıq?! Məsələn, beş. O beş kişi bütün qruplarla hər yerdə söhbətlər aparır. Söhbət apararkən bu beş kişi bir yerə çəkic vurur, Həmid nə deyir, onu deyir. Qarşıdakıları fakt qarşısında qoymaq. Yol budur. Birdən qarşıdan daha ağıllı bir məntiq çıxar, onu da qəbul etmək, gəlişdirmək. Bu cür bəlli söhbət aparmaq gərəkdir, usanmadan, tələsmədən. Qoy kim təşkilat qurur, nə edir etsin, özü bilər. Onsuz da o təşkilat bir iş görməyəcək. Bizim dediyimiz iş getsin. Filankəs təşkilat yaradır, özü bilər mən ona qarışmıram, filan təşkilatlar filan şeylərə uğradı, bunlar da onun məntiqi davamı olacaq. Niyə, filan şeylərə görə, səbəbini də deyirik. Çatışmayan nədir, çünkü öndər yoxdur, şəxsiyyət yoxdur. İdeoloji yüklü, mənəvi qüsursuz, vətəninə, millətinə umacaqsız yanaşan öndər yoxdur.

Hələlik qurumun adını belə qoymaq olar: "Borçalı Aqibəti" ya da, "Borçalı Aqibəti ilə bağlı Eyitim Mərkəzi". Şərti olaraq belə də demək olar. Çünkü bu axtarışdır, təşkilat deyil. Biz təşkilat yarada bilmərik. Məsələn, mən heç yarada bilmərəm. Mən təşkilatda söz adamı ola bilərəm. Bizim öz işimiz uzaq onillərə, yüzillərə hesablanmış bir işdir. Mən bu yoldan dala dura bilmərəm. Mən yaranacaq qurumun öndəri, aparıcısı ola bilmərəm. Mən ancaq bu eyitim qrupunun yaranmasında çiynimi ayaqlar altına verə bilərəm, ayaqda dura biləsiniz. Hər kəsə istənilən şəkildə kömək edə bilərəm, bacarığımı ortaya qoya bilərəm. Bunu bilirsən, əsirgəmərəm. Sənin, mənim uyğun bildiyim üç-beş kişi tapıb, dediyim kimi, biri var işin sıfır nöqtəsindən tərpədilməsi, biri var bu söhbətin sıfır nöqtəsindən tərpədilməsi. Bu söhbətin sıfır nöqtəsindən tərpədilməsi üçün sənə beş kişi gərəkdir, bir yerə çəkic vursun. İstənilən yerdə həmin beş kişi diplomatik oyun oynamır ki, gəl sözü bir yerə qoyaq, sonra da uduzaq . Məqsəd odur, əgər beş kişi arasında düşüncə ayrılığı olarsa, heç bu eyitim söhbəti getməyəcək. Birinci bu beş kişinin arasında düşüncə aydınlığı olmalı, oturuşmalıdır. Beş kişi birlik olaraq, ortaya qoyulan həqiqəti, məntiqi qəbul etməlidir.

Bu dediklərimizə uyğun adamlar axtarmalıyıq. Yoxsa hər kəsin özünəyarar umacağı var. Ən böyük sorun da budur. Yəni bəlli şöhrətə minmiş, tanınmış, mən olan yerdə uşaq-muşaq nə deməkdir, işi mən aparmalıyam, sözü mən deməliyəm, meydanda mən olmalıyam, mənim qabağıma keçmək nə deməkdir, ağıl məndədir, düşüncə məndədir, siyasət məndədir kimi iddialar məsələsi var. İkincisi, məsələnin birinci yanı, şəxsən Soylu olaraq, mənim topuğumdan aşağıda durur. Mən aydınam, oyunbaz deyiləm.

Kimlərsə deyə bilər, mən Borçalıda evimdəyəm, başqaları, deyək ki, Bakıda yaşayıb Borçalı ilə uğraşır. O məsələ önəmli deyil mən hardayam. Önəmli odur, nə edirəm. İndi bir çox qayıdışlar var. Bu qayıdışların çoxu həm də onunla bağlıdır, burda ev yoxdur, viza məsələsi var. Burda dolanışıq çətindir. Şəhərdə ağırdır. Kənddə gedib nəsə əkir. Bu gediş səni aldatmasın. Bunlar vətən üçün, yurdu boşaltmamaq üçün geri dönüş deyil. Bu məişət tələbindən irəli gələn dönüşdür. Mən sənə deyirəm, yaşlı kişilər, torpağa bağlı adamlar o sevgi ilə qayıda bilər. Bu da böyük vətən sevgisi deyil, fərdi duyğulardır, torpaq istəyir, ağac istəyir, meşə istəyir. Bu cür insanlar həyatı belə görüb, belə qavrayıb, belə köklənib. Belə şeylər aldatmamalıdır.

Mən bir misal çəkim, 2005-ci ildə atamla, anamla kəndimizə yönəlik söhbət edirdik. Mən Kəpənəkçi ilə bağlı tarixi oçerk kimi bir şey yazmağı düşündüm. İstəyimi onlara deyəndə xoşları gəldi. Başladılar mənə kömək etməyə, filan soy (nəsil) filan yerdə yaşayır, kimə üz tutmaq gərəkdir, kim bir az eldən bilgilidir. Diktafonumu, dəftər-qələmimi götürüb başladım Kəpənəkçini bu baş-o baş dolanmağa. Çox evlərin qapısını döydüm, yas yerlərində insanlarla görüşdüm. İlgilərini çəkdim, hamı yığıldı başıma. Bir yaşlı kişi dedi, o qədər gələnlər olub, döşünə döyənlər olub, biz tarix yazacağıq deyənlər olub. Dedim nə deyim, mən sizi qınamıram. Ola bilər. Ancaq mən ortada heç nə olmayacaq kimi bir addım atmıram. Dedilər, çox yaxşı. Bir neçə gün dolandım, sonevliklərə (qəbirstanlıqlara) getdim, qədim başdaşıların tarixini oxudum, sonevliklə bağlı bilgisi olan bir öyrətmənlə görüşdüm. Kimlərin gündəliyində faktlar vardı, onu götürdüm, kimin arxivində faktlar vardı, onu götürdüm. Bir

sözlə araşdırmalara başladım. İstək, həvəs vardı, fəhmim, məntiqin izinə düşə bilməyim də uğur gətirdi. İşlədim, ortaya bir kitab(ça) çıxartdım. Öz yatırımımla çap elədim, getdim Kəpənəkçiyə. Qapı-qapı düşüb payladım. Hər dəfə kəndə gedəndə, yas yerlərində, məktəblərdə (umacaqsız) payladım. Qoy evlərdə olsun. Bəlkə sabah soylarımızın içindən qeyrətli oğullar ortaya çıxıb məndən daha əsaslı işlər gördülər. Qoy onların əlində fakt olsun, baza olsun, kömək edər. Mən öz soyumla bağlı araşdırma apardım, səkkiz-doqquz arxa dönənimi araşdırdım, yazdım. Kitab şəklində öz yatırımımla çap edib evlərə payladım.

Aşağı-yuxarı 30 il bundan qabaq ölənlərimizin şəkillərini aldım, hamısının haqqında qısa bilgilər yazdım. Kim kim olub, nə işlə uğraşıb. Hamısını o kitaba saldım. Adını da qoydum "Soyumuzda qalanlara". İndi hər kəsin əlində fakt var. Soylar hardan gəlib hara gedir. Kəpənəkçidə bu çağacan belə addımı heç kim atmayıb. Heç belə bir təşəbbüs olmayıb, ayrı-ayrı şeylər olub. Biri götürüb filankəsi öyüb, kitab çıxarıb, ondan pul alıb. Mənim heç bir umacağım yoxdur. Öz istəyimə, sevgimə dayanıb kəndimlə, elimlə, ölənlərimlə, soyumla uğraşdım. Bəlli çərçivədə Borçalı ilə də uğraşmışam. Dağ Borçalı, Aran Borçalı coğrafiyasında araşdırma aparmışam. Heç kimin də boynuna minnət qoymuram, nə bacarıramsa, sevgimlə edirəm. Hər yerdə də deyirəm, danışıram – yerlərimizin tarixi adları nədir, nə vaxt inzibati vahid kimi qoparılıb, kimə verilib, necə qalıb, bu günkü aqibəti nədir. Mənim içimdə, yaşamımda dediklərimin abidəsi var. Mənim varlığıma bağlıdır. Varlığımı da bunlardan ayrı təsəvvür etmirəm.

İndi gəlirəm təşkilatlar məsələsinə. O təşkilatı yaratmaq istəyən elini, yurdunu, vətənini düşünən oğullar bütün varlığını ona verməli, ona bağlamalıdır. Ondan dışarıda, ondan qıraqda varlığı ölümə bərabər olmalıdır. Onda Borçalı Azərbaycanın olacaq, onda Borçalının taleyində gəlişmələr olacaq. Ayrı cür mümkün deyil. Yəni taleyə çevrilməlidir. Uzaqdan uzağa sevirəm deməklə, bir sazını çal, yandım deməklə, Borçalının sağlığına bir söz deməklə olmaz. Varlığın ona bağlı olmalıdır, ondan qopduğunda özünü ölmüş bilməlisən. Belə insan yox kimidir, ancaq yaranmalıdır. Yaratmalısan. Yoxdur, yarat,

yoxdan var yarat. Bir cür səslənməsin, möcüzə baş verməlidir. Borçalı, bütövlükdə Azərbaycan faciənin içindədir. Sən yoxdan var yaratmalısan, Allah olmalısan. Allahlıq məqamıdır. Durub o onun, bu bunun qeybətini qırır. Çıx ortaya, boyunun ucalığını göstər, onda görəcəksən nə qədər adam sənin ətəyində namaz qılır. Mənim, Asif Atanı tapdığım gündən bəri, söz deyib arxasında durmadığım çağ olmayıb. Ona görə nə deyirəm sorumluluğunu daşıyıram, nə deyirəm düşünürəm, nə deyirəm yüz ölçüb bir biçirəm. Elə bir şey olmayıb, deyəm, söz olaraq qalsın. Deyirəm, arxasınca gedirəm. Gücüm nə qədərdir, bu, məsələnin ayrı yönüdür. Ola bilər güc istəyə bərabər olmaz. Ancaq qeyrət, namus, vicdan məsələsi var, əsas istəkdir. İstək olmalıdır, hərəkət olmalıdır.

Mən bütün sonucları görüb, bilib deyirəm. Mən həmişə sonucları hesaba almadan addım atıram. (Ocağı deyirəm, Borçalı ilə bağlı məsələ ayrı). Bu gün bizim çalışmalarımızı internetdən görürlər, bir də bizim gedib görüşdüklərimiz adamlar görür. Suyu açırsan, su gedir, getdiyini görmürsən. Biz həmin suyuq, becərə-becərə, bitirə-bitirə gedirik. Üzdən görünmür. Mən onu dərk edib addım atıram. Gələcəyin baxışını əsas götürürəm ki, biz gələcəyə örnək veririk. Gələcəyə yol yaradırıq, yaşam sistemi veririk. Bu gün qıraqdan kim nə deyir, nə danışır, özü bilər.

Mən 26 ildir Asif Atanın yolundayam. Bu 26 ildə 25 il mənim qardaşımın xəbəri olmadı, mən hara gedirəm, nə işlə uğraşıram. Maraqlanmadı, sual da vermədi, sanki belə bir şey yoxdur. Son zamanlar mənim evimə tez-tez gəlir. Deyir, insanlar nə qədər geri qalıb. Sən məsələləri nə qədər gözəl izah edirsən, mənə bütün aydınlığı ilə çatır. Deyirəm, neçə illərdir, mən eyni şey deyirəm. Ancaq sənin üçün, başqa qohumlar üçün, ola bilər, mənim varlığım ayıbgətirici görünüb. Filankəsin qohumu-qardaşı Allahı danır. Dedim, bir dəfə maraqlandınmı, sual verdinmi, ay qardaş, sənin bu Allahla nə işin var. Mən də izah edəm, deyəm, mən Allahı sizin əlinizdən alıb dirildirəm, Allahı siz öldürmüsünüz. Sən məndən soruşsaydın, mən onu diriltdiyimi sənə söyləyəcəkdim. Mən onu dirildib yenidən insanlara qaytarıram. Demirəm, Borçalı ilə bağlı məsələ dünyabaxış məsələsi deyil. Ancaq bu da kiməsə üç aya, beş aya çatar, kiməsə bir

ilə çatar. Bu da labüd bir gedişdir. Elə şeylər var, sən istəsən də, istəməsən də, prosesləri yüyürtdürə bilməzsən. Hər bir prosesin bəlli sürəti var, bəlli yerimə, oturuşma vaxtı var. Ona görə təşkilat yaradıb özümüzə kimisə inandırmaqdan ötrü dəridən-qabıqdan çıxmalı deyilik. Biz sağlam məntiq, sağlam düşüncə ortaya qoymalıyıq.

Mənim anladığım odur, üzdə olanların çoxu bir araya gəlməyəcək. Bizim çağırışımıza da gəlməyə bilərlər. Məncə, iki səbəbi var. Biri "eşşəyə minib düşmək istəmirlər" yəni "biabır" olmaq istəmirlər. Bir də bəlli bir xətt var, Soylu Atalı güzəştsiz adamdlr. Onunla məsələləri həll etmək çətin məsələdir. Belə şeylər var. Eyni halda, onlara say gərəkdir. Həm də hamı əslən Borçalıdan olmalıdır. Onlar səni arayarlar, sən də səni aramalarından qullan.

Mənə vətənini sevən oğul gərəkdir, desin (orda doğulub-doğulmamağından asılı olmayaraq), Borçalı mənim vətənimdir. Əsas məsələ kadr yaratmaqdır, gərək kimlərsə yaxasını verə.

Bir sözlə, hərəkət eləmək gərəkdir...

## İkinci Qarabağ savaşından bir neçə gün sonra Amaldaşlarımla ürəkləşmələrim

Ürəyinizdə Ata Günəşi olsun, sevimli Amaldaşlarım.

Yenidən sizinlə düşüncələrimi bölüşmək olanağı əldə elədim. Yəni internet məsələsi bərpa olundu. (Savaş başlayandan interneti bağlamışdılar). Məsələlərə çağaşırı biz öz baxışlarımızı sərgiləmişik, sərgiləyirik, öz düşüncələrimizi bölüşürük, söz yox, bundan sonra da bölüşəcəyik. İstəyirəm, Azərbaycanda baş verən olayların mahiyyəti ilə bağlı qısaca baxışlarımı ifadə edim. Nə baş verdi?! Dünyada gedən proseslərin sonucunda bəlli tarixi bir ortam yarandı. Azərbaycan savaşa girməli oldu. Mən deyə bilmərəm, bu savaşı bizim ölkə öndərliyi öz istəyi, öz könlü ilə həyata keçirib. Çünkü bizim ölkə öndərliyinin elə bir könlü yoxdur, elə bir istəyi yoxdur, elə bir istəyin arxasında dura biləcək hünəri də yoxdur. (Bununla bağlı öncələr demişəm, qısaca deyirəm, təkrar olmasın). Çünkü bizim ölkənin

başında duran rejim milli bir rejim deyil, dövlətimiz milli yönlə yönətilən dövlət deyil. Öz çıxarlarına uyğun şəkildə hər cür havaya oynaya biləcək bir rejimdir. Onun çıxarlarına uyğun hansı axın varsa, o axına qoşulmağa hazırdır. Olaylar da elə baş verdi – Ermənistanın Güney Qafqazda Rusiya etkisindən yavaş-yavaş qopması gündəliyə gəldi. Rusiyanın istəyinə uyğun olmayan belə bir prosesi dayandırmaq gərək idi. Bildiyimiz kimi, dünyada ən çox siyasətə etki göstərən məsələ iqtisadiyyatdır. İqtisadi baxımdan doğal enerjilər hamısı böyük güclərin baxışında, gözətimində, onların istəklərinə uyğun olaraq formalaşdırılır. Layihələr onların istəklərinə, tələblərinə uyğun şəkildə işlənilib hazırlanır. Burada da söz yox, ayrı-ayrı güclərin çıxarları toqquşur. Çıxarlar toqquşduğuna görə hərə öz çıxarlarının peşində olur. Hərə öz çıxarlarının peşində olanda da, özlərinə boyun əymək baxımından, nələrəsə gücləri çatmayanda, kimlərisə "anlada bilməyəndə" güc işlədirlər, zor edirlər. Bu zoru tarixdə ən çox işlədən Rusiyadır. Rusiya geneldə zor dövlətidir, güc dövlətidir. Rusiya sağlam ideologiya dövləti olmayıb, bundan sonra da olması gözlənilmir. Çünkü imperiya kimi yaranıb, onun içi tamam türklərdən oluşub. Ona görə də onun zordan başqa olanağı yoxdur. Zorla qurulub, zorla da özünü qorumağa çalışır. Tarixin hansı dönəmində Rusiya parçalanacaq, nə olacaq, – bu, gələcəyin məsələsidir. Bu gün bu məsələ o qədər də özünü aktuallaşdırmır. Bir sözlə, Rusiya Ermənistana dərs vermək üçün Azərbaycanı qullandı. Biz də düşünürdük, eybi yoxdur, olsun (biz deyəndə milləti gözə alıram), Azərbaycan da işğalda olan torpaqlarını ermənilərin əlindən alar, Quzey Azərbaycan coğrafiyasında olan ərazi bütövlüyünü bərpa eləmiş olar. Başlanğıc belə oldu, yaxşı oldu. İlk günlərdən ordumuzun sürəkli döyüş qabiliyyəti, hər şey gözümüzün qabağında oldu. Sevindik, çünkü doğrudan da, torpaqlar işğaldan qurtula-qurtula proses qabağa doğru getdi. Gəlib elə bir aşamaya çatdıq, artıq Qarabağı işğaldan qurtarılmış saymaq olardı. Ayrı-ayrı qorxular gözləsəm də, çox umudlanmışdım, nəyin qarşılığındasa Azərbaycan öz torpaqlarını işğaldan qurtaracaq. Eybi yoxdur, torpaqlar işğaldan qurtarılar, bu nəyin qarşılığında olubsa, ona sonra baxarıq, nə dərəcədə bizim zərərimizədir, nə dərəcədə xeyrimizədir. Söz yox, bilirdim, zərərimi-

zədir. Ancaq o nədir, bəlli deyildi, ortalıqda yox idi. Ancaq iş o yerə gəlib çatdı, qələbənin tam bir addımlığında birdən-birə döyüş dayandırıldı, Rusiya ordusu Qarabağa girdi. Bu böyük bir dönüklük (xəyanət) məsələsidir.

Mən bundan öncə də, söhbətlərimdə demişdim, Azərbaycanın başında duran şəxsin dünyanın hər yerində malı, mülkü var, Azərbaycanı 30 ilə yaxındır talayır, çalıb-çapırlar. Ona görə də beləsindən milli uğur gözləmək sadəlövhlük olar. Onun ailəsinin, uşaqlarının Rusiyada da, fantastik rəqəmlərlə ölçülən, varı-yatırımı var. Bu səbəbdən, nə yazıqlar, mənim dediklərim baş verdi. Rusiya onu şəxsi malına, mülkünə əl qoymaqla hədələdi. Bu üzdə görünmür, ancaq bu var. Hədələdi, o da yalançı, Azərbaycanın xeyrinə olmayan belə bir bəyanata qol qoydu. Söz yox, hədə faktı təkcə var-yatırımla bağlı deyil, görünən, görünməyən çox məsələlər var. Rusiyanın Azərbaycanın indiki hakimiyyətinə etki göstərmək olanaqları çoxdan da çoxdur.

Türkiyə öndərliyi də bu gedişdə çox hündürdən danışdı. Siyasi baxımdan götürsək, bəlkə də belə gərək idi. Ancaq bir az bu gedişlərdə, açığı, Türkiyə siyasilərində də, Azərbaycanın başında duranlarda da, çox lovğalıqlar göründü. Bu lovğalıqlar sonradan daha qabarıq şəkildə özünü göstərdi. Hətta böyük bir mif yarandı. Bu da, genel planın bir parçası ola bilər. Yəni Azərbaycan öndərliyinin də hakimiyyəti qorunmuş oldu, Türkiyə öndərliyinin də. Ancaq hələ biz bilmirik, tam qorunmuş oldumu, çünkü Türkiyədə başqa situasiyalar var, Türkiyə toplumu bizdən daha çox oturuşmuş dövlət yiyəsidirlər. Ancaq hələlik fakt odur ki, həm Azərbaycanın, həm Türkiyənin hakimiyyəti xalqın gözündə qəhrəmanlaşdırıldı. Onların "qəhrəmanlığı", dediyimiz kimi, onların hakimiyyətinin ömrünü uzatmağa doğrudur.

Nə bəlli oldu?! O bəlli oldu ki, Rusiyanın ordu birləşməsi (sülhməramlı adıyla) gəldi, sonra Türkiyənin gəlişi məsələsi çək-çevir olundu. Mənə elə gəlir, bu da bir oyun idi, sonradan Türkiyə təkid elədi ki, bəs biz qaldıq, Rusiya da bunu qəbul elədi. Rusiya savunma bakanlığı ilə Türkiyə savunma bakanlığı anlaşdılar, bəlgə qolladılar. Nəyi anlaşdılar – Qarabağa Rusiyanın ordusu (sülhməramlı adı ilə) yeri-

dildi, Türkiyənin isə ancaq monitorinq mərkəzində varlığı ödənildi. Yəni bütün hallarda söz yiyəsi Rusiyadır. Türkiyənin ordusu sınırlar boyu heç yerdə olmayacaq. Bu isə çoxlarının səsə saldığı böyük uduş yox, Azərbaycan üçün tarixi uduzuş oldu. Mən bunu belə qiymətləndirirəm, çünkü Rusiyanın işğalçılıq tarixini az-çox bilirəm. Rusiyanın bölgələrə yerişinin, gedişinin nə demək olduğunu, bir çoxları kimi, mən də bilirəm. Rusiya girdiyi yerdən çıxmır, Rusiya girdiyi yerdə fəlakətlər yaradır.

Burada aldadıcı bir umud yaratmağa çalışdılar ki, Türkiyənin hərbi kontingenti burda olacaq – xalqa yalançı bir təsəlli. Heç kimə anlatmaq olmur ki, Türkiyənin sülhməramlı ordu qüvvəsi gəlmir. Bu məsələ də Ərdoğanın manevrlərinə bənzəyir. Çavuşoğlu deyir, monitorinq-nəzarət mərkəzində rus ordusu hansı statusda olacaqsa, Türkiyə ordusu da həmin statusda olacaq. Hamı da elə bilir, artıq Türkiyə ordusu Azərbaycana gəlir, sülhməramlı kimi bütün sınırlarda o da olacaq. Bir diqqətlə qulaq asın, görün nə deyir. O demir ki, sülhməramlı kimi gəlib onlar da ruslar kimi postlar quracaq, Laçın dəhlizindən üzü içərilərə doğru 60 km arada  postlarda duracaqlar. Bu da Türkiyə öndərliyinin indiyə kimi basıb-bağladıqlarının sonucu. Əgər Türkiyə Rusiya ilə birgə sülhməramlı kimi girsəydi, onda deyərdim, bir az işıq ucu var. Türkiyənin ordusu, məncə, hələ Azərbaycanda olmayacaq, ancaq Rusiyanın ordusu, bazasınınn qurulması addım-addım oturuşur. Əgər ortada möcüzə baş verməsə, əgər bu hakimiyyət devrilməsə, dəyişikliklər baş verməsə, Rusiyanın Azərbaycanda hərbi bazası qurulacaq. Bu da Azərbaycanın dövlət bağımsızlığının, suverenliyinin qısıtlaşdırılması demək olacaq. Azərbaycan uluslararası münasibətlərdə istədiyi kimi davrana bilməyəcək. Çox böyük bir fəlakətdir.

Artıq başlayırlar təbliğat qurmağa ki, ermənilər ora gəlmək istəmir, filan olacaq. Yenə də təbliğat, yenə də manevr, yenə də aldadıcı planlar. Bu, Heydər Əliyevin metodudur, bu, Ərdoğanın metodudur. Hər şeyi təbliğatla yoluna qoymaq, xalqı susdurmaq, sakitləşdirmək, təsəlli vermək. Baxın, birdən-birə on minlərlə insanlar küçələrə axışıb bayram eləməyə başladı. Borçalıdan belə. Çığırıb bağıranlara baxın, necə alovlu qışqırırlar – "Türk dünyasının böyük

lideri Ərdoğan, Azərbaycanın böyük lideri İlham Əliyev" filan. İstənilən də bu idi, toplum küyə düşsün, toplum yenidən bir neçə illər yuxuya dalsın, yatsın. Bunlar da öz güclərini, hakimiyyətlərini bərpa edib ömürlərini uzada bilsinlər. Baş verən, ortalıqda olan məsələ budur. Ortada danılmaz faktlar var.

Nə oldu axı, birdən-birə?! Deyirdiniz Pakistan arxamızda, 60 min ordu göndərməyə hazır, Türkiyə deyir, hər şeylə, silahımızla, əsgərimizlə yanınızdayız. Ərdoğan deyirdi, "dədəmin oğlu da olsa, gözünə baxmam, qırmızı xətt keçilsə". Nə oldu, qırmızı xətt də keçildi, göy xətt də. Hamısı quru təbliğatdır. Deyirdin, Xocalıda gedib ad günü keçirəcəksən 26-sı. Get, keçir. Get, Rusiya komendaturasından icazə al, gir, Xocalıda ad gününü keçir. Hamısı bəlli təbliğatlardır. Ərdoğanın gah islam kartına, gah millətçilik kartına oynaması çox pis manevrlərdir. Belə şeylər baş verir…

Bunun qarşılığı olaraq, mən yenə də o düşüncəmdəyəm ki, bizdən asılı olmayan məsələlər baş verir. Mən bədbinliyə çağırmıram. Biz onsuz da siyasi proseslərin ünsürü deyilik Ocaq olaraq, bundan sonra da olmayacağıq. Bizim – milli şüurun, milli düşüncənin formalaşmasında qatqılarımız olub, bundan sonra da olacaq. Biz də bunun peşindəyik, bu işimizi dayandırmamalıyıq, artırmalıyıq. Onsuz da bizim, say baxımından, gücümüz azdır, ancaq işimiz qutsal işdir. İdeya gücümüz bütün dünyaya yetərlidir…

## Siyasi Azərbaycançılıq qurtuluşumuz deyil, fəlakətimizdir

Son çağlar hakmiyyətə yaxın basın orqanları yenidən "Azərbaycançılıq" təbliğatı aparırlar. Bu təbliğat siyasi xarakter daşımaqla Azərbaycanın özül sütunlarına bütünlüklə tərsdir. "Siyasi Azərbaycançılıq" ideyasını hələ 90-cı illərdə keçmiş dövlət başçısı H.Əliyev ortaya atmışdı. O çağlardan biz, "Siyasi Azərbaycançılığın" dövlət ideolojisinə çevrilməsinin zərərlərini, gərəksizliyini dönə-dönə yazmışıq. Bu gün də bu məsələ ilə bağlı baxış sərgiləməyi gərəkli sayırıq. Öncə onu deyək, mücərrəd "Azərbaycan xalqı" deyilişi "Sovet xalqı"

deyilişi qədər absurd bir anlayışdır. Xalqın konkret bir etnik kimliyi, mədəniyyəti olar. "Sovet xalqı" anlayışı heç bir etnik kimliyə, mədəniyyət varlığına, aydınlığına bağlı deyildi. Başqa sözlə, rus mədəniyyətinin, etnik kimliyinin basqısı, etkisi altında idi, başqa xalqların dünya çapında yeri, rolu, varlığı bəlli deyildi. Ona görə "Sovet xalqı" anlayışının ideoloji baza əsaslarından biri kimi götürülməsi imperiyaçılıq məqsədinə qulluq edirdi. Burada milli problem yaradılmış, qorxu altında qapadılmışdı. Ona görə sovet sistemini dağıdan Batı gücləri, milli problem kartını açaraq, basqı altında olan xalqlar üçün onu mübarizə faktına çevirmişdilər. "Azərbaycan xalqı" anlayışını da dövlət siyasətinin ideoloji faktına çevirmək aşağı-yuxarı bir təkrarçılıqdır. Ancaq nə Azərbaycan imperiyadır, nə də Azərbaycanda yaşayanlar imperiya subyektləri deyil. Azərbaycan heç kimi, dövləti ilə birgə, işğal etməyib, nə də heç kimin etnik kimliyini sıradan çıxarmaq siyasəti yürütməyib. Azərbaycanda yaşayan hər bir etnik toplum bu ölkənin tarixi sakinləridir. Azərbaycan – hər bir etnik toplumun unitar dövlətidir, heç bir dartışma, çəkişmə tələbi olmayan ortaq vətənidir. Azərbaycan çoxmillətli ölkə, dövlət deyil. Etnik qardaşlarımızın hamısı bir yerdə Azərbaycan toplumunun 8%-i olduğu halda, "Siyasi Azərbaycançılıq" oyunu qurmaq – dövləti sarsıtmaqdır, gələcəkdə qarşıdurmalar yaratmaq istəyənlərə səbəb verməkdir. Çünkü siyasi Azərbaycançılıq – Azərbaycanı federallaşdırmaq anlamı daşıyır. Yəni istər Rusiyanın, istər başqa imperialist güclərin gözlənilən siyasi-ideoloji basqılarına qarşı belə bir qarşılıq vermək çıxış yolu deyil, fəlakət yoludur. Çünkü Azərbaycanın əsas aparıcı xalqı türkdür. Türkün adını, dilini, kimliyini dövlətin varlığından çıxarmaq, gizləmək – gələcək üçün qarşısıalınmaz anarxiya yaratmaq deməkdir. Bütün etnik topluluqları birləşdirən vahid mədəniyyət, vahid güc Türkdür. Bunu danmaq yerinə, bu həqiqətin ədalətli yerini, rolunu göstərmək gərəkdir. Azərbaycan bütün dövrlərdə Türk dövləti olub, bunu demək heç kimdə qıcıq doğurmamalıdır. Necə ki İngiltərədə təkcə ingilislər yaşamır, burada yaşayan hər kəsin haqqı-hüququ eyni statusdadır. Eləcə də Fransada, eləcə də Almaniyada. Ancaq dövlətin adı İngilis dövləti, Fransız dövləti, Alman dövləti adlanır. Azərbaycan da eləcə – Dövlət Türk dövlətidir,

ancaq burada yaşayan başqa etnik toplumlarımız türklərlə eyni hüququ paylaşırlar. Bu tarixi həqiqəti hər kəsə anlatmaq, öyrətmək yerinə siyasi maxinasiyalar yerinə yetirmək nə türklərin xeyrinədir, nə də başqa etnik qardaşlarımızın. Heç kimin hakimiyyət ehtirası burada yaşayan insanlarımızın aqibətindən üstün deyil.

Türk bu dövlətin, burada yaşayan topluluqların Birliyinin yiyəsi deyilsə, anarxiya hər zaman gözləniləndir. Azərbaycanda yaşayan etnik topluluqların hamısına yalançı siyasi ad qoymaq yerinə, onlara (saylarından asılı olaraq) mədəni muxtarlıq tanımaq doğru olar, "türk" adımızı danmaq yox...

Bununla belə, Mənəvi-Ruhani Azərbaycançılıq – Azərbaycanın qədim sakinləri olan hər kəsin ortaq dəyəridir, insani ölçü yönüdür. O dəyərlər ki hər bir etnik topluluğun birgə gələnəyini, görənəyini (adət-ənənələrini), doğmalıq, Birlik yönünü yaradır, Ruhani Azərbaycançılıq odur. Məsələn, qədim inanc yönümüz olan Zərdüştçülük, Dədə Qorqudluğun yaratdığı mənəvi yaşam sistemi, Azərbaycan uğrunda özündən keçən Babək qəhrəmanlığı, Nəimi-Nəsimi insançılığı, Füzuli şeiriyyətinin insanlıq çağıran gözəlliyi, dünya mədəniyyətinin özül sütunlarından olan muğam musiqisi – Azərbaycanda yaşayan hər bir insan üçün qürur yaradan dəyərlərdir. Talışı da, ləzgini də, Türkü də, Azərbaycanda yaşayan bütün azlıqları da bir arada tutan bu dəyərlər – Ruhani Azərbaycançılıq deməkdir. Birliyimizin dünənidir, Gələcəyimizin Birliyidir.

## Xalqa inamsızlıq xalqsızlığı

Sovetlərin ən böyük sorunu milli məsələlərin yoluna qoyulmaması idi. Onun çöküşünü hazırlayan Batı gücləri də elə bu məsələdən yararlanıb plan qurdular, planlarını da başarı ilə sonuca çatdırdılar. Sovetlər milli sorunları yoluna qoya da bilməzdilər, çünkü imperiya milli sorunları qıfıl altında tutmasa, öz varlığını qoruyub saxlaya bilməz...

Bu ayrı bir qonudur. Bu qonu ilə giriş eləməkdə istəyimiz odur ki, heç kim, indi yazacağımız baxışlara görə, bizi sovetizm həvəskarı kimi

düşünməsin. Biz istənilən antiinsani quruluşu dışlayan bir Baxışın daşıyıcılarıyıq...

Sovetlər dağılandan üzü bu yana Azərbaycan toplumunun inamı, umudu sarsıla-sarsıla (ya da sarsıdıla-sarsıdıla) gəlir – hakimiyyətə, dövlətə inamı, gələcəyə umudu. Biz yazılarımızda dönə-dönə vurğulamışıq, Azərbaycan toplumunun gözündə hakimiyyətlə dövlət arasında bərabərlik işarəsi var. Çünkü bu hakimiyyət dövləti dədə-bala malı kimi mənimsəyib daim özünəyarar adamları (ayrı-ayrı dövlət strukturlarında) yönətimin başına gətirir. Onlar da çoxluq baxımından hüquq normalarına, qanunlara önəm vermədən özbaşınalıqlar içrə davranırlar. Heç kim xalqın qulluğunda durmaq şüuruna yetmir, ona verilən yetkililiklərdən (səlahiyyətlərdən) sui-istifadə edərək, xalqı aldatmaqla, ona qarşı basqı göstərməklə uğraşır. Sonucda xalqla dövlət qurumları arasında dibsiz uçurumlar əmələ gəlir. Bir sözlə, xalq mənəvi pozuntulara uğradılır. Bu pozuntuları yaradanlar xalqa qarşı güvənsizlik, inamsızlıq təbliğatı qururlar. Onu küçümsəyirlər, aşağılayırlar, hakimiyyətin hər addımda xalqa qarşı sərt davranışlarını haqlı göstərməyə çalışırlar. Buna misal olaraq, bir məsələyə baxış sərgiləmək yerinə düşər. Bildiyimiz kimi, qonşu Gürcüstanda "koronavirus cərimələri" ikinci dəfədir ortadan qaldırılır. Bu məsələyə yönəlik Azərbaycanda bəzi basın (mətbuat) orqanları sorğular keçirirlər. Bunu Azərbaycanda da eləməyin alınıb-alınmayacağı ilə bağlı Milli Məclisə mandat alan bəzi adamların düşüncələrini yayınlayırlar. Onların düşüncələrinə görə əgər cərimələr ortadan qaldırılarsa, toplumumuz sorumluluğu itirər, arxayınçılıq yaranar, koronavirusa yoluxmalar daha da genişlənə bilər. Baxın, millətə inanmayan, onun sorunlarının ortadan qalxmasına yardımçı olmayan belə adamlar millətdən səs toplayıb onun Məclisi adlanan quruma mandat aldıqlarını necə iddia edə bilərlər?! Millətə inanmayanlar onun (millətin) səsini oğurladıqlarını bu cür davranışları, danışıqları ilə dönə-dönə sübut edirlər. Doğrudanmı Azərbaycan toplumu Gürcüstan toplumu qədər də güvənilesi deyil?! Toplumu aşağılayan adamların onun adından qanunlara səs verməyə nə haqqı var?!

Bizim toplumumuz acığa salınıb. Ona görə bəzi məsələlərdə acıqla davranıb hansısa qaydaları gözləməyə bilər. Bunun günahını isə toplumda deyil, onu hər addımda aldadan, aşağılayan dövlət görəvlilərində axtarmaq gərəkdir. Toplumu aşağılayanlardan soruşmaq gərəkdir: nə vaxt topluma qarşı ədalətli davrandınız, onun haqqına-hüququna qiymət verdiniz ki, toplum öz sorumluluğuna (məsuliyyətinə) əməl etmədi?! İnsanımıza İnsan kimi yanaşın, onda görəcəksiniz, onun ləyaqəti hansı yüksəkliklərə dayanır. Toplumu aldatmaqdan əl çəkin, ortaya ləyaqət qoyun, sizin ləyaqətinizə inansın, onda görün, hər şey necə yoluna düşür.

Biz heç bir xalqa qarşı deyilik, heç kimi də aşağılamaq istəyində olmamışıq. Ancaq doğrunu da deməyə "siyasi suç" adı qoymamışıq. Azərbaycan toplumu Gürcüstan toplumundan həm çox qədimdir, həm də ondan qat-qat dərin dəyərlər, mədəniyyətlər yaradıb İnsanlığa sunubdur. Bunu görməyən, anlamayan adamların bu toplumun adından danışmasının özü mənəvi suçdur, İnsanlığa da tərsdir.

## Xalqı aldatmaq dövləti gücsüzləşdirir

Dinc-amanlıq çağlarında xalq sadəcə say kimi görünür. Hər kəs öz işində, hər kəs fərdi qayğıları ilə uğraşıb yaşayır. Çünkü dövlət var deyə, xalq özünü güvəndə bilir. Çünkü dövlətin öz xalqını yadelli işğallardan, qırğınlardan qoruması üçün ordusu var. Bu ordu xalqın öz övladlarından yaranır. Çətin anlarda isə dövlətin başlıca görəvi say kimi görünən xalqı bir bayraq altında birləşdirmək, onun birliyindən qoruyucu, qurucu güc yaratmaqdır. Dövlət xalqın gücünü həm yadelli basqılara qarşı, həm də içəridə birgəyaşayışın uğurlu nizamı üçün qullanmalıdır. Ona görə anayasada xalq dövlətin başlıca qaynağı, əsas sütunu sayılır...

Bu açıqlamaları genişləndirmək də olar, ancaq istəyimiz dövlətin görəvinin fəlsəfəsini aydınlaşdırmaq deyil. Söz yox, dünyada dövlət janrı hələ insanlığın tələblərinə tam cavab vermir. Çünkü dövlətin başına, yönətiminə gələnlər İnsanlaşmırlar, Ağalaşırlar. Dövlətə malı-

mülkü kimi baxaraq, daha çox öz çıxarları üçün qullanırlar. Ona görə də dövlətin ədalətli görünən qanunları əmələ keçmir, söz olaraq qalır, etkisiz nəzəri bazaya çevrilir. Xalqa da həmişə nəzəri baza olan qanunları göstərirlər. Yəni xalq daim aldadılır. Sonucda xalq öz dövlətinə yadlaşır, güvənc ortadan qalxır. Anarxiya, özbaşınalıqlar, oğurluqlar da bu üzdən artıb genişlənir. Dövlət bu gedişlərə qarşı zor işlətməli olur. Həm də xalqı öz gözündən salmaq təbliğatları qurur. Guya xalqın içində dövləti ələ keçirməyə çalışanlar var, dövlət onları susdurmaq zorunda qalır. Əslində dövlətin olanaqlarından yararlanıb xalqın haqqını yeyənlər, onun varını-malını oğurlayanlar xalqı dağınıq duruma salırlar, xalqın Birlik gücünü qırırlar. Xalqı həyat uğrunda, yaşamaq, daha doğrusu, dolanmaq uğrunda mübarizəyə qoşmaqla onu böyük məqsədlərdən ayırırlar. Xalqın içində dəyər yaranmır, mədəniyyət gəlişmir. Hər kəs ailəsinin acından ölməməsi üçün çabalar göstərməklə yetərlənir. Bu durum getdikcə dərinləşib ağırlaşarsa, ya xalqın içindən qeyrətli, təpərli insanlar qabağa durub onu üsyana hazırlayır, ya da qıraq güclər xalqın içinə girib ona yalançı (bir az da doğruçu) vədlər verib öz dövləti ilə qarşıdurmalara çəkir. Sonucda dövlətin gücü sarsılır, başqa güclərdən asılı duruma düşüb onların çıxarlarına qulluq göstərməli olur. İstənilən halda, dövlətin gücünün sarsılmasının əsasında xalqı aldatmalar, ona qarşı ədalətsiz davranmalar durur.

Bütün bu dediklərimiz Azərbaycanda ən sərt şəkildə özünü göstərməkdədir. Xalq daim aldadılır, aşağılanır, çörəklə sınağa çəkilir. Dövlətin milli ideologiyası olmadığına, ya da işləmədiyinə görə bütün strukturlarda özbaşınalıqlar hökm sürür. Gəncliyin bəlli bir kəsimi işsizlikdən, avaralıqdan pozulub gedir, ailə qura bilmir, quranların bir çoxu anlaşılmazlıq, dolanışıqsızlıq ucundan dağılıb sıradan çıxır. Bir daha vurğulayırıq, içəridə gedən bu proseslər dövlətin gücsüzlüyünü yaradır. Bir sözlə, bütün qanunsuzluqlar, özbaşınalıqlar toplumun içinə dövlətin başından yayılır. Dövlət kimi qutsal bir olay – onu yönətənlərin əlində oyuncağa çevrilir. Bununla da xalq hər addımda parçalanmağa məhkum edilmiş olur...

H.Əliyev hakimiyyətə gələndə Rusiyanın çıxarlarına qulluq göstərən adamları görəv başına yerləşdirdi. Bu günkü hakimiyyət isə

xalqın içində Rusiyanın çıxarlarına qulluq edən böyük bir gücün (5-ci kolonun) olduğunu təbliğ etdirdi. Söz bilən, bilməyən hər kəs də başladı 5-ci kolondan danışmağa. Ancaq çoxları bu 5-ci kolonu yaradanın adını da tutmadı. Bu məsələ də xalqın içində yaranan çox-yönlülüyün (əslində dağınıqlığın) görsənişidir. Bunu da indiki hakimiyyət yaradıb. Bu da dövlətin gücsüzlüyünün görsənişidir.

44 günlük Vətən savaşı oldu, ordumuz böyük fədakarlıqlar elədi, insanlarımız canlarından keçdilər. Sonucda düşməni torpaqlarımızdan çıxarmaq prosesi yarıda dayandırıldı. Rusiyanın qoşun birliyi "sülhyaradıcı" adı ilə vətənimizə yeridildi. İndi orada hər cür özbaşınalıqlar həyata keçirilir. Azərbaycanın öz torpaqlarının bəlli bir parçasında söz haqqı yoxdur. Bütün bunlar gözlənilən idi. Çünkü bu olanların əsası 90-cı illərdə qoyulub – Rusiyayanlıların görəv başına gətirilməsi, on illərlə bunun davam etdirilməsi ilə. Azərbaycanın taleyini, siyasi çıxarlarını özünün hakimiyyətçilik çıxarlarına qurban verənlər, Rusiyanın qarşısında öhdəliyi olanlar Azərbaycanın suveren hüquqlarını necə bərpa eləyə bilər ki?!

İllərdir xalqı içəridəki məsələlərlə bağlı aldatdıqları üçün indi dış məsələlərimizlə, daha doğrusu, sınırlarımızın pozulması ilə bağlı məsələlərdə də aldatmaq zorunda qalırlar. Bu gün Rusiyanın özbaşınalıqları ilə bağlı doğruları xalqa desələr, özlərinin heç nəyə yaramadıqlarını sübut eləmiş olarlar. Ona görə torpaqlarımızın bəlli bir parçası işğalda olduğu halda, "Azərbaycan ərazi bütövlüyünü təmin edib" deyirlər. Toplumu aldatdıqlarını düşünürlər. Əslində indi heç kim aldanmır, çünkü hər şey bütün aydınlığı ilə ortadadır. Sadəcə toplumun hakimiyyətə yarınan bir parçası bu yalanı təbliğ etməklə uğraşır. Özünün tutduğu görəvə, əldə etdiyi qazanca, dolanışığına görə mənliyini yalanlara qurban verir. Sonucda toplumun baxışları parçalanır, bütövlük, Birlik baş tutmur. Əgər toplumda Birlik, baxış bütövlüyü olsaydı, daha doğrusu, hakimiyyət bunu yaratmış olsaydı, açıq şəkildə deməli idi: "torpaqlarımızı sonacan işğaldan qurtarmağa Rusiya əngəl oldu, olmaqda davam edir". Çünkü xalqın qədrini bilən hakimiyyəti xalq anlayardı, onun arxasında durardı. Bir-birinin dalınca ziddiyyətli təbliğatlar da toplumda ikrah doğurmazdı. Baxın, həm "ərazi bütövlüyümüzü təmin etmişik"

deyirlər, həm Arayik Arutunyanı beynəlxalq axtarışa verirlər. Arayik Arutunyan odur, işğaldan qurtara bilmədiyimiz Xankəndidə diplomatik görüşlər keçirir.

Ya da, əgər ərazi bütünlüyümüz bərpa edilibsə, minlərcə erməni ordu birləşmələri Azərbaycan topraqlarında nə axtarır?! – Dövlətin başında bu qədər geri düşüncə olmalı deyil axı. Doğrudanmı bu hakimiyyət inandı ki, Rusiyanın ordu bölüyü vətənimizə soxulmaqla hər şeyi yoluna qoyacaq, erməni yaraqlılarını da qovub Ermənistana göndərəcək?! Bunu bilmək çoxmu çətindir ki, Ermənistanı Rusiya özü üçün yaradıb, özü üçün də ermənini sonacan qoruyacaq. İçimizdə daim təxribatlar, qırğınlar törədib böyüməyimizin, bütövləşməyimizin, gücə çevrilməyimizin qarşısını kəsəcək.

Azərbaycan hakimiyyəti deyir, ərazi bütövlüyümüzü təmin elədik, "Minsk Qrupu"nun işğalçıları isə bəyan edirlər ki, "Qarabağın status məsələsinə baxılacaq". İşğaldan qurtarılan torpağın da statusuna baxılarmı heç?! Necə oldu, Rusiyanın qoşun bölüyü "sülhyaratma" adı ilə Azərbaycana yeridi, dünya gücləri, biz də varıq deyə, buna ciddi təpki göstərmədi?! Ya Rusiya təkbaşına bölgədə gərginliyi qorumağı bacardı, ancaq Amerikanın, Fransanın "statusa baxılmalıdır" tələbinə qarşı durmadı. Tərsinə, bu tələbə özü də qoşuldu?! Açıq görünür ki, bu üçlük Azərbaycana qarşı birlikdə hərəkət edir. Çünkü Rusiya yaxşı bilir ki, təkbaşına bu bölgədə Azərbaycan-Türkiyə birgəliyini yönətə bilməyəcək. Bu gün Batı gücləri də Krım məsələsinə görə Rusiyanın üzərinə getmirlər. Hələ ki, Rusiyanın Güney Qafqazda zəifləməsi Batının çıxarlarına uyğun deyil. Türklüyün gəlişməsi dünya güclərini, gizli də olsa, bir araya gətirir. Krım məsələsinin çözülməsi də Türklüyün gəlişməsinə qulluq göstərə bilər. Yəni Rusiya ilə tarix boyu çəkişən, öcəşən Batı, Türklük məsələsində onunla hər zaman anlaşmışdır. İndi də "Minsk Qrupu"nun Qarabağ məsələsi ilə bağlı "danışıqları bərpa eləmək" çağırışları – Azərbaycanı yenidən parçalamağa hesablanıbdır. Batı ilə Rusiya "ovu" birgə ələ keçirirlər, sonra da onu bölmək uğrunda bir-biri ilə mübarizə aparırlar.

Bütün bunları bilə-bilə Azərbaycan hakimiyyəti öz xalqını aldatmaqda davam edir, doğruları dilə gətirib toplumu toparlamaq haq-

qında düşünən görünmür. Ölkədə hələ də özbaşınalıq, qanunsuzluq, dövlətin talanması söz qonusudur. Yalan təbliğatlar, başqatmalar ən yüksək düzeydə həyata keçirilir.

Bu deyilənləri çağaşırı dilə gətirib toplumu nəyə, hara çağıraq, bu çağırışımızın bir önəmi olurmu?! – Bilmirəm! Ancaq söz qonusu Vətəndir. Vətənlə bağlı pessimist ovqatlara heç yer yoxdur. Biz Gürcüstan kimi, Ermənistan kimi balaca bir ada deyilik, onun-bunun ağayana siyasi yardımına əl açaq. Biz böyük Türk dənizinin bir parçasıyıq, bizim 50 milyonluq güclü dövlətə çevrilmək kimi tarixi şansımız var. Güney Azərbaycansız Azərbaycan gücsüz Azərbaycandır. Güney Azərbaycan qonusu ən yüksək düzeydə gündəliyə gətirilməlidir. Biz tarix səhnəsindən silinməyə süründürülməyimizə göz yummamalıyıq. "Onun vaxtı deyil, bunun vaxtı deyil" deyib itirə-itirə tükənməli deyilik.

***"Azərbaycan birdir. Əgər ikidirsə, o, yoxdur əslində".*** **(Asif Ata).**

## Günümüzdə Tarixin halüstinasiyaları

*(Ya da Özgəliyin şöhrətsevər yavruları)*

Biz ayrı-ayrı çağlarda vurğu eləmişik ki, toplumun boynuna dırmaşıb hündür görünmək istəyən adamlar həmişə milli dirçəlişə zərər verirlər. Belə adamlar heç vaxt toplumsal dəyişikliklər yaratmırlar, baş verən toplumsal dəyişiklik ortamında çalışmaların hərəkətverici qüvvəsinin öncüllərindən biri kimi görünməyə çalışırlar. Sadə toplumun daxili ehtiyaclarından doğan məsələləri yazılarda, çıxışlarda vurğulamaqla, onun (toplumun) sevgisini qazanmaq iştahı ilə, meydan sulamaq həvəsinə düşürlər. Bəzən onlar (bəlkə də ən çox hallarda) bilərəkdən, ya da bilməyərəkdən ölkədə bəlli senarilərlə iş quranların, proje həyata keçirənlərin alətinə çevrilirlər. Bu cür alətə çevrilməyin maddi qarşılığını alanlar da olur, sadəlövhcəsinə düşdüyü durumlardan xəbərsiz olanlar da. Biz dönə-dönə basın yayınlarında çıxış eləmişik, çağımızda "Türkçülük axımı" adına ortaya çıxanlar bölgədə, ya da yurdumuzda öz çıxarlarını ödəməyə

çalışanların yalançı, zərərli Türkçülük təbliğatına uyurlar. Hər kəsi qırıb-çatıb Turan imperiyası qurmağa çağırış edənlərin üzdə olanları məqsədyönlü iş aparan dış güclərin buyruğunda hərəkət eləyənlərdir. Sovetlər dağılandan üzü bu yana, bir çağlar Avropamərkəzçiliyin Türkə atdığı "vəhşi türk" böhtanını sanki dirçəltməyə çalışırlar...

Yadlığa, özgəçiliyə türk, türkçülük donu geyindirib aranı qarışdıranlar dərəni xəlvət görüb, özlərinə şöhrət haləsi yaratmaq həvəsi ilə, milli mübarizə apardıqları görsənişi yaradırlar. Onlardan birinin adını bu yazıda vurğulayıb düşündüklərini hallandırmağı uyğun sayırıq.

Yaxın adamlardan biri Feysbukda yayınlanmış "Tarix yenidən yazılmalıdır" başlıqlı bir yazıya baxış sərgiləməyimi önərdi. Yazı tanınmış yazar Yasəmən Qaraqoyunluya özgün idi. Öncələr də mən bu adama, Feysbuk üzərindən, danışdıqlarına, davranışlarına çəki-düzən verməsini önərmişdim. Ancaq deyəsən şöhrətsevərliyi onu bu önəridən uzaq tutur. Adam ciddi öyrənmədiyi, bilmədiyi məsələlərdən elə asan danışır, heç bir məsuliyyət daşımır. Alimlik diplomu alıb deyə, nə gəldi, necə gəldi danışmaqda özünü azad, sərbəst görür. Gözə almır ki, hər şey vaxtın, gələcəyin süzgəcindən keçir. Bu gün özünü ağıllı, bilikli göstərməklə Sabahın işığında böyük görünmək mümkün deyil. İndi ağıllı olmaq – ziyanın yarısından da qayıtmağı bacarmaqdır.

Öncələr bu xanıma saygı duyardım. Bəzi yazıları, bəzi milli aydınların yanında görünməsi buna səbəb verirdi. İllər öncə Güney Azərbaycanla bağlı bir toplanıtya qatılmışdım. Toplantının təşkilatçılarından biri Yasəmən Qaraqoyunlu idi. Oradan çıxandan sonra 4-5 nəfər birlikdə çay süfrəsinə oturduq. Aramızda ən çox danışan Yasəmən xanım idi. Ancaq ən çox da oxumadığı, öyrənmədiyi məsələlərdən danışırdı. Hətta "Avesta"nı, "Cavidannamə"ni oxuduğunu iddia edirdi. Ona bunların Azərbaycanda olmadığını bildirəndə "ola bilər onların haqqında oxumuşam" dedi. Onun şöhrətsevərliyi üzündən yalan danışması, özünü gərəksiz yerə bilikli göstərməyə çalışması, açığı ona qarşı saygımı azaltdı.

Yasəmən Qaraqoyunlu son çağlar daha çox özünü ifşa yolu tutub. Gah siyasətçi kimi çıxış edir, gah tarixçi kimi, gah da filosof kimi

görünməyə çalışır. Adı çəkilən sahələrin hər birində də naşılığı açıq şəkildə görünür. Bir çağlar indiki hakim rejimə qarşı sərt baxışlar sərgilədiyi halda, bu yaxınlarda rejimin ikinci şəxsinin – Mehriban Əliyevanın dövlət başçılığına uyğun aday olacağını təbliğ etməyə başlamışdı. Yanılmıramsa, Azərfredom TV-də onun bu təbliğinə qarşı tənqidi baxışlar da sərgiləndi. Söz yox, heç kim tənqidə qapalı, toxunulmaz deyil. Söhbət millətçi kimi görünən bir adamın kəskin mövqe dəyişikliyi sərgiləməsindən, sağ-sol getməsindən gedir.

Adam özünü millətçi kimi tanıtmağa çaışır, ancaq milli dəyərləri tanımır. Belə demək olar, ya öyrənməyib, ya da dərk eləməyib. Məsələn, hürufiliyi kabalizmlə eyniləşdirib dışlayır. İndi də Məhəmməd peyğəmbərin türk soyundan olduğunu isbatlamağa çalışır. Birincisi, ərəb dini, dili, imperiyası yaradan bir şəxsin türk olması nə anlam daşıyır, bunu anlamır. Bu gün İranda milli düşünərləri dara çəkdirən Xomeneyinin də canı-cəmdəyi türkdür, – türklüyün ləyaqətini işğal eləyən komprodor bir bioloji varlıq. Yəqin 200 il sonra yeni Yasəmən Qaraqoyunlular ortaya çıxıb, Xomeneyi ilə qürur duymaq üçün, şöhrət dağarcığı düzəldib xalqa sırımağa çalışacaqlar. İkincisi, bu adam, bütöv bəşəriyyətə örnək olan, hürufi baxışının insana verdiyi dəyərləri gözardı edərək, acığının astarı ilə kəskin şəkildə sola burulur. Kəskin burulması ilə kəskin də şübhələr doğurur. Doğrudur, Yasəmən Qaraqoyunlunun öyrənmədiyi nəsnələrdən danışmağa alışqanlığı var, ancaq hürufiliyin Tövratdan öncəki yəhudi baxışına dayandığını iddia eləmək tək savadsızlıq məsələsi deyil...

Bu şübhəni bir az da son yazılarından biri möhkəmlədir. Belə ki, “Tarix yenidən yazılmalıdır” başlıqlı yazısında sanki özünün yad buyruqlara axıcı olduğunu açıb göstərir. O bu yazısı ilə “Düzgün Atalıya cavab” verdiyini vurğulayır. Bununla da “torbada pişiyin olduğunu”u göstərir. Axı Düzgün bəyin statusunda bu xanımın adı çəkilməyib. O yazıb ki: “Bəzi özünü millətçi sayan elm, qələm adamları Ocaqnejatın layihələrində yer alırdılar”. Status sözbəsöz belə deyil, ancaq məzmunu budur. Eldə məsəl var, deyilir: “Soğan yeməmisən, için niyə acıyır?!”. İkinci bir yandan, axı sən Düzgün Atalıya cavab vermirsən, Asif Atanı ələşdirməyə girişirsən. Bununla da baxışları əsas məsələdən yayındırmağa çalışırsan. Məchul bir orbit

cızmağınla yenə unudursan ki, Asif Atanın dayandığı yüksəklikdən danışmağa sənin çapın, gücün yetməz. Nədən bu qədər çox tıncıxırsan?! Axı anlamsız çabalar göstərdikcə özünü daha çox ifşa edirsən. Nə üçün ağlını  diziyin gücü çatmayacaq yoxuşlara sürürsən?! Az-çox hörmətin vardı, boşuna tükətmə, Yasəmən Qaraqoyunlu.

Baxın, Yasəmən Qaraqoyunlu nə yazır: “Düzgün Atalı bizə yazır ki, Türk millətçiləri Ocaqnejatın layihəsində iştirak edirlər. Bilirəm ki, bu fikri biz islamı inkar etmədiyimiz üçün, Asif Atanın uydurduğu cəfəng Mütləqə İnam ideyasına uymadığımız üçün deyir. (Stalin də, kommunizm də özünü mütləq elan etmişdi. Heç bir ideologiya, din, fəlsəfə və insanın yaratdığı düzən mütləq deyildir. Hər şey axır, hər şey dəyişir. Yalnız Evrenin, Doğanın qanunları mütləqdir)...”

Çox ilginc görsənişdir, mən bu xanımın oyunbaz olduğunu heç düşünməmişdim. Sözü fırlayır, oynadır, açıq görünür ki, nələrisə gizləməyə çalışır. Hər şeyi bir-birinə qatıb-qarışdırır ki, baxışları çaşdıra bilsin. Onun bu manevrindən görünən odur ki, bu xanım gerçəkdən Ocaqnejatların kölgəsindədir, işığa çıxmağa dartınır. Axı adı çəkdiyi məsələlər tamam fərqli-fərqli məzmun daşıyan məsələlərdir. Düzgün Atalı da bu məsələlərin heç birinin adını çəkib hallandırmaq üçün səbəb vermir. Sadəcə Yasəmən xanım, yuxarıda dediyimiz kimi, özünü gizləməyə çalışır. Filosofluğu da bacarmadığı üçün primitiv bir siyasətçi kimi davranır. Özünün “nal-mıx” davranışlarına da yandaş toplamaq üçün mollalıq həvəsinə düşür. Yandaşlarına özünün əzabkeş, təqib olunan, hücumlara uğrayan obrazını quraşdırıb sırımağa çalışır. Anlaya bilmir ki, onun bu davranışları kiçikliyin bəraəti üçündür. Düşünmür ki, az-çox sözü tanıyan adamlar oyunlardan baş çıxarır. Kimdir səni sıxışdıran, təqib edən – Asif Atanın 3-5 yoxsul, heç bir maddi, fiziki etkisi olmayan Ocaqçılarımı?! Sən təqib oluna bilməzsən, çünkü şərlə döyüşmək gücünə sahib deyilsən. Asif Atanın adını sevgi ilə, sayğı ilə tutanlardan yalan yerə özünə rəqib uydurma, ayıbdır. Asif Ataya tünd pərdə arxasından baxırsan, elə bilirsən üstünə ordu göndərir. Özünü bunca uydurmaq kimi yazıqlığın bundan ötəsi yoxdur.

Mütləq heç nə yoxdur deyirsən, hər şey  axır, dəyişir. Bunu da öz “axıcılıq” qabiliyyətinə bəraət kimi yazırsan. Əgər hər şey dəyişkən-

dirsə, mütləq – bütöv heç nə yoxdursa, deməli, sənin millətsevərliyin də, vətənsevərliyin də dəyişkəndir. Deməli, ora-bura yüyürməyinizdə, nala-mıxa vurmalarınızda da qəbahət yoxdur, çünkü sənin dilinlə deyilir, hər şey dəyişkəndir.

Ömründə bir yol bir şeyi sonacan öyrən, sonra danış. Asif Atanın da bircə kitabını götür, oxu. Onda bəlkə anlaya bildin, Asif Atanın Mütləq dediyi nədir, Dəyişkən dediyi nə.

Yazırsan ki, Asif Ata rəqiblərinə cavab vermirdi, linc edirdi. Yasəmən Qaraqoyunlu, öncə bilməyin gərək, Asif Atanın rəqibi yox idi. Çünkü o, şərlə döyüşürdü, rəqibliyə enəcək qədər adi deyildi. Yəqin ki, "Alabaş Nəzərli"ni, ya da alabaş nəzərliləri nəzərdə tutursan. Alabaş Nəzərlilər şərin nökərləri idilər. Asif Atanın ideya bağçasında alaq kimi görünməyə çalışırdılar, Asif Ata da onları qoparıb tarixin zibil qutusuna atırdı. Sənə də önərim, elələrinə bənzəmə.

Çox tez-tez fəlsəfi, ədəbi anlayışlar (terminlər) sadalayırsan. Eləcə də bir sıra bilginlərin adlarını sadalayırsan, söz güləşdirdiyin adamlara onları oxumağı önərirsən. Yasəmən Qaraqoyunlu, onu-bunu bilmək bilikli olmaq anlamına gəlməz. Bir az da özündən bilik ortaya qoy.

Sonra da ayrı-ayrı fatehlərin adını sadalayıb milli dəyər kimi tanıtmağa çalışırsan. Bilməyin gərək, tarixə hökm edənlər milli tarix yaratmırlar, bir dönəmdə qol-güc olayları yaradırlar. Bu zaman milli dəyərlərə də zərbə vururlar. Sən fəlsəfə diplomu alıbsan (ya da veriblər). Ancaq keçmişə də, gələcəyə də fəlsəfi açıdan deyil, hərbi açıdan yanaşıb mənəvi-ruhani dəyərlərimizə arxa çevirirsən. Söz yox, fatehlərin, qan hərislərinin gücünü öz ürəyinin səadəti saymaq, onunla öyünmək, onunla məhdudlaşmaq ruhaniyyatı anlamağa tərsdir.

Biz dövlətçilik tariximizdə əməyi olanların əməyini alqışlayır, təqdir edirik. Ancaq milli varolmanın özülü, özəyi saymırıq. Özül – İnsanilikdir, Mənəvilikdir, Ruhanilikdir. Gücə pərəstiş eləmək, ruha, mənəviyyata arxa çevirmək heç kimə baş ucalığı gətirməz.

Tez-tez Türk-islam sivilizasiyası sözü işlədirsən. Bugününə bax, toplumun durumunu araşdır, Osmanlının son durumunu öyrən, gör millət olaraq, nə əldə eləmisən, gələcəyə nə ilə gedirsən?! Atatürk olmasaydı, Osmanlıdan heç nə qalmayacaqdı, Türkiyə belə olmaya-

caqdı. Ancaq bu gün sənin də pərəstiş elədiyin Ərdoğan Atatürkə qarşı nə qədər hürüşlər yaratdı. Ən ağır təhqirlərə uğradı Atatürk, abidələrinə od vuruldu. Kim elədi bunları – Ərdoğanın "imam xatibləri", meydan verdiyi "islam fədailəri".

Mollaqafalı yazarları oxumağı önərirsən?! Sən də bizləri (xalqı özümləşdirməyə çalışanları) oxumursan, heç olmasa, bir az "NUTUK"u oxu, Nihal Atsızı oxu, islamdan öncəki Türk Törələrinin sistemini öyrən. Onda özünü heç kimə sırımağa çalışmayacaqsan, gerçəkdən Milli dəyərlərin, Millət sevgisinin, İnsan sevgisinin nə demək olduğunun MÜTLƏQ səviyyəsini anlamağa başlayacaqsan. Hərçəndi sən "mütləq" heç nə yoxdur deyirsən...

Sənə uğurlar diləyirəm, Yasəmən Qaraqoyunlu!

Yönünü, yanını (tərəfini), davranışını doğru bəlirləməyə çalış. Yox, yox, yanlış anlama, səni Asif Ataya "uymağa" çağırmıram. Milli dəyərləri doğru öyrənməyə çağırıram.

Bu işdə ürəyinə qüvvət diləyirəm.

Atamız Var olsun!

## Rusiyanın sirk oyunları

Bu gün ən çox dəbdə olan bir deyim var: "Reallıqlarla hesablaşmaq gərəkdir". Bu deyilişə uyanlar ağıllı, bu deyilişlə barışmayanlar xəyalçı, belə də deyə bilərik, avantürist sayılırlar. Bu deyilişi düşüncəsinin başı-ayağı bilinməyən siyasətçilər yaradıblar – zəif, qorxaq, xalqını öz arxası saya bilməyən, başqa sözlə, xalqına güvənməyən, öz çıxarını düşünən siyasətçilər. Üzdən baxanda reallığın məntiqi onların dediklərini doğrulayır da. Çünkü bunu deyərkən, onlar regional durumu, təmsil elədikləri dövlətin gücünü, qarşı cəbhədəki dövlətin gücünü, düşmənlərin çoxluğunu, içəridə başqa güclərə çalışan ajanların araqarışdırıcı olanaqlarını gözə alırlar. Doğrudan da, belə bir ortamda maksimal istəklərdə bulunmaq, güzəştsiz davranmaq – davrananın avantürist olduğu görüntüsünü yarada bilər. Ancaq üzdən baxanda belə görünür. Sadəcə bu görüntülər dövləti istehsal alətinə çevirənlər üçün bəraət düsturu-

dur. Deməli, burada ağıllı davranmaq odur ki, xalqı aldada-aldada vədlər verməlisən, qarşındakına da quyruq bulaya-bulaya güzəştlər etməlisən. Bax, bu balacaların siyasəti, ya da siyasi məntiqi adlanır. Bizə görə Azərbaycan siyasətinin indiki durumu bu təsvirə uyğundur. Deməli, reallıq onu tələb edir ki, xalqı aldadasan, bunu da bacardığın üçün sənə sayğı bəslənilməlidir. Deməli, reallıq tələb edir ki, qarşında güclü dövlət var, ona quyruq bulayasan. Buna görə də hamı sənə minnətdar olmalıdır. Deməli, işin bu başında yalanlar qurmaq, o biri başında alçalmaq əxlaqi dəyərlər sayılmalıdır. Çünkü bunların hamısı dövlətçiliyə görə edilirmiş. Nə yazıqlar, bu cür duruma əxlaq donu geyindirənlər az deyil. Hakim siyasətə quyruq bulayanlar öncə yenilməzlik, qələbə, uğurlar təbliğatı qururlar. Elə ki, durum aydınlığa çıxır, aldatmaq üçün arqument qalmır, başlayırlar valı çevirməyə: axı Azərbaycan hakimiyyəti Rusiya kimi dövlətə qarşı necə çıxa bilər. Doğrudur, ömrü boyu xalqı aldadan, talayan, dövlət strukturlarında çalışanlardan yaltaqlar ordusu yaradan bir hakimiyyət Rusiya kimi azğın bir dövlətə qarşı necə dayana bilər?! Bəs necə oldu, erməni kapitulyasiya fəlakətinə uğramışdı?! Azərbaycan mütləq qələbə çalmışdı, torpaqlar işğaldan tam qurtarılmışdı?! 10 noyabrda qollanan bəlgə necə oldu?! Azərbaycanın siyasi hakimiyyəti nə üçün mütləq yenilmiş bir dövlətin başçılarının arxasınca düşüb Soçidə, Brüsseldə danışıqlar aparır?! 30 il boşuna aparılan danışıqlar dərs olmadımı?! Nə vaxta qədər bizim siyasi taleyimizi Rusiya bəlirləyəcək?! Necə ola bilər, Xankəndi başda olmaqla bəzi bölgələrimiz Azərbaycanın yönətimi dışındadır, ancaq delimitasiya, demarkasiya komissiyalarının yaradılması qonusu dartışılır; erməni bizə hesab verməliykən hələ də bizimlə şərtlər dilində danışır?! Bu bayquş toplum otuz ildir, xalqımızın rahatlığına qənim kəsilib, milyardlarla maddi zərər vurub, günahsız insanlarımızın qanını töküb. Biz isə onun nazı ilə oynayırıq. O zaman erməninini yenməyimizin məntiqi nədir?! Bu suallara bəzək vurmaq yox, ağrıların doğurduğu sualları aydınlığa çıxarmaq gərəkdir. Azərbaycanın siyasi hakimiyyətini savunanlar deyirlər, ermənilər Batıdakı havadarlarına dayanıb belə tərslik edirlər. Baxın, burdanbura yenə də gözə kül üfürürlər. Yenə də Rusiyanın adını çəkmirlər. Rusiya min bir oyun qurub Azərbaycana ordu yeritdi. İndi də min bir

oyun qurub hərbi kontingentinin Azərbaycanda qalmasının vaxtını uzatmağa, daha doğrusu, əbədiləşdirməyə çalışır. Azərbaycanın hakim təbliğatı da deyir, Azərbaycan iqtidarı dış siyasəti doğru, yerində yürüdür. Belə çıxır, Rusiyanın Azərbaycanda möhkəmlənməsi, Azərbaycanı öz vassalına çevirmək cəhdləri doğrudur, doğruluqdur. Bəlli ki, dış siyasəti iç siyasət doğruldur. Deməli, onda Azərbaycan iqtidarının iç siyasəti də doğrudur. Yəni rüşvətxorluq, qanunsuzluq, özbaşınalıq, toplumun əsas kütləsinin səfalət içində olması, gəncliyin bəlli bir kəsiminin işsizlik ucbatından tüfeyli həyat sürməsi, narkotik qullanıcılarının sayının artması, təhsilin, səhiyyənin iflic duruma düşməsi... doğru bir siyasətin sonucudur. Bunca yalanlar, abırsızlıqlar yetmədimi?! Azərbaycanın nə iç siyasəti, nə də dış siyasəti doğru deyil. Əgər dış siyasətin yönü gərəksiz qurbanlarla bəlirlənir, qorxaqlıqlarla yürüdülürsə, o necə uğurlu sayıla bilər?! Deyirlər, reallıqla hesablaşmaq gərəkdir. Axı reallıq təkcə o deyil ki, qarşında səndən güclü var (halbuki, yuxarıda dediyimiz kimi, bu gücün – Rusiyanın xəyanətlərini heç dilə gətirmirlər də). Reallıq həm də odur ki, xalqın sevgisi ilə, gücü ilə bir deyilsən. Qarşındakına səni amansız duruma saldığın xalqının əli ilə devirmək olanağı vermisən. Reallıq budur. Ən güclü içsəl siyasət xalqı qurmaq , böyütmək, öz çevrəsində gücə çevirməkdir. Bax, bu, reallıq olsaydı, hər cür reallığı dəyişmək baş tutardı.

Bir il öncə torpaqlarımızda qan tökülürdü. İndi Rusiya Azərbaycanla Erməni "ziyalılarını" görüşdürüb “doğmalaşdırır". Bütün bu görüşlər, danışıqlar Rusiyanın sirk oyunundan başqa bir şey deyil. Keçən yüzilin ayrı-ayrı aşamalarında xalqımıza qarşı törədilən qırğınlar unuduldumu?! 31 mart soyqırımından bir neçə il sonra Rusiya bizə hər şeyi unutdurub erməni ilə "qardaşlaşdırdı". Dalınca da torpaqlamızı parça-parça edib əlimizdən aldılar. Düşməndən dost, qardaş olmaz. Düşməni başımıza bəla edənə “boyun əymək” adlı siyasət isə heç doğru ola bilməz. Çağaşırı xalqın evinə şəhidlər daşınır. Bunun adına doğru siyasət deyilir...

Rusiya sınırların doğru bəlirlənməsinə əngəl olacaq. Azərbaycandan da çıxmayacaq. Əgər delimitasiya, demarkasiya sürəci baş tutacaqsa, Azərbaycanın itkiləri, qurbanları hesabına baş tutacaq. Rusiya

burada qalmağa çalışacaq. Əbədi qalması üçün də daim aranı qarışdıracaq. Ən yaxşı halda, Azərbaycanı hər yöndən özünün boyunduruğuna salıb, SSRİ-nin yaratdığı yalançı sabitliyə bənzər sabitlik yaradacaq. Ona görə, Rusiyanın əlinə oynamaq siyasətinə son qoymaq gərəkdir. Bu gün Azərbaycan üçün zamanın ən böyük tələbi parçalanmış xalq olduğunu gündəmə gətirməkdir. Tarixi həqiqəti, haqqı bərpa eləmək yönündə Güney Azərbaycanla bütünləşmək strategiyası bəlirləməkdir. Nə qədər ki, tarixi haqqımızı bərpa eləməmişik, Rusiya bizi daim erməninin ayaqları altında əzəcək. Bu fəlakətdən çıxmağın yaxın siyasi yolu içsəl siyasəti doğru yürütməkdən keçir. Xalqla düzgün davranmaq, dövlətin çökəldilmiş sistemlərini dirçəltmək, qanunsuzluqlara, özbaşınalıqlara, talançılıqlara son vermək gərəkdir. İndiki rejimdən bunu gözləmək olarmı?! – Çətin! Xalqın içində milli qüvvə yetişməlidir. Xalqı inandırmaq gərəkdir. O, ələbaxanların arxasınca getmir. Gedəndə də, yəni gedişlərə etkisiz yanaşanda da, fəlakətə yuvarlanır. Bunları düşünməyə dəyər, deyilmi?!

## Türk Birliyinin Doğrulması gərəkdir

Bu günün başlıca qonusu Qazaxıstanda baş verən olaylardır. Qardaş ölkədə böyük bir faciə yaşanmaqdadır. Analitiklər isə baş sındırırlar: görəsən, bu olayları ilk gündən Rusiyamı hazırlayıb, yoxsa sonradanmı işə qarışıb?! – Nə fərq edər ki?! İşin başlıca anlamı odur ki, Rusiya Qazaxıstanı işğal elədi. Ancaq bir sıra sözbazlar işin anlamı ilə bağlı çaşdırıcılıq yaratmağa çalışırlar. Yəni “Rusiyanın bu addımı tam işğal demək deyil, Rusiya özü zəifləyir, gec-tez dağılacaq” kimi absurd təbliğatlar daha çoxdur. Biz bunu Azərbaycanın basın yayınlarından, internet sitələrindən də izləyirik. Bu cür təbliğatların aparılması iki məsələni ört-basdır eləməkdən soraq verir, bilərəkdən, ya bilməyərəkdən. Bu məsələlərdən biri budur: Sovetlər dağılandan bu çağa kimi Qazaxıstanın dövlət başına keçən Nazarbayevin yaratdığı diktatura rejiminə, ölkənin bütün iqtisadi olanaqlarını bir ailənin ələ keçirməsinə qarşı yaranan hiddətləri arxa plana atmaq.

İkinci məsələ, diktatura talançılığından usanan toplumun haqlı etirazına, ortaya qoyduğu iradəyə kölgə salmaq.

Deyək, etirazlar Qazax xalqının öz iradəsi ilə ortaya çıxmayıb, elə başından Rusiya hazırlayıbdır. Bəs nə üçün etirazlar dayanmadı?! – Axı Rusiya öz istəyinə yetdi, Qazaxıstana ordu yeridib ilkin sürəci başa çatdırdı. Ona görə deyirik, olayları kimin başlaması, kimin başlatması baş verən faciənin başlıca nədəni sayıla bilməz. Qazax dövlətinin başında duranları cinayətdən uzaq tutmağa çalışmaq yolverilməzdir.

Qazax toplumunu suçlayanlar da az deyil. Bu suçlamaların da anlamı odur ki, toplum üsyan elədiyi üçün Rusiyanın Qazaxıstana girməsinə səbəb verdi. Ancaq demirlər, diktatorlar illərlə Qazax xalqının haqqını ayaqlamasaydılar toplum ayağa qalxmazdı, Qazaxıstan da işğal olunmazdı. Söz yox, Rusiya işğalçıdır, xalqların cəlladıdır. Ancaq bütün suçu Rusiyanın üzərinə yönəldib dış faktorla nələrisə ört-basdır eləmək doğru deyil.

Deyirlər, Nazarbayev Qazaxıstanda uğurlu islahatlar həyata keçirdi. Ancaq nə yazıqlar, bu islahatların hamısı özülsüz quruldu. Ona görə də, Rusiyanın bir anda gəlişiylə uçub dağıldı, dağılmaqda davam edəcək. İstənilən bir islahatı o vaxt uğurlu saymaq olar, onun arxasında xalq dursun. Xalqın üzərində oturuşan bir ailənin atdığı addımlar, üzdə xəlqi uğurlar kimi görünsə belə, xalqın uğuru sayıla bilməz. Nazarbayevin nə özü, nə də Türkçülük yönündə həyata keçirdiyi əməlləri xalqın sevgisini qazana bilmədi. Başqa bir yandan necə uğurlu islahatlar həyata keçirildi ki, Qazaxıstanın dövlət başçısı Tokayev Rusiyanın kadrıdır, Nazarbayev də bu dövlətin təhlükəsizlik şurasının başında dururdu?! Yoxsa Nazarbayev Rusiyanın kadrını dövlətin başında saxlayıb Rusiyanı aldatmaqmı istəyirdi?! Bəlkə bununla baş qatıb Türk Birliyi yaradacaqdı?! Biz diktatorların Türk Birliyi yaradacaqlarına inanmırıq. Bu gün bütün Türk dövlətlərinin başında duranlar diktatorlardır. Heç birinin xalqlarımıza, xalqlarımızın da onlara sevgisi yoxdur. Nə xalqlarımız onlara, nə də onlar xalqlarımıza güvənirlər. Onların hər biri öz xalqını talayan, çörəklə sınağa çəkən antimilli kadrlardır. Bəlgə üzərində Türk Dövlətləri Təşkilatı yaratdılar. Xalqlarımız bu təşkilatın gücünə çevrilmədilər.

Bu təşkilat da xalqlarımızın gücünə çevrilmədi. Rusiya bu bəlgənin gücsüz, çəkisiz olduğunu sübut elədi – öncə Azərbaycanda (Qarabağda), sonra Qazaxıstanda. Belə getsə, o biri Türk ölkələrində də oxşar addımlar atacaqdır.

Rusiya bir-birinin ardınca Türk ölkələrinə ordu yeridir, Türkiyə isə Ermənistanla danışıqlar planı hazırlayır. Bunu da zamanın komediyalarından saymaq olar. Türkiyə işğalçı Ermənistanın dünya qarşısında humanist, əmin-amanlıq, barış istəyən bir dövlət görüntüsü yaradılmasına ortam yaradır. Guya bununla Rusiyanın Ermənistan üzərində etkisini azalda biləcək. Erməni elə bir toplumdur ki, ona güzəşt eləmək, ortam yaratmaq olmaz. O, ilan kimidir, onun ancaq başı əzilməlidir. Bu toplumun xarakteri yoxdur. Erməni oyuncaqdır, oyuncağın nələrisə anlaması olumsuzdur. Ermənin mövcudluğu – oyuncaq olmasındadır. O bunu yüzillərdir sübut edib. Nə erməni humanist olandır, nə də dünya gücləri Türkiyənin erməniyə ortam yaratmasını alqışlayandır. Bir sözlə, erməniyə gəlişmə ortamı yaratmaq dünya güclərinin istəklərinə yarayır, Türklərin barış içində yaşamasına yox. Erməni adlanan ilan fürsət düşdükcə Türkü çalacaq. Erməni daim öz eybəcərliyini davam edəcək, dünya gücləri də onu savunacaq.

Dünya güclərinin  başında ABD, AB dövlətləri gəlir. Genel olaraq onlar Batı sayılırlar. Son 30 ildə Batının bütün davranışları gözümüzün qabağında olub, bundan dərs götürmək gərəkdir. Batı Sovetlər Birliyini dağıtdı, ancaq sovetlərdən açılan heç bir ölkəni onun varisi olan Rusiyadan qorumadı, qorumaq istəmədi. Dünyaya ağalıq etmək, dünyanı yönətmək istəyənlər sabitlik istəməzlər. Batının əsas ideolojisi olan demokratiya heç yerdə sabitlik yaratmır, anarxiya yaradır. On illərlə ABD-dən, AB-dən kömək gözləyənlər çox gec ayıldılar. İllərdir, bölgələrdə, eləcə də ölkəmizdə seçkilər saxtalaşdırılır, dövlətlərin başına talançı diktatorlar keçir, ABD, AB bunu demokratiyanın uğurları sayır... Dünyaya “demokratiya” toxumu səpənlər diktatorların özbaşınalıqlarına göz yumurlar. Bilirlər ki, diktatorlar öz toplumlarını əzməklə dünya ağalığının yaşamasına ortam yaradırlar. Elə buna görə də Batının yalançı “insan haqları”, “söz azadlığı” adlı cənnət vədləri puç olub gedir. Çünkü ölü doğulan vədlər heç vaxt

gerçəkləşmir. Üzdə diktatorlardan demokrat olmaq, insan haqlarını qorumaq tələb olunur. Ancaq bunu nə vaxt edirlər?! – Diktatorlar onlarla tərs düşəndə. Özləri də bilirlər, bu, alınan deyil. Batı "insan haqları" deyəndə diktatorların ona (Batıya) boyun əyməsini gözə alır. Yəni diktatorlar nədə isə Batıya boyun əyməyəndə "insan haqları" gündəmə gətirilir.

Yeri gəlmişkən, biz Batı demokratiyasını xalqların bağımsız, özgür qurulmasına, gəlişməsinə qarşı fəndgirlik sayırıq, diktaturanı da pisləyirik. Bəs necə olsun?! – Daşıdığımız Dünyabaxışın "İnsani (Ruhani) dövlət" ideyası, idealı var. Ancaq dünyanın indiki durumu bunun tezliklə alına biləcəyini mümkünsüz edir. Ona görə də keçid aşaması olaraq, şəxslərin deyil, dövlətin diktaturasını qəbul eləmək olar. Şəxslərin diktaturası dövlətin deyil, hakimiyyətin çıxarlarını qorumaq üçün qurulur. Dövlətin çıxarlarını qorumaq üçün qurulan diktatura xalqın güzəranını, insani haqlarını təmin edər. Xalqın içində başqa dövlətlərə çalışanlara isə güzəşt etməz, onları ən sərt addımlarla cəzalandırar. Hakimiyyətin çıxarlarını qoruyan diktatura isə xalqı talayıb əzir, öz çıxarlarına qarşı çıxan vətəndaşları "zərərsizləşdirir". Bu zaman öz xalqına qarşı başqa dövlətlərlə də anlaşmaya gedir. İndi bir çox ölkələrdə, başlıca olaraq, Türk ölkələrində olduğu kimi.

... Üzdən baxanda bu yazı pessimist ovqatda görünə bilər. Ancaq bu, bir Türk insanının rahatsızlıqlarının ifadəsidir. Yalançı optimizm görsənişi yaratmaqla populizmə gərək duymuruq.

Hələ heç nəyin sonu deyil. Düşünürük, Türk ölkələrinin içində Xalq Hərəkatları başlamalı, Milli Qüvvələr ortaya çıxarmalıdırlar. O zaman dünyanın gedişinə nizam gətirəcək Türk Birliyi yarana bilər – TDT ( Türk Dövlətləri Təşkilatı) deyil, TDB (Türk Dövlətləri Birliyi). Birlik xalqların iradəsi ilə oluşur, onları talayan diktatorların Bəlgəsi ilə yox!

## Yatanlar, ayılın!

Heç bir toplumda bütöv mübarizə ruhu qalmayıb. Sanki zamanın axırıdır. Etirazlar özünü doğrultmur, hiddətlər iş görmür. Bəlkə bu ona görədir, etirazlar bütövləşmir, hiddətlər də nisbi xarakter daşıyır. Hər bir olaylara yanaşma bir atımlıq barıt kimidir – bir anda partlayış verib sönür. Bəşəriyyət elmin ən yüksək inkişaf aşamalarını yaşayır, texnologiyaların gəlişməsi sözə sığmayan olanaqlar üzə çıxarır. Bəs bu gəlişmələr İnsanlığa nə vəd edir?! İnsan özünü xoşbəxt sayırmı?! – Saymır! İnsan fəlakətlərdən göz aça bilmir. İnsana sağlam yaşamaq hazırlamaq yerinə xəstəliklər gətirir, ölüm hazırlayırlar. İnsanın sayını azaltmaq üçün hər bir eybəcərliyə baş vururlar. Bu gedişə qarşı çıxmaq istəyənləri susdururlar, sıradan çıxarırlar. Həm də “insan haqları”, “söz azadlığı” oluşdurduqlarını təbliğ edirlər. Alçaqlığın bundan ötəsi olmaz.

Həyat bütünlüklə çelişki içindədir. Sanki bir əl ilə qurub iki əl ilə dağıdırlar. İnsanı öldürüb quruculuq yapırlar. İnsana deyirlər: “sən istədiyin kimi yaşaya bilməzsən. İstədiyimiz vaxt səni yaşadarıq, istədiyimiz vaxt öldürərik. Könlün istədiyi vaxt etiraz edə bilməzsən. Nə vaxt, kimə qarşı etiraz edəcəyini biz bəlirləyirik. Sən heç nəyi dəyişə bilməzsən, bizim istədiyimiz, yaratdığımız dəyişikliklərə uyğunlaşmalısan”.

Kim edir bunları?! – insan!
Talanan insandır, talayan insan.
Ölən insandır, öldürən insan.
Başqa sözlə, insan adını daşıyan yaratıq.

***

Yuxarıda vurğuladıq: hər bir olaylara yanaşma bir atımlıq barıt kimidir, bir anda partlayış verib sönür. Sosial şəbəkələrdə artıq Qazaxıstan olayları da gündəmdən qıraqdadır (ətalət inersiya uyumu ilə deyilənləri çıxsaq). Söyənlər söydü, alqışlayanlar alqışladı, qırağa durdular. Qırağa durmayıb neyləyəcəklər ki?!  O üzə çevirib, bu üzə çevirib deyə-deyə, yaza-yaza durası deyillər ki. İndi hamı olayların sonrakı taleyini gözləyir. Dramatik oyunlar yeni səhnələr açarsa

yenidən yazmalar, yozmalar başlayacaqdır. İndi yazmaq-yozmaq üçün yeni olaylar gərəkdir. Onsuz da dünyanın halına, oyununa alışqanlıq yaranıb. Bu alışqanlığı yaradan "inkişaf"dır. Texnologiyaların göz qamaşdıran inkişafıdır – ac qoyan, haqsızlaşdıran, ölüm saçan, bir yanda da harınlaşdıran, qarınlaşdıran "inkişaf". İnsan acılar yaşayırsa – "inkişaf"ın tələbidir. Acılar yaşadırsa, yenə "inkişaf"ın tələbidir. Allahlaşan, alın yazısı yazan, insanlığa boz-bulanıq gələcək vəd eləyən "inkişaf". "İnkişaf"ın istəyiylə hər şey oyuna çevrilməli, oyun kimi görünməli, oyun kimi yaşamalıdır. Çünkü oyun ilginc (maraqlı), çəkici (cazibədar) olur. Hər dəfə insanların deməyə "sözü" olur. Oyunlar olmasa, insan "söz haqqı"nı qullana bilməz. Budur, Gedişin İnsanlıq üzərində ironiyası.

***

Bəlkə buna görədir, indi ən aktual çağırış "reallıqla hesablaşmaq gərəkdir" deyimidir. Bunun başqa deyilişi, "palaza bürün, elnən sürün"dür. Eynən Türk dövlətlərimizdə olduğu, yaşandığı kimi. Hər şey dəbləşir, kağızlaşır, sənədləşir. Toplumlarımızın içində yaranan ehtiyaclara uyğun olaraq gerçəkləşmir. Birlik ehtiyacımız həşirə düşdü, elan olunmaqdan uzağa getmədi. 21 noyabr, 2008-ci ildə "Türkdilli Ölkələrin Parlament Assambleyası" yarandı. Toplaşdılar, danışdılar, dağıldılar. Ağsaqqalı, qarasaqqalı bəlirləndi. Öydülər, göyə qaldırdılar, gözə kül üfürdülər. 14 ildə Birlik yaranmadı. Nə ortaq dil yarandı, nə ortaq valyuta, nə ortaq ordu. Ərəbləşmə, ingilisləşmə, ruslaşma daha çox yayıldı, nəinki türkləşmə. Əməkdaşlıq bağlaşmaları qollandı, iqtisadi bağlaşmalar ortaya gəldi, ancaq mədəni, məişət tərbiyəmizə etki göstərən milli istehsal ortaya gəlmədi. Körpələrimizə doğum günü keçiririk – divarlarımızda "happy, happy, Bebi" yazırıq. Gənclərimizi evləndiririk, bağışlanan nəsnələrin, suvenirlərin üzərində "love" yazılır. Hər yerdə "store", "market", "palace" yazılışları gözə girir. Ünvanlar bu anlayışlarla axtarılır, tapılır.

Metrolarda, avtobuslarda, parklarda çoxluq ərəb hədisləri oxuyub öyrənirlər. Analar balalarına ərəbcə uğurlamalar (xeyir-

dualar) verirlər (əl boyda kitabçalarda ovsunlanma, ovsunlama duaları – yuxu laylaları).

İç siyasət özgələşdirir, dış siyasət tabeləşdirir. Ancaq bolluca türkləşməkdən, türk birliyindən yazırlar, yazdırırlar.

Yəqin kimlərə görəsə biz sürəci yaxşı görmürük, içəridə türkləşmə sürəci uğurlu gedir, biz də bunları danırıq...

Uğur nədir, uğursuzluq nə?! Görünür, bunun da aydınlaşmasına zaman gərəkdir. Ancaq görünən odur ki, ərəbləşmə, ruslaşma, ingilisləşmə gedişinin oluşdurduğu "Balıq-ördək-xərçəng" nağılını çox dinləməli olacağıq...

Yatanlar, ayılın!
Yıxılanlar, qalxın!
Əyilənlər, düzəlin!
Ölənlər, dirilin!
Amal məqamıdır! (Asif Ata).

## Qaydalaşan Xəyanət

Bu gün dünyanın baxışı bütünlüklə Rusiya-Ukrayna çəkişmələrinə bağlı görünür. Başqa uluslararası sorunlar (beynəlxalq problemlər) sanki ikinci dərəcəli anlam daşıyır. Geneldə isə bütün uluslararası sorunlar bir-birinə bağlı şəkildə gəlişir. Belə də deyə bilərik, hər hansı bir bölgədə (regionda) olan uluslararası sorunlarla bağlı münasibətlər yeni aşamaya keçir. Məsələn, Orta Doğuda başlayan prosesl̇ər Güney Qafqaza, Orta Asiyaya, Doğu Avropa sınırlarına doğru inkişaf edir. Ona görə bu gün Ukrayna çevrəsində baş verən olaylara ayrıca baxmaq, yuxarıda adı çəkilən bölgələrdən ayırmaq mümkün deyil. Rusiya öz varlığını qorumağa çalışır. Bunun üçün güc işlətməkdən belə çəkinmir. Bu isə, çoxlarının düşündüyü kimi, SSRİ-nin bərpasına doğru göstərilən çabalar deyil. Sadəcə görünən odur. Rusiya ən böyük iddialarla davranır ki, heç olmasa ən az siyasi çıxarlarını təmin edə bilsin. Eyni halda, Rusiya içsəl sorunlarını dış

sorunlarının arxasına keçirib pərdələməyə çalışır. Çinin güclənməsi qarşısında dalana dirənən Batı gücləri, bu açıdan, Rusiyanın keçmiş sovet respublikalarına qarşı güc sərgiləməsinə göz yumurlar. Rusiya da bu durumdan (fürsətdən) yararlanıb strateji bölgələrdə siyasi yerini möhkəmlətməyə çalışır. Batı Rusiyanın bu çabalarına əngəl olarsa, yaxın gələcəkdə Çin dünyanın super gücünə çevriləcək. Artıq bu durumu analitik olmayanlar da anlayır. Çinin bu inkişaf perspektivinin qarşısını almaq mümkündürmü – demək olduqca çətindir. Ancaq ən azı gecikdirməyə çalışırlar. Bunun da iki yolu var: Birinci yol – Türklərin aktiv Birliyinin yaranmasıdır. Bu Birliyin Çinin hərbi, siyasi sınırlarının genişlənməsinə sipər olması. Bu yol Batının istəklərinə uyğun gəlmir. Dönə-dönə vurğulamışıq, yeni bir hərbi-siyasi güc birliyinin ortaya çıxması (Türk Birliyi biçimində) Batı üçün öncəkilərdən, daha doğrusu, mövcud olanlardan daha qorxunc bir görsənişdir.

İkinci yol – Türk dövlətlərini basqı altında tutub Çinin qarşısında duran Rusiya faktorudur. Bu yol Batının istəklərinə daha uyğundur. Bununla Rusiya aşırı güclənərsə, onu öz içində islah eləmək (çoxsaylı türk subyektlərinin əli ilə) Batı üçün daha mümkün görünür. Bununla belə, Ukraynaya münasibətdə Batı Rusiyaya özbaşınalıq olanağı tanımaq istəmir. Çünkü Ukraynanı basqı altına almaq – birbaşa Avropa sınırlarına qorxu yaratmaqdır (AB sınırlarını təhdid eləməkdir). Ancaq dediyimiz kimi, Rusiya Batının Çindən çəkinməsindən yararlanıb daha çox şey əldə etməyə çalışır. Bütün bunlar Rusiyanın öz mövcudluğunu qoruması yönündə çabalarıdır – üzdə SSRİ-ni bərpa eləmək çabaları kimi görünsə də. Bu günkü proseslər, şərtlər SSRİ kimi bir imperiyanın yenidən səhnəyə çıxmasını olumsuz edir. Doğrudur, Rusiya imperiya kimi düşünülüb, yalnız imperiya kimi mövcud ola bilər. Bağımsız bir respublika quruluşu Rusiya üçün keçərli deyil. Hətta SSRİ yıxılanda belə, Rusiyanın taleyinin necə olacağını bəlirləmək olduqca çətin idi. Rusiyanın birgə qonşuluq, barış (sülh) ortamında varlığını sürdürməsi alınacaqmı, yoxsa o, imperiyasını başqa şəkləmi salmalıdır?! Axı Rusiya kiminlə dinc, barış ortamında yaşayacaq?! Quzey Qafqaz xalqları iləmi, yoxsa işğal elədiyi türk xalqları iləmi?! Dinc, barış ortamı odur, heç kimin

torpağını işğal etməməli, haqqını tanımalısan. Rusiya hər kəsin torpağını özünə qaytarsa, haqqını tanısa, özü harada olacaq?! SSRİ-ni çökdürən Batı gücləri bu durumu düşünməmiş deyillər. Rusiya bir dövlət kimi necə olmalıdır?! Olması nə deməkdir, olmasa nə baş verər?! Olmasa, yerində ən azı 16 türk dövləti yaranır. Ya da Tək bir Türküstan. Başqa variant isə indiki federasiya biçimi idi – Türklərin Birliyinə əngəl olan, gələcəkdə isə Batı güclərinin istəklərinə uyğun biçimdə yönətilən bir Rusiya. Bu məsələləri bir neçə yol vurğuladığımız üçün bu yazıda genişləndirmirik.

Rusiyanın SSRİ-ni bərpa istəklərini olumsuz edən başqa bir cəhəti də var. Ötən yüzilin başlanğıcında əzilən xalqları, kəndli-fəhlə birliyi ilə qurulan, proletariat dövlətinin ortaya çıxmasına inandırmaq mümkün idi. Çünkü çağırışlar, ideyalar çəkici (cazibədar) idi. Ancaq SSRİ-nin qurulması ilə milli özgürlüyünü itirən, 37-ci il tarixini unutmayan toplumlara vəd verməyə Rusiyanın əlində bu gün heç nə yoxdur. SSRİ-nin, milli sorunları gizləməklə, manqurtlaşdırma siyasəti ilə yaratdığı firavanlıq şirnisi özgürlük, bağımsızlıq meyillərinə artıq kölgə sala bilmir. Milli kimliyin sıradan çıxarılması yönündə törədilən qanlı 37-ci il faciələrini heç bir toplum Rusiyaya bağışlamayıb. Bu gün Rusiyanın heç bir bağımsız ideologiyası yoxdur, yalnız zoru var. Zor da bir yerə qədər iş görə bilir.

Bütün bunlarla yanaşı, biz Rusiyaya yanaşmada Azərbaycan hakimiyyətinin ruporlarının dili, baxışı ilə oxşarlıq yaratmaqdan uzağıq. Rusiyanın Qarabağa ordu birləşmələri yerləşdirməsindən sonra, Azərbaycanın siyasi durumunu pərdələmək üçün, "Rusiya qabaqkı Rusiya deyil, zəifdir, çökür" kimi təbliğatlar qurmağa başladılar. Onu deyək, Rusiya imperiyası nə vaxt parçalanacaq, çökəcək?! Parçalanacaqmı?! – Yaxın gələcəkdə bunu demək çətindir. Dediyimiz kimi, onu təkcə özünün zoru, yarağı qorumur, Batı gücləri də, yaranması gözlənilən Türk Birliyinə qarşı, Rusiyanı parçalanma gedişlərindən qorumağa çalışırlar. Onlara parçalanan Rusiya deyil, yönətilən, ələbaxan Rusiya gərəkdir. Ona görə də "Rusiya parçalanacaq" təbliğatı quraraq, Azərbaycanda Rusiyanın oturuşmasına yol vermək xəyanətdir, bu xəyanətin bəraəti yoxdur. Rusiya Qarabağı Azərbaycanın coğrafiyası sayır ki, onun orada olması

toplumumuzda böyük qıcıq doğurmasın. Ancaq bu yuridik baxımından belədir, faktiki olaraq deyil, indi bunu bilməyən yoxdur. Rusiyanın istədiyi vaxt yuridik dəyişikliklər yaratması da bizə bəllidir. İndiyə qədər torpaqlarımızla bağlı yuridik dəyişiklikləri elə də uzaq tarix deyil...

Deməli, Rusiya 2030-cu ilə qədər Qarabağda olacaq, ona kimi Azərbaycan yuridik baxımından oranın yiyəsi sayılacaq. Bu durum Azərbaycan hakimiyyətinə də yarayır. Təki onu torpaqların tam qurtarılmamasında suçlamasınlar. Söz düşdükcə də deyir, ora bizimdir, bunu Rusiya da dönə-dönə bəyan edib. Yuxarıda deyildiyi kimi, Rusiya 2030-cu ildə, ya da 2030-cu ilə qədər yurudik durumu dəyişə bilər, əgər biz Rusiyanın davranışlarına qarşı çıxsaq, ya da onu Azərbaycanda görmək istəməsək. Çünkü hər gün Rusiya Azərbaycanda qalmaq üçün əsaslar hazırlayır. O sıradan Qarabağda rus icması yaradıb tədbirlər keçirir. Gedişlər-gəlişlər intensiv şəklə düşüb. Sabah erməni ilə döyüşüb güllə atsaq, rus icmasının rusuna "dəyəcək". Yəni Rusiya belə deyəcək (suyu "bulandıran" quzu məsələsi).

Bütün bunlar sorunun çözülməsini uzatmaq üçündür. Rusiya həm sorun yaradır, həm də sorunun həllini uzadır. Sonra da deyəcək, siz məsələnizi yoluna qoya bilmirsiniz, mənim burada olmağım qaçılmazdır.

Rusiya daim yalan danışır, yalan tarix yazır. Dünyaya da yalan danışmaq öyrədir. Çünkü onun nə torpağı var, nə tarixi. Rusiya şərdir. Şər yalanla qidalanır, yalan üstə yaşayır. Onun yalanlarına ortam yaratmaq min illər tarixi keçmişi olan, bəşəriyyətə tarixi dəyərlər vermiş olan bir xalqa xəyanətdən başqa bir şey deyil. Şəri yaşatmaqla, onun möhkəmlənməsinə ortam yaratmaqla Şərdən qorunmaq olmaz. Şəri gücləndirmək – öz xalqının əsarətinin ömrünü uzatmaqdır. Bunun üçün heç bir bəhanə keçərli deyil.

Nə qədər ki, Rusiya  Xankəndidədir, Azərbaycanın uluslararası bağımsız siyasi ilişkilər qurması alınmayacaq. Nə qədər ki, Rusiya Xankəndidədir, Azərbaycanla erməni arasında delimitasiya, demarkasiya prosesi uğurla sonuca varmayacaq. Xankəndinin taleyi bəlli deyil, kimindir, sabah kimin olacaq. Bəs sınırlar necə bəlirlənəcək?!

Rusiya ermәninin ağzı ilә Azәrbaycanın qarşısında şәrtlәr qoyur. Vaxtı uzadır ki, Azәrbaycanda qalması üçün daha dәrin әsaslar hazırlasın. Hәm dә başqa regionda, o sıradan Ukraynada sorunları dәrinlәşdirib üstünlüyünü saxlaya bilsin. İmperiyanın mövcudolma siyasәtinin әsas faktoru, ona tabe olmaq istәmәyәnlәrә, uluslararası (beynәlxalq) problemlәr yaratmaqdır. Bu açıdan yanaşanda Azәrbaycan hakimiyyәti, Qarabağ mәsәlәsindә, nәinki tabe olmaqdan boyun qaçırdı, problemin dәrinlәşmәsinә könüllü qapı açdı. Ona görә deyirik, bu hәrәkәtin heç bir bәraәti yoxdur, açıq xәyanәtdir...

## Millәti әzәn diktator Birlik yaratmaz

***(Şapur Qasımiyә yüngülcә cavab)***

Bu günlәrdә tәzadlar.az saytında "Rusiya Qazaxıstandan nә istәyir" başlıqlı bir yazıda adımın hallandırılması ilgimi çәkdi. Yazının müәllifi Şapur Qasımi adlı şәxs idi. Doğrusu, öncәlәr belә bir imzaya heç yerdә rast gәlmәmişәm. Bu yazısını da, әslindә özü ilә görüşәndәn sonra oxudum. Әl telefonuma zәng elәmişdi. Yazımı oxuduğunu, ilgisini çәkdiyini dedi. Bir az da yaxından tanış olmaq, üz-üzә söhbәt elәmәk istәyini dilә gәtirdi. Danışdıq, vaxt bәlirlәdik, görüşdük. Özünün Marksist olduğunu, Leninin qurduğu sistemin Marksizmә bağlı olmadığını bildirdi. 2 saat yarıma yaxın bir vaxtda әn çox o danışdı. Arada mәn dә öz yolumuzun, ideyamızın anlamına yönәlik açıqlamalar verdim. Dinlәdikcә "sәn Marksın dediklәrini deyirsәn" dedi. Bir-birimizә әdәbiyyatlar bağışladıq. Dedim, bizim әdәbiyyatlarımızı vәrәqlәyin, sonra aydınlaşdırarıq, baxışlarımızda nә dәrәcәdә yaxınlıq var. Genel olaraq varmı?!

Görüşümüzdәn iki gün sonra yenidәn zәng elәdi: "mәn sizin әdәbiyyatları sәhifәlәdim, bizim aramızda heç bir hasar yoxdur, biz әmәkdaşlıq edә bilәrik" dedi. Doğrusu, mәndәn çox yaşlıdır, mәdәni adama bәnzәyir, könlünü incitmәk istәmirәm. Dedim, mәn dә sizin әdәbiyyatınızı oxuyum, sonra düşüncәlәrimizi bölüşәrik. Sonra da saytda gedәn yazısı qarşıma çıxdı. Çox ilgincdir, adam mәnim yazımı

təhlil edib tənqid eləsəydi, zəng edib sayğımı bildirərdim. Ancaq o, mənim yazımın anlamını tutmadan təftiş eləyib, üstəlik məni dövlətə, Türk Birliyinə düşmən çıxarır. Mənə elə gəldi, bu yazını normal düşüncədən uzaq bir adam yazıb. Ancaq dediyim kimi, biz üz-üzə oturub canlı söhbət elədik axı, bu onun yazısıdır.

Öncə onu deyim, Şapur bəyin bu yazısı dilinə, üslubuna, cümlə quruluşuna görə olduqca bərbad, oxunub anlaşılması olduqca zor olan bir yazıdır. Azərbaycan türkcəsinin qramatikasını, ilkin şərtlərlə belə, bilmədiyi anlaşılır. Məncə, nə dediyini, nə istədiyini axıracan özünə aydınlaşdıra bilməyib. Sadəcə basın yayını sistemində belə bir qarışıq-dolaşıq yazı ilə görünməyə tələsiyib. Hər şeyə marksizmin "obyektiv qanunları" açısından yanaşaraq, bir yerdə söylədiyini başqa yerdə danmaqla özünü çıxılmaz duruma sürükləmişdir. Yeri gəlmişkən, Türk milli Birliyinin gərəkliyindən danışmaqla özünün daşıdığı əqidənin prinsiplərinə qarşı davranmışdır. Axı marksizmə görə millət anlayışı kapitalizmin uydurmasıdır. Onun üçün milli prinsiplər deyil, genel "cəmiyyət qanunları" əsasdır... Nə isə, bu qonu geniş bir məsələdir, gərəkərsə mətbuat polemikası da açmaq olar. Hələlik isə yazıdakı dolaşıq məsələlərə, ya da belə deyək, Şapur bəyin özünü dolaşdırdığı məsələlərə aydınlıq gətirməyə çalışaq. Bir daha vurğu edirəm, yazının dili, quruluşu çox dolaşıq, çox təzadlıdır. 30-40 sözdən oluşan cümlələrini başa çatdırana qədər gərək bir neçə yol dərindən nəfəs alasan. Bu cümlələrin ortasını oxuyanda başı yaddan çıxır. Yazını oxuyan hər kəs mənim dediyimi təsdiq edə bilər. İndi isə yazıdan uzunsov bir cümləni burada alıntı kimi yazmaqla, dediklərimizə aydınlıq gətirək: ***"Digər tərəfdən Türk Dövlətləri Birliyinin, hətta vahid Turan Dövlətinin yaradılmasının bütün dünya türkləri üçün fövqəladə önəm və zəruriliyini mən şəxsən hələ 20 il bundan öncə Moskvada və Rusiyanın başqa şəhərlərinə o ağır dövrlərdə ailələrini dolandırmaq üçün gələn sadə, hətta savadsız Özbək, Qırğız, Qazax eləcə də Rusiyanın tərkibindəki türk bölgələrindən olan türklərin də çox yaxşı başa düşməsi, bunu çox tez-tez dilə gətirmələrinin şahidi olmuşam."***

Şapur bəy bu, başı-ayağı bilinməyən 64 sözdən, bağlayıcılardan oluşan cümləsi ilə nəyi inkar, nəyi təsdiq elədiyi bizə bəlli olmur.

Yalnız bundan öncəki cümləsi ilə anlamaq olar, sözləri fırlayıb hara gəldi səpələməklə, burada dediyini anındaca inkar edir. Öncəki cümləsi belədir: ***"Əvvəlcə müəllifin və oxucunun nəzərinə çatdırım ki, hər hansı Dövlətlər Birliyini və ya Dövlətlər Təşkilatını nə xalqlar, nə də Xalq Hərəkatları deyil, diktator olub olmamasından asılı olmayaraq o xalqların mənsub olduqları dövlətlərin başçıları yaradır".*** Buradan anlaşılan odur, Şapur bəy "Birlik"lə "Biryerdəlik" anlayışlarını tərəzinin eyni gözünə qoyur. Ona görə də dediyinin ağır gəldiyini düşünür. Gözə almaq gərək, xalqın iradəsini qıran, onu talayıb bir tikə çörəkdən asılı duruma salan diktatorların yaratdığı birlik yalnız öz hakimiyyətlərinin ömrünü uzatmağa yarayır. Bu isə xalqların öz dövləti ilə (əslində hakimiyyəti ilə), ya da dövlətlərinin başında duranların yaratdıqları özülsüz, formal qurumları ilə birliyi anlamına gəlməz. Bəs nədən Türk Dövlətləri Təşkilatının üzvlərindən biri olan Qazaxıstanın dövlət başçısı yardıma TDT-nin üzvlərini deyil, KTMT-ni çağırdı?! Axı Türk dövlətlərinin başçıları, iddia elədiyiniz kimi, Birlik yaradıblar. Bəs nədən Qazax toplumu talanmasına qarşı üsyan qaldırdı?! Axı Qazax dövlətinin başında duran adam TDT-ni yaradanlardan biridir. Türk Birliyini istəyən, bu məsələdə öz dövlət başçısı ilə baxışları üst-üstə düşən sadə toplum, "Birlik" quran diktatoruna qarşı (sizin məntiqinizə görə), güzəştə getməli idi. Getmədi! Çünkü sadə toplum onu talayanların "Birlik" adına yaratdığı quruma inanmır, güvənmir. Bu üzdən yazmışıq, dövlətin başına gələn kəs xalqın iradəsini təmsil eləməlidir ki, xalq onun yaratdığı "Birlik" adına qurumların arxasında dursun.

Qazaxıstanda baş verən olayları Moskvanın düzənlədiyini, hər şeyin Sankt-Peterburq görüşündən başladığını yazmaq, yumşaq desək, insafsızlıqdır. Burada Qazax toplumunun hiddəti, iradəsi gözardı edilir. Əslində Nazarbayevə münasibət də, özündən sonra hakimiyyətə gətirdiyi Tokayevə münasibət də, 30 il öncədən başlayan bir prosesin sonucudur.

Şapur bəy yuxarıdakı, 64 sözdən oluşan, cümləsinin davamı olaraq yazır: ***"Məgər bu cəmiyyət daxilində maddi nemətlərin bölüşdürülməsində kimin talan edilən, kiminsə talan edən olmasından asılı olmayaraq, milli birlik məsələsində xalq ilə diktatorun mənafeyinin***

***üst-üstə düşməsi deyilmi?"*** (Müəllifin cümləsini, gərəkən durğu işarələrini artırmadan, olduğu kimi köçürürəm – S.A). – Deyil, Şapur bəy! "Milli Birlik" sözünü saqqız kimi çeynəməklə Milli Birlik yaranmaz. Bu cür qutsal anlayışı ("Milli Birlik" anlayışını) siyasi oyuna, özünün maxinasiya predmetinə çevirən kələkbazlarla xalqın baxışı heç vaxt üst-üstə düşə bilməz. "Milli Birlik" adına özülsüz qurumlar yaratmaq – sadəcə xalqın başının altına yastıq atmaqdır. Xalqı yuxuya verib onu talamağı davam eləməkdir. Mən xalqın övladıyam. Mənim üçün heç bir fərqi yoxdur – bu xalqı onun başında duranmı talayır, yoxsa Dış sömürgəçilərmi. Sizin, yoldaş Şapur Qasımi, xalqı talayıb onun haqqını oğurlayan, varlığına qənim kəsilən diktatorları deyil, məni düşmən elan eləməyiniz anlaşılandır. Axı demişdim, daşıdığınız əqidəyə görə sizin üçün millət ali dəyər deyil, sadəcə kütlədir. Biz insanı, milləti, necə gəldi yönətilən, sosial olay saymırıq, mənəvi-ruhani varlıq sayırıq. Bunun uğrunda da, gücümüz içində, mübarizə aparırıq. Pessimist də deyilik. Pessimizm – insanın, millətin yüksək varlıq olmasına inanmamaqdır. Sosial nəzəriyyələrlə insanı yönətmək, öz anlamına uyğun olmayan bir şəkildə yola verməyi düşünməkdir...

## Bir daha Zelenskini suçlayanlara

İstənilən olay kimi, Rusiya-Ukrayna savaşı da, istər dünyada, istər bizim toplumumuzda fərqli baxışlar ortaya çıxarıb. Hər bir baxış yiyəsi öz baxışını ədalətli sayır. Bu da doğaldır, kimsə baxış sərgiləyirsə, baxışını haqlı saymalıdır. Bir kəsim deyir, Ukraynanın dövlət başçısı Batının oyununa gəldi, ara yerdə Ukrayna xalqı fəlakətlərlə üz-üzə qaldı. Bir kəsim deyir, Ukraynanın başqa yolu qalmadı, öz vətəninin bağımsızlığını Rusiya işğalından qorumalı idi. Mənim baxışım da belədir, yəni Ukrayna öz bağımsızlığını qorumalı idi, qorumağa çalışır da. Hansı dövlətin kimi qızışdırmasından asılı olmayaraq, bu savaş başladı, onu da Ukrayna deyil, Rusiya (Ukraynaya saldırmaqla) başladı. Ukrayna ya Donbası, Luqanskını, Krımı itirməyə razı olub Rusiyaya boyun əyməli idi, ya da vətəninin bütövlüyünü

qorumaq üçün ölüm-qalım savaşına qalxmalı idi. Gözləmək olmaz ki, nə vaxtsa Rusiya addımı dala qoyub imperialist siyasətindən əl çəkəcək. Rusiya dövlət kimi qurulmayıb, imperiya kimi düşünülüb. Onun indiki sınırları içərisində olan ərazilər öz torpaqları deyil ki. Ona görə Rusiya özü ölüm-qalım savaşı aparır, necə eləsin, varlığını qorusun. Rusiya öz varlığını başqa dövlətlərdə qorumaq yolu ilə savaş aparır əslində. Yoxsa bir gün əsarətdə saxladığı Türk varlıqları ayrılıb bağımsız olmaq istəsələr, Rusiyanın siyasi varlığına son qoyulacaqdır. Ona görə bu gün Rusiya ağlasığmaz vəhşiliklər törədir. Mənim üçün də ağrılıdır, insanların məhv edilməsi, hər cür antihumanist mənzərələrin yaranması. Ancaq Ukrayna dirəniş göstərməsəydi, Rusiya sınır dövlətlərin hamısını işğal edib bağımsızlıqlarına son verəcəkdi. Ona görə bu gün bütün sınır dövlətləri, eləcə də barış istəyən bütün dövlətlər Ukraynanın haqlı savaşını tutmalı, ona hər kəs gücü içində kömək etməlidir.

Batının Ukraynaya yardım eləməsinə gəlincə, bu, ya elə, ya belə olmalı idi. Yəni Batı Rusiya qorxusunun öz sınırlarına yaxınlaşmasını əngəlləməli idi. Başqa bir yandan, dünya ağalığı uğrunda çəkişmələrdə Batı öz üstünlüyünü əldən vermək istəmir. Bu da çağdaş dünya düzəninin (humanizmdən uzaq olsa da) tələbidir. Mənim sayğım Batının dünya çapında yürütdüyü siyasətin yanında deyil. Çünkü Batı da imperialist siyasət yürüdür. Ancaq Ukraynaya yardımını doğru sayıram.

Belə götürəndə Batı heç Rusiyanın parçalanmasını da istəmir. Çünkü Rusiya parçalansa, "Türk Birliyi" kimi yeni bir güc mərkəzi yarana bilər, bu da Batı üçün arzuolunmaz bir məsələdir. Sadəcə Batı Rusiyanın başına öz kadrını gətirib, onu (Rusiyanı) yönətilən bir dövlət halına gətirmək istəyir.

Biz bu yöndə illərdir yazırıq, deyirik, ona görə bu qonunu davam eləmirik.

O ki qaldı "Türk Birliyi" məsələsinə, bunu ən çox biz istəyirik. İllərdir, basın yayınlarında yazırıq da. Ancaq bu Birliyi Türk dövlətlərinin başında duran indiki antitürk diktatorlar yaratmayacaq. Bu Birliyin yaranması üçün sağlam Milli Qüvvələr yetişməli, Türk dövlətlərinin başına keçməlidirlər. Bilirik ki, bu da sadə proses deyil. Bununla belə,

guya dış güclərə qarşı, Türk dövlətlərinin başında duran diktatorları savunmaq gərəkdiyini düşünməyi də yersiz sayıram. Onların işi talançılıqdır, tayfa çıxarlarını ödəməklə hakimiyyətlərinin ömrünü uzatmaqdır. Hərdənbir toplumların gözünə kül üfürmək üçün türklükdən, Türk Birliyindən söz açmaq da yalandır, yalançılıqdır. Toplumlarımızın içində Türkçülük, Türk Birliyinə meyillənən proseslər gedir. Sadəcə bu proseslərə (dövlətlərimizin başında duran diktatorlar) nəzarət eləmək istəyir, özlərini Türklüyün hamisi kimi göstərməyə çalışırlar. Onların buyruğunda olan vətəndaşlar da, sosial şəbəkələrdə gerçək milliliyi düşünənlərə qarşı hədyanlar söyləməklə, aşağılamaqla görüntüləri dəyişməyə çalışırlar.

Vətən heç kimin şəxsi çıxarı üçün qurbanlıq deyil. Axır ki, bunu anlamaq gərəkdir.

*İşıq Ayı, 44-cü il.*
*(may, 2022).*

# Kitaba əkləmə (əlavə)

**I əkləmə:**

## Mütləqə İnam Ocağının Ruhsal Yükləri

Ürəyinizdə Ata Günəşi olsun!

Bizim hər birimizin "Ocaq" adlı bir idealımız var. Ocağın yaşaması, onun ideya-düşüncə sisteminin gerçəkləşməsi – İnsanlığın var olması, birgəyaşayışın ruhsal nizamı, ölçüsü deməkdir. Bu həqiqəti anladığımız üçün gərəkəndən də artıq fədakarlıqlar edir, hər cür çabalar göstəririk. Söz yox, göstərməkdə davam edəcəyik. Ocaq bizim güvənc yerimiz, yaşam ölçümüzdür.

Bununla belə, Ocaq gəlimli-gedimli bir dünyadır. Ocağa əbədi gələnlər, gedənlər olacaq. Bütün gələnlərin qalmasını, sonsuzluğu dərk etməsini gözləmək doğru deyil. Ocaq – Bağımsız Bireylərin Birlik ünvanıdır. Ancaq bu çağacan, izlədiyimiz kimi, hər kəsin gəlib bağımsız olması, Birliyə qatqı verməsi olmur. Olmayacaq da. “Ocaq olmaq istəyən”lər bu Birliyi saxlayacaq, qoruyacaqdır. Bunun üçün Ocağın iç quralları bütün yönlərdə bəlirlənməlidir. Hər kəs də bunu qəbul etməlidir. Heç kim heç vaxt bu Quralları poza bilməməlidir. Qurallara qarşı çıxmaq Dönüklük kimi qəbul olunmalı, kimliyindən asılı olmayaraq, bu istəkdə bulunan adam Ocaqdan uzaqlaşdırılmalıdır. Bu qurallar Asif Atanın ideya-baxışından ayrı bir şey deyil, ola da bilməz. Ona görə Ocağa gələn hər kəs bu quralları qorumağa sorumludur.

Beləliklə, quralları Ocaq anlayışları üzərində aşağıdakı kimi bəlirləyirik ( buna Ocaq təyinləri də deyə bilərik):

**I**

**Ata (Atalıq)** – İnamın, Ocağın böyüyü, ruhsal başçısı, peyğəmbəri, Yolbaşı. Dəyişməz, əvəzolunmaz Ruhsal Yük.

Bu yük **Asif Ata**ya özgündür.

**II**

**Evlad** – Asif Atanın İnamını, Yolunu, Amalını çək-çevirsiz qəbul edən, Ata işinin gerçəkləşməsində umacaqsız çabalar göstərən istənilən bəşər övladı.

Evladlar – Asif Atanın köməkçiləri, davamçıları, xalqla Asif Ata arasında mənəvi körpü yaradan qurucu insanlardır. Onlar Asif Ata ruhaniyyatının öyrətmənləridirlər.

Heç bir Evlad başqasından üstün tutulmur. Mənəvi üstünlük – hər kəsin öz ömrü, çalışmaları ilə yaratdığı nemətdir.

**III**

**Ocaq Yükümlüsü** – Ata işinin ən güclü bilicisi, Asif Atanın 6 ideyasının gerçəkləşməsi üçün nə gərəkdiyini bütün varlığıyla anlayan, buna ömür verən Ocaq Evladı.

Ocaq Yükümlüsü – Amaldaşlarının heç birinə ayrı-seçkilik gözüylə baxmayan, onların doğmalığını, Birliyini yaradıb qoruyan, eləcə də, Ocağın yaşaması üçün Amaldaşlarını yönləndirən, ruhsal buyruqlar verən, onların işlərini dəyərləndirən, alqışlayan (təqdir edən), mənəvi-idraki ucalıqda yaşayan Ocaq Evladıdır.

Ocaq Yükümlüsü Ocağa Evlad qəbul edir, Ocağın tələblərinə tərs yaşayanı Ocaqdan dışlayır. Bunun üçün Ruhsal Bəlgə yazır, onu Ocağa sunur. Asif Ata canlı yaşamadığı üçün onun Ocaqdakı işlərini yerinə yetirir. Ancaq Atanın əvəzi sayılmır.

Mənəvi-idraki keyfiyyətləri, Ocaq quruculuğu qüsursuzdursa, fiziki sağlamlığı olanaq verirsə, ölənə kimi bu yükü daşıyır.

Bu Yük Asif Atanın ölümündən sonra bəlirlənib, çoxluq qəbul etməyib. Soylu Atalı bu yükü öz üzərinə götürüb, onu qəbul edən az sayda amaldaşları ilə Ocağı yaşatmağa girişib. Qəbul etməyən çoxluq sonradan öz aralarında dil tapa bilməyib dağılışıblar. Onların içində az sayda adam, formal olaraq, özlərini Ocaqçı saysalar da, Ocağın tələblərini, Qurallarını yaşadıb qoruya bilməyiblər.

Hələ ki Soylu Atalı İlk Ocaq Yükümlüsüdür. Onun ölümündən sonra bu yükü kimsə öz üzərinə götürəcəkdir. "Yükgötürmə" seçki yolu ilə olmayacaq. Ancaq Amaldaşlarının razılığı olacaqdır. Ölçü isə birdir: Asif Atanın işini ən yaxşı bilən, Ocaqda Birlik, Quruculuq

yaradan Evlad bu Yükə layiq bilinəcək. Bir sözlə, İKİNCİ Ocaq Yükümlüsü qovğasız, çək-çevirsiz işə başlayacaq.

Birinci Ocaq Yükümlüsü özündən sonra bu Yükə layiq olan Evladın adını çəkə də bilər, çəkməyə də. O, öz amaldaşlarına, onların ərdəmlik göstərəcəyinə inanır. Artıq Ocaqda uzun yol keçilib, sorumluluq dərk olunub.

**IV**

**Ruhsal Ailə Yükümlüsü** – Ocaqda yaranan Ruhsal Ailənin Evladlarından biri. O, özü də bu yükə hazır olmalıdır, Ailədəki Amaldaşları da bunu istəməlidir. Əgər hansısa səbəbdən Ailə öz Yükümlüsünü bəlirləyə bilmirsə, Ocaq Yükümlüsü onların arasından birini seçə bilər. Ocaq Yükümlüsünün seçdiyi Evlad səsə qoyulmur, çək-çevir (müzakirə) edilmir.

Ailə Yükümlüsü ən qısa zamanda daşıdığı yükə layiq olmalıdır.

**V**

**Ocağın Ruhsal Təşkilatçısı** – Ocaq Yükümlüsünün buyruqlarının gerçəkləşməsinə kömək edən Evlad. O, Ocaq Yükümlüsünün yardımçısı (müavini) sayılmır. Ocaqda belə bir görəv yoxdur.

Ocağın Ruhsal Təşkilatçısı – bütün törənlərin, toplantıların fiziki hazırlığına görə Ocaq qarşısında sorumluluq daşıyır. Təşkilatçılıq işləri ilə bağlı Ocaq Yükümlüsünü bilgiləndirir.

Ocağın Ruhsal Təşkilatçısı Ocağın istənilən Evladı ola bilər. Bu yükü istənilən bir Evlad könüllü də götürə bilər, Ocaq Yükümlüsünün istəyi (xahişi) ilə də. Asif Atanın sağlığında bu yükü ikinci yol (həm də sonuncu) Soylu Atalı daşıyıb.

Ocağın Ruhsal Təşkilatçısı Amal borclarının yığılmasını, bu yığımın gərəkən yöndə Ocaq işlərinə xərclənməsini "Amal Borcu Gündəliyi"ndə yazır.

Ocaq Törənlərinə, toplantılarına qatılanları "Törənlər Gündəliyi"ndə yazır.

Ocaqçıların gördüyü əməlləri "Ocaq Tarixi Gündəliyi"ndə yazır. Bunun üçün Ocaqçılar gördükləri işlərlə bağlı ona bilgi verirlər.

**VI**

**Ocağın Odqoruyanı** – Öz bölgəsində tikilən İnam Evində xalqla bağlılıq quran, Atanın İnamından soraq verən, o bölgənin insanları ilə İnam Evində, o bölgədəki Ruhsal Ailənin Evladları ilə, ya da Ocaq Yükümlüsü ilə görüş təşkil edən, özü də İnam Evində Ocaq Öyrətmənliyi edən Evlad.

Odqoruyan – həmin bölgədəki Ruhsal Ailənin Yükümlüsü də ola bilər, Ailənin istənilən başqa bir Evladı da.

Odqoruyan – İnam evində Ocaq ədəbiyyatlarının oxunub öyrənilməsi üçün gələnlərə ortam yaratmağa hazır olmalıdır.

**VII**

**İnam Evi (Ocaq Evi)** – Ocaq törənlərinin keçirildiyi, İnsanlaşma öyrətisinin (təliminin) öyrənildiyi ünvan.

Xoşniyyətli hər bir bəşər övladının üzünə açıq olan Qutsal Tikili.

**VIII**

**Ocaq Bayrağı** – Ocağın qutsal simqəsi.

Ocağın törənləri həmişə Bayraq altında keçirilir.

**IX**

**Evladlıq Nişanəsi** – Ocaqçının kimliyini bəlirləyən Ruhsal Bəlgə.

Nişanə qutsal simqə sayılır, yada verilmir, pozulmaqdan, bulanmaqdan qorunur. Ocağın bütün törənlərində Ocağa qaytarılır, Törənin sonunda Ocaq Yükümlüsündən uğurlama sözü ilə geri götürülür.

**X**

**Ocaqçının daşıdığı ad** – onun Ruhsal kimliyi.

Ocaqçı bu adı daşımaqla qürur duyur. Bu ada layiq olmaq üçün Ocağın bütün tələblərinin gerçəkləşməsinə qulluq göstərir.

**XI**

**Ocaq Guşəsi (İnam Evi Guşəsi)** – hər bir Ocaqçının öz evində, Ocaq ədəbiyyatlarından oluşdurduğu, Ocağın varlığını bildirən yer.

**XII**

**Amal Borcu** – Ocağın yaşaması, yayılması üçün hər bir Ocaqçının boğazından kəsib ayırdığı maddi köməklik.

Ayda bir yol, ya da bir neçə ayın borcu biryolluq ödənməklə. Amal Borcunun ödənişi Ocaqçının olanağına bağlıdır, konkret rəqəm tələb olunmur.

**XIII**

**Ocaqçı** – Asif Atanı bütün yönlərdə qəbul edən Ruhsal Evlad.

Ocaq Yükümlüsünün Buyuruğu – Ocaq Evladı, Ocaqçı üçün qanundur; bu qanunun bircə əsası var: "Ocaqçıyam, Ocaq Evladıyam" deyən kəs Dünyanın halına etki göstərmək, dünyanı dəyişmək məqsədi ilə gəlir Ocağa. Buradan aydın olur ki, yalnız böyük ürəkli, ruhani idraklı, güclü milli duyğulu, həqiqətə yiyəlik duyğusu ilə nəfəs alan, mətin insanlar Mütləqə İnam Ocağının Evladı ola, yükünü çəkə bilərlər.

Ocaqçının indiki zaman, bizim günlər üçün formal təyini isə dörd tələbi özündə birləşdirir: 1) Ocaq Ailəsində olmaq; 2) İnam Evini İnamçılığın baş ünvanı kimi qəbul etmək; 3) GenelOcaq Yükümlüsü təsisatını qəbul etmək; 4) Ocaq-Türk abesini bilmək, işlətmək.

**XIV**

**İnamçı** – elmi yalnız elm kimi anlayan – onu dünyabaxış saymayan, bütün "göyel" ("səmavi") dinləri rədd edib, yalnız Asif Atanın (İnam Atanın) yaratmış olduğu dünyabaxış əsasında yaşayan, İnam Atanı öz peyğəmbəri sayan, sevən, Atanın Yazdıqlarını özünə Qutsal Bitiq kimi qəbul edən istənilən vətəndaş İnamçıdır.

Onun ixtiyarı özündədir (Ocaqda deyil). Ocaqçıdan tələb olunan (onu özünün tələb etdiyi) gündəlik ruhsal davranışlar (ibadətlər) – "Təmaslar"ı, "Ricalar"ı söyləmək İnamçıdan tələb olunmur. Bunları eləyib-eləməmək onun öz işidir; eləməyin "savabı" (mükafatı), eləməməyin "günahı", "cəzası"yoxdur. İnamda hər şeyin yiyəsi – İnsanın özüdür – suçlayan da, alqışlayan da.

Ocaq öz yanından – İnamçıların işinə qarışmır, onların konkret addımları üçün heç bir sorumluluq daşımır. İnamçılar öz aralarında nə isə iş birliyi də qura bilərlər. Bunun Ocağa heç bir özgünlüyü

olmaz. İnamçılar öz şəxsi yaşamlarında (toy, vay b.k.), ya qurumlarının işi ilə bağlı Ocağa üz tutduqda Ocaq işə münasibət bildirə bilər.

Mahiyyətcə isə Ocaq İnamçıların and yeridir – genel sözlə desək. İnamçılar mühiti – Ocaqla xalq arasında körpüdür.

**XV**

**Ocaqsevər** – İnamın Dünyaya gəlişi Yurddan başlayır, bizim üçün konkret olaraq Atayurddan (Azərbaycandan – Türkeldən) başlayır. Ölkəmizdə Asif Atanı tanımayan, onu Mütləqə İnam Yaradıcısı – Peyğəmbər kimi bilməyən adam azdlr. Elə təkcə yüksək təhsil ocaqlarında 20 il bu millətə fərqli söz deyib. Dinləyicisi də Onu bir elm adamından çox, bir həqiqət izharçısı kimi xatırlayır. Hansı məktəbə gedirsən, hansı müəssisənin qapısını açırsan!.. Hələ onun Azərbaycan televiziyasında apardığı "Zirvələr" verilişləri silsiləsi!.. Onun Mütləqə İnam harayıyla "Azərbaycanımız – Azərbaycançılığımız" içsəsləriylə açdığı qapılar, dediyi sözlər, etdiyi çağırışlar!.. Ömrünün son 10 ilindəki çoxsaylı mətbuat çıxışları! Əldən-ələ gəzən Kitabları!.. Özündən sonra Ocaqçının  fədakar əməlləri!.. Bu təmas canlı  bir biçimdə davam etməkdədir.

Görünür, bu xalqı artıq bəlli ölçülərdə "İnam Atanın Xalqı" adlandırmaq olar.

Xalqın içində Mütləqə İnam Ocağını yaxından tanıyanlar, bilənlər, sevənlər, təəssübünü çəkənlər var. Ata bunlara qabaqca "Ocaq rəğbətçiləri", sonralar isə "Ocaqsevərlər" deyərdi.

Ocaqsevərlər də İnamçılar kimi Ocaqla Xalq arasında bir aşamadır. Mahiyyətcə Ocaqsevərlərə nisbətən İnamçılar Ocağa daha yaxın toplum qatıdır. Çünkü Ocaqsevərlər, formal olaraq, başqa dünyabaxış daşıyıcıları da ola bilərlər. (Ona görə "formal" deyirik ki, sevgi formal deyil, üzvi, canlı duyğudur)...

Bütün bunlar Ocağın təşkilatca (Qurum olaraq) Quruluşudur – öyrənilməli, yaşadılmalı, Sabaha çatdırılmalı!

**II Əkləmə:**

## Ömür Yolum
**(Ömür üstə)**

***Mən bu yazını Asif Atanın "Atalıq Xilqəti" adlı yazısından ilhamlanıb yazdım, gərəkli bildim.***
***Asif Ata "Atalıq Xilqəti"ni mənim üçün səsləndirmişdi, səs yazanla yazmışdım. Sonradan səsdən yazıya çevirdim.***

### Kəndimiz

Təbiətin ən gözəl guşələrindən biridir kəndimizin yerləşdiyi bölgə. Dağlarla çevrələnmiş, meşənin qənşərində, üzüm bağlarının sonunda, tarlalarla üzbəüz bir təbiət guşəsi. Axşam olanda o qədər zəngin duyğular yaradır ki, adamın halı kədər selinə bürünür. Bəlkə də hər kəsdə bu duyğular yaranmır, ancaq bu kədər mənim kədərim olur sanki. Anlamırdım kədərin gəlişini. Ancaq istəyərdim gəlsin. Çünkü o gəlməsəydi, elə bil nəsə çatışmırdı. Arı böyümüşəm. Ola bilər kədəri yaradan da təbiətin arılığı ilə mənim arılığımın doğmalığı idi.

Axşamlar tez-tez meşəyə gedərdim. Uşaqlıqdan qorxu duyğularım vardı, əsgərlikdən gələndən sonra da qorxu duyğularım qalırdı. Qaranlıqda təklikdən qorxduğum üçün utanırdım. Meşəyə axşamlar tez-tez getdiyim üçün qaranlıq, təklik mənim üçün adiləşməyə başladı. Beləcə ötdüm qorxu duyğusunu.

Fitrətimdə xurafat olmayıb, ancaq halımda, xarakterimdə olub. Öncələr xurafatın uydurduğu əcinnələr meşələri mənə qorxulu edə bilirdi. Ancaq İçimdə qutsallığa bir həsrət olub həmişə.

Sonralar vəhşi heyvanlarla üzləşmək qorxusu belə, meşələrə olan doğmalığıma ziyan vermirdi.

Səhərlər çox sevincli olurdu kəndimizin görsənişi, bu da mənim halımı etkiləyirdi. Yatdığım otağın divarından ağ radiyo asılmışdı. Bircə düyməsi vardı – səs artırıb-azaldan. Verilişləri Bakıdan yayımlanırdı. Hər səhər dövlət himni səsləndirilirdi. Məni çox vaxt yuxudan

bu səs oyadırdı. Radiyonun səsi çox doğmalaşmışdı mənə. Çünkü o məni oyadıb təbiətlə görüşə göndərirdi. Yuxudan doymurdum. Ancaq səhərin gözəlliyi bəzən yuxunu üstələyə bilirdi. Çox hallarda Gün xeyli yüksəlincə yatardım. Oyananda səhərin sehrini gündüzə qarışmış görürdüm. Səhərlərin açılışı hamı üçün oxşar idi, bənzər idi. Ancaq yaranan duyğular fərqli idi. Heç bir gün o birini təkrar eləmirdi. Görünür, məni Ocağa gətirən bir cəhət də bu fərqli duyğular idi.

Çox sevirəm kəndimizi. Qonşuluqda gürcü kəndi var. O da mənə yad deyil. O olmasaydı, bəlkə də kəndimizin təbiətə qovuşmasında nəsə çatışmazdı. Adamları yaddır. Ancaq kəndlərin özü, təbiətə qovuşmağı, uca ağacların arasından boylanması təbiətin ülviliyini əks elətdirir.

O çağkı hökumət kəndimizin adını dəyişdirmişdi. Bu addəyişmə mənim doğuluşumdan qabaq baş vermişdi. Sonralar anlayanda pis etkilənirdim. Kəpənəkçi adının Kvemo-Bolnisi kimi dəyişdirilməsi varlığın qutsal tələblərinə xəyanət idi. Doğrudur, heç kim kəndimizin yeni adını dilə gətirmir. Əzəli Kəpənəkçi adı ürəklərdə bitib – sazlı, sözlü Kəpənəkçi, dağlı, aranlı Kəpənəkçi.

Kəpənəkçidən azca aralıda yerləşən, doğulub böyüdüyüm Talıflı Kəpənəkçinin bir parçasıdır. Ayrı görünsə də, sovetliyi də birdi, xeyrişəri də. Ortalama 60-70 ev olar Talıflı. Burada mənim soyköküm, soyum yaşayır. Kəpənəkçidə belə soylar çoxdur, ancaq Talıflı kimi ərazisi ayrı deyil. Talıflı ilə Kəpənəkçinin arasından çay axır. Talıflı Kəpənəkçidən yüksəklikdədir. Talıflının, Kəpənəkçiyə doğru, aşağı sonluğunda yarğan uzanıb gedir. Yarğanın solunda enəcək (maşın yolu) var...

## Rayonumuz

Rayonumuza Bolnisi deyirlər. Toplumunun tərkibinə görə, doğrudan da, "Bolnisi"ləşib. “Bolnisi” gürcü ağalığının qoyduğu addır. Ancaq onun adı Bolusdur (bol su anlamı daşıyır). Bolus Borçalının ikinci mərkəzidir. Kəndimizdən Bolusa gedən yol hündür dağların, sıx meşələrin arasından burulub keçir – enişli-yoxuşlu asfalt yolu. Rayonumuzla kəndimizi "Yeldağı" adlanan uca bir dağ ayırır. Dağların

başında yerləşən, yaylaqlar rayonu olan Başkeçidin yolu rayonumuzdan gəlib keçir. Bu yol ilə Tiflisə də getmək olar, Bakıya da.

**Borçalımız**

Çox məşəqqətli aqibəti olub Borçalımızın. Sədd çəkiblər Azərbaycanla Borçalının arasına. Azərbaycanın sağı kəsilib – sinəsinə dağ çəkilib Borçalımızın. Yağıya tapşırılıb Borçalımız. Özününküləşdirib yağı Borçalımızı – Qeyrət diyarı, Qüdrət diyarı, Hünər diyarı olan Borçalımızı.

Əzəli Türk diyarıdı Borçalımız. Əzəli Türk adıdı “Borçalı”. Türkün tənhalığının, yenilməzliyinin rəmzi olan "qurd" sözünə bağlı yaranıb “Borçalı” toponimi. "Börüçala" – “qurd yuvası” anlamındadı. Borçalımızın sazçılığı var dünyaca haraylanan. Türk birüzlülüyünün, əyilməzliyinin, döyüşkənliyinin ruhunu çalır Borçalımız öz sazında. Koroğlu döyüşkənliyi yaşayır Hüseyn Saraclı nərəsində. Qərib yerişi, Qərib gəlişi, Qərib yanğısı var, – Kamandar Əfəndi harayında. Borçalının həsrəti, kədəri qovrulur, yenilənir Xındı Məmməd zəngulələrində. Babəkimin, Dədə Qorqudumun, Fizulimin, Zərdüştümün çağırışı haylanır – Əmrah Gülməmməd səsinin qədimliyində. Dağ Borçalı, Başkeçid, Bolus, Borçalı, Qarayazı qəribliyi, ayrılığı, hiddəti birləşib saz sehrində, ecazında, cəzbində.

**Meşələrimiz**

Ağac-ağac, budaq-budaq çıxmışam. Qarış-qarış gəzmişəm, yarpaq-yarpaq tanımışam meşələrimizi. Dağların qardaşıdı, düzlərin sirdaşıdı, Dərələrin qaş-daşıdı meşələrimiz. Ağaclar bir-birinə çox doğma bitib. Çox yerlərində gəzmək çətin olur. Quşların cəh-cəhi insanları doğmalığa çağırır. Budaqlarda oturub insanlara sevgi nəğmələri oxuyur quşlar. Özlərini meşələrin yiyəsi kimi aparırlar. Meşələr quşların anası kimi görünür. Təbiətin bakirəliyidi meşələrimiz, körpəliyidi, qədimliyidi. Saflığıdı, aydınlığıdı.

**Dağlarımız**

Talıflı arxasını Dağlara söykəyib. Qəribə düzülüşü var Dağlarımızın. Heç yerdə bir-birindən ayrılmayıb, qol-qola, baş-başa veriblər. Xırda dağlara təpələr deyirik – Kollutəpə, Ortatəpə, Uştəpə (Uctəpə).

Ən uca dağlara də təpə deyirlər kəndimizdə. Dağlar yaylağımıza deyirlər.

Evimizin arxasında, başında böyük qaya olan, uca bir Dağ var – adına "Emin Ağanın Qayası" deyirik. O Qayanın üstündən baxanda kəndimiz lap adamın qarşısında görünür. Dağ kəndimizə özəl yaraşıq verir, kəndimizə çox doğmadı. Ancaq bu doğmalığı duyan adam çox azdı. Qarağzoy təpələri əlindən tutub elə bil bu Dağın. Dağın sağında da, qarşısında da uca Dağlar var.

Qayaya Doğmalaşmışdım, ona görə də Dağın başına tez-tez çıxardım. O Qayanın başında adam özünü vüqarlı sayır, fərəhli duyur. Ucalıqdan baxanda Dünya gözəl görünür.

Evimizin arxasından iki yol gedir Dağlara sarı. Biri Kilsəli Yolu adlanır, o biri Yuallı (Yuvalı) Yolu.

**Güneylərimiz**

Güneylərə baxdıqca elə bil qollarını açıb qucağına çağırır adamı. Böyükgüney üzü Talıflıya doğru baxır. Adamlarımız mal-qara otaranda yamaclarda mahnı oxuyardılar, səs Talıflıda eşidilərdi. Arası 1 km olar.

Böyük Güneyin qarşısında Nəzikgüney yerləşir, aralarında dərə var. Sağında Bulaqlı Dərəsi, solunda Yemşənli Dərəsi. Arxası Faxralı kəndinin ərazisinə düşür.

**Quzeylərimiz**

Quzeylərimiz sıx ağaclarla örtülüdür. Zirvələrə qalxan yolları görünməz eləyir. Qılıcda yeriyən adamların yerişlərini görmək olmur. Hara yaxındır, hara uzaq, – bilinmir. Qıraqdan baxanda çox sirli görünür. Gəncliyimdə çox gəzirdim. Cığırlarını axtarırdım, Zirvəyə diklənirdim. Zirvəyə çatınca heç yeri görmürdüm, adam sehrə düşürdü elə bil. Çox doğma idi – sehrli Doğmalığı vardı.

**Bulaqlarımız**

Yayın istisində dadımıza çatırdı bulaqlarımız. Sərin olurdu. Boğazbulaq, İylibulaq, Yemşənli bulağı, Bulaqlı bulaqları. Sonralar bir çoxu qurudu.

Ağacların kökündən sızır, göz yaşı kimi dupduru olur. Səxavətlə paylayırdı suyunu. Quşlar da ondan içirdi, adamlar da, meşənin heyvanları da, otlamaqda olan ev heyvanları da.

**Çayımız**

Lok dağlarından başlayır, meşələrin, dağların arasından dolanıb gəlir, kəndimizin önündən keçir Çayımız. Yazda coşğun olur, daşıb hər yanı basır.

Yarğanın dibiylə axır, kəndləri kəndlərə bağlayır.

**Bağlarımız**

Hər iki yandan üzüm bağları ilə çevrələnib Talıflı. Bu bağlar Sovxoza özgün idi. Çoxlu xatirələrim var. Üzümlər yetişəndə içinə girmək olmurdu. Qarovulçusu var idi. Üzümlər dərilən kimi azadlığa çıxırdı bağlarımız da, insanlarımız da.

**Bağçamız**

Çoxlu ağaclar əkmişik Bağçamızda. Suvarardım ağacları. Vedrə ilə arxdan daşıyırdım suyu. Anam deyərdi, özünü yorma, bar verməyən ağacları suvarmamaq da olar. Qıymırdım. Ağaclar barlı da gözəl idi, barsız da.

**Evimiz**

İki yandan qonşu ilə çevrələnib, iki yandan tarlalarla evimiz. Balaca kəndimiz Talıflının sonunda yerləşir evimiz – meşələrə, dağlara da yaxındır, bağlara da. Yaxınlığından arx axır. Böyük həyətimiz var.

## Atam

Atam köhnə türk kişiləri kimi əzəmətli, ucaboylu, itiyerişli, baxışı vüqarlı olan bir kişi idi. Çox gur səsi vardı. Meşədə kimisə çağıranda səsinin zili dağlarda əks-səda verirdi.

Döyüşkənliyi, qorxmazlığı vardı, ölümün üstünə yeriməyi bacarırdı. Ailəsevər idi. Möhtəşəm olduğu dərəcədə kövrək idi. Üzdən soyuq görünərdi, zəhmli idi. Ancaq çox incə duyğuları vardı. Sevgisini nümayiş etdirməzdi. Kədərini də gizli saxlayardı. Onun varlığı ailəmizə özəl nikbinlik verirdi.

Ocağa yanaşması atamla aramızda bir az uzaqlıq yaratdı. Ancaq sonralar anlamağa başladı, mənə çox inanırdı.

## Anam

Çox sevirdim anamı. Ərinə ana olmağı bacarırdı. Ancaq həm də zabitəli qadın idi. Hikkəli olması bəzən münasibətlərə ziyan verirdi.

Məni çox sevərdi, özü yeməzdi, mənə yedizdirərdi. Boyumu öyə-öyə sevərdi. Əsgərlikdə harda oldum, dalımca gəldi, ayrılanda göz yaşıynan ayrılırdı.

Ucataya, Ocağıma münasibəti yaxşı deyildi. Ona görə aramızda uzaqlıq yaranmışdı anamla. Ancaq sonralar anlayışla yanaşdı.

Yaşlı çağında xəstələndi, çox əziyyət çəkdi, çox əziyyət verdi. Ancaq yenə də onda ana gözəlliyinin çox çalarları yaşayırdı...

## Qardaşım

Həyalıdı, mərifətlidi, ancaq həm də qaraqabaqdı. Üzündə atamın cizgiləri var. Qocaqlığında atamın qoçaqlığı var. Hər iş əlindən gəlir. Zəhmətkeş, qayğısevər kişidir qardaşım İsaxan.

## Böyük Bacım

Anam kimi olub mənə, anam kimi bəsləyib məni. Əliaçıq, ürəyiaçıq Türk xatınıdı bacım. Səbrlidi, təbiidi. Gənc oğlunu itirdi, kədərində oynamadı. Kədər onun varlığında bütün gözəlliyi ilə üzə çıxmışdı. Çətin günlər böyütdü Çəmən bacımı.

**Samaya bacım**

Həyalıdır, ağır təbiətlidir. Atasevər, anasevərdir Samaya bacım. Atasını, anasını hamıdan çox istəyir. Atamın balalarının içində bu xisləti ilə hamımızdan fərqlənir. Oğlanlarını çox tərbiyəli böyüdüb. İşgüzar qadındı. Bacarıqlıdı. Atamın cizgiləri var üzündə.

**Səneyvər bacım**

Əliəyrilik bilməz, qəlbiəyrilik bilməz. Saf, zəhmətkeş, səliqəsevər bir qadındı. Canı çox ağrılı keçib, heç vaxt zarımayıb, dərdini bildirməyib. Heç kimə ağırlıq vermək istəməz. Aylarla anamızın zəhmətini çəkdi, balasına analıq edən kimi anasına analıq elədi, özü xəstə ola-ola...

**Tamam bacım**

Bacılarımın ən qoçağıdı. Kişi kimi çalışqandı. Saf, doğma balaları var. Balalarının qədrini bilən anadı. Atama çox kömək edərdi gəncliyində, atamın çox işlərini aşırardı.

**Çiçək bacım**

İstəklidi. Atam nazıynan oynayardı. Makka deyirdi adına. Göyçəkdi. Üzündə atama da, anama da oxşarlıqları var. Gəncliyində hamımız çox istəyirdik onu, sonbeşiyimizdir. Qızları da özünə oxşayır – ağıllı, göyçək. Ona Çiçək adını mən qoymuşam.

**Atababam**

Qeyrətli kişi olub babam – əsil Türk xisləti var idi onda. İkinci Dünya savaşında olub, faşistlərlə döyüşüb yaralanıb.

Zəhmli, ortaboy, çevik, zirək bir kişi idi babam. Həm də çox işgüzar idi.

Qocalanda üzünü həmişə mən qırxardım, əl-üzünü yuyardım. Bütün bunları təbii qəbul edərdi babam. Minnət eləməzdi, xüsusi təşəkkür eləməzdi. Ancaq içində minnətdarlıq vardı, sevirdi məni.

Mən Bakıdan gedəndə uşaq kimi sevinərdi. Sevincini nümayiş etdirməzdi, üzündən görünərdi sevinci. 76 yaşında öldü. Atam çox istəyirdi babamı. Çox ağladıq babam öləndə. Asdan idi adı.

## Atanənəm

Nəvəsevər idi nənəm. Nəvələrini balalarından çox istəyirdi. Anam böyük gəlinidi, həm də bacısının qızıdı. Həm sevirdi anamı, həm də döyüşürdü. Anamın ciddiliyinə tabe olurdu. Kinli deyildi, küsülü qala bilmirdi.

Çox əliaçıq idi nənəm. Yaxşı xəngəl bişirərdi, halva çalardı.

Nigar idi adı.

## Anababam

Sanballı kişi idi. El içində sayılan, sayğı bəslənilən ağsaqqal idi. Kinoya baxmağı çox sevərdi. Uzun illər meşəbəyi olub. Meşədə evi, yaxşı ortamı olub. Dağların qoynunda olub həmişə. Ona görə də sağlam olub.

Babamın adı Hümbətdir.

## Ananənəm

İşgüzar qadın idi. Balalarını zəhmətiylə böyüdüb. Çoxlu mal-qara saxlayıb. Dağlar qoynunda çox olub. At belində çox gəzib. Arandan dağa atnan gedərdi. Çiynində tüfəng gəzdirərdi. Eşitdiyimə görə sərrast atırmış.

Anası Anadolu qızı olub nənəmin. Adı Tükəzban idi.

## Uşaqlığım

Türkelə bənzəyirdi uşaqlığım. Tərbiyəli idim, yaxşı oxuyurdum. Üzüyola idim. Anam çoxlu toyuq, hinduşka saxlayardı. Cücələri çox olardı. Bir yana gedəndə mənə tapşırardı. Çox məsuliyyətli idim. O gedib gəlincə cücələrin arasında olardım, yemliyərdim, qoymazdım birinin burnu qanasın. Bacılarıma tapşırıb gedəndə rahatsız olardı anam. Qayıdanda bir neçə itkisinin olduğunu görərdi, hirslənərdi. Bacılarımın öhdəsinə buraxanda nəsə almağı vəd eləyərdi ki, məsuliyyətlə baxsınlar. Əlacsız idi, çünkü mən məktəbdə olardım. Mənə heç nə vəd eləməzdi, çox inanırdı mənə.

## İlkoxul məktəbim

İlk dəfə məktəbə gedəndə sevincimin həddi yox idi. Kimsə məndən ayın tarixini soruşanda fərəhlənirdim. Düşünürdüm ki, artıq böyümüşəm. Uşaq olmaq istəmirdim. Məktəbimiz lap yaxın idi. Evimizin qabağındaydı. Üçüncü sinfə qədər burda oxuyardıq. Üç sinfin üçü də bir otaqda. İki müəllimimiz vardı. Biri hər şey müəllimi, o biri rus dili müəllimi.

## Orta məktəbim

Orta məktəbim Kəpənəkçidə idi. Talıflıdan Kəpənəkçiyə ayaqla gedərdim 3 km yolu. Çaladan çayı keçib gedirdik. Çox vaxt çay daşardı, məktəbə gedə bilməzdik. Bəzən qonşumuz gəlib uşaqları bir-bir atın belində keçirərdi çayın o üzünə. Sevinərdik, ancaq geri qayıtmaq problem idi. Çoxları geri qayıtmağın çətinliyindən məktəbə getmirdi. Çoxları isə Kəpənəkçidə qohum evlərində qalardılar. Bacım Çəmənin evində qalardım mən də. Çay sakitləşəndən sonra gələrdim evə.

İlk vaxtlar məktəb mənim üçün çox yad idi. Bu yadlığı da ilk andaca tarix müəllimi yaratmışdı. 4-cü sinifdə SSRİ tarixi keçirdik. Müəllim çox yüngül xasiyyət idi. Lağ-lağı eləyərdi. Bir dəfə məni dizi üstə oturdub. İlk dəfə özümün özümdən zəhləm getdi. Duyğuma çatdı ki, bu halımdakı mütilikdən soraq verir. Mütiliyi dərk eləməsəm də, duyğularıma çatırdı. Müəllimə nifrət elədiyim dərəcədə özümə nifrət elədim. Onun dərsini öyrənə bilmirdim. Öyrəndiyimi də unudurdum. Tarix qədər zəhləm gedən ikinci bir fənn olmadı. Ancaq gələn dərsdən içimdəki hala qarşı imtina yaratmağa başladım. Etirazım dərsə girməməkdən başladı. Ömrümdə həmin gün keçirdiyim qədər həyəcanım olmayıb. Elə bilirdim hamı mənə gülür, ağaclara da şübhəylə baxırdım. Utandım öz-özümdən. Özümə sığışdırmırdım. Gələn dərsdən tarix dərsini əzbərləməyə başladım. Hərçəndi 5-ci sinfin 2-ci yarısına qədər mən tarix fənnindən 3-dən artıq qiymət ala bilmədim. Ancaq 4-cü sinifdə qocaman bir ədəbiyyat müəllimim də var idi. Çox doğma idik. İlkoxul məktəbimizdəki rus dili müəllimimin qardaşı idi. Bizdə ədəbiyyata qarşı sevgi yaradırdı. Bu müəllimin etkisi ilə ilk dəfə 4-cü sinifdə şeir yazmağa başladım.

Sonralar məktəbə bir az isinişdim, bundan sonra axıra kimi də yaxşı oxudum. Bəzən 4-üm də olurdu. Ancaq çox hallarda əlaçı oxudum.

Ancaq müəllimlər mənə dərsdən başqa heç nə verə bilmədilər. Hamısı maaş üçün gəlirdilər. Məktəb mənə buxov idi. Dərsdən çıxanda azad olurdum, qaçırdım təbiətin qoynuna.

**Naxırçılığım**

Uşaqlıqda mal-qaramızı özümüz otarardıq. Məhlə uşaqları ilə birgə. Evdən özümüzlə torbada yemək-içmək götürərdik. Meşədə inəkləri bir yerə qatardıq. Meşənin dərinliyinə – dağların döşünə qaldırardıq, aşağıda oynayardıq. Dərənin qaşında qədim alban kilsəsi var, yağış yağanda kilsəyə girərdik. Mürdəşə, ya zoğal ağaclarından çubuq kəsib nazlı-buzlu eləyərdik: çubuğun qabığını bütöv şəkildə soyardıq, sonra çubuğu qaşıyıb ağardardıq. Qabığını qıyğacı özünə dolayıb tonqalda qızdırardıq. Alovun dəydiyi yer qızarıb qaralırdı, qabığın tutduğu yer isə ağ qalırdı. Bu da olurdu nazlı-buzlu. Sonra çubuqlardan qılınc düzəldərdik. İki dəstəyə bölünüb "qılınc davası" oynayardıq. Çubuq bədənin bir yerinə dəyirdisə, o, yenilmiş sayılırdı. Mən ən yaxşı döyüşən uşaq idim. “Düşmən” dəstəni yenərdim. Axırda dəstənin başçısıynan döyüşməli olurdum. Başçılar yaşca bizdən çox böyük idilər.

Sonra gizlənpaç oynayardıq. Ağacların başında yarpaqların arasına gizlənərdik. Günümüz necə keçdi bilməzdik. Çox şən idik...

**Gəncliyim**

Mən 7-8-ci siniflərdə oxuyanda atam qoyun saxlamağa başladı. Anlayırdım atamı, qazanc dalınca Rusiyaya getməkdən bezikmişdi. Qoyunlarımızı çobana qatmazdıq, özümüz otarardıq. Qardaşımın zəhləsi gedirdi heyvandarlıqdan. Ancaq atamın qabağından qayıtmırdı. O vaxtlar mən quzuları otarardım. Səhər məktəbə gedərdim. Məktəbdən gələn kimi çörək yeyib meşəyə, dağlara yollanardım. Günortaya qədər quzuları qardaşım, bəzən də anam balaca bacımla birlikdə otarardılar. Günorta mən onları dəyişirdim. Kitablarımı bir torbaya doldurub atardım arxama, quzuları otaranda dərslərimi hazırlayardım. O vaxtlar mənim ünsiyyətim daha çox təbiətnən,

quzularnan idi. İki ildən sonra qoyun saxlamağın çətinliyi, atamın dayısı oğlunun öldürülməsi sürünün satılması gərəkliyini ortaya çıxardı...

## Yaylağımız

Başkeçiddən çox yuxarıda yerləşir yaylağımız. Ucsuz-bucaqsız düzlər, silsilə dağlar, dərələr. İndi o yerlərin adını çəkəndə həsrət qovrulur içimdə. Kədər sarınır qəlbimə. Hər yurdun öz adı var, çox yurdlarda olmuşuq. Axçalı Dərəsi, Xımı Qalası, Noyça Bulaq kimi yurd yerlərimiz olub. Yaylağı gəzmişəm qarış-qarış. Gəzməkdən yorulmazdım. Çox mənzərəli, səfalıdı yaylağımız. Ölüb qalmalı yerlərdi – Yastıqar, Əyriqar, Sənəkuçan, Safdərə, Qoşabulaq, Dəlidağ, Qoşadağlar, Yazılıbulaq, Qaraarxac. Mən uşaq olanda anamgilin getdikləri Qaraxaç yurdu, ordakı Sandıqbulaq, Sayabulaq, Qayalıbulaq (xatırlamıram, ancaq deyirlər qayanın içindən axır su), Kürbulaq. (Qaraxaç yaylağından xatırladığım yerlər yoxdur, o vaxtlar mən uşaq olmuşam. Sonrakı yurd yerlərimizdə isə hər yeri tanıyıram).

Yaxşı zəndim vardı, çəndə yolu düz tapardım. Ancaq bir dəfə uşaqlıqda azmışam. Sıldırım qayalıqlardan, dərələrdən yol tapıb çıxa bilmirdim. Çağırırdım eşidən olmurdu. Elə bil o yaylaqda məndən başqa heç kim yox idi. Kövrəldim, başladım ağlamağa, qorxuya düşmüşdüm. Sonra yaxın binələrdən bir cavan oğlan məni tapdı. Apardı dəyələrinə. Çay-çörəyə qonaq elədilər, doğma münasibət göstərdilər. Ancaq darıxırdım öz məhləmiz, dəyəmiz üçün. Məni həmin oğlan yastıqarın yanından məhləmizə doğru ötürdü. Çən çox qatıydı, buna el arası "kor çən" deyirdilər. Getdikcə anlaşılmaz səslər eşitdim. Yaxınlaşıb gördüm, dəyələrimizin lap 20 metrəliyindəyəm. Sonralar istəmirdim azım. Ancaq azdığım o günə içimdə bir həsrət qalırdı.

Qız-gəlin, böyük-kiçik hamımız yığışıb Safdərəyə gedərdik. Bu səfər uzaq səfər sayılırdı. Ona görə də evdən yemək-içmək götürərdik. Səhər gedərdik, bir də axşam qayıdardıq. Qayıdanda özümüzlə çoxlu gül-çiçək yığıb gətirərdik. Çoxlu kəkotu yığardıq. Çox sevirdim kəkotu dərməyi. Ətri adamı məst edirdi.

Aylı-ulduzlu axşamlarda dərələrdən uzaqlaşardım, tənhalaşardım. Yaxşı duyğularım yaranardı, sonra qayıdıb şeir yazardım. Qaranlıqda dəyələrin düzülüşü, içəridən zəif görünən lampaların işığı əməlli-başlı sehr idi. Sehrlənirdim, halımı heç nə ilə ifadə eləyə bilmirdim. Duyğularımı gizliyirdim, solurdu duyğularım, sonradan yenə dolurdum, hal böyüklüyünə çatmırdım, çünkü İnam, İdrak gərək idi.

## Saz sədası

Bir dəfə atam yaylağa özünün vilis maşınıyla gəlmişdi. Maşında oturub radiyonu açdım. Əmrahla Kamandar deyişirdilər. Dəhşətli qəribsədim, elə darıxdım ki. Sinəm alışıb yanırdı. Ağacsız yaylaqda ağaclardan ötrümü darıxırdım?! Elə hesab elədim ki, aran üçün darıxmışam. Bəlkə də adiləşdirirdim halımı. Aldadırdım özümü. Qərib olduğumu, doğma Borçalımda, doğma yaylağımda qürbətdə olduğumu özümə deməyə cəsarət eləmirdim. Əslində Türk ruhu çalınırdı kədərimdə. Müqəddəslik həsrəti axırdı halıma. O çağlar Mütləqilik ağlıma çatsaydı, sarsılıb özümü itirərdim.

Kamandarın Dübeytisi əlimdən tutub Dağların lap zirvəsinə qaldırırdı, bu halı heç nə ilə ifadə eləyə bilməzdim. İlk dəfə anladım ki, Dübeyti elə Dağların başında yaranıb. Dörd divar arasında, stol arxasında Dübeyti yaratmaq mümkün olmazdı.

Türk sazını yol üstə yaradıb. At belində çala-çala, döyüşə-döyüşə yaradıb. Döyüşünü, yerişini, göz yaşını, sevgisini, yalvarışını sazda çalıb. Harayını, Hiddətini sazda çalıb. Sazda yaşayıb Türk – ona görə sazı yaşadıb. Təbiətlə saz fitrətimə müqəddəslik yazıb elə bil.

Bir dəfə anam dedi: – beşiyini yırğalayırdım, aşıq mahnısı oxuya-oxuya. Şirin-şirin yatırdın, səsimi kəsən kimi gözünü açırdın. Yoruldum mahnı oxumaqdan. Sonra birdən radiyoda saz havaları verdilər, düşündüm ki, yaxşı oldu, məni əvəz eləyər. Ancaq yatmadın, durub oturdun, başladın qulaq asmağa. Hər halda, sən qulaq asınca mən işlərimi gördüm.

Bilirəm ki, beşiyimin başında çalınan saz aqibətimə çevrilməyə bilməzdi. Təbiəti çalırdı saz – Dağları, düzləri, meşələri. Təbiət özü saz çalırdı. Dağlar Dübeyti çalırdı, meşələr Ruhani çalırdı. Böyük yaşda ikən layla çalırdı mənə meşələr, Dağlar. Dağlara qalxdıqca

qəlbimin döyüntüləri artırdı. Yoxuşun yaratdığı təngnəfəslik döyüldü bu. Sağlam, çevik idim. Dağı yaxşı dırmaşırdım. Dağ halıma yeriyirdi, qəlbimdə saz çalınırdı. Sazın səsiydi qəlbimdə döyünən. Başlayırdım mahnı oxumağa. Oxuyanda gözlərim yaşarırdı. (İfadə eləyə bilmədiklərim içimdə yığılıb qalmışdı). Ona görə yanımda kiminsə olmasını arzulamırdım.

Həmişə sazın səsini axtarmışam. Harda saz səsi eşidirdim, ora qulaq kəsilirdim. Kəndimizdə bir aşıq vardı. Onu görəndə sevinirdim, elə bil allahımı görürdüm. Duyğularımı heç kimə demirdim. Özünü tanımırdım, sonralar bildim ki, içki içir, saz çalanda yersiz zarafatlar edir. Acılı duyğular keçirdim, ancaq aşıq olduğu üçün doğmaydı mənə.

Sonralar sazı içimdə sevdim. Təbiətləşdim Sazda.

**Muğam çağırışı**

Muğamı anlamazdım, adi dinləyərdim. Borçalıda muğamı dinləyən indi də azdı. Saz üstələyir muğamı. Çox sonralar anladım, sazı muğamdan ayırmaq ruhun bütövlüyünə göz yummaqdı. Bir sözlə, saznan o qədər dolmuşdum ki, muğama yer qalmamışdı içimdə. İlk dəfə Dağın başında radiyoda dinlədiyim Segah kövrəltdi məni. Bulaqlı Dərəsindən yamaca diklənirdim. Teymur Mustafayev oxuyurdu. Segahın ecazı halımı sehrləmişdi. Məni bu haldan, ayağımın yanından sürüşüb qaçan ilan ayırdı. Ancaq seygahıya elə doğmalaşmışdım, ilandan qorxunu çox tez unutdum.

Sonralar muğam mənə Qədir Rüstəmovun, Rübabə Muradovanın ifasında doğmalaşmağa başladı. Sazı sıxışdırmırdı içimdən. Saz özü də çəkilib muğama yer vermirdi. Qəlbim özü böyüyürdü, muğam özü böyüdürdü içimi. Muğam mənim içimdə Ocaqda bütövləşdi. İndi mənim üçün Muğamla Saz Ruhun qoşa qanadlarıdı. Qanadın birini daha çox dinləsəm də.

**Yolçuluğum**

İlk dəfə ayaqla uzaq səfərim 14-15 yaşlarımda olub. Mal-qaranı, qoyun-quzunu yaylağa aparırdıq. Mən ilkoxul müəllimimlə mal-qaranı, atamgil isə qoyun-quzunu aparırıdıq. 15 km-ə qədər yolu

meşənin içiylə getdik. İnəklər dərəyə enərdilər, qaçırdım dallarınca. Hava qaralanda Səfərli çalasına çatdıq. Yemək yeməyə əyləşdik. Çayın qırağı, uca ağacların altı, axşam. Rəssam olsaydım gözəl bir əsər yaradardım. Ancaq gözlərimə köçürdüyüm içimə endi, ömrümdə qaldı. Durub yola düşdük. Bir xeyli gedəndən sonra yoxlayıb gördük, kalçanın biri yoxdu. Atam bərk hiddətlənmişdi. Elə düşünürdü, Səfərli kəndinin içində qarışıqlığa salıb oğurlayıblar. Əlində yekə bir çomax vardı, kəndin kişilərini hədələyirdi. Əgər tapılmasaydı bilirdim ki, kənddə dava-dalaş baş verəcəkdi. Atam sataşmağı asan qəbul eləməzdi, bir kalçanın əvəzinə 10 kişini girov götürərdi.

Bacımın qaynatası Vəli kişi Volqa maşınıyla, qardaşım isə öz maşınımızla bizi izləyirdilər. Maşınımız yüklü idi. Atam bacımın qaynatasıyla qayıtdı dala, tüfəngi özüynən götürmüşdü. Bəlli oldu ki, kalça körpünün bir qırağında çox da dərin olmayan uçuruma uçub, çıxa bilməyib. Atamgil Volqanın baqajında gətirdilər kalçanı. Səhərə kimi yol getdik. Maşınların hərəkətinə mane olmamaq üçün malqaranı yolun qırağına sıxırdıq. Bərk yorulmuşdum. Eşşəyə minmişdim, yuxu tuturdu məni. İlkoxul müəllimim tək qaçırdı dala-qabağa. Mən ona artıq kömək eləmirdim, heyim qalmamışdı. Hərdən bir deyinirdi müəllimim. Artıq təbiəti də görmürdüm, gecəni də görmürdüm. Təbiəti acıq əvəz eləmişdi – bu yersiz əzab-əziyyətdən zəhləm getdi. Gecə nə gözlərimdə vardı, nə də halımda. Əhvalım tamam qarışmışdı. Birdən-birə dəhşət məni bürüdü. İnsan necə boş-boşuna yaşayır. Bu cür vaxtsız ölmək də mümkündür. Bu düşüncələr yuxumu dağıtdı, eşşəkdən düşdüm. Sərin meh əsirdi. Səhər yaxınlaşdıqca özüynən ümid gətirirdi, doğma əhval yaradırdı. Əhvalım durulmuşdu. Qəlbim elə coşurdu, elə bildim uzaqda kimsə saz çalır. Ucadan mahnı oxumaq istədim, utandım, astadan zümzümə eləməyə başladım. Artıq şose yolunu çıxıb qutarmışdıq. Daha doğrusu, şose yolunun sağı, solu böyük düzənlik idi. Nə gəlib-gedən maşınlar bizə mane olurdu, nə də biz onların hərəkətinə. Bu yol üzü Armudlu Gölünə, onunla yanaşı olan Armudlu kəndinə doğru çıxırdı. Bu gölə biz Buğa Gölü də deyirik. Bu göl, bu kənd artıq yaylağın başlanğıcıdı.

Səhərin gəlişini hündür bir qayanın üstündə oturub seyr eləməyə başladım. Mal-qara, qoyun-quzu otlayırdı. Qaranlığın əzabla yarılması, işığın getdikcə daha çox səpələnməsi, ulduzların yavaş-yavaş görünməz olması dəhşətli sehr yaradırdı, sehrlənmişdim. Ürəyim döyünürdü. Bir də gördüm, nə mal-qara var, nə qoyun-quzu, nə də heç kim. Onlar da o qədər yorğundular ki, məni də unudublar. Durub dallarınca qaçmağa başladım. Gölün qırağında dayanıb dincəlirdilər. Hava tam işıqlanmamışdı... Arxası üstə uzanıb gözlərimi göyə zillədim. Beləcə xəyallar içində yuxuya getdim. Yorğun olanda çox ağır yatardım, heç nədən xəbərim olmazdı. Birdəm atamın zil, nərəli səsi elə bil lap qulağımın dibində gəldi. Başımı qaldırdım ki, xeyli yolu dikləniblər.

Bulaq başında əyləşib çörək yedik. Sonra yola düşdük. Artıq yüksəklikdə yurd yeri görünürdü, ortalama 10 km qalmışdı. Ancaq daim yüksəkliyə gedəcəyik. Yurd yerini çən, duman bürümüşdü. Çən-duman yaraşırdı Dağa. Sirr yaradırdı – sehrləyirdi adamı. Çox keçməmiş Qoruğa çatdıq. Qoruğa ziyan verməmək üçün tez-tez getməliydik. Qovhaqov, qaçaqaç. Bu duyğular hara, o sehr, sirr hara, bu qovhaqov hara. Təzad təşkil edirdi. Dərəyə çatanda xoşbəxtlikdən qoruq qurtardı. Qoruqçu da atın belində bizi izləyirdi. Təbiətdən faydalanmaq təbiətə münasibətə necə də ziyan verir. Bu mənim o vaxtlar duyğularıma çatırdı – faydalanmaq yadlıq yaradırdı. Dərəni çıxandan sonra Yastıqar göründü. Ürəyim elə atlanırdı ki. Qulağıma mahnı səsi gəlirdi. Dərənin o tayında bulaq başında yeyib-içirdilər. Saz da çalınırdı. Ancaq sazın səsi gəlmirdi. Mahnı da çox tutqun – gah eşidilirdi, gah eşidilmirdi. Ancaq oxuyanın “Çulğalayıb dumanları, Veribsiz baş-başa Dağlar” beytləri lap aydın eşidildi. Yaxşı avaznan oxuyurdu.

Biz yaylağa – yurd yerinə çatanda axşam olurdu...

### Qonşularımız

Evimiz 5 evə yaxın qonşudu. Ən yaxın qonşumuz Ucatayın atasıgil, bir də əmisigildir. Qonşularda yadlıq da var, doğmalıq da. Bir xoşagəlməz olay olanda tökülüşüb gələrdilər, dərdimizə ortaq olardılar. Həm də gözü götürməzlik vardı. Qəribə ziddiyyətli müna-

sibətləri olurdu. Elə pis olurdum ki, bu gözəl təbiətin qoynunda adamların yadlığını görəndə. Ancaq qonşularımız mənim xətrimi çox istəyirdilər.

Anamla şən zarafatlar eləyərdim. Anam bunu qonşu qız-gəlinə danışardı. Heç kimin inanmağı gəlmirdi. Axı o, özünü çox ciddi aparır, az qala heç gülməyini də görməmişik deyərdilər. Düz deyirdilər. Çox ciddi davranmışam həmişə.

**Tələbəliyim**

Məktəbi bitirən ili İnşaat Mühəndisləri İnstitutuna girdim. Bir il oxuyandan sonra əsgər getdim. Əsgərliyə qədər axşam şöbəsində oxuyurdum. Bakının Əhmədli qəsəbəsində 91 saylı "mənzil istismar sahəsi"ndə işləyirdim. Bura məni tanışlıqla işə düzəltmişdilər. Adamları çox qəribə idi. Bəzən elə doğma olurdu ki. Nə yazıqlar, doğmalıq bir yerə qədər idi. Birdən münasibətlərdə elə yadlıq görürdüm, lap sarsılırdım. "Mütləq", "nisbi" ifadələrini işlətmirdim o vaxt. Ancaq halıma, duyğularıma nisbilik çatırdı. Münasibətlərdəki yadlıq nisbi doğmalıq idi. Belə məqamlarda çox qəribsəyərdim, kənd, özəllikcə təbiət yadıma düşərdi. İçimdə elə həsrət yaranırdı ki. Mən sevgini, həsrəti təbiətə münasibətdə yaşamışam. Ancaq həsrət, sevgi insanın insana münasibətində daha sarsıntılı hallar yaradır.

Əsgərlikdən qayıdandan sonra yenidən 1-ci kursda oxudum, gündüz şöbəsində. Pasport qeydiyyatımın vaxtı keçmişdi. Fərq imtahanı verməyə də icazə vermədilər. Təkrarçılıqdan zəhləm gedirdi. Adamların ömrü təkrarçılıqdan, eyniləşməkdən oluşubdur. Mən təbiətə münasibətimdə heç bir mənada təkrar yaşamamışam.

Təkrar olan fənlərin dərslərinə getmirdim, ya da az gedirdim. İmtahan vaxtı yenə tarix fənni ilə qarşılaşmalı oldum. Müəllim hədələmişdi ki, mənim dərsimə gəlməyənə qiymət yazmayacam. İmtahan vaxtı dediyinin üstündə durdu. Baxmayaraq, bilet suallarına məndən yaxşı cavab verən olmadı. Müəllimin köməkçisi mənə əla yazmaq istədi. Birdən müəllim öz dəftərinə baxdı, dəli kimi dönüb "iki yaz" dedi. Halımı da pozmadan durub çıxdım. Sovet müəllimi idi, özü də qoca, tərs. Qovğa eləməyi mənasız saydım.

Bir dəfə bizi Salyana pambıq yığmağa aparmışdılar. Bu da sovet zorakılığı idi. 10 günə qədər qaldıq. Çox pis ortamımız vardı. Çox pis buxov idi. Necə də insanın azadlığı özündən asılı olmur. Sənin ömrünə necə asan yiyəlik eləyirlər. Necə sənin bütövlüyün sınır, dağılır.

Bir dəfə axşamçağı qulağıma saz səsi gəldi. Durub zalları bir-bir axtardım. Gördüm bir cavan oğlan bağdaş oturub, öz cürə sazını sinəsinə basıb çalır. Yaxşı çalırdı. Sakit durub qulaq asdım. Sonralar bu saz bizi lap doğmalaşdırdı. Bu gənc, sonralar Asif Atadan Birüz adı alan Ülfət idi. O vaxt o saz çalanda təbiət gəlirdi ora, kəndimiz, dağlarımız. Ancaq yadlıqlar, qəribəliklər dəhşət idi. Xoşbəxtlikdən təbiət, saz ömrümə elə yeriyib ki, heç bir üzdəki münasibətlər, yüngüllüklər xislətimə yapışa bilmədi.

**Əsgərliyim**

Birinci kursu bitirəndən sonra əsgər getdim. İlk dəfə sovet eybəcərliyini, zorçuluğunu əsgərlikdə anladım. Rus dilini bilmirdim. Bu da mənim durumumu daha da gərginləşdirirdi. Əsgərlik hər bir qoçunun, lotunun, gədanın özünü aşkarlaması üçün uyğun ortamdı. Qolunun gücü çox olan burada özünün zorunu sınaya bilir. Qorxuyla zor birləşib burda. Zordan qorxu törəyir, artır, çoxalır. Qorxuya bürünür hamı. Sonra əsgərlikdən qopan kimi öz təcrübələrini sınaqdan keçirirlər.

Bir dəfə millətçi deyə qərərgaha çağırdılar, ittiham elədilər. Rota "starşina"sıydım. Azərbaycan balalarını rahat buraxmırdım. Texnikanın sirlərinə niyə yiyələnmirsiniz deyirdim. Bu idi mənə qarşı ittihamın əsası.

Bir dəfə Karaula köməkçi kimi getmişdim. Yaxşı uğurlu keçdi karaulumuz, məni məzuniyyətə buraxdılar. Kəndimizə gələndə anladım ki, hərb bəşəriyyətin zorda boğulmasıdır. Hərb artdıqca İnsan azalır.

**Atalı ömrüm**

İnstitutun 4-cü kursunda oxuyurdum. Özüm də o vaxt institutun 9 mərtəbəli yataqxanasında yaşayırdım. Bir dəfə dərsdən çıxanda, yataqxananın girişində, afişa gördüm. “Asif Ata ilə görüş” baxışımı çəkdi. Ancaq çox fərqinə varmadım. O vaxtlar populyar adamlar çoxalmışdı. Eyni zamanda Ata sözü məni çaşdırdı. Yəqin Türkiyədən gəlib dedim.

Qonşu otaqlardan birində oturmuşduq. Uşaqlar nərd oynayırdılar, mən də çarpayının üstündə oturub qəzet oxuyurdum. Qapı döyüldü. Səliqəli geyinmiş bir cavan oğlan qapının ağzında dayanıb “sizi Asif Ata ilə görüşə çağırıram” dedi. Uşaqlar – yaxşı, indi gələrik dedilər. Getdi, bir az keçməmiş yenə qayıtdı. Gülərüzlü, inadkar – “sizi aşağı zala çağırıram” deyib yenə getdi. Ayağa durdum, yaxşı deyil dedim, iki dəfə gəlib. Gedək, görək nə var aşağıda.

Üzü işıqlıydı oğlanın, sonralar Ocağa gələndə bildim ki, bu oğlanın adı Əsildi.

Zala endim, oturdum. Bir az keçdi bəstəboy, məğrur yerişli bir kişi səhnədə göründü. Başladı gözünü yumub alovlu, ehtiraslı, vəcdli danışmağa. Qədimliyimizdən danışırdı, çox inamlı danışırdı. Çoxlu suallar da verdilər ona. Heç bir sual verə bilmədim. Özümə acığım tutdu, nə korzehin adamam. Ancaq hamıdan çox sehrlənmişdim. Bəlkə də ən az anlayanlar sırasındaydım, ancaq halım özümdə deyildi. Xudbinlik eləyə bilmədim. Bu hal ləğv eləmişdi xudbinliyi. Bu harayda çağırış vardı. Peyğəmbərlik necə möcüzəymiş. Necə sehrli çağırışı varmış.

Səhər dərsə getdim. Dərsdə otura bilmədim. Durub gəldim yataqxanaya. Özümə yer tapa bilmirdim. Otaq yoldaşım dedi, olmaya Asif Ata səni də ovsunlayıb.  Kobud cavab verdim. Guya yaxşı şeymiş, heç kim məni etkiləyə bilməz. Ancaq sən saydığını say. Qəlbin özündə deyil artıq.

Birdən ağlıma gəldi, o kişi öz telefon nömrəsini vermişdi. Səhər dərsə getmədim. Asif Ataya zəng elədim, özü götürdü. Onun məni tanımadığını bildirdim, görüşmək istədiyimi dedim. Çox böyük inamla gəl dedi. Saat 14:00-da Asif Atanın qapısını döydüm. Ünvanını telefonda özü demişdi. Qapını açdı. Qucaqlaşıb öpüşdük. Ömrümdə

heç kimlə bu cür doğma görüşməmişdim. Keçib oturduq. Eşidirəm səni, dedi. Başladım öz ağrılarımdan danışmağa. Azərbaycanın fəlakəti, Borçalının yad əllərdə olması. Həyəcanlı, səmimi qulaq asırdı Ata. Sözümü qurtarandan sonra "indi qulaq as" dedi. Başladı... Ocaq kimi çatıldı Ata – tər tökməyə başladım. İldırım kimi çaxdı – yerimdə quruyub qaldım. Bulaq kimi içimə axdı – məst oldum. Birdən sıxıldı qəlbim, necə mən bunun qarşısında ötkəm danışa bildim.

Qurtardı, gözümə baxdı, sarsılmışdım. Sualın varmı dedi. Yox deyib tez evdən çıxdım. Tərimi sildim, gedib su alıb içdim. Bir az özümə gələn kimi oldum. Dolaşmışdım. Heç nə haqda düşünə bilmirdim. O biri gün durulmağa başladım. Ancaq hələ mənə çatmamışdı ki, Asif Ata Yeni İnam yaradıb, dünyanı dəyişmək iddiasına düşüb. Yenə zəng elədim, görüşdüm. O biri gün yenə zəng elədim. Axırda ilk dəfə idi ki, İnsana səcdə edirdim. Heç kimi görməmişdim, heç kim öyrətməmişdi. Özüm "Müqəddəs Ataya Ali ehtiram, hörmət" deyib əlini öpdüm. Ata soruşdu, kimi görmüsən, oğul? Anlamadım. Çünkü mən bilmirdim Atanın Ocağı var, Evladları var.

- Kimi görməliyəm, Ata?

- Evladları nəzərdə tuturam, – dedi.

- Mən heç kimi tanımıram axı.

Ata susdu, daha heç nə demədi. Ancaq o biri gün çox inadla: oğul, mən istəyirəm, Ataya Evlad olasan, çox dərin fitrətin var dedi. Dedim, mən elə hesab eləyirəm, mənəvi Atamı tapmışam. Birinci yol ərizə yazdım, anlamamışdım Atanın Yolunu. Ancaq bir neçə aydan sonra Ata qaydaları başa saldı mənə – necə Ocağa gəlmək gərəkdi.

Beləliklə Yola düşdüm – ciddi, gərəkli.

Onsuz da Ocağa gəlməmişdən artıq Atagüzarlığa başlamışdım. Elə böyük bir fərəhlə Atagüzarlığa girişdim, ömrüm zənginləşməyə başladı.

**Atalı səfərlərim**

Ocağa gəldiyim ilk çağlar Atanın görüşlərini keçirməyə başladım. Ən böyük səfərimiz Borçalıya oldu. Öncələr Ata haqqında danışdıqca cismani atam fəxr eləyərdi, deyərdi, mənim oğlum Peyğəmbər Evladıdı. Artıq elimizdə Atanın özü gələnə qədər olay kimi yayılmışdı.

Tiflisdə Atanı bacımın əri ilə (onun maşını ilə) qarşıladıq. Əsil də gəlmişdi. Qatar çox gecikmişdi, axşamüstü çatdı. Ona görə görüş səhərisi gündən başladı. Cismani atam çox ləyaqətlə qarşıladı Atanı. Əlini öpdü Atanın. Atayla eyni yaşdadı. Sonra qoç kəsdi. Ayağının altına xalçalar sərdirdi – nərdivandan ikinci qata otağa kimi. Atanın nüfuzu gözümdə xeyli artmışdı. Ancaq nə yazıqlar, ilk görüşdəcə atamın dalağı sancmağa başladı: "Deyəsən bu kişi heç kimin xoşuna gəlməyəcək. Allahı da danır, Quranın müqəddəsliyini də. Azərbaycan hakimiyyətinə qarşı çıxır. Bütövlükdə zamana, gedişə qarşı çıxır". Artıq giley-güzar başlamışdı. Axırda məni bir qatlı evin zalına çağırdı. Burada qohumlarımız da vardı. Başladı ki, "a bala, biznən qardaş olub qalası deyil, nə qədər ki qonağımdır, gözüm üstə yeri var. Ancaq Bakıya gedən kimi bundan aralan". Mən onları aldatmadım. Dedim, mən Atanın Ocağında öləcəm. Rahatsız olmağa başladılar. Hay-həşir daha da çoxaldı. Əsil bayırda imiş, olanları eşidirmiş. Ataya demişdi. Ata isə mənə inandığını bildirmişdi, heç nə olası deyil demişdi.

Beləliklə, çox gərgin Ömür Yolum başladı.

**Ucatayım**

Sevgilidi, doğmadı, uca anadı. Mənə elə bağlanıb ki, bir gün məndən ayrılsa, ölər. Həyatda beləsi olmayıb. Uşaqlığı vardı, böyüdü yavaş-yavaş. Ataya 15-ci ildən Evlad oldu. 13-cü ildən, qiyabi olaraq, Atadan ad almışdı.

12-ci ildə bacım qızı Mehriban Ocağa gəldi, Göylü adı aldı. O, Atadan Soylunun sevgilisi üçün də ad istədi. Ata Ucatay adı verdi. Ucatay mənimlə oldu, Göylü Göysüzləşdi. Atanı çox sevir Ucatay. Ancaq Ocaqda yol getmək onun üçün çətin oldu. Atanın ölümündən sonra Ocaqsevər kimi qal dedim. Ayırdım Ocaqdan, qoy balalarını saxlasın, Ocaq onun yükü deyil.

## Xoşbəxtliyim

Mütləqə İnam boyda xoşbəxtliyim var. Xoşbəxtliyimi səpəcəm Yurdumuza, Dünyamıza. Xoşbəxtliyimdən Yurd quracam, Dünya quracam.

## İçindəkilər


Ön söz.......................................................................... 5

BİRİNCİ BÖLÜM
Mütləqə İnam Gərəkliyi ..................................................... 8
Var olmağın Mütləqilik ölçüsü ............................................ 16
İnsanlığın Ölçüsü ilə qurulan yaşam .................................... 22
Görəni Görmək gərəkliyi.................................................... 29
Dünya Doğrularla var olur.................................................. 37
İnamın Uğur Günü ............................................................ 40
Asif Ata – 85 ..................................................................... 43
Asif Atanın ölümündən sonra Ocağın yaşamasına yönəlik bir neçə söz............................................................................... 45
Ölməzliyin Ocaq anlamı ..................................................... 47
Ölüm Mütləq Yoxluq deyil .................................................. 50
Həyat Din ilə alınmır.......................................................... 80
Asif Ata Ocağının yeni Xalqlaşma – Səfər örnəyi ................... 91

İKİNCİ BÖLÜM
Nəsimi-650........................................................................ 93
Babək Özgürlük simgəmizdir............................................... 98
Göz Yaşının nəğmələşən anlamı .........................................103
Adamda Ağalıq duyğusunun qaynağı .................................104
Asif Atanın ölümündən sonra ilk qarşıya çıxan durum..........107
Dairələr............................................................................109
Quruculuq Yönü ...............................................................113
Sevgi Yaşamın işığıdır .......................................................115
Varlığa Doğma..................................................................116
Xatirələrin İşığında ...........................................................119

ÜÇÜNCÜ BÖLÜM
Həyatın anlamı görünəndən artıqdır ..................................123
Türkçülük Dəyərdir – siyasi proses deyil .............................138
Bir ömürdə iki tale............................................................149

Faciə konsepsiyası .......... 156
Sevgi mömünlüyü .......... 164
Həyatdan üstün yaşamaq axtarışı .......... 167
Zəkanın demədikləri .......... 174
Klassiklərə qarşı doğmalıq gərəkdir .......... 187
Doğruluğun Halallığı .......... 189
Söz ömrün yolu olanda .......... 195
Ağşın Ağkəmərlinin "Təbrizdən Təbrizə" kitabı haqqında bir neçə söz .......... 197
Sözü qoruyanları qorumaq gərək .......... 198
İşğalın doğurduğu həyat .......... 199
Təklərin doğması .......... 204

DÖRDÜNCÜ BÖLÜM

Gerçəkliyi görməli, yenilməməli .......... 208
Biz "arxiv xalqı" kimi düşünənlərə dur deyək .......... 211
Xocalının pərdələnən illəri .......... 215
Gərəkən xatırlatma .......... 217
Borçalının haqqını tanımaq gərəkdir .......... 219
Asif Atanın Mütləqə İnam Ocağının ölçüsü açısından 44 günlük savaşa baxışım, çağırışım .......... 223
İnsanlığını itirən Sivilizasiya dağılmağa məhkumdur .......... 224
İşğala qarşı hiddətimiz böyük gücə çevrilməlidir .......... 227
Millətçilik – Dirçəlişimiz, Dirənişimiz .......... 229
Amaldaşlarıma .......... 234
Tərəqqi İnsana çatmır .......... 237
Azərbaycan çıxarların hədəfi olmamalıdır .......... 240
Yalanlarla qidalanan toplumun gələcəyi puçdur .......... 244
Siyasi oyunlar Quruluşun mayasındadır .......... 248
Erməni dəyirmanında Azərbaycanın çıxarları üyüdülür .......... 254
Özünəyadlaşmanın tarixi faciələri .......... 257
Mürəkkəbləşdirilən məntiq .......... 259
Yanlışlara aydın baxaq .......... 260
Bu, xalqın davamlı tələbi olmalıdır .......... 264
Xalq haqqını dilənməli deyil .......... 265

Gürcüstanda (Borçalıda) baş verən olaylar nədən qaynaqlanır?! ............ 266
Borçalıda yaşayan soydaşlarımıza qarşı açıq düşmənçilik davranışı ............ 267
Yanlışlıqmı, Xəyanətmi?! ............ 268
Reallıq – Antireallıq ............ 270
Dünyanın Yağıları ............ 274
Borçalıya yönəlik axtarışlar, düşüncələr ............ 277
İkinci Qarabağ Savaşından bir neçə gün sonra Amaldaşlarımla ürəkləşmələrim ............ 289
Siyasi Azərbaycançılıq qurtuluşumuz deyil, fəlakətimizdir ... 293
Xalqa inamsızlıq xalqsızlığı ............ 295
Xalqı aldatmaq dövləti gücsüzləşdirir ............ 297
Günümüzdə Tarixin halüstinasiyaları ............ 301
Rusiyanın sirk oyunları ............ 306
Türk Birliyinin Doğrulması gərəkdir ............ 309
Yatanlar, ayılın! ............ 313
Qaydalaşan xəyanət ............ 315
Milləti əzən dictator Birlik yaratmaz ............ 319
Bir daha Zelenskini suçlayanlara ............ 322

Kitaba əkləmə
I əkləmə:
Mütləqə İnam Ocağının Ruhsal Yükləri ............ 326
II əkləmə:
Ömür Yolum ............ 332

**Soylu Atalı**
**(Talıblı Zülfüqar Qara oğlu)**

## Sözün Doğrusu

**(Türk dilində)**

**Bağlantı: (051) 585-56-97**
**[www.asifataocagi.com](http://www.asifataocagi.com)**
**soyluatali@mail.ru**

***Qeydlər:***

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4